# BMTQAK

**BMT-nin Qaçqınlar üzrə Agentliyi**

# Əfqanıstandan olan sığınacaq axtaranların beynəlxalq himayə tələbatlarının qiymətləndirilməsi üçün BMT QAK-ın rəhbər prinsipləri

**Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığı (BMTQAK)**
**19 aprel 2016-cı il**
**HCR/EG/AFG/16/02**

## Qeyd

BMTQAK-ın *Rəhbər prinsipləri* qərarların qəbul edilməsinə görə cavabdehlik daşıyan şəxslərə, o cümlədən BMTQAK-ın əməkdaşlarına, hökumətlərə və fərdi qaydada fəaliyyət göstərən şəxslərə sığınacaq axtaranların beynəlxalq himayə tələbatlarının qiymətləndirilməsində yardım etmək üçün Komissarlıq tərəfindən dərc olunur. *Rəhbər prinsiplər* müvafiq mənşə ölkəsində (mənşə ərazisində) sosial, iqtisadi, təhlükəsizlik sahələrindəki, insan hüquqları və humanitar sahələrdəki şəraitin obyektiv qiymətləndirilməsi əsasında müəyyən şəxslər qrupunun qaçqın statusunu müəyyənləşdirmə meyarlarının rəsmi hüquqi şərhidir. Bu sənəddə müvafiq beynəlxalq himayə tələbatlarının hərtərəfli təhlili aparılır və qaçqın statusu almaq üçün verilmiş ərizələrin qaçqınlarla bağlı müvafiq beynəlxalq hüquq prinsiplərinə və meyarlarına, xüsusən BMTQAK-ın Nizamnaməsinə, Qaçqınların statusuna dair 1951-ci il Konvensiyasına və ona əlavə olunmuş 1967-ci il Protokoluna, habelə müvafiq beynəlxalq sənədlərə, məsələn, Kartaxena Bəyannaməsinə, Afrika Birliyi Təşkilatının (ABT) 1969-cu il Konvensiyasına və Avropa İttifaqının (Aİ) qəbul etdiyi Uyğunluq Direktivinə nə dərəcədə uyğun olduğunun müəyyənləşdirilməsinə dair tövsiyələr verilir. Vəziyyətdən asılı olaraq tövsiyələr qaçqınlar üçün əlavə və ya yardımçı himayə formalarına da aid ola bilər.

BMTQAK *Rəhbər prinsipləri* o məqsədlə qəbul edir ki, onlar onun Nizamnaməsinin 8-ci bəndində, eləcə də 1951-ci il Konvensiyasının 35-ci maddəsində və bu Konvensiyanın 1967-ci il Protokolunun II maddəsində yer alan nəzarət funksiyalarına uyğun olaraq və qaçqınlıq meyarlarına uyğunluq və qaçqın statusunun müəyyənləşdirilməsi məsələlərinə dair illər ərzində topladığı təcrübəyə əsaslanmaqla qaçqın statusunun müəyyənləşdirilməsi ilə bağlı yuxarıda qeyd edilən meyarların dəqiq şərhinə və tətbiqinə yardım göstərmiş olsun. Ümid edilir ki, sığınacaq almaq üçün verilmiş ərizələrə baxarkən dövlət orqanları *Rəhbər prinsiplərdə* yer alan tövsiyə və məlumatları nəzərə alacaqlar. *Rəhbər prinsiplər* dərin araşdırmalara, BMTQAK-ın yerlərdəki bölmələrinin qlobal şəbəkəsinin təqdim etdiyi məlumatlara, habelə yerli mütəxəssislər, tədqiqatçılar və digər mənbələr tərəfindən təqdim edilən, düzgünlüyü ciddi şəkildə yoxlanılan materiallara əsaslanır. *Rəhbər prinsiplər* BMTQAK-ın *Refworld* saytında (http://www.refworld.org) yerləşdirilib.

## Mündəricat


**İngilis mətnindəki abbreviaturaların siyahısı**
**I. Qısa icmal**
*1951-ci il Konvensiyasında nəzərdə tutulmuş qaçqın statusu*
*BMTQAK-ın mandatında yer alan daha geniş meyarlar, regional sənədlər və himayənin əlavə formaları*
*Alternativ variant kimi ölkədaxili köçürülmə və ya yerdəyişmə*
*İstisnalara dair mülahizələr*
**II. Əfqanıstandakı vəziyyətin qısa icmalı**
A. Əfqanıstanda baş verən əsas hadisələr
B. Əfqanıstanda təhlükəsizliklə bağlı vəziyyət: münaqişənin mülki şəxslərə təsiri
*1. Mülki şəxslər arasında xəsarət və itkilər*
*2. Təhlükəsizliklə əlaqədar insidentlər*
C. İnsan hüquqları ilə bağlı vəziyyət
*1. İnsan hüquqlarının pozuntuları*
*a) Dövlət nümayəndələri tərəfindən törədilən insan hüquqlarının pozuntuları*
*b) Hökumətyönlü silahlı qruplar tərəfindən törədilən insan hüquqlarının pozuntuları*
*c) Anti-hökumət elementləri tərəfindən törədilən insan hüquqlarının pozuntuları*
*2. Dövlətin mülki şəxsləri insan hüquqlarının pozuntularından müdafiə etmək imkanı*
D. Humanitar vəziyyət
E. Münaqişədən doğan didərginlik
F. Qaçqınlar və geri qayıdanlar
**III. Beynəlxalq müdafiə ilə təmin edilmə meyarlarına uyğunluq**
A. Potensial risk altında olan şəxslər
*1. Hökumətlə və beynəlxalq birliklə, o cümlədən beynəlxalq hərbi qüvvələrlə əlaqəli olan və ya onları dəstəklədiyi hesab edilən şəxslər*
*a) Dövlət məmurları və mülki qulluqçular*
*b) ƏMP və ƏYP-nin üzvləri*
*c) ƏMTQ ilə və ya hökumətyönlü qüvvələrlə əlaqəli olan və ya onları dəstəklədiyi hesab edilən mülki şəxslər*
*d) Beynəlxalq hərbi qüvvələrlə əlaqəli olan və ya onları dəstəklədiyi hesab edilən mülki şəxslər*
*e) Humanitar və inkişaf təşkilatlarının əməkdaşları*
*f) Hüquq müdafiə fəalları*
*g) Hökuməti və ya beynəlxalq birliyin təmsilçilərini dəstəklədiyi hesab edilən digər mülki şəxslər*
*h) Tayfa ağsaqqalları və dini liderlər*
*i) İctimai sahələrdə çalışan qadınlar*
*j) "Qərbləşmiş" hesab edilən şəxslər*
*k) Hökuməti və ya beynəlxalq birliyin təmsilçilərini dəstəklədiyi hesab edilən şəxslərin ailə üzvləri*
*l) Qısa nəticə*
*2. Jurnalistlər və digər media işçiləri*
*3. Döyüş yaşında olan kişilər, döyüş yaşına çatmayan və döyüşçülər sırasına məcburi cəlb edilən uşaqlar*
*a) Anti-hökumət elementləri tərəfindən döyüşçülər sırasına məcburi cəlb edilmə*
*b) Hökumətyönlü qüvvələr tərəfindən azyaşlıların döyüşçülər sırasına məcburi cəlb edilməsi*
*c) Qısa nəticə*
*4. Anti-hökumət elementlərini dəstəkləməkdə şübhəli bilinən mülki şəxslər*
*5. Dini azlıq qruplarının üzvləri və şəriət hüququnu pozmuş hesab edilən şəxslər*

*a) Dini azlıq qrupları*
*b) İslam dinini dəyişmə*
*c) Şəriət hüququna zidd olan digər hərəkətlər*
*d) Qısa nəticə*
*6. Anti-hökumət elementləri tərəfindən şərh olunan islam prinsiplərini, normalarını və dəyərlərini pozmuş hesab edilən şəxslər*
*7. Müəyyən kateqoriyadan olan və ya xüsusi vəziyyətdə olan qadınlar*
*a) Seksual zorakılıq və cinsi mənsubiyyətə əsaslanan zorakılıq*
*b) Zərərli adət-ənənələr*
*c) Qısa nəticə*
*8. Cəmiyyətin mənəviyyat normalarına zidd davrandıqları hesab edilən qadınlar və kişilər*
*9. Əlilliyi, o cümlədən əqli qüsurları olan şəxslər və ruhi xəstəliklərdən əziyyət çəkənlər*
*10. Müəyyən kateqoriyadan olan və ya xüsusi vəziyyətdə olan uşaqlar*
*a) Uşaqların borc müqabilində və ya zərərli işlərdə işlədilməsi*
*b) Uşaqlara qarşı zorakılıq, o cümlədən onlara qarşı seksual zorakılıq və cinsi mənsubiyyətə əsaslanan zorakılıq*
*c) Sistematik olaraq təhsildən kənarda qalma*
*d) ƏMTQ və anti-hökumət elementləri tərəfindən oğurlanma, cəzalandırılma və qisas halları*
*e) Qısa nəticə*
*11. İnsan alverinin və ya borclu əməyinin sağ qalan qurbanları və insan alverinə və ya borclu əməyinə məruz qalma təhlükəsi altında olan şəxslər*
*12. Seksual oriyentasiyası və (və ya) cinsi identikliyi fərqli olan şəxslər*
*13. (Azlıqda olan) etnik qrupların üzvləri*
*a) Kuçilər*
*b) Xəzərlər*
*c) Cogi, Çori Froş, Qorbat və Mosul icmaları da daxil olmaqla cat etnik qrupunun üzvləri*
*d) Etnik və ya tayfa zəminində torpaq mübahisələri*
*e) Qısa nəticə*
*14. Qan intiqamına cəlb olunan şəxslər*
*15. Biznesmenlər və digər imkanlı şəxslər (və onların ailə üzvləri)*

B. Təqib təhükəsi altında olan şəxslər üçün ölkədaxili köçürülmə və ya yerdəyişmə alternativi

*1. Məqsədəuyğunluğun təhlili*
*2. Əsaslılığın təhlili*

C. BMTQAK-ın mandatında yer alan daha geniş meyarlar və ya regional sənədlər əsasında verilən qaçqın statusu, yaxud müdafiənin əlavə formaları ilə təmin edilmək hüququ

*1. BMTQAK-ın mandatında yer alan daha geniş meyarlar və ya regional sənədlər əsasında verilən qaçqın statusu*
*a) BMTQAK-ın mandatında yer alan daha geniş meyarlar əsasında verilən qaçqın statusu*
*b) Regional sənədlər əsasında verilən qaçqın statusu*
*c) Kartaxena Bəyannaməsi əsasında verilən qaçqın statusu*
*2. BMTQAK-ın mandatında yer alan daha geniş meyarlar və ya regional sənədlər əsasında ölkədaxili köçürülmə və ya yerdəyişmə alternativi*
*3. Avropa İttifaqının Uyğunluq Direktivində nəzərdə tutulmuş yardımçı müdafiə ilə təmin edilmək hüququ*
*4. Avropa İttifaqının Uyğunluq Direktivində nəzərdə tutulmuş ciddi ziyana məruz qalma riski altında olan şəxslərin ölkə daxilində müdafiəsi ilə bağlı mülahizələr*

D. Qaçqınlar üçün nəzərdə tutulmuş beynəlxalq müdafiəni aradan qaldıran istisna hallar

*1. Kommunist rejimləri dövründə silahlı qüvvələrin və kəşfiyyat (təhlükəsizlik) aparatının keçmiş üzvləri, o cümlədən Dövlət Kəşfiyyat Xidməti (DKX) və Dövlət Təhlükəsizliyi Nazirliyinin (DTN) agentləri olmuş şəxslər, habelə keçmiş məmurlar*
*2. Kommunist rejimləri dövründə və ondan sonra silahlı qrupların və könüllü qüvvələrin üzvləri olmuş şəxslər*
*3.Anti-hökumət elementlərinin üzvləri*
*4. Əfqanıstan Təhlükəsizlik Qüvvələrinin, o cümlədən Milli Təhlükəsizlik Müdirliyinin (MTM), Əfqanıstan Milli Polisinin (ƏMP) və Əfqanıstan Yerli Polisinin (ƏYP) üzvləri*
*5. Hökumətyönlü yarımhərbi qrupların və könüllü qüvvələrin üzvləri*

## İngilis mətnindəki abbreviaturaların siyahısı

*AAN* – Əfqanıstan Analitiklər Şəbəkəsi, ƏAŞ (*Afghanistan Analysts Network*)
*ABP* – Əfqanıstan Sərhəd Polisi, ƏSP (*Afghan Border Police*)
*AGEs* – Anti-hökumət elementləri, AHE (*Anti-Government Elements*)
*AIHRC* – Əfqanıstan Müstəqil İnsan Hüquqları Komissiyası, ƏMİHK (*Afghanistan Independent Human Rights Commission*)
*ALP* – Əfqanıstan Yerli Polisi, ƏYP (*Afghan Local Police*)
*ANA* – Əfqanıstan Milli Ordusu, ƏMO (*Afghan National Army*)
*ANCOP* – Əfqanıstan Milli Asayiş Polisi, ƏAP (*Afghan National Civil Order Police*)
*ANP* – Əfqanıstan Milli Polisi, ƏMP (*Afghan National Police*)
*ANSF* – Əfqanıstan Milli Təhlükəsizlik Qüvvələri, ƏMTQ (*Afghan National Security Forces*)
*AREU* – Əfqanıstan Tədqiqat və Qiymətləndirmə Bölməsi, ƏTQB (*Afghanistan Research and Evaluation Unit*)
*ERW* – Müharibədən qalma parlayıcı sursatlar, MQPS (*Explosive Remnants of War*)
*EVAW Law* – "Qadınlara qarşı ayrı-seçkiliyin ləğv edilməsi haqqında" qanun (*Law on Elimination of Violence against Women*)
*HPC* – Yüksək Sülh Şurası, YSŞ (*High Peace Council*)
*IDP* – Məcburi köçkün (*Internally Displaced Person*)
*IED* – Əldəqayırma partlayıcı qurğu, ƏPQ (*Improvised Explosive Device*)
*IHL* – Beynəlxalq humanitar hüquq (*International Humanitarian Law*)
*ISAF* – Təhlükəsizliyə Beynəlxalq Yardım Qüvvələri, TBYQ (*International Security Assistance Force*)
*ISIS* – İraq və Şam İslam Dövləti, İŞİD (*Islamic State in Iraq and Syria*)
*KIS* – Kabuldakı qeyri-rəsmi məskunlaşma yerləri (*Kabul Informal Settlements*)
*NATO* – Şimali Atlantika Müqaviləsi Təşkilatı, NATO (*North Atlantic Treaty Organisation*)
*NDS* – Milli Təhlükəsizlik Müdirliyi, MTM (*National Directorate of Security*)
*NGO* – Qeyri-hökumət təşkilatı, QHT (*Non-Governmental Organization*)
*NUG* – Milli birlik hökuməti (*National Unity Government*)
*OAU* – Afrika Birliyi Təşkilatı, ABT (*Organization of African Unity*) (hazırkı Afrika Birliyi ilə əvəzlənib)
*OCHA* – Birləşmiş Millətlər Təşkilatının Humanitar məsələlərin koordinasiyası üzrə idarəsi (*United Nations Office for the Coordination of Humanitarian Affairs*)
*OHCHR* – Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları üzrə Ali Komissarlığı, BMTİHAK (*Office of the United Nations High Commissioner for Human Rights*)
*RSM* – Qətiyyətli Dəstək Missiyası, QDM (*Resolute Support Mission*)
*UN* – Birləşmiş Millətlər Təşkilatı, BMT (*United Nations*)
*UNAMA* – Birləşmiş Millətlər Təşkilatının Əfqanıstana Yardım Missiyası (*United Nations Assistance Mission in Afghanistan*)
*UNDP* – Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı, BMTİP (*United Nations Development Programme*)
*UNHCR* – Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığı, BMTQAK (*United Nations High Commissioner for Refugees*)
*UNICEF* – Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondu, YUNİSEF (*United Nations Children's Fund*)

# I. Qısa icmal

Bu *Rəhbər prinsiplər* BMTQAK-ın 2010-cu ilin dekabrında qəbul etdiyi "Əfqanıstandan olan sığınacaq axtaranların beynəlxalq müdafiə tələbatlarının qiymətləndirilməsi üçün rəhbər prinsiplər"i[1] əvəzləmək üçün tərtib edilib. Onlar Əfqanıstanın müəyyən bölgələrində təhlükəsizliklə bağlı vəziyyətin davamlı narahatlıq doğurduğu və insan hüquqlarının geniş şəkildə pozulduğu bir şəraitdə qəbul edilib. Bu sənəddə Əfqanıstandakı cari vəziyyət kontekstində beynəlxalq müdafiə tələbatlarını doğura biləcək konkret aspektlər barədə məlumatlar yer alıb.

BMTQAK bu *Rəhbər prinsiplərə* onlar yazıldığı zaman ən müxtəlif mənbələrdən əldə edilmiş ən son məlumatları daxil edib.[2] Bu *Rəhbər prinsiplərdə* yer alan təhlil geniş ictimaiyyət üçün açıq olan məlumatlar əsasında, eləcə də BMTQAK-ın və digər BMT idarələrinin və tərəfdaş təşkilatların Əfqanıstandakı və digər ölkələrdəki əməliyyatları zamanı topladıqları və əldə etdikləri məlumatlar əsasında aparılıb.

Sığınacaq axtaranların sığınacaq üçün bütün müraciətləri qaçqın statusunun müəyyənləşdirilməsinə dair ədalətli və effektiv prosedurlara uyğun surətdə və yenilənən informasiyalar və mənşə ölkəsi barədə müvafiq məlumatlar əsasında mahiyyəti üzrə nəzərdən keçirilir. Bu müraciətlər istər Qaçqınların statusuna dair 1951-ci il Konvensiyasında ("1951-ci il Konvensiyası"),[3] ona əlavə olunmuş 1967-ci il Protokolunda,[4] BMTQAK-ın mandatında, qaçqınlara dair regionla sənədlərdə yer alan qaçqınlıq meyarları əsasında, istərsə də daha geniş beynəlxalq müdafiə meyarları, o cümlədən əlavə müdafiə formaları əsasında təhlil olunur.

***1951-ci il Konvensiyasında nəzərdə tutulmuş qaçqın statusu***

Əfqanıstandan qaçmış şəxslər Əfqanıstandakı davamlı silahlı münaqişə ilə əlaqədar səbəblərdən, yaxud münaqişə ilə birbaşa bağlı olmayan insan hüquqlarının ciddi pozuntuları ucbatından, yaxud da bu səbəblərin hər ikisi ilə əlaqədar olaraq təqib təhlükəsi altında ola bilərlər. BMTQAK hesab edir ki, aşağıda göstərilən şəxslər üçün təhlükələrin mövcudluğu məsələsi xüsusi diqqətlə araşdırılmalıdır:

1) hökumətlə və beynəlxalq birliklə, o cümlədən beynəlxalq hərbi qüvvələrlə əlaqəli olan və ya onları dəstəklədiyi hesab edilən şəxslər;
2) jurnalistlər və digər media işçiləri;
3) döyüş yaşında olan kişilər, döyüş yaşına çatmayan və döyüşçülər sırasına məcburi cəlb edilən uşaqlar;
4) anti-hökumət elementlərini (AHE) dəstəkləməkdə şübhəli bilinən mülki şəxslər;
5) dini azlıq qruplarının üzvləri və şəriət hüququnu pozmuş hesab edilən şəxslər;
6) anti-hökumət elementləri tərəfindən şərh olunan islam prinsiplərini, normalarını və dəyərlərini pozmuş hesab edilən şəxslər;
7) müəyyən kateqoriyadan olan və ya xüsusi vəziyyətdə olan qadınlar;
8) cəmiyyətin mənəviyyat normalarına zidd davrandıqları hesab edilən qadınlar və kişilər;
9) əlilliyi, o cümlədən əqli qüsurları olan şəxslər və ruhi xəstəliklərdən əziyyət çəkənlər;
10) müəyyən kateqoriyadan olan və ya xüsusi vəziyyətdə olan uşaqlar;
11) insan alverinin və ya borclu əməyinin sağ qalan qurbanları və insan alverinə və ya borclu əməyinə məruz qalma təhlükəsi altında olan şəxslər;

[1] UNHCR, *UNHCR Eligibility Guidelines for Assessing the International Protection Needs of Asylum-Seekers from Afghanistan*, December 2010, http://www.refworld.org/docid/4d0b55c92.html.

[2] Mətndə başqa tarixin göstərildiyi hallar istisna olmaqla, bu *Rəhbər prinsiplər* 2016-cı il martın 1-dək BMTQAK-ın sərəncamında olan məlumatlara əsaslanır.

[3] Qaçqınların statusuna dair Konvensiya, 28 iyul 1951-ci il (Convention Relating to the Status of Refugees, 28 July 1951, United Nations Treaty Series, vol. 189, p. 137, http://www.refworld.org/docid/3be01b964.html).

[4] Qaçqınların statusuna dair Protokol, 31 yanvar 1967-ci il (UN General Assembly, *Protocol Relating to the Status of Refugees*, 31 January 1967, United Nations Treaty Series, Vol. 606, p. 267, http://www.refworld.org/docid/3ae6b3ae4.html.).

12) seksual oriyentasiyası və (və ya) cinsi identikliyi fərqli olan şəxslər;
13) (azlıqda olan) etnik qrupların üzvləri;
14) qan intiqamına cəlb olunan şəxslər; və
15) biznesmenlər və digər imkanlı şəxslər (və onların ailə üzvləri).

Bu siyahı bu sənəd yazıldığı zaman BMTQAK-ın sərəncamında olan məlumatlar əsasında hazırlanıb və tam olmaya da bilər. Buna görə də, sığınacaq üçün müraciət edən şəxsin sadəcə burada göstərilən şəxslər arasında olmaması o demək deyil ki, avtomatik olaraq onun ərizəsinə mahiyyəti üzrə baxılmamalıdır. Araşdırılan işin konkret hallarından asılı olaraq, təhlükə altında olan şəxslə əlaqələri ucbatından siyahıdakı şəxslərin ailə üzvlərinin və ya digər qohumlarının da beynəlxalq müdafiəyə ehtiyacı ola bilər.

Əfqanıstan qeyri-beynəlxalq silahlı münaqişənin təsirinə məruz qalmaqda davam edir.[5] Bu münaqişə kontekstində zərərdən və ya ziyana məruz qalma təhlükəsindən qurtulmaq üçün qaçan şəxslər 1951-ci il Konvensiyasının 1-ci maddəsinin "A" bəndinin 2-ci yarımbəndində yer alan qaçqın statusu meyarlarına uyğun gələ bilərlər. Bunun üçün şəxsin 1-ci maddənin "A" bəndinin 2-ci yarımbəndində göstərilən səbəblərlə bağlı əsaslara görə təqibə bərabər tutulan təhlükəyə məruz qalacağına dair əsaslı ehtimal mövcud olmalıdır.

İnsan hüquqlarının pozuntuları və münaqişə ilə bağlı zorakılığın təsirinə məruz qalmanın digər nəticələri, ayrılıqda və ya məcmu halında götürülməklə, 1951-ci il Konvensiyasının 1-ci maddəsinin "A" bəndinin 2-ci yarımbəndində nəzərdə tutulmuş təqibə bərabər sayıla bilər. Əfqanıstandakı münaqişə kontekstində həmin münaqişədən qurtulmaq üçün qaçan şəxsin əsaslı olaraq məruz qala biləcəyi insan hüquqlarının pozuntularının və ya digər ciddi ziyanın qiymətləndirilməsində əhəmiyyətli amillər sırasına bunlar daxildir: 1) mülki əhali üzərində nəzarətin anti-hökumət elementlərinin əlində olması, o cümlədən paralel ədliyyə strukturlarının tətbiq edilməsi və qanunsuz cəzaların təyin olunması, habelə mülki şəxslərin qorxudulması və təhdid edilməsi, hərəkət azadlığının məhdudlaşdırılması, qanunsuz olaraq ödənişlər alınması və vergilərin qoyulması; 2) döyüşçülər sırasına məcburi qaydada cəlb edilmə; 3) zorakılığın və təhlükəli durumun humanitar vəziyyətə təsir göstərməsi və bunun ərzaq təhlükəsizliyinin olmamasında, yoxsulluğun olmasında və dolanacaq vasitələrinin məhv edilməsində özünü büruzə verməsi; 4) mütəşəkkil cinayətkarlığın səviyyəsinin artması və hökumətin nəzarət etdiyi ərazilərdə hərbi rəislərin və korrupsiyaya uğramış hökumət məmurlarının cəzasız fəaliyyət göstərmək imkanına malik olması; 5) qeyri-sabitlik nəticəsində təhsil və ya ən zəruri tibbi xidmət almaq imkanlarının sistematik olaraq məhdudlaşdırılması; və 6) insanların, xüsusən də qadınların ictimai həyatda iştirak etmək imkanlarının sistematik olaraq məhdudlaşdırılması.[6]

Əfqanıstanda silahlı münaqişə kontekstində zərərdən və ya ziyana məruz qalma təhlükəsindən qurtulmaq üçün qaçan şəxsin 1951-ci il Konvensiyasının 1-ci maddəsinin "A" bəndinin 2-ci yarımbəndində yer alan qaçqın statusuna dair meyarlara cavab verməsi üçün zorakılıqdan irəli gələn təqibin əsasını 1951-ci il Konvensiyasında nəzərdə tutulmuş səbəb təşkil etməlidir. Əfqanıstan kontekstində mülki şəxslərin 1951-ci il Konvensiyasında nəzərdə tutulmuş səbəbdən zorakılığa məruz qalması hallarına aid nümunələr sırasına elə hallar aiddir ki, bu zaman müəyyən etnik, siyasi və ya dini qrupa mənsub olan mülki şəxslərin çoxluq təşkil etdiyi, yaxud bu qruplara mənsub olan mülki şəxslərin daha çox toplaşdığı ərazilər (o cümlədən bazarlar, məscidlər, məktəblər, yaxud iri ictimai toplantı yerləri, məsələn, toy mərasimi keçirilən yerlər) zorakılığın hədəfi olur. Şəxsin qaçqın statusu meyarlarına cavab verməsi üçün belə bir tələb qoyulmur ki, təqibi həyata keçirənlər onu şəxsən tanımalı və ya şəxsən axtarmalıdırlar. Eynilə, bütöv icmalar 1951-ci il Konvensiyasında nəzərdə tutulmuş bir və ya daha artıq səbəbdən təqibə

---

[5] UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, p. 71. Misal üçün bax: Robin Geiß and Michael Siegrist, “Has the Armed Conflict in Afghanistan Affected the Rules on the Conduct of Hostilities?”, *International Review of the Red Cross*, Vol. 93, No. 881, March 2011, http://www.refworld.org/docid/511e1ecc2.html.

[6] UNHCR, *Summary Conclusions on International Protection of Persons Fleeing Armed Conflict and Other Situations of Violence; Roundtable 13 and 14 September 2012, Cape Town, South Africa*, 20 December 2012, http://www.refworld.org/docid/50d32e5e2.html, paras. 10-12. Həmçinin bu *Rəhbər prinsiplərin* II.B bölməsinə bax.

məruz qalma ilə bağlı əsaslı olaraq ehtiyatlana bilərlər. Həmçinin belə bir tələb də qoyulmur ki, zərər çəkən şəxsin məruz qaldığı ziyan onunla eyni qrupa mənsub olan digər şəxslərin məruz qaldığı ziyandan forma və ya dərəcəsinə görə fərqlənməlidir.[7]

### *BMTQAK-ın mandatında yer alan daha geniş meyarlar, regional sənədlər və müdafiənin əlavə formaları*

1951-ci il Konvensiyası qaçqınların beynəlxalq müdafiə rejiminin təməl daşını təşkil edir. 1951-ci il Konvensiyasında yer alan qaçqın statusunun müəyyənləşdirilməsi meyarları elə şərh olunmalıdır ki, bu meyarlara cavab verən şəxslər və ya şəxs qrupları lazımi qaydada qaçqın kimi tanınsın və bu sənədə uyğun olaraq müdafiə edilsin. Yalnız sığınacaq axtaran şəxs 1951-ci il Konvensiyasında yer alan qaçqın statusunun müəyyənləşdirilməsi meyarlarına cavab vermədiyi təqdirdə BMTQAK-ın mandatında yer alan daha geniş müdafiə meyarları, o cümlədən əlavə müdafiə formaları nəzərdən keçirilməlidir.[8]

1951-ci il Konvensiyasında göstərilən səbəblərlə əlaqədar olmayan zorakılıq situasiyalarından qurtulmaq üçün qaçan şəxslər adətən 1951-ci il Konvensiyasının tətbiq dairəsinə düşmür. Bununla belə, bu cür şəxslər BMTQAK-ın mandatında yer alan daha geniş meyarların, yaxud regional sənədlərdə əks olunmuş meyarların şərtlərinə uyğun gələ bilərlər.

BMTQAK-ın mandatı 1951-ci il Konvensiyasında və ona əlavə olunmuş 1967-ci il Protokolunda nəzərdə tutulan qaçqınlıq meyarlarına cavab verən şəxsləri əhatə edir, lakin bu mandat BMT Baş Assambleyasının və BMT-nin İqtisadi və Sosial Şurasının (*ECOSOC*) ardıcıl olaraq qəbul etdikləri qətnamələr vasitəsilə genişləndirilib və heç nəyə fərq qoyulmadan törədilən zorakılıqdan və ya ictimai iğtişaşlardan doğan məcburi köçkünlüklə bağlı digər vəziyyətlərə də şamil olunur.[9] Bu təkamülün işığında BMTQAK-ın qaçqınları beynəlxalq müdafiə ilə təmin etmək səlahiyyəti öz mənşə ölkələrindən və ya adətən yaşadıqları ölkədən kənarda olan və geniş zorakılıqlar və ya ictimai asayişi ciddi şəkildə pozan hadisələr nəticəsində həyatına, fiziki toxunulmazlığına və ya azadlığına qarşı yaranan ciddi təhlükələr ucbatından oraya qayıda bilməyən və ya qayıtmaq istəməyən şəxslərə də şamil olunur.[10]

Əfqanıstan kontekstində geniş zorakılıqlar nəticəsində şəxsin həyatına, fiziki toxunulmazlığına və ya azadlığına qarşı yaranan ciddi təhlükənin qiymətləndirilməsi üçün göstəricilər (indikatorlar) sırasına bunlar daxildir: 1) heç nəyə fərq qoyulmadan törədilən zorakılıq aktları, o cümlədən bombalama, hava zərbələri, intiharçı bomba hücumları, əldəqayırma partlayıcı qurğuların (ƏPQ) və yerə basdırılmış minaların partlayışları (II.B.1-ci bölməyə bax) nəticəsində zərər çəkən mülki şəxslərin sayı; 2) münaqişə ilə əlaqədar olan təhlükəsizliklə bağlı insidentlərin sayı (II.B.2-ci bölməyə bax); və 3) münaqişə ucbatından başqa yerə köçməyə məcbur olmuş şəxslərin sayı (II.E bölməsinə bax). Lakin belə mülahizələr zorakılıqların birbaşa təsirləri ilə məhdudlaşmır. Onlar münaqişə ilə bağlı zorakılıqların uzunmüddətli və dolayı təsirlərini də əhatə edir, bunlar elə təsirlərdir ki, ayrılıqda və ya məcmu halında şəxsin həyatına, fiziki toxunulmazlığına və ya azadlığına qarşı təhlükə yaradır.

Əfqanıstandakı müstəsna vəziyyət kontekstində ictimai asayişi ciddi şəkildə pozan hadisələr nəticəsində şəxsin həyatına, fiziki toxunulmazlığına və ya azadlığına qarşı yaranan ciddi

---

[7] Canada: Federal Court, *Ralph Prophète v. The Minister of Citizenship and Immigration*, 2008 FC 331, 12 March 2008, http://www.refworld.org/docid/54c109a24.html.

[8] Bax: UNHCR Executive Committee, *Conclusion on the Provision on International Protection Including through Complementary Forms of Protection*, No. 103 (LVI) – 2005, 7 October 2005, http://www.refworld.org/docid/43576e292.html.

[9] UNHCR, *Providing International Protection Including Through Complementary Forms of Protection*, 2 June 2005, EC/55/SC/CRP.16, sənədi bu saytda tapmaq olar: http://www.refworld.org/docid/47fdfb49d.html; UN General Assembly, *Note on International Protection,* 7 September 1994, A/AC.96/830, http://www.refworld.org/docid/3f0a935f2.html.

[10] Misal üçün bax: UNHCR, *MM (Iran) v. Secretary of State for the Home Department - Written Submission on Behalf of the United Nations High Commissioner for Refugees*, 3 August 2010, C5/2009/2479, http://www.refworld.org/docid/4c6aa7db2.html, para. 10.

təhlükənin qiymətləndirilməsi üçün əhəmiyyət kəsb edən mülahizələr sırasına bu fakt da daxildir ki, hökumət ölkənin müəyyən hissələrində anti-hökumət elementləri üzərində faktiki nəzarəti itirib və mülki şəxsləri müdafiə ilə təmin etmək iqtidarında deyil. Mövcud məlumatlar göstərir ki, bu ərazilərdə insanların həyatının mühüm aspektləri üzərində nəzarətin həyata keçirilməsi repressiv və məcburedici xarakter daşıyır və qanunun aliliyinə və insan ləyaqətinə hörmətə əsaslanan ictimai qaydaya xələl gətirir. Belə vəziyyətlər insan hüquqlarının pozuntularının geniş yayıldığı mühitdə mülki əhaliyə qarşı yönələn təhdidlərdən və zorakılıqlardan sistematik istifadə edilməsi ilə xarakterizə olunur.

Bunları nəzərə alaraq BMTQAK hesab edir ki, hökumətyönlü qüvvələrlə anti-hökumət elementləri arasında davam etməkdə olan münaqişənin təsirinə məruz qalan ərazilərdən və ya anti-hökumət elementlərinin faktiki nəzarəti altındakı ərazilərdən (həmin ərazilər yuxarıda xarakterizə olunub) olan şəxslərin, hər bir fərdi halın konkret xüsusiyyətlərindən asılı olaraq, beynəlxalq müdafiəyə ehtiyacı ola bilər. 1951-ci il Konvensiyasında yer alan qaçqınlıq meyarlarına cavab vermədiyi müəyyən edilən şəxslər geniş zorakılıqlar və ya ictimai asayişi ciddi şəkildə pozan hadisələr nəticəsində həyatlarına, fiziki toxunulmazlıqlarına və ya azadlıqlarına qarşı ciddi təhlükələr yaranması səbəbindən BMTQAK-ın daha geniş mandatı çərçivəsində beynəlxalq müdafiəyə ehtiyacı olan şəxslər sayıla bilərlər.

Afrikada qaçqın problemlərinin konkret aspektlərini tənzimləyən Konvensiyanın ("ABT-nin 1969-cu il Konvensiyası") iştirakçısı olan ölkələrdə beynəlxalq müdafiə üçün müraciət edən, 1951-ci il Konvensiyasında müəyyən edilmiş meyarlara cavab verməyən əfqanlar və Əfqanıstan mənşəli digər şəxslər ABT-nin 1969-cu il Konvensiyasının I maddəsinin 2-ci bəndi əsasında qaçqın statusu meyarlarına cavab verən şəxslər sayıla bilərlər.[11] Konkret olaraq, BMTQAK hesab edir ki, hökumətyönlü qüvvələrlə anti-hökumət elementləri arasında ərazilərə nəzarət uğrunda mübarizənin tərkib hissəsi qismində davam etməkdə olan münaqişənin təsirinə məruz qalan ərazilərdən, eləcə də anti-hökumət elementlərinin faktiki nəzarəti altında olan ərazilərdən olan şəxslər ABT-nin 1969-cu il Konvensiyasının I maddəsinin 2-ci bəndinin şərtlərinə əsasən ictimai asayişə ciddi xələl gətirən hadisələrlə əlaqədar olaraq həyatlarına, fiziki toxunulmazlıqlarına və ya azadlıqlarına ciddi təhlükələr yaranması səbəbindən adətən yaşadıqları yeri tərk etməyə məcbur olduqlarına görə beynəlxalq müdafiəyə ehtiyac duya bilərlər.[12]

Qaçqınlar haqqında Kartaxena Bəyannaməsinin ("Kartaxena Bəyannaməsi")[13] müddəalarını öz milli qanunvericiliyinə daxil etmiş hər hansı ölkədə sığınacaq axtaran əfqanlar Kartaxena

---

[11] Afrika Birliyi Təşkilatı: Afrikada qaçqın problemlərinin konkret aspektlərini tənzimləyən Konvensiya ("ABT Konvensiyası"), 10 sentyabr 1969-cu il (Organization of African Unity, Convention Governing the Specific Aspects of Refugee Problems in Africa ("OAU Convention"), 10 September 1969, 1001 U.N.T.S. 45, http://www.refworld.org/docid/3ae6b36018.html). ABT-nin 1969-cu il Konvensiyasının I maddəsində yer alan "qaçqın" termininin anlayışı Qaçqınların statusuna və onlarla rəftara dair Banqkok Prinsiplərinin ("Banqkok Prinsipləri") I maddəsinə daxil edilib. Bax: Asian-African Legal Consultative Organization (AALCO), *Bangkok Principles on the Status and Treatment of Refugees* (Final Text of the AALCO's 1966 Bangkok Principles on Status and Treatment of Refugees, as adopted on 24 June 2001 at the AALCO's 40th Session, New Delhi), http://www.refworld.org/docid/3de5f2d52.html.

[12] ABT-nin 1969-cu il Konvensiyasında yer alan "ictimai asayişə ciddi xələl gətirən hadisələr" ifadəsinin mənası ilə bağlı bu mənbəyə bax: Marina Sharpe, *The 1969 OAU Refugee Convention and the Protection of People fleeing Armed Conflict and Other Situations of Violence in the Context of Individual Refugee Status Determination*, January 2013, http://www.refworld.org/docid/50fd3edb2.html; Alice Edwards, "Refugee Status Determination in Africa", 14 *African Journal of International and Comparative Law* 204-233 (2006); UNHCR, *Extending the Limits or Narrowing the Scope? Deconstructing the OAU Refugee Definition Thirty Years On*, April 2005, ISSN 1020-7473, http://www.refworld.org/docid/4ff168782.html.

[13] Qaçqınlar haqqında Kartaxena Bəyannaməsi (*Cartagena Declaration on Refugees, Colloquium on the International Protection of Refugees in Central America*, Mexico and Panama, 22 November 1984, http://www.refworld.org/docid/3ae6b36ec.html). Kartaxena Bəyannaməsi məcburi hüquqi qüvvəyə malik sənədlər sırasına daxil edilməsə də, Kartaxena Bəyannaməsində yer alan "qaçqın" anlayışı regionda xüsusi önəm kəsb edir, xüsusən ona görə ki, onun müddəaları 14 dövlətin milli qanunvericiliyinə və praktikasına daxil edilib. Kartaxena Bəyannaməsində yer alan "qaçqın" anlayışının şərhinə dair tövsiyələr üçün bax: UNHCR, *Summary Conclusions on the Interpretation of the Extended Refugee Definition in the 1984 Cartagena Declaration: Roundtable 15 and 16 October 2013, Montevideo, Uruguay,* 7 July 2014, http://www.refworld.org/docid/53c52e7d4.html.

Bəyannaməsinin müddəalarına uyğun olaraq qaçqın statusunun meyarlarına cavab verən şəxslər hesab edilə bilərlər. Konkret olaraq, BMTQAK hesab edir ki, hökumətyönlü qüvvələrlə anti-hökumət elementləri arasında davam etməkdə olan münaqişənin təsirinə məruz qalan Əfqanıstan ərazilərindən və ya anti-hökumət elementlərinin faktiki nəzarəti altındakı ərazilərdən olan, Qaçqınların statusuna dair 1951-ci il Konvensiyasında yer alan meyarlara cavab verməyən şəxslər ictimai asayişə ciddi xələl gətirən hallarla əlaqədar olaraq həyatlarına, fiziki toxunulmazlıqlarına və ya azadlıqlarına qarşı ciddi təhlükələr yaranması səbəbindən Kartaxena Bəyannaməsinin şərtlərinə əsasən beynəlxalq müdafiəyə ehtiyac duya bilərlər.

Avropa İttifaqının (Aİ) üzvü olan ölkələrdə beynəlxalq müdafiə axtaran və 1951-ci il Konvensiyasına əsasən qaçqın hesab edilməyən əfqanlar, əgər onların Əfqanıstanda ciddi zərərə məruz qalma təhlükəsi ilə qarşılaşacaqlarını güman etmək üçün əsaslı səbəblər olarsa, Aİ-nin 2011/95/EU saylı Direktivinin (Uyğunluq Direktivi) 15-ci maddəsinə əsasən yardımçı müdafiəyə ehtiyacı olan şəxslər hesab oluna bilərlər.[14] Bu Rəhbər prinsiplərin II.C bölməsində qeyd edilən dəlillər nəzərə alınaraq, ərizəçilər istər dövlət və ya onun nümayəndələri, istərsə də anti-hökumət elementləri tərəfindən müvafiq formada (ölüm cəzasının təyin olunması[15] və ya icra edilməsi formasında, yaxud işgəncə, habelə qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza formasında) ciddi zərərə məruz qalma təhlükəsi ilə qarşılaşa biləcəkləri səbəbindən konkret işin fərdi hallarından asılı olaraq 15-ci maddənin "a" və ya "b" bəndləri əsasında yardımçı müdafiəyə ehtiyac duya bilərlər.[16] Eynilə, Əfqanıstanın qeyri-beynəlxalq xarakterli silahlı münaqişənin təsirinə məruz qalmaqda davam etdiyini və bu Rəhbər prinsiplərin II.B, II.C, II.D və II.E bölmələrində qeyd edilən dəlilləri nəzərə alsaq, münaqişənin təsirinə məruz qalan ərazilərdən olan və ya əvvəllər orada yaşamış ərizəçilər heç nəyə fərq qoyulmadan törədilən zorakılıqlarla əlaqədar olaraq həyatlarına və ya şəxsiyyətlərinə qarşı ciddi və fərdi təhlükə ilə qarşılaşa biləcəkləri səbəbindən konkret işin fərdi hallarından asılı olaraq 15-ci maddənin "c" bəndi əsasında yardımçı müdafiəyə ehtiyac duya bilərlər.

Əfqanıstandakı münaqişənin xarakterinin dəyişkənliyini nəzərə alsaq, Əfqanıstandan olan şəxslərin BMTQAK-ın mandatı əsasında və ya regional sənədlərdə əks olunmuş anlayışlar əsasında beynəlxalq müdafiə üçün verdiyi ərizələr ərizəçinin təqdim etdiyi dəlillərin və Əfqanıstandakı vəziyyət barədə digər cari və mötəbər məlumatların işığında diqqətlə

[14] Uyğunluq Direktivinin məqsədləri üçün "ciddi zərər" termininə aşağıdakı kimi anlayış verilir: a) ölüm cəzasının təyin olunması və ya icra edilməsi; yaxud b) mənşə ölkəsində ərizəçinin məruz qala biləcəyi işgəncə, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza; yaxud c) beynəlxalq və ya daxili silahlı münaqişə vəziyyətlərində heç nəyə fərq qoyulmadan törədilən zorakılıq səbəbindən mülki şəxsin həyatına və ya şəxsiyyətinə qarşı ciddi və fərdi təhlükə. European Union, *Directive 2011/95/EU of the European Parliament and of the Council on standards for the qualification of third-country nationals or stateless persons as beneficiaries of international protection, for a uniform status for refugees or for persons eligible for subsidiary protection, and for the content of the protection granted (recast)*, 13 December 2011, http://www.refworld.org/docid/4f06fa5e2.html, arts 2(f), 15.

[15] Əfqanıstan Cinayət Məcəlləsinin 24-cü maddəsinə əsasən, ağır cinayətlərə görə ölüm cəzası təyin edilə bilər. *Penal Code* [Afghanistan], No. 1980, 22 September 1976, http://www.refworld.org/docid/4c58395a2.html. Cinayət Məcəlləsinin 1-ci maddəsinə əsasən, "hüdud" cinayətlərində (yəni dinin qadağan etdiyi əməllərdə) təqsirli bilinən şəxslər şəriət hüququnun hənəfi məhkəmə praktikasının prinsiplərinə uyğun olaraq cəzalandırılır; "hüdud" cinayətlərinə görə cəzalar sırasına edam olunma və ölənə qədər daşqalaq edilmə daxildir. Hossein Gholami, *Basics of Afghan Law and Criminal Justice*, undated, http://www.auswaertiges-amt.de/cae/servlet/contentblob/343976/publicationFile/3727/Polizei-Legal-Manual.pdf. 2014-cü ilin oktyabrında məhkəmə araşdırmasında altı kişi Kabulda qrup halında zorlamada təqsirkar sayıldıqdan sonra asıldı ki, bu da beynəlxalq müşahidəçilər tərəfindən ciddi tənqid olundu. Reuters, *Afghanistan Hangs Five Men over Gang Rape, Despite Concerns of Rights Groups (Update I)*, 8 October 2014, http://in.reuters.com/article/afghanistanexecution-idINL3N0S33BR20141008. Həmçinin bax: Cornell Law School, *Death Penalty Database*, http://www.deathpenaltyworldwide.org/country-search-post.cfm?country=Afghanistan.

[16] Qeyd etmək lazımdır ki, ərizəçilər 1951-ci il Konvensiyasında göstərilən səbəblərə görə bu cür rəftara məruz qalacaqları ilə bağlı real təhlükə ilə üzləşdikdə bu Konvensiyaya əsasən onlara qaçqın statusu verilməlidir (əgər onlar Qaçqınların statusuna dair Konvensiyanın 1-ci maddəsinin "F" bəndinə əsasən beynəlxalq himayənin şamil olunduğu şəxslər sırasından xaric edilməyiblərsə). Yalnız ciddi zərərin baş vermə təhlükəsi ilə Konvensiyada göstərilən səbəblərdən biri arasında əlaqə olmadığı təqdirdə ərizəçi yardımçı müdafiə ilə təmin edilməlidir.

araşdırılmalı və nəzərə alınmalıdır ki, müdafiə tələbatlarının qiymətləndirilməsi xarakterinə görə gələcəyə yönəlmiş qiymətləndirmədir.

***Alternativ variant kimi ölkədaxili köçürülmə və ya yerdəyişmə***

Alternativ variant kimi ölkədaxili köçürülmənin və ya yerdəyişmənin qiymətləndirilməsi təklif olunan bu cür köçürülmə və ya yerdəyişmənin məqsədəuyğunluğunun və əsaslılığının qiymətləndirilməsini tələb edir.[17] Ölkədaxili köçürülmə və ya yerdəyişmə yalnız o halda məqsədəuyğun ola bilər ki, köçürülmə üçün təklif olunan ərazilərə köçmə praktiki, təhlükəsizlik və hüquqi cəhətdən mümkün olsun və müvafiq şəxs köçürüldüyü ərazidə sonradan təqib və ciddi ziyan təhlükəsinə məruz qalmasın. Ölkədaxili köçürülmə və ya yerdəyişmənin əfqanıstanlı ərizəçilər üçün məqsədəuyğunluğunu qiymətləndirərkən aşağıdakı mülahizələr nəzərə alınmalıdır:

1) Əfqanıstanda silahlı münaqişənin dəyişkənliyi və bir yerdən başqa yerə yayılması və bu amilin uzun müddət təhlükəsiz ola biləcək potensial məskunlaşma ərazilərinin müəyyənləşdirilməsini çətinləşdirməsi; və
2) köçürülmə üçün təklif olunan ərazilərə təhlükəsiz şəkildə köçmənin konkret perspektivləri. Bu zaman əldəqayırma partlayıcı qurğuların və yerə basdırılmış minaların bütün ölkə boyu geniş şəkildə istifadə edilməsi ilə bağlı təhlükələri, yollarda baş verən hücumları və döyüşləri və anti-hökumət elementləri tərəfindən mülki şəxslərin hərəkət azadlığına tətbiq edilən məhdudiyyətləri nəzərə almaq lazımdır.

Müdafiəyə ehtiyacı olan şəxs dövlət və ya onun nümayəndələri tərəfindən təqib ediləcəyindən əsaslı olaraq ehtiyatlanırsa, belə güman edilir ki, dövlətin nəzarətində olan ərazilərə köçürülmənin nəzərdən keçirilməsi məqsədəuyğun deyil. Anti-hökumət elementlərinin faktiki nəzarəti altında olan ərazilərdə onlar tərəfindən insan hüquqlarının ciddi və geniş yayılmış pozuntuları barədə mövcud məlumatları, habelə dövlətin bu ərazilərdə bu cür pozuntulara qarşı müdafiəni təmin etmək iqtidarında olmadığını nəzərə alaraq, BMTQAK hesab edir ki, ölkədə anti-hökumət elementlərinin faktiki nəzarəti altında olan ərazilərə köçürülmə və ya yerdəyişmə mümkün deyil. Bu zaman müdafiəyə ehtiyacı olan yalnız o şəxslər istisna təşkil edə bilər ki, təklif olunan məskunlaşma ərazisində anti-hökumət elementlərinin rəhbərliyi ilə öncədən əlaqələr qurmuş olsunlar.

BMTQAK hesab edir ki, təqiblərin kim tərəfindən həyata keçirilməsindən asılı olmayaraq, münaqişənin davam etdiyi ərazilərə köçürülmə və ya yerdəyişmə mümkün deyil.

Müdafiəyə ehtiyacı olan şəxs dövlət nümayəndəsi olmayan şəxs tərəfindən təqibə məruz qalacağından əsaslı olaraq ehtiyatlanırsa, həmin şəxsin müdafiəyə ehtiyacı olan şəxsi təklif olunan məskunlaşma ərazisinədək təqib etmək iqtidarında olub-olmadığı, habelə dövlətin həmin ərazidə müdafiəni təmin etmək iqtidarında olub-olmadığı qiymətləndirilməlidir. Əgər təqibi həyata keçirən anti-hökumət elementlərinin nümayəndəsidirsə, anti-hökumət elementlərinin onların faktiki nəzarəti xaricində olan ərazilərə hücumları həyata keçirmək iqtidarında olub-olmadığına dair dəlillər nəzərə alınmalıdır.

Ənənəvi zərərli praktika və ittihamedici dini normalar nəticəsində zərər çəkəcəklərindən ehtiyatlanan şəxslər, məsələn, müəyyən hallarda qadınlar və uşaqlar və fərqli cinsi oriyentasiyası və identikliyi olan şəxslər barəsində cəmiyyətin geniş təbəqələri və ümummilli və yerli idarəetmənin bütün səviyyələrində nüfuzlu mühafizəkar elementlər tərəfindən bu cür praktika və normaların tətbiqinin təqdir edilməsi bu şəxslərin ölkə daxilində köçürülməsinin və ya yerdəyişməsinin məqsədəuyğunluğunun əleyhinə dəlalət edən amil kimi nəzərə alınmalıdır.

Ölkədaxili köçürülmə və ya yerdəyişmənin əsaslı olub-olmaması hər bir konkret halda fərdi qaydada müəyyən edilməli və qərar qəbul edilən zaman potensial məskunlaşma ərazisində təhlükəsizlik və insan hüquqları ilə bağlı vəziyyət və humanitar mühit bütünlüklə nəzərə

---

[17] UNHCR, *Guidelines on International Protection No. 4: "Internal Flight or Relocation Alternative" Within the Context of Article 1A(2) of the 1951 Convention and/or 1967 Protocol Relating to the Status of Refugees, HCR/GIP/03/04,* 23 July 2003, http://www.refworld.org/docid/3f2791a44.html.

alınmalıdır. Konkret olaraq, hazırda Əfqanıstanda ölkə daxilində köçürülmüş əfqanların pis yaşayış şəraiti və onların insan hüquqları ilə bağlı vəziyyətinin şübhəli olması alternativ variant qismində ölkədaxili köçürülmənin və ya yerdəyişmənin qiymətləndirilməsi zamanı nəzərə alınmalı olan əhəmiyyətli mülahizələrdir. BMTQAK hesab edir ki, ölkədaxili köçürülmə və ya yerdəyişmə yalnız o halda əsaslı alternativ ola bilər ki, şəxs: 1) sığınacaqla; 2) sanitariya-gigiyena, səhiyyə və təhsil xidmətləri kimi zəruri xidmətlərlə; və 3) dolanacaq üçün vəsaitlə təmin edilmək imkanına malik olsun. Bundan əlavə, BMTQAK hesab edir ki, ölkədaxili köçürülmə və ya yerdəyişmə yalnız o halda əsaslı alternativ ola bilər ki, şəxs köçürüləcəyi yerdə (geniş mənada götürülən) ailəsinin üzvlərinin və ya daha geniş etnik icmasının ənənəvi dəstəyindən yararlanmaq imkanına malik olsun və onların ərizəçiyə praktikada həqiqi yardım göstərmək istəyində və iqtidarında olmaları öncə qiymətləndirilmiş olsun.
BMTQAK hesab edir ki, kənar dəstək barədə bu tələbdən istisna təşkil edən yeganə şəxslər əmək qabiliyyəti olan və əlverişsiz vəziyyətdəki qruplara aid olmayan subay kişilər və nikahda olan cütlüklər ola bilər. Belə şəxslər müəyyən hallarda ən zəruri yaşayış tələbatlarını ödəmək üçün zəruri infrastruktura və yaşayış şəraitinə malik olan və hökumətin faktiki nəzarəti altında olan şəhərlərdə və şəhər tipli ərazilərdə ailələrinin və icmalarının dəstəyi olmadan yaşaya bilərlər. Onilliklər boyu davam edən müharibə səbəbindən cəmiyyətin ənənəvi sosial strukturunun dağıldığını, kütləvi qaçqın və məcburi köçkün axınlarının olduğunu nəzərə almaqla yanaşı, hər bir konkret halı fərdi qaydada qiymətləndirmək zəruridir.
Valideynləri tərəfindən müşayiət olunmayan və ya onlardan ayrı düşən əfqanıstanlı uşaqlara gəlincə, BMTQAK hesab edir ki, potensial məskunlaşma ərazisində uşağın (geniş mənada götürülən) ailəsinin və ya daha geniş etnik icmasının əhəmiyyətli yardımından yararlanmaq imkanına malik olması tələbindən əlavə, həm də bu məskunlaşmanın uşağın üstün mənafelərinə uyğun olduğu müəyyən edilməlidir. Bundan başqa, valideynləri tərəfindən müşayiət olunmayan və onlardan ayrı düşən uşaqların Əfqanıstana qayıdışı "Valideynləri tərəfindən müşayiət olunmayan və onlardan ayrı düşən uşaqların Əfqanıstana qayıdışına tətbiq edilən xüsusi tədbirlərə dair 2010-cu il memorandumu"nda[18] müəyyən edilən minimum təminatlardan asılıdır.
ABT-nin 1969-cu il Konvensiyasının I maddəsinin 2-ci bəndində yer alan qaçqınlıq meyarları əsasında alternativ variant qismində ölkə daxilində köçürülmənin nəzərdən keçirilməsi bir qayda olaraq məqsədəuyğun sayılmır.

### *İstisnalara dair mülahizələr*

Əfqanıstanda silahlı münaqişələrin uzun tarixi ərzində insan hüquqlarının və beynəlxalq humanitar hüququn kobudcasına pozulduğunu nəzərə alsaq, sığınacaq axtaran əfqanların fərdi müraciətlərinə baxılarkən 1951-ci il Konvensiyasının 1-ci maddəsinin "F" bəndində nəzərdə tutulmuş istisna hallara aid mülahizələr meydana çıxa bilər. Xüsusən aşağıdakı şəxslərin müraciətlərinə baxılarkən olduqca diqqətli olmaq lazımdır:

1) kommunist rejimləri dövründə silahlı qüvvələrin və kəşfiyyat (təhlükəsizlik) aparatının keçmiş üzvləri, o cümlədən Dövlət Kəşfiyyat Xidməti (DKX) və Dövlət Təhlükəsizliyi Nazirliyinin (DTN) agentləri olmuş şəxslər, habelə keçmiş məmurlar;
2) kommunist rejimləri dövründə və ondan sonra silahlı qrupların və könüllü qüvvələrin üzvləri olmuş şəxslər;
3) anti-hökumət elementlərinin (keçmiş) üzvləri və komandirləri;
4) Əfqanıstan Milli Təhlükəsizlik Qüvvələrinin (ƏMTQ), o cümlədən Milli Təhlükəsizlik Müdirliyinin (MTM), Əfqanıstan Milli Polisinin (ƏMP) və Əfqanıstan Yerli Polisinin (ƏYP) (keçmiş) üzvləri;
5) yarımhərbi qrupların və könüllü qüvvələrin (keçmiş) üzvləri; və
6) mütəşəkkil cinayətkarlıqla məşğul olan qrupların və şəbəkələrin (keçmiş) üzvləri.

[18] UNHCR, *Special Measures Applying to the Return of Unaccompanied and Separated Children to Afghanistan*, August 2010, http://www.refworld.org/docid/4c91dbb22.html.

# II. Əfqanıstandakı vəziyyətin qısa icmalı

## A. Əfqanıstanda baş verən əsas hadisələr

Əfqanıstan qeyri-beynəlxalq silahlı münaqişənin təsirinə məruz qalmaqda davam edir və bu münaqişə bir sıra anti-hökumət elementlərinə (AHE) qarşı mübarizədə beynəlxalq hərbi qüvvələrin yardım göstərdiyi Əfqanıstan Milli Təhlükəsizlik Qüvvələri (ƏMTQ) üçün çətinliklər yaradır.[19]

BMT Baş katibinin bildirdiyinə görə, Əfqanıstan təhlükəsizlik sahəsində, siyasi və iqtisadi sahələrdə nəhəng problemlərlə üzləşməkdə davam edir.[20] Təhlükəsizlik sahəsində vəziyyət 2015-ci ildə əhəmiyyətli dərəcədə pisləşib, belə ki, Taliban və digər anti-hökumət elementləri aqressiv hücum kampaniyaları keçiriblər və əhalinin əsas hissəsinin məskunlaşdığı mərkəzlərə doğru daha da irəliləyiblər.[21] Məlumatlara görə 2015-ci ilin sonunda Taliban 2001-ci ildən başlayaraq hər hansı ildə sahib olduğundan daha çox əraziyə sahib olub və Talibanın nəzarət etdiyi və ya nəzarətə almaq uğrunda mübarizə apardığı rayonların sayı 25 faizdən 30 faizə qədərdir.[22] Qarşılarına müxtəlif məqsəd və vəzifələr qoyan AHE-lərin sürətlə artması, xüsusən İŞİD ilə əlaqəli olan qrupların yaratdığı təhlükə,[23] eləcə də qiyamçı qrupların daxilindəki zorakılıqlar təhlükəsizlik sahəsində vəziyyəti daha da mürəkkəbləşdirib.[24] Həmçinin məlumatlara görə

---

[19] United Nations Assistance Mission in Afghanistan (UNAMA), *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, p. 71.

[20] UN Secretary-General, *The Situation in Afghanistan and Its Implications for International Peace and Security: Report of the Secretary-General*, 7 March 2016, A/70/775–S/2016/218, http://www.refworld.org/docid/56f2667d4.html, paras. 52-62; UN Secretary-General, *The Situation in Afghanistan and Its Implications for International Peace and Security: Report of the Secretary-General*, 10 December 2015, A/70/601–S/2015/942, http://www.refworld.org/docid/5672ac7c4.html, para. 63.

[21] Məlumatlara görə Taliban 2015-ci ildə ölkənin şimalında, qərbində və cənubunda 24 rayon mərkəzini ələ keçirib. Onların çoxu tez bir zamanda hökumətyönlü qüvvələr tərəfindən geri alınsa da, məlumatlara əsasən bir neçə rayon mərkəzi həftələrlə Talibanın nəzarəti altında qalıb. Bu göstərici 2014-cü illə müqayisədə əhəmiyyətli artım təşkil edir, həmin il Taliban cəmi üç rayon mərkəzini ələ keçirmişdi. UN Secretary-General, *The Situation in Afghanistan and Its Implications for International Peace and Security: Report of the Secretary-General*, 7 March 2016, A/70/775–S/2016/218, http://www.refworld.org/docid/56f2667d4.html, para. 14. Həmçinin bax: UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, pp. 6-7.

[22] Special Inspector General for Afghanistan Reconstruction (SIGAR), *Quarterly Report to the United States Congress*, 30 January 2016, https://www.sigar.mil/pdf/quarterlyreports/2016-01-30qr.pdf, p. 69; Washington Post, *A Year of Taliban Gains Shows That 'We Haven't Delivered,' Top Afghan Official says*, December 27 2015, https://www.washingtonpost.com/world/asia_pacific/a-year-of-taliban-gainsshows-that-we-havent-delivered-top-afghan-official-says/2015/12/27/172213e8-9cfb-11e5-9ad2-568d814bbf3b_story.html. *"Long War Journal"* nəşrinin topladığı məlumatlara əsasən, 2015-ci ilin dekabrında Taliban 40 rayona nəzarət edir və digər 39 rayonu nəzarətə almaq uğrunda mübarizə aparırdı. Long War Journal, *Taliban Controls or Contests Nearly All of Southern Afghan Province*, 21 December 2015, http://www.longwarjournal.org/archives/2015/12/taliban-controls-or-contests-nearly-all-of-southern-afghan-province.php. BMT Baş katibi 2015-ci ilin dekabrında məlumat verdi ki, "ölkə ərazisində rayonların təxminən 25 faizi üzərində nəzarət mübahisəli olaraq qalır". UN Secretary-General, *The Situation in Afghanistan and Its Implications for International Peace and Security: Report of the Secretary-General*, 10 December 2015, A/70/601–S/2015/942, http://www.refworld.org/docid/5672ac7c4.html, para. 15.

[23] Bu silahlı qrup İŞİD ("İraq və Şam İslam Dövləti"), İLİD ("İraq və Levanta İslam Dövləti"), İD ("İslam Dövləti"), yaxud da DAİŞ ("*Əl-Dövlə əl-İslamiyyə əl-İraq əl-Şam*", yəni "İraq və Şam İslam Dövləti" ifadəsinin ərəbcə abbreviaturası) adlandırılır. UNAMA qeyd edir ki, İŞİD-lə əlaqəli olduğunu bəyan edən qruplar Əfqanıstanda DAİŞ abbreviaturası ilə adlandırılırlar. Lakin UNAMA həm də əlavə edir ki, "DAİŞ" termini ölkənin bəzi hissələrində qrup mənsubluğundan asılı olmayaraq istənilən əcnəbi döyüşçünü bildirmək üçün işlənir. UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, p. 56 (footnote 152).

[24] *BBC*-nin məlumatına görə, "Əfqanıstanda qarşılarına müxtəlif məqsəd və vəzifələr qoyan onlarla silahlı qrup döyüşür. Onların az qismi Talibanın hökmranlığına etiraz edir, çoxu isə pulla və (və ya) canlı qüvvə ilə Əfqanıstandakı təliblərə birbaşa və ya dolayı dəstək verirlər". BBC, *Why Are the Taliban Resurgent in Afghanistan?*, 5 January 2016, http://www.bbc.com/news/world-asia-35169478. Taliban daxilində getdikcə artan parçalanmalar, məlumatlara görə, təhlükəsizlik sahəsində vəziyyətin qeyri-müəyyənliyini daha da artırıb, hərçənd ki, məlumatlara əsasən parçalanmalar hökumət əleyhinə təşəbbüslərin azalmasına gətirib çıxarmayıb. UN Secretary-

hökumətyönlü slahlı qruplar[25] təsir dairələrində olan ərazilərdə hökumətin nüfuzuna xələl gətirir və getdikcə insan hüquqlarının pozuntularında daha çox iştirak edirlər.[26]

2015-ci ildə təhlükəsizlik sahəsində vəziyyətin pisləşməsi 2013 və 2014-cü illərdə ehtiyatlı optimizm dövründən sonra baş verdi, halbuki həmin dövrdə seçkilərin uğurla keçirilməsi və hakimiyyətin uğurla ötürülməsi, habelə yeni hakim koalisiya yaratmaq vədi bir çox əfqanların belə fikir söyləməsinə səbəb olmuşdu ki, ölkə düzgün istiqamətdə hərəkət edir.[27] Təhlükəsizliyə nəzarətin NATO-nun rəhbərlik etdiyi Təhlükəsizliyə Beynəlxalq Yardım Qüvvələri (TBYQ) tərəfindən ƏMTQ rəhbərliyinə təhvil verilməsinə başlanılmışdı və məlumatlara görə bu iş planlaşdırılan qaydada davam edirdi.[28]

1 yanvar 2015-ci ildə TBYQ öz döyüş missiyasını başa vurdu və ƏMTQ ölkədə təhlükəsizliyin vəziyyətinə görə bütün məsuliyyəti öz üzərinə götürdü.[29] Sayı əhəmiyyətli dərəcədə azalmış

---

General, *The Situation in Afghanistan and Its Implications for International Peace and Security: Report of the Secretary-General*, 7 March 2016, A/70/775–S/2016/218, http://www.refworld.org/docid/56f2667d4.html, paras. 14, 56. Həmçinin bax: Khaama Press, *31 Militants Killed in Taliban-Daesh Clashes in Nangarhar*, 6 January 2016, http://www.khaama.com/31-militants-killed-in-taliban-daesh-clashes-in-nangarhar-4468; BBC, *Why Taliban Special Forces Are Fighting Islamic State*, 18 December 2015, http://www.bbc.com/news/world-asia-35123748; The Guardian, *Taliban Leader Mullah Mansoor Wounded in Gunfight, Says Kabul*, 3 December 2015, http://www.theguardian.com/world/2015/dec/03/talibanleader-mullah-mansoor-wounded-gunfight-pakistan-renegade-commander. Həmçinin məlumatlara əsasən Əl-Qaidə Əfqanıstanın cənub hissəsində təlim düşərgələri yaradıb. New York Times, *As U.S. Focuses on ISIS and the Taliban, Al Qaeda Re-emerges*, December 29 2015, http://www.nytimes.com/2015/12/30/us/politics/as-us-focuses-on-isis-and-the-taliban-al-qaeda-re-emerges.html. 2016-cı ilin yanvarında ABŞ Dövlət Departamenti İŞİD-lə əlaqəli olan Əfqanıstandakı təşkilatları xarici terror təşkilatları elan edib ki, bu da ABŞ-ın onlara qarşı hərbi əməliyyatlar keçirməsinə imkan verir. New York Times, *U.S. Lists Afghan Branch of ISIS as Terrorist Group*, 14 January 2016, http://www.nytimes.com/2016/01/15/world/asia/uslists-afghan-branch-of-isis-as-terrorist-group.html.

[25] UNAMA "hökumətyönlü silahlı qrup" terminınə "münaqişədə iştirak edən və hökumət qüvvələrindən, qiyamçılardan və cinayətkar qruplardan fərqli olan silahlı mütəşəkkil qeyri-dövlət qrupu" kimi anlayış verir. "Daxili İşlər Nazirliyinin idarəçiliyi və nəzarəti atlında olan Əfqanıstan Yerli Polisi hökumətyönlü silahlı qruplara daxil deyil. Əfqanıstan qanunvericiliyində bu silahlı qrupların mövcudluğunun heç bir hüquqi əsası yoxdur. Silahlı qruplar siyasi, ideoloji və ya iqtisadi məqsədlərə nail olmaq üçün güc tətbiqi zamanı silahlardan istifadə etmək imkanına malikdirlər; dövlətlərin, dövlətlər ittifaqının və ya hökumətlərarası təşkilatların rəsmi hərbi strukturlarının tərkibinə daxil deyillər; və ərazisində fəaliyyət göstərdikləri dövlətin (dövlətlərin) nəzarəti altında deyillər". UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, p. 81.

[26] UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, pp. 64-66; UNAMA, *Afghanistan: Midyear Report 2015, Protection of Civilians in Armed Conflict*, August 2015, http://www.refworld.org/docid/55c1bdc4d.html, p. 81.

[27] Asia Foundation, *Survey Reveals 2014 Election Major Driver of Optimism in Afghanistan*, 19 November 2014, http://asiafoundation.org/inasia/2014/11/19/survey-reveals-2014-election-major-driver-of-optimism-in-afghanistan/; New York Times, *Afghans, Looking Ahead to U.S. Withdrawal, Vote With Guarded Optimism*, 14 June 2014, http://www.nytimes.com/2014/06/15/world/asia/afghanistan-election.html; Al Jazeera, *Afghan Optimism and The Road Ahead*, 30 March 2014, http://www.aljazeera.com/indepth/2014/03/afghan-new-poll-presidentialelection-201432781420553548.html. Lakin bəzi analitiklər seçkilərin və hakimiyyət dəyişikliyinin arzu olunan dəyişikliklərə gətirib çıxaracağına şübhə ilə yanaşdıqlarını ifadə etmişdilər. Məsələn, Əfqanıstan Tədqiqat və Qiymətləndirmə Bölməsi (ƏTQB) 2014-cü ilin martında yazırdı ki, "... 2014 və 2015-ci illərin prezident seçkisinə, vilayət şuralarına seçkilərə və parlament seçkilərinə ümid bəslənməsi və "Əfqanıstanda siyasi hakimiyyətin ilk dəfə real olaraq bir seçkili prezidentdən digərinə ötürülməsi yalnız məyusluğa gətirib çıxaracaq". Real və həqiqi dəyişikliklər isə, illərdən sonra deyil, onilliklərdən sonra gələcək. Əfqanıstandakı kimi mürəkkəb bir şəraitin qiymətləndirilməsi oyunçulardan tələb edir ki, uzunmüddətli ehtimalları sual altına alsınlar, vəziyyətin uzun müddət ərzində öyrənilməsinə əsaslanan yanaşma qəbul etsinlər və eksperimentlər qismində müdaxilələri nəzərdən keçirsinlər". AREU, *Governance in Afghanistan: An Introduction*, March 2014, http://www.refworld.org/docid/533165784.html, p. 51.

[28] Baş katibin Əfqanıstan üzrə xüsusi nümayəndəsinin 2013-cü ilin dekabrında BMT Təhlükəsizlik Şurasına verdiyi qısa məlumata əsasən, təhlükəsizliyə nəzarətin təhvil verilməsi "planlı şəkildə aparılıb və Əfqanıstan ordusu və polisi tədricən bu vəzifəni öz üzərinə götürüb". UN Security Council, *Despite Temporary Setbacks, Afghanistan's Political, Security Transition on Track, Special Representative Tells Security Council*, 17 December 2013, http://www.un.org/press/en/2013/sc11218.doc.htm.

[29] NATO, *ISAF Flag Returns to NATO Headquarters from Kabul, As NATO Commitment to Afghanistan Endures*, 15 January 2015, http://www.nato.int/cps/en/natohq/news_116550.htm.

beynəlxalq təhlükəsizlik qüvvələri NATO-nun Qətiyyətli Dəstək Missiyası (QTM) çərçivəsində ölkədə qaldılar ki, onların da əsas vəzifəsi ƏMTQ-yə təlimlər keçmək, məsləhətlər vermək və yardım göstərməkdir; həmçinin 2015-ci ilin dekabrında QTM-in 2016-cı ildə də ölkədə qalması razılaşdırıldı.[30] Bundan əlavə, Birləşmiş Ştatlar ölkədə ayrıca və hərtərəfli anti-terror missiyası saxladı.[31] Analitiklərin bildirdiyinə görə, bir qayda olaraq ƏMTQ vilayət paytaxtlarının və əsas şəhər mərkəzlərinin müdafiəsində təcrübəli olduğunu nümayiş etdirib, yalnız 2015-ci ilin sentyabrında Taliban tərəfindən Gündüz şəhərinin qısa müddətə ələ keçirilməsi mühüm istisna təşkil edir. Lakin 2015-ci ildə ƏMTQ-nin sıralarında xeyli itkilər oldu və bir qayda olaraq onlar daim fəal olmaq məcburiyyətində qaldılar, çünki dirçələn Taliban 2015-ci ilin döyüş mövsümündə çoxşaxəli hücumlara başlamış və ölkə boyu kənd ərazilərində nəzarətini gücləndirmişdi.[32]

BMT-nin Baş katibi 2016-cı ilin martında məlumat verdi ki, regional səviyyədə sülh prosesi Dördtərəfli Koordinasiya Qrupu (DKQ) vasitəsilə sürətlənib, amma Talibanın bu prosesə sadiq qalıb-qalmayacağı qeyri-müəyyəndir.[33] Bundan əlavə, məlumatlara görə Talibanın daxilində müxtəlif qruplaşmaların siyasi həllə nail olma məsələsində maraqları müxtəlifdir.[34] Yüksək Sülh Şurasının (YSŞ) Talibana yönələn barışdırıcı səylərinin səmərəliliyi, məlumatlara görə, məhduddur, belə ki, bu qurumun rəhbərliyində boşluqlar var və onun üzvlərinin təhlükəsizliyi davamlı olaraq təhdid edilir.[35] YSŞ-nin xeyli sayda qadın üzvü olsa da, qadınlar sülh

---

[30] NATO, *A New Chapter in NATO-Afghanistan Relations*, February 2016, http://www.nato.int/nato_static_fl2014/assets/pdf/pdf_2016_01/20160202_1601-backgrounder-afghanistan-ru.pdf. 2016-cı ilin əvvəlində ABŞ hərbi qüvvələri Əfqanıstan ordusunun AHE-lərlə ağır döyüşlər apardığı ərazilərdə öz qoşunlarının sayını artırdılar. Qoşunların öz fəaliyyətlərini məsləhətçilər qismində davam etdirdikləri bildirilsə də, məlumatlara görə Amerikanın xüsusi təyinatlı qüvvələri Hilmənd vilayətində qiyamçı Talibana qarşı döyüşlərə getdikcə daha çox cəlb olunurlar. Bax: New York Times, *U.S. to Send More Troops to Aid Afghan Forces Pressed by Taliban*, 9 February 2016, http://www.nytimes.com/2016/02/10/world/asia/us-troops-helmand-province-afghanistan.html; Reuters, *U.S. Troop Reinforcements Head for Embattled Southern Afghan Province*, 9 February 2016, http://www.reuters.com/article/us-afghanistan-militaryidUSKCN0VI0FX..

[31] US Department of Defense, *Enhancing Security and Stability in Afghanistan*, December 2015, http://www.defense.gov/Portals/1/Documents/pubs/1225_Report_Dec_2015_-_Final_20151210.pdf, p. 1. Lakin qeyd etmək lazımdır ki, bu iki missiyanın amerikanların "ikiqat" komandanlığı altında olduğu hesab edilir. Afghanistan Analysts Network (AAN), *Resolute Support Light: NATO's New Mission versus the ANSF Political Economy*, 12 January 2015, https://www.afghanistan-analysts.org/publication/aanpapers/resolute-support-light-natos-new-mission-versus-the-ansf-political-economy/.

[32] UN Secretary-General, *The Situation in Afghanistan and Its Implications for International Peace and Security: Report of the Secretary-General*, 7 March 2016, A/70/775–S/2016/218, http://www.refworld.org/docid/56f2667d4.html, para. 15; UN Secretary-General, *The Situation in Afghanistan and Its Implications for International Peace and Security: Report of the Secretary-General*, 10 December 2015, A/70/601–S/2015/942, http://www.refworld.org/docid/5672ac7c4.html, para. 64; US Department of Defense, *Enhancing Security and Stability in Afghanistan*, December 2015, http://www.defense.gov/Portals/1/Documents/pubs/1225_Report_Dec_2015_-_Final_20151210.pdf, p. 18.

[33] UN Secretary-General, *The Situation in Afghanistan and Its Implications for International Peace and Security: Report of the Secretary-General*, 7 March 2016, A/70/775–S/2016/218, http://www.refworld.org/docid/56f2667d4.html, para. 3; həmçinin bax: Al Jazeera, *Four-Country Talks Resume to Revive Afghan Peace Plan*, 6 February 2016, http://www.aljazeera.com/news/2016/02/country-talks-resume-revive-afghanpeace-plan-160206101157692.html; Reuters, *Pakistan, China, U.S. Urge Taliban to Rejoin Afghan Peace Talks*, 19 January 2016, http://www.reuters.com/article/afghanistan-taliban-talks-idUSKCN0UW0AP.

[34] The Guardian, *Dozens Killed in Clashes Between Rival Taliban Factions in Afghanistan*, 10 March 2016, http://www.theguardian.com/world/2016/mar/10/dozens-killed-clashes-rival-taliban-factions-afghanistan-herat; Deutsche Welle, *Afghan Peace Talks Aimed at Bringing Taliban to Negotiating Table*, 8 January 2016, http://www.dw.com/en/afghan-peace-talks-aimed-atbringing-taliban-to-negotiating-table/a-18967629; Tolo News, *A Divided Taliban Explained*, 3 December 2015, http://www.tolonews.com/en/afghanistan/22636-a-divided-taliban-explained; AAN, *Toward Fragmentation? Mapping the Post-Omar Taleban*, 24 November 2015, https://www.afghanistan-analysts.org/toward-fragmentation-mapping-the-post-omar-taleban/.

[35] Institute for War and Peace Reporting, *Afghanistan's High Peace Council: Five Years On*, 18 January 2016, http://www.refworld.org/docid/569ff95d11.html; Tolo News, *Gunmen Kill Samangan HPC Head*, 5 January 2016, http://www.tolonews.com/en/afghanistan/23147-gunmen-kill-samangan-hpc-head; The Express Tribune, *All Eyes on New High Peace Council Chief*, 7 November 2015, http://tribune.com.pk/story/986486/all-eyes-on-new-high-peace-council-chief/. YSŞ-nin bildirdiyinə görə, 2010-cu ildə proqramın icrasına başlanandan bəri 17 vilayətdə onun

danışıqlarından kənarda qalırlar, baxmayaraq ki, qadın hüquqlarını müdafiə edən fəallar onların bu danışıqlarda iştirakı üçün çağırışlar edirlər.[36]

Milli birlik hökuməti (MBH) kövrək idarəetmə koalisiyasıdır və etnik bölücülük, siyasi himayədarlıqla əlaqədar gərginliklər və əsas strateji məsələlərlə bağlı daxildə razılığın olmaması onun işinə mane olur.[37] Məlumatlara əsasən, təhlükəsizlik sahəsində vəziyyətin pisləşməsi ilə bağlı problemlər xalqın hökumətə dəstəyini və hökumətin xalqın təhlükəsizliyini qorumağa qadir olmasına xalqın inamını azaldır, eyni zamanda siyasi rəqiblər də hökumətin vəd edilmiş islahatları həyata keçirməməsi ilə əlaqədar narazılıqlarını səsləndirirlər.[38] 2015-ci ilin aprelində keçirilməli olan parlament seçkiləri təxirə salındıqdan sonra seçki prosesində islahatlar aparmağa yönələn səylərdə müəyyən irəliləyiş baş verib, belə ki, 2015-ci ilin iyulunda Xüsusi seçki islahatı komissiyası yaradılıb.[39] Lakin Komissiya özünün yekun tövsiyələrini 2015-ci ilin dekabrında qəbul etsə də, məlumatlara görə islahatların həyata keçirilməsi yubanır.[40] Parlamentə və rayon şuralarına seçkilərin 2016-cı ilin ikinci yarısında keçirilməsi nəzərdə tutulur.[41]

2014 və 2015-ci illərdə iqtisadi artım xeyli azaldığına görə iqtisadi vəziyyət pisləşib, məlumatlara əsasən bunun səbəbi zorakılıqların artması və gələcəyin getdikcə daha da qeyri-müəyyən olmasıdır.[42] Məlumatlara görə iqtisadiyyat əsasən qeyri-rəsmi və qanunsuz

---

vilayət sülh komitələrinin 33 üzvü qətlə yetirilib. Pajhwok Afghan News, *Huge Expenses on Afghan Peace Effort Achieve Little Gains*, 30 August 2015, http://www.pajhwok.com/en/2015/08/30/hugeexpenses-afghan-peace-effort-achieve-little-gains.

[36] Human Rights Watch (HRW), *Afghanistan: Set Out Concrete Plan to Involve Women*, 12 January 2016, http://www.refworld.org/docid/569612034.html; Afghan Women's Network, *Into Peace and Then*, 7 January 2016, http://www.awnaf. net/cms/press_detail/843/12; Women and Children Legal Research Foundation, *Women's Participation In the Peace Process*, 2015, http://www.wclrf.org.af/wp-content/uploads/2016/Women's%20Particition%20in%20Peace%20Process-%20English.pdf, pp. 21-32.

[37] The Guardian, *Afghan President Left Battling Disunity After Aide Punches Elder*, 5 February 2016, http://www.theguardian.com/world/2016/feb/05/afghan-president-ashraf-ghani-disunity-aide-punch-elder-kandahar; The Economist, *A bloody year of transition*, 9 January 2016, http://www.economist.com/news/asia/21685515-resurgent-taliban-winning-territory-all-not-lostbloody-year-transition; Foreign Policy, *NUG One Year On: Struggling to Govern*, 29 September 2015, http://foreignpolicy.com/2015/09/29/afghan-national-unity-government-one-year-on-struggling-to-govern/.

[38] UN Secretary-General, *The Situation in Afghanistan and Its Implications for International Peace and Security: Report of the Secretary-General*, 7 March 2016, A/70/775–S/2016/218, http://www.refworld.org/docid/56f2667d4.html, para. 7. Bir neçə müxalif siyasi partiya təsis edilib ki, onlar da hökumətin işini tənqid edir və yeni prezident seçkiləri keçirilməsini istəyirlər. Pajhwok Afghan News, *Stability Party Wants Fresh Polls After Electoral Reforms*, 18 January 2016, http://www.pajhwok.com/en/2016/01/18/stability-party-wants-freshpolls-after-electoral-reforms; Tolo News, *Ahadi Launches New Party, Says NUG Has Failed*, 14 January 2016, http://www.tolonews.com/en/afghanistan/23292-ahadi-launches-new-party-says-nug-has-failed; Voice of America, *Afghanistan's Old Guard Set Up Opposition Party*, 18 December 2015, http://m.voanews.com/a/afghanistan-old-gaurd-set-up-oppoosiyion-party/3108633.html; Tolo News, *Ghani's Approval Rating Continues to Slide: Survey*, 16 August 2015, http://www.tolonews.com/en/afghanistan/20930-ghanisapproval-rating-continues-to-slide-survey-. Həmçinin bax: Institute for War and Peace Reporting, *Harsh Words for Afghan Unity Government*, 3 November 2015, http://www.refworld.org/docid/564b5aa64.html.

[39] UN Secretary-General, *The Situation in Afghanistan and Its Implications for International Peace and Security: Report of the Secretary-General*, 10 December 2015, A/70/601–S/2015/942, http://www.refworld.org/docid/5672ac7c4.html, para. 67.

[40] UN Secretary-General, *The Situation in Afghanistan and Its Implications for International Peace and Security: Report of the Secretary-General*, 7 March 2016, A/70/775–S/2016/218, http://www.refworld.org/docid/56f2667d4.html, paras. 9-10.

[41] Tolo News, *IEC Announces Election Date Amid Controversy Over Reforms*, 18 January 2016, http://www.tolonews.com/en/afghanistan/23348-iec-announces-election-date-amid-controversy-over-reforms; UNAMA, *UNAMA Welcomes the National Unity Government's Commitment to Hold Elections*, 2 January 2016, http://unama.unmissions.org/unama-welcomes-nationalunity-government%E2%80%99s-commitment-hold-elections.

[42] SIGAR, *Quarterly Report to the United States Congress*, 30 January 2016, https://www.sigar.mil/pdf/quarterlyreports/2016-01-30qr.pdf, p. 3; Stockholm International Peace Research Institute (SIPRI), *Afghanistan's Private Sector: Status and Ways Forward*, October 2015, http://www.sipri.org/research/security/afghanistan/sipri-afghanistan-report-october-2015, p. 8; World Bank,

fəaliyyətlərdən, o cümlədən tiryək alverindən ibarətdir ki, bu da öz növbəsində qeyri-sabitliyə əlavə şərait yaradır.[43] Məlumatlara əsasən beynəlxalq qüvvələrin çox hissəsinin ölkədən çıxarılması bir çox əfqanların maddi vəziyyətinə zərərli təsir göstərib, çünki onların ölkədə olmasından çoxlu sayda insanlar iqtisadi cəhətdən yararlana bilirdilər.[44] Məlumatlarda bildirilir ki, dövlət sektorunda işsizlik 40 faiz təşkil edir (bu, 2011-2012-ci illərdəki 9,3 faizlik göstəriciyə nisbətən artım deməkdir).[45] 2015-ci ilin iyununda aparılmış ümummilli sorğuya əsasən, respondentlərin 55,4 faizi məlumat veriblər ki, ötən il onların işədüzəlmə imkanları pisləşib və yalnız respondentlərin 5,6 faizi bu sahədə yaxşılaşma olduğunu bildiriblər. Eynilə, respondentlərin 29,7 faizi məlumat veriblər ki, ailələrinin maliyyə vəziyyəti pisləşib, respondentlərin 21,0 faizi isə bu sahədə yaxşılaşma olduğunu bildiriblər.[46]

Hadisələrin bu cür inkişafını endemik (bu yerlərə xas olan) korrupsiya, dövlət hakimiyyətini bərqərar etməkdə və qoruyub saxlamaqda çətinliklər, qanunun aliliyinin hələ də zəif durumda olması və məhkəmə sisteminin öz funksiyalarını yetərincə icra edə bilməməsi, cinayətkarlığın səviyyəsinin yüksək olması,[47] insan hüquqlarının pozuntularının geniş yayılması və ümumi

---

*Afghanistan Development Update*, October 2015, http://www.wds.worldbank.org/external/default/WDSContentServer/WDSP/IB/2015/10/27/090224b083174638/1_0/Rendered/PDF/Afghanistan0de0pdate00October020150.pdf, p. 1.

[43] Məlumatlara görə Nənqərhar vilayətində Taliban xaşxaş və marixuana əkilməsinə dözümlü yanaşır, bunların əkini kənd icmalarında populyardır, çünki bunlar qanuni məhsulla müqayisədə yüksək maddi gəlir gətirir. AREU, *The Devil is in the Details: Nangarhar's Continued Decline into Insurgency, Violence and Widespread Drug Production*, February 2016, http://www.refworld.org/docid/56c2eaa34.html, p. 8; SIPRI, *Afghanistan's Private Sector: Status And Ways Forward*, October 2015, http://www.sipri.org/research/security/afghanistan/sipriafghanistan-report-october-2015, p. 9. "Nyu-York Tayms" nəşrinin məlumatına əsasən, həm hökumətin, həm də Talibanın üzvləri faktiki nəzarətlərində olan ərazilərdə vergiqoyma yolu ilə və ya digər vasitələrlə tiryək ticarətindən mənfəət əldə edirlər. New York Times, *Penetrating Every Stage of Afghan Opium Chain, Taliban Become a Cartel*, 16 February 2016, http://www.nytimes.com/2016/02/17/world/asia/afghanistanopium-taliban-drug-cartel.html; New York Times, *Tasked With Combating Opium, Afghan Officials Profit From It*, 15 February 2016, http://www.nytimes.com/2016/02/16/world/asia/afghanistan-opium-heroin-taliban-helmand.html. Həmçinin bax: Integrated Regional Information Networks (IRIN), *Opium Bounces Back, Enriching Taliban and Afghan Officials*, 4 March 2016, http://www.irinnews.org/feature/2016/03/04/opium-bounces-back-enriching-taliban-and-afghan-officials.

[44] IRIN, *Afghanistan's Surprisingly Predictable Economic Crash*, 14 March 2016, http://www.irinnews.org/analysis/2016/03/13/afghanistan%E2%80%99s-surprisingly-predictable-economic-crash; SIGAR, *Quarterly Report to the United States Congress*, 30 January 2016, https://www.sigar.mil/pdf/quarterlyreports/2016-01-30qr.pdf, p. 4; Al Jazeera, *When Taliban Offer You Gold: Afghan Youth in Crisis?*, 16 January 2016, http://www.aljazeera.com/programmes/talktojazeera/inthefield/2016/01/taliban-offer-gold-afghan-youth-crisis-160115133950196.html; Reuters, *Idle Cranes, Untapped Mines As Afghans Struggle to Wean Themselves Off Aid*, 2 December 2015, http://www.reuters.com/article/us-afghanistan-economy-idUSKBN0TL2SB20151202; Washington Post, *As the U.S. Pulls Back, More Afghans Descend Into Joblessness*, 17 August 2015, https://www.washingtonpost.com/world/asia_pacific/jobless-afghans-flow-in-and-outof-the-country-in-search-of-a-stable-life/2015/08/17/fbea873c-3c3c-11e5-a312-1a6452ac77d2_story.html.

[45] Tolo News, *Unemployment Rate Spikes in Afghanistan*, 2 October 2015, http://www.tolonews.com/en/afghanistan/21676-unemploymentrate-spikes-in-afghanistan. Gənclər üçün məşğulluq imkanları yaratmağa yetərincə səy göstərmədiyinə görə hökumətə qarşı nümayişlər keçirilib. Pahjwok Afghan News, *Angry Youth Shuts Labour Ministry's Gate During Protest*, 1 November 2015, http://www.pajhwok.com/en/2015/11/01/angry-youth-shuts-labour-ministry%E2%80%99s-gate-during-protest. "2013-2014-cü illərdə əfqanların yaşayış şəraitinin tədqiqi"nin nəticələrinə əsasən, işsizlik faizi 2007-2008-ci illərdəki 13,5 faizlik göstəricidən 2013-2014-cü illərdə 22,0 faizə yüksəlib. Məlumatlara görə, 2013-2014-cü illərdə gənclərin işsizlik göstəricisi 27,4 faiz, yetərincə gəlir gətirən işi olmayan (işsiz olan və ya natamam iş günü ilə işləyən) insanların əhalinin ümumi sayındakı payı isə 39,0 faiz təşkil edib. Central Statistics Organization, *Afghanistan Living Condition Survey 2013-2014: National Risk and Vulnerability Assessment*, 2016, http://cso.gov.af/Content/files/ALCS%202013-14%20Main%20Report%20-%20English%20-%2020151221.pdf, pp. 57-64.

[46] Sorğunun gedişində ölkənin bütün 34 vilayətində 14 müxtəlif etnik qrupdan olan 9.586 əfqanla təkbətək müsahibə aparılıb. The Asia Foundation, *Afghanistan in 2015: A Survey of the Afghan People*, November 2015, http://asiafoundation.org/resources/pdfs/Afghanistanin2015.pdf, pp. 56-57.

[47] UNAMA-nın məlumatlarına əsasən, Gündüzün Taliban tərəfindən ələ keçirilməsindən sonra yaranan hərc-mərclik və qanunun aliliyinin iflasa uğraması "elə bir şərait yaradıb ki, qanunsuz qətllər, opportunist cinayətkarlıq və

cəzasızlıq mühiti barədə məlumatların fonunda nəzərdən keçirmək lazımdır.[48] Həmçinin davam etməkdə olan zorakılıqlar və iqtisadi vəziyyətin pisləşməsi ruhi sağlamlıq problemlərinin və narkotik vasitələrin istifadəsinin artmasına təkan verir.[49]

## B. Əfqanıstanda təhlükəsizliklə bağlı vəziyyət: münaqişənin mülki şəxslərə təsiri

Əfqanıstanda təhlükəsizliklə bağlı vəziyyətin proqnozlaşdırılması mümkünsüz olaraq qalır və münaqişənin əsas zərbəsi mülki şəxslərə dəyməkdə davam edir.[50] 2014-cü ildə beynəlxalq hərbi qüvvələrin ölkədən çıxarılması başa çatdıqdan sonra 2015-ci ildə, xüsusən ilin ikinci yarısında münaqişə daha da qızışdı və ölkədə təhlükəsizlik sahəsində vəziyyət 2014-cü illə müqayisədə nəzərə çarpan dərəcədə pisləşdi.[51] Məlumatlara əsasən Taliban getdikcə daha çox sayda rayonları nəzarəti altına alıb və 2001-ci ildən bəri ilk dəfə 2015-ci ilin sentyabrında vilayət paytaxtı Gündüz şəhəri üzərində nəzarəti müvəqqəti də olsa əlinə ala bilib.[52] Silahlı iştirakçıların sayının

---

dağıntılar tam cəzasızlıq mühitində baş verir". UNAMA təsdiq edib ki, təsdiqlənməyən məlumatlar əsasında silahlı şəxslər və ya opportunist cinayətkarlar tərəfindən cinsi zəmində zorakılığa məruz qalma qorxusu qadınların şəhəri kütləvi şəkildə tərk etməsində əsas amil olub". UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, p. 27. Həmçinin bax: Tolo News, *Rise in Crime Irks Kabulies*, 28 February 2016, http://www.tolonews.com/en/afghanistan/23984-rise-in-crime-irks-kabulies; Pajhwok Afghan News, *70 Detained over Various Crimes in Herat*, 17 January 2016, http://www.pajhwok.com/en/2016/01/17/70-detained-over-various-crimes-herat; Khaama Press, *Kabul Police Arrests 411 over Various Criminal Charges in Past 3 Weeks*, 10 January 2016, http://www.khaama.com/kabul-police-arrests-411-overvarious-criminal-charges-in-past-3-weeks-1964.

[48] II.C bölməsinə bax.

[49] New York Times, *From Under Kabul's Bridges, Addicts Get Help at Old U.S. Base*, 10 January 2016, http://www.nytimes.com/2016/01/11/world/asia/from-under-kabuls-bridges-addicts-get-help-at-old-us-base.html; Institute for War and Peace Reporting, *Unemployment Fuelling Afghan Drug Use*, 7 December 2015, http://www.refworld.org/docid/566936744.html; Institute for War and Peace Reporting, *Tackling Addiction Among Afghan Women*, 3 December 2015, http://www.refworld.org/docid/566157c44.html; AAN, *Homeless and Unwanted: How Kabul's Drug Users Are Driven From Place to Place*, 29 October 2015, https://www.afghanistan-analysts.org/homeless-and-unwanted-how-kabuls-drug-addicts-are-driven-like-a-flock/; The Guardian, *Afghanistan Tackles Hidden Mental Health Epidemic*, 2 September 2015, http://www.theguardian.com/globaldevelopment/2015/sep/02/afghanistan-tackles-hidden-mental-health-epidemic-therapists.

[50] UN Secretary-General, *The Situation in Afghanistan and Its Implications for International Peace and Security: Report of the Secretary-General*, 7 March 2016, A/70/775–S/2016/218, http://www.refworld.org/docid/56f2667d4.html, paras. 24-25, 54; UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, p. 1. Həmçinin bax: International Committee of the Red Cross (ICRC), *Afghanistan: Concern over Growing Number of Civilian Casualties*, 30 April 2015, http://reliefweb.int/report/afghanistan/afghanistan-concern-over-growing-number-civilian-casualties; Institute for War and Peace Reporting, *Afghans Discuss Trauma of War*, 18 February 2015, ARR Issue 510, https://iwpr.net/global-voices/afghans-discuss-trauma-war.

[51] UN Secretary-General, *The Situation in Afghanistan and Its Implications for International Peace and Security: Report of the Secretary-General*, 7 March 2016, A/70/775–S/2016/218, http://www.refworld.org/docid/56f2667d4.html, para. 12; US Department of Defense, *Enhancing Security and Stability in Afghanistan*, December 2015, http://www.defense.gov/Portals/1/Documents/pubs/1225_Report_Dec_2015_-_Final_20151210.pdf, pp. 1-2, 17-23. Hesabat dövründə, yəni 2015-ci ilin iyun-avqust aylarında BMT-nin Baş katibi qeyd edib ki, "davam etməkdə olan münaqişənin həm şiddəti, həm də coğrafi əhatə dairəsi artmaqdadır". UN General Assembly, *The Situation in Afghanistan and its Implications for International Peace and Security*, 1 September 2015, A/70/359–S/2015/684, http://www.refworld.org/docid/55f677871e.html, para. 14. Həmçinin bax: Institute for the Study of War (ISW), *Backgrounder: Afghanistan Threat Assessment: The Taliban and ISIS*, 10 December 2015, http://www.understandingwar.org/sites/default/files/Afghanistan%20Threat%20Assessment_The%20Taliban%20and%20ISIS_3.pdf.

[52] "*The Long War Journal*" nəşrinin məlumatına görə, 2015-ci ilin dekabrında Taliban Əfqanıstan ərazisində 39 rayonu əlində saxlayır və əlavə 39 rayon üzərində nəzarəti əlinə almaq uğrunda mübarizə aparırdı: The Long War Journal, *Taliban Lose Control of District in Southern Afghanistan, Gain Another in Northeast*, 18 December 2015, http://www.longwarjournal.org/archives/2015/12/taliban-lose-control-of-district-in-southern-afghanistangain-another-in-northeast.php.

artması, o cümlədən İŞİD ilə əlaqəli olan yeni qrupların[53] meydana çıxması və Əl-Qaidənin yenidən peyda olması[54] təhlükəsizlik sahəsində vəziyyətin daha da qeyri-sabit olmasına gətirib çıxarıb.[55] 2015-ci ilin iyulunda Taliban rəhbəri Molla Ömərin öldüyü elan olunduqdan sonra yeni rəhbər Molla Axtar Mənsurun rəqibləri, məlumatlara görə, kiçik qruplara parçalanıblar ki, bu da münaqişəyə cəlb olunmuş silahlı iştirakçıların sayını daha da artırıb.[56]

Münaqişə ölkənin bütün hissələrinə getdikcə daha çox təsir göstərməyə başlayır.[57] Bundan əlavə, məlumatlara görə, münaqişənin xarakteri dəyişməkdə davam edir.[58] 2014-cü ilin sonunda beynəlxalq qoşunların ölkədən çıxarılmasının yekunlaşmasından bəri AHE-lər, məlumatlara əsasən, hücumlarının sayını artırıblar,[59] o cümlədən kompleks hücumların və intiharçı bomba

---

[53] UNAMA, *Afghanistan: Annual Report 2015*, *Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, p. 7; Stars and Stripes, *Islamic State Attack Claim Signals Escalation by Group in Afghanistan*, 14 January 2016, http://www.stripes.com/news/islamic-state-attack-claim-signals-escalation-by-group-in-afghanistan-1.388693; UNAMA, *Afghanistan: Midyear Report 2015, Protection Of Civilians In Armed Conflict*, August 2015, http://www.refworld.org/docid/55c1bdc4d.html, p. 12; ISW, *Backgrounder: ISIS in Afghanistan*, 3 December 2015, http://www.understandingwar.org/sites/default/files/ISIS%20in%20Afghanistan_2.pdf; Public Broadcasting Service (PBS), *ISIS is in Afghanistan, But Who Are They Really?*, 17 November 2015, http://www.pbs.org/wgbh/frontline/article/isis-is-in-afghanistan-but-who-arethey-really/; National Public Radio (NPR), *ISIS Gains A Foothold In Afghanistan*, 16 November 2015, http://www.npr.org/2015/11/16/456174727/isis-gains-a-foothold-in-afghanistan. 2016-cı ilin yanvarında ABŞ Dövlət Departamenti İŞİD-in Əfqanıstan bölməsini terrorçu təşkilat kimi göstərib. US Department of State, *Foreign Terrorist Organization Designation of ISIL - Khorasan (ISIL-K)*, 14 January 2016, http://www.state.gov/r/pa/prs/ps/2016/01/251237.htm.

[54] New York Times, *As U.S. Focuses on ISIS and the Taliban, Al Qaeda Re-emerges*, 29 December 2015, http://www.nytimes.com/2015/12/30/us/politics/as-us-focuses-on-isis-and-the-taliban-al-qaeda-re-emerges.html; US Department of Defense, *Enhancing Security and Stability in Afghanistan*, December 2015, http://www.defense.gov/Portals/1/Documents/pubs/1225_Report_Dec_2015_-_Final_20151210.pdf, p. 18.

[55] UN General Assembly, *The Situation in Afghanistan and its Implications for International Peace and Security*, 10 December 2015, A/70/601–S/2015/942, http://www.refworld.org/docid/5672ac7c4.html, paras 14-16. Həmçinin bax: The Long War Journal, *Rival Taliban Factions Clash in Western Afghanistan*, 8 December 2015, http://www.longwarjournal.org/archives/2015/12/rival-taliban-factionsclash-in-western-afghanistan.php; Al Jazeera, *The Afghan Battlefield Has Become More Complicated*, 1 November 2015, http://www.aljazeera.com/indepth/opinion/2015/11/afghan-battlefield-complicated-151101081133323.html; Al Jazeera, *ISIL and the Taliban*, 1 November 2015, http://www.aljazeera.com/programmes/specialseries/2015/11/islamic-state-isil-taliban-afghanistan-151101074041755.html; Al Jazeera, *Afghans Fear the Rising Influence of Taliban*, 12 October 2015, http://www.aljazeera.com/indepth/features/2015/10/afghans-fear-rising-influence-taliban-151012143748059.html.

[56] AAN, *Toward Fragmentation? Mapping the post-Omar Taleban*, 24 November 2015, https://www.afghanistan-analysts.org/towardfragmentation-mapping-the-post-omar-taleban/; New York Times, *In ISIS, the Taliban Face an Insurgent Threat of Their Own*, 4 June 2015, http://www.nytimes.com/2015/06/05/world/asia/afghanistan-taliban-face-insurgent-threat-from-isis.html.

[57] UN Secretary-General, *The Situation in Afghanistan and Its Implications for International Peace and Security: Report of the Secretary-General*, 7 March 2016, A/70/775–S/2016/218, http://www.refworld.org/docid/56f2667d4.html, para. 14. Həmçinin bax: AAN, *The 2015 Insurgency in the North (4): Surrounding the Cities in Baghlan*, 21 October 2015, https://www.afghanistan-analysts.org/insurgency-in-thenorth-4-baghlan/; AAN, *The 2015 Insurgency in the North (3): The Fall and Recapture of Kunduz*, 16 October 2015, https://www.afghanistan-analysts.org/the-2015-insurgency-in-the-north-3-the-fall-and-recapture-of-kunduz/; The Washington Post, *Afghans Who once Watched War from Afar Forced to Flee as Front Lines Shift*, 13 July 2015, https://www.washingtonpost.com/world/asia_pacific/number-of-afghans-forced-from-home-soars-to-highest-level-since-talibanera/2015/07/13/816fd27e-19d1-11e5-bed8-1093ee58dad0_story.html.

[58] BMT Baş katibinin Əfqanıstandakı xüsusi nümayəndəsinin müavini Mark Boudenin söylədiklərindən sitat: "Münaqişənin xarakteri dəyişməkdədir, belə ki, o, ilk növbədə mülki əhaliyə qarşı savaşa çevrilir və ona təsir göstərir […], həmçinin ərazilər üzərində nəzarətdə də dəyişiklik baş verib". Bax: UN News Service, *Afghanistan: Despite Intensification of Violence, UN Official Reports Progress in Overall Relief Assistance*, 15 December 2015, http://www.refworld.org/docid/5672be0f417.html.

[59] Radio Free Europe, *The Taliban's Rare Winter Offensive In Afghanistan*, 8 January 2016, http://www.rferl.org/content/taliban-rare-winteroffensive/27477046.html; Foreign Policy, *Mapped: The Taliban Surged in 2015, but ISIS Is Moving In on Its Turf*, 4 January 2016, http://foreignpolicy.com/2016/01/04/mapped-the-taliban-surged-in-2015-but-isis-is-moving-in-on-its-turf/; The Washington Post, *A Year of Taliban Gains Shows that ‘We Haven’t Delivered,’ Top Afghan Official Says*, 27 December 2015, https://www.washingtonpost.com/world/asia_pacific/a-year-of-taliban-gains-shows-that-we-havent-delivered-top-

hücumlarının, habelə konkret hədəfli qətllərin və bilərəkdən qətl törətmə hallarının[60] və ƏMTQ-nin nəzarət-buraxılış məntəqələrinə və kiçik qarnizonlarına hücumların sayı artıb.[61] AHE-lər tərəfindən törədilən konkret hədəfli qətllərin və yerli səviyyədə mülki rəhbərlərin oğurlanması hallarının, eləcə də kənd yerlərində icmaları nəzarətdə saxlamaq məqsədi daşıyan ümumi hədə-qorxu kampaniyalarının sayında əhəmiyyətli artım baş verib.[62] AHE-lər Kabula və digər şəhərlərə geniş rezonans doğuran hücumlar həyata keçirməyi[63] və kənd yerlərində və ya əhalinin az məskunlaşdığı ərazilərdə təsir darilərini genişləndirməyi davam etdiriblər.[64]
ƏMTQ-nin Əfqanıstan ərazisində təhlükəsizliyi və sabitliyi təmin etmək və səmərəli fəaliyyət göstərmək qabiliyyəti ilə bağlı narahatlıqlar ifadə edilib.[65]

---

afghan-officialsays/2015/12/27/172213e8-9cfb-11e5-9ad2-568d814bbf3b_story.html; New York Times, *Afghan Taliban's Reach Is Widest Since 2001*, U.N. Says, 11 October 2015, http://www.nytimes.com/2015/10/12/world/asia/afghanistan-taliban-united-nations.html.

[60] UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, p. 2.

[61] New York Times, *Taliban Step Up Urban Assaults, Testing the Mettle of Afghan Forces*, 9 January 2016, http://www.nytimes.com/2016/01/10/world/middleeast/taliban-step-up-urban-assaults-testing-the-mettle-of-afghan-forces.html; US Department of Defense, *Enhancing Security and Stability in Afghanistan*, December 2015, http://www.defense.gov/Portals/1/Documents/pubs/1225_Report_Dec_2015_-_Final_20151210.pdf, p. 17.

[62] UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, pp. 45-46; UNAMA, *Afghanistan: Midyear Report 2015, Protection of Civilians in Armed Conflict*, August 2015, http://www.refworld.org/docid/55c1bdc4d.html, pp. 52-57. Həmçinin bax: UN General Assembly, *The Situation in Afghanistan and its Implications for International Peace and Security*, 10 December 2015, A/70/601–S/2015/942, http://www.refworld.org/docid/5672ac7c4.html, para. 17; UN General Assembly, *The Situation in Afghanistan and its Implications for International Peace and Security*, 10 June 2015, A/69/929 – S/2015/422, http://www.refworld.org/docid/558284aa4.html, para. 22.

[63] 2015-ci ilin son aylarında və 2016-cı ilin əvvəlində şəhər mərkəzlərinə hücumlar artmışdı. Bu hücumların hədəfləri sırasına bir neçə xarici ölkə səfirlikləri də daxil idi. Misal üçün bax: UN News Service, *UN Condemns Suicide Attack Targeting Media in Kabul*, 21 January 2016, http://www.refworld.org/docid/56a1dcc840b.html; Radio Free Europe, *Five Said Killed in Suicide Attack near Russian Embassy in Kabul*, 20 January 2016, http://www.rferl.org/content/kabul-russian-embassy-suicide-bomber/27499238.html; New York Times, *Suicide Attack Kills at Least 13 in Afghanistan*, 17 January 2016, http://www.nytimes.com/2016/01/18/world/asia/suicide-attack-kills-at-least-13-inafghanistan. html; New York Times, *ISIS Claims Assault that Killed 7 near Pakistani Consulate in Afghanistan*, 13 January 2016, http://www.nytimes.com/2016/01/14/world/asia/jalalabad-afghanistan-blast.html; UNAMA, *UNAMA Condemns Taliban Attacks in Kabul City that Kill Five and Injure 56*, 6 January 2016, http://unama.unmissions.org/unama-condemns-taliban-attacks-kabul-city-kill-five-andinjure-56; New York Times, *Taliban Step Up Urban Assaults, Testing the Mettle of Afghan Forces*, 9 January 2016, http://www.nytimes.com/2016/01/10/world/middleeast/taliban-step-up-urban-assaults-testing-the-mettle-of-afghan-forces.html; New York Times, *Bombings Near Kabul Airport Add to String of Attacks Around Afghan Capital*, 4 January 2016, http://www.nytimes.com/2016/01/05/world/asia/bombings-near-kabul-airport-add-to-string-of-attacks-around-afghan-capital.html; Radio Free Europe, *Two Dead in Kabul Explosion Claimed by Taliban*, 1 January 2016, http://www.rferl.org/content/article/27461844.html; The Wall Street Journal, *Taliban Attacks Spanish Embassy Compound in Kabul*, 11 December 2015, http://www.wsj.com/articles/gunmensuicide-bomber-attack-spanish-embassy-in-kabul-1449845240; AAN, *The Triple Attack in Kabul: A Message? If so, to Whom?*, 10 August 2015, https://www.afghanistan-analysts.org/the-triple-attack-in-kabul-a-message-if-so-to-whom/. Həmçinin bax: The Washington Post, *After Kunduz, Taliban Is Now Targeting Other Afghan Cities*, 14 October 2015, https://www.washingtonpost.com/world/asia_pacific/afterkunduz-taliban-is-now-targeting-other-afghan-cities/2015/10/14/551ab668-7272-11e5-ba14-318f8e87a2fc_story.html.

[64] Bax: US Department of Defense, *Enhancing Security and Stability in Afghanistan*, December 2015, http://www.defense.gov/Portals/1/Documents/pubs/1225_Report_Dec_2015_-_Final_20151210.pdf, pp. 17-18; The Guardian, *Why Capturing Helmand Is Top of the Taleban's Strategic Goals*, 26 December 2015, http://www.theguardian.com/world/2015/dec/26/talibanhelmand-opium; AAN, *The Second Fall of Musa Qala: How the Taleban Are Expanding Territorial Control*, 3 September 2015, https://www.afghanistan-analysts.org/the-second-fall-of-musa-qala-how-the-taleban-are-expanding-territorial-control/.

[65] Bax: SIGAR, Quarterly Report to Congress, 30 October 2015, https://www.sigar.mil/pdf/quarterlyreports/2015-10-30qr.pdf, p. 4; US Department of Defense, *Enhancing Security and Stability in Afghanistan*, December 2015, http://www.defense.gov/Portals/1/Documents/pubs/1225_Report_Dec_2015_-_Final_20151210.pdf, pp. 29, 31; RT, *NATO Report Slams Afghan Army as Mission Incapable*, 10 December 2015, https://www.rt.com/news/328408-afghan-army-mission-incapable/; The Guardian, *Why Capturing Helmand Is Top of the Taleban's Strategic Goals*, 26 December 2015, http://www.theguardian.com/world/2015/dec/26/taliban-helmand-opium; Council on Foreign Relations, *Can Afghan Forces Resist the Taliban?*, 9 October 2015, http://www.cfr.org/afghanistan/can-afghan-

BMT-nin Əfqanıstana Yardım Missiyası (UNAMA) hökumətyönlü silahlı qruplar tərəfindən insan hüquqlarının davamlı olaraq pozulmasından və bu qrupların cəzasızlıq şəraitində fəaliyyət göstərməsindən narahatlığını ifadə edib. Mülki şəxslər arasında hökumətyönlü silahlı qruplar tərəfindən törədilən ölüm və xəsarət hallarının sayı, məlumatlara əsasən, 2014-cü illə müqayisədə 42 faiz artıb.[66] Həmçinin məlumatlara görə çox vaxt mülki şəxslər hökumətyönlü silahlı qruplarla AHE-lərin atışmaları zamanı atəş arasında qalırlar.[67]

Növbəti iki bölmədə Əfqanıstanda mülki şəxslər arasında xəsarət və itkilərin və təhlükəsizliklə əlaqədar insidentlərin sayı barədə ətraflı məlumat veriləcək. Lakin qeyd etmək lazımdır ki, mülki şəxslər arasında xəsarət və itkilərin və təhlükəsizliklə əlaqədar insidentlərin ümumi sayı Əfqanıstanda davam edən münaqişənin şiddətinin mühüm göstəriciləri olsa da, münaqişə ilə bağlı zorakılığın mülki şəxslərə göstərdiyi mənfi təsirin yalnız bir aspektini təşkil edir. Münaqişənin mülki əhaliyə bütün təsirlərini dəqiqliklə başa düşmək üçün zorakılıqların uzunmüddətli və dolayı nəticələrini, o cümlədən münaqişənin insan hüquqları ilə bağlı vəziyyətə göstərdiyi təsiri və dövlətin insan hüquqlarını müdafiə etmək imkanlarına münaqişənin nə dərəcədə xələl gətirdiyini nəzərə almaq lazımdır (II.C bölməsinə bax). Əfqanıstandakı münaqişə kontekstində bu baxımdan əhəmiyyətli amillər aşağıdakılardır:

1) mülki əhali üzərində nəzarətin anti-hökumət elementlərinin əlində olması, o cümlədən paralel ədliyyə strukturlarının tətbiq edilməsi və qanunsuz cəzaların təyin olunması, habelə mülki şəxslərin qorxudulması və təhdid edilməsi, hərəkət azadlığının məhdudlaşdırılması, qanunsuz olaraq ödənişlər alınması və qanunsuz vergilərin qoyulması (II.C bölməsinə bax);
2) döyüşçülər sırasına məcburi qaydada cəlb edilmə (III.A.3 bölməsinə bax);
3) zorakılığın və təhlükəli durumun humanitar vəziyyətə təsir göstərməsi və bunun ərzaq təhlükəsizliyinin olmamasında, yoxsulluğun olmasında və dolanacaq vasitələrinin məhv edilməsində özünü büruzə verməsi (II.D bölməsinə bax);
4) mütəşəkkil cinayətkarlığın səviyyəsinin artması və hökumətin nəzarət etdiyi ərazilərdə hərbi rəislərin və korrupsiyaya uğramış hökumət məmurlarının cəzasız fəaliyyət göstərmək imkanına malik olması (II.C bölməsinə bax);
5) qeyri-sabitlik nəticəsində təhsil və ya ən zəruri tibbi xidmət almaq imkanlarının sistematik olaraq məhdudlaşdırılması (II.C bölməsinə bax); və
6) insanların, xüsusən də qadınların ictimai həyatda iştirak etmək imkanlarının sistematik olaraq məhdudlaşdırılması (III.A.1.i və III.A.7 bölmələrinə bax).

### *1. Mülki şəxslər arasında xəsarət və itkilər*

UNAMA 2009-cu ildə mülki şəxslər arasında xəsarət və itkiləri araşdırıb (buraya münaqişə və ya digər zorakılıq formaları nəticəsində öldürülmüş və ya yaralanmış mülki şəxslər aiddir). 2009-cu ildən 2015-ci ilədək mülki şəxslər arasında xəsarət və itkilərin sayı hər il artıb, yalnız 2012-ci ildə 2011-ci il ilə müqayisədə dörd faizlik azalma istisna təşkil edir. 2015-ci ildə əvvəlki illərlə müqayisədə mülki şəxslər arasında ən çox sayda xəsarət və itkilər müşahidə edilib, belə ki, mülki

---

forces-resist-taliban/p37108. Həmçinin bax: AAN, *Ghazni Jailbreak: Where the Government Failed and Its Enemy Succeeded*, 15 January 2016, https://www.afghanistan-analysts.org/ghazni-jailbreak-where-thegovernment-failed-and-its-enemy-succeeded/; Reuters, *Confusion, Corruption among Afghan Forces Hit Helmand Defence*, 25 December 2015, http://uk.reuters.com/article/uk-afghanistan-taliban-helmand-idUKKBN0U80C620151225. ABŞ Müdafiə Departamentinin bildirdiyinə görə, ƏMTQ-nin hazırkı inkişaf mərhələsini nəzərə alsaq, o, "özünün əsas bacarıqlarını, əməliyyatlara rəhbərlik edənlərin səriştəsini və insan kapitalının davamlı inkişafını daha da təkmilləşdirmədən Əfqanıstan ərazisində qiyamların öhdəsindən gələ və təhlükəsizliyi və sabitliyi təmin edə bilməz". US Department of Defense, *Enhancing Security and Stability in Afghanistan*, December 2015, http://www.defense.gov/Portals/1/Documents/pubs/1225_Report_Dec_2015_-_Final_20151210.pdf, p. 31.

[66] UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, p. 64.

[67] UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, pp. 2, 25. Həmçinin bax: UNAMA, *Afghanistan: Human Rights and Protection of Civilians in Armed Conflict Special Report on Kunduz Province*, December 2015, http://www.refworld.org/docid/566fd0e64.html, p. 14.

şəxslər arasında 11.002 xəsarət və itki halları baş verib (3.545 mülki şəxs ölüb, 7.457 nəfər isə xəsarət alıb).[68] 1 yanvar 2009-cu ildən 31 dekabr 2015-ci ilədək UNAMA ümumilikdə mülki şəxslər arasında 58.736 xəsarət və itki hallarını qeydə alıb (21.323 mülki şəxs ölüb, 37.413 nəfər isə xəsarət alıb).[69] Mülki şəxslər arasında xəsarət və itkilərin sayının artması tendensiyası 2016-cı ilin birinci rübündə də davam edib.[70]

UNAMA qeyd edib ki, mülki şəxslər arasında xəsarət və itkilərin sayında artım yerüstü döyüşlərin, konkret hədəfli qətllərin, kompleks hücumların və intiharçı bomba hücumlarının artması səbəbindən baş verib.[71] 2015-ci ilin birinci yarısında yerüstü döyüşlər nəticəsində xəsarət və itkilər 19 faiz azaldığı halda, 2015-ci ilin ikinci yarısında Əfqanıstan ərazisində yerüstü döyüşlərin artması mülki şəxslər arasında yerüstü döyüşlərin doğurduğu xəsarət və itkilərin 60 faiz artmasına səbəb olub. Hökumətyönlü qüvvələr[72] yerüstü döyüşlər səbəbindən mülki şəxslər arasında baş vermiş xəsarət və itkilərin 30 faizinə, AHE-lər isə yerüstü döyüşlər səbəbindən mülki şəxslər arasında baş vermiş xəsarət və itkilərin 25 faizinə görə məsuliyyət daşıyırlar (UNAMA yerüstü döyüşlər səbəbindən baş vermiş xəsarət və itkilərin 44 faizinin təqsirkarlarını müəyyənləşdirə bilməyib).[73] UNAMA-nın bildirdiyinə görə, 2015-ci ildə yerüstü döyüşlər səbəbindən mülki şəxslər arasında xəsarət və itkilərin sayında əhəmiyyətli artımın olması əsasən 2014-cü ilin sonunda təhlükəsizliyə nəzarətin beynəlxalq qüvvələr tərəfindən təhvil verilməsinin və ƏMTQ-nin 2015-ci ildə qiyamçılara qarşı əməliyyatlara görə bütün məsuliyyəti öz üzərinə götürməsinin nəticəsi idi.[74]

2014-cü ildə mülki şəxslər arasında 925 ölüm və 2.053 xəsarət hallarının səbəbkarı əldəqayırma partlayıcı qurğular (ƏPQ-lər) olub ki, bu da 2013-cü illə müqayisədə 3 faiz artım deməkdir.[75] 2015-ci ildə ƏPQ-lərin istifadəsi nəticəsində mülki şəxslər arasında ölüm (713 hal) və xəsarət (1.655 hal) halları 2012-ci ildən bəri ilk dəfə əvvəlki illə müqayisədə 20 faiz azalıb; bununla belə, həmin qurğular yerüstü döyüşlərdən sonra mülki şəxslər arasında xəsarət və itkilərin ikinci

---

[68] UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, p. 1. UNAMA məlumatlarda mülki şəxslər arasında xəsarət və itkilərin sayının az göstərildiyini qeyd edir ki, bu da Əfqanıstandakı əməliyyat mühitindən irəli gələn məhdudiyyətlərin nəticəsidir. *Ibid*., p. ii.

[69] UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, p. 1.

[70] UNAMA, *UN Chief in Afghanistan: Do More Now to Protect Civilians - UNAMA Releases Civilian Casualty Data for the First Quarter of 2016*, 17 April 2016, https://unama.unmissions.org/un-chief-afghanistan-do-more-now-protect-civilians-unama-releases-civilian-casualtydata-first.

[71] UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, p. 2. UNAMA-nın bildirdiyinə görə, İŞİD-lə əlaqəli olan qrupların mülki şəxslər arasında törətdiyi xəsarət və itki halları əsasən Talibanla yerüstü döyüşlər səbəbindən baş verib. UNAMA, *ibid*., p. 56.

[72] UNAMA "hökumətyönlü qüvvələrə" belə anlayış verir: "Əfqanıstan hökumətinin milli təhlükəsizlik qüvvələri və qiyamçılara qarşı hərbi və yarımhərbi əməliyyatlarda iştirak edən və birbaşa və ya dolayısı ilə Əfqanıstan hökumətinin nəzarəti altında olan digər qruplar və qüvvələr. Bu qüvvələr aşağıdakıları özündə ehtiva edir, amma təkcə onlarla məhdudlaşmır: ƏSP, ƏYP, ƏMO, ƏMP, MTM və digər hökumətyönlü yerli müdafiə qüvvələri". UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, p. 81.

[73] UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, pp. 25-26.

[74] UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, p. 26. UNAMA-nın gəldiyi qənaətlərə hökumətin cavabı üçün bu mənbəyə bax: *Statement by the Government of the Islamic Republic of Afghanistan on the 2015 UNAMA (United Nations Assistance Mission in Afghanistan) Report on Civilian Protection*, 14 February 2016, http://president.gov.af/en/news/66833. Talibanın cavabı üçün isə bu mənbəyə bax: Islamic Emirate of Afghanistan, *We Reject Partial Civilian Casualty Report of UNAMA*, 14 February 2016, http://shahamat-english.com/we-reject-impartialcivilian-casualty-report-of-unama/.

[75] UNAMA, *Afghanistan: Annual Report 2014, Protection of Civilians in Armed Conflict*, February 2015, http://www.refworld.org/docid/54e44e274.html, p. 42.

mühüm səbəbkarıdır və mülki şəxslər arasında ölüm və xəsarət hallarının 21 faizi onların payına düşür.[76]
Anti-hökumət elementləri ictimai yerləri, o cümlədən adamla dolu bazarları, məscidləri, ictimai toplantı yerlərini, məsələn, toy məkanlarını və ya tayfa ağsaqqallarının və mülki hökumət məmurlarının yığışdığı yerləri hədəfə alan intiharçı bomba hücumlarından istifadəni də davam etdirirlər ki, bu da beynəlxalq humanitar hüququn pozuntusudur. 2014-cü ildə UNAMA intiharçı bomba hücumları nəticəsində mülki şəxslər arasında 1.582 xəsarət və itki hallarını (371 nəfər qətlə yetirilib, 1.211 nəfər isə xəsarət alıb) qeydə alıb ki, bu da 2013-cü ilə nisbətən 28 faiz artım deməkdir; 2015-ci ildə bu hücumlar 2014-cü illə müqayisədə daha 16 faiz artıb və mülki şəxslər arasında 1.840 xəsarət və itki hallarına səbəb olub (308 nəfər ölüb, 1.532 nəfər isə xəsarət alıb).[77]
2015-ci ildə hökumətyönlü qüvvələr mülki şəxslər arasında 1.854 xəsarət və itki hallarına (621 nəfər ölüb, 1.233 nəfər isə xəsarət alıb) səbəb olublar ki, bu da 2014-cü ilə nisbətən 28 faiz artım deməkdir və bu halların böyük bir hissəsinin (68 faizinin) səbəbkarı yerüstü döyüşlər olub.[78]
UNAMA qeyd edir ki, gecə aparılan axtarış əməliyyatları nəticəsində mülki şəxslər arasında baş verən xəsarət və itki hallarının sayı onun məlumatlarındakı saydan artıq ola bilər, bu onunla əlaqədar ki, hərbi əməliyyatlar mühitində fəaliyyət göstərmə və məlumat əldə etmə imkanları məhduddur.[79] 2015-ci ildə həm beynəlxalq hərbi qüvvələrin, həm də Əfqanıstan Hava Qüvvələrinin hava əməliyyatları mülki şəxslər arasında 296 xəsarət və itki hallarına səbəb olub ki, bu da 2014-cü illə müqayisədə 83 faiz artım deməkdir.[80]
Sərhəd boyunca Pakistan hərbçiləri tərəfindən Əfqanıstan ərazisinə açılan artilleriya atəşləri Əfqanıstanın şərq regionundakı ərazilərdə insidentlərə səbəb olmaqda davam edir. 2015-ci ildə ümumilikdə sərhədboyu artilleriya atəşləri ilə əlaqədar 19 insident qeydə alıb ki, nəticədə mülki şəxslər arasında 32 ölüm və xəsarət halları baş verib.[81]
Məlumatlara görə 2014-cü ilin aprelinədək olan dövrdə 500 kvadrat kilometr ərazidə yerə minalar basdırılmışdı ki, nəticədə 253 rayonda 1.609 icma bu durumun təsirinə məruz qalırdı.[82]
2015-ci ilin ortalarında ümummilli səviyyədə aparılmış "Minaların və müharibədən qalma partlayıcı sursatların təsiri xaricində olan icmaların tədqiqi" (*MEIFCS*) göstərdi ki, əlavə 30

---

[76] UNAMA qeyd edib ki, ola bilsin bu azalmanın səbəbi AHE-lərin ƏPQ-lərdən az istifadə etməsində deyil, Əfqanıstan təhlükəsizlik qüvvələrinin ƏPQ-ləri aşkar etmək və zərərsizləşdirmək bacarıqlarının artmasındadır. UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, p. 35. UNAMA həmçinin qeyd edib ki, bu azalmanın səbəbi həm də ondan ibarət ola bilər ki, nəzərdən keçirilən dövrdə seçkilər keçirilməyib və seçkilərlə bağlı fəaliyyətlərə qarşı yönələn hücumlar olmayıb. UNAMA, *Afghanistan: Midyear Report 2015, Protection of Civilians in Armed Conflict*, August 2015, http://www.refworld.org/docid/55c1bdc4d.html, p. 6.
[77] UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, p. 41; UNAMA, *Afghanistan: Annual Report 2014, Protection of Civilians in Armed Conflict*, February 2015, http://www.refworld.org/docid/54e44e274.html, p. 51. Məlumatlara görə 2015-ci ilin sentyabrında Gündüzün mühasirəsi zamanı Taliban mülki şəxsləri öz evlərində döyüşçüləri yerləşdirməyə məcbur etməklə və qapı-qapı gəzib Əfqanıstan təhlükəsizlik qüvvələrinin və ya hökumətin üzvlərini axtarmaqla əlavə risk altında qoymuş oldu. UNAMA, *Afghanistan: Human Rights and Protection of Civilians in Armed Conflict Special Report on Kunduz Province*, December 2015, http://www.refworld.org/docid/566fd0e64.html, pp. 13-18; Amnesty International, *Afghanistan: Taliban Tactics Put Civilians in Harm's Way*, 29 September 2015, https://www.amnesty.org/en/latest/news/2015/09/afghanistan-taliban-tactics-put-civilians-in-harms-way/.
[78] UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, pp. 58-59.
[79] UNAMA, *Afghanistan: Midyear Report 2015, Protection of Civilians in Armed Conflict*, August 2015, http://www.refworld.org/docid/55c1bdc4d.html, p. ii.
[80] UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, pp. 59-60.
[81] UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, p. 24.
[82] Mine Action Coordination Centre of Afghanistan (MACCA), *Mine Action Programme of Afghanistan, Annual Report 1393 (April 2014 - March 2015)*, 2015, http://www.macca.org.af/macca/wp-content/uploads/2015/09/MAPA-Annual-Report-1393.pdf, p. 3.

kvadrat kilometr ərazidə də yerə parlayıcı sursatlar basdırılıb, bu isə bu durumun təsirinə məruz qalan bəlli icmaların sayının artaraq 1.726-ya çatması deməkdir.[83]

### 2. *Təhlükəsizliklə əlaqədar insidentlər*

2015-ci ildə təhlükəsizliklə bağlı 22.634 insident qeydə alınıb ki, bu da 2014-cü illə müqayisədə 3 faiz artım deməkdir və 2001-ci ildən bəri ən yüksək rəqəmdir.[84] Təhlükəsizliklə bağlı insidentlərin sayında nəzərə çarpan artım şimal ərazilərində, məsələn, Sari Pul, Fəryab, Cauzcan, Gündüz və Taxar vilayətlərində qeydə alınıb.[85]

## C. İnsan hüquqları ilə bağlı vəziyyət

Əfqanıstan hökumətinin insan hüquqlarına dair milli və beynəlxalq öhdəliklərinə sadiq qaldığını bəyan etdiyinə baxmayaraq, onun insan hüquqlarının müdafiəsi ilə bağlı hesabatlarındakı qeydlər ziddiyyətli olaraq qalır. Məlumatlara görə əhalinin əhəmiyyətli hissəsi, o cümlədən qadınlar, uşaqlar, etnik azlıqlar, məhbuslar və digərləri müxtəlif subyektlər tərəfindən törədilən insan hüquqlarının çoxsaylı pozuntularına məruz qalmaqda davam edirlər.[86]

### 1. *İnsan hüquqlarının pozuntuları*

Məlumatlara əsasən mülki əhaliyə qarşı insan hüquqlarının pozuntuları, ərazinin kimin faktiki nəzarət altında olmasından asılı olmayaraq, ölkənin bütün hissələrində baş verir. Hökumətin nəzarət etdiyi ərazilərdə dövlət və onun nümayəndələri tərəfindən pozuntuların baş verməsi adi hal alıb.[87] Hökumətyönlü silahlı qrupların (qismən) nəzarət etdiyi ərazilərdə bu qruplar, məlumatlara görə, insan hüquqlarını cəzasız qalmaqla pozurlar.[88] Eynilə, AHE-lərin nəzarət etdiyi ərazilərdə də, məlumatlara əsasən, insan hüquqlarının pozuntuları geniş yayılıb, o

[83] United Nations Mine Action Service (UNMAS), *Mine Action Programme of Afghanistan (MAPA) Fast Facts April to June 2015*, July 2015, http://www.macca.org.af/macca/wp-content/uploads/2015/07/MAPA-Fast-Facts-Apr-Jun-2015.pdf. Partlayıcı sursatların çoxu sovet-əfqan müharibəsi dövrünə və 2001-ci ilə qədərki ölkədaxili silahlı münaqişələr dövrünə aiddir. MACCA, *Mine Action Programme of Afghanistan, Annual Report 1393 (April 2014 - March 2015)*, 2015, http://www.macca.org.af/macca/wp-content/uploads/2015/09/MAPA-Annual-Report-1393.pdf, p. 3.
[84] UN Secretary-General, *The Situation in Afghanistan and Its Implications for International Peace and Security: Report of the Secretary-General*, 7 March 2016, A/70/775–S/2016/218, http://www.refworld.org/docid/56f2667d4.html, para. 12.
[85] UN General Assembly, *The Situation in Afghanistan and its Implications for International Peace and Security*, 10 December 2015, A/70/601–S/2015/942, http://www.refworld.org/docid/5672ac7c4.html, para. 14.
[86] UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, pp. 13-22, 42-57, 64-70. Həmçinin bax: US Department of State, *2015 Country Reports on Human Rights Practices - Afghanistan*, 13 April 2016, http://www.refworld.org/docid/5711040d4.html; UNAMA, *Afghanistan: Annual Report 2014, Protection of Civilians in Armed Conflict*, February 2015, http://www.refworld.org/docid/54e44e274.html, pp. 15-19, 55-66, 87-89.
[87] US Department of State, *2015 Country Reports on Human Rights Practices - Afghanistan*, 13 April 2016, http://www.refworld.org/docid/5711040d4.html; UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, pp. 58, 67; Amnesty International, *Amnesty International Report 2015/16 - Afghanistan*, 24 February 2016, http://www.refworld.org/docid/56d05b7cc.html.
[88] 2015-ci ilin sonunda UNAMA Əfqanıstan təhlükəsizlik qüvvələrinin məhdud sayda olduğu 10 vilayətin 23 rayonunda hökumətin "Milli yüksəlişə dəstək strategiyası"nın tərkib hissəsi qismində hökumətyönlü silahlı qrupların formalaşdırıldığını qeydə aldı. UNAMA qeyd edir ki, həmin hökumətyönlü silahlı qruplar tərəfindən insan hüquqlarının pozuntuları keçmişdə ardıcıl olaraq qeydə alınıb və onların yaradılması onların insan hüquqlarını pozacaqları və cəzasız qalacaqları ilə bağlı böyük risk doğurur. UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, pp. 65-66.

cümlədən bu pozuntular paralel ədliyyə strukturlarının yaradılması vasitəsilə törədilir.[89] Bundan əlavə, məlumatlara əsasən insan hüquqlarının pozuntuları dövlət və qeyri-dövlət nümayəndələri tərəfindən onların nəzarətində olan müvafiq ərazilər xaricində də törədilir.[90] Məlumatlara görə insan hüquqlarının kobud pozuntuları döyüşlərin davam etdiyi mübahisəli ərazilərdə xüsusilə geniş yayılıb.[91]

*a) Dövlət nümayəndələri tərəfindən törədilən insan hüquqlarının pozuntuları*

Müxtəlif dövlət nümayəndələri insan hüquqlarının ciddi pozuntularını törətməkdə ittiham olunublar. Məlumatlara əsasən təhlükəsizlik qüvvələrinin üzvləri qanunsuz qətllər törədir və uşaqlara qarşı pis rəftar və istismar hallarına yol verirlər. Hökumət məmurları, təhlükəsizlik qüvvələri, həbsdə saxlanma yerlərinin müdiriyyəti və polislər, məlumatlara görə, işgəncələrdən, yaxud qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəzadan istifadə edirlər (aşağıya bax). Məlumat verilir ki, bu dövlət qurumlarının hər birinin nümayəndələri tərəfindən törədilən insan hüquqlarının pozuntularının cəzasız qalması halları geniş yayılıb.[92]
UNAMA ardıcıl hesabatlarında Milli Təhlükəsizlik Müdirliyinin (MTM), Əfqanıstan Milli Polisinin (ƏMP), Əfqanıstan Yerli Polisinin (ƏYP) və Əfqanıstan Milli Ordusunun (ƏMO) münaqişə ilə əlaqədar həbsdə saxladıqları məhbuslara qarşı işgəncə və qəddar rəftardan geniş istifadə etdiklərini qeydə alıb. Məlumatlara görə, həbsə alınmış şəxslər hüquqi müdafiə mexanizmlərinə müraciət etmək imkanına və real olaraq müdafiəçinin xidmətindən istifadə etmək imkanına malik deyillər.[93] Həmçinin məlumat verilir ki, təhlükəsizlik qüvvələri tərəfindən idarə olunan və müstəqil müşahidəçilərin buraxılmadığı qeyri-rəsmi həbs yerlərində məhbusların

---

[89] UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, pp. 50-51.

[90] Məlumatlara görə həm hökumətyönlü qüvvələr, həm də AHE-lər hüquq pozuntularına yol verir, məsələn, konkret hədəfli qətllər törədir; mülki şəxslər atasında xəsarət və itkilərə səbəb olan döyüş əməliyyatları keçirir; kompleks hücumlar və intiharçı hücumlar həyata keçirir; nəzarətləri altında olan ərazilərin daxilində və xaricində insanları təhdid və təqib edir, qorxudurlar. UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, pp. 41-53, 58-63. Məlumatlara əsasən Taliban hökumətin nəzarət etdiyi ərazilərdə, o cümlədən Kabulda konkret hədəfli qətllər törədib və həmin ərazilərə hücumlar edib və bu zaman hökuməti və beynəlxalq birliyin nümayəndələrini dəstəklədiyi hesab edilən müəyyən şəxsləri hədəfə alıb. Immigration and Refugee Board of Canada, *Afghanistan: Whether the Taliban Has the Capacity to Pursue Individuals After They Relocate to Another Region; Their Capacity to Track Individuals Over the Long Term; Taliban Capacity to Carry Out Targeted Killings (2012-January 2016)*, 15 February 2016, AFG105412.E, http://www.refworld.org/docid/56d7f2670.html; Christian Science Monitor, *In Afghanistan Capital, Tentacles of Taliban Reach Deep*, 18 November 2015, http://www.csmonitor.com/World/Asia-South-Central/2015/1118/In-Afghanistan-capital-tentacles-of-Taliban-reach-deep. 2016-cı ilin yaz hücum kampaniyasına başladığını elan edərkən Taliban bildirdi ki, "əməliyyat zamanı bütün ölkə boyu düşmən mövqelərinə geniş miqyaslı hücumlar həyata keçiriləcək, düşmənin dayaq nöqtələrinə qarşı əzabkeş intiharçıların hücumları və taktiki hücumlar həyata keçiriləcək və şəhər mərkəzlərində düşmən komandirləri qətlə yetiriləcək". *Statement by Leadership Council of Islamic Emirate Regarding Inauguration of Spring Offensive Entitled "Operation Omari"*, 12 April 2016, http://shahamat-english.com/statement-byleadership-council-of-islamic-emirate-regarding-inauguration-of-spring-offensive-entitled-operation-omari/. Həmçinin bax: AAN, *Operation Omari: Taleban Announces 2016 Spring Offensive*, 14 April 2016, https://www.afghanistan-analysts.org/operation-omari-talebanannounces-2016-spring-offensive/.

[91] US Department of State, *2015 Country Reports on Human Rights Practices - Afghanistan*, 13 April 2016, http://www.refworld.org/docid/5711040d4.html; UNAMA, *Afghanistan: Midyear Report 2015, Protection of Civilians in Armed Conflict*, August 2015, http://www.refworld.org/docid/55c1bdc4d.html, pp. 40-79; UNAMA, *Afghanistan: Annual Report 2014, Protection of Civilians in Armed Conflict*, February 2015, http://www.refworld.org/docid/54e44e274.html, pp. 41-93.

[92] US Department of State, *2015 Country Reports on Human Rights Practices - Afghanistan*, 13 April 2016, http://www.refworld.org/docid/5711040d4.html.

[93] UNAMA, *Update on the Treatment of Conflict Related Detainees in Afghan Custody: Accountability and Implementation of Presidential Decree 129*, February 2015, http://www.refworld.org/docid/54f06e814.html, p. 17; UNAMA, *Treatment of Conflict-Related Detainees in Afghan Custody: One Year On*, 20 January 2013, http://www.refworld.org/docid/50ffe6852.html. Həmçinin bax: Amnesty International, *Amnesty International Report 2014/15 - Afghanistan*, 25 February 2015, http://www.refworld.org/docid/54f07e2215.html.

pis rəftara və işgəncələrə məruz qalması halları baş verir.[94] Münaqişə ilə əlaqədar həbsə alınan, qanuni penitensiar sistemin müəssisələrindən kənarda saxlanılan şəxslərin sayı barədə ictimaiyyət üçün açıq olan statistik məlumatlar yoxdur.[95]
Mərkəzi Penitensiar Müdirlik tərəfindən idarə olunan penitensiar sistem, məlumatlara görə, həbsxanaların məhbuslarla dolu olduğu və gigiyenik şəraitin pis olduğu bir vəziyyətdə fəaliyyət göstərir.[96] 2014-cü ildə yeni cinayət prosessual məcəlləsinin qüvvəyə minməsinə baxmayaraq, uzun müddət məhkəməyəqədər həbsdə saxlanılma problem olaraq qalır.[97] Məlumatlara görə hüquq-mühafizə orqanları məhbusları, xüsusən münaqişə ilə əlaqədar həbs edilən şəxsləri etiraflara məcbur etmək üçün işgəncələrdən istifadə edirlər.[98] Qadın məhbusların cinsi təcavüzə və aqressiv hərəkətlərə məruz qalması halları, məlumatlara əsasən, geniş yayılıb.[99]
Məlumatlara görə ƏYP əməkdaşları cəlb olunduqları müəyyən ərazilərdə təhlükəsizliklə əlaqədar vəziyyətin yaxşılaşmasına kömək etsələr də, ƏYP üzləri tərəfindən mülki əhaliyə qarşı əvvəllər törədilmiş insan hüquqlarının pozuntuları ilə bağlı narahatlıqlar qalmaqda davam edir.[100] Həmçinin ƏYP əməkdaşlarının əvvəllər törədilmiş olan və hələ də davam edən insan hüquqlarının pozuntularına görə məsuliyyətə cəlb olunmaması və ƏYP personalının nüfuzlu siyasətçilərin nəzarəti altında olduğu barədə məlumatlar narahatlıq doğurur.[101] 2015-ci ildə UNAMA ƏYP əməkdaşlarının iştirakı ilə törədilən 134 mülki şəxsin xəsarət alması və qətlə

[94] US Department of State, *2015 Country Reports on Human Rights Practices - Afghanistan*, 13 April 2016, http://www.refworld.org/docid/5711040d4.html; UNAMA, *Update on the Treatment of Conflict Related Detainees in Afghan Custody: Accountability and Implementation of Presidential Decree 129*, February 2015, http://www.refworld.org/docid/54f06e814.html, p. 19.
[95] SIGAR, *Quarterly Report to the United States Congress*, 30 October 2015, https://www.sigar.mil/pdf/quarterlyreports/2015-10-30qr.pdf, p. 151.
[96] US Department of State, *2015 Country Reports on Human Rights Practices - Afghanistan*, 13 April 2016, http://www.refworld.org/docid/5711040d4.html; SIGAR, *Quarterly Report to the United States Congress*, 30 October 2015, https://www.sigar.mil/pdf/quarterlyreports/2015-10-30qr.pdf, p. 152; Freedom House, *Freedom in the World 2015 - Afghanistan*, 20 March 2015, http://www.refworld.org/docid/55116f4111.html.
[97] US Department of State, *2015 Country Reports on Human Rights Practices - Afghanistan*, 13 April 2016, http://www.refworld.org/docid/5711040d4.html.
[98] UNAMA, *Update on the Treatment of Conflict Related Detainees in Afghan Custody: Accountability and Implementation of Presidential Decree 129*, February 2015, http://www.refworld.org/docid/54f06e814.html, p. 19; UN Human Rights Council, *Report of the United Nations High Commissioner for Human Rights On the Situation of Human Rights in Afghanistan and On the Achievements of Technical Assistance in the Field of Human Rights in 2014*, 8 January 2015, A/HRC/28/48, http://www.refworld.org/docid/5697d1474.html, para. 35.
[99] Paiwand Afghan Association, *Afghan Women Penal System*, December 2015, http://www.tolonews.com/pdf/The-Afghan-Women-Penal-System_PAA-Research-Report.pdf, pp. 29-30; Institute for War and Peace Reporting, *Afghanistan: Female Prisoners Complain of Bullying*, 10 December 2015, http://www.refworld.org/docid/5672c71e4.html.
[100] Beynəlxalq Böhran Qrupunun məlumatına əsasən, "ƏYP-nin formalaşdırılması proqramı bir çox yerlərdə təhlükəsizliklə bağlı vəziyyəti yaxşılaşdırmayıb və hətta bir sıra rayonlarda münaqişəni daha da şiddətləndirib. Az sayda kəndlilər onu zəruri müdafiə mənbəyi kimi göstərərək bildiriblər ki, onsuz onların rayonları döyüş meydanına və ya qiyamçılar üçün əla məkana çevrilər, amma daha çox belə şikayətlər eşidilir ki, ƏYP qorumalı olduğu insanlardan pul qoparmaqla məşğuldur". International Crisis Group, *The Future of the Afghan Local Police*, 4 June 2015, http://www.refworld.org/docid/55702a544.html, p. i. Həmçinin bax: UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, pp. 67-69. Gündüz şəhərində və onun ətrafında ƏYP üzvlərinin əhaliyə qarşı törətdikləri insan hüquqlarının davamlı pozuntuları, məlumatlara görə, hökumətdən narazılığın artmasına şərait yaratmışdı ki, bu da 2015-ci ilin sentyabrında Talibanın şəhəri çox tez ələ keçirməsinə imkan yaratmışdı. UNAMA, *Afghanistan: Human Rights and Protection of Civilians in Armed Conflict Special Report on Kunduz Province*, December 2015, http://www.refworld.org/docid/566fd0e64.html, p. 1; New York Times, *For Afghans in Kunduz, Taliban Assault Is Just the Latest Affront*, 7 October 2015, http://www.nytimes.com/2015/10/08/world/asia/for-afghans-in-kunduz-taliban-assault-is-just-the-latest-affront.html.
[101] UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, p. 68; US Department of Defense, *Report on Progress Towards Security and Stability in Afghanistan*, October 2014, http://www.defense.gov/Portals/1/Documents/pubs/Oct2014_Report_Final.pdf, p. 73.UNAMA, *Afghanistan: Midyear Report 2015, Protection of Civilians in Armed Conflict*, August 2015, http://www.refworld.org/docid/55c1bdc4d.html, pp. 71-72.

yetirilməsi hallarını sənədləşdirib, onlardan 35-ci ölüm, 99-u isə xəsarət alma hallarıdır;[102] 2014-cü ildə isə UNAMA mülki şəxslər arasında 121 ölüm və xəsarət (52 ölüm və 69 xəsarət) hallarını qeydə almışdı.[103] ƏYP-nin təqsirkar sayıldığı pozuntular arasında ən çox yayılanlara bunlar daxildir: qəddarcasına döymə, əmlakın məhv edilməsi, oğurluq, təhdid etmə, qorxutma və təqib etmə.[104]

UNAMA təhlükəsizlik qüvvələrinin təhsil sahəsi ilə əlaqədar insidentlərdə iştirakı hallarını qeydə almaqda davam edib; bu insidentlərin əksəriyyətində məktəblər döyüş əməliyyatları üçün baza kimi istifadə edilib və bəzən müvəqqəti əsasda istifadə olunub. Məktəblərdən bu qaydada istifadə edilməsi mahiyyət etibarı ilə məktəbləri müdafiə olunan mülki binalardan əsil hərbi hədəflərə çevirir və uşaqların salamatlığına, təhlükəsizliyinə və təhsil almaq imkanlarına ciddi təsir göstərir.[105]

UNAMA həmçinin münaqişə ilə əlaqədar olaraq xəstəxanaların, klinikaların və səhiyyə personalının hədəfə alındığı insidentlərlə bağlı narahatlığını bildirib, həmin insidentlərdə Əfqanıstan təhlükəsizlik qüvvələri və beynəlxalq hərbi qüvvələr təqsirkar sayılıblar.[106] Konkret olaraq, 2015-ci ilin oktyabrında Birləşmiş Ştatlarının hərbi qüvvələrinin Gündüz şəhərində "Sərhədsiz həkimlər" təşkilatının xəstəxanasına hava zərbələri endirməsi, məlumatlara görə, Gündüz vilayətində səhiyyə xidmətlərinə dağıdıcı təsir göstərib və minlərlə insanı təcili tibbi yardım almaq imkanından məhrum edib.[107] 2015-ci ilin sonunda və 2016-cı ilin əvvəlində səhiyyə müəssisələrinə qarşı aparılan, mülki şəxslərin ölümünə və xəsarətinə səbəb olan bu cür əməliyyatların və səhiyyə işçilərinin həbs olunması və təqib edilməsi və tibbi avadanlıqlara ziyan

---

[102] UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, p. 67.

[103] UNAMA, *Afghanistan: Annual Report 2014, Protection of Civilians in Armed Conflict*, February 2015, http://www.refworld.org/docid/54e44e274.html, p. 79.

[104] UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, p. 67.

[105] UNAMA-nın və Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondunun (YUNİSEF) məlumatlarına görə, 2015-ci ildə hökumətyönlü qüvvələr tərəfindən 24 məktəb hərbi məqsədlər üçün istifadə edilib. Ən çox sayda belə hallar Gündüz vilayətində qeydə alınıb, orada hərbçilər 6.680 şagirdin (3.980 oğlanın və 2.700 qızın) təhsil aldığı 15 məktəbdən hərbi məqsədlə istifadə ediblər. Həmçinin məlumatlara görə ƏYP 2015-ci ildə bir neçə ay ərzində Baqlan vilayətindəki məktəbdən əməliyyatlar üçün baza kimi istifadə edilib və həmin müddətdə təxminən 700 şagirdin (340 qızın və 360 oğlanın) və 20 müəllimin (o cümlədən səkkiz qadın müəllimin) məktəbə girişinə imkan verilməyib. UNAMA, *Education and Healthcare At Risk: Key Trends and Incidents Affecting Children's Access to Healthcare and Education In Afghanistan*, 18 April 2016, https://unama.unmissions.org/sites/default/files/education_and_healthcare_at_risk.pdf, p. 19. Həmçinin bax: UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, p. 19; UNAMA, *Afghanistan: Midyear Report 2015, Protection of Civilians in Armed Conflict*, August 2015, http://www.refworld.org/docid/55c1bdc4d.html, p. 30; UN Secretary-General, *Report of the Secretary-General on Children and Armed Conflict in Afghanistan*, 15 May 2015, S/2015/336, http://www.refworld.org/docid/55965b254.html, paras 47-48.

[106] UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, p. 20. Həmçinin Əfqanıstan Analitiklər Şəbəkəsi (ƏAŞ) tərəfindən aparılmış təhlilə də bax; həmin təhlildə məlumat verilir ki, hökumətin və Əfqanıstan milli təhlükəsizlik qüvvələrinin rəsmilərinin belə insidentlərə reaksiyası göstərir ki, onlar xəstəxana və klinikalarda olan yaralı döyüşçüləri qanuni və haqlı hədəfə hesab edirlər. AAN, *Clinics Under Fire? Health Workers Caught Up In The Afghan Conflict*, 15 March 2016, https://www.afghanistan-analysts.org/clinicsunder-fire-health-workers-caught-up-in-the-afghan-conflict/. UNAMA və YUNİSEF-in məlumatlarına əsasən, 2015-ci ildə insanların tibbi yardım almasına mane olmuş 15 insident hökumətyönlü qüvvələrinin təqsiri ucbatından baş verib. UNAMA, *Education and Healthcare At Risk: Key Trends and Incidents Affecting Children's Access to Healthcare and Education In Afghanistan*, 18 April 2016, https://unama.unmissions.org/sites/default/files/education_and_healthcare_at_risk.pdf, p. 7.

[107] UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, p. 20; UNAMA, *Afghanistan: Human Rights and Protection of Civilians in Armed Conflict Special Report on Kunduz Province*, December 2015, http://www.refworld.org/docid/566fd0e64.html, pp. 7-12; MSF, *MSF Factsheet – Kunduz Hospital Attack*, 8 February 2016, http://www.msf.org/sites/msf.org/files/msf_factsheet_-_kunduz_hospital_attack_-_feb_2016.pdf; AAN, *Ripping Up the Rule Book? US Investigation Into the MSF Hospital Attack*, 27 November 2015, https://www.afghanistananalysts.org/ripping-up-the-rule-book-us-investigation-into-the-msf-hospital-attack/.

yetirilməsi hallarının sayının artdığı barədə məlumat verilib və bunlar beynəlxalq hərbi qüvvələrin yardımı ilə hərəkət edən Əfqanıstan təhlükəsizlik qüvvələrinin təqsiri ucbatından baş verib.[108]

*b) Hökumətyönlü silahlı qruplar tərəfindən törədilən insan hüquqlarının pozuntuları*

Məlumatlara əsasən hökumətyönlü silahlı qruplar insan hüquqlarının geniş yayılmış pozuntularına, o cümlədən qəsdən adamöldürmə hallarına, hücumlara, pulqoparma hallarına, təhdidlərə və əmlak oğurluğuna görə məsuliyyət daşıyırlar.[109] 2015-ci ildə UNAMA mülki şəxslər arasında bu cür qruplar tərəfindən törədilmiş 136 ölüm və xəsarət (54 ölüm və 82 xəsarət) hallarını sənədləşdirib, müqayisə üçün qeyd edək ki, 2014-cü ildə 102 belə hal (53 ölüm və 49 xəsarət) qeydə alınmışdı.[110] Məlumatlara görə 2015-ci ildə ölüm hallarının iyirmi ikisi və xəsarət hallarının 3-ü mülki şəxslərin bilərəkdən hədəfə alınaraq qətlə yetirilməsi nəticəsində baş verib.[111]

Bu qruplar arasında AHE-lərə qarşı döyüşmək üçün Əfqanıstan təhlükəsizlik qüvvələrinin sıralarına cəlb olunan, amma ƏMTQ-nin komandanlığı altında olmayan və onun tabeliyindəki strukturlara daxil olmayan güc sahibləri və könüllü qüvvələr var.[112] Məlumatlara görə hökumətyönlü silahlı qrupların insan hüquqlarını pozması və cəzasız qalması halları geniş yayılıb.[113]

Əfqanıstan təhlükəsizlik qüvvələri AHE-lərin ölkə boyu hücumlarının qarşısını almaq üçün mübarizə apardıqlarına görə 2015-ci ildə özəl könüllü dəstələrin formalaşdırılması halları artıb.[114]

---

108 17 fevral 2016-cı ildə Vardak vilayətində Əfqanıstan Daxili İşlər Nazirliyinin xüsusi təyinatlı qüvvələrinin və beynəlxalq hərbi qüvvələrin birgə əməliyyatı iki pasiyentin və 15 yaşlı oğlanın qanunsuz qətlə yetirilməsi ilə nəticələnib. Məlumatlara görə, klinikanın işçiləri həbsə alınıb və döyülüblər. UNAMA, *UN Calls On All Parties to Respect Health Facilities*, 23 February 2016, http://unama.unmissions.org/un-calls-all-parties-respect-healthfacilities; Swedish Committee for Afghanistan, *International Troops Supported the Raid on the Clinic of Swedish Committee for Afghanistan*, 25 February 2016, http://swedishcommittee.org/blog/international-troops-supported-raid-clinic-swedish-committeeafghanistan; New York Times, *Swedish Aid Group Seeks Inquiry Into Afghan Hospital Raid*, 24 February 2016, http://www.nytimes.com/2016/02/25/world/asia/swedish-committee-for-afghanistan-hospital-raid.html; HRW, *Afghanistan: Investigate Army Killings of Hospital Patients*, 19 February 2016, http://www.refworld.org/docid/56caccfe4.html. UNAMA 2015-ci ilin dekabrında Əfqanıstan təhlükəsizlik qüvvələri və beynəlxalq hərbi qüvvələr tərəfindən Loqar və Hilmənd vilayətlərində aparılan və tibb işçilərinin həbsə alınması və klinika avadanlıqlarının məhv edilməsi ilə nəticələnən iki birgə əməliyyatı qeydə alıb. UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, p. 63.

109 UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, p. 64; UNAMA, *Afghanistan: Annual Report 2014, Protection of Civilians in Armed Conflict*, February 2015, http://www.refworld.org/docid/54e44e274.html, pp. 83-87.

110 UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, pp. 64-66; UNAMA, *Afghanistan: Annual Report 2014, Protection of Civilians in Armed Conflict*, February 2015, http://www.refworld.org/docid/54e44e274.html, p. 84. Komandirlə qohumluq əlaqəsi olan şagirdə yüksək qiymət verməkdən imtina etdiyinə görə təhsil idarəsi işçisinin qətlə yetirilməsini belə pozuntulara misal göstərmək olar. UNAMA, *Afghanistan: Annual Report 2014*, pp. 85-86.

111 UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, p. 64.

112 Al Jazeera, *Is an 'Afghan Awakening' the Solution?*, 28 September 2015, http://www.aljazeera.com/indepth/opinion/2015/09/afghanawakening-solution-150927075224969.html; UNAMA, *Afghanistan: Midyear Report 2015, Protection of Civilians in Armed Conflict*, August 2015, http://www.refworld.org/docid/55c1bdc4d.html, pp. 76-77.

113 UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, pp. 64-66; HRW, *"Today We Shall All Die": Afghanistan's Strongmen and the Legacy of Impunity*, 3 March 2015, http://www.refworld.org/docid/54f6c1e44.html, p. 4.

114 UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, pp. 65-66; HRW, *World Report 2016: Afghanistan*, January 2016, https://www.hrw.org/world-report/2016/country-chapters/afghanistan; Tolo News, *Experts Advise Against Establishment Of Militia Groups*, 29 November 2015, http://www.tolonews.com/en/afghanistan/22576-experts-

*c) Anti-hökumət elementləri tərəfindən törədilən insan hüquqlarının pozuntuları*

Məlumatlara görə AHE-lər məhkəməsiz edam, işgəncə və qəddar rəftar halalrına yol verir və mülki şəxslərin hərəkət azadlığı və ifadə azadlığı hüquqlarını, habelə təhsil və tibbi yardım almaq hüquqlarını və səmərəli hüquqi müdafiə vasitələrindən istifadə etmək hüquqlarını həyata keçirmələrinin qarşısını alırlar.

Məlumatlara əsasən AHE-lər ilk növbədə nəzarətləri altında olan ərazilərdə, lakin həm də digər yerlərdə hökumətin ədliyyə mexanizmlərinin və ya xidmətlərinin olmamasından yararlanaraq özlərinin paralel "ədliyyə" strukturlarını tətbiq edirlər.[115] UNAMA qeyd edir ki, "paralel ədliyyə strukturları qanunsuzdur və Əfqanıstan qanunlarına görə heç bir legitimliyə və ya əsasa malik deyil. Bu strukturların tətbiq etdiyi cəzalar Əfqanıstan qanunlarına əsasən cinayət əməlləri, bəzi hallarda isə beynəlxalq hüquqa əsasən hərbi cinayət təşkil edir".[116] 2015-ci ildə UNAMA AHE-lər tərəfindən ölüm və ya şallaqlama cəzasının təbiq edilməsi nəticəsində mülki şəxslər arasında 76 ölüm və xəsarət (60 ölüm və 16 xəsarət) hallarını qeydə alıb.[117] Həmçinin məlumatlara görə AHE-lər paralel idarəçilik sistemləri tətbiq etmək istədikləri ərazilərdə qanunsuz vergilər təyin edirlər.[118]

Məlumatlara görə, AHE-lər ifadə azadlığı hüququna məhdudiyyətlər tətbiq edirlər. AHE-lərin əleyhinə və ya hökumətin lehinə danışan mülki şəxslər hökumətin xeyrinə "casusluq etməkdə" ittiham olunaraq AHE-lər tərəfindən həyata keçirilən paralel və qanunsuz məhkəmə prosedurları çərçivəsində sadələşdirilmiş icraat qaydasında məhkəmə məsuliyyəti təhlükəsi ilə üzləşə bilərlər, belə "cinayətlərə" görə cəza isə adətən edamdır (III.A.1.g bölməsinə bax).[119] Taliblər onlar barəsində tənqidi materiallar hazırladıqlarını hesab etdikləri media şirkətlərinə və jurnalistlərə qarşı çoxsaylı hədələr səsləndirib və şiddətli hücumlar həyata keçiriblər.[120]

---

advise-against-establishment-of-militia-groups; New York Times, *Afghans Form Militias and Call on Warlords to Battle Taliban*, 24 May 2015, http://www.nytimes.com/2015/05/25/world/asia/astaliban-advance-afghanistan-reluctantly-recruits-militias.html.

[115] UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, pp. 50-51. UNAMA 2015-ci ilin sentyabrında Gündüz şəhərinin mühasirəsi zamanı Talibanın paralel ədliyyə strukturları tərəfindən edamların tətbiq edildiyi barədə çoxsaylı məlumatlar aldığını bildirib. UNAMA, *Afghanistan: Human Rights and Protection of Civilians in Armed Conflict Special Report on Kunduz Province*, December 2015, http://www.refworld.org/docid/566fd0e64.html, p. 13. UNAMA 2014-cü ildə Mərkəzi Dağlıq bölgəsi istisna olmaqla Əfqanıstanın bütün regionlarında paralel ədliyyə strukturlarının cəzalar təyin etməsi hallarını qeydə aldığını bildirib. UNAMA, *Afghanistan: Annual Report 2014, Protection of Civilians in Armed Conflict*, February 2015, http://www.refworld.org/docid/54e44e274.html, p. 61.

[116] UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, p. 51.

[117] UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, p. 50.

[118] Tolo News, *Taliban 'Tax' Phone Companies*, 12 January 2016, http://www.tolonews.com/en/afghanistan/23371-taliban-tax-phonecompanies;The Guardian, *British Engineers Evacuated From Key Afghan Dam as Taliban Approach*, 18 September 2015, http://www.theguardian.com/world/2015/sep/18/british-engineers-evacuated-key-afghan-dam-taliban-approach-kajaki; UNAMA, *Afghanistan: Annual Report 2014, Protection of Civilians in Armed Conflict*, February 2015, http://www.refworld.org/docid/54e44e274.html, pp. 60, 69.

[119] UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, p. 47; UNAMA, *Afghanistan: Annual Report 2014, Protection of Civilians in Armed Conflict*, February 2015, http://www.refworld.org/docid/54e44e274.html, pp. 61.

[120] 2016-cı ilin yanvarında Taliban Kabulda media işçilərinə qarşı intiharçı hücumuna görə məsuliyyəti öz üzərinə götürdü. Nəticədə səkkiz mülki şəxs öldürülmüş, 24 nəfər isə yaralanmışdı və onların çoxu media işçiləri idi. UNAMA, *UNAMA Condemns Suicide Attack Targeting Media in Kabul*, 21 January 2016, http://unama.unmissions.org/unama-condemns-suicide-attack-targeting-media-kabul. 12 oktyabr 2015-ci ildə Taliban bəyanat verərək "Tolo" və "1 TV" media orqanlarını hərbi hücumların qanuni hədəfi elan etdi. *Statement by the Military Commission of Islamic Emirate Concerning Intelligence TV Networks of Tolo and 1 TV*, 12 October 2015, http://shahamat-english.com/statement-by-the-militarycommission-of-islamic-emirate-concerning-intelligence-tv-networks-of-tolo-and-1-tv/. Həmçinin bax: Reporters Without Borders, *Taliban and Islamic State Treat Media as Targets*, 13 October 2015, http://www.refworld.org/docid/5620b15340a.html; New York Times,

Məlumatlara görə, AHE-lər siyasi fəaliyyətlərdə iştirak hüququna məhdudiyyətlər tətbiq edirlər. 2014-cü ildəki seçki dövründə UNAMA bilavasitə seçki prosesini hədəfə alan hücumlar nəticəsində mülki şəxslər arasında 674 ölüm və xəsarət (173 ölüm və 501 xəsarət) hallarını qeydə aldı ki, bunların da böyük əksəriyyəti AHE-lərin apardığı yerüstü döyüşlər, habelə seçki konvoylarına, səsvermə məntəqələrinə və seçkilərdəki namizədlərə və onların tərəfdarlarına qarşı hücumlar zamanı istifadə etdikləri ƏPQ-lər nəticəsində baş vermişdi.[121]

Həmçinin məlumatlara görə AHE-lər qanunsuz nəzarət-buraxılış məntəqələri yaratmaqla və ƏPQ-lərdən istifadə etməklə hərəkət azadlığı hüququnu məhdudlaşdırırlar.[122] 2015-ci ildə mülki şəxslər arasında ƏPQ-lərin səbəb olduğu ölüm və xəsarət hallarının sayında azalma olsa da, UNAMA sıxıcı diskli ƏPQ-lərin[123] istifadəsi nəticəsində mülki şəxslər arasında 1.051 ölüm və xəsarət (459 ölüm və 592 xəsarət) hallarını qeydə alıb ki, bu da 2014-cü illə müqayisədə 35 faiz artım deməkdir.[124] Əvvəllər AHE-lər tərəfindən təhlükəsizlik qüvvələrinə qarşı döyüşlərdə müdafiə silahı kimi istifadə edilmiş sıxıcı diskli ƏPQ-lər qurban tərəfindən aktivləşdirilən silahlardır və mülki şəxslər çox zaman hərəkət etdikləri ictimai yollarda, cığırlarda, kənd təsərrüfatı ərazilərində və digər ictimai ərazilərdə onların təsirinə məruz qalırlar.[125] UNAMA "çoxsaylı mülki şəxslərin toplaşdığı ərazilərdə, o cümlədən bazarlarda, qəsəbə və şəhərlərin mərkəzi ərazilərində, məscidlərdə və xəstəxanalara və ya məktəblərə yaxın yerlərdə Əfqanıstan təhlükəsizlik qüvvələrini hədəfə almaq üçün anti-hökumət elementləri tərəfindən ƏPQ-lərdən davamlı olaraq istifadə edilməsindən" narahatlığını ifadə edib, "belə ki, bu cür vəziyyətlərdə onlar mülki şəxslərə kor-təbii və qeyri-mütənasib şəkildə təsir göstərir".[126] Mülki şəxslərin hərəkət etdiyi kənd təsərrüfatı ərazilərində, cığırlarda, ictimai yollarda və digər ictimai ərazilərdə ƏPQ-lərin quraşdırılması insanların tibbi yardım və təhsil almaq, yaşayışları üçün vəsait qazanmaq imkanlarına maneçilik törədir və qorxu və güvənsizlik mühiti yaradır, belə ki, mülki şəxslər daim həlak olmaq, şikəst olmaq, ciddi xəsarət almaq və əmlaklarının məhv edilməsi qorxusu altında yaşayırlar.[127]

Taliban ictimai bəyanatlarında təhsilə dəstək verdiyini davamlı olaraq vurğulayır və ölkədə təhsilə şərait yaradılmasının özünün əsas məqsədlərindən biri olduğunu elan edir.[128] Bəzi

---

*Taliban Threats to Afghan Journalists Show Shift in Tactics*, 18 October 2015, http://www.nytimes.com/2015/10/19/world/asia/taliban-threats-toafghan-journalists-show-shift-in-tactics.html.

[121] UNAMA, *Afghanistan: Mid-Year Report on the Protection of Civilians in Armed Conflict 2014*, July 2014, http://www.refworld.org/docid/53bd394f4.html, p. 53.

[122] UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, p. 35-41; UNAMA, *Afghanistan: Annual Report 2014, Protection of Civilians in Armed Conflict*, February 2015, http://www.refworld.org/docid/54e44e274.html, pp. 42-50. Həmçinin bax: US Department of State, *2015 Country Reports on Human Rights Practices - Afghanistan*, 13 April 2016, http://www.refworld.org/docid/5711040d4.html; AIHRC, *The Situation of Human Rights in Afghanistan in 1393*, 11 August 2015, http://www.refworld.org/docid/5694bc384.html, pp. 43-44.

[123] Qurban tərəfindən aktivləşdirilən ƏPQ-lər o zaman partlayır ki, şəxs və ya nəqliyyat vasitəsi aktivləşdiricini və ya ötürücünü işə salır və nəticədə partlayış baş verir, aktivləşdirici və ya ötürücü rolunu isə sıxıcı disk oynayır. UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, p. 79.

[124] UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, p. 38.

[125] UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, pp. 37-38.

[126] UNAMA, *Afghanistan: Midyear Report 2015, Protection of Civilians in Armed Conflict*, August 2015, http://www.refworld.org/docid/55c1bdc4d.html, p. 45; həmçinin bax: UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, p. 38.

[127] UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, pp. 35-41; UNAMA, *Afghanistan: Midyear Report 2015, Protection of Civilians in Armed Conflict*, August 2015, http://www.refworld.org/docid/55c1bdc4d.html, pp. 42-49; UN Secretary-General, *The Situation in Afghanistan and its Implications for International Peace and Security: Report of the Secretary-General*, 27 February 2015, A/69/801-S/2015/151, http://www.refworld.org/docid/556585104.html, para. 41.

[128] Talibanın verdiyi bəyanatlara misal olaraq bu mənbəyə bax: Islamic Emirate of Afghanistan, *Message of Felicitation of the Esteemed Amir-ul-Momineen, Mullah Akhtar Mohammad Mansoor, (May Allah Protect Him), on*

ərazilərdə Taliban məktəblərin yenidən açılmasına və təhsilin bərpasına şərait yaradıb,[129] Taliban daxilindəki bəzi mötədil qruplaşmalar, məlumatlara görə, qızların və qadınların təhsil almasını dəstəklədiklərini ifadə ediblər.[130] Lakin belə məlumatlar da var ki, Taliban və İŞİD-lə əlaqəli olan qruplar öz ideyalarını uşaqlara təlqin etmək və döyüşlərdə və ya döyüşçülərə yardım funksiyalarının yerinə yetirilməsində onlardan istifadə etməkdən ötrü onları öz sıralarına cəlb etmək məqsədi ilə məktəb və mədrəsələrdən istifadə edirlər.[131] Həmçinin məlumatlara görə Taliban təhsil proqramlarının Taliban tərəfindən təsdiq edilən meyarlara uyğun olmasına nəzarət etmək məqsədi ilə həmin proqramlara müdaxilələr edir.[132]

Münaqişə ilə əlaqədar olan, ölkənin bütün regionlarında təhsil imkanlarına birbaşa təsir göstərən zorakılıq insidentləri, məlumatlara əsasən, davam etməkdədir.[133] Bu insidentlərin böyük əksəriyyətində AHE-lər, o cümədən Taliban təqsirkar sayılır və həmin insidentlərin sırasına məktəblərin yandırılması, müəllimlərin və məktəb personalının məqsədyönlü şəkildə qətlə yetirilməsi və təhdid edilməsi, məktəblərin daxilində və yaxınlığında əldəqayırma partlayıcı qurğular quraşdırılması, təhsil müəssisələrinə raket mərmilərinin atılması, məktəblərin, xüsusən də qız məktəblərinin bağlanması daxildir.[134] Məlumatlara əsasən məktəblər həm də zəbt olunur və hərbi məqsədlər üçün istifadə edilir ki, bu da onların beynəlxalq humanitar hüquqda nəzərdə tutulmuş qorunan bina statusuna xələl gətirir və uşaqları təhsil almaq imkanından məhrum edir.[135] Bundan əlavə, məlumatlara görə yerlərdə təhlükəsizliklə bağlı hökm sürən şəraitlə əlaqədar olaraq Əfqanıstanda bir çox məktəblər bağlı qalmaqdadır.[136]

---

*the Eve of Eid-ul-Odha*, 22 September 2015, http://shahamatenglish.com/message-of-felicitation-of-the-esteemed-amir-ul-momineen-mullah-akhtar-mohammad-mansoor-may-allah-protect-him-on-theeve-of-eid-ul-odha/; Islamic Emirate of Afghanistan, *Full text of the Statement Delivered by the Delegation of Political Office of the Islamic Emirate in the International Pugwash Research Conference*, 2 May 2015, http://shahamat-english.com/full-text-of-the-statement-deliveredby-the-delegation-of-political-office-of-the-islamic-emirate-in-the-international-pugwash-research-conference/.

[129] Radio Free Europe/Radio Liberty, *Afghan Authorities, Taliban Agree to Reopen Schools in Contested Region*, 23 November 2015, http://gandhara.rferl.org/content/afghan-authorities-taliban-agree-to-reopen-schools/27382363.html.

[130] Washington Post, *A New Taliban Breakaway Group Claims Support for Peace and Women's Rights*, 8 November 2015, https://www.washingtonpost.com/world/asia_pacific/a-new-taliban-breakaway-group-claims-support-for-peace-and-womensrights/2015/11/08/846cdc79-6e07-4c44-9256-b2ba105eb945_story.html; Wall Street Journal, *Taliban Take Girls Back to School*, 16 January 2014, http://www.wsj.com/articles/SB10001424052702304049704579318592003912998.

[131] HRW, *Afghanistan: Taliban Child Soldier Recruitment Surges*, 17 February 2016, https://www.hrw.org/news/2016/02/17/afghanistantaliban-child-soldier-recruitment-surges; PBS Frontline, *Why Afghanistan's Children Are Used as Spies and Suicide Bombers*, 17 November 2015, http://www.pbs.org/wgbh/frontline/article/why-afghanistans-children-are-used-as-spies-and-suicide-bombers/.

[132] Washington Post, *The Taliban Indoctrinates Kids with Jihadist Textbooks Paid for by the U.S.*, 8 December 2014, https://www.washingtonpost.com/news/worldviews/wp/2014/12/08/the-taliban-indoctrinates-kids-with-jihadist-textbooks-paid-for-by-the-us/.

[133] UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, pp. 18-19.

[134] UNAMA-nın və YUNİSEF-in məlumatlarına əsasən, 1 yanvar 2013-cü ildən 31 dekabr 2015-ci ilədək "təhsil personanın təhdid edilməsi və qorxudulması hallarının sayı artıb. 2015-ci ildə bu insidentlər uşaqların təhsil almaq imkanlarına daha çox təsir göstərib və məktəblərin bağlanması, qızların təhsilinin qadağan olunması və pulqoparma halları ilə nəticələnib. 2015-ci ildə UNAMA və YUNİSEF anti-hökumət elementlərinin qızların təhsil almasına birbaşa və ya dolayısı ilə əngəl yaratdığı 19 halı qeydə alıblar". UNAMA, *Education and Healthcare At Risk: Key Trends and Incidents Affecting Children's Access to Healthcare and Education In Afghanistan*, 18 April 2016, https://unama.unmissions.org/sites/default/files/education_and_healthcare_at_risk.pdf, p. 8. Həmçinin bax: UN Secretary-General, *Children and Armed Conflict: Report of the Secretary-General*, 5 June 2015, A/69/926–S/2015/409, http://www.refworld.org/docid/557abf904.html, para. 33; UN Secretary-General, *Report of the Secretary-General on Children and Armed Conflict in Afghanistan*, 15 May 2015, S/2015/336, http://www.refworld.org/docid/55965b254.html, para. 44.

[135] UNAMA-nın və YUNİSEF-in məlumatlarına əsasən, 2015-ci ildə Nənqərhar, Nuristan, Loqar və Gündüz vilayətlərində ən azı 11 məktəb AHE-lər tərəfindən hərbi məqsədlər üçün istifadə edilib. UNAMA, *Education and Healthcare At Risk: Key Trends and Incidents Affecting Children's Access to Healthcare and Education In Afghanistan*, 18 April 2016, https://unama.unmissions.org/sites/default/files/education_and_healthcare_at_risk.pdf, p. 19. Həmçinin bax: UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*,

Eynilə, məlumat verilir ki, AHE-lər səhiyyə xidmətlərinə çıxışı məhdudlaşdırırlar. 2015-ci ildə UNAMA AHE-lər tərəfindən xəstəxanaların və səhiyyə personalının hədəfə alındığı 63 insidenti qeydə alıb ki, bu da 2014-cü illə müqayisədə 47 faiz artım deməkdir.[137] Poliomielitə qarşı peyvənd kampaniyalarını dəstəkləyəcəyi barədə Talibanın vədlərinə baxmayaraq, peyvəndə qarşı AHE-lərin tətbiq etdikləri qadağalar və poliomielit əleyhinə peyvəndi həyata keçirən işçilərə etdikləri hücumlar barədə məlumatlar daxil olmaqda davam edir.[138]
Həmçinin məlumatlara görə din azadlığı hüququ da anti-hökumət elementlərinin həmlələrinə məruz qalır, o cümlədən anti-hökumət elementləri özlərinin təfsir etdikləri islam prinsiplərinə, normalarına və dəyərlərinə zidd davrandıqlarını hesab etdikləri şəxslərə və icmalara qarşı hədələrdən və hücumlardan istifadə edirlər.[139]

### *2. Dövlətin mülki şəxsləri insan hüquqlarının pozuntularından müdafiə etmək imkanı*

İnsan hüquqlarının müdafiəsi qanunvericilik bazasında nəzərdə tutulduğu hallarda belə, Əfqanıstanın bu hüquqların təşviqi və müdafiəsi ilə bağlı milli və beynəlxalq hüquqda nəzərdə tutulmuş öhdəliklərini praktikada yerinə yetirməsi çox vaxt problem olaraq qalır. Əfqanıstanda idarəçiliyin və qanununun aliliyinin durumunun xüsusilə zəif olduğu hesab edilir,[140] eyni

---

February 2016, http://www.refworld.org/docid/56c17b714.html, p. 19; UN Secretary-General, *Report of the Secretary-General on Children and Armed Conflict in Afghanistan*, 15 May 2015, S/2015/336, http://www.refworld.org/docid/55965b254.html, para. 48.

[136] Məlumatlara əsasən Talibanın Gündüz şəhərinə hücumu "497 məktəbin bağlanmasına gətirib çıxarıb ki, bu da 330.000-dən artıq uşağın təhsil almaq imkanına əngəl törədib. 21 məktəbə xəsarət yetirməkdən əlavə, Taliban həm də 4 məktəbdən hərbi məqsədlər üçün istifadə edib". UN General Assembly, *The Situation in Afghanistan and Its Implications for International Peace and Security*, 10 December 2015, A/70/601–S/2015/942, http://www.refworld.org/docid/5672ac7c4.html, para. 34. Həmçinin bax: IRIN, *School Closures Fuel Taliban Recruitment*, 16 December 2015, http://www.refworld.org/docid/569412eb6d2b.html. Məlumatlara görə İŞİD-lə əlaqəli olan qruplar Nənqərhar vilayətində onlarla məktəbi bağlayıblar. Vice News, *The Islamic State Has Shut Down 57 Afghan Schools*, 17 September 2015, https://news.vice.com/article/the-islamicstate-has-shut-down-57-afghan-schools.

[137] Məlumatlara əsasən insidentlərin 36-sını Taliban törədib, İŞİD-lə əlaqəli olan döyüşçülər isə 12 insident törədiblər. UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, p. 20. Məlumatlara görə 2014-cü ildə ən azı 10 nəfər səhiyyə personalı qətlə yetirilib, 14 nəfər isə oğurlanıb. 38 insidentdə silahlı qruplar təqsirkar sayılıb ki, bunların da 13-ü Talibana aid edilib. UN Secretary-General, *Children and Armed Conflict: Report of the Secretary-General*, 5 June 2015, A/69/926–S/2015/409, http://www.refworld.org/docid/557abf904.html, para. 34.

[138] YUNİSEF-in məlumatına əsasən, "anti-hökumət elementləri tərəfindən tətbiq edilmiş qadağalar ucbatından və poliomielit əleyhinə peyvəndi həyata keçirən işçilərə birbaşa hücumlar səbəbindən 2015-ci ilin sonunadək Əfqanıstanda 681.962 uşaq poliomielit əleyhinə peyvənddən kənarda qalıb". UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, pp. 20-21. UNAMA həmçinin qeyd edib ki, məlumatlara əsasən Talibanın poliomielit əleyhinə peyvənd kampaniyalarını dəstəklədiyi barədə bəyanatlar verməsinə baxmayaraq, müəyyən Taliban komandirləri və digər AHE-lər kampaniyalara əngəl törədib və ya onları qadağan ediblər". UNAMA, *Afghanistan: Midyear Report 2015, Protection of Civilians in Armed Conflict*, August 2015, http://www.refworld.org/docid/55c1bdc4d.html, pp. 22-23. Həmçinin bax: UN Secretary-General, *The Situation in Afghanistan and Its Implications for International Peace and Security: Report of the Secretary-General*, 10 December 2015, A/70/601–S/2015/942, http://www.refworld.org/docid/5672ac7c4.html, para. 52.

[139] Anti-hökumət elementlərinin hücumuna məruz qalma təhlükəsi altında olan dini liderlərin vəziyyətinin əlavə təhlili üçün III.A.1.h bölməsinə bax. Taliban tərəfindən təfsir olunan islam prinsiplərinə, normalarına və dəyərlərinə zidd davrandıqları hesab edilən şəxslərin vəziyyətinin təhlili üçün III.A.6 bölməsinə bax. Cəmiyyətin mənəvi dəyərlərinə zidd davrandıqları hesab edilən qadınların konkret vəziyyətinin təhlili üçün III.A.8 bölməsinə bax.

[140] Ümumdünya Ədalət Layihəsi çərçivəsində hər il tərtib edilən Qanunun Aliliyi İndeksinin 2015-ci üçün göstəricilərinə əsasən, Əfqanıstan 102 ölkə arasında 101-ci yerdə qərarlaşıb. World Justice Project, *Rule of Law Index 2015*, 2015, http://worldjusticeproject.org/sites/default/files/roli_2015_0.pdf. Həmçinin bax: United States Congressional Research Service, *Afghanistan: Politics, Elections, and Government Performance*, 12 January 2015, RS21922, http://www.refworld.org/docid/56bb1e834.html, p. 31.

zamanda ictimaiyyətin hökumətin işindən razılığının səviyyəsi və dövlət qurumlarına inamı, məlumatlara görə, 2015-ci ildə kəskin şəkildə aşağı düşüb.[141]

Bir çox rayonlarda vəziyyətin təhlükəliliyi və AHE-lərin çoxsaylı hücumları hökumətin insan hüquqlarını qorumaq imkanlarını azaldır. Məlumatlara əsasən kənd yerlərində və qeyri-sabit ərazilərdə, bir qayda olaraq, rəsmi ədliyyə sistemi zəifdir, yəni mülki mübahisələri və cinayət işlərini səmərəli və etibarlı şəkildə həll etməyə qadir deyil.[142] Hökumət tərəfindən təyin olunan hakimlər və prokurorlar, məlumatlara görə, təhlükəsizliyin olmaması ucbatından çox zaman bu cür ərazilərdə qala bilmirlər.[143]

Müşahidəçilərin məlumatlarına əsasən, qanunun aliliyi prinsipini zəiflədən yüksək səviyyəli korrupsiya, effektiv idarəetmənin olmaması və cəzasızlıq mühiti kimi amillər dövlətin insan hüquqlarının pozuntularına qarşı müdafiəni təmin etmək imkanına xələl gətirir.[144] Məlumat verilir ki, insan hüquqlarının pozuntularına görə məsuliyyətə cəlb edilmənin səviyyəsi zəif olaraq qalır, vaxtı ilə hökumətin üzərinə götürdüyü öhdəliklərə baxmayaraq, keçid dövründə ədliyyə mexanizmlərinin inkişafına siyasi dəstək azdır, yaxud ümumiyyətlə yoxdur.[145] Yuxarıda qeyd edildiyi kimi, insan hüquqlarının müdafiəsinin həvalə olunduğu bir sıra dövlət qurumları, o cümlədən ƏMP və ƏYP, məlumatlara görə, ölkənin müəyyən hissələrində özləri insan hüquqlarının pozuntularını törədir və cəzasız qalırlar.

---

[141] Asia Foundation, *Afghanistan in 2015: A Survey of the Afghan People*, November 2015, http://asiafoundation.org/resources/pdfs/Afghanistanin2015.pdf, pp. 95-97.

[142] ABŞ Dövlət Departamentinin bildirdiyinə görə, "mərkəzi hökumətin güclü olduğu şəhər mərkəzlərində rəsmi ədliyyə sistemi nisbətən güclüdür, əhalinin təxminən 76 faizinin yaşadığı kənd yerlərində isə daha zəifdir". US Department of State, *2015 Country Reports on Human Rights Practices - Afghanistan*, 13 April 2016, http://www.refworld.org/docid/5711040d4.html. "Fridım Haus" (*Freedom House*) təşkilatının məlumatına görə, "ənənəvi ədliyyə və ya başqa sözlə kütlənin ədalət mühakiməsi kənd yerlərində əhalinin üz tutduğu əsas vasitədir". Freedom House, Freedom in the World 2015 - Afghanistan, 20 March 2015, http://www.refworld.org/docid/55116f4111.html. Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının (BMTİP) məlumatlarında bildirilir ki, hökumət "kənd yerlərində hakimiyyətinin tanınması kimi çətin bir vəzifənin həllinə nail olmaq uğrunda mübarizə aparmalı olur ki, bunun da əsas səbəbləri: i) aşağı səviyyələrdəki dövlət qurumlarının imkanlarının zəifliyi, qərar qəbul etmək səlahiyyətlərinin, sərəncamlarındakı maliyyə və insan resurslarının azlığı; ii) ənənəvi mexanizmlərin uzun müddətdən bəri oturuşması və nisbətən yüksək nüfuza malik olması və bundan fərqli olaraq əhalinin hökumətə korrupsiyaya uğramış və səmərəsiz hökumət kimi baxması; və iii) təhlükəsizlik problemləridir. UNDP, *Management of Local Grievances and Complaints in the Afghan Public Sector: Afghanistan Sub-National Governance Study Paper No. 4*, January 2014, http://www.af.undp.org/content/dam/afghanistan/docs/Other/StudyPapers/UNDP-AF-24022014-Formal%20Governance%20Mechanisms.pdf, p. 31.

[143] UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, pp. 45-46. Məlumatlara əsasən hakimlər və vəkillər çox zaman yerli rəhbərlər və ya siyasi qruplar tərəfindən hədələnirlər. Freedom House, *Freedom in the World 2015 - Afghanistan*, 20 March 2015, http://www.refworld.org/docid/55116f4111.html. Xüsusən təhlükəsiz olmayan ərazilərdə hakimlərin çatışmaması hallarının geniş yayıldığı barədə məlumatlar var. US Department of State, *2015 Country Reports on Human Rights Practices - Afghanistan*, 13 April 2016, http://www.refworld.org/docid/5711040d4.html.

[144] ƏMİHK məlumat verib ki, "... Əfqanıstanın ədliyyə və məhkəmə sistemi insan hüquqlarının pozulması hallarının araşdırılmasında bir çox problemlərlə üzləşir. Bunun bir çox səbəbləri var ki, bunların arasında korrupsiya, bu sistemdə çalışanların peşəkarlığının aşağı səviyyədə olması, bu qurumların müstəqilliyinin zəifliyi, səlahiyyət və nüfuz sahibi olan şəxslərin bu orqanlara təsiri, təhlükəsizliyin təmin olunmaması, ölkənin müxtəlif regionlarında qanunsuz və heç kimin qarşısında məsuliyyət daşımayan silahlı şəxslərin və qrupların olması və bu orqanlar üzərində səmərəli nəzarətin olmaması ən mühüm səbəblərdir". AIHRC, *The Situation of Human Rights in Afghanistan in 1393*, 11 August 2015, http://www.refworld.org/docid/5694bc384.html, p. 87. Həmçinin bax: US Department of State, *2015 Country Reports on Human Rights Practices - Afghanistan*, 13 April 2016, http://www.refworld.org/docid/5711040d4.html; Freedom House, *Freedom in the World 2015 - Afghanistan*, 20 March 2015, http://www.refworld.org/docid/55116f4111.html.

[145] 2011-ci ildə ƏMİHK kommunist dövründən bəri törədilmiş hərbi cinayətləri və insanlıq əleyhinə cinayətləri özündə əks etdirən hesabat hazırladı və 2014-cü ilin əvvəlində onu sabiq prezident Kərzaiyə təqdim etdi. Seçki dövründə prezident Qəni hesabatı dərc etdirəcəyini vəd etsə də, onun dərc olunacağı tarixi göstərməyib. HRW, *World Report 2015 - Afghanistan*, 29 January 2015, http://www.refworld.org/docid/54cf83c915.html. Həmçinin bax: US Department of State, *2015 Country Reports on Human Rights Practices - Afghanistan*, 13 April 2016, http://www.refworld.org/docid/5711040d4.html.

Məlumatlara əsasən korrupsiya milli, vilayət və yerli səviyyələrdə dövlət aparatının bir çox hissələrinə təsir göstərir.[146] Vilayət və rayon səviyyələrində dövlət məmurları ilə ünsiyyətdə olmuş Əfqanıstan vətəndaşlarının üçdə ikisi dövlət xidmətlərindən istifadə etmək üçün rüşvət ödəməli olduqlarını bildiriblər.[147] Məlumatlara görə polis orqanlarında korrupsiya səciyyəvi haldır, eyni sözlər hakimiyyət səlahiyyətlərindən sui-istifadə və pulqoparma hallarına da aiddir.[148] Məlumatlara əsasən ədliyyə sistemi də eynilə geniş yayılmış korrupsiyadan əziyyət çəkir.[149]
Məlumatlara əsasən bəzi ərazilərdə yerli icmalar mülki mübahisələri həll etmək üçün paralel ədliyyə strukturlarına, məsələn, Taliban tərəfindən idarə edilən məhkəmələrə üstünlük verirlər.[150] Bununla belə, UNAMA qeyd edir ki, bir qayda olaraq icmalarda bu strukturların tətbiqi və ya onlar tərəfindən edam və amputasiya kimi cəzaların təyin olunması Əfqanıstan qanunvericiliyinə əsasən cinayət əməlləridir. Məlumatlara görə bu paralel ədliyyə strukturları tərəfindən törədilən insan hüquqlarının pozuntularının qurbanları dövlətin hüquqi müdafiə vasitələrinə müraciət etmək imkanına malik deyillər. UNAMA qeyd edir ki, hökumətin həmin paralel ədliyyə strukturları çərçivəsində cinayətləri törədən şəxsləri məsuliyyətə cəlb etmək iqtidarında olmaması faktının özü insan hüquqlarını qorumaq üçün lazımi səy göstərməyin zəruriliyi prinsipinə əsasən insan hüquqlarının pozuntusu sayıla bilər.[151]

## D. Humanitar vəziyyət

Əfqanıstanda davam etməkdə olan münaqişə ölkədəki humanitar vəziyyəti getdikcə daha da ağırlaşdırır.[152] Bütövlükdə qeyri-sabitliyin artması,[153] o cümlədən humanitar işçilərin

---

[146] 2015-ci il üzrə Korrupsiya Qavrayışı İndeksi sıralamasında Əfqanıstan 168 ölkə arasında 166-cı yerdə qərarlaşıb: Transparency International, *2015 Corruption Perceptions Index*, http://www.transparency.org/cpi2015. Korrupsiya əleyhinə monitorinq və qiymətləndirmə üzrə birgə müstəqil komitənin bildirdiyinə görə, "əksər hallarda ədliyyə sektoru korrupsiya hallarını, xüsusən güclü əlaqələri olan və az qala cəzasızlıq mühitində fəaliyyət göstərən şəxslərə qarşı korrupsiya işlərini araşdırmaq və təqsirkarları məsuliyyətə cəlb etmək iqtidarında olmur ki, bu da faktiki olaraq onların qanundan üstün olduqlarına əminlik yaradır". Independent Joint Anti-Corruption Monitoring & Evaluation Committee, *News Release: Uneven Results in the Fight Against Corruption*, September 17 2015, http://www.mec.af/files/2015_09_17_MEC_News_Release_(English).pdf. Həmçinin bax: US Department of State, *2015 Country Reports on Human Rights Practices - Afghanistan*, 13 April 2016, http://www.refworld.org/docid/5711040d4.html.
[147] Asiya Fondunun apardığı sorğuya əsasən, respondentlərin 61 faizi vilayət səviyyəsində dövlət xidmətlərindən istifadə etmək istədikləri zaman bəzən və ya əksər hallarda və yaxud da həmişə rüşvət ödəməli olublar, bələdiyyə səviyyəsində isə analoji rəqəm 66 faizdir. Asia Foundation, *Afghanistan in 2015: A Survey of the Afghan People*, November 2015, http://asiafoundation.org/resources/pdfs/Afghanistanin2015.pdf, pp. 99-100.
[148] Misal üçün bax: SIGAR, *Afghan Local Police: A Critical Rural Security Initiative Lacks Adequate Logistics Support, Oversight, and Direction*, October 2015, https://www.sigar.mil/pdf/audits/SIGAR-16-3-AR.pdf.
[149] US Department of State, *2015 Country Reports on Human Rights Practices - Afghanistan*, 13 April 2016, http://www.refworld.org/docid/5711040d4.html.
[150] Voice of America, *Corruption Encourages Parallel Judiciary in Afghanistan*, 12 January 2016, http://www.voanews.com/content/corruption-encourages-parallel-judiciary-afghanistan/3142316.html; Institute for War and Peace Reporting, *Afghans Turn to Taleban Justice*, 1 June 2015, http://www.refworld.org/docid/556d79ee4.html.
[151] UNAMA qeyd edib ki, "bəzi icmalar Taliban məhkəmələrini könüllü olaraq seçsələr də, əldə edilmiş bir sıra məlumatlar göstərir ki, anti-hökumət elementləri, xüsusən Taliban yerli icmaları onların paralel ədliyyə strukturlarının qərarlarına tabe olmağa məcbur edirlər". UNAMA, *Afghanistan: Annual Report 2014, Protection of Civilians in Armed Conflict*, February 2015, http://www.refworld.org/docid/54e44e274.html, pp. 60-62.
[152] UN Secretary-General, *The Situation in Afghanistan and Its Implications for International Peace and Security: Report of the Secretary-General*, 7 March 2016, A/70/775–S/2016/218, http://www.refworld.org/docid/56f2667d4.html, para. 41; UN Office for the Coordination of Humanitarian Affairs (OCHA), *Afghanistan 2016 Humanitarian Needs Overview*, 31 December 2015, https://www.humanitarianresponse.info/en/system/files/documents/files/afg_2016_hno_final_20151209.pdf.
[153] UN Secretary-General, *The Situation in Afghanistan and Its Implications for International Peace and Security: Report of the Secretary-General*, 7 March 2016, A/70/775–S/2016/218, http://www.refworld.org/docid/56f2667d4.html, paras. 12-14; AAN, *The Second Fall of Musa Qala: How the Taleban Are Expanding Territorial Control*, 3 September 2015, https://www.afghanistan-analysts.org/the-second-

təhlükəsizliyi ilə bağlı insidentlərin çoxalması[154] nəticəsində münaqişənin təsirinə məruz qalan əhalinin humanitar yardıma çıxış imkanları azalıb.[155] Münaqişənin təsirinə məruz qalan ərazilərdə humanitar təşkilatların olması imkanının məhdudlaşması Əfqanıstanın ən əlverişsiz vəziyyətdə olan sakinlərinin yaşaya bilmələri üçün humanitar yardımla təmin edilmələrinə əngəl törədir.

Münaqişənin onilliklər boyu davam etməsi və mütəmadi baş verən təbii fəlakətlər Əfqanıstan əhalisini son dərəcə əlverişsiz vəziyyətə salıb və bir çox insanların problemlərin öhdəsindən gəlmək imkanları tükənib. Davam etməkdə olan münaqişə ucbatından yaşayış vasitələrinin məhv olması və mal-qaranın itirilməsi, yoluxucu xəstəliklərin yayılma dərəcəsinin artması, köçkünlərin sayının çoxalması, insan hüquqlarının pozuntularının davam etməsi və cinayətkarlığın səviyyəsinin artması bu əlverişsiz vəziyyəti daha da ağırlaşdırır.[156] Eynilə, fəlakətlərə hazır olma, risklərin azaldılması və fövqəladə hallara reaksiya verilməsi mexanizmləri münaqişənin uzanması, pis idarəetmə və dövlət qurumlarının zəifliyi və ya korrupsiyaya uğraması nəticəsində zəifdir və ya ümumiyyətlə yoxdur.[157] Nəticədə təbii fəlakətlər, o cümlədən daşqınlar, torpaq

---

fallof-musa-qala-how-the-taleban-are-expanding-territorial-control/. Təhlükəsizlik sahəsində vəziyyətə dair əlavə məlumat üçün II.B bölməsinə bax.

[154] OCHA, *Afghanistan 2016 Humanitarian Response Plan*, 31 December 2015, https://www.humanitarianresponse.info/en/system/files/documents/files/afg_2016_hrp_final_20160107_lr.pdf, p. 12. Birləşmiş Millətlər Təşkilatının Humanitar məsələlərin koordinasiyası üzrə idarəsi (OCHA) humanitar işçilərin təhlükəsizliyi ilə bağlı insidentlərin 2014-cü illə müqayisədə azaldığı barədə məlumat verib (294-ə qarşı 255 insident); lakin bu insidentlər daha ağır təsirə malik olub. OCHA, *Humanitarian Bulletin Afghanistan, Issue 47*, December 2015, https://www.humanitarianresponse.info/en/system/files/documents/files/afg_mhb_december_2015_v1.pdf, p. 6. Həmçinin bax: IRIN, *Aid at Risk as Afghanistan's War Splinters*, 19 January 2015, http://www.refworld.org/docid/54be5e7e4.html.

[155] UN Secretary-General, *The Situation in Afghanistan and Its Implications for International Peace and Security: Report of the Secretary-General*, 7 March 2016, A/70/775–S/2016/218, http://www.refworld.org/docid/56f2667d4.html, paras. 46, 56; OCHA, *Afghanistan 2016 Humanitarian Needs Overview*, 31 December 2015, https://www.humanitarianresponse.info/en/system/files/documents/files/afg_2016_hno_final_20151209.pdf, p. 20; UNHCR, *Global Focus – Afghanistan*, http://reporting.unhcr.org/node/4505; OCHA, *Afghanistan Third Quarter Report*, 2015, https://docs.unocha.org/sites/dms/Afghanistan/Afg_Dashboard_Quarter_Three_00_Final_20151224.pdf, p. 4; IRIN, *Afghan Conflict and Upcoming Winter Complicate Earthquake Relief*, 27 October 2015, http://reliefweb.int/report/afghanistan/afghan-conflict-and-upcomingwinter-complicate-earthquake-relief; ICRC, *Annual Report 2014 - Afghanistan*, 9 June 2015, http://www.refworld.org/docid/558131973.html, p. 277.

[156] Misal üçün bax: OCHA, *Afghanistan 2016 Humanitarian Needs Overview*, 31 December 2015, https://www.humanitarianresponse.info/en/system/files/documents/files/afg_2016_hno_final_20151209.pdf; UNAMA, *Afghanistan: Human Rights and Protection of Civilians in Armed Conflict Special Report on Kunduz Province*, December 2015, http://www.refworld.org/docid/566fd0e64.html, pp. 2-3; UN Office on Drugs and Crime (UNODC), *Afghanistan Opium Survey 2014 - Socio-Economic Analysis*, 20 April 2015, http://www.refworld.org/docid/55672dcfa.html, p. 36. BMT Baş katibinin bildirdiyinə görə, "2015-ci ildə Qaçqınlar və Repatriasiya üzrə Nazirliyin və Birləşmiş Millətlər Təşkilatının həmsədrlik etdikləri məcburi köçkünlər üzrə milli işçi qrupu Əfqanıstanda münaqişə nəticəsində ölkənin 34 vilayətindən 31-də 335.000 insanın köçkün düşdüyünü qeydə alıb. 2002-ci ildən bəri ölkədaxili köçkünlüyün qeydə alınmış göstəriciləri arasında ən yüksək göstərici olan bu say 2014-cü illə müqayisədə 78 faiz artım təşkil edir və Əfqanıstanda məcburi köçkünlərin təxmini sayının 1 milyondan artıq olduğunu göstərir". UN Secretary-General, *The Situation in Afghanistan and Its Implications for International Peace and Security: Report of the Secretary-General*, 7 March 2016, A/70/775–S/2016/218, http://www.refworld.org/docid/56f2667d4.html, para. 41. "İNFORM"un məlumatlarına əsasən, Qurumlararası Daimi Komitənin hazırlıq və bərpa üzrə işçi qrupu və Avropa Komissiyası tərəfindən işlənib hazırlanmış risklərin qiymətləndirilməsi metoduna əsasən, Əfqanıstan milli imkanlar hesabına öhdəsindən gəlinməsi mümkün olmayan humanitar böhran və fəlakət riskləri üzrə 3-cü pillədə qərarlaşıb. Bax: INFORM, *Index for Risk Management – Results 2016*, November 2015, http://issuu.com/inform_index/docs/inform_results_report_2016_web and INFORM, *Afghanistan Country Profile 2016*, http://www.inform-index.org/Portals/0/Inform/2016/country_profiles/AFG.pdf.

[157] Norwegian Refugee Council/Internal Displacement Monitoring Centre (NRC/IDMC), *Afghanistan: New and Long-Term IDPs Risk Becoming Neglected as Conflict Intensifies*, 16 July 2015, http://www.refworld.org/docid/55af44064.html, pp. 6, 11-12. Həmçinin bax: IRIN, *Afghan Conflict and Upcoming Winter Complicate Earthquake Relief*, 27 October 2015, http://reliefweb.int/report/afghanistan/afghanconflict-and-upcoming-winter-complicate-earthquake-relief. Bununla belə, BMT Baş katibi reaksiya mexanizmlərinin imkanları

sürüşmələri, zəlzələlər, quraqlıq və sərt qış havası artıq müqavimət qüvvəsi tükənmiş olan insanların əlverişsiz vəziyyətinin daha bir səbəbidir.[158] Müşahidəçilər 2016-cı ildə humanitar yardıma ehtiyacı olan insanların sayının artacağını gözləyirlər.[159]

Əfqanıstanda humanitar göstəricilər son dərəcə aşağıdır: 2015-ci ilin sonunadək olan məlumata görə, ümumi sayı təxminən 27 milyon olan əhalinin 8,1 milyonu humanitar yardıma möhtacdır.[160] Məlumatlara əsasən bir milyondan artıq uşaq ciddi qida çatışmazlığından əziyyət çəkir, uşaqların 9,1%-i isə beş yaşına çatmamış ölür.[161] Əhalinin milli yoxsulluq səviyyəsindən aşağı həddə yaşayan hissəsi, məlumatlara görə, 35,8 faiz təşkil edir,[162] eyni zamanda 1,7 milyon əfqanıstanlının etibarlı ərzaq təminatı yoxdur.[163] Əhalinin yalnız 46 faizinin təmiz su mənbələrinə çıxışı var.[164] Əfqanıstan regionda ən yoxsul ölkə olaraq qalır və BMT-nin 2011-ci il İnsan İnkişafı İndeksində 188 ölkə arasında 171-ci yerdə qərarlaşıb.[165]

Davam etməkdə olan münaqişə, o cümlədən səhiyyə işçilərinə və səhiyyə müəssisələrinə birbaşa hücumlar səhiyyə xidmətlərinə çıxışla bağlı xüsusilə ciddi nəticələr doğurur, həmçinin ümumi qeyri-sabitlik xüsusən AHE-lərin nəzarəti və ya təsiri altında olan ərazilərdə səhiyyə xidmətləri müəssisələrinə çıxış əldə etməyə əngəl törədir.[166] Məlumatlara əsasən əhalinin 36 faizi ən zəruri səhiyyə xidmətlərinə çıxış əldə etmək imkanına malik deyil.[167]

---

baxımından müəyyən irəliləyişin olduğunu qeyd edir. UN General Assembly, *The Situation in Afghanistan and its Implications for International Peace and Security*, 10 December 2015, A/70/601–S/2015/942, http://www.refworld.org/docid/5672ac7c4.html, paras 49, 69.

[158] 26 oktyabr 2015-ci ildə Əfqanıstanın şimal-şərqində baş vermiş zəlzələ 140.000 insanı humanitar yardıma möhtac qoydu. Bax: Food Security and Agriculture Cluster (FSAC), *Earthquake Response Map*, December 2015, https://www.humanitarianresponse.info/en/system/files/documents/files/common_operating_picture_food_security_and_agriculture_cluster_earthquake_response_food_and_cash_assistance_provided_at_december_201.pdf.
Həmçinin bax: UN General Assembly, *The Situation in Afghanistan and its Implications for International Peace and Security*, 10 December 2015, A/70/601–S/2015/942, http://www.refworld.org/docid/5672ac7c4.html, para. 48.

[159] OCHA, *Afghanistan 2016 Humanitarian Response Plan*, 31 December 2015, https://www.humanitarianresponse.info/en/system/files/documents/files/afg_2016_hrp_final_20160107_lr.pdf, pp. 7, 9-10.

[160] OCHA, *Afghanistan 2016 Humanitarian Needs Overview*, 31 December 2015, https://www.humanitarianresponse.info/en/system/files/documents/files/afg_2016_hno_final_20151209.pdf, p. 12.

[161] Bax: OCHA, *Afghanistan 2016 Humanitarian Needs Overview*, 31 December 2015, https://www.humanitarianresponse.info/en/system/files/documents/files/afg_2016_hno_final_20151209.pdf, p. 19 and UN Inter-Agency Group for Child Mortality Estimation (UN IGME), *Levels & Trends in Child Mortality – Report 2015*, September 2015, http://www.childmortality.org/files_v20/download/IGME%20report%202015%20child%20mortality%20final.pdf, p. 18; UNICEF, *Country Statistics – Afghanistan*, http://data.unicef.org/countries/AFG.html. "Uşaqları xilas edək" təşkilatının məlumatına əsasən, anaların sağlamlığı sahəsində əhəmiyyətli irəliləyişə nail olunub və Əfqanıstanda 2000-ci ildən 2014-cü ilədək ana ölümlərinin sayı 60-70 faiz azalıb, nəticədə o, 2014-cü ildə Analar İndeksi üzrə 178 ölkə arasında 146-cı yerdə qərarlaşıb, halbuki 2012-ci ilədək siyahıda son onluqda qərarlaşırdı. Save the Children, *State of the World's Mothers 2014: Saving Mothers and Children in Humanitarian Crises*, 2014, http://www.refworld.org/docid/53d60c3f4.html, pp. 66-68.

[162] UNDP, *Human Development Index*, 2015 rankings, http://hdr.undp.org/en/composite/MPI.

[163] OCHA, *Afghanistan 2016 Humanitarian Needs Overview*, 31 December 2015, https://www.humanitarianresponse.info/en/system/files/documents/files/afg_2016_hno_final_20151209.pdf, p. 17.

[164] UNICEF, *Child Notice Afghanistan*, November 2015, http://www.refworld.org/docid/56430b2d4.html, p. 44. ƏMİHK-nın apardığı sorğuya əsasən, müsahibə aparılmış şəxslərin 84 faizinin təmiz suya çıxışı var, amma məcburi köçkünlərin təmiz suya çıxışı problem olaraq qalır. AIHRC, *The Situation of Human Rights in Afghanistan in 1393* , 11 August 2015, http://www.refworld.org/docid/5694bc384.html, pp. 6, 51-52.

[165] UNDP, *Human Development Index*, 2015 rankings, http://hdr.undp.org/en/composite/HDI.

[166] OCHA-nın bildirdiyinə görə, tibb xidmətlərinə çıxışın olmaması yoluxucu xəstəliklərin yayılması hallarının artmasına səbəb olub. OCHA, *Afghanistan 2016 Humanitarian Needs Overview*, 31 December 2015, https://www.humanitarianresponse.info/en/system/files/documents/files/afg_2016_hno_final_20151209.pdf, pp.8-9. 2015-ci ilin oktyabrında Gündüzün Taliban tərəfindən müvəqqəti ələ keçirilməsi, eləcə də şəhərdə xəstəxana tipli yeganə səhiyyə müəssisəsi olan "Sərhədsiz həkimlər" təşkilatının xəstəxanasına ABŞ qüvvələrinin hücumu şəhərdə qalmış mülki əhalinin zəruri xidmətlərə çıxış imkanlarına böyük təsir göstərdi. UNAMA, *Afghanistan: Human Rights and Protection of Civilians in Armed Conflict Special Report on Kunduz Province*, December 2015, http://www.refworld.org/docid/566fd0e64.html, p. 19; həmçinin bax: UN General Assembly, *The Situation in*

## E. Münaqişədən doğan didərginlik

Münaqişə və qeyri-sabitlik Əfqanıstanda köçkünlüyün əsas səbəbləri olaraq qalır və ölkənin bütün ərazilərinə təsir göstərir.[168] 2015-ci ilin sonu üçün təxminən bir milyondan artıq əfqan 2002-ci ildən bəri münaqişə ilə əlaqədar məcburi köçkün kimi yaşamağa məcbur olub. Bu rəqəm həm yeni məcburi köçkünləri, həm də uzun müddətdən bəri köçkün kimi yaşayan şəxsləri (o cümlədən dəfələrlə köçkün düşənləri) əhatə edir. Hesablamalara əsasən 2015-ci ildə 384.000-ə yaxın insan yenicə köçkün düşüb ki, bu da 2014-cü (təxminən 192.000 nəfər) və 2103-cü (təxminən 127.000 nəfər) illərdəki məlumatlarda göstərilmiş köçkünlük səviyyəsinə nisbətən əhəmiyyətli artım deməkdir. Məlumatlara əsasən 2016-cı ilin birinci aylarında köçkünlük tendensiyası 2015-ci ilin sonuncu aylarındakına uyğun olub.[169] Ölkədəki məcburi köçkünlərin dəqiq sayını əldə etmək çətindir. Məcburi köçkünlərin ümumi sayını göstərən rəsmi rəqəmlər Əfqanıstandakı köçkünlük probleminin əsil miqyasını tam əhatə etmir, belə ki, şəhərlərə dağılışmış məcburi köçkünlər, habelə humanitar təşkilatlar üçün əlçatan olmayan kənd yerlərinə köçənlər bu siyahıdan kənarda qalıb.[170]

"Məcburi köçkünlərlə bağlı milli siyasət" 2013-cü ilin noyabrında təsdiqləndi və 2014-cü ilin fevralında həyata keçirilməyə başladı. Bu siyasət həm münaqişə, həm də təbii fəlakət nəticəsində köçkün düşənləri əhatə edir və məcburi köçkünlərin hüquqlarını və hökumətin müxtəlif nazirliklərinin rolunu və məsuliyyətini, habelə humanitar tərəfdaşların və digər tərəfdaşların rolunu müəyyən edir.[171] Lakin bu siyasətin həyata keçirilməsində problemlər qalmaqdadır.[172]

---

*Afghanistan and its Implications for International Peace and Security*, 10 December 2015, A/70/601–S/2015/942, http://www.refworld.org/docid/5672ac7c4.html, para. 46.

[167] OCHA, *Afghanistan 2016 Humanitarian Needs Overview*, 31 December 2015, https://www.humanitarianresponse.info/en/system/files/documents/files/afg_2016_hno_final_20151209.pdf, p. 18.

[168] 2015-ci il noyabrın sonunadək olan məlumata görə, 2015-ci ildə ən çox sayda yeni köçkünlərin olduğu vilayətlər bunlar idi (sıralama çox saydan az saya doğru verilir): Gündüz, Nənqərahar, Taxar, Kabul, Hilmənd, Badqis, Fəryab, Fərəh, Bədəxşan, Paktiya. UNHCR, *Afghanistan: Conflict-Induced Internal Displacement Monthly Update*, November 2015, http://www.refworld.org/docid/56af05cb4.html; NRC/IDMC, *Afghanistan: New and Long-Term IDPs Risk Becoming Neglected as Conflict Intensifies*, 16 July 2015, http://www.refworld.org/docid/55af44064.html. 2015-ci ilin sonu üçün Əfqanıstandakı 34 vilayətdən 31-də münaqişə səbəbindən əhalinin məcbur köç etməsi baş vermişdi. UNHCR, *Major Situations of Conflict-Induced Displacement in the First Months of 2016*, 24 February 2016, http://www.unhcr.af/UploadDocs/DocumentLibrary/UNHCR_Summary_note_on_conflict_IDPs_APC_24.02.2016_635924216039050000.pdf, p. 1. Həmçinin bax: S. Schmeidl, “Heeding the Warning Signs: Further Displacement Predicted for Afghanistan”, *Forced Migration Review*, May 2014, http://www.fmreview.org/afghanistan/schmeidl.html.

[169] UNHCR, *Conflict-Induced Internal Displacement 2015: The Year In Review*, April 2016, http://www.unhcr.af/UploadDocs/DocumentLibrary/UNHCR_2015_End_Year_Report_Conflict_Induced_Internal_Dispalcement_Final_635962401577970000.pdf; UNHCR, *Major Situations of Conflict-Induced Displacement in the First Months of 2016*, 24 February 2016, http://www.unhcr.af/UploadDocs/DocumentLibrary/UNHCR_Summary_note_on_conflict_IDPs_APC_24.02.2016_635924216039050000.pdf, pp. 1-2; UNHCR, *IDP Monthly Package*, December 2015, http://www.unhcr.af/UploadDocs/DocumentLibrary/IDP_Monthly_Package_December_2015_v2__w_635899155398360000.xlsx.

[170] NRC/IDMC, *Afghanistan: New and Long-Term IDPs risk Becoming Neglected as Conflict Intensifies*, 16 July 2015, http://www.refworld.org/docid/55af44064.html; OCHA, *2015 Humanitarian Needs Overview Afghanistan*, November 2014, https://docs.unocha.org/sites/dms/Afghanistan/Afghanistan%20HRP%202015%20Humanitarian%20Needs%20Overview.pdf, p. 9. Həmçinin məcburi köçkünlük səviyyəsinin BMTQAK-da qiymətləndirilməsi ilə bağlı problemlərin təhlilinə dair məlumat üçün bu mənbəyə bax: UNHCR, *Afghanistan - Conflict-Induced Internal Displacement Monthly Update*, April 2015, http://www.refworld.org/docid/55641ca04.html.

[171] The Government of the Islamic Republic of Afghanistan, *National Policy On Internally Displaced Persons*, 25 November 2013, http://morr.gov.af/Content/files/National%20IDP%20Policy%20-%20FINAL%20-%20English(1).pdf; UNHCR, *UNHCR Welcomes Afghanistan's New IDP policy*, 11 February 2014, http://www.unhcr.org/52fa062a9.html.

Əfqanıstanda məcburi köçkünlər ən əlverişsiz vəziyyətdə olan qruplar arasındadır;[173] onların çoxuna (xüsusən münaqişənin təsirinə məruz qalan kənd yerlərində) humanitar təşkilatların əli çatmır.[174] Məcburi köçkünlər arasında qadınlar, uşaqlar, ahıllar və əlilliyi olan şəxslər xüsusilə əlverişsiz vəziyyətdədirlər.[175]

Əfqanıstan sürətli urbanizasiya dövrünü yaşayır; bir çox məcburi köçkünlər çoxlu insanları qəbul etmək imkanları məhdud olan və zəruri xidmətlərə çıxışı təmin etmək imkanları olduqca problemli olan iri şəhər mərkəzlərində məskunlaşırlar.[176] Səmərəli urbanizasiya siyasətinin və tənzimləyici hüquqi bazanın olmaması, eləcə də idarəetmənin zəif və səmərəsiz olması, məlumatlara görə, şəhər yerlərində yoxsulluğun və bərabərsizliyin artmasına şərait yaradır.[177] Məlumatlara əsasən Əfqanıstanın orta və aşağı gəlirli şəhər ailələrinin böyük hissəsi şəraiti pis

---

[172] UNHCR, *Afghanistan: Conflict-Induced Internal Displacement Monthly Update November 2015*, November 2015, http://www.refworld.org/docid/56af05cb4.html.

[173] OCHA, *2016 Humanitarian Needs Overview*, November 2015, http://reliefweb.int/sites/reliefweb.int/files/resources/afg_2016_hno_final_20151209.pdf, pp. 8-9. ƏMİHK-nın bildirdiyinə görə, "məcburi köçkünlər iş, sosial təminat, tibbi xidmət hüququ və ərzaq və təmiz su ilə təmin edilmək hüququ da daxil olmaqla bu və ya digər hüquqları ilə yanaşı həm də evlərindən və yaşayış şəraitindən məhrum olublar. Hədsiz yoxsulluq məcburi köçkünlərin ən ciddi problemlərindən biridir. Ahıllar, uşaqlar, hamilə qadınlar, xəstələr və əlilliyi olan şəxslər dözülməz problemlərlə üzləşirlər ki, bu da bəzən onların ölümü ilə nəticələnir". AIHRC, *A Report on the IDPs Situation in Afghanistan*, 19 December 2015, http://www.aihrc.org.af/home/press_release/5230. Müəyyən edilib ki, qadınların və uşaqların dəfələrlə köçkün düşmə riski ilə əlaqədar olaraq xüsusi müdafiəyə ehtiyacları var. Samuel Hall, *Policy Brief: National Policy on IDPs in Afghanistan - From Policy to Implementation: Engaging with National Procedures, National and International Stakeholders in 2015*, 8 April 2015, http://samuelhall.org/REPORTS/Afghanistan%20National%20IDP%20Policy%20Brief.pdf, p. 7. "Samuel Holl Konsaltinq", NRC/IDMS (Norveç Qaçqınlar Şurasının təsis etdiyi Məcburi köçkünlüyün monitorinqi mərkəzi) və JIPS (Məcburi köçkünlərin durumunun müştərək tədqiqi xidməti) tərəfindən 2012-ci ildə aparılmış birgə araşdırma nəticəsində müəyyən edildi ki, "müsahibə aparılmış məcburi köçkünlərin təxminən 90 faizi son dərəcə əlverişsiz vəziyyətdə olan şəxslər sayılmalıdır, belə ki, onların sosial-iqtisadi durumu nəinki orta ümummilli səviyyədən aşağıdır, həm də onların yaşayış şəraitinin həyat üçün təhlükəli olması riski böyükdür". Samuel Hall Consulting, *Challenges of IDP Protection: Research Study on the Protection of Internally Displaced Persons in Afghanistan*, November 2012, https://www.nrc.no/arch/_img/9154086.pdf, p. 22.

[174] OCHA, *Afghanistan 2015 Humanitarian Response Plan: Mid-Year Review of Financing, Achievements and Response Challenges*, 18 August 2015, http://reliefweb.int/report/afghanistan/afghanistan-2015-humanitarian-response-plan-mid-year-review-financing, p. 4; UNHCR, *Afghanistan: Conflict-Induced Internal Displacement Monthly Update*, June 2015, http://www.refworld.org/docid/55ba09dc4.html.

[175] Məlumatlara görə hər beş məcburi köçkün uşaqdan üçü məktəbə getmir. OCHA, *2016 Humanitarian Needs Overview*, November 2015, http://reliefweb.int/sites/reliefweb.int/files/resources/afg_2016_hno_final_20151209.pdf, p. 20. 2015-ci ilin mayında son dövrlərdə Kabulda köçkün düşmüş ailələrlə bağlı aparılmış qiymətləndirmə göstərdi ki, yaşayış xərclərinin yüksək olması və gəlirlərin çox aşağı olması səbəbindən uşaqların çoxu ailələrinə gəlir gətirmək üçün işləyirlər. UNHCR, *Afghanistan - Conflict-Induced Internal Displacement Monthly Update*, May 2015, http://www.refworld.org/docid/5594f2544.html, p. 3. Kabulda, Əfqanıstanın şərqindəki Cəlalabad və cənubundakı Qəndəhar şəhərlərində həm köçkün, həm də qeyri-köçkün icmalarında 446 nəfərlə aparılmış müsahibələr əsasında NRC (Norveç Qaçqınlar Şurası) və Əlaqə ofisi tərəfindən müəyyən edildi ki, "son dövrlərdə Əfqanıstanda qadınlarla bağlı müəyyən nailiyyətlərə baxmayaraq, gənc qadınlar və qızlar kişi həmyaşıdlarına nisbətən təhsil, səhiyyə və məşğulluq sahələrində keyfiyyətcə müxtəlif olan çoxlu sayda əlavə problemlərlə üzləşirlər. Belə görünür ki, bu hal xüsusən qeyri-rəsmi məskunlaşma ərazilərində daha çox təzahür edir". NRC / The Liaison Office, *Listening to Women and Girls Displaced to Urban Afghanistan*, 26 March 2015, http://www.refworld.org/docid/5513bec24.html, p. 13.

[176] United States Institute of Peace (USIP), *The Forced Return of Afghan Refugees and Implications for Stability*, January 2016, http://www.usip.org/sites/default/files/PB199-The-Forced-Return-of-Afghan-Refugees-and-Implications-for-Stability.pdf, p. 2; OCHA, *2016 Humanitarian Needs Overview*, November 2015, http://reliefweb.int/sites/reliefweb.int/files/resources/afg_2016_hno_final_20151209.pdf, p. 8; UNHCR, *Solutions Strategy for Afghan Refugees Update 2015-2016*, August 2015, http://www.unhcr.org/542522922.html, p. 11; OCHA, *2015 Strategic Response Plan: Afghanistan*, November 2014, https://docs.unocha.org/sites/dms/Afghanistan/Afghanistan%20HRP%202015%20Strategic%20Response%20Plan.pdf, p. 26.

[177] Government of the Islamic Republic of Afghanistan, *The State of Afghan Cities 2015*, September 2015, http://unhabitat.org/books/soac2015/, pp. vii-viii. Həmçinin bax: AREU, *Governance in Afghanistan: An Introduction*, March 2014, http://www.refworld.org/docid/533165784.html, p. 50.

olan və lazımi xidmətlərlə təchiz olunmayan qeyri-rəsmi məskunlaşma yerlərində yaşayırlar.[178] "2013-2014-cü illərdə əfqanların yaşayış şəraitinin tədqiqi"nin nəticələrinə əsasən, Əfqanıstanda şəhər əhalisinin 73,8 faizi kasıb daxmalarda yaşayır.[179] Məlumatlara görə şəhər əhalisi atasında yoxsulluq geniş yayılıb və şəhər ailələrinin maddi vəziyyəti son illər əhəmiyyətli dərəcədə pisləşib.[180]

Kabul şəhəri Əfqanıstan şəhərləri arasında ən çox əhali artımına məruz qalıb. Əhalinin sayı ilə bağlı rəsmi hesablamalar göstərir ki, 2015-ci ilin sonunadək şəhərdə 3,5 milyon sakin olub, 2005-ci ildən 2015-ci ilədək əhalinin təxmini illik artımı isə 10 faiz təşkil edib.[181] Kabul sakinlərinin təxminən 21%-i başqa yerlərdə doğulublar və məlumatlara görə 2002-ci ildən bəri Kabul Əfqanıstanda münaqişə ucbatından didərgin düşmüş bütün yeni məcburi köçkünlərin 40 faizə yaxınını qəbul edib.[182] Bəzi hesablamalara görə Kabulda qeyri-rəsmi məskunlaşma yerlərində yaşayan əhalinin sayı 70 faizdir.[183] Məlumatlara əsasən Kabul sakinlərinin maliyyə vəziyyəti və məşğulluq imkanları pisləşməkdədir.[184] Uzun müddətdən bəri məcburi köçkün düşmüş şəxslər, geri qayıdanlar və humanitar yardıma ehtiyacı olan digər şəhər yoxsulları üçün

---

[178] Government of the Islamic Republic of Afghanistan, *The State of Afghan Cities 2015*, September 2015, http://unhabitat.org/books/soac2015/, pp. 10, 86.

[179] Bu hesablama "Minilliyin inkişaf məqsədləri"ndə yer alan ekoloji dayanıqlığın 7.10-cu göstəricisində istifadə edilmiş yoxsul daxmalarının müəyyənləşdirilməsi meyarlarına əsaslanır. Central Statistics Organization, *Afghanistan Living Condition Survey 2013-2014: National Risk and Vulnerability Assessment*, 2016, http://cso.gov.af/Content/files/ALCS%202013-14%20Main%20Report%20-%20English%20-%2020151221.pdf, p. 209.

[180] "Samuel Holl Konsaltinq" Əfqanıstan şəhərlərindəki yoxsulluğu tədqiq edərək müəyyən edib ki, Əfqanıstanda şəhər ailələrinin 78,2 faizi (Kabulda isə bu faiz təxminən 78,0 təşkil edir) rəsmi yoxsulluq həddindən aşağı səviyyədə yaşayırlar ki, bu da "son 3 ildə şəhər ailələrinin maddi vəziyyətinin əhəmiyyətli dərəcədə pisləşməsinin təzahürüdür". Samuel Hall, *Urban Poverty Report: A Study of Poverty, Food Insecurity and Resilience in Afghan Cities (report commissioned by Danish Refugee Council and People in Need)*, November 2014, http://samuelhall.org/wpcontent/uploads/2014/11/DRC-PIN-Urban-Poverty-Report.pdf, p. 30. Asiya Fondunun apardığı sorğu nəticəsində müəyyən edilib ki, "əfqanların yalnız 21,0%-i 2015-ci ildə ailələrinin maddi durumunun yaxşılaşdığını bildiriblər, müqayisə üçün qeyd edək ki, 2012-ci ildə eyni fikri ailələrin 49,8%-i bildirmişdi. Eyni zamanda, ötən il ailələrinin maddi durumunun pisləşdiyini söyləyən əfqanların sayı 2015-ci ildə 29,7% təşkil edib, müqayisə üçün qeyd edək ki, 2012-ci ildə bu göstərici 6,2% idi. 2015-ci ilin iyununda keçirilmiş sorğunun gedişində ölkənin bütün 34 vilayətində 14 müxtəlif etnik qrupdan olan 9.586 əfqanla təkbətək müsahibə aparılıb. The Asia Foundation, *Afghanistan in 2015: A Survey of the Afghan People*, November 2015, http://asiafoundation.org/resources/pdfs/Afghanistanin2015.pdf, p. 57.

[181] Government of the Islamic Republic of Afghanistan, *The State of Afghan Cities 2015, September 2015*, http://unhabitat.org/books/soac2015/, pp. 10, 12. Qeyd etmək lazımdır ki, Kabul əhalisinin sayı ilə bağlı hesablamalar fərqlənir. "Qardian" nəşri 2014-cü ilin dekabrında məlumat verib ki, Kabulun əhalisi 6 milyon nəfərə yaxındır. The Guardian, *Kabul – The Fifth Fastest Growing City in the World – Is Bursting at the Seams*, 11 December 2014, http://www.theguardian.com/cities/2014/dec/11/kabul-afghanistan-fifth-fastestgrowing-city-world-rapid-urbanisation.

[182] Central Statistics Organization, *Afghanistan Living Condition Survey 2013-2014: National Risk and Vulnerability Assessment*, 2016, http://cso.gov.af/Content/files/ALCS%202013-14%20Main%20Report%20-%20English%20-%2020151221.pdf, pp. 31, 40.

[183] NRC / The Liaison Office, *Listening to Women and Girls Displaced to Urban Afghanistan*, 26 March 2015, http://www.refworld.org/docid/5513bec24.html, p. 10; UNHCR, *Research Study on IDPs in Urban Settings - Afghanistan*, May 2011, http://www.refworld.org/docid/511e51382.html, p. 11. Məlumatlara görə Kabulda yaşayış sahəsi üçün qanunsuz istifadə edilən torpaqlar (məsələn, planlaşdırılmayan yaşayış əraziləri, təpəliklərdə salınmış evlər, məcburi köçkünlərin məskənləri və kuçilərin düşərgələri) ümumi yaşayış ərazilərinin 71,5 faizini təşkil edir. Bu göstərici Əfqanıstanın digər şəhərlərindəkindən yüksəkdir. Belə ərazilərin sakinləri adətən evlərdə qanunsuz məskunlaşırlar və onların mülkiyyət təminatları olmur. Government of the Islamic Republic of Afghanistan, *The State of Afghan Cities 2015*, September 2015, http://unhabitat.org/books/soac2015/, p. 76. 2009-cu ildə ƏAŞ-ın dərc olunmamış hesabatında apardığı hesablamalara görə, yaşayış ərazisinin 69 faizi qeyri-rəsmi yaşayış məskənlərindən ibarət idi. AAN, *Afghanistan's Returning Refugees: Why Are So Many Still landless?*, 29 March 2016, https://www.afghanistan-analysts.org/afghanistansreturning-refugees-why-are-so-many-still-landless/.

[184] Asiya Fondunun sorğusuna əsasən, Kabul sakinlərinin 73,6%-i ötən il məşğulluq imkanlarının pisləşdiyini, 55,3%-i isə ötən il ailələrinin maliyyə vəziyyətinin pisləşdiyini bildiriblər. The Asia Foundation, *Afghanistan in 2015: A Survey of the Afghan People*, November 2015, http://asiafoundation.org/resources/pdfs/Afghanistanin2015.pdf, pp. 56-57.

nəzərdə tutulan Kabulun qeyri-rəsmi məskunlaşma yerlərində 55.000 nəfərə yaxın sakinin 80 faizi, məlumatlara görə, ciddi və ya orta səviyyədə ərzaq təminatı çatışmazlığı ilə üzləşir.[185]

Bu baxımdan məcburi köçkünlər köçkün olmayan şəhər yoxsullarından daha əlverişsiz vəziyyətdədirlər, çünki onlar konkret olaraq sosial xidmətlərə çıxış imkanına və yaşayış üçün qazanc əldə etmək imkanına malik deyillər ki, bu da onlar üçün ərzaq təminatının və sosial müdafiə mexanizmlərinin olmamasına gətirib çıxır.[186] Şəhər ərazilərində yetərincə torpaqların və münasib qiymətə evlərin olmaması yeni məcburi köçkünləri və uzun müddətdən bəri məcburi köçkün olanları adekvat yaşayış standartına uyğun olmayan və sudan və sanitariya qovşaqlarından istifadə imkanları məhdud olan qeyri-rəsmi yaşayış məskənlərində yaşamağa məcbur edir.[187] Artıq köhnəlmiş olan torpaq sahibliyi siyasəti və mülkiyyət təminatının

---

[185] World Food Programme, *Kabul Informal Settlement (KIS) Winter Needs Assessment November 2015*, 8 December 2015, http://reliefweb.int/sites/reliefweb.int/files/resources/Kabul%20Informal%20Settlement%20Winter%20Needs%20Assessment%20November%202015%20Final%20Report%20on%20Food%20Security.pdf. "Samuel Holl Konsaltinq"in şəhərlərdəki yoxsulluqla bağlı araşdırmasına əsasən, "humanitar təşkilatlar tərəfindən xüsusilə bərbad vəziyyətdə olan məskənlər kimi müəyyən edilmiş qeyri-rəsmi yaşayış məskənlərində yaşayan məcburi köçkünlərin əvvəlki yaşayış səviyyələrini bərpa etmək imkanları digər qruplara nisbətən daha aşağıdır, amma bununla belə, insanların Kabuldakı qeyri-rəsmi məskunlaşma yerlərində yaşaması onları, məsələn, ailə üzvü narkomaniyaya mübtəla olan ailələrlə və ya ailə başçısı qadın olan ailələrlə müqayisədə daha əlverişsiz vəziyyətdə olan şəxs hesab etmək üçün qəti meyar kimi götürülə bilməz. Əsas fərq zəruri xidmətlərə çıxış imkanı ilə əlaqədardır və bu baxımdan Kabuldakı qeyri-rəsmi məskunlaşma yerlərində yaşayan məcburi köçkünlər daha əlverişsiz vəziyyətdədirlər". Samuel Hall, *Urban Poverty Report: A Study of Poverty, Food Insecurity and Resilience in Afghan Cities (report commissioned by Danish Refugee Council and People in Need)*, November 2014, http://samuelhall.org/wpcontent/uploads/2014/11/DRC-PIN-Urban-Poverty-Report.pdf, pp. 7-8.

[186] "Əfqanıstan şəhərlərinin vəziyyəti" adlı hesabatın birinci cildində bu qənaətlər yer alıb: "Şəhərlərdə yaşayan məcburi köçkünlər xüsusən köçkün düşmələrindən sonrakı birinci ildə son dərəcə əlverişsiz vəziyyətdə olurlar. Çox zaman şəxsiyyət sənədləri olmayan məcburi köçkünlər ədliyyə xidmətlərindən istifadə edərkən, uşaqlarını məktəbə yazdırarkən və rəsmi şəhər iqtisadiyyatı çərçivəsində güvənli iş tapmağa çalışarkən mühüm maneələrlə üzləşə bilərlər... Şəhər cəmiyyətinin həyatında iştirakdan əhəmiyyətli dərəcədə kənarda qalmış məcburi köçkünlər özlərinin müdafiəsi sahəsində ən müxtəlif problemlərlə üzləşirlər, buraya o cümlədən cinayətkarlığın yüksək səviyyəsi, təhlükəsizliyin olmaması, cinsi mənsubiyyətə əsaslanan zorakılıq (CMZ) riskinin artması, uşaqların istismarı, zərərli vərdişlər və qadın və qızların daha çox risk altında olması daxildir. Bundan əlavə, digər şəhər sakinləri ilə müqayisədə şəhərdə yaşayan məcburi köçkünlərin savadsızlıq səviyyəsi adətən xeyli yüksək olur və onlar hətta yoxsul şəhər sakinlərindən də "bilik və bacarıqlarına görə geri qalırlar". Government of the Islamic Republic of Afghanistan, *The State of Afghan Cities 2015*, September 2015, http://unhabitat.org/books/soac2015/, p. 17. Həmçinin bax: AIHRC, *A Report on the IDPs Situation in Afghanistan*, 19 December 2015, http://www.aihrc.org.af/home/press_release/5230; Samuel Hall, *Policy Brief: National Policy on IDPs in Afghanistan - From Policy to Implementation: Engaging with National Procedures, National and International Stakeholders in 2015*, 8 April 2015, http://samuelhall.org/REPORTS/Afghanistan%20National%20IDP%20Policy%20Brief.pdf, p. 7.

[187] ƏAŞ-ın bildirdiyinə görə, "məcburi köçkünlər və geri qayıtmış qaçqınlar onlara məxsus olmayan torpaqlarda qeyri-rəsmi yaşayış məskənləri salmağa başlayırlar. Şəhər ərazilərində onlar şəhərlərin artmaqda olan qeyri-rəsmi yaşayış məskənlərini inşa edən digər şəhər miqrantlarının sıralarına qoşulurlar". AAN, *Afghanistan's Returning Refugees: Why Are So Many Still landless?*, 29 March 2016, https://www.afghanistan-analysts.org/afghanistans-returning-refugees-why-are-so-many-stilllandless/. "2013-2014-cü illərdə əfqanların yaşayış şəraitinin tədqiqi"nin nəticələrinə əsasən, "hazırda xeyli sayda məcburi köçkünlər və keçmiş qaçqınlar ölkənin Kabul, Herat, Məzari-Şərif, Cəlalabad və Qəndəhar kimi əsas şəhərlərində və ya onların ətrafında yerləşən qeyri-rəsmi yaşayış məskənlərində yaşayırlar. Həqiqətən də qaçqınların repatriasiyası, məcburi köçkünlərin gəlişi və kənd yerlərindən şəhərə iqtisadi miqrasiya şəhər əhalisinin sürətlə artmasına təkan verib. Buna görə də ölkənin müəyyən ərazilərində mənzil şəraiti xüsusilə pisdir və yoxsul daxmalarının sayı xüsusilə çoxdur". Central Statistics Organization, *Afghanistan Living Condition Survey 2013-2014: National Risk and Vulnerability Assessment*, 2016, http://cso.gov.af/Content/files/ALCS%202013-14%20Main%20Report%20-%20English%20-%2020151221.pdf, p. 204. "Əfqanıstan şəhərlərinin vəziyyəti" adlı hesabatın birinci cildində deyilir: "Rəsmi mənzil bazarına daxil olmaq üçün vəsaitləri olmadığına görə məcburi köçkünlər çox vaxt qeyri-rəsmi yaşayış məskənlərində yaşamağa gəlirlər ki, burada da sudan və zəruri xidmətlərdən istifadə imkanları çox məhdud olur, yaşayış səviyyəsi standartdan aşağı olur, evlərdə sakinlərin sayı həddən artıq çox olur, mülkiyyət təminatı az olur və ya ümumiyyətlə olmur. Government of the Islamic Republic of Afghanistan, *The State of Afghan Cities 2015*, September 2015, http://unhabitat.org/books/soac2015/, p. 17. YUNİSEF Əfqanıstanda sürətli urbanizasiya ilə əlaqədar olaraq qeyd edir ki, "uşaqların sağlamlığı və zəruri xidmətlərə çıxışı baxımından məlumatlarda yer alan kəmiyyət göstəriciləri şəhər ərazilərinin daha yaxşı vəziyyətdə olduğunu göstərsə" də, həmin məlumatlarda müxtəlif qruplar arasındakı

olmaması, məlumatlara görə, məcburi köçkünləri və qeyri-rəsmi məskənlərin digər sakinlərini evdən çıxarılma və bir daha didərgin düşmə ilə bağlı davamlı hədə-qorxular qarşısında müdafiəsiz duruma salır.[188] Torpaqların, o cümlədən məcburi köçkünlər və qaçqınlar üçün ayrılmış torpaq sahələrinin zəbt edilməsi, məlumatlara görə, əlavə maneə təşkil edir.[189]

## F. Qaçqınlar və geri qayıdanlar

Əfqanıstanın qaçqın əhalisinin böyük əksəriyyətini (təxminən 95 faizini) Pakistan və İran qəbul etməkdə davam edir ki, bunların da ümumi sayı hesablamalara görə 2,5 milyon nəfərdir.[190] 2002-ci ildən bəri 5,8 milyondan artıq əfqanıstanlı qaçqın Əfqanıstana qayıdıb ki, bu da Əfqanıstan əhalisinin təxminən 20 faizini təşkil edir; onların böyük əksəriyyəti 2002-ci il ilə 2008-ci il arasında qayıdıblar.[191]

Əfqanıstanda vəziyyətin mürəkkəbliyi və bunun bütövlükdə regiona təsir göstərməsi səbəbindən İran İslam Respublikası, Əfqanıstan və Pakistan BMTQAK-ın dəstəyi ilə regiondakı əfqan qaçqınların problemlərinin uzunmüddətli həlli yollarını tapmaq və reallaşdırmaq üçün 2011-ci ildə dördtərəfli məşvərət prosesinə başladılar. Qonşu ölkələrdə əfqan qaçqınlar üçün sığınacaq məkanlarının qorunub saxlanması və Əfqanıstana könüllü surətdə qayıtmağı qərara alan əfqanların davamlı reinteqrasiyasının dəstəklənməsinə yönələn birgə müdaxilələr üçün hərtərəfli və inteqrativ sistemin təmin olunması məqsədi ilə "Könüllü repatriasiyanın dəstəklənməsi, davamlı reinteqrasiya və qəbuledici ölkələrə yardım yolu ilə Əfqanıstan qaçqınlarının

fərqlər göstərilməyib. Daha sonra YUNİSEF başqa yerlərdə məskunlaşma ilə əlaqədar olaraq qeyd edir ki, "çox vaxt ailələrin yoxsul daxmalarında məskunlaşmaqdan savayı başqa seçimi olmur və burada onlar layiqli mənzil şəraitindən, su mənbələrindən sanitariya qovşaqlarından, səhiyyə və təhsil xidmətlərindən məhrumdurlar. Mövcud torpaqların məhdudluğu insanları təhlükəli yerlərdə, məsələn, Kabul ətrafındakı sıldırım təpəliklərdə məskunlaşmağa vadar edir. Bu qeyri-rəsmi yaşayış məskənləri təbii təhlükələrə qarşı son dərəcə davamsız olmaları ilə xarakterizə olunur, məsələn, son dərəcə soyuq qış havası ilə, təmiz suya çıxışın məhdud olması ilə, ətraf mühitin qeyri-gigiyenik vəziyyətdə olması ilə səciyyələnir ki, bu da cəmiyyətin sağlamlığı ilə bağlı ciddi narahatlıqlar doğurur". UNICEF, *Children and Women in Afghanistan: A Situation Analysis 2014*, November 2014, http://www.unicef.org/afghanistan/SitAn_-_Long_Report-_small_size_.pdf, p. 31. In the cities of Herat and Helmand, the majority of IDPs reportedly live in informal settlements or "precarious open spaces". Samuel Hall Consulting, *Displacement Dynamics: IDP Movement Tracking, Needs and Vulnerability Analysis, Herat and Helmand Afghanistan*, May 2014, http://samuelhall.org/wp-content/uploads/2014/05/IDP-Movement-Tracking-Needs-and-Vulnerability-Analysis-Afghanistan.pdf, p. 47.

188 Məlumatlara görə, hökumətin hazırladığı "Torpaqların ayrılması planı" əsasında yurdlarına qayıdan torpaqsız şəxslərə və məcburi köçkünlərə istifadədə olmayan çoxlu torpaq sahələri və becərilməyən çoxlu dövlət torpaqları paylanıb, amma onların yalnız kiçik bir hissəsində məskunlaşmanın olduğu bildirilir. Government of the Islamic Republic of Afghanistan, *The State of Afghan Cities 2015*, September 2015, http://unhabitat.org/books/soac2015/, p. 17. Həmçinin bax: NRC/IDMC, *Still at Risk: Security of Tenure and the Forced Eviction of IDPs and Refugee Returnees in Urban Afghanistan*, 11 February 2014, http://www.refworld.org/docid/52fb2aab4.html, p. 17.

189 UNAMA-nın bildirdiyinə görə, nüfuzlu şəxslərin, o cümlədən dövlət məmurlarının qaçqınlar və məcburi köçkünlər üçün ayrılmış torpaqları şəxsi mənfəətləri naminə satdıqları barədə məlumatlar var. UNAMA, *The Stolen Lands of Afghanistan and its People – The State Land Distribution System*, March 2015, https://unama.unmissions.org/sites/default/files/unama_land_report_2_state_land_distribution_system_final_19march15_0.pdf, p. 30. Həmçinin bax: AAN, *Afghanistan's Returning Refugees: Why Are So Many Still landless?*, 29 March 2016, https://www.afghanistananalysts.org/afghanistans-returning-refugees-why-are-so-many-still-landless/.

190 Əfqanıstanlı qaçqınların təxminən 1,5 milyonu Pakistanda, təxminən 950.000-i isə İrandadır. Bundan əlavə, məlumatlara görə Pakistanda və İranda təxminən 2 milyon nəfər sənədsiz qaçqın yaşayır. UNHCR, *High-level Segment on the Afghan Refugee Situation: Background Document*, October 2015, http://www.unhcr.org/562a22979.html, p. 4.

191 Geri qayıdanların sayını göstərən rəqəmlər 2013 və 2014-cü illərdə qayıdışların azaldığını, 2015-ci ildə isə yenidən artdığını göstərir. UNHCR, *Solutions Strategy for Afghan Refugees Update 2015-2016*, August 2015, http://www.unhcr.org/542522922.html, p. 11. Hesab edilir ki, qonşu ölkələrdə, xüsusən Pakistanda sığınacaq məkanlarının azalması və yaşayış şəraitinin pisləşməsi 2015-ci ildə qayıdışların sayının artmasına şərait yaradıb. Bax: UNHCR, *Afghanistan - Volrep and Border Monitoring Monthly Update*, 01 January – 31 October 2015, 31 October 2015, http://www.refworld.org/docid/56459f4a4.html; HRW, *"What Are You Doing Here?" - Police Abuses Against Afghans in Pakistan*, 18 November 2015, http://www.refworld.org/docid/564eeb464.html.

problemlərinin həlli strategiyası" (SSAR) tərtib olundu.[192] Sonuncu xüsusən bu faktın işığında önəmlidir ki, əvvəlki illərdə geri qayıtmış bir çox əfqanlar, məlumatlara görə, birgə yaşadıqları icmalara yenidən inteqrasiya oluna bilməyiblər, naticədə əsasən şəhər ərazilərinə əlavə köçlər baş verib.[193] Geri qayıdanların Əfqanıstanda həyatlarını qurmaqda böyük çətinliklərlə üzləşdikləri bildirilir.[194] Məlumatlara əsasən geri qayıdanların təxminən 40 faizinin yaşayış üçün qazanc, ərzaq əldə etmək və sığınacaq tapmaq imkanları çox azdır.[195] Həm məcburi köçkünlərin, həm də qaçqınların geri qayıtması yolunda maneələrə bunlar daxildir: doğma ərazilərində təhlükəsizliyin təmin olunmaması; dolanacaq imkanlarının və əmlaklarının itirilməsi; səhiyyə və təhsil xidmətlərinə çıxışın olmaması; və torpaqlarını və mülkiyyətlərini geri tələb etməkdə çətinlik çəkmələri.[196]

BMTQAK hətta əlverişsiz vəziyyətlərdə belə hər kəsin öz doğma ölkəsinə qayıtmaq hüququnu tanıyır. Buna görə də BMTQAK Əfqanıstanla qonşu olan ölkələrdə qaçqın kimi qeydiyyata alınan, doğma yerlərindəki vəziyyətdən tam xəbərdar olan və könüllü olaraq Əfqanıstana qayıtmağı qərara alan əfqanlara dəstəyini davam etdirməyə hazırdır. Lakin hazırda BMTQAK-ın Əfqanıstandakı fəaliyyət şəraiti onun qaçqınların və Əfqanıstandakı məcburi köçkünlərin davamlı reinteqrasiyasına yönələn səylərini ciddi surətdə məhdudlaşdırır. Ümumiyyətlə, könüllü repatriasiya ilə sığınacaq barədə müraciəti rədd edilənlərin məcburi qayıdışı tamamilə fərqli xarakterli proseslərdir və müxtəlif iştirakçı subyektlərin fərqli vəzifələrini nəzərdə tutur. Buna görə də Əfqanıstana könüllü qayıtmağı qərara almış şəxslərə yardım göstərilməsində BMTQAK-ın iştirakı elə başa düşülməməlidir ki, o, sığınacaq axtardıqları ölkələrdə beynəlxalq müdafiə üçün müraciət etmiş hər kəs üçün Əfqanıstanı təhlükəsizlik və digər aspektlər baxımından münasib ölkə kimi qiymətləndirir.

---

[192] UNHCR, *Solutions Strategy for Afghan Refugees to Support Voluntary Repatriation, Sustainable Reintegration and Assistance to Host Countries*, May 2012, http://www.unhcr.org/pages/4f9016576.html; UNHCR, *Afghan Conference: Delegates Urged to Support New Solutions Strategy*, 2 May 2012, http://www.unhcr.org/4fa0e8319.html.

[193] USIP, *Peacebrief: The Forced Return of Afghan Refugees and Implications for Stability*, January 2016, http://www.usip.org/sites/default/files/PB199-The-Forced-Return-of-Afghan-Refugees-and-Implications-for-Stability.pdf, p. 3; OCHA, *The 2015 Afghanistan Refugee and Returnee Overview*, November 2014, https://docs.unocha.org/sites/dms/Afghanistan/2015%20Afghanistan%20Refugee%20and%20Returnee%20Overview.pdf, p. 66. Geri qayıdan köçkün ailələrin qırx doqquz faizi, məlumatlara görə, şəhər ərazilərində yerləşdirilib ki, bu göstərici şəhər yerlərində yaşayan əhalinin ümumi faiz göstəricisindən (24 faiz) iki dəfə çoxdur. Central Statistics Organization, *National Risk and Vulnerability Assessment 2011-12. Afghanistan Living Condition Survey*, 2014, http://www.af.undp.org/content/dam/afghanistan/docs/MDGs/NRVA%20REPORT-rev-5%202013.pdf, p. 27. Həmçinin bax: Susanne Schmeidl, *Heeding the Warning Signs: Further Displacement Predicted for Afghanistan*, May 2014, http://www.fmreview.org/en/afghanistan.pdf, p 42. Kabuldakı qeyri-rəsmi məskunlaşma yerləri üzrə işçi qrupunun məlumatına görə, "Kabuldakı qeyri-rəsmi məskunlaşma yerlərinin sakinlərinin çoxu Pakistandan və İrandan qayıdanlar, yaxud doğma vilayətlərindəki münaqişədən, təhlükəli vəziyyətdən və ya insan hüquqlarının pozuntularından qaçan məcburi köçkünlərdir". Task Force on Kabul Informal Settlements, *Winter Assistance to the Kabul Informal Settlements 2014/2015: Report on the Post-Distribution Monitoring Survey*, April 2015, http://reliefweb.int/sites/reliefweb.int/files/resources/pdm_kis_2015_-_final_report.pdf, p. 2.

[194] UNHCR, *High-level Segment on the Afghan Refugee Situation: Background Document*, October 2015, http://www.unhcr.org/562a22979.html, p. 6. IOM, *Undocumented Afghan Returns from Iran & Pakistan: January to June 2015*, 2015, https://afghanistan.iom.int/sites/default/files/Reports/undocumented_afghan_returns_from_iran_and_pakistan_jan-jun_2015.pdf; British and Irish Agencies Afghanistan Group (BAAG), *Finding a Way Home: The Situation for Young Afghan Returnees*, 12 August 2014, http://www.baag.org.uk/views-voices/finding-way-home-situation-young-afghan-returnees.

[195] AAN, *The Refugee Dilemma: Afghans in Pakistan between Expulsion and Failing Aid Schemes*, 9 March 2015, https://www.afghanistananalysts.org/the-refugee-dilemma-afghans-in-pakistan-between-expulsion-and-failing-aid-schemes/. Həmçinin bax: AIHRC, *The Situation of Economic and Social Rights in Afghanistan Sixth Report, 1390 – 91*, 10 August 2015, http://www.aihrc.org.af/media/files/Research%20Reports/english/Economic%20and%20Social%20Rights%20Report_English.pdf, p. 39.

[196] UNHCR, *Afghanistan - VolRep and Border Monitoring Monthly Update, 01 January—30 November 2015*, 30 November 2015, http://www.refworld.org/docid/5671309e4.html; UNHCR, *Durable Solutions for IDPs in Afghanistan: A Secondary Data Analysis*, November 2015, http://www.refworld.org/docid/5655550a4.html.

Sığınacaq üçün müraciətləri rədd edilərək məcburi qaydada Qərb ölkələrindən Əfqanıstana qaytarılan əfqanıstanlı sığınacaq axtaranların vəziyyətini izləmək üçün sistematik səylər göstərilməsə də, geri qayıdanların seçilmiş qruplarının vəziyyətinin araşdırılması təşəbbüsləri göstərir ki, onların böyük əksəriyyəti son nəticədə yenidən ölkəni tərk edir və ya tərk etmək niyyətində olur.[197]
2014-cü ildə Avropa, Şimali Amerika, Okeaniya və Asiyanın 44 ölkəsində sığınacaq üçün müraciət etmiş bütün sığınacaq axtaranlar arasında Əfqanıstandan olan sığınacaq axtaranlar üçüncü ən böyük qrup olaraq qalır, onlar sığınacaq üçün təxminən 59.500 ərizə veriblər.[198] Qlobal səviyyədə götürsək, 2015-ci ilin birinci yarısında əfqanlar sığınacaq üçün təxminən 72.100 ərizə veriblər ki, bu da 2014-cü ilin eyni dövrünün göstəricisinə (26.500) nisbətən əhəmiyyətli artım deməkdir.[199]

## III. Beynəlxalq müdafiə ilə təmin edilmə meyarlarına uyğunluq

Əfqanıstandan qaçmış insanlar Əfqanıstanda davam edən silahlı münaqişə səbəbindən, yaxud münaqişə ilə birbaşa əlaqədar olmayan insan hüquqlarının pozuntuları ucbatından, yaxud da eyni vaxtda bu iki səbəbdən təqib təhlükəsi altında ola bilərlər.

BMTQAK hesab edir ki, bu bölmədə qeyd edilən siyahıdakı meyarlara (profillərə) uyğun gələn şəxslərin məruz qala biləcəyi təhlükələr xüsusi diqqətlə araşdırılmalıdır. Lakin buradakı siyahı bu sənəd yazıldığı zaman BMTQAK-ın sərəncamında olan məlumatlar əsasında hazırlanıb və tam olmaya da bilər. Buna görə də, sığınacaq üçün müraciət edən şəxsin sadəcə burada göstərilən şəxslər arasında olmaması o demək deyil ki, avtomatik olaraq onun ərizəsinə mahiyyəti üzrə baxılmamalıdır.
Araşdırılan işin konkret hallarından asılı olaraq, təhlükə altında olan şəxslə əlaqələri ucbatından siyahıdakı şəxslərin ailə üzvlərinin və ya digər qohumlarının da beynəlxalq müdafiəyə ehtiyacı ola bilər.

Əfqanıstan qeyri-beynəlxalq silahlı münaqişənin təsirinə məruz qalmaqda davam edir.[200] Bu münaqişə kontekstində zorakılıqdan və ya zorakılığa məruz qalma təhlükəsindən qurtulmaq üçün qaçan şəxslər 1951-ci il Konvensiyasının 1-ci maddəsinin "A" bəndinin 2-ci yarımbəndində yer

[197] Londonun Siti Universitetində çalışan d-r Liza Şuster sığınacaq üçün müraciətləri rədd edilərək Kabula qayıtmış 100-ə yaxın sığınacaq axtaranlarla müsahibə aparıb və müəyyən edib ki, "müsahibə aparılmış insanların böyük əksəriyyəti yenidən ölkəni tərk etməyə cəhd göstəriblər və onların 80%-ə yaxını buna nail olublar". Bureau of Investigative Journalism, *From Kent to Kabul: The Former Asylum Seeking Children Sent Back to Afghanistan*, July 2015, http://labs.thebureauinvestigates.com/from-kent-to-kabul/. Birləşmiş Krallıqdan Əfqanıstana qayıtmış əfqanlar qrupunun sonrakı taleyini izləmiş Qaçqınlara Dəstək Şəbəkəsinin (QDŞ) məlumatına əsasən, geri qayıdanların əksəriyyəti yenidən Əfqanıstanı tərk etmək niyyətində olublar. RSN, *After Return: Documenting The Experiences of Young People Forcibly Removed to Afghanistan*, April 2016, https://refugeesupportnetwork.org/sites/default/files/files/After%20Return_RSN_April%202016.pdf, pp. 6, 7, 19, 30, 43. Həmçinin bax: Reuters, *Sent Back from Europe, Some Afghans Prepare to Try Again*, 16 November 2015, http://www.reuters.com/article/2015/11/16/usafghanistan-migrants-insight-idUSKCN0T50E020151116; Peace Research Institute Oslo (PRIO), *Can Afghans Reintegrate after Assisted Return from Europe?*, July 2015, http://file.prio.no/publication_files/PRIO/Oeppen%20-%20Can%20Afghans%20Reintegrate%20after%20Assisted%20Return%20from%20Europe,%20PRIO%20Policy%20Brief%207-2015.pdf; BBC, *The Young People Sent Back to Afghanistan*, 17 July 2015, http://www.bbc.com/news/magazine-33524193; UNHCR, *Why Do Children Undertake the Unaccompanied Journey?*, December 2014, PDES/2014/03, http://www.refworld.org/docid/54994d984.html, p. 21.
[198] UNHCR, *Asylum Trends 2014: Levels and Trends in Industrialized Countries*, June 2015, http://www.unhcr.org/551128679.html, p. 16.
[199] UNHCR, *Mid-Year Trends 2015*, December 2015, http://www.unhcr.org/56701b969.html, p. 13.
[200] UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, p. 71. Misal üçün bu mənbəyə bax: Robin Geiß and Michael Siegrist, "Has the Armed Conflict in Afghanistan Affected the Rules on the Conduct of Hostilities?", *International Review of the Red Cross*, Vol. 93, No. 881, March 2011, http://www.refworld.org/docid/511e1ecc2.html.

alan qaçqın statusu meyarlarına uyğun gələ bilərlər. Bunun üçün şəxsin zorakılıqla əlaqədar təqibdən ehtiyatlanması üçün səbəblər 1-ci maddənin "A" bəndinin 2-ci yarımbəndində göstərilən səbəblər arasında olmalıdır. Əfqanıstan kontekstində mülki şəxslərin 1951-ci il Konvensiyasında nəzərdə tutulmuş səbəbdən zorakılığa məruz qalması hallarına aid nümunələr sırasına elə hallar aiddir ki, bu zaman müəyyən etnik, siyasi və ya dini qrupa mənsub olan mülki şəxslərin çoxluq təşkil etdiyi, yaxud bu qruplara mənsub olan mülki şəxslərin daha çox toplaşdığı ərazilər (o cümlədən bazarlar, məscidlər, məktəblər, yaxud iri ictimai toplantı yerləri, məsələn, toy mərasimi keçirilən yerlər) zorakılığın hədəfi olur. Şəxsin qaçqın statusu meyarlarına cavab verməsi üçün belə bir tələb qoyulmur ki, təqibi həyata keçirənlər onu şəxsən tanımalı və ya şəxsən axtarmalıdırlar. Eynilə, bütöv icmalar 1951-ci il Konvensiyasında nəzərdə tutulmuş bir və ya daha artıq səbəbdən təqibə məruz qalma ilə bağlı əsaslı olaraq ehtiyatlana bilərlər. Həmçinin belə bir tələb də qoyulmur ki, zərər çəkən şəxsin məruz qaldığı ziyan onunla eyni qrupa mənsub olan digər şəxslərin məruz qaldığı ziyandan forma və ya dərəcəsinə görə fərqlənməlidir.[201]

Zorakılıqlardan qurtulmaq üçün qaçan mülki şəxslərə 1951-ci il Konvensiyasının 1-ci maddəsinin "A" bəndinin 2-ci yarımbəndinin şamil olunması üçün zorakılıqlar təqibə bərabər tutula biləcək dərəcədə ciddi olmalıdır. Ayrılıqda və ya məcmu halında götürülməklə zorakı hərəkətlərin təsirinə və ya nəticələrinə mütəmadi olaraq məruz qalma təhlükəsi 1951-ci il Konvensiyasının 1-ci maddəsinin "A" bəndinin 2-ci yarımbəndində nəzərdə tutulmuş təqibə bərabər sayıla bilər. Əfqanıstandakı münaqişə kontekstində zorakılıqların mülki şəxslər üçün doğurduğu nəticələrin təqib sayılacaq həddə çatan dərəcədə ciddi olub-olmadığının müəyyənləşdirilməsində əhəmiyyətli amillər sırasına bunlar daxildir: mülki şəxslər arasında xəsarət alanların və ölənlərin sayı, təhlükəsizliklə əlaqədar insidentlərin sayı, habelə insanların həyatına və ya azadlığına təhlükə yaradan və ya onlara digər şəkildə ziyan yetirən, beynəlxalq humanitar hüququn ciddi pozuntusunu təşkil edən hərəkətlər. Lakin bu mülahizələr zorakılıqların birbaşa təsirləri ilə məhdudlaşmır, onlar həm də münaqişə ilə bağlı zorakılıqların uzunmüddətli və dolayı təsirlərini, o cümlədən münaqişənin insan hüquqları ilə bağlı vəziyyətə təsirini və dövlətin insan hüquqlarını müdafiə etmək imkanlarına bu və ya digər dərəcədə göstərdiyi mənfi təsiri əhatə edir. Əfqanıstandakı münaqişə kontekstində bu baxımdan əhəmiyyətli amillər sırasına bunlar daxildir:

1) mülki əhali üzərində nəzarətin AHE-lərin əlində olması, o cümlədən paralel ədliyyə strukturlarının tətbiq edilməsi və qanunsuz cəzaların təyin olunması, habelə mülki şəxslərin qorxudulması və təhdid edilməsi, hərəkət azadlığının məhdudlaşdırılması, qanunsuz olaraq ödənişlər alınması və vergilərin qoyulması;
2) döyüşçülər sırasına məcburi qaydada cəlb edilmə;
3) zorakılığın və təhlükəli durumun humanitar vəziyyətə təsir göstərməsi və bunun ərzaq təhlükəsizliyinin olmamasında, yoxsulluğun olmasında və dolanacaq vasitələrinin məhv edilməsində özünü büruzə verməsi;
4) mütəşəkkil cinayətkarlığın səviyyəsinin artması və hökumətin nəzarət etdiyi ərazilərdə nüfuzlu şəxslərin, hərbi rəislərin və korrupsiyaya uğramış hökumət məmurlarının cəzasız fəaliyyət göstərmək imkanına malik olması;
5) qeyri-sabitlik nəticəsində təhsil və ya ən zəruri tibbi xidmət almaq imkanlarının sistematik olaraq məhdudlaşdırılması; və
6) insanların, xüsusən də qadınların ictimai həyatda iştirak etmək imkanlarının sistematik olaraq məhdudlaşdırılması.[202]

Sığınacaq axtaranların sığınacaq tələbatları ilə bağlı bütün iddiaları istər 1951-ci il

[201] Canada: Federal Court, *Ralph Prophète v. The Minister of Citizenship and Immigration*, 2008 FC 331, 12 March 2008, http://www.refworld.org/docid/54c109a24.html.

[202] UNHCR, *Summary Conclusions on International Protection of Persons Fleeing Armed Conflict and Other Situations of Violence; Roundtable 13 and 14 September 2012, Cape Town, South Africa*, 20 December 2012, http://www.refworld.org/docid/50d32e5e2.html, paras. 10-12. Həmçinin bu *Rəhbər prinsiplərin* II.B bölməsinə bax.

Konvensiyasında, qaçqınlara dair regionla sənədlərdə, BMTQAK-ın mandatında yer alan qaçqınlıq meyarları əsasında, istərsə də daha geniş beynəlxalq müdafiə meyarları, o cümlədən əlavə müdafiə formaları əsasında qaçqın statusunun müəyyənləşdirilməsinə dair ədalətli və effektiv prosedurlara uyğun surətdə və yenilənən informasiyalar və müvafiq mənşə ölkəsi barədə müvafiq məlumatlar əsasında mahiyyəti üzrə nəzərdən keçirilməlidir. BMTQAK hesab edir ki, aşağıda göstərilən şəxslər üçün təhlükələrin mövcudluğu məsələsinin xüsusi diqqətlə araşdırılması tələb olunur. Əfqanıstandan olan sığınacaq axtaranların müraciətlərinə baxılarkən qaçqın statusunun verilməsini istisna edən halların nəzərdən keçirilməsi tələb oluna bilər (III.D bölməsinə bax).

Qaçqın kimi tanınmış şəxsin statusuna yalnız aşağıdakı hallarda yenidən baxıla bilər:

1) konkret halda birinci instansiyada səhvən verilmiş qaçqın statusunun ləğvi üçün əsasların olduğunu göstərən əlamətlər varsa;
2) qaçqın statusu 1951-ci il Konvensiyasının 1-ci maddəsinin "F" bəndində göstərilən əsaslara görə ləğv edilməlidirsə; yaxud
3) qaçqın statusuna 1951-ci il Konvensiyasının 1-ci maddəsinin "C" bəndinin 1-4-cü yarımbəndlərində göstərilən əsaslara görə xitam verilməlidirsə.[203]

BMTQAK hesab edir ki, Əfqanıstandakı cari vəziyyət 1951-ci il Konvensiyasının 1-ci maddəsinin "C" bəndinin 5-ci yarımbəndi əsasında qaçqın statusuna xitam verilməsinə əsas vermir.

## A. Potensial risk altında olan şəxslər

### *1. Hökumətlə və beynəlxalq birliklə, o cümlədən beynəlxalq hərbi qüvvələrlə əlaqəli olan və ya onları dəstəklədiyi hesab edilən şəxslər*

Məlumatlara əsasən, AHE-lər Əfqanıstan hökuməti ilə, yaxud Əfqanıstanın vətəndaş cəmiyyəti ilə və Əfqanıstandakı beynəlxalq birlik təmsilçiləri ilə, o cümlədən beynəlxalq hərbi qüvvələrlə və beynəlxalq humanitar və inkişaf təşkilatları ilə əlaqəli olan və ya onları dəstəklədiyi hesab edilən mülki şəxsləri sistematik olaraq hədəfə alırlar.[204] 2015-ci ildə UNAMA konkret hədəfli qətllərlə və ya bu cür qətllərə cəhdlərlə əlaqədar insidentlərdə 1.335 mülki şəxsin həlak olmasına və ya xəsarət almasına (790 nəfərin ölümünə və 545 nəfərin xəsarət almasına) görə məsuliyyəti AHE-lərin üzərinə qoydu, bunların arasında Taliban 336 mülki şəxsin həlak olmasına və ya xəsarət almasına (168 nəfərin ölümünə və 168 nəfərin xəsarət almasına) səbəb olmuş 135 insidentə görə məsuliyyəti öz üzərinə götürdü. 2014-cü ildən bəri bu cür ölüm və ya xəsarət hallarının sayı 25 faiz artdığı halda (716 ölüm və 353 xəsarət halları), baş verməsinə görə məsuliyyəti Talibanın öz üzərinə götürdüyü insidentlərin sayı 59 faiz artıb.[205] UNAMA həmçinin 2015-ci ildə konkret hədəfə yönələn və biləraəkdən törədilən qətl halları nəticəsində 26 mülki şəxsin həlak olmasına və ya xəsarət almasına (17 nəfərin ölümünə və doqquz nəfərin xəsarət almasına) görə məsuliyyəti İŞİD-lə əlaqəli qrupların üzərinə qoydu.[206] Belə hücumların əsas

[203] Qaçqınların statusuna dair Konvensiya, 28 iyul 1951-ci il (Convention Relating to the Status of Refugees, 28 July 1951, United Nations Treaty Series, vol. 189, p. 137), http://www.refworld.org/docid/3be01b964.html.
[204] UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, pp. 42-43; UNAMA, *Afghanistan: Human Rights and Protection of Civilians in Armed Conflict Special Report on Kunduz Province*, December 2015, http://www.refworld.org/docid/566fd0e64.html, pp. 13-18; UN Secretary-General, *The Situation in Afghanistan and its Implications for International Peace and Security: Report of the Secretary-General*, 10 June 2015, A/69/929 – S/2015/422, http://www.refworld.org/docid/558284aa4.html, paras 18, 32-33.
[205] UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, p. 43; UNAMA, *Afghanistan: Annual Report 2014, Protection of Civilians in Armed Conflict*, February 2015, http://www.refworld.org/docid/54e44e274.html, p. 55.
[206] UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, p. 56.

hədəfləri arasında milli və yerli siyasi liderlər, hökumət məmurları, müəllimlər və digər mülki dövlət qulluqçuları, iş başında olmayan polis əməkdaşları, tayfa ağsaqqalları, dini liderlər, ictimai sahələrdə çalışan qadınlar, hökumətyönlü qüvvələrə casusluq etməkdə ittiham olunan mülki şəxslər, hüquq-müdafiə fəalları, humanitar və inkişaf təşkilatlarının işçiləri və inşaat işçiləri var.[207]

22 aprel 2015-ci ildə Taliban elan etdi ki, onun yaz hücum kampaniyasının hədəfində, əvvəlki illərdə olduğu kimi, konkret olaraq dövlət məmurları və hökuməti və beynəlxalq birlik təmsilçilərini dəstəklədiyi hesab edilən digər şəxslər olacaq.[208] Mülki şəxslər arasında ölüm və xəsarət hallarını azaltmaq niyyətində olduğunu bəyan etməsinə baxmayaraq,[209] Talibanın konkret olaraq beynəlxalq humanitar hüququn müdafiəsinin şamil olunduğu mülki şəxsləri və mülki obyektləri hədəfə aldığı barədə məlumatlar daxil olmaqda davam edir.[210] 2015-ci ildə Taliban mülki şəxslər arasında ölüm və xəsarətlərə səbəb olmuş iki insidentdə təqsirkar olduğunu etiraf etdi, amma məlumatlara görə bu insidentlərin mülki şəxslərə təsirinin miqyasını xeyli az göstərdi.[211]

Məlumatlara görə, məqsədyönlü qətllərlə yanaşı, anti-hökumət elementləri həmçinin icmaları və fərdləri qorxutmaq üçün hədə-qorxu və təhdidlərdən istifadə edir, insanları oğurlayır və

---

[207] UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, pp. 43, 84; UNAMA, *Afghanistan: Annual Report 2014, Protection of Civilians in Armed Conflict*, February 2015, http://www.refworld.org/docid/54e44e274.html, pp. 43, 55-56, 108.

[208] 2015-ci ildə "Əzm" yaz hücum kampaniyası elan olunarkən bəyan edildi ki, "xarici işğalçılar, eləcə də onların daxili marionetləri" davamlı cihadın hədəfləri olacaqlar və "Əzm" əməliyyatlarının hədəfləri kimi "marionet rejimin rəsmiləri ... və digər ziyanverici şəxslər" göstərildi. *Statement by the Leading Council of the Islamic Emirate Regarding the Inauguration of Spring Operations Called 'Azm' (Resolve)*, 22 April 2015, http://shahamat-english.com/english/index.php/paighamoona/54149-statement-by-the-leading-council-of-the-islamic-emirate-regarding-theinauguration-of-spring-operations-called-%E2%80%98azm%E2%80%99-resolve. 2014-cü ilin yaz hücum kampaniyası elan olunarkən bəyan edilmişdi ki, hücumların əsas hədəfləri "xarici işğalçılar və onların müxtəlif adlarla fəaliyyət göstərən tərəfdarları, yəni casuslar, hərbi və mülki podratçılar, habelə tərcüməçi, inzibatçı və ya logistika işçisi kimi onlarla işləyən hər bir kəsdir". *Statement of Leadership Council of Islamic Emirate Regarding the Commencement of the Annual Spring Operation Named 'Khaibar'*, 8 May 2014, http://shahamatenglish.com/english/index.php/paighamoona/44468-statement-of-leadership-council-of-islamic-emirate-regarding-the-commencement-ofthe-annual-spring-operation-named-%E2%80%98khaibar%E2%80%99. 2016-cı ilin yaz hücum kampaniyasının bəyanatında isə, əksinə, Talibanın əməliyyatlarının konkret hədəfləri barədə heç bir təfsilat yoxdur: *Statement by Leadership Council of Islamic Emirate Regarding Inauguration of Spring Offensive Entitled "Operation Omari"*, 12 April 2016, http://shahamat-english.com/statement-by-leadershipcouncil-of-islamic-emirate-regarding-inauguration-of-spring-offensive-entitled-operation-omari/; həmçinin bax: AAN, *Operation Omari: Taleban Announces 2016 Spring Offensive*, 14 April 2016, https://www.afghanistan-analysts.org/operation-omari-taleban-announces-2016-springoffensive/.

[209] 2016-cı ilin yaz hücum kampaniyası elan olunarkən bəyan edildi ki, "mücahidlərə birmənalı təlimat verilib ki, əməliyyatlarını həyata keçirərkən mülki şəxsləri və mülki infrastrukturu qorumağa çalışsınlar". *Statement by Leadership Council of Islamic Emirate Regarding Inauguration of Spring Offensive Entitled "Operation Omari"*, 12 April 2016, http://shahamat-english.com/statementby-leadership-council-of-islamic-emirate-regarding-inauguration-of-spring-offensive-entitled-operation-omari/. Eynilə, 2015-ci ilin yaz hücum kampaniyası elan olunarkən bəyan edilmişdi ki, "mülki əhalinin həyatını və əmlakını qorumağa və müdafiə etməyə" və "məscidləri, mədrəsələri, məktəbləri, universitetləri, klinikalar və xəstəxanalar kimi səhiyyə mərkəzlərini, ictimai binaları və əhalinin rifahına xidmət edən digər obyektləri" hədəfə almaqdan çəkinməyə birinci dərəcəli prioritet veriləcək. *Statement by the Leading Council of the Islamic Emirate Regarding the Inauguration of Spring Operations Called 'Azm' (Resolve)*, 22 April 2015, http://shahamatenglish. com/english/index.php/paighamoona/54149-statement-by-the-leading-council-of-the-islamic-emirate-regarding-the-inauguration-ofspring-operations-called-%E2%80%98azm%E2%80%99-resolve.

[210] UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, p. 54. Həmçinin bax: UN Secretary-General, *The Situation in Afghanistan and its Implications for International Peace and Security: Report of the Secretary-General*, 10 June 2015, A/69/929 – S/2015/422, http://www.refworld.org/docid/558284aa4.html, para. 34.

[211] UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, p. 54.

yanğınlar törədir və beləliklə onların hakimiyyətinə və ideyalarına etiraz edənləri hədəfə alaraq təsir dairələrini və nəzarətlərini genişləndirirlər.[212]

*a) Dövlət məmurları və mülki qulluqçular*

2014 və 2015-ci illərdə UNAMA yerüstü döyüşlər zamanı AHE-lər tərəfindən mülki dövlət qulluqçularının, eləcə də mülki hökumət idarələrinin və digər binaların bilərəkdən hədəfə alınması hallarını qeydə alıb.[213]
Mülki dövlət qulluqçularının bilərəkdən törədilən qətllərin qurbanı olması halları tez-tez baş verir.[214] AHE-lər yerli, vilayət və milli hakimiyyət səviyyələrində siyasətçiləri və hökumət məmurlarını, o cümlədən parlament üzvlərini,[215] YSŞ-nin üzvlərini,[216] habelə vilayət və rayon qubernatorlarını və bələdiyyə şurası üzvlərini hədəfə alırlar.[217]
Xüsusilə hökumət tərəfindən təyin olunan hakimlər və prokurorlar hədəfə alınırlar, belə ki, UNAMA 2015-ci ildə hakimlərə, prokurorlara və məhkəmə orqanlarına qarşı yönələn

---

212 UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, pp. 34, 48-50; UNAMA, *Afghanistan: Annual Report 2014, Protection of Civilians in Armed Conflict*, February 2015, http://www.refworld.org/docid/54e44e274.html, pp. 24, 67; UN Secretary-General, *The Situation in Afghanistan and its Implications for International Peace and Security: Report of the Secretary-General*, 10 June 2015, A/69/929 – S/2015/422, http://www.refworld.org/docid/558284aa4.html, para. 22.

213 UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, p. 46; UNAMA, *Afghanistan: Human Rights and Protection of Civilians in Armed Conflict Special Report on Kunduz Province*, December 2015, http://www.refworld.org/docid/566fd0e64.html, p. 18; UNAMA, *Afghanistan: Midyear Report 2015, Protection of Civilians in Armed Conflict*, August 2015, http://www.refworld.org/docid/55c1bdc4d.html, p. 33; UNAMA, *Afghanistan: Annual Report 2014, Protection of Civilians in Armed Conflict*, February 2015, http://www.refworld.org/docid/54e44e274.html, p. 32.

214 UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, pp. 44-46; UNAMA, *Afghanistan: Annual Report 2014, Protection of Civilians in Armed Conflict*, February 2015, http://www.refworld.org/docid/54e44e274.html, p. 55. Məlumatlara görə 2014-cü ildə TBYQ ölkədən çıxarıldıqdan sonra Talibanın taktikası dəyişib və ƏMTQ və hökumət rəsmiləri onun birinci dərəcəli hədəfinə çevrilib. UN Secretary-General, *The Situation in Afghanistan and its Implications for International Peace and Security: Report of the Secretary-General*, 10 June 2015, A/69/929 – S/2015/422, http://www.refworld.org/docid/558284aa4.html, para. 12.

215 22 iyun 2015-ci ildə Taliban Kabul şəhərində Əfqanıstan parlamentinə hücum edərkən partlayıcı qurğulardan, kiçik çaplı silahlardan və çiyində gəzdirilən qumbaraatanlardan istifadə edərək iki mülki şəxsi öldürüb, 39 nəfərə isə xəsarət yetirib. UNAMA, *Afghanistan: Midyear Report 2015, Protection of Civilians in Armed Conflict*, August 2015, http://www.refworld.org/docid/55c1bdc4d.html, p. 64.

216 YSŞ-nin bildirdiyinə görə, 2010-cu ildə proqramın icrasına başlanandan bəri 17 vilayətdə onun vilayət sülh komitələrinin 33 üzvü qətlə yetirilib. Pajhwok Afghan News, *Huge Expenses on Afghan Peace Effort Achieve Little Gains*, 30 August 2015, http://www.pajhwok.com/en/2015/08/30/huge-expenses-afghan-peace-effort-achieve-little-gains. 20 iyul 2015-ci ildə mərkəzi Maydan Vardak vilayətindən olan YSŞ üzvü Kabulda naməlum hücumçular tərəfindən qətlə yetirilib. Pajhwok Afghan News, *Wardak Peace Emissary Gunned Down in Kabul*, 21 July 2015, http://www.pajhwok.com/en/2015/07/21/wardak-peace-emissary-gunned-down-kabul. 12 fevral 2015-ci ildə Qəndəharda YSŞ üzvü qətlə yetirilib. Radio Free Europe/Radio Liberty, *Afghan Peace Council Member Killed*, 13 February 2015, http://www.refworld.org/docid/5509409542.html.

217 Törədilməsinə görə məsuliyyəti Talibanın öz üzərinə götürdüyü Zabul vilayətinin cənubunda vilayət şurası idarəsinə 25 may 2015-ci ildə edilmiş hücumda ən azı 65 mülki şəxs xəsarət aldı. Pajhwok Afghan News, *68 Injured as Truck Bomb Hits Zabul PC Office*, 25 May 2015, http://www.pajhwok.com/en/2015/05/25/68-injuredtruck-bomb-hits-zabul-pc-office. 17 mart 2015-ci ildə Hilmənd vilayətində intiharçı tərəfindən qubernatorun, vilayət şurası başçısının və vilayətin polis rəisinin müavininin yaşadıqları yaşayış kompleksinin yaxınlığında yük avtomobilinə qoyulmuş bomba partlayaraq yeddi nəfəri öldürdü və 40 nəfərə xəsarət yetirdi. Məlumatlara görə hücumun hədəfi insan alveri və insan oğurluğu ilə bağlı seminara toplaşmış yüksək vəzifəli dövlət rəsmiləri, vətəndaş cəmiyyətinin üzvləri və jurnalistlər idi. Agence France-Presse, *Seven Killed, 41 Injured in Afghan Truck Bomb: Officials*; 18 March 2015, http://reliefweb.int/report/afghanistan/seven-killed-41-injured-afghan-truck-bomb-officials.

hücumlarda 188 mülki şəxsin öldüyü və ya xəsarət aldığı (46 ölüm və 142 xəsarət halı) barədə məlumat verib ki, bu da 2014-cü ildən bəri 109 faiz artım deməkdir.[218]

Müəllimlər, məktəb mühafizəçiləri və Təhsil Nazirliyinin məmurları,[219] eləcə də səhiyyə işçiləri,[220] digər mülki qulluqçular və hətta müqaviləli işçilər[221] bir çox hallarda hücumların hədəfi olublar.

*b) ƏMP və ƏYP-nin üzvləri*[222]

---

[218] UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, p. 45.

[219] UNAMA və YUNİSEF 2016-cı ilin aprelində məlumat veriblər ki, "şagirdlər də daxil olmaqla təhsil personalı hökumət tərəfindən verilən təhsillə əlaqəli olduqlarına görə anti-hökumət elementlərinin birbaşa hücumları və təhdidləri ilə üzləşməkdə davam edirlər. Məsələn, UNAMA Əfqanıstan hökuməti tərəfindən işə götürülmüş müəllimlərin anti-hökumət elementləri tərəfindən hökumətin tərəfini tutmaqda təqsirləndirilərək qətlə yetirildiyi, döyüldüyü, oğurlandığı və ya hədələndiyi çoxsaylı halları qeydə alıb". UNAMA, *Education and Healthcare At Risk: Key Trends and Incidents Affecting Children's Access to Healthcare and Education In Afghanistan*, 18 April 2016, https://unama.unmissions.org/sites/default/files/education_and_healthcare_at_risk.pdf, p. 10. Məlumatlara əsasən İŞİD-lə əlaqəli olan qruplar 2015-ci ilin avqustunda Nənqərhar vilayətində məktəbləri bağlamaq barədə əmrlərinə əməl etməyəcəkləri təqdirdə müəllimləri sərt cəza ilə hədələyən toplantılar keçirərək 25 təhsil müəssisəsini zorla bağlatdırıblar. Bəzi müəllimlərə həmçinin telefonla zəng edərək onları ölümlə hədələyiblər. UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, p. 19. BMT-nin Təhlükəsizlik Şurasının 1612 saylı qətnaməsi əsasında fəaliyyət göstərən Əfqanıstandakı monitorinq və hesabat üzrə işçi qrupu 2015-ci il mayın 1-dən oktyabrın 31-dək məktəblərə və təhsil personalına qarşı 74 hücumu qeydə alıb. İnsidentlərin çoxunda AHE-lər və xüsusən Taliban təqsirkar sayılıblar. UN General Assembly, *The Situation in Afghanistan and Its Implications for International Peace and Security*, 10 December 2015, http://www.refworld.org/docid/5672ac7c4.html, para. 34; UN General Assembly, *The Situation in Afghanistan and Its Implications for International Peace and Security*, 1 September 2015, http://www.refworld.org/docid/55f677871e.html, para. 28. 1 sentyabr 2010-cu ildən 31 dekabr 2014-cü ilədək işçi qrupu "təhsil personalının silahlı müxalif qruplar, o cümlədən Taliban tərəfindən qətlə yetirildiyi və xəsarət aldığı 111 insidenti və oğurlandığı 36 insidenti qeydə alıb". Bu insidentlərin çoxunun 2011-ci ildə baş verdiyi və 2013-cü ilədək insidentlərin sayının azaldığı bildirilsə də, 2014-cü ildə artım barədə məlumat verilib. İşçi qrupu həmçinin "məlumatlara görə təhsil personalının və şagirdlərin hədələndiyi və hədələrin çoxunun qızların təhsilinə qarşı yönəldiyi 62 insidentdən 23-ünü yoxlayıb". Məsələn, 2014-cü ilin avqustunda Zabul vilayətinin Şah Coy rayonunda taliblər zorla məktəbə daxil olublar, məktəbdə dərs deməsinə son qoyması barədə qabaqcadan xəbərdarlıqlar almış 32 yaşlı kişi müəllimi oğurlayıblar və sonradan qətlə yetiriblər. UN Secretary-General, *Report of the Secretary-General on Children and Armed Conflict in Afghanistan*, 15 May 2015, S/2015/336, http://www.refworld.org/docid/55965b254.html, paras 45-46.

[220] UNAMA və YUNİSEF 2015-ci ildə səhiyyə işçilərinin oğurlandığı 66 halı qeydə alıblar ki, bu da 2013 və 2014-cü illərdən bəri kəskin artım deməkdir. 2013-cü ildən 2015-ci ilədək baş vermiş bu oğurluq hallarının birindən başqa hamısında AHE-lər təqsirkar sayılıb. UNAMA, *Education and Healthcare At Risk: Key Trends and Incidents Affecting Children's Access to Healthcare and Education In Afghanistan*, 18 April 2016, https://unama.unmissions.org/sites/default/files/education_and_healthcare_at_risk.pdf, p. 10. UNAMA 2015-ci ildə xəstəxanaların və səhiyyə personalının AHE-lər tərəfindən hədəfə alınması hallarının artdığını qeydə alıb (63 belə insident baş verib ki, bu da 2014-cü ildən bəri 47 faiz artım deməkdir və bu insidentlərin 36-sı Taliban döyüşçüləri, 12-si isə İŞİD-lə əlaqəli olan döyüşçülər tərəfindən törədilib). Bu insidentlər arasında səhiyyə işçilərinə və müəssisələrinə qarşı hədələmə və qorxutma hallarının sayının artdığı bildirilir (2014-cü ildəki 14 insidentlə müqayisədə 2015-ci ildə 31 insident baş verib). UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, p. 20. Məlumatlara görə 2014-cü ildə ən azı 10 səhiyyə işçisi qətlə yetirilib, 14 nəfər isə oğurlanıb. İnsidentlərin 38-ində silahlı qruplar, o cümlədən 13-ündə Taliban təqsirkar sayılıb. UN Secretary-General, *Children and Armed Conflict: Report of the Secretary-General*, 5 June 2015, A/69/926–S/2015/409, http://www.refworld.org/docid/557abf904.html, para. 34.

[221] 2014 və 2015-ci illərdə UNAMA mülki podratçılara və işçilərə qarşı yönələn 19 (2014-cü ildə 12, 2015-ci ildə 7) hücum qeydə alıb ki, bunlara görə məsuliyyəti Taliban öz üzərinə götürüb. UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, p. 84; UNAMA, *Afghanistan: Annual Report 2014, Protection of Civilians in Armed Conflict*, February 2015, http://www.refworld.org/docid/54e44e274.html, p. 108. Məlumatlara görə hökumətin mülki podratçıları oğurlanma hallarının hədəfi olurlar. UNAMA, *Afghanistan: Midyear Report 2015, Protection of Civilians in Armed Conflict*, August 2015, http://www.refworld.org/docid/55c1bdc4d.html, p. 59. 2016-cı ilin yanvarında müqavilə ilə hökumət üçün işləyən işçi, məlumatlara görə, Talibandan xəbərdarlıqlar aldıqdan sonra qətlə yetirilib. Pajhwok News, *1 Worker Killed, Another Wounded in Taliban Attack*, 19 January 2016, http://www.pajhwok.com/en/2016/01/19/1-worker-killed-another-wounded-taliban-attack.

Əfqanıstanın təhlükəsizlik qüvvələri, xüsusən ƏMP getdikcə daha çox məqsədyönlü hücum kampaniyalarının hədəfinə çevrilir.[223] 2014-cü ildə xarici döyüş qüvvələrinin çoxu ölkədən çıxarıldığına görə polisin qərargahları və nəzarət-buraxılış məntəqələri AHE-lərin hücumuna getdikcə daha çox məruz qalır.[224] ƏMP-nin əməkdaşları istər vəzifə başında ikən, istərsə də vəzifə başında olmayanda hücumların hədəfi olurlar.[225]

ƏYP üzvləri də bir çox hallarda hədəfə alınırlar.[226] Çox zaman ƏYP üzvləri daha çox qeyri-sabit olan ərazilərdə yerləşdirildiyinə görə, hesablamalar belə düşünməyə əsas verir ki, onlar arasında ölüm və xəsarət hallarının sayı ƏMTQ-nin digər üzvlərinə nisbətən üç dəfə çoxdur.[227] Həmçinin məlumat verilir ki, Əfqanıstanda AHE-lər polis qüvvələrinin əməkdaşlarını,[228] habelə ƏMTQ-nin keçmiş üzvlərini hədəfə alırlar.[229]

---

222 UNAMA-nın bildirdiyinə görə, "döyüş əməliyyatlarında birbaşa iştirak etməyən və qiyamçılara qarşı əməliyyatlara cəlb olunmayan mülki polis personalı" mülki şəxslər sayılır. UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, p. 75.

223 "Nyu-York Tayms" məlumat verib ki, 2015-ci ilin birinci altı ayı ərzində 4.100 əfqan hərbçisi və polisi qətlə yetirilib, təxminən 7.800 nəfər isə yaralanıb ki, bu da 2014-cü ilin eyni dövrü ilə müqayisədə 50 faiz artım deməkdir. New York Times, *Afghan Security Forces Struggle Just to Maintain Stalemate*, 22 July 2015, http://www.nytimes.com/2015/07/23/world/asia/afghan-security-forces-struggle-just-to-maintain-stalemate.html. 1 oktyabr 2014-cü ildə hədəfi ƏMP olan maqnitli ƏPQ Gündüz vilayətinin Gündüz şəhərindəki bankın yaxınlığında partladı, nəticədə 16 mülki şəxs öldü və ya xəsarət aldı (bir nəfər öldü və biri qadın və ikisi uşaq olmaqla 15 nəfər xəsarət aldı). Taliban hücuma görə məsuliyyəti öz üzərinə götürdü və beş ƏMP üzvünü öldürdüyünü bəyan etdi. UNAMA, *Afghanistan: Annual Report 2014, Protection of Civilians in Armed Conflict*, February 2015, http://www.refworld.org/docid/54e44e274.html, p. 50.

224 7 avqust 2015-ci ildə intiharçı üzərində gəzdirdiyi bombanı Kabulda polis akademiyasının kənarında polis kursantları arasında partlatdı. UNAMA-nın məlumatına əsasən, 57 mülki şəxs öldü və ya yaralandı, qeyri-mülki şəxslər arasında xəsarət alan olmadı. Taliban hücuma görə məsuliyyəti öz üzərinə götürdü. AAN, *The Triple Attack in Kabul: A Message? If So, to Whom?*, 10 August 2015, https://www.afghanistan-analysts.org/the-triple-attack-in-kabul-a-message-if-so-to-whom/. Həmçinin bax: Radio Free Europe/Radio Liberty, *Deadly Bomb Blast Hits Afghan Police Checkpoint*, 6 July 2015, http://www.refworld.org/docid/55b5f45b11.html; The Guardian, *Taliban Kill 20 Afghan Police Officers in Attacks on Checkpoints*, 13 June 2015, http://www.theguardian.com/world/2015/jun/13/taliban-kill-20-afghan-police-officers-in-attacks-on-checkpoints.

225 17 may 2015-ci ildə Laqman vilayətində AHE-lər vəzifə başında olmayan ƏMP üzvü qaçmağa cəhd edərkən ona atəş açdılar və 12 yaşlı qızı yaraladırlar. UNAMA, *Afghanistan: Midyear Report 2015, Protection of Civilians in Armed Conflict*, August 2015, http://www.refworld.org/docid/55c1bdc4d.html, p. 61. 2014-cü ildə UNAMA AHE-lərin ƏMP əməkdaşlarına qarşı apardığı yerüstü döyüşlər nəticəsində mülki şəxslər arasında 525 ölüm və xəsarət hallarını (201 mülki şəxsin öldüyünü və 324 nəfərin xəsarət aldığını) qeydə alıb ki, bu da 2013-cü ildən bəri 27 faiz artım deməkdir. Mülki şəxslərdən ölən və xəsarət alanlar arasında hücumun baş verdiyi yerin yaxınlığında olanlar, ictimai asayişin mühafizəsini həyata keçirən ƏMP üzvləri, yaxud vəzifə başında olmayan ƏMP əməkdaşları olublar. UNAMA, *Afghanistan: Annual Report 2014, Protection of Civilians in Armed Conflict*, February 2015, http://www.refworld.org/docid/54e44e274.html, p. 32.

226 Məlumatlara görə 2015-ci ilin iyul ayının birinci həftəsində ən azı 30 ƏYP üzvü qətlə yetirildi, belə ki, qiyamçı taliblər Maydan Vardak vilayətində polisin nəzarət-buraxılış məntəqələrinə koordinasiyalı hücumlara başlamışdılar. Los Angeles Times, *Afghan Fighters Accuse Kabul of Neglect in Deadly Battle with Taliban*, 5 July 2015, http://www.latimes.com/world/afghanistan-pakistan/la-fg-afghan-fighters-kabul-neglect-20150705-story.html. 23 noyabr 2014-cü ildə Paktika vilayətində voleybol oyununa baxmaq üçün toplaşmış 400 nəfərlik kütlənin arasında intiharçının bombası partladıldı, belə hesab edilir ki, hücumun hədəfi ƏYP üzvləri idi. UNAMA 138 mülki şəxs arasında ölüm və xəsarət hallarını qeydə aldı, onlardan onu ƏYP üzvləri idi. UNAMA, *Afghanistan: Annual Report 2014, Protection of Civilians in Armed Conflict*, February 2015, http://www.refworld.org/docid/54e44e274.html, p. 53.

227 International Crisis Group, *The Future of the Afghan Local Police, 4 June 2015*, http://www.refworld.org/docid/55702a544.html, p. 8.

228 18 noyabr 2014-cü ildə Baqlan vilayətində buzkaşi oyununun keçirildiyi stadionda ƏPQ partlayaraq 24 mülki şəxsə (o cümlədən üç oğlana) xəsarət yetirdi. UNAMA məlumat verdi ki, görünür hücumun əsas hədəfləri orada olan Əfqanıstan Milli Asayiş Polisinin üzvləri idi. UNAMA, *Afghanistan: Annual Report 2014, Protection of Civilians in Armed Conflict*, February 2015, http://www.refworld.org/docid/54e44e274.html, p. 50.

229 Məsələn, 2016-cı ilin fevralında Taliban ƏYP sıralarında ona qarşı vuruşmuş 10 yaşlı oğlanın qətlinə görə məsuliyyəti öz üzərinə götürdü. Oğlan qətlə yetirildiyi zaman döyüşdən qayıtmışdı və məktəbə gedirdi. New York Times, *Taliban Gun Down 10-Year-Old Militia Hero in Afghanistan*, 2 February 2016,

*c) ƏMTQ ilə və ya hökumətyönlü qüvvələrlə əlaqəli olan və ya onları dəstəklədiyi hesab edilən mülki şəxslər*

Çoxsaylı məlumatlara əsasən AHE-lər hökumətyönlü qüvvələrlə, o cümlədən ƏMTQ ilə əməkdaşlıq etməkdə və ya "onlara casusluq etməkdə" şübhəli bilinən mülki şəxsləri hədəfə alırlar.[230]

*d) Beynəlxalq hərbi qüvvələrlə əlaqəli olan və ya onları dəstəklədiyi hesab edilən mülki şəxslər*

Məlumatlara əsasən, AHE-lər beynəlxalq hərbi qüvvələr üçün sürücü, tərcüməçi vəzifəsində və ya digər mülki vəzifələrdə çalışan əfqanıstanlı mülki şəxsləri hədələyir və onlara hücum edirlər.[231] Həmçinin məlumatlar var ki, AHE-lər beynəlxalq qüvvələrin və hökumətin keçmiş işçilərini hədəfə alırlar.[232]

---

http://www.nytimes.com/2016/02/03/world/asia/afghanistan-taliban-child-soldiers.html. Dawn, *Taliban Suicide Attack Kills Five in Afghanistan*, 8 October 2014, http://www.dawn.com/news/1136627. Məlumatlara əsasən 2014-cü ilin avqustunda Loqar vilayətində ƏMO-nun keçmiş əsgəri tibb klinikasına daxil olmuş silahlı şəxslər tərəfindən güllələndi. AAN, *The Empty Street of Mohammad Agha: Logar Struggle Against the Taleban*, 15 December 2014, https://www.afghanistan-analysts.org/the-empty-streets-of-mohammad-agha-logars-struggle-against-the-taleban/.

[230] 2015-ci ildə UNAMA şəriət qanunlarını pozduqları, cinayət sayılan əməl törətdikləri və casusluq etdikləri iddia edilən mülki şəxslərin AHE-lər tərəfindən cəzalandırıldığı 44 insidenti qeydə alıb. UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, p. 50. UNANA məlumat verib ki, oğurlanmış şəxslərin öldürülməsi çox zaman onlar hökumətyönlü qüvvələrə casusluq etməkdə ittiham olunduqdan sonra baş verir. UNAMA, *Afghanistan: Midyear Report 2015, Protection of Civilians in Armed Conflict*, August 2015, http://www.refworld.org/docid/55c1bdc4d.html, p. 61. 2014-cü ildə UNAMA AHE-lərin hökumətə casusluqda ittiham etdikləri, yaxud Əfqanıstan milli təhlükəsizlik qüvvələrini dəstəklədiklərinə görə cəzalandırdıqları 16 şəxsin başının onlar tərəfindən kəsildiyi 11 insidenti qeydə aldı. Məsələn, 2014-cü ilin avqustunda Fərəh vilayətində AHE-lər yerli mollanın başını kəsdilər, məlumatlara görə, Talibanın təhdidlərinə baxmayaraq, o, Əfqanıstan milli təhlükəsizlik qüvvələrinin üzvlərinin dəfn ayinlərini icra etməkdə davam edirdi. UNAMA, *Afghanistan: Annual Report 2014, Protection of Civilians in Armed Conflict*, February 2015, http://www.refworld.org/docid/54e44e274.html, p. 56. Məlumatlara görə 2015-ci ildə Məcburi köçkünlər üzrə milli işçi qrupu tərəfindən durumu tədqiq edilmiş məcburi köçkünlər hökuməti və hökumətyönlü qüvvələri dəstəklədikləri hesab edildiyinə görə AHE-lər tərəfindən hədələnib və qorxudulublar. Misal üçün bax: UNHCR, *Afghanistan: Conflict-Induced Internal Displacement Monthly Update*, September 2015, http://www.refworld.org/docid/565554b14.html. Məlumatlara əsasən Taliban hökumət tərəfindən idarə olunan telekommunikasiya xidmətlərindən istifadə etdiklərinə görə insanları hədələyib və qətlə yetirilib, çünki onların hökumətə casusluq etməsindən şübhələnib. Pajhwok News, *Kapisa Residents Resent Taliban Ban Salam Operations*, 17 January 2016, http://www.pajhwok.com/en/2016/01/17/kapisa-residents-resent-taliban-ban-salamoperations.

[231] Beş müstəqil mənbənin təsdiqlədiyi məlumatlara əsasən, ən azı dörd tərcüməçi xüsusi mühacir vizası (*SIV*) proqramı əsasında onlara ABŞ-a köçmək hüququ verəcək qərarın qəbulunu gözlədikləri dövrdə qiyamçı taliblər tərəfindən qətlə yetiriliblər. Voice of America, *Where the Grave Isn't Free: One Afghan Interpreter's Trials of US Resettlement*, 22 April 2015, http://www.voanews.com/content/afghan-interpreters-translators-siv-special-immigrant-visa/2729110.html. Beynəlxalq Sinxron Tərcüməçilər Assosiasiyasının (*AIIC*) prezidenti Linda Fitçettin məlumatına əsasən, yazılı və şifahi tərcüməçilərin beynəlxalq qoşunlarla göz önündə olan əməkdaşlığı onları hədəfə çevirir. Onun hesablamalarına görə, müharibə başlayandan bəri bir neçə yüz tərcüməçi qətlə yetirilib, bir neçə min nəfər isə yaralanıb. Deutsche Welle, *Interpreters Are Caught in the Crossfire in Afghanistan*, 7 August 2014, http://www.dw.com/en/interpreters-arecaught-in-the-crossfire-in-afghanistan/a-17839085. Həmçinin bax: BBC News, *Left to the Mercy of the Taliban*, 26 November 2014, http://www.bbc.com/news/magazine-30215500.

[232] 2015-ci ilin avqustunda məlumat verildi ki, Britaniya ordusunun Hilmənd vilayətindəki tərcüməçisi Taliban tərəfindən casusluqda təqsirləndirilərək öz evində qətlə yetirilib. The Telegraph, *Britain 'Owes Afghan Interpreters a Debt of Honour'*, 29 August 2015. 2014-cü ildə taliblər Oruzqan vilayətində qüvvələrinin sayını artırdılar, məlumatlara əsasən onlar beynəlxalq qüvvələr və ya hökumət üçün işləyən və ya işləmiş 116 şəxsin adının olduğu geniş siyahı tutmuşdular. Taliblər tələb etdilər ki, taleləri barədə qərar verilməsi üçün bu şəxslər özləri onların yanına gəlsinlər. AAN, *The Empty Street of Mohammad Agha: Logar Struggle against the Taleban*, 15 December 2014, https://www.afghanistan-analysts.org/the-empty-streets-of-mohammad-agha-logars-struggle-against-the-taleban/. Danimarka ordusunun keçmiş tərcüməçisi, iddia edildiyinə görə, 2013-cü ildə Kabulda Taliban tərəfindən

*e) Humanitar və inkişaf təşkilatlarının əməkdaşları*

Məlumatlara əsasən anti-hökumət elementləri beynəlxalq və ya Əfqanıstan humanitar təşkilatlarının işçiləri olan mülki şəxsləri;[233] o cümlədən BMT-nin nəzdindəki təşkilatlar üçün işləyən Əfqanıstan vətəndaşlarını;[234] beynəlxalq inkişaf agentliklərinin əməkdaşlarını;[235] milli və beynəlxalq qeyri-hökumət təşkilatlarının (QHT) əməkdaşlarını;[236] habelə yük maşını sürücülərini, inşaat işçilərini və minalarla əlaqədar layihələrə və digər inkişaf layihələrinə cəlb olunan şəxsləri[237] hədəfə alırlar. Məlumatlara görə belə şəxslər qətlə yetirilir, oğurlanır və təhdid edilirlər.

*f) Hüquq müdafiə fəalları*

Məlumatlara əsasən AHE-lər hüquq müdafiə fəallarını hədəfə alırlar və bu fəallar onları hədəfə alan hücumlar zamanı qətlə yetirilir və ya xəsarət alırlar.[238] Qadın hüquqlarının müdafiəçilərinin xüsusilə yüksək risk altında olduqları bildirilir.[239]

---

oğurlanmışdı. The Guardian, *Afghan Exodus Grows as Taliban Gains Ground and Hope for Future Diminishes*, 29 October 2015, http://www.theguardian.com/global-development/2015/oct/29/afghanexodus-grows-taliban-gain-ground-refugees.

[233] UNAMA-nın bildirdiyinə görə, 2015-ci ilin birinci altı ayında 15 insan oğurluğu hadisəsi zamanı AHE-lərin hədəfi humanitar təşkilatların işçiləri olub. UNAMA, *Afghanistan: Midyear Report 2015, Protection of Civilians in Armed Conflict*, August 2015, http://www.refworld.org/docid/55c1bdc4d.html, p. 63.

[234] Məlumatlara əsasən 2015-ci ilin sentyabrında Gündüzə hücum zamanı Taliban hədəflərinin siyahısını öncədən hazırlamışdı və oraya UNAMA-nın əməkdaşları da daxil idi. UN Secretary-General, *The Situation in Afghanistan and Its Implications for International Peace and Security: Report of the Secretary-General*, 10 December 2015, A/70/601–S/2015/942, http://www.refworld.org/docid/5672ac7c4.html, para. 31. 2015-ci ilin martından mayınadək Birləşmiş Millətlər Təşkilatının personalı ilə bağlı 27 təhlükəsizlik insidentinin baş verdiyi bildirilib. UN Secretary-General, *The Situation in Afghanistan and Its Implications for International Peace and Security: Report of the Secretary-General*, 10 June 2015, A/69/929 – S/2015/422, http://www.refworld.org/docid/558284aa4.html, para. 24.

[235] 13 may 2015-ci ildə Kabulda beş əfqanıstanlının və doqquz xarici vətəndaşın qətlə yetirilməsinə səbəb olmuş otelə hücumdan sonra Taliban bəyanat verdi ki, əcnəbilərlə işləyən əfqanları, o cümlədən yardım işçilərini "muzdlu nökərlər" və hədəfə alınmağa layiq olan şəxslər kateqoriyasına aid edib. HRW, *Afghanistan: The Taliban's Deadly Hypocrisy*, 18 May 2015, http://www.hrw.org/news/2015/05/18/afghanistan-talibans-deadly-hypocrisy.

[236] UNAMA, *Afghanistan: Human Rights and Protection of Civilians in Armed Conflict Special Report on Kunduz Province*, December 2015, http://www.refworld.org/docid/566fd0e64.html, p. 16. 2 iyun 2015-ci ildə Bəlx vilayətinin şimalında Əfqanıstan hökumətinin təşəbbüsü olan "Milli həmrəylik proqramı" çərçivəsində çalışan doqquz nəfər yardım işçisi yardım agentliyinin ərazisinə daxil olmuş silahlılar tərəfindən qətlə yetirildi. New York Times, *Gunmen in Northern Afghanistan Kill 9 Local Aid Workers*, 2 June 2015, http://www.nytimes.com/2015/06/03/world/asia/afghanistan-aid-workers-killed-in-attack.html. 2014-cü ildə UNAMA minaları zərərsizləşdirən şəxsləri bilərəkdən hədəfə alan və 51 mülki şəxsin ölümünə və ya xəsarət almasına (34 nəfərin ölümünə və 17 nəfərin xəsarət almasına) səbəb olan 17 hücum qeydə aldı. Bu hücumlar AHE-lər tərəfindən həyata keçirilmiş və onlardan ikisinə görə məsuliyyəti Taliban açıq şəkildə öz üzərinə götürmüşdü. Məsələn, 13 dekabr 2014-cü ildə AHE-lər Hilmənd vilayətinin Va Şer rayonunda partlamamış mərmiləri zərərsizləşdirən şəxslər qrupuna atış açaraq onlardan 11 nəfərini öldürmüş, digər altısını yaralamışdılar. UNAMA, *Afghanistan: Annual Report 2014, Protection of Civilians in Armed Conflict*, February 2015, http://www.refworld.org/docid/54e44e274.html, p. 23.

[237] UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, p. 84; UNAMA, *Afghanistan: Annual Report 2014, Protection of Civilians in Armed Conflict*, February 2015, http://www.refworld.org/docid/54e44e274.html, pp. 55, 108.

[238] Bax: United Kingdom: Foreign and Commonwealth Office, *Human Rights and Democracy Report - Afghanistan*, 12 March 2015, http://www.refworld.org/docid/551a53045e.html; Freedom House, *Freedom in the World 2015 - Afghanistan*, 20 March 2015, http://www.refworld.org/docid/55116f4111.html. 26 oktyabr 2015-ci ildə Nənqərhar vilayətində ƏMİHK qrupunun mini-avtobusunun altına qoyulmuş məsafədən idarə olunan partlayıcı qurğu partladığı zaman ƏMİHK-nın iki əməkdaşı qətlə yetirildi, digər altı əməkdaşı isə xəsarət aldı. UN News Service, *UN Condemns Attack on Human Rights Workers in Afghanistan that Killed Two, Injured Six*, 26 October 2015, http://www.refworld.org/docid/562f417840b.html. Məlumatlara görə 2015-ci ilin sentyabrında Gündüzə hücum zamanı Taliban qüvvələri "qara siyahı" tutmuş və oraya fəalların, jurnalistlərin və mülki qulluqçuların adlarını və fotolarını daxil etmişdilər. Amnesty International, *Afghanistan: Harrowing Accounts Emerge of the Taliban's Reign*

*g) Hökuməti və ya beynəlxalq birliyin təmsilçilərini dəstəklədiyi hesab edilən digər mülki şəxslər*

Məlumatlara əsasən, anti-hökumət elementləri ona görə mülki şəxsləri bilərəkdən qətlə yetirirlər ki, hökuməti dəstəklədiklərinə görə onları cəzalandırsınlar və bu cəza digərlərinə xəbərdarlıq məqsədi daşıyır.[240] Həmçinin məlumat verilir ki, AHE-lər vətəndaşlara hökuməti dəstəkləməmələri barədə xəbərdarlıq etmək üçün yazılı mətnlər formasında müraciətlərdən, yerli radio yayımından və "gecə məktublarından" (*şab nameha*) istifadə edirlər.[241] Anti-hökumət elementlərinin ictimai dəstək qazana bilmədikləri yerlərdə, məlumatlara əsasən, onlar yerli icmaları təqib və təhdid edir və hökuməti dəstəkləyən yerli əhaliyə qarşı cəzalar təyin edirlər.[242]

---

*of Terror in Kunduz*, 1 October 2015, https://www.amnesty.org/en/latest/news/2015/10/afghanistan-harrowing-accounts-emerge-of-the-talibans-reign-of-terror-in-kunduz/.

[239] Bax: UNAMA, *Afghanistan: Human Rights and Protection of Civilians in Armed Conflict Special Report on Kunduz Province*, December 2015, http://www.refworld.org/docid/566fd0e64.html, p. 15; UNAMA, *UN Special Representative Nicholas Haysom on Murder of UNAMA Staff Member in Kandahar*, 25 October 2015, https://unama.unmissions.org/un-special-representative-nicholas-haysom-murder-unama-staffmember-kandahar; Amnesty International, *Afghanistan: Their Lives on the Line: Women Human Rights Defenders under Attack in Afghanistan*, 7 April 2015, ASA 11/1279/2015, http://www.refworld.org/docid/55277ff24.html; International Foundation for the Protection of Human Rights Defenders, *Human Rights Defenders, Lives in the Balance*, 14 January 2015, https://www.frontlinedefenders.org/sites/default/files/annual_report_2014_final_revised.pdf, p. 8.

[240] 2015-ci ilin mayında Taliban tərəfindən bir mühəndisin başının kəsilməsinin şahidi olmuş kənd ağsaqqalının sözlərinə görə, Taliban komandiri Taliban üzvünə göstəriş vermişdi ki, həmin mühəndisin hökuməti dəstəklədiyi hesab edildiyinə görə ona cəza təyin edildiyini qeydə alsın. Məlumata əsasən Taliban üzvü bu barədə yazının qeydə alındığı kağız parçasını qurbanın bədəni üzərinə bənd etmişdi. UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, p. 50. UNAMA, *Afghanistan: Annual Report 2014, Protection of Civilians in Armed Conflict*, February 2015, http://www.refworld.org/docid/54e44e274.html, p. 56. Seçki dövründə seçki işçiləri AHE-lər tərəfindən xüsusi olaraq hədəfə alınıblar. Məsələn, UNAMA 2014-cü il seçkiləri ilə bağlı məlumat verib ki, "aprelin 5-də keçirilmiş prezident seçkilərində və vilayət şuralarına seçkilərdə və iyunun 14-də keçirilmiş prezident seçkilərinin ikinci turunda UNAMA anti-hökumət elementlərinin seçki prosesini hədəfə alan yerüstü hücumları ilə bağlı 242 insident qeydə alıb. Hücumlar nəticəsində 380 mülki şəxs qətlə yetirilib və ya xəsarət alıb (74 nəfər ölüb, 306 nəfər isə xəsarət alıb). UNAMA, *Afghanistan: Annual Report 2014, Protection of Civilians in Armed Conflict*, February 2015, http://www.refworld.org/docid/54e44e274.html, pp. 32-33, 55. Qəndəhar vilayətinin Zəhri rayonunun yerli sakinlərinin sözlərinə görə, Taliban üzvü öldüyü təqdirdə taliblər casus olduğunu iddia etdikləri şəxsi cəzalandırmaq üçün kəndləri axtarırlar. Rahmatullah Amir, *Continuing Conflict, Continuing Displacement in Southern Afghanistan*, May 2014, http://www.fmreview.org/sites/fmr/files/FMRdownloads/en/afghanistan.pdf, p. 8.

[241] Misal üçün bax: Washington Post, *A New Islamic State Radio Station Spreads Panic in Eastern Afghanistan*, 22 December 2015, https://www.washingtonpost.com/world/asia_pacific/a-new-islamic-state-radio-station-spreads-panic-in-easternafghanistan/2015/12/21/f41ecf96-a75c-11e5-b596-113f59ee069a_story.html; New York Times, 18 October 2015, *Taliban Threats to Afghan Journalists Show Shift in Tactics*, http://www.nytimes.com/2015/10/19/world/asia/taliban-threats-to-afghan-journalists-show-shiftin-tactics.html; and *Fear of Taliban Drives Women Out of Kunduz*, 14 October 2015, http://www.nytimes.com/2015/10/15/world/asia/taliban-targeted-women-kunduz-afghanistan.html; Immigration and Refugee Board of Canada, *Afghanistan: Night letters [Shab Nameha, Shabnamah, Shabnameh], Including Appearance (2010-2015)*, 10 February 2015, http://www.refworld.org/docid/54f02a6c4.html; VICE news, *The Afghan Interpreters Facing Taliban Death Threats Are Taking Britain to Court*, 16 January 2015, https://news.vice.com/article/the-afghan-interpreters-facing-taliban-death-threats-are-taking-britain-to-court. Taliban "gecə məktublarını" yaymaq praktikasına son qoyduğunu iddia etdiyi halda, məlumatlara əsasən Nənqərhar və Kunar vilayətlərində İŞİD tərəfindən bu cür məktublar yayılmaqdadır. Foreign Policy, *In Nangarhar, IS Recruits Amidst Af-Pak Border Tensions*, 24 November 2015, http://foreignpolicy.com/2015/11/24/in-nangarhar-is-recruits-amidst-af-pak-border-tensions/; Islamic Emirate of Afghanistan, *Notice by Islamic Emirate Concerning Countrymen Fleeing Afghanistan*, 20 December 2015, http://shahamat-english.com/notice-by-islamic-emirateconcerning-countrymen-fleeing-afghanistan/; Associated Press, *Afghans Seeking Asylum Buy Fake Taliban Threat Letters*, 22 November 2015, http://bigstory.ap.org/article/6c4fd4eae7284ac9b9453ce0040457dc/afghans-seeking-asylum-buy-fake-taliban-threat-letters.

[242] 2014-cü il avqustun 1-dən dekabrın 31-dək UNAMA Talibana siyasi cəhətdən müxalif olduqlarına və ya müxalif fikirlər ifadə etdiklərinə görə mülki şəxslərin evlərinin Taliban üzvləri tərəfindən yandırıldığı 10 insidenti qeydə alıb. Bu hücumlara məruz qalan icmalar və mülki şəxslər evlərin yandırılmasını qorxu yaymaq məqsədi daşıyan və

Məlumatlara görə hökumət üçün "casusluq etməkdə" ittiham olunan mülki şəxslər anti-hökumət elementlərinin idarə etdiyi paralel və qanunsuz məhkəmə strukturları vasitəsilə sadələşdirilmiş icraat qaydasında mühakimə olunurlar və bu cür "cinayətlərə" görə cəza adətən edam cəzası olur.[243]

*h) Tayfa ağsaqqalları və dini liderlər*

Məlumatlara əsasən AHE-lər hökuməti və ya beynəlxalq birlik təmsilçilərini dəstəklədiyi güman edilən, yaxud AHE-ləri dəstəkləməyən ənənəvi yerli liderləri, məsələn, tayfa ağsaqqallarını hədəfə alırlar.[244]

Məlumat verilir ki, anti-hökumət elementləri həmçinin hökumətyönlü hesab edilən, yaxud konkret olaraq islama onlarınkından fərqli şərh verdikləri düşünülən dini liderləri də hədəfə alırlar.[245] Məlumatlara görə, imamlar ƏMTQ üzvləri üçün və Taliban tərəfindən qətlə yetirilmiş şəxslər üçün dini mərasimləri icra etdiklərinə görə hədəfə alınırlar.[246]

---

hökumət tərəfdarı olduqları hesab edilən şəxsləri və ailələri kollektiv surətdə cəzalandırmağa xidmət edən hərəkət kimi qeyd edirlər. UNAMA, *Afghanistan: Annual Report 2014, Protection of Civilians in Armed Conflict*, February 2015, http://www.refworld.org/docid/54e44e274.html, p. 67. ƏAŞ məlumat verir ki, "Məhəmməd Ağa rayonunda hər kəs gecə gələn "qonaqların" qayğısına qalmalıdır. Ərazidə gəzib-dolaşan taliblər olan bu müsafirlər rayonda patrulluq edir və mütəmadi olaraq qapıları döyüb ərzaq istəyirlər. Paytaxt Kabulun cənub-şərqində yerləşən Loqar vilayətinin bu rayonundakı kəndlilər kömək etməkdən imtina etdikdə hökumət casusları kimi damğalanmaq və cəzalandırılmaq təhlükəsi ilə üzləşirlər, bu o deməkdir ki, onlar döyülə və ya hətta öldürülə bilərlər. AAN, *The Empty Streets of Mohammad Agha: Logar's Struggle against the Taleban*, 15 December 2014, https://www.afghanistan-analysts.org/the-empty-streets-of-mohammad-agha-logars-struggle-against-thetaleban/.

[243] 2015-ci ildə UNAMA şəriət qanunlarını pozduqları, cinayət sayılan əməl törətdikləri və casusluq etdikləri iddia edilən mülki şəxslərin AHE-lər, o cümlədən Taliban tərəfindən paralel ədliyyə strukturları vasitəsilə cəzalandırıldığı 44 insidenti qeydə alıb. UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, p. 50. 2014-cü ildə Taliban 15 oğlanı oğurlayaraq hökumətin casusları olmaqda ittiham etdi. UN Secretary-General, *Children and Armed Conflict: Report of the Secretary-General*, 5 June 2015, A/69/926–S/2015/409, http://www.refworld.org/docid/557abf904.html, para. 36. 2014-cü ildə UNAMA AHE-lər tərəfindən 17 mülki şəxsin başının kəsildiyi 12 insidenti qeydə alıb. Səbəbi müəyyənləşdirilməyən bir insidentdən savayı qalan hallarda bu əmələ görə məsuliyyət daşıyan AHE-lər mülki şəxsləri hökumətə casusluq etməkdə və ya ƏMTQ-ni dəstəkləməkdə təqsirləndirərək oğurlayıblar və başlarını kəsiblər. Məsələn, 10 dekabr 2014-cü ildə Nənqərhar vilayətinin Deh Bala rayonunun Şexa zonasında başı kəsilmiş mülki şəxsin bədəni tapılıb. Sakinlər təsdiq ediblər ki, həmin kişi Talibanın hökumətə casusluq etməkdə və yardım göstərməkdə təqsirləndirdiyi mülki avtomobil sürücüsü olub. 5 dekabr 2014-cü ildə AHE qrupu Nənqərhar vilayətinin Deh Bala rayonunda mülki şəxs olan dörd kişini oğurlayıb. 8 dekabr 2014-cü ildə yerli sakinlər bu dörd qurbanın başı kəsilmiş bədənini tapıblar və Talibanın bu şəxsləri hökumətə casusluq etməkdə və yardım göstərməkdə təqsirləndirdiyini bildiriblər. UNAMA, *Afghanistan: Annual Report 2014, Protection of Civilians in Armed Conflict*, February 2015, http://www.refworld.org/docid/54e44e274.html, p. 56.

[244] UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, p. 84; UNAMA, *Afghanistan: Annual Report 2014, Protection of Civilians in Armed Conflict*, February 2015, http://www.refworld.org/docid/54e44e274.html, pp. 43, 55, 108. Məlumatlara görə İŞİD-lə əlaqəli olduqları iddia edilən qruplar Əfqanıstanın şərqində tayfa başçılarını hədəfə alıblar və qətlə yetiriblər. New York Times, *Afghan ISIS Branch Makes Inroads in Battle against Taliban*, 13 October 2015, http://www.nytimes.com/2015/10/14/world/asia/afghan-isis-branch-makes-inroads-in-battle-against-taliban.html.

[245] UNAMA-nın bildirdiyinə görə, "bilərəkdən mollaları və ibadət yerlərini hədəfə alan hücumlar 2015-ci ildə bir qədər azalıb, bu dövrdə UNAMA mülki şəxslər arasında 56 ölüm və xəsarət (42 ölüm və 14 xəsarət) hallarını qeydə alıb ki, bu da 2014-cü ilə nisbətən səkkiz faiz azalma deməkdir". UNAMA daha sonra qeyd edib ki, "bilərəkdən din xadimlərini hədəfə alan hücumlar nəticəsində mülki şəxslər arasında ölüm və xəsarət hallarının ümumi sayında azalma olsa da, ölüm hallarının ümumi sayı iki dəfədən çox artaraq 2014-cü ildəki 19 ölümdən 2015-ci ildə 42-yə çatıb". UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, pp. 46-47. Həmçinin bax: UNAMA, *Afghanistan: Annual Report 2014, Protection of Civilians in Armed Conflict*, February 2015, http://www.refworld.org/docid/54e44e274.html, p. 58.

[246] UNAMA, *Afghanistan: Midyear Report 2015, Protection of Civilians in Armed Conflict*, August 2015, http://www.refworld.org/docid/55c1bdc4d.html, p. 56; UNAMA, *Afghanistan: Annual Report 2014, Protection of Civilians in Armed Conflict*, February 2015, http://www.refworld.org/docid/54e44e274.html, p. 56.

*i) İctimai sahələrdə çalışan qadınlar*

Qadınların 2001-ci ildən bəri Əfqanıstan hökumətində və vətəndaş cəmiyyətində müəyyən rəhbər rola nail olduqlarına, o cümlədən hakim və parlament üzvü qismində çalışdıqlarına baxmayaraq, ictimai sahələrdə çalışan və dövlət vəzifəsi tutan qadınların təhdid edilməsi, qorxudulması və zorakı hücumlara məruz qalması davam edir.[247] İctimai sahələrdə çalışan qadınların, o cümlədən qadın cinsindən olan parlament üzvlərinin, vilayət şuraları üzvlərinin, mülki qulluqçuların, jurnalistlərin, vəkillərin, polis əməkdaşlarının, müəllimlərin, hüquq müdafiə fəallarının və beynəlxalq təşkilatlar üçün işləyən qadınların hücumların hədəfi olduqları barədə geniş yayılmış məlumatlar var.[248] Onlar AHE-lər tərəfindən hədəfə alınırlar;[249] eləcə də ənənəvi yerli liderlərin və nüfuz sahiblərinin, icma üzvlərinin və hökumət orqanlarının hücumlarının hədəfinə çevrilirlər.[250] İctimai həyatda iştirak etməyə çalışan qadınlar çox vaxt sosial normaları pozanlar hesab olunur, "mənəviyyatsız" şəxslər kimi ittiham edilir, qorxudulur, təqiblərə və ya zorakılıqlara məruz qalırlar.[251] Məlumatlara görə AHE-lər ictimai sahələrdə çalışan qadınlara

---

[247] 204-cü ilin avqustundan noyabrınadək Beynəlxalq Amnistiya Təşkilatı (*Amnesty International*) Əfqanıstanın 13 vilayətindən olan 50-dən artıq qadın hüquq müdafiəçisi ilə müsahibə apardı, onların arasında hökumət rəsmiləri, polis əməkdaşları, səhiyyə işçiləri, müəllimlər, prokurorlar, vəkillər, vətəndaş cəmiyyəti fəalları, alimlər, jurnalistlər və siyasətçilər vardı. Müsahibələr ictimai sahələrdə çalışan qadınların hər gün çoxlu təzyiqlərə məruz qaldıqlarını, o cümlədən hədələndiklərini, təqib edildiklərini, qoxudulduqlarını, hücumlara məruz qaldıqlarını və qətlə yetirildiklərini üzə çıxardı. Amnesty International, *Afghanistan: Their Lives on the Line: Women Human Rights Defenders under Attack in Afghanistan*, 7 April 2015, ASA 11/1279/2015, http://www.refworld.org/docid/55277ff24.html, p. 7. 2015-ci ilin martında BMT-nin Təhlükəsizlik Şurası Əfqanıstanda qadın və qızların, xüsusən yüksək vəzifəli qadın məmurların hədəfə alınaraq qətlə yetirilməsini pislədi. UN Security Council, *Security Council Resolution 2210 (2015) [on Extension of the Mandate of the UN Assistance Mission in Afghanistan (UNAMA) until 17 Mar. 2016]*, 16 March 2015, S/RES/2210 (2015), http://www.refworld.org/docid/550aa9914.html, p. 5.

[248] 2015-ci ilin sentyabrında Gündüzə hücumdan sonra Taliban qüvvələri, məlumatlara görə, "istənilən ictimai sahədə çalışan qadınları" hədəfə aldılar və qadın fəalların "qara siyahısını" tərtib etdilər. Bax: UNAMA, *Afghanistan: Human Rights and Protection of Civilians in Armed Conflict Special Report on Kunduz Province*, December 2015, http://www.refworld.org/docid/566fd0e64.html, pp. 15-16; New York Times, *Fear of Taliban Drives Women Out of Kunduz*, 14 October 2015, http://www.nytimes.com/2015/10/15/world/asia/taliban-targeted-women-kunduzafghanistan. html; *The Telegraph, 'We Can't Go Back' Say Women Activists on Taliban Kunduz 'Hit List'*, 18 October 2015, http://www.telegraph.co.uk/news/worldnews/asia/afghanistan/11938891/We-cant-go-back-say-women-activists-on-Taliban-Kunduz-hitlist. html. 2014-cü ilin noyabrında parlament üzvü olan qadın Kabulda intiharçının hücumunun hədəfi oldu. BBC, *Afghan Woman MP Survives Car Attack*, 16 November 2014, http://www.bbc.com/news/world-asia-30073189. Həmçinin bax: New York Times, *Afghan Policewomen Struggle Against Culture*, 1 March 2015, http://www.nytimes.com/2015/03/02/world/asia/afghan-policewomen-struggle-against-culture.html.

[249] ƏMİHK-nın bildirdiyinə görə, Əfqanıstan təqviminin 1394-cü ilinin birinci altı ayı (21 mart – 22 sentyabr 2015-ci il tarixlərinin ekvivalenti) ərzində AHE-lər tərəfindən siyasi məqsədlərlə qadınların bilərəkdən qətlə yetirildiyi 89 insident baş verib. AIHRC, *Elimination of violence against Women 1394*, 30 November 2015, http://www.aihrc.org.af/home/research_report/5170.

[250] Məlumatlara görə Qor vilayətinin qadın qubernatoru və onun ailəsi onun istefasını tələb edən yerli "silahlı komandirlər" tərəfindən ölümlə hədələniblər. Radio Free Europe/Radio Liberty, *Female Afghan Governor Won't Back Down Amid Threats, Controversy*, 19 October 2015, http://www.rferl.org/content/afghanistan-ghor-province-female-governor-death-thrats/27314931.html. Məlumatlara görə Əfqanıstanda qeyri-mütəhərrik qanadlı hərbi təyyarənin ilk qadın pilotu ictimai fiqura çevrildikdən sonra həm Taliban tərəfindən, həm də geniş mənada götürülən ailə üzvləri tərəfindən ölümlə hədələndi. Wall Street Journal, *In Afghanistan, Death Threats Shatter Dream of First Female Pilot*, 4 August 2015, http://www.wsj.com/articles/in-afghanistan-death-threats-shatter-dream-of-first-female-pilot-1438738716. Beynəlxalq Amnistiya Təşkilatının məlumatına görə, "qadın hüquq müdafiəçiləri təkcə Taliban və digər silahlı müxalif qruplar tərəfindən deyil, həm də dövlət nümayəndələri və xüsusən hüquq-mühafizə və təhlükəsizlik orqanlarının əməkdaşları tərəfindən təhdidlərlə və zorakılıqla üzləşirlər. Onlar həmçinin dövlət orqanları ilə və ya yerli rəsmilərin özləri ilə əlaqələri olan nüfuzlu komandirlər və hərbi rəislər tərəfindən ziyana məruz qalmaq təhlükəsi altındadırlar". Amnesty International, *Afghanistan: Their Lives on the Line: Women Human Rights Defenders under Attack in Afghanistan*, 7 April 2015, ASA 11/1279/2015, http://www.refworld.org/docid/55277ff24.html, p. 19.

[251] United States Commission on International Religious Freedom, *USCIRF Annual Report 2015 - Tier 2: Afghanistan*, 1 May 2015, http://www.refworld.org/docid/554b355e20.html. Sosial normaları pozan şəxslər hesab edilən qadınlarla rəftara aid əlavə məlumat üçün III.A.8 bölməsinə bax.

qarşı təhdidlərdən istifadə edir və onlara hədə-qorxu gəlirlər.[252] Eləcə də ictimai sahələrdə çalışan qadınların qətlə yetirildiyi barədə çoxsaylı məlumatlar var.[253]
Hüquq müdafiə fəallarının məlumatlarına əsasən, bir çox hallarda hüquq-mühafizə orqanları ictimai sahələrdə çalışan qadınlara qarşı təqib və hücum hallarının cəzasız qalması ilə mübarizə aparmırlar.[254]

*j) "Qərbləşmiş" hesab edilən şəxslər*

Məlumatlara görə AHE-lər Qərb ölkələrinin dəyərlərini qəbul etmiş hesab olunan və (və ya) zahirən bu cür görünən şəxslərin hökuməti və beynəlxalq birlik təmsilçilərini dəstəklədiklərini iddia edərək bu səbəbdən onları hədəfə alırlar.[255] Məlumatlar var ki, Qərb ölkələrindən qayıtmış şəxslər "yabançıya" çevrildiklərinə və ya Qərb ölkəsinin casusları olduqlarına görə AHE-lər tərəfindən işgəncələrə məruz qalıb və ya qətlə yetiriliblər.[256] Eynilə digər qruplara, məsələn, 1.e bəndində (humanitar və inkişaf təşkilatlarının əməkdaşları) və 1.i bəndində (ictimai sahələrdə çalışan qadınlar) göstərilmiş şəxslər qrupuna aid olanlar da AHE-lər tərəfindən Qərb ölkələrinin dəyərlərini qəbul etmiş və (və ya) zahirən bu cür görünən şəxslər kimi qəbul edilə və bu səbəbdən hədəfə alına bilərlər.

---

[252] 2014-cü il aprel seçkiləri ərəfəsində Taliban yüzlərlə qadın polisin adlarının və ünvanlarının siyahısını dərc etmişdi. The Times, *Taleban Step up Their Intimidation of Female Police on Eve of Election*, 5 April 2014, http://www.thetimes.co.uk/tto/news/world/asia/afghanistan/article4054966.ece.

[253] UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, p. 14. Məsələn, Nənqərhar vilayətində vilayət şurasının qadın üzvü onun nəqliyyat vasitəsinə qoyulmuş maqnitli bombanın partlamasından bir neçə gün sonra öldü. Khaama Press, *Angeza Shinwari Succumbs to Injuries*, 16 February 2015, http://www.khaama.com/angeza-shinwari-succumbs-to-injuries-29072. Həmçinin bax: New York Times, *Afghan Policewomen Struggle Against Culture*, 1 March 2015, http://www.nytimes.com/2015/03/02/world/asia/afghan-policewomen-struggle-against-culture.html.

[254] Amnesty International, *Afghanistan: Their Lives on the Line: Women Human Rights Defenders under Attack in Afghanistan*, 7 April 2015, ASA 11/1279/2015, http://www.refworld.org/docid/55277ff24.html, p. 10.

[255] Məlumatlara əsasən Qərblə əlaqəsi olan Qərb davranış tərzli gənclər səhvən hökumətlə və beynəlxalq birlik təmsilçiləri ilə əməkdaşlıq edən şəxslər kimi qəbul edilmək təhlükəsi altındadırlar. Bureau of Investigative Journalism, *From Kent to Kabul: The Former Asylum Seeking Children Sent Back to Afghanistan*, 17 July 2015, http://labs.thebureauinvestigates.com/from-kent-to-kabul/. Həmçinin bax: BBC, *The Young People Sent Back to Afghanistan*, 17 July 2015, http://www.bbc.com/news/magazine-33524193. Birləşmiş Krallıqdan Əfqanıstana qayıtmış gənc kişilərin sonrakı taleyini izləmiş Qaçqınlara Dəstək Şəbəkəsi (QDŞ) müəyyən edib ki, "bəzi hallarda gənclər sığınacaq barədə öncə verdikləri ərizədəki məsələlərlə əlaqədar təhdidlərə məruz qalır və ya hədəfə alınırlar və sadəcə olaraq müəyyən qrupa, yəni geri qayıdan şəxslər qrupuna aid olmaları onları əhəmiyyətli dərəcədə zorakılıq riski altında qoyur". RSN, *After Return: Documenting The Experiences of Young People Forcibly Removed to Afghanistan*, April 2016, https://refugeesupportnetwork.org/sites/default/files/files/After%20Return_RSN_April%202016.pdf, p. 31. Geri qayıdanlar, məlumatlara görə, Avropada "qərbləşdikləri" və ya "anti-islamçılara" çevrildikləri barədə ümumi mülahizə ilə qarşılaşırlar. PRIO, *Can Afghans Reintegrate after Assisted Return from Europe?*, July 2015, http://file.prio.no/publication_files/PRIO/Oeppen%20-%20Can%20Afghans%20Reintegrate%20after%20Assisted%20Return%20from%20Europe,%20PRIO%20Policy%20Brief%207-2015.pdf. ABŞ-da hərbi təlimlərdə olarkən sığınacaq üçün müraciət etmiş Əfqanıstan ordusunun keçmiş hərbçisinə İmmiqrasiya Müraciətləri üzrə Şura (İMŞ) tərəfindən sığınacaq verildi. Məlumatlara əsasən İMŞ bu qənaətə gəlmişdi ki, keçmiş hərbçinin ABŞ-da təlim keçməsi Əfqanıstana qayıtdıqdan sonra onu təhlükə altında qoya bilərdi, çünki Taliban, yəqin ki, onu hökumət tərəfdarı olmaqda təqsirləndirəcəkdi. Reuters, *Former Afghan Soldier Who Fled U.S. Training Granted Asylum: Lawyer*, 30 June 2015, http://www.reuters.com/article/us-usa-afghanistan-asylumidUSKCN0PA2XT20150630.

[256] Avstraliyadan deportasiya olunmuş əfqanıstanlı sığınacaq axtaran şəxs, məlumatlara görə, Taliban tərəfindən yaxalandıqdan və telefonunda Avstraliyada çəkdiyi fotoşəkillər aşkar edildikdən sonra casusluqda ittiham edildi və işgəncələrə məruz qaldı. The Saturday Paper, *Taliban Tortures Abbott Government Deportee*, 4 October 2014, https://www.thesaturdaypaper.com.au/news/politics/2014/10/04/taliban-tortures-abbott-governmentdeportee/14123448001068. Qəzni vilayəti ilə Kabul arasında səfər edən, Avstraliyadan olan əfqan kişi, məlumatlara görə, Taliban tərəfindən avtobusdan düşürüldükdən və yabançı olmaqda təqsirləndirildikdən sonra qətlə yetirildi. The Guardian, *Sayed Habib Musawi 'Tortured, Killed by Taliban Because He Was Australian,'* 30 September 2014, http://www.theguardian.com/world/2014/sep/30/sayed-habib-musawi-tortured-killed-by-talibanbecause-he-was-australian. Həmçinin II.A.6 bölməsinə bax.

*k) Hökuməti və ya beynəlxalq birliyin təmsilçilərini dəstəklədiyi hesab edilən şəxslərin ailə üzvləri*

Məlumatlara əsasən AHE-lər yuxarıdakı qruplara aid olan şəxslərin ailə üzvlərini hədəfə alırlar və bu hərəkət həm qisas aktıdır, həm də onlar sadəcə həmin şəxslərlə "qohumluq əlaqəsində olmaları əsasında təqsirkar" sayılırlar.[257] Konkret olaraq, dövlət məmurlarının və ƏMTQ üzvlərinin qohumları, qadınlar və uşaqlar da daxil olmaqla, təqib edilir, oğurlanır, zorakılığa məruz qalır və qətlə yetirilirlər.[258]

*l) Qısa nəticə*

Yuxarıdakı təhlilə əsaslanaraq BMTQAK hesab edir ki, hökumətlə və ya beynəlxalq birliyin təmsilçiləri ilə, o cümlədən beynəlxalq hərbi qüvvələrlə əlaqəli olan və ya onları dəstəklədiyi hesab edilən şəxslər, konkret işin fərdi hallarından asılı olaraq, (güman edilən) siyasi baxışları səbəbindən və ya digər müvafiq səbəblərdən qaçqınlar üçün nəzərdə tutulan beynəlxalq müdafiəyə (himayəyə) ehtiyac duya bilərlər. Həmin şəxslərin sırasına bunlar daxildir:

*a) dövlət məmurları və mülki qulluqçular;*
*b) ƏMP və ƏYP-nin üzvləri;*
*c) ƏMTQ ilə və ya hökumətyönlü qüvvələrlə əlaqəli olan və ya onları dəstəklədiyi hesab*

[257] Məlumatlara görə 10 dekabr 2015-ci ildə Əfqanıstan təhlükəsizlik qüvvələrinin üzvünün qohumu AHE-lər tərəfindən oğurlanıb və sonradan qətlə yetirilib. UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, p. 49. 2015-ci ilin sentyabrında Gündüzün mühasirəsi zamanı QHT əməkdaşı olan qadının əri, iddia edildiyinə görə, həmin qadının evində axtarış aparan Taliban üzvləri tərəfindən qətlə yetirilib. Həmçinin iddia edildiyinə görə, Taliban üzvləri ƏMP əməkdaşının cəsədini götürüb dəfn etməyə aparan iki nəfər qohumunu qətlə yetiriblər. UNAMA, *Afghanistan: Human Rights and Protection of Civilians in Armed Conflict Special Report on Kunduz Province*, December 2015, http://www.refworld.org/docid/566fd0e64.html, p. 13. Məlumatlara görə hökumət işçilərinin ailə üzvləri AHE-lər tərəfindən oğurlanırlar. UNAMA, *Afghanistan: Midyear Report 2015, Protection of Civilians in Armed Conflict*, August 2015, http://www.refworld.org/docid/55c1bdc4d.html, p. 61. UNAMA 2014-cü il avqustun 1-dən dekabrın 31-dək şərq vilayətlərindəki insidentlərdə yeni tendensiyanın olduğu barədə məlumat verib, belə ki, burada Taliban üzvləri hökumət tərəfdarı hesab etdikləri şəxslərin və ailələrin evlərini yandırıblar. UNAMA, *Afghanistan: Annual Report 2014, Protection of Civilians in Armed Conflict*, February 2015, http://www.refworld.org/docid/54e44e274.html, p. 67. Məlumatlara əsasən hökumət və ya beynəlxalq qüvvələr üçün işləyən, yaxud onları dəstəklədikləri iddia edilən şəxslərdən qisas alma forması kimi onların ailə üzvü olan uşaqlar oğurlanırlar. UN Secretary-General, *Children and Armed Conflict: Report of the Secretary-General*, 15 May 2014, A/68/878-S/2014/339, http://www.refworld.org/docid/53b3b7654.html, para. 30.

[258] UNAMA-nın bildirdiyinə görə, 2015-ci ildə AHE-lər təhlükəsizlik qüvvələrində xidmət edən qohumları olan qadınları hədəfə almaqda davam ediblər. UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, p. 14. 31 oktyabr 2015-ci ildə Cauzcan vilayətində Taliban döyüşçüləri, məlumatlara görə, oğulları keçmiş ƏMO hərbçiləri olmuş dörd mülki şəxsi oğurlayaraq hökumətə yardım etməkdə təqsirləndirdilər. Khaama Press, *Taliban Kidnap Four Civilians in Jawzjan*, 1 November 2015, http://www.khaama.com/taliban-kidnap-four-civilians-in-jawzjan-4069. Məlumatlara əsasən 2015-ci ilin sentyabrında Gündüzə hücum zamanı Taliban qüvvələri xüsusən ƏYP üzvlərini hədəfə alaraq polis rəislərinin və hərbçilərin uşaqları da daxil olmaqla ailə üzvlərini zorladılar və qətlə yetirdilər. Amnesty International, *Afghanistan: Harrowing Accounts Emerge of the Taliban's Reign of Terror in Kunduz*, 1 October 2015, https://www.amnesty.org/en/latest/news/2015/10/afghanistan-harrowing-accounts-emerge-of-the-talibans-reign-of-terror-in-kunduz/. 28 iyun 2015-ci ildə AHE-lər, məlumatlara görə, Fərəh şəhərində ƏMP əməkdaşının 17 yaşlı oğlunu oğurladılar və qətlə yetirdilər. UNAMA, *Afghanistan: Midyear Report 2015, Protection of Civilians in Armed Conflict*, August 2015, http://www.refworld.org/docid/55c1bdc4d.html, p. 64. 20 iyul 2014-cü ildə Fəryab vilayətində ƏPQ-nin partlaması səkkiz nəfərin ölümünə və ya xəsarət almasına səbəb oldu və onların hamısı ƏYP komandirinin ailə üzvləri idi. Taliban hücuma görə məsuliyyəti öz üzərinə götürdü. UNAMA, *Afghanistan: Annual Report 2014, Protection of Civilians in Armed Conflict*, February 2015, http://www.refworld.org/docid/54e44e274.html, p. 50. UNAMA-nın mənbələrinə əsasən, 2014-cü ilin iyulunda Taliban keçmiş ƏMO zabitinin 15 yaşlı oğlunun başının kəsilməsində təqsirləndirilib. UNAMA, *Afghanistan: Annual Report 2014, Protection of Civilians in Armed Conflict, February 2015*, http://www.refworld.org/docid/54e44e274.html, pp. 56-57.

*edilən mülki şəxslər;*
*d) beynəlxalq hərbi qüvvələrlə əlaqəli olan və ya onları dəstəklədiyi hesab edilən mülki şəxslər;*
*e) humanitar və inkişaf təşkilatlarının əməkdaşları;*
*f) hüquq müdafiə fəalları;*
*g) hökuməti və ya beynəlxalq birliyin təmsilçilərini dəstəklədiyi hesab edilən digər mülki şəxslər;*
*h) tayfa ağsaqqalları və dini liderlər;*
*i) ictimai sahələrdə çalışan qadınlar;*
*j) "qərbləşmiş" hesab edilən şəxslər*
*k) hökuməti və ya beynəlxalq birliyin təmsilçilərini dəstəklədiyi hesab edilən şəxslərin ailə üzvləri.*

### *2. Jurnalistlər və digər media işçiləri*

Konstitusiya ifadə azadlığı hüququna zəmanət verir və dövlət orqanlarının ilkin razılığını almadan məlumatları dərc etmək və ictimaiyyətə çatdırmaq hüququnu təmin edir, eyni zamanda, "Kütləvi informasiya vasitələri haqqında" 2009-cu il tarixli qanun senzuranı qadağan edir və vətəndaşların məlumatları əldə etmək hüququnu təmin edir.[259] "Məlumatlara çıxış haqqında" 2014-cü il tarixli qanunda nəzərdə tutulur ki, hökumətin sərəncamında olan bütün məlumatlar ictimaiyyət üçün açıq hesab edilir və yalnız açıqlanması Əfqanıstanın milli təhlükəsizliyinə təhlükə yaradan, şəxsi həyatın toxunulmazlığı hüququnun pozuntusunu təşkil edən və ya cinayətin istintaqını təhlükə altına alan məlumatlar istisna təşkil edir.[260] Bununla belə, ifadə azadlığı hüququna və məlumatları əldə etmək hüququna qarşı təhdidlərlə bağlı narahatlıqlar qalmaqdadır.[261] "Kütləvi informasiya vasitələri haqqında" 2009-cu il tarixli qanuna islam prinsiplərinə zidd olan, yaxud digər dinlərə və ya məzhəblərə qarşı təhqiramiz olan əsərlərin və materialların istehsalını, təkrar istehsalını, dərc edilməsini və ictimaiyyətə çatdırılmasını qadağan edən geniş mətnli müddəa daxil edilib.[262] Qanunun bu müddəası ilə əlaqədar məhkəmə təqibləri barədə hər hansı məlumat olmasa da, məlumatlara əsasən, materiallarının məzmunu islama və ya milli maraqlara zidd sayılan kütləvi informasiya vasitələrini senzuraya məruz qoymağa cəhd

[259] Freedom House, *Freedom of the Press 2015 - Afghanistan*, 4 September 2015, http://www.refworld.org/docid/55f001263d.html. Konstitusiyanın 34-cü maddəsində dövlət orqanlarının ilkin razılığını almadan məlumatları dərc etmək və ictimaiyyətə çatdırmaq hüququna "qanunvericilik normalarına uyğun olaraq" ifadəsi vasitəsilə qeyd-şərt qoyulur. Constitution of Afghanistan, 3 January 2004, http://www.refworld.org/docid/404d8a594.html.
[260] Freedom House, *Freedom of the Press 2015 - Afghanistan*, 4 September 2015, http://www.refworld.org/docid/55f001263d.html. Məlumatlara əsasən 2015-ci ilin martında Milli Təhlükəsizlik Şurası və Daxili İşlər Nazirliyi təhlükəsizlik qüvvələrinin əməkdaşlarının təhlükəsizliklə əlaqədar məsələlər barədə suallara cavab verməlerini qadağan edən rəsmi əmr qəbul ediblər. USIP, *Afghanistan's Fourth Estate: Independent Media*, August 2015, http://www.usip.org/sites/default/files/PB189-Afghanistans-Fourth-Estate-Independent-Media.pdf. Həmçinin hökumət sözçülərinin medianın sorğularına cavab vermək səlahiyyətinə malik olmaması ilə əlaqədar narahatlığın olduğu bildirilir. Institute for War and Peace Reporting, *Demands for Local Government Transparency in Afghanistan*, 31 March 2015, http://www.refworld.org/docid/552253004.html.
[261] Mediaya nəzarət və medianın hesabatlılığı mexanizmləri, məsələn, hazırda ləğv edilmiş olan Mediadakı pozuntuların araşdırılması komitəsi (MPAK) kimi qurumlar, məlumatlara görə, əsasən hökumətin ölkə mediasına təsir göstərmə aləti kimi istifadə olunur. Afghan Journalists Safety Committee, *Six-month Report 1 January - 30 June 2015*, 27 August 2015, http://ajsc.af/wp-content/uploads/2015/08/AJSC-Six-month-Report-English.pdf, p. 17; HRW, *"Stop Reporting or We'll Kill Your Family": Threats to Media Freedom in Afghanistan*, 21 January 2015, http://www.refworld.org/docid/54c201034.html, pp. 8-11; AAN, *A 'Jihad on the Media'? Afghan Journalists Face the Storm in Insecure Legal Waters*, 9 December 2013, https://www.afghanistan-analysts.org/a-jihad-on-the-media-afghan-journalists-face-the-storm-in-insecurelegal-waters/.
[262] US Department of State, *2014 Report on International Religious Freedom - Afghanistan*, 14 October 2015, http://www.refworld.org/docid/562105e015.html.

edərkən hökumət bu müddəadan istifadə edir,[263] eyni zamanda, məlumatlara görə, baş nazirin göstərişləri əsasında bir qəzetə qarşı araşdırma başlanılıb və bunun üçün onun küfr sayılan rəyi dərc etməsi əsas gətirilib.[264]

Məlumatlara əsasən, "Kütləvi informasiya vasitələri haqqında" qanunun diffamasiya (təhqir və böhtan) ilə bağlı müddəalarından bəzən hökumət məmurlarına qarşı yönələn tənqidləri boğmaq üçün bəhanə kimi istifadə olunur.[265] Siyasətçilər, təhlükəsizlik xidmətinin əməkdaşları və digər səlahiyyət sahibləri, məlumatlara görə, jurnalistləri, xüsusən də hökumət və yerli səviyyəli səlahiyyət sahibləri barədə tənqidi material hazırlayanları materialları ilə əlaqədar həbs edir, hədələyir və ya təqib edirlər.[266] Məlumatlara görə bəzi hallarda kütləvi informasiya vasitələri yerli hakimiyyət orqanlarının həssas hesab etdikləri məsələləri, məsələn, korrupsiya iddialarını işıqlandırdıqlarına görə həmin orqanlar tərəfindən qapadılır.[267] Məlumatlara görə jurnalistlər repressiya qorxusu ucbatından özünüsenzura vəziyyətinə qayıtmalı olublar.[268]

---

[263] HRW, *"Stop Reporting or We'll Kill Your Family": Threats to Media Freedom in Afghanistan*, 21 January 2015, http://www.refworld.org/docid/54c201034.html, p. 8.

[264] Məlumatlara əsasən 2014-cü ilin oktyabrında hakimiyyət orqanları "Əfqanıstan Ekspress" (*Afghanistan Express*) qəzetində küfr sayılan rəyi dərc etdiklərinə və bununla "Kütləvi informasiya vasitələri haqqında" qanunu pozduqlarına görə həmin qəzetlə əlaqəli olan bir neçə şəxsi həbs ediblər. Baş nazir Abdulla, məlumatlara görə, Nazirlər Şurasının iclasında "Əfqanıstan Ekspress"in əməkdaşlarının həbsi barədə göstəriş vermişdi. Sonradan araşdırmaya xitam verildi və həmin əməkdaşlar azad edildilər. US Department of State, *2014 Country Reports on Human Rights Practices - Afghanistan*, 25 June 2015, http://www.refworld.org/docid/559bd58728.html; Washington Post, *New Afghan Government Investigates Newspaper for 'Blasphemous Article'*, 22 October 2014, https://www.washingtonpost.com/world/asia_pacific/new-afghan-government-investigates-newspaper-forblasphemous-article/2014/10/22/d8ffc136-59ea-11e4-b812-38518ae74c67_story.html.

[265] Məsələn, 2015-ci ilin avqustunda satirik *Facebook* səhifəsini işlətməkdə şübhəli bilinən iki jurnalist MTM-in işi barədə tənqidi informasiya yerləşdirdikdən sonra dindirilmək üçün bu orqana çağırılıblar. Məlumatlara əsasən bu iki jurnalistə xəbərdarlıq edilib ki, özlərinin və ailələrinin həyatı təhlükə altında ola bilər. Nai Supporting Open Media in Afghanistan, *Media Watch Report, Owner Nai, Monthly Report #123 August*, September 2015, http://nai.org.af/files/documents/mw/Nai%20Monthly%20Report%20123%20English.pdf; Reuters, *Afghan Satire 'Kabul Taxi' Angers Spies, Scribes Summoned*, 25 August 2015, http://www.reuters.com/article/2015/08/25/us-afghanistan-pressidUSKCN0QU1HF20150825. İddia edildiyinə görə 2014-cü ilin aprelində iki jurnalist MTM rəsmilərinin jurnalistləri döyməsi ilə bağlı açıq şərhlər verdikdən MTM-in şikayətlərini cavablandırmaq üçün Baqlan vilayətində apellyasiya şikayətlərinə baxan orqana çağırılıblar. US Department of State, *2014 Country Reports on Human Rights Practices - Afghanistan*, 25 June 2015, http://www.refworld.org/docid/559bd58728.html.

[266] "Human Rayts Votç" (*Human Rights Watch*) təşkilatının məlumatına görə, "Əfqanıstanda hakimiyyət orqanlarını və hökumətin hərəkətlərini tənqid edən məqalələr dərc edən jurnalistlər çox zaman senzura, təqib və zorakılıqla üzləşirlər. Bu pozuntunu törədənlər sırasına hökumət rəsmiləri, polislər və Əfqanıstan milli təhlükəsizlik qüvvələrinin (ƏMTQ) digər üzvləri daxildir". HRW, *"Stop Reporting or We'll Kill Your Family": Threats to Media Freedom in Afghanistan*, 21 January 2015, http://www.refworld.org/docid/54c201034.html, p. 13. Həmçinin bax: US Department of State, *2015 Country Reports on Human Rights Practices - Afghanistan*, 13 April 2016, http://www.refworld.org/docid/5711040d4.html; Amnesty International, *Amnesty International Report 2014/15 - Afghanistan*, 25 February 2015, http://www.refworld.org/docid/54f07e2215.html. Mediaya Dəstək Beynəlxalq Təşkilatı 2013-cü ildə bildirib ki, ötən onillikdə hökumət Əfqanıstan mediası üçün ən böyük təhlükə təşkil edib, belə ki, hökuməti tənqid edən kütləvi informasiya vasitələri hədələnirlər. International Media Support, *Journalism in Afghanistan: Current and Post-2014 Threats and Journalist Safety Mechanisms*, October 2013, http://www.mediasupport.org/wp-content/uploads/2013/12/afghanistan-safety-assessment-sept2013-ims.pdf, p. 18.

[267] Freedom House, *Freedom of the Press 2015 - Afghanistan*, 4 September 2015, http://www.refworld.org/docid/55f001263d.html.

[268] Əfqanıstanda açıq mediaya dəstək təşkilatı "Nai" tərəfindən aparılan, 25 vilayətdə 335 jurnalisti əhatə edən sorğuya əsasən, jurnalistlərin 40 faizi özünüsenzura tətbiq edirlər. Nai Supporting Open Media in Afghanistan, *Media Watch Report, Monthly Report #124 September*, October 2015, http://nai.org.af/files/documents/mw/Nai%20Monthly%20Report%20124%20English.pdf. Həmçinin bax: US Department of State, *2015 Country Reports on Human Rights Practices - Afghanistan*, 13 April 2016, http://www.refworld.org/docid/5711040d4.html; Freedom House, *Freedom of the Press 2015 - Afghanistan*, 4 September 2015, http://www.refworld.org/docid/55f001263d.html; HRW, *"Stop Reporting or We'll Kill Your Family": Threats to Media Freedom in Afghanistan*, 21 January 2015, http://www.refworld.org/docid/54c201034.html, pp. 33-34.

Özəl yayım kanalları və mətbu kütləvi informasiya vasitələri, məlumatlara görə, hərbi rəislər tərəfindən idarə olunur və ya onların nəzarətindədirlər və onlar bu nəzarətdən siyasi məqsədlərini təbliğ etmək və söz azadlığını məhdudlaşdırmaq üçün istifadə edirlər.[269]

Jurnalistlərə qarşı zorakılıqlar, məlumatlara əsasən, ciddi problem olaraq qalır və bu insidentlərin çoxuna görə dövlət orqanları məsuliyyət daşıyırlar.[270] Məlumatlara görə xüsusən qadın jurnalistlər təqib və təhdid təhlükəsi altındadırlar.[271] Jurnalistlərə qarşı zorakılıqları törədənlərin çox vaxt cəzasız qaldığı bildirilir, jurnalistlər isə onları müdafiə etmədiyinə görə hökuməti ittiham edirlər.[272]

Qeyri-dövlət subyektləri tərəfindən jurnalistlərə və kütləvi informasiya vasitələrinə qarşı zorakılıq və təhdidlərlə bağlı insidentlərin sayı, məlumatlara görə, artmaqdadır; belə insidentlər jurnalistlərin cari hadisələri məhdudiyyətsiz işıqlandırmaq imkanlarına məhdudlaşdırıcı təsir göstərir.[273] Məlumatlara əsasən, hökuməti və onun siyasətini dəstəkləyən məqalələr dərc edən kütləvi informasiya vasitələri və jurnalistlər Taliban tərəfindən hücumlara layiq hədəflər kimi göstəriliblər.[274] Vilayətlər səviyyəsində bir çox yayım stansiyaları və çap mediası, məlumatlara görə, hərbi rəislərin mülkiyyətindədir və onlar bu mülkiyyət hüququndan söz azadlığını

---

[269] Bax: US Department of State, *2015 Country Reports on Human Rights Practices - Afghanistan*, 13 April 2016, http://www.refworld.org/docid/5711040d4.html; HRW, *"Stop Reporting or We'll Kill Your Family": Threats to Media Freedom in Afghanistan*, 21 January 2015, http://www.refworld.org/docid/54c201034.html, p. 11.

[270] Əfqanıstan Jurnalistlərinin Təhlükəsizliyi Komitəsi 2015-ci ilin birinci yarısında jurnalistlərin təhdid edildiyi və zorakılığa məruz qaldığı 39 halı qeydə alıb ki, bunların 28-i hökumət məmurları tərəfindən törədilib. Afghan Journalists Safety Committee, *Six-month Report, 1 January - 30 June 2015*, 27 August 2015, http://ajsc.af/wp-content/uploads/2015/08/AJSC-Six-month-Report-English.pdf. 2014-cü ildə Komitə jurnalistlərin qətlə yetirildiyi səkkiz halı və zorakılığa məruz qaldıqları 129 halı qeydə alıb və məlumatlara əsasən bu hücumların çoxunda təqsirkarlar hökumət məmurları və təhlükəsizlik qüvvələri olublar. Freedom House, *Freedom of the Press 2015 - Afghanistan*, 4 September 2015, http://www.refworld.org/docid/55f001263d.html.

[271] 2015-ci ilin sentyabrında Taliban Gündüzü ələ keçirdiyi zaman Taliban döyüşçüləri qadın hüquqlarını təşviq etməsi ilə tanınan radio stansiyasını zəbt etdilər və bağladılar və həmçinin qadın jurnalistləri təhdid etdilər. Washington Post, *Afghan Radio Station Focused on Women's Rights is a Casualty of the Taliban*, 16 November 2015, https://www.washingtonpost.com/world/asia_pacific/an-afghan-womens-radio-station-becomes-a-talibancasualty/2015/11/15/64f8eeac-7db6-11e5-bfb6-65300a5ff562_story.html. Həmçinin bax: Freedom House, *Freedom of the Press 2015 - Afghanistan*, 4 September 2015, http://www.refworld.org/docid/55f001263d.html.

[272] Jurnalistlərin Müdafiəsi Komitəsinin 2015-ci il üzrə Qlobal Cəzasızlıq İndeksində Əfqanıstan ən pis göstəricisi olan 7-ci ölkə kimi göstərilib, belə ki, son onillikdə bilərəkdən qətlə yetirilmiş beş jurnalistin ölümündə təqsirkar olanların cəzalandırılmasına nail olmayıb. Committee to Protect Journalists, *Getting Away With Murder*, 8 October 2015, https://cpj.org/reports/2015/10/impunity-index-getting-away-with-murder.php. Mediaya Dəstək Beynəlxalq Təşkilatı 2013-cü ildə bildirib ki, hüquqpozanlar dövlət tərəfindən məcburi qaydada cəzalandırılmaqdan qorxmadan medianı hədəfə ala bilirlər. International Media Support, *Journalism in Afghanistan: Current and Post-2014 Threats and Journalist Safety Mechanisms*, October 2013, http://www.mediasupport.org/wpcontent/uploads/2013/12/afghanistan-safety-assessment-sept2013-ims.pdf, p. 18.

[273] Freedom House, *Freedom of the Press 2015 - Afghanistan*, 4 September 2015, http://www.refworld.org/docid/55f001263d.html; Reporters Without Borders, *Taliban and Islamic State Extend News "Black Holes" in Afghanistan*, 7 July 2015, http://www.refworld.org/docid/559bcc96410.html; HRW, *"Stop Reporting or We'll Kill Your Family": Threats to Media Freedom in Afghanistan*, 21 January 2015, http://www.refworld.org/docid/54c201034.html, pp. 35-38.

[274] 2016-cı ilin yanvarında Taliban Kabulda media işçilərinə qarşı intiharçı hücumuna görə məsuliyyəti öz üzərinə götürdü. Nəticədə səkkiz mülki şəxs öldürülmüş, 24 nəfər isə yaralanmışdı və onların çoxu media işçiləri idi. UNAMA, *UNAMA Condemns Suicide Attack Targeting Media in Kabul*, 21 January 2016, http://unama.unmissions.org/unama-condemns-suicide-attack-targeting-media-kabul. 12 oktyabr 2015-ci ildə Taliban bəyanat verərək "Tolo" və "1 TV" media orqanlarını hərbi hücumların qanuni hədəfi elan etdi. *Statement by the Military Commission of Islamic Emirate Concerning Intelligence TV Networks of Tolo and 1 TV*, 12 October 2015, http://shahamat-english.com/statement-by-the-militarycommission-of-islamic-emirate-concerning-intelligence-tv-networks-of-tolo-and-1-tv/. Həmçinin bax: Reporters Without Borders, *Taliban and Islamic State Treat Media as Targets*, 13 October 2015, http://www.refworld.org/docid/5620b15340a.html; New York Times, *Taliban Threats to Afghan Journalists Show Shift in Tactics*, 18 October 2015, http://www.nytimes.com/2015/10/19/world/asia/taliban-threats-toafghan-journalists-show-shift-in-tactics.html.

məhdudlaşdırmaq üçün istifadə edirlər. Həmçinin məlumatlar var ki, İŞİD kütləvi informasiya vasitələrini onun fəaliyyətlərini işıqlandırmağa məcbur etmək üçün təhdid edir.[275]

Yuxarıdakıları nəzərə alaraq BMTQAK hesab edir ki, dövlət nümayəndələrinin və ya dövlət nümayəndəsi olmayan şəxslərin həssas məsələ hesab etdikləri mövzularda tənqidi materiallar hazırlayan jurnalistlər və kütləvi informasiya vasitələrində çalışan digər şəxslər siyasi və ya dini baxışları səbəbindən və ya digər müvafiq səbəblərdən qaçqınlar üçün nəzərdə tutulan beynəlxalq müdafiəyə (himayəyə) ehtiyac duya bilərlər. Konkret işin xüsusi hallarından asılı olaraq, yuxarıda qeyd edilən şəxslərin ailə üzvləri və ya digər qohumları da risk altında olan şəxslərlə əlaqəli olduqları üçün beynəlxalq müdafiəyə (himayəyə) ehtiyac duya bilərlər.

### *3. Döyüş yaşında olan kişilər, döyüş yaşına çatmayan və döyüşçülər sırasına məcburi cəlb edilən uşaqlar*

Deyilənlərə görə uşaqların döyüşçülər sırasına məcburi qaydada cəlb olunması halları barədə çox zaman məlumat verilmir.[276] Bununla belə, münaqişə iştirakçıları tərəfindən uşaqların döyüşçülər sırasına cəlb olunması və istər döyüşçülərə yardım edən şəxs, istərsə də döyüşçü qismində döyüşlərdə istifadə edilməsi, məlumatlara əsasən, bütün ölkə ərazisində müşahidə olunur.[277]

#### *a) Anti-hökumət elementləri tərəfindən döyüşçülər sırasına məcburi cəlb edilmə*

Məlumatlara əsasən, ərazi və əhali üzərində faktiki nəzarəti həyata keçirdikləri yerlərdə anti-hökumət elementləri öz sıralarına döyüşçü cəlb etmək üçün müxtəlif mexanizmlərdən, o cümlədən məcburetmə strategiyalarına əsaslanan mexanizmlərdən istifadə edirlər.[278] "Ləşkər"

---

[275] 10 oktyabr 2015-ci ildə Cəlalabadda yerli radiostansiya olan "Səfa" radiosunun və "Killid" radiosunun regional ofisinin yerləşdiyi bina hücuma məruz qaldı, hücumdan öncə bu radioları İŞİD-in regiondakı fəaliyyətləri barədə məlumat yaymağa məcbur etmək üçün telefon zəngləri vasitəsilə hədələmişdilər. Reporters Without Borders, *Taliban and Islamic State Treat Media as Targets*, 13 October 2015, http://www.refworld.org/docid/5620b15340a.html.

[276] Bax: UN Secretary-General, *Children and Armed Conflict: Report of the Secretary-General*, 5 June 2015, A/69/926–S/2015/409, http://www.refworld.org/docid/557abf904.html, para. 27; UNAMA, *Afghanistan: Annual Report 2014, Protection of Civilians in Armed Conflict*, February 2015, http://www.refworld.org/docid/54e44e274.html, p. 18. 2014-cü ildə BMT uşaqların döyüşçülər sırasına cəlb edildiyi 68 halı qeydə alıb ki, bunlardan da 22-si yoxlanılıb (bu halların birində uşaqları ƏMP, birində ƏYP, 20-sində isə AHE-lər öz sıralarına cəlb ediblər). UN Secretary-General, *Children and Armed Conflict: Report of the Secretary-General*, 5 June 2015, A/69/926–S/2015/409, http://www.refworld.org/docid/557abf904.html, para. 27.

[277] Əfqanıstan Müstəqil İnsan Hüquqları Komissiyasının (ƏMİHK) bildirdiyinə görə, bu komissiya istər Əfqanıstan təhlükəsizlik qüvvələri, istərsə ƏYP və AHE-lər tərəfindən uşaqların əsgər kimi istifadə edilməsi hallarının davam etdiyi barədə məlumatlar alır. Bax: New York Times, *Taliban Gun Down 10-Year-Old Militia Hero in Afghanistan*, 2 February 2016, http://www.nytimes.com/2016/02/03/world/asia/afghanistan-taliban-child-soldiers.html. Əfqanıstandakı polis qüvvələrinin və AHE-lərin adı BMT Təhlükəsizlik Şurasının 1612 saylı qətnaməsində silahlı münaqişə vəziyyətlərində uşaqları döyüşçülər sırasına cəlb edən və ya onlardan istifadə edən, onları qətlə yetirən və ya şikəst edən, uşaqlara qarşı zorlama və digər formada seksual zorakılıq hərəkətləri edən, yaxud məktəblərə və (və ya) xəstəxanalara hücumlar edən tərəflər sırasında göstərilib. UN Secretary-General, *Children and Armed Conflict: Report of the Secretary-General*, 5 June 2015, http://www.refworld.org/docid/557abf904.html, p. 48. UNAMA, *Afghanistan: Annual Report 2014, Protection of Civilians in Armed Conflict*, February 2015, http://www.refworld.org/docid/54e44e274.html, p. 18. Uşaq Əsgərliyinə qarşı Beynəlxalq Təşkilat (*Child Soldiers International*) məlumat verir ki, AHE-lər tərəfindən uşaqların döyüşçülər sırasına cəlb olunması çox zaman cənub (Qəndəhar və Hilmənd) və şərq (Paktiya, Xost və Paktika) vilayətlərində baş verir, çünki ölkənin bu hissələrində AHE-lərin mövqeləri daha güclüdür. Child Soldiers International, *Briefing on the Situation of the Recruitment and Use of Children by Armed Forces and Insurgent Groups in Afghanistan to the UN Security Council Working Group on Children and Armed Conflict*, June 2015, http://www.child-soldiers.org/user_uploads/pdf/childsoldiersinternationalafghanistanbriefingjune2015final7404027.pdf, p. 11.

[278] 2016-cı ilin aprelində BMTQAK Əfqanıstanı tərk edən əhali ilə bağlı yenilənmiş məlumatlarında qeyd edib ki, "gənc kişilərin döyüşçü sıralarına cəlb olunması riski yüksək olmaqda davam edir". United Nations in Afghanistan, *Population Movement Bulletin*, 14 April 2016, https://unama.unmissions.org/sites/default/files/un_afghanistan_-_population_movement_bulletin_-_issue_2_-_april_2016-final.pdf, p. 3. Həm 2014, həm də 2015-ci ildə məcburi

adlanan ənənəvi müharibə səfərbərliyi forması çərçivəsində hər bir ailə döyüş yaşında olan bir üzvünü döyüşən qüvvələrə verməlidir. Məlumatlara görə, döyüşçülər sırasına cəlb edilmələrinə müqavimət göstərən şəxslər və onların ailə üzvləri öldürülmək və ya cəzalandırılmaq təhlükəsinə məruz qalırlar.[279]

Məlumatlara əsasən AHE-lər həm oğlan, həm də qız uşaqlarını intiharçı bomba hücumlarının həyata keçirilməsinə cəlb etməkdə və onlardan canlı sipər kimi istifadə etməkdə davam edirlər,[280] eləcə də onları aktiv döyüş əməliyyatlarına, ƏPQ-lərin quraşdırılmasına, silah və

---

köçkünlər məlumat veriblər ki, döyüşçü sıralarına məcburi cəlb edilmə qorxusu ölkədaxili köçkünlüyün əsas səbəblərindən biridir. 2015-ci ilin sentyabrında Nənqərhar vilayətində, xüsusən İŞİD-lə əlaqəli qrupların mövcud olduqları və təsirə malik olduqları ərazilərdə döyüşçü sıralarına məcburi cəlbetmə praktikasının mövcud olduğu barədə məlumat verilib. Məlumatlara görə 2014-cü ilin sonundan 2015-ci ilin əvvəlinədək AHE-lər davamlı xəbərdarlıqlar vasitəsilə Paktika vilayətinin bir neçə rayonunun yerli sakinlərini zorla öz sıralarına cəlb ediblər. 2015-ci ilin aprelində Maydan Vardak vilayətində Taliban, məlumatlara görə, kişiləri hökumətə qarşı vuruşmaq məqsədi ilə Taliban sıralarına qoşulmağa həvəsləndirmək üçün gecə məktubları yayıb. Həmçinin Loqar, Herat, Badqis və Qop vilayətlərinin bir neçə rayonunda AHE-lərin sakinləri zorla öz sıralarına cəlb etdikləri barədə məlumat verilib. Bax: UNHCR’s monthly updates, *Afghanistan: Conflict-Induced Internal Displacement*, September 2015, http://www.refworld.org/docid/565554b14.html; July 2015, http://www.refworld.org/docid/55efe7294.html; April 2015, http://www.refworld.org/docid/55641ca04.html; February 2015, http://www.refworld.org/docid/5513f90c4.html; December 2014, http://www.refworld.org/docid/54b62f114.html. "*The World Post*" nəşrinin məlumatına görə, "[İŞİD] xüsusən Açin rayonunda vətəndaş hüquqlarından məhrum edilmiş kişiləri öz sıralarına cəlb etmək üçün aktiv cəhdlər göstərir və bəzi hallarda bunu zorakı vasitələrlə və hədələmə yolu ilə edir". The World Post, *Dispatch From the Frontline: Fighting ISIS In Afghanistan*, 22 February 2016, http://www.huffingtonpost.com/franzstefan-gady/dispatchfrom-the-frontline-fighting-isis_b_9237182.html. Həmçinin bax: Khaama Press, *300,000 Children Face Uneducated Future Because of Daesh in Nangarhar*, 20 September 2015, http://www.khaama.com/300000-school-children-face-uneducated-future-because-of-daesh-in-nangarhar-3925. 2015-ci ilin oktyabrında "Tolo Nyus" nəşri Talibanın Gündüz və Bədəxşan vilayətlərinin sərhədindəki fəaliyyətlərindən narahatlığını ifadə edən Əfqanıstan parlamentinin üzvünün sözlərindən sitat gətirərək qeyd etdi ki, "Taliban döyüşçüləri zəifləyiblər; onlar uşaqlara və yerli sakinlərə müraciət edirlər. Onlar insanlara pul verməklə və gücdən istifadə etməklə onları müharibəyə qoşulmağa təhrik edirlər". Tolo News, *Concerns Raised over Taliban's Recruitment of Child Soldiers*, 28 October 2015, http://www.tolonews.com/en/afghanistan/22099-concerns-raised-over-talibans-recruitment-of-child-soldiers.

Məlumatlara görə 2015-ci ilin sentyabrında Gündüzün mühasirəsi zamanı taliblər "öz sıralarına məcburi cəlbetmə forması kimi" qapı-qapı gəzərək "hər bir ailədən yeniyetmə oğlanları götürüblər". Al Jazeera, *Afghan Taliban ‘Recruiting Boys' from Kunduz Families*, 30 September 2015, http://www.aljazeera.com/news/2015/09/afghan-taliban-recruiting-boys-kunduz-families-150930155157751.html. Həmçinin məlumatlara əsasən Taliban yolları dağıdıb gediş-gəlişi əngəlləməklə və beləliklə hədəfə aldığı rayonların ərzaq təchizatını kəsməklə insanları ac saxlamaqdan məcburetmə vasitəsi kimi istifadə edir və ac sakinləri qiyamçılara qoşulmağa məcbur edir. International Crisis Group, *Afghanistan's Insurgency after the Transition*, 12 May 2014, http://www.refworld.org/docid/5371c4824.html, p. 20. Həmçinin məlumatlara görə pisləşməkdə olan iqtisadi vəziyyət və yüksək işsizlik faizi insanların, xüsusən AHE-lərə qoşulmaqdan savayı başqa seçim imkanı olmayan gənclərin AHE-lərin sıralarına qoşulma faizini artırıb. Bax: CNN, *Failing Afghan Economy Helping Taliban Return to Power*, 9 October 2015, http://edition.cnn.com/2015/10/09/asia/afghanistan-kabultaliban-robertson/; Pahjwok Afghan News, *Unemployment Forces Kunduz Youth to Join Rebels’ Ranks*, 15 August 2015, http://peace.pajhwok.com/en/peace-news/unemployment-forces-kunduz-youth-join-rebels%E2%80%99-ranks.

Həmçinin bax: US Department of State, *2015 Country Reports on Human Rights Practices - Afghanistan*, 13 April 2016, http://www.refworld.org/docid/5711040d4.html.

[279] 2014-cü ilin noyabrında Qəndəharda çıxan gündəlik "Qərdab" qəzetində MTM rəsmiləri, məlumatlara görə, bildiriblər ki, Taliban qiyamçıların sıralarına qoşulmaları üçün gənclərə müxtəlif həvəsləndirici təkliflər irəli sürür. Məlumatlara əsasən təklifi rədd edənlər qətlə yetirilmək təhlükəsi ilə üzləşirlər. Bax: Gardab article referenced in ACCORD, *Anfragebeantwortung zu Afghanistan: 1) Aktuelle Berichte über Zwangsrekrutierungen durch die Taliban in der Provinz Logar (Lugar); 2) Fälle von Zwangsrekrutierungen durch die Taliban in Afghanistan im Jahr 2014 [a-8939]*, 18 November 2014, http://www.ecoi.net/local_link/290739/411137_en.html. Talibanın bəzi komandirləri və sıravi əsgərləri, məlumatlara əsasən, ailələrinə qarşı qisas qorxusuna görə qiyamçılara qoşulublar. Radio Free Europe/Radio Liberty, *Afghan Taliban Trades Ideology For Profiteering*, 5 November 2014, http://gandhara.rferl.org/content/taliban-war-profiteering/26675311.html.

[280] US Department of State, *2015 Country Reports on Human Rights Practices - Afghanistan*, 13 April 2016, http://www.refworld.org/docid/5711040d4.html; UN Secretary-General, *Children and Armed Conflict: Report of the Secretary-General*, 5 June 2015, A/69/926–S/2015/409, http://www.refworld.org/docid/557abf904.html, para. 27; Child Soldiers International, *Briefing on the Situation of the Recruitment and Use of Children by Armed Forces and Insurgent Groups in Afghanistan to the UN Security Council Working Group on Children and Armed Conflict*, June

uniforma qaçaqmalçılığına cəlb edir, onlardan casus, mühafizəçi və ya kəşfiyyatçı kimi istifadə edirlər.[281]

*b) Hökumətyönlü qüvvələr tərəfindən azyaşlıların döyüşçülər sırasına məcburi cəlb edilməsi*

2011-ci ilin yanvarında BMT və hökumət azyaşlıların döyüşçülər sırasına cəlb olunmasının qarşısını almağa yönələn fəaliyyət planı imzaladılar.[282] 2014-cü ilin iyulunda hökumət fəaliyyət planının icrasına yönələn yol xəritəsini təsdiqlədi.[283] 2015-ci ilin fevralında prezident Qəni 2014-cü ildə parlament və Senatdan keçən qanunu təsdiqlədi, bu qanuna əsasən, ƏMTQ-nin sıralarına azyaşlıların cəlb olunması cinayət sayılırdı.[284] Hökumətin fəaliyyət planına dəstək verməsinə və indiyədək irəliləyişə nail olunmasına baxmayaraq, məlumatlara əsasən problemlər qalmaqdadır, o cümlədən azyaşlıların döyüşçülər sırasına cəlb olunmasına görə məsuliyyət məsələsində

---

2015, http://www.childsoldiers.org/user_uploads/pdf/childsoldiersinternationalafghanistanbriefingjune2015final7404027.pdf. ƏAŞ-ın məlumatına əsasən Xanabadda yerli AHE-lər hər bir ailəni məcbur edirlər ki, ailənin müdafiə edilməsinin müqabilində yeniyetmə ailə üzvlərindən birini AHE sıralarına qoşulmağa versinlər. AAN, *Security in Kunduz Worsening Further: The case of Khanabad*, 28 October 2014, https://www.afghanistan-analysts.org/security-in-kunduz-worsening-furtherthe-case-of-khanabad/.

[281] US Department of State, *2015 Country Reports on Human Rights Practices - Afghanistan*, 13 April 2016, http://www.refworld.org/docid/5711040d4.html; UN Secretary-General, *Children and Armed Conflict: Report of the Secretary-General*, 5 June 2015, A/69/926–S/2015/409, http://www.refworld.org/docid/557abf904.html, para. 27; Child Soldiers International, *Briefing on the Situation of the Recruitment and Use of Children by Armed Forces and Insurgent Groups in Afghanistan to the UN Security Council Working Group on Children and Armed Conflict*, June 2015, http://www.childsoldiers.org/user_uploads/pdf/childsoldiersinternationalafghanistanbriefingjune2015final7404027.pdf. ƏAŞ məlumat verir ki, Xanabadda yerli AHE-lər əhalini məcbur edirlər ki, müdafiə edilmələri müqabilində hər bir ailə bir nəfər gənc üzvünü AHE sıralarına qoşulmağa versin. AAN, *Security in Kunduz Worsening Further: The case of Khanabad*, 28 October 2014, https://www.afghanistan-analysts.org/security-in-kunduz-worsening-furtherthe-case-of-khanabad/.

[282] UN Secretary-General, *Report of the Secretary-General on Children and Armed Conflict*, 15 May 2013, A/67/845–S/2013/245, http://www.refworld.org/docid/51b9864e4.html, para. 33; UN General Assembly / Security Council, *The Situation in Afghanistan and Its Implications for International Peace and Security*, A/66/728 – S/2012/133, 5 March 2012, http://www.refworld.org/docid/4fbf60732.html, p. 23. Fəaliyyət planına seksual zorakılığın, habelə uşaqların öldürülməsinin və şikəst edilməsinin qarşısının alınması haqqında qoşmalar əlavə olundu. Sonradan daxili işlər və müdafiə nazirlikləri azyaşlıların döyüşçülər sırasına cəlb olunmasının qarşısının alınması və ƏMTQ daxilində müvafiq intizam tədbirlərinin gücləndirilməsi haqqında üç sərəncam qəbul etdilər. Üləmalar Şurası uşaqların döyüşçülər sırasına cəlb olunmasının, onlara işgəncə verilməsinin, məktəblərə və xəstəxanalara hücumlar edilməsinin islamda qadağan edildiyi haqqında iki qərar qəbul etdi. *Ibid.* Həmçinin bax: UN General Assembly (Human Rights Council), *Report of the United Nations High Commissioner for Human Rights on the Human Rights Situation in Afghanistan and Technical Achievements in the Field of Human Rights*, A/HRC/19/47, 18 January 2012, http://www.refworld.org/docid/4f391a772.html, para. 23. Əfqanıstan Uşaq hüquqları haqqında Konvensiyaya əlavə olunmuş Uşaqların silahlı münaqişələrdə iştirakına dair Fakultativ Protokola qoşulub. Bu Protokol uşaqların ("uşaqlar" dedikdə yaşı 18-dən aşağı olan şəxslər nəzərdə tutulur) dövlətin silahlı qüvvələrinə məcburi cəlb olunmasını qadağan edir (2-ci maddə). Müəyyən hallarda yaşı 16-dan yuxarı olan uşaqların milli silahlı qüvvələrə könüllü cəlb olunmasına icazə verilir (3-cü maddə), amma uşaqlar döyüşlərdə birbaşa iştirak edə bilməzlər (1-ci maddə). Silahlı qeyri-dövlət qrupları tərəfindən uşaqların döyüşçülər sırasına cəlb olunması və döyüşlərdə onlardan istifadə edilməsi bütün hallarda qadağandır (4-cü maddə). Un General Assembly, *Optional Protocol to the Convention on the Rights of the Child on the Involvement of Children in Armed Conflict*, 25 May 2000, United Nations Treaty Series, Vol. 2173, p. 222; http://www.refworld.org/docid/47fdfb180.html.

[283] UN Secretary-General, *Children and Armed Conflict: Report of the Secretary-General*, 5 June 2015, A/69/926–S/2015/409, http://www.refworld.org/docid/557abf904.html, para. 38; Child Soldiers International, *Briefing on the Situation of the Recruitment and Use of Children by Armed Forces and Insurgent Groups in Afghanistan to the UN Security Council Working Group on Children and Armed Conflict*, June 2015, http://www.child-soldiers.org/user_uploads/pdf/childsoldiersinternationalafghanistanbriefingjune2015final7404027.pdf.

[284] UNAMA, *Afghanistan: Annual Report 2014, Protection of Civilians in Armed Conflict*, February 2015, http://www.refworld.org/docid/54e44e274.html, p. 19; UN Secretary-General, *Children and Armed Conflict: Report of the Secretary-General*, 5 June 2015, A/69/926–S/2015/409, http://www.refworld.org/docid/557abf904.html, para. 38. Həmçinin bax: Child Soldiers International, *Afghanistan: Amend Draft Law on Child Soldiers*, 11 November 2014, http://www.childsoldiers.org/news_reader.php?id=791.

problemlər qalır.[285] 2016-cı ilin martında BMT Baş katibinin Uşaqlar və silahlı münaqişə üzrə xüsusi nümayəndəsi qeyd edib ki, fəaliyyət planının həyata keçirilməsində əhəmiyyətli irəliləyiş olsa da, BMT oğlanların ƏYP və ƏMP sıralarına cəlb olunmasını, eləcə də bəzən belə halların AMO tərəfindən törədilməsini qeydə almaqda davam edir.[286]
Həmçinin məlumatlara əsasən hökumətyönlü silahlı qruplar yerli sakinləri məcbur edirlər ki, yeniyetmələri Talibana və digər AHE-lərə qarşı döyüşlərə qoşulmağa göndərsinlər.[287]

*c) Qısa nəticə*

Yuxarıdakıları nəzərə alaraq BMTQAK hesab edir ki, anti-hökumət elementlərinin faktiki nəzarəti altındakı ərazilərdə, yaxud hökumətyönlü qüvvələrlə AHE-lər və (və ya) İŞİD-lə əlaqəli olan digər silahlı qruplar arasında nəzarət uğrunda mübarizənin getdiyi ərazilərdə döyüş yaşında olan kişilər və oğlanlar müəyyən sosial qrupa mənsub olmaları səbəbindən və ya digər müvafiq səbəblərdən qaçqınlar üçün nəzərdə tutulan beynəlxalq müdafiəyə (himayəyə) ehtiyac duya bilərlər. Konkret işin xüsusi hallarından asılı olaraq, icma üzvlərini zorla ƏYP sıralarına cəlb edə bilmək baxımından ƏYP komandirlərinin mövqelərinin kifayət qədər güclü olduğu ərazilərdə də döyüş yaşında olan kişilər və uşaqlar eynilə müəyyən sosial qrupa mənsub olmaları səbəbindən və ya digər müvafiq səbəblərdən qaçqınlar üçün nəzərdə tutulan beynəlxalq müdafiəyə (himayəyə) ehtiyac duya bilərlər. Zorla döyüşçülər sırasına cəlb edilmələrinə müqavimət göstərən döyüş yaşında olan kişilər və uşaqlar həmçinin (güman edilən) siyasi baxışları səbəbindən və ya digər müvafiq səbəblərdən qaçqınlar üçün nəzərdə tutulan beynəlxalq müdafiəyə (himayəyə) ehtiyac duya bilərlər. Konkret işin xüsusi hallarından asılı olaraq, bu qrupa aid olan kişilərin və uşaqların ailə üzvləri də risk altında olan şəxslərlə əlaqəli olduqları üçün beynəlxalq müdafiəyə (himayəyə) ehtiyac duya bilərlər.
Uşaqların sığınacaq üçün ərizələri uşaqların sığınacaq üçün müraciətlərinə dair BMTQAK-ın rəhbər prinsiplərinə uyğun olaraq diqqətlə qiymətləndirilməli, o cümlədən keçmişdə əsgər

[285] Məlumatlara əsasən problemlər sırasına bunlar daxildir: "ailələri maddi səbəblərdən uşaqlarını Əfqanıstan milli təhlükəsizlik qüvvələri sıralarına verməyə məcbur edən ağır sosial-iqtisadi vəziyyət; Əfqanıstan milli təhlükəsizlik qüvvələrinin uşaqların yaşını müəyyənləşdirmək imkanına və onların yaşını qiymətləndirmək üçün məlumatlara malik olmaması; bu sahədə siyasətə dair aydın göstərişlərin olmaması; cəzasızlığın geniş yayılması və hesabatlılığın olmaması; doğum şəhadətnamələrini almaq imkanının məhdud olması; şəxsiyyət sənədlərini asanlıqla saxtalaşdırmağın mümkünlüyü". ƏMP və ƏYP də daxil olmaqla Əfqanıstan milli təhlükəsizlik qüvvələri tərəfindən uşaqların təhlükəsizliklə əlaqədar tapşırıqlarda qeyri-rəsmi istifadə olunmasından doğan narahatlıqlar qalmaqdadır. UN Secretary-General, *Report of the Secretary-General on Children and Armed Conflict in Afghanistan*, 15 May 2015, S/2015/336, http://www.refworld.org/docid/55965b254.html, paras 22, 24. Həmçinin bax: UN Secretary-General, *The Situation in Afghanistan and its Implications for International Peace and Security: Report of the Secretary-General*, 1 September 2015, A/70/359–S/2015/684, http://www.refworld.org/docid/55f677871e.html, para. 28; UN Secretary-General, *Children and Armed Conflict: Report of the Secretary-General*, 5 June 2015, A/69/926–S/2015/409, http://www.refworld.org/docid/557abf904.html, paras 27, 39; UNAMA, *Afghanistan: Annual Report 2014, Protection of Civilians in Armed Conflict*, February 2015, http://www.refworld.org/docid/54e44e274.html, pp. 18-19. Həmçinin bax: BBC, *Afghan Child Soldiers Fighting the Taliban*, 20 July 2015, http://www.bbc.com/news/world-asia-33601761.
[286] UNAMA, *Two Years of 'Children, Not Soldiers' Campaign Bring Tangible Progress in Afghanistan*, 16 March 2016, http://unama.unmissions.org/two-years-%E2%80%98children-not-soldiers%E2%80%99-campaign-bring-tangible-progress-afghanistan.
[287] Bax: AAN, *The 2015 Insurgency in the North (3): The Fall and Recapture of Kunduz*, 16 October 2015, https://www.afghanistananalysts.org/the-2015-insurgency-in-the-north-3-the-fall-and-recapture-of-kunduz/.
Məlumatlara əsasən Gündüz vilayətində hökumətyönlü silahlı qruplar hər bir ailədən Talibana qarşı döyüşmək üçün bir oğlunu onların sıralarına verməsini tələb edirlər. IRIN, *Abuses Rise along with Pro-Afghan Government Militias*, 7 September 2015, http://www.refworld.org/docid/55ed72bc4.html. Həmçinin bax: AAN, *Security in Kunduz Worsening Further: The Case of Khanabad*, 28 October 2014, https://www.afghanistan-analysts.org/security-in-kunduz-worsening-furtherthe-case-of-khanabad/.

olduqlarına görə beynəlxalq müdafiənin onlara şamil olunmasını istisna edən halların bu uşaqlara aid olub-olmadığı araşdırılmalıdır.[288] Uşaqlar cinayət törətdikləri iddia edilən silahlı qruplarla əlaqəlidirsə, o halda nəzərə almaq lazımdır ki, ola bilsin onlar təkcə beynəlxalq hüquqa zidd olan hüquq pozuntularını törədənlər deyil, həm də bu pozuntuların qurbanıdırlar.[289]

#### *4. Anti-hökumət elementlərini dəstəkləməkdə şübhəli bilinən mülki şəxslər*

Konstitusiyada nəzərdə tutulur ki, qanunla nəzərdə tutulan hallardan başqa heç kim tutula və ya həbsdə saxlanıla bilməz və Konstitusiya işgəncələrin tətbiqini qadağan edir.[290] İşgəncələrin tətbiqi Cinayət Məcəlləsinə əsasən cinayət sayılır və eyni zamanda "Yetkinlik yaşına çatmayanlar barəsində ədalət mühakiməsi məcəlləsi" uşaqlara qarşı sərt cəzaları qadağan edir.[291] Bu hüquqi təminatlara baxmayaraq, tutulmuş şəxslərə, xüsusən münaqişə ilə əlaqədar AHE-ləri dəstəkləməkdə ittiham edilib tutularaq MTM-in, ƏMP-nin, ƏMO-nun və ƏYP-nin tabeliyindəki saxlanma yerlərində saxlanılanlara qarşı işgəncələrlə və qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftarla əlaqədar narahatlıqlar ifadə edilib.[292] 2015-ci ildə UNAMA məlumat verib ki,

---

[288] UNHCR, *Guidelines on International Protection No. 8: Child Asylum Claims under Articles 1(A)2 and 1(F) of the 1951 Convention and/or 1967 Protocol relating to the Status of Refugees*, HCR/GIP/09/08, 22 December 2009, http://www.refworld.org/docid/4b2f4f6d2.html.

[289] Paris prinsiplərində deyilir: ""Silahlı qüvvələrdə və ya silahlı qruplarda iştirak etdikləri zaman beynəlxalq hüquqda nəzərdə tutulmuş cinayət törətməkdə təqsirləndirilən uşaqlar ilk növbədə təkcə cinayətkar deyil, həm də beynəlxalq hüquqa zidd olan cinayətlərin qurbanları hesab edilməlidirlər. Çoxsaylı saziş və prinsiplər vasitəsilə uşaqları xüsusi müdafiə ilə təmin edən beynəlxalq hüquqa uyğun olaraq onlarla bərpaedici ədliyyə və sosial reabilitasiya çərçivəsində rəftar edilməlidir". UNICEF, *The Paris Principles: Principles and Guidelines on Children Associated with Armed Forces or Armed Groups*, February 2007, http://www.refworld.org/docid/465198442.html, paras 3.6 and 3.7.

[290] 3 yanvar 2004-cü il tarixli Əfqanıstan Konstitusiyasının 27 və 29-cu maddələri, http://www.refworld.org/docid/404d8a594.html. Əfqanıstan İşgəncələrə qarşı Konvensiyanı (İQK) ratifikasiya edib, amma ona əlavə olunan və saxlanma mərkəzlərinə müstəqil monitorinq səfərləri sistemini müəyyən edən Fakultativ Protokolu ratifikasiya etməyib. Ratifikasiya barədə məlumatlar üçün bax: http://indicators.ohchr.org/. Əfqanıstan həmçinin Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktı (MSHBP) da ratifikasiya edib, sonuncuda nəzərdə tutulur ki, heç kim özbaşına tutula və ya həbsdə saxlanıla bilməz (9-cu maddə).

[291] UNAMA, *Update on the Treatment of Conflict Related Detainees in Afghan Custody: Accountability and Implementation of Presidential Decree 129*, February 2015, http://www.refworld.org/docid/54f06e814.html, pp. 117-122.

[292] 2013-cü il fevralın 1-dən 2014-cü il dekabrın 31-dək UNAMA ƏMP, ƏMSP, ƏMO, ƏYP və MTM tərəfindən məhkəməyəqədər həbsdə saxlanılan və məhkum olunan 790 məhbusla, o cümlədən 105 uşaqla müsahibə apardı. UNAMA müsahibə aparılmış 278 nəfərin həbs edilmələri və ya 23 ay ərzində MTM, ƏMP, ƏMO və ƏYP-nin müəyyən müəssisələrində saxlanıldıqları zaman işgəncələrə və ya qəddar rəftara məruz qalmaları ilə bağlı dəlillərini inandırıcı hesab etdi. UNAMA, *Update on the Treatment of Conflict Related Detainees in Afghan Custody: Accountability and Implementation of Presidential Decree 129*, February 2015, http://www.refworld.org/docid/54f06e814.html, p. 17. UNAMA qeyd etdi ki, 1 yanvar 2015-ci ildən fəaliyyətə başlamış Qətiyyətli Dəstək Missiyası qüvvələrinin statusu haqqında sazişə əsasən, xarici qüvvələr daha Əfqanıstanın saxlanma müəssisələrində təftiş aparmaq hüququna malik deyillər. *Ibid*, p. 25. UNAMA həmçinin 2013 və 2014-cü illərdə ABŞ-ın həbsdə saxlama yerlərində iki halda "işgəncələr barədə kifayət qədər inandırıcı və mötəbər məlumatlar" əldə edib. *Ibid*, p. 24. Münaqişə ilə əlaqədar tutulmuş şəxslərlə rəftara dair UNAMA-nın fevral 2015-ci il tarixli hesabatının açıqlanmasından sonrakı dövrdə 2016-cı ilin fevralında UNAMA və Birləşmiş Millətlər Təşkilatının İnsan hüquqları üzrə Ali Komissarlığı (BMTİHAK) bu qənaətə gəldilər ki, "məhbuslar tutularkən, dindirilərkən və ya həbsdə saxlanılarkən fevral 2015-ci il tarixli hesabatda öz əksini tapmış qənaətlərdə göstərilənlərlə müqayisə oluna bilən səviyyədə işgəncələrə və ya qəddar rəftara məruz qalmaqda davam edirlər. Bu halların çoxu MTM-in saxlanma müəssisələri ilə əlaqədar idi, hərçənd ki, UNAMA və BMTİHAK Əfqanıstan Yerli Polisi, Əfqanıstan Milli Polisi və Əfqanıstan Milli Ordusu tərəfindən törədilmiş qəddar rəftar və ya işgəncə hallarını da qeydə almışdılar". UNAMA/OHCHR, *Report of the United Nations High Commissioner for Human Rights on the Situation of Human Rights in Afghanistan and on the Achievements of Technical Assistance in the Field of Human Rights in 2015*, 11 February 2016, A/HRC/31/46, http://www.refworld.org/docid/56f171fc4.html, para. 51. 2016-cı ilin martında yayılmış videogörüntülər Əfqanıstan polisi tərəfindən məhbusun qəddarcasına döyüldüyünü və pis rəftara məruz qaldığını üzə çıxardı. The Guardian, *Video Appears to Show Afghan Police Beating Detainee*, 9 March 2016, http://www.theguardian.com/world/2016/mar/09/video-afghan-police-beating-detainee.

işgəncələrin tətbiqi dörd vilayətdə MTM-in müəssisələrində "sistematik və ya müntəzəm və geniş yayılan" hal, üç vilayətdə isə ƏMP və ya Əfqanıstan Milli Sərhəd Polisinin (ƏMSP) müəssisələrində "sistematik" haldır.[293] İşgəncələrə məruz qaldığı müəyyən edilmiş məhbuslar arasında uşaqlar da var.[294] UNAMA həmçinin ƏMP və ƏYP tərəfindən həbsdə saxlanılan məhbusların məhkəməsiz qətlə yetirilməsi və zorla yoxa çıxarılması halları barədə məlumat verib.[295] Məlumatlara əsasən cinayət məhkəmələri işgəncə yolu ilə əldə edilmiş etirafların sübut kimi qəbul edilməsinə adətən imkan yaradırlar.[296] UNAMA müəyyən edib ki, "cəzasızlıq davam edir, çünki işgəncələrin tətbiqi hələ də heç bir hüquqi nəticə doğurmur: onları törədənlər məsuliyyətə cəlb edilmir və onlara vəzifədən azad edilmə və ya vəzifə səlahiyyətlərinin alınması kimi intizam tədbirləri tətbiq edilmir".[297]

Həmçinin özbaşına həbslərlə bağlı narahatlıqlar davam etməkdədir.[298] 2015-ci ilin sentyabrında prezident fərmanı ilə "terror aktı planlaşdırmaqda" şübhəli bilinənlərin məhkəmə qərarı olmadan qeyri-müəyyən müddətə həbsdə saxlanmasına icazə verən əlavənin Cinayət Məcəlləsinə daxil edilməsi təsdiqləndi.[299] Məlumatlara əsasən tutulmuş şəxslər xüsusən istintaq zamanı və

---

293 UNAMA, *Update on the Treatment of Conflict Related Detainees in Afghan Custody: Accountability and Implementation of Presidential Decree 129*, February 2015, http://www.refworld.org/docid/54f06e814.html, pp. 42, 54.

294 MTM tərəfindən işgəncələrə məruz qaldığı müəyyən edilmiş 161 məhbusdan iyirmi beşi (16 faiz) uşaqlar idi. ƏMP-nin və ƏMSP-nin saxlanma yerlərində baş verdiyi qeydə alınmış 92 işgəncə halından 16-sının (17 faiz) qurbanları uşaqlar idi. UNAMA, *Update on the Treatment of Conflict Related Detainees in Afghan Custody: Accountability and Implementation of Presidential Decree 129*, February 2015, http://www.refworld.org/docid/54f06e814.html, pp. 43, 54. 2014-cü ildə 258 oğlan milli təhlükəsizliklə bağlı ittihamlar əsasında, o cümlədən AHE-ləri dəstəkləmə iddiaları əsasında həbs olunmuşdular. UN Secretary-General, *Report of the Secretary-General on children and armed conflict in Afghanistan*, 15 May 2015, S/2015/336, http://www.refworld.org/docid/55965b254.html, paras 25, 29. UNANA-nın yanvar 2013-cü il tarixli hesabatında milli təhlükəsizliyə qarşı cinayətlər, o cümlədən intiharçı hücumlar törətmə barədə iddialar əsasında 80 uşağın MTM, ƏMP və ƏYP tərəfindən qanunsuz həbsə alındığı və işgəncələrə məruz qaldığı qeydə alınıb. UNAMA, *Treatment of Conflict-Related Detainees in Afghan Custody*: *One Year On*, 20 January 2013, http://www.refworld.org/docid/50ffe6852.html, pp. 33-34, 38-41, 46, 48, 51, 54. Məlumatlara əsasən adətən tutulmuş uşaqların əsas hüquqları tanınmır və bir çox prosessual aspektlərə əməl olunmur, o cümlədən təqsirsizlik prezumpsiyası, ittihamlar barədə məlumatlandırılmaq, müdafiəçi ilə görüşmək və təqsiri boynuna almağa məcbur edilməmək hüquqlarına riayət edilmir. Ölkə ərazisində yetkinlik yaşına çatmayanların islah mərkəzlərində saxlanılan uşaqlar, məlumatlara görə, yetərincə qida, tibbi yardım və təhsil almaq imkanından məhrumdurlar. US Department of State, *2015 Country Reports on Human Rights Practices - Afghanistan*, 13 April 2016, http://www.refworld.org/docid/5711040d4.html.

295 UNAMA, *Update on the Treatment of Conflict Related Detainees in Afghan Custody: Accountability and Implementation of Presidential Decree 129*, February 2015, http://www.refworld.org/docid/54f06e814.html, pp. 22-23, 57-58, 65.

296 UNAMA, *Update on the Treatment of Conflict Related Detainees in Afghan Custody: Accountability and Implementation of Presidential Decree 129*, February 2015, http://www.refworld.org/docid/54f06e814.html, p. 108.

297 UNAMA, *Update on the Treatment of Conflict Related Detainees in Afghan Custody: Accountability and Implementation of Presidential Decree 129*, February 2015, http://www.refworld.org/docid/54f06e814.html, p. 109.

298 Misal üçün bax: UNAMA, *Update on the Treatment of Conflict Related Detainees in Afghan Custody: Accountability and Implementation of Presidential Decree 129*, February 2015, http://www.refworld.org/docid/54f06e814.html, p. 58.

299 UNAMA və BMTİHAK qeyd edirlər ki, "Cinayət Prosessual Məcəlləsinin hazırkı müddəaları Əfqanıstanın Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktdan irəli gələn beynəlxalq öhdəliklərinə ziddir" və "hətta prezident fərmanı ilə qanunvericilikdə edilmiş dəyişiklik müvafiq beynəlxalq normaların kobud pozuntusunu təşkil edir və məhkəmə nəzarəti olmadan uzun müddət həbsdə qalan və yanlarına monitorinq aparanlar buraxılmayan şəxslərin qəddar rəftara və işgəncəyə məruz qalması riskini əhəmiyyətli dərəcədə artırır". UNAMA/OHCHR, *Report of the United Nations High Commissioner for Human Rights on the Situation of Human Rights in Afghanistan and on the Achievements of Technical Assistance in the Field of Human Rights in 2015*, 11 February 2016, A/HRC/31/46, http://www.refworld.org/docid/56f171fc4.html, paras. 52-54. ƏAŞ-ın bildirdiyinə görə, qanuna edilmiş əlavə dövlətə imkan verir ki, "cinayət törətməkdə ciddi surətdə şübhəli bilinən şəxsləri məhkəmə araşdırması olmadan həbs etsin və gələcəkdə onların həbsdən buraxıldıqdan sonra (yenidən) terror aktları və ya daxili və xarici təhlükəsizliyə qarşı cinayət törədə biləcəyi şübhəsi ilə onları, hətta istintaqa başlamaq üçün yetərincə sübutlar olmasa belə, həbsə alsın". AAN, *Casting a Very Wide Net: Did Ghani Just Authorise Interning Afghans Without Trial?*, 21 January 2016, https://www.afghanistan-analysts.org/casting-a-very-wide-net-did-ghani-just-

məhkəməyəqədər həbs müddəti uzadıldığı dövrdə hüquqi müdafiə vasitələrindən istifadə etmək, müstəqil hakim tərəfindən müayinə və müalicə olunmaq, habelə müdafiəçi ilə görüşmək imkanına malik olmurlar və bu hal xüsusən ucqarlarda yerləşən saxlanma müəssisələrində baş verir.[300] Həmçinin məlumatlara görə ƏYP əməkdaşları və hökumətyönlü silahlı qrupların üzvləri AHE-ləri dəstəkləməkdə şübhəli bilinən mülki şəxsləri təhdid edir, qorxudur və onlara qarşı fiziki zorakılıq tətbiq edirlər,[301] eyni zamanda məlumatlara əsasən bəzi hallarda həmin mülki şəxslər qətlə yetirilirlər.[302]

İŞİD-lə əlaqəli olan silahlı qrupların mövcud olduğu ərazilərdə Talibanı dəstəkləməkdə şübhəli bilinən mülki şəxslər, məlumatlara görə, həmin qruplar tərəfindən təhdid edilir və öldürülürlər.[303]

Yuxarıdakı nəzərə alaraq BMTQAK hesab edir ki, AHE-ləri dəstəkləməkdə şübhəli bilinən şəxslər, şəxsiyyətlərindən və konkret işin fərdi hallarından asılı olaraq, (güman edilən) siyasi baxışları səbəbindən və ya digər müvafiq səbəblərdən qaçqınlar üçün nəzərdə tutulan

---

authorise-interning-afghans-without-trial/. Həmçinin bax: HRW, *Afghanistan: Reject Indefinite Detention Without Trial*, 15 November 2015, http://www.refworld.org/docid/564b4a124.html.

300 5 iyun 2014-cü ildə yeni Cinayət Prosessual Məcəlləsi qəbul edilib, orada vəkillə görüşmək və hüquqi təminatlardan istifadə etmək imkanı nəzərdə tutulur və tutulmuş şəxslərin ittiham irəli sürülmədən həbsdə saxlanıla biləcəyi dövr konkret müddətlərlə məhdudlaşdırılır. Bununla belə, məlumatlara əsasən, çox zaman prokurorlar məhkəməyəqədər həbsin müəyyən edilmiş müddətlərinə məhəl qoymurlar və tutulmuş şəxsin tezliklə vəkillə görüşməsi nadir hallarda baş verir. US Department of State, *2015 Country Reports on Human Rights Practices - Afghanistan*, 13 April 2016, http://www.refworld.org/docid/5711040d4.html; UNAMA, *Update on the Treatment of Conflict Related Detainees in Afghan Custody: Accountability and Implementation of Presidential Decree 129*, February 2015, http://www.refworld.org/docid/54f06e814.html, pp. 20, 29-30; Amnesty International, *Amnesty International Report 2014/15 - Afghanistan*, 25 February 2015, http://www.refworld.org/docid/54f07e2215.html.

301 2015-ci ildə UNAMA AHE-ləri dəstəkləməkdə təqsirləndirilən və ya ƏYP əməkdaşlarının oğurluq etməsinə müqavimət göstərən mülki şəxslərin ƏYP tərəfindən qəddarcasına döyüldüyü halları qeydə alıb. UNAMA, *Afghanistan: Midyear Report 2015, Protection of Civilians in Armed Conflict*, August 2015, http://www.refworld.org/docid/55c1bdc4d.html, p. 70. "Əl-Cəzirə"yə müsahibəsində ƏYP komandiri bildirib ki, "casus" olduğu iddia edilən şəxslərin işgəncələrə məruz qalması və döyülməsi onlardan etiraflar almaq üçün zəruri olan metodlardır. Al Jazeera, *ISIL and the Taliban*, 1 November 2015, http://www.aljazeera.com/programmes/specialseries/2015/11/islamic-state-isil-taliban-afghanistan-151101074041755.html. Həmçinin bax: HRW, *"Today We Shall All Die": Afghanistan's Strongmen and the Legacy of Impunity*, 3 March 2015, http://www.refworld.org/docid/54f6c1e44.html, pp. 42, 44. Qəndəhar vilayətinin Zari rayonunun yerli sakinləri bildiriblər ki, hökumətin hərbçisi öldükdə hökumət qüvvələri yerli sakinləri Talibanı dəstəkləməkdə ittiham edir və müvafiq olaraq qisas alırlar. Rahmatullah Amir, *Continuing Conflict, Continuing Displacement In Southern Afghanistan*, May 2014, http://www.fmreview.org/sites/fmr/files/FMRdownloads/en/afghanistan.pdf, p. 8.

302 Məsələn, Talibanın hakimiyyəti dövründə atası dövlət məmuru olmuş tələbə, məlumatlara görə, Talibanla əlaqəli olmaqda şübhəli bilinərək 2016-cı ilin əvvəlində polis tərəfindən tutulub və həbsdə saxlanılıb. İki ay sonra Qəndəharda onun cəsədi tapılıb. Ailə üzvləri iddia ediblər ki, təhlükəsizlik qüvvələri ona işgəncə veriblər. Los Angeles Times, *Another Mysterious Death in Kandahar, and Allegations of Official Torture*, 7 April 2016, http://www.latimes.com/world/middleeast/la-fg-afghanistan-slain-student-20160407-story.html. 30 avqust 2015-ci ildə hökumətyönlü silahlı qrup, məlumatlara görə, Fəryab vilayətinin Paştun Kot rayonundakı kəndə daxil olub və yerli Taliban qüvvələrini dəstəkləməkdə təqsirləndirdiyi iki mülki şəxsi qətlə yetirib. UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, p. 65. Məlumatlara əsasən 19 oktyabr 2013-cü ildə Fərəh vilayətinin Bala Buluk rayonunda dörd oğlan ƏYP tərəfindən oğurlandıqdan və ƏPQ-ləri quraşdırmaqda təqsirləndirildikdən sonra edam edilib. UN Secretary-General, *Report of the Secretary-General on Children and Armed Conflict in Afghanistan*, 15 May 2015, S/2015/336, http://www.refworld.org/docid/55965b254.html, para. 42. Həmçinin bax: HRW, *"Today We Shall All Die": Afghanistan's Strongmen and the Legacy of Impunity*, 3 March 2015, http://www.refworld.org/docid/54f6c1e44.html, p. 86.

303 2015-ci ilin avqustunda İŞİD-lə əlaqəli olduğunu iddia edən silahlı qeyri-dövlət qrupu Taliban tərəfdarı olmaqda təqsirləndirilən on girovun edam edildiyini göstərən videogörüntülər yaydı. Məlumatlara əsasən, Talibana rəğbət bəsləyənlərin evləri yandırıldı. Washington Post, *The Islamic State Is Making These Afghans Long for the Taliban*, 13 October 2015, https://www.washingtonpost.com/world/asia_pacific/a-new-age-of-brutality-how-islamicstate-rose-up-in-one-afghan-province/2015/10/13/a6dbed67-717b-41e3-87a5-01c81384f34c_story.html. 19 iyun 2015-ci ildə Nənqərhar vilayətində İŞİD-lə əlaqəli olduğunu iddia edən qrup, məlumatlara görə, Talibana yardım etdiyi iddia edilən tayfa başçısı və yerli şura rəhbərinin başını kəsdi. UNAMA, *Afghanistan: Midyear Report 2015, Protection of Civilians in Armed Conflict*, August 2015, http://www.refworld.org/docid/55c1bdc4d.html, p. 67.

beynəlxalq müdafiəyə (himayəyə) ehtiyac duya bilərlər.
Qaçqınlara sığınacaq verilməsinin mülki və humanitar xarakterini saxlamağın zəruriliyini nəzərə alsaq, qaçqın qismində beynəlxalq müdafiə üçün müraciət etmiş keçmiş yaraqlıların ərizələrinə yalnız onların hərbi hərəkətlərdən və silahlı fəaliyyətlərdən həqiqətən və daimi imtina etdikləri müəyyən edildiyi təqdirdə baxılmalıdır.[304] Bundan başqa, silahlı elementlərin keçmiş üzvlərinin müraciətlərinə baxarkən onlara qaçqın statusu verilməsindən imtina etmək zərurəti yarana bilər. Uşaqların spesifik xüsusiyyətlərini və əlverişsiz vəziyyətlərini nəzərə alsaq, imtina barədə müddəaları onlara tətbiq edərkən olduqca diqqətli olmaq lazımdır.[305] Uşaqlar cinayətlər törətdiyi iddia edilən silahlı qruplarla əlaqəli olsalar da, yadda saxlamaq vacibdir ki, uşaqlar sadəcə beynəlxalq hüququ pozan cinayətləri törədənlər deyil, həm də bu cinayətlərin qurbanı ola bilərlər.[306]

### *5. Dini azlıq qruplarının üzvləri və şəriət hüququnu pozmuş hesab edilən şəxslər*

Konstitusiyada nəzərdə tutulur ki, islamdan fərqli dinlərə etiqad edənlər "qanun çərçivəsində öz dini ayinlərini icra etməkdə və dini hüquqlarından istifadə etməkdə sərbəstdirlər".[307] Lakin Konstitusiyada həmçinin bəyan edilir ki, islam dövlətin rəsmi dinidir[308] və "Əfqanıstanda heç bir qanun müqəddəs islam dininin ehkam və qaydalarına zidd ola bilməz".[309] Bundan başqa, Konstitusiyada nəzərdə tutulur ki, Konstitusiyada və ya qanunlarda hər hansı halla bağlı heç bir müddəa yoxdursa, o halda məhkəmələr müsəlman dünyasının üçdə iki hissəsində yayılan sünni müsəlmançılığın bir cərəyanı olan hənəfi məhkəmə praktikasına uyğun olaraq qərar çıxarmalıdırlar.[310] Əfqanıstanlı hüquqşünaslar və hökumət məmurları Konstitusiya normaları ilə qanunvericilik normaları arasında ziddiyyət yarandığı hallarda müsəlman hüququnu insan

---

[304] UNHCR Executive Committee, *Conclusion on the Civilian and Humanitarian Character of Asylum*, No. 94 (LIII) - 2002, 8 October 2002, http://www.refworld.org/docid/3dafdd7c4.html. Hərbi hərəkətlərdən və silahlı fəaliyyətlərdən imtinanın həqiqiliyini və daimiliyini necə müəyyənləşdirməklə bağlı rəhbər prinsiplər üçün bu mənbəyə bax (analogiya üzrə): UNHCR, *Operational Guidelines on Maintaining the Civilian and Humanitarian Character of Asylum*, September 2006, http://www.refworld.org/docid/452b9bca2.html.

[305] İstisna halları nəzərdə tutan müddəaların uşaqlara tətbiqi ilə əlaqədar rəhbər prinsiplər üçün bax: UNHCR, *Guidelines on International Protection No. 8: Child Asylum Claims under Articles 1(A)2 and 1(F) of the 1951 Convention and/or 1967 Protocol relating to the Status of Refugees*, HCR/GIP/09/08, 22 December 2009, http://www.refworld.org/docid/4b2f4f6d2.html, paras 58-64.

[306] Paris Prinsiplərində deyilir: "Silahlı qüvvələrdə və ya silahlı qruplarda iştirak etdikləri zaman beynəlxalq hüquqda nəzərdə tutulmuş cinayət törətməkdə təqsirləndirilən uşaqlar ilk növbədə təkcə cinayətkar deyil, həm də beynəlxalq hüquqa zidd olan cinayətlərin qurbanları hesab edilməlidirlər. Çoxsaylı saziş və prinsiplər vasitəsilə uşaqları xüsusi müdafiə ilə təmin edən beynəlxalq hüquqa uyğun olaraq onlarla bərpaedici ədliyyə və sosial reabilitasiya çərçivəsində rəftar edilməlidir". UNICEF, *The Paris Principles: Principles and Guidelines on Children Associated with Armed Forces or Armed Groups*, February 2007, http://www.refworld.org/docid/465198442.html, paras 3.6 and 3.7.

[307] 3 yanvar 2004-cü il tarixli Əfqanıstan Konstitusiyasının 2-ci maddəsi, http://www.refworld.org/docid/404d8a594.html.

[308] 3 yanvar 2004-cü il tarixli Əfqanıstan Konstitusiyasının 2-ci maddəsi, http://www.refworld.org/docid/404d8a594.html.

[309] 3 yanvar 2004-cü il tarixli Əfqanıstan Konstitusiyasının 2-ci maddəsi, http://www.refworld.org/docid/404d8a594.html. 149-cu maddə gələcəkdə Konstitusiyaya dəyişiklik edilməsinə məhdudiyyətlər qoyur və həmin maddədə digər məhdudiyyətlərlə yanaşı aşağıdakı məhdudiyyət nəzərdə tutulur: "müqəddəs islam dininin, habelə islam respublikaçılığının ehkamlarına sadiqlik prinsiplərinə dəyişiklik edilə bilməz".

[310] 3 yanvar 2004-cü il tarixli Əfqanıstan Konstitusiyasının 130-cu maddəsi, http://www.refworld.org/docid/404d8a594.html. İslam məhkəmə praktikasının hənəfi məktəbi sünni islam məhkəmə praktikasının dörd cərəyanından biridir. Məhkəmələr hənəfi məhkəmə praktikasının tətbiqinin başa düşülməsi ilə bağlı yardıma ehtiyac duyduqda Ali Məhkəmə nəzdindəki Fətva və Rəylər İdarəsi onun şərhini verir. US Department of State, *2014 Report on International Religious Freedom - Afghanistan*, 14 October 2015, http://www.refworld.org/docid/562105e015.html. Əfqanıstanda şiə azlığının üzvlərinə aid ailə hüququ məsələləri Əfqanıstan Konstitusiyasının 131-ci maddəsinə uyğun olaraq qəbul edilmiş "Şiələrin şəxsi statusu haqqında" qanunun müddəaları ilə tənzimlənir. Shiite Personal Status Law, March 2009, http://www.refworld.org/docid/4a24ed5b2.html.

hüquqlarına dair beynəlxalq hüquq normaları əsasında Əfqanıstanın üzərinə götürdüyü öhdəliklərdən üstün tutduqlarına görə tənqid edilirlər,[311] bu tənqidlər xüsusən sünni müsəlman olmayan əfqanların hüquqları ilə və qadınların hüquqları ilə əlaqədar hallara aiddir.[312]

*a) Dini azlıq qrupları*

Qeyri-müsəlman dini azlıq qrupları, xüsusən xristianlar, hindular və sikh qrupları qanunda nəzərdə tutulmuş ayrı-seçkiliyə məruz qalmaqda davam edirlər.[313] Yuxarıda qeyd edildiyi kimi, Konstitusiyada və Əfqanıstanın qanunlar toplusunda hər hansı hal barədə müddəa yoxdursa, Konstitusiyaya əsasən sünniliyin hənəfi məhkəmə praktikasına istinad edilir. Bu qayda dinindən asılı olmayaraq bütün Əfqanıstan vətəndaşlarına şamil olunur. Bütün tərəflərin şiə olduğu fərdi hüquq məsələləri yeganə istisna təşkil edir, bu halda "Şiələrin şəxsi statusu haqqında" qanunun müddəaları tətbiq edilir. Digər dini azlıqlar üçün ayrıca qanunvericilik normaları yoxdur. Məlumatlara görə, qeyri-müsəlmanlar yalnız qeyri-islami əqidələrini açıq şəkildə etiraf etmədikləri təqdirdə bir-biri ilə nikaha girə bilərlər.[314]

---

[311] Konstitusiyanın 6-cı maddəsində nəzərdə tutulur ki: "Dövlət […] insan hüquqlarının müdafiəsi əsasında çiçəklənən və mütərəqqi cəmiyyət yaratmalıdır". 7-ci maddədə isə nəzərdə tutulur ki: "Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə, dövlətlərarası sazişlərə, eləcə də Əfqanıstanın qoşulduğu beynəlxalq müqavilələrə və İnsan hüquqları haqqında Ümumi Bəyannaməyə riayət edilməlidir". 3 yanvar 2004-cü il tarixli Əfqanıstan Konstitusiyası, http://www.refworld.org/docid/404d8a594.html.

[312] 312 US Department of State, *2014 Report on International Religious Freedom - Afghanistan*, 14 October 2015, http://www.refworld.org/docid/562105e015.html; United States Commission on International Religious Freedom, *USCIRF Annual Report 2015 - Tier 2: Afghanistan*, 1 May 2015, http://www.refworld.org/docid/554b355e20.html. Əfqanıstanda qadınların vəziyyətinin əlavə təhlili ilə bağlı III.A.7 bölməsinə bax. Dini mənsubiyyət əsasında sığınacaq üçün müraciətlə bağlı rəhbər prinsiplər üçün bax: UNHCR, *Guidelines on International Protection No. 6: Religion-Based Refugee Claims under Article 1A(2) of the 1951 Convention and/or the 1967 Protocol relating to the Status of Refugees*, HCR/GIP/04/06, 28 April 2004, http://www.refworld.org/docid/4090f9794.html.

[313] Freedom House, *Freedom in the World 2015 - Afghanistan*, 20 March 2015, http://www.refworld.org/docid/55116f4111.html; US Commission on International Religious Freedom, *USCIRF Annual Report 2015 - Tier 2: Afghanistan*, 1 May 2015, http://www.refworld.org/docid/554b355e20.html. Dini demoqrafiyaya dair mötəbər məlumatlar olmasa da, hesablamalar belə düşünməyə əsas verir ki, əhalinin 80 faizi sünni müsəlmanlar, 19 faizi şiə müsəlmanlardır, 1 faizi isə dini azlıq qruplarına mənsub olanlardır. ABŞ Dövlət Departamenti qeyd edir ki, "sünni müsəlmanlar əhalinin 80 faizini, şiə müsəlmanlar isə təxminən 19 faizini təşkil edirlər. Şiə əhalisi sırasına ismaililər və etnik xəzərlərin çox qismi daxildir. Qalan 1 faizi digər dini qruplar təşkil edirlər. Sikh və hindu icmalarının liderlərinin hesablamalarına görə, ölkədə üzvlərinin ümumi sayı 3.000 nəfər olan 600 sikh və hindu ailəsi var. Sikh icmasının rəhbəri bildirib ki, il ərzində 700 sikh və hindu Avropaya və digər ölkələrə mühacirət ediblər. Bəhai və xristian icmalarının üzvlərinin sayı barədə hesablamalara, çətin ki, güvənmək olar, çünki təqib qorxusu ucbatından bu qrupların heç biri öz dininə açıq şəkildə etiqad etmir. Digər dinlərə etiqad edənlərin sayı azdır, onların arasında bir yəhudi də var". US Department of State, *2014 Report on International Religious Freedom - Afghanistan*, 14 October 2015, http://www.refworld.org/docid/562105e015.html. Digər rəqəmlərə əsasən, sikh əhalisinin sayı kəskin dərəcədə azalaraq 1990-cı illərdəki 100.000 nəfərdən bu gün 2.500 nəfərə enib. Associated Press, *Afghanistan's Sikhs Feel Alienated, Pressured to Leave*, 10 June 2015, http://bigstory.ap.org/article/a65f445cf281475a9f3ed0d47286cbcb/afghanistans-sikhs-feel-alienated-pressured-leave. Birləşmiş Krallığın Xarici İşlər Nazirliyinin 2015-ci il hesabatında sitat gətirilmiş d-r A. Justotsinin 28 fevral 2015-ci il tarixli hesabatına əsasən, Kabulda təxminən 130 sikh ailəsi qalıb, onların bəziləri deyiblər ki, orada qalmalarının yeganə səbəbi çox kasıb olmaları ucbatından çıxıb getmək imkanına malik olmamalarıdır. United Kingdom: Home Office, *Country Information and Guidance - Afghanistan: Hindus and Sikhs*, November 2015, Version 1.0, http://www.refworld.org/docid/5652e9de4.html, para. 5.1.5. ABŞ Dövlət Departamenti 2011-ci ildə qeyd edib ki, Əfqanıstanda qeyri-müsəlman icmalarının üzvlərinin çoxu vətəndaş müharibəsi zamanı və onun ardınca Talibanın hakimiyyəti dövründə ölkəni tərk ediblər, buna görə də 2001-ci ildən sonra ölkədə bu qeyri-müsəlman əhali faktiki olaraq mövcud olmayıb. US Department of State, *2011 Report on International Religious Freedom - Afghanistan*, 30 July 2012, http://www.refworld.org/docid/502105e25a.html.

[314] US Department of State, *2014 Report on International Religious Freedom - Afghanistan*, 14 October 2015, http://www.refworld.org/docid/562105e015.html. ABŞ Dövlət Departamentinin hesabatında qeyd edilir ki, baxmayaraq ki, müsəlman kişi xristian və ya yəhudi qadınla evlənə bilər (digər dini azlıqlara mənsub olan qadınlar əvvəlcə müsəlmanlığı qəbul etməlidirlər), müsəlman qadının qeyri-müsəlman kişiyə ərə getməsinə icazə verilmir. Dövlət Departamentinin 2013-cü il tarixli hesabatında ƏMİHK-dan sitat gətirilərək bildirilir ki, bir sıra hallarda sünni və şiə müsəlmanlar arasında nikahlar haram sayılaraq ləğv olunub. US Department of State, *2012 Report on International Religious Freedom - Afghanistan*, 20 May 2013, http://www.refworld.org/docid/519dd4ec77.html.

Cinayət Məcəlləsində "din əleyhinə cinayətlər" nəzərdə tutulub və orada deyilir ki, hər hansı dinə etiqad edən şəxsə bu səbəbdən hücum edən şəxs üç aydan az olmamaqla qısa müddətə azadlıqdan məhrumetmə və ya cərimə ilə cəzalandırılır.[315] Bununla belə, məlumatlara əsasən qeyri-müsəlman azlıq qrupları ictimai təzyiqlərə və bəzi hallarda zorakılıqlara məruz qalmaqda davam edirlər.[316] Bəhailər və xristianlar kimi dini azlıqların üzvləri, məlumatlara görə, ayrı-seçkilik, qəddar rəftar, qanunsuz həbs və ya öldürülmə səbəbindən dini əqidələrini açıq şəkildə bəyan etməməyə və ya ibadət üçün açıq şəkildə toplaşmamağa çalışırlar.[317]

**Sufilər**

İslam cərəyanı olan və islamın digər cərəyanlarının ardıcılları tərəfindən kafirlik sayılan sufiliyə etiqad edənlər, məlumatlara əsasən, AHE-lər tərəfindən hədəfə alınırlar. Məsələn, 2015-ci ilin martında Kabulda özəl evdə ibadət etdikləri zaman on bir sufi qətlə yetirildi.[318]

**Bəhailər**

2007-ci ilin mayında Əfqanıstan Ali Məhkəməsinin Fətvalar və Rəylər üzrə Baş Müdirliyi qərar çıxarıb ki, bəhai məzhəbi islamdan fərqlidir və küfr formasıdır. O, qərara alıb ki, bəhai məzhəbini qəbul edən müsəlmanlar dinindən dönənlərdir və bütün bəhailər allahsızdırlar.[319] Məlumatlara əsasən, bu qərardan bəri bəhailər inanclarını gizlətməklə yaşayırlar.[320]

**Xristianlar**

Məlumatlara əsasən cəmiyyətdə xristianlara qarşı münasibət açıq-aşkar düşmənçilik münasibəti olaraq qalır və xristianlar faktiki olaraq öz dini əqidələrini gizlətməyə məcburdurlar.[321] Əfqanıstanda əhali üçün kilsələr yoxdur[322] və xristianlar təklikdə və ya kiçik qruplar halında şəxsi evlərdə yığışırlar. 2013-cü ildə parlamentin dörd üzvü, məlumatlara görə, dinindən dönüb xristian olanları edam etməyə çağırdılar.[323] Məlumatlara əsasən Taliban xarici xeyriyyə

---

[315] Cinayət Məcəlləsinin 348-ci maddəsinə bax, http://www.refworld.org/docid/4c58395a2.html.

[316] Freedom House *Freedom in the World 2015 - Afghanistan*, 20 March 2015, http://www.refworld.org/docid/55116f4111.html.

[317] ABŞ Dövlət Departamentinin sərəncamında 2014-cü ildə xristianlara qarşı qəddar rəftar barədə heç bir məlumat yoxdur; bununla belə, o qeyd edib ki, xristian icması ayrı-seçkiliyə və təqibə məruz qalmaq qorxusu ucbatından gizli qalmaq məcburiyyətindədir. Əfqanıstanda xristianlar üçün ümumi ibadət yerləri yoxdur. US Department of State, *2014 Report on International Religious Freedom - Afghanistan*, 14 October 2015, http://www.refworld.org/docid/562105e015.html.

[318] UNAMA, *Afghanistan: Midyear Report 2015, Protection Of Civilians In Armed Conflict*, August 2015, http://www.refworld.org/docid/55c1bdc4d.html, p. 57.

[319] Bahai Awareness, *Fatwa of Ulema Council of Afghanistan*, August 2011, http://www.bahaiawareness.com/fatwas_afghanistan.html. Misal üçün bu mənbəyə də bax: US Department of State, *2014 Report on International Religious Freedom - Afghanistan*, 14 October 2015, http://www.refworld.org/docid/562105e015.html.

[320] US Department of State, *2014 Report on International Religious Freedom - Afghanistan*, 14 October 2015, http://www.refworld.org/docid/562105e015.html; United States Commission on International Religious Freedom, *USCIRF Annual Report 2015 - Tier 2: Afghanistan*, 1 May 2015, http://www.refworld.org/docid/554b355e20.html.

[321] US Department of State, *2014 Report on International Religious Freedom - Afghanistan*, 14 October 2015, http://www.refworld.org/docid/562105e015.html; United States Commission on International Religious Freedom, *USCIRF Annual Report 2015 - Tier 2: Afghanistan*, 1 May 2015, http://www.refworld.org/docid/554b355e20.html; The New York Times, *A Christian Convert, on the Run in Afghanistan*, 21 June 2014, http://www.nytimes.com/2014/06/22/world/asia/afghanistan-a-christian-convert-on-the-run.html.

[322] US Department of State, *2014 Report on International Religious Freedom - Afghanistan*, 14 October 2015, http://www.refworld.org/docid/562105e015.html; United States Congressional Research Service, *Afghanistan: Politics, Elections, and Government Performance*, 17 September 2014, http://www.refworld.org/docid/542d44fa4.html.

[323] US Department of State, *2014 Report on International Religious Freedom - Afghanistan*, 14 October 2015, http://www.refworld.org/docid/562105e015.html. Dövlət Departamenti məlumat verib ki, "parlamentin 2013-cü il sessiyası zamanı dörd parlament üzvü dinindən dönüb xristian olanları edam etməyə çağırdılar, parlamentin aşağı palatanın sədri isə bildirdi ki, təhlükəsizlik xidmətinin əməkdaşları ölkədə xristianlığın yayılması məsələsini araşdırmalıdırlar".

təşkilatlarının xristian dini inancının mərkəzləri olduğunu əsas gətirərək həmin təşkilatlara və onların mənzil-qərargahlarına hücumlar edir.[324]

## Şiələr

Parlamentdə təmsil olunan şiələrin sayı təxminən şiələrin ölkə əhalisinin ümumi sayındakı nisbətinə mütənasibdir.[325] Bəzi mənbələr sünnilər tərəfindən şiə icmasına qarşı açıq ayrı-seçkiliyin azaldığı barədə məlumat verdikləri halda,[326] digər mənbələr bu cür ayrı-seçkiliyin davam etdiyini bildirirlər.[327] Bundan əlavə, şiə əhalisini hədəfə alan zorakı hücumlar baş verməkdə davam edir.[328] Qeyd etmək lazımdır ki, Əfqanıstanda etnik mənsubiyyətlə dini mənsubiyyət çox vaxt qırılmaz surətdə əlaqəlidir, xüsusən də böyük əksəriyyəti şiələrdən ibarət

---

324 US Department of State, *2014 Report on International Religious Freedom - Afghanistan*, 14 October 2015, http://www.refworld.org/docid/562105e015.html; United States Commission on International Religious Freedom, *USCIRF Annual Report 2015 - Tier 2: Afghanistan*, 1 May 2015, http://www.refworld.org/docid/554b355e20.html; Reuters, *Kabul Police Chief Quits after Attack that Group Says Killed Three Staff*, 30 November 2014, http://www.reuters.com/article/2014/12/01/us-afghanistan-attacksidUSKCN0JE09L20141201#D5EW7JMScGtKEUY3.99; UNAMA, *Afghanistan: Mid-Year Report on the Protection of Civilians in Armed Conflict 2014*, July 2014, http://www.refworld.org/docid/53bd394f4.html; Al Jazeera, *Taliban Attacks Foreign Guesthouse in Kabul*, 29 March 2014, http://www.aljazeera.com/news/asia/2014/03/taliban-attacks-foreign-guesthouse-kabul-2014328135116155781.html; Reuters, *Foreigners Escape Taliban Siege in Kabul; Afghan Child Killed*, 29 March 2014, http://in.reuters.com/article/2014/03/28/afghanistanattacks-ngo-idINDEEA2R0AH20140328. Həmçinin bax: Amnesty International, *Afghanistan: Their Lives on the Line: Women Human Rights Defenders under Attack in Afghanistan*, 7 April 2015, ASA 11/1279/2015, http://www.refworld.org/docid/55277ff24.html, p. 40.

325 Əfqanıstan parlamentinin 249 üzvündən 59-u şiələrdir. US Commission on International Religious Freedom, *USCIRF Annual Report 2012 - The Commission's Watch List: Afghanistan*, 20 March 2012, http://www.refworld.org/docid/4f71a66d32.html.

326 2015-ci ilin oktyabrında ABŞ Dövlət Departamenti bildirib ki, "tarixən şiə azlığı sünni əhali tərəfindən ayrı-seçkiliklə üzləşsə də, müşahidəçilər qeyd edirlər ki, şiələrə qarşı ayrı-seçkilik əhəmiyyətli dərəcədə azalıb, belə ki, nə paytaxtda, nə də ondan kənardakı əsas ərazilərdə insidentlər qeydə alınmayıb. Şiələr hökumətdə təmsil olunaraq mühüm vəzifələr tuturlar və ictimai həyatda tam iştirak etməkdə sərbəstdirlər. Bununla belə, məkandan asılı olaraq onlara qarşı qeyri-rəsmi ayrı-seçkilik və pis rəftar halları barədə məlumatlar var. Məsələn, çoxsaylı şiə əhalisinin olduğu Herat vilayətində şiə və sünni icmalarının rəhbərləri onların ümumən harmoniya şəraitində yaşadıqlarını bildiriblər, bir çox gənc Herat şiələri isə vilayətdə şiələrin nüfuzunu azaltmaq məqsədi daşıyan struktur probleminin olması səbəbindən yüksək və orta səviyyəli hökumət vəzifələrində şiələrin sayının az olduğunu qeyd ediblər". US Department of State, *2014 Report on International Religious Freedom - Afghanistan*, 14 October 2015, http://www.refworld.org/docid/562105e015.html. Həmçinin bax: United States Commission on International Religious Freedom, *USCIRF Annual Report 2015 - Tier 2: Afghanistan*, 1 May 2015, http://www.refworld.org/docid/554b355e20.html. ABŞ Dövlət Departamentinin oktyabr 2014-cü il tarixli hesabatında həmçinin qeyd edilir ki, ismaili şiə icmasının dörd nümayəndəsi parlament üzvü olsa da, ismaili icmasının bəzi üzvləri siyasi hakimiyyətdə vəzifələrə buraxılmamalarından şikayətləniblər.

327 ABŞ Dövlət Departamenti bildirib ki, "cəmiyyətdə şiə xəzərlərə qarşı sinfi, irqi və dini baxımdan ayrı-seçkilik davam edir və bu hal qanunsuz vergiqoyma vasitəsilə pul qoparma, zorla döyüşçülər sırasına cəlb etmə, məcburi əmək, fiziki təhqiqlər və həbsə alma formasında baş verir". QHT-lərin bildirdiyinə görə, çox zaman hökumət ƏMP-nin xəzər mənşəli əməkdaşlarını Daxili İşlər nazirliyi nəzdində az səlahiyyətli simvolik vəzifələrə təyin edir. QHT-lər həmçinin məlumat verirlər ki, ƏMTQ-nin qeyri-xəzər mənşəli əməkdaşlarına nisbətən xəzər mənşəli əməkdaşlarının ölkənin qeyri-sabit ərazilərinə göndərilməsi ehtimalı daha yüksək olur". US Department of State, *2015 Country Reports on Human Rights Practices - Afghanistan*, 13 April 2016, http://www.refworld.org/docid/5711040d4.html.

328 US Department of State, *2015 Country Reports on Human Rights Practices - Afghanistan*, 13 April 2016, http://www.refworld.org/docid/5711040d4.html and *2014 Report on International Religious Freedom - Afghanistan*, 14 October 2015, http://www.refworld.org/docid/562105e015.html; United States Commission on International Religious Freedom, *USCIRF Annual Report 2015 - Tier 2: Afghanistan*, 1 May 2015, http://www.refworld.org/docid/554b355e20.html; Freedom House, *Freedom in the World 2015 - Afghanistan*, 20 March 2015, http://www.refworld.org/docid/55116f4111.html. 2015-ci il AHE-lər və ya naməlum hücumçular tərəfindən xəzərlərin oğurlanması və qətlə yetirilməsi hallarının artması ilə əlamətdar olub. Bu epizodlar barədə əlavə məlumat üçün III.A 13 bölməsinə bax.

olan xəzər etnik qrupunda belədir. Nəticədə dini zəmində risk altında olma ilə etnik zəmində risk altında olmanı heç də bütün hallarda aydın şəkildə fərqləndirmək olmur.[329]

**Sikhlər və hindular**

Əfqanıstanda sikh və hindu icmalarının hazırkı sayı barədə mötəbər məlumatlar olmasa da, belə hesab edilir ki, üzləşdikləri ciddi çətinliklər nəticəsində çoxlu sayda sikhlər və hindular Əfqanıstanı tərk ediblər.[330] Sikh və hindu icmalarının Əfqanıstanda qalmış az sayda üzvləri, məlumatlara görə, xüsusən polislər və müsəlman icmasının ekstremist elementləri tərəfindən törədilən sui-istifadə hallarına qarşı daha da əlverişsiz vəziyyətə düşüblər.[331] Sikh və hindu icmalarının öz dinlərinə açıq şəkildə etiqad etmələrinə icazə verilsə də, məlumatlara görə, onlar ayrı-seçkiliklə qarşılaşırlar, o cümlədən siyasi həyatda iştirak etmək və dövlət işlərinə düzəlmək istəyərkən belə halla üzləşirlər, baxmayaraq ki, prezident Qəni ictimai bəyanatlarında tolerantlığın təşviq ediləcəyini və onların siyasi həyatda iştirakının artırılacağını bildirib.[332] Həmçinin məlumatlara əsasən onlar cəmiyyətdə də ayrı-seçkiliyə və təhdidlərə məruz qalırlar.[333] Hər iki icma təqib və ayrı-seçkilik ucbatından dəfn ayinlərinin adətlərinə uyğun şəkildə həyata keçirilməsində çətinliklərlə üzləşdikləri barədə məlumat verirlər.[334] Məlumatlara əsasən polis

---

[329] Etnik azlıq qruplarının vəziyyətinin əlavə təhlili üçün III.A.13 bölməsinə bax. Əvvəlki illərdə şiə dini liderlərinin hökumətlə əlaqəli olduqlarına və islama fərqli şərh verdiklərinə görə AHE-lər tərəfindən hədələndikləri və hücumlara məruz qaldıqları barədə məlumatlar olub. Misal üçün bax: US Department of State, *2013 Report on International Religious Freedom - Afghanistan*, 28 July 2014, http://www.refworld.org/docid/53d907b814.html.

[330] Birləşmiş Krallığın Xarici İşlər Nazirliyinin 2015-ci il hesabatında sitat gətirilmiş d-r A. Justotsinin 28 fevral 2015-ci il tarixli hesabatına əsasən, 1990-cı illərdə Əfqanıstanı tərk etmiş bəzi sikhlər 2004-cü ildən başlayaraq Əfqanıstana qayıdıblar, çünki "mühacirət etdikləri ölkələrdə uğurla məskunlaşa bilməyiblər". Lakin mülkiyyətlərini geri almaq iqtidarında olmayan və yaşayış üçün vəsait qazanmaq imkanı olmayan bu insanların çoxunun yenidən çıxıb getməkdən savayı başqa seçimləri yoxdur. United Kingdom: Home Office, *Country Information and Guidance - Afghanistan: Hindus and Sikhs*, November 2015, Version 1.0, http://www.refworld.org/docid/5652e9de4.html, para. 5.1.7. Bəzi mənbələrə əsasən, hazırda Əfqanıstanda sikh və hinduların sayı təxminən 300-dən 600-dək ailədən ibarətdir. Bax: US Department of State, *2014 Report on International Religious Freedom - Afghanistan*, 14 October 2015, http://www.refworld.org/docid/562105e015.html; Al Jazeera, *Inside the Little-Known Kitchen of Afghanistan's Sikhs*, 9 January 2016, http://www.aljazeera.com/programmes/ajeats/2016/01/afghanistan-sikhs-160104170656660.html; United Kingdom: Home Office, *Country Information and Guidance - Afghanistan: Hindus and Sikhs*, November 2015, Version 1.0, http://www.refworld.org/docid/5652e9de4.html, para. 5.1.

[331] Bax: The Wall Street Journal, *Facing Intolerance, Many Sikhs and Hindus Leave Afghanistan*, 12 January 2015, http://www.wsj.com/articles/facing-intolerance-many-sikhs-and-hindus-leave-afghanistan-1421124144; Radio Free Europe, *'When Are You Going Back?' Afghanistan's Sikhs, Strangers In Their Own Land*, 19 August 2014, http://www.rferl.org/content/afghanistan-sikhminority/26539541.html. Əfqanıstanda sikh və hindu əhalisinin azalması ilə bağlı əlavə təhlil üçün bu mənbəyə bax: Roger Ballard (Centre for Applied South Asian Studies), *The History and Current Position of Afghanistan's Hindu and Sikh Population*, 2011, http://www.casas.org.uk/papers/pdfpapers/afghansikhs.pdf.

[332] Parlamentin yuxarı palatasında bir yer oraya təyin olunacaq sikh və ya hindu təmsilçisi üçün saxlanılır. 2013-cü ilin sentyabrında prezident Kərzai növbəti parlament seçkilərində aşağı palatada sikh və ya hindular üçün bir yerin ayrılması barədə fərman qəbul etdi. Aşağı palata bu fərmanın təsdiqlənməməsinə səs versə də, yuxarı palata onun təsdiq olunmasına səs verdi. Fərman müştərək komitəyə göndərildi; 2014-cü ilin sonuna olan məlumata əsasən yekun qərar hələ qəbul edilməmişdi. US Department of State, *2014 Country Reports on Human Rights Practices - Afghanistan*, 25 June 2015, http://www.refworld.org/docid/559bd58728.html; Radio Free Europe, *First Afghan Hindu Envoy Takes Pride in Serving His Country*, 15 May 2015, http://gandhara.rferl.org/content/article/25386024.html; Al Jazeera, *Afghanistan's Sikhs Face an Uncertain Future*, 23 February 2014, http://www.aljazeera.com/indepth/features/2014/02/afghanistan-sikhs-face-an-uncertain-future-201422312395677867.html.

[333] US Department of State, *2014 Report on International Religious Freedom - Afghanistan*, 14 October 2015, http://www.refworld.org/docid/562105e015.html; Associated Press, *Afghanistan's Sikhs Feel Alienated, Pressured to Leave*, 10 June 2015, http://bigstory.ap.org/article/a65f445cf281475a9f3ed0d47286cbcb/afghanistans-sikhs-feel-alienated-pressured-leave; Al Jazeera, *Inside the Little-Known Kitchen of Afghanistan's Sikhs*, 9 January 2016, http://www.aljazeera.com/programmes/ajeats/2016/01/afghanistan-sikhs-160104170656660.html.

[334] US Department of State, *2014 Report on International Religious Freedom - Afghanistan*, 14 October 2015, http://www.refworld.org/docid/562105e015.html; Associated Press, *Afghanistan's Sikhs Feel Alienated, Pressured to Leave*, 10 June 2015, http://bigstory.ap.org/article/a65f445cf281475a9f3ed0d47286cbcb/afghanistans-sikhs-feel-alienated-pressured-leave; Al Jazeera, *Afghanistan's Sikhs Face an Uncertain Future*, 23 February 2014,

dəfn mərasimləri zamanı hindu və sikh icmalarının müdafiəsini təmin etsə də, bu iki icmanın üzvləri digər hallarda, o cümlədən torpaq mübahisələri zamanı dövlət orqanları tərəfindən müdafiə edilmədiklərini hiss edirlər.[335] Sikhlər və hindular, məlumatlara görə, torpaqlarının qanunsuz zəbt olunması və müsadirə edilməsinin qurbanıdırlar və mücahidlərin dövründə itirdikləri mülkiyyətlərini yenidən əldə edə bilmirlər.[336] Sikh və hindu icmalarının üzvlərinin qisas qorxusu ucbatından kompensasiya üçün məhkəmələrə müraciət etməkdən çəkindikləri bildirilir.[337] Məlumatlara əsasən sikh və hindu uşaqlar üçün az sayda məktəblər təşkil edilib, Kabuldakı dövlət məktəblərinə gedən sikh və hindu uşaqlar isə başqa şagirdlər tərəfindən təqiblərə və pis rəftara məruz qalırlar.[338]

*b) İslam dinini dəyişmə*

İslam dinini dəyişmə dinə dönük çıxma hesab olunur və məhkəmələrin islam hüququna verdikləri şərhə əsasən ölümlə cəzalandırılır.[339] Baxmayaraq ki, Əfqanıstanın Cinayət Məcəlləsində dinini dəyişmə aydın şəkildə cinayət kimi müəyyən edilməyib və Konstitusiyada nəzərdə tutulub ki, qanunla cinayət kimi müəyyən edilməyən heç bir əməl cinayət sayılmamalıdır, Cinayət Məcəlləsində deyilir ki, xüsusilə ağır cinayətlər, o cümlədən dinə dönük

---

http://www.aljazeera.com/indepth/features/2014/02/afghanistan-sikhs-face-an-uncertain-future-201422312395677867.html.

335 US Department of State, *2014 Report on International Religious Freedom - Afghanistan*, 14 October 2015, http://www.refworld.org/docid/562105e015.html. Əfqanıstan işi üzrə istiqamətləndirici qərarında Birləşmiş Krallığın Yüksək Tribunalı bildirdi ki, Əfqanıstanda polis yerli səviyyədə sikhləri müdafiə ilə təmin etmək istəsə belə, bunu etmək iqtidarında olmaya bilər. United Kingdom: Upper Tribunal (Immigration and Asylum Chamber), *TG and others (Afghan Sikhs persecuted) Afghanistan CG*, [2015] UKUT 00595 (IAC), 3 November 2015, http://www.refworld.org/docid/5641c7df4.html. Həmçinin d-r Justotsi tərəfindən həmin Tribunala verilən və həmin qərarın 39-cu bəndində sitat gətirilən ifadəyə bax. Məlumatlara əsasən dövlət orqanları yaşayış yerlərinin tikilməsi və kremasiyanın həyata keçirilməsi məqsədi ilə Kabul şəhərinin 21-ci polis dairəsi ərazisində hinduları və sikhləri geniş ərazi ilə təmin etsələr də, Kabul bələdiyyəsinə təhkim olunmuş ərazidə hələ tikinti aparılmamışdı. United Kingdom: Home Office, *Country Information and Guidance - Afghanistan: Hindus and Sikhs*, November 2015, Version 1.0, http://www.refworld.org/docid/5652e9de4.html, para. 8.6.2.

336 Associated Press, *Afghanistan's Sikhs Feel Alienated, Pressured to Leave*, 10 June 2015, http://bigstory.ap.org/article/a65f445cf281475a9f3ed0d47286cbcb/afghanistans-sikhs-feel-alienated-pressured-leave; Al Jazeera, *Afghanistan's Sikhs Face an Uncertain Future*, 23 February 2014, http://www.aljazeera.com/indepth/features/2014/02/afghanistan-sikhsface-an-uncertain-future-201422312395677867.html.

337 US Department of State, *2014 Report on International Religious Freedom - Afghanistan*, 14 October 2015, http://www.refworld.org/docid/562105e015.html.

338 Al Jazeera, *Afghanistan's Sikhs Face an Uncertain Future*, 23 February 2014, http://www.aljazeera.com/indepth/features/2014/02/afghanistan-sikhs-face-an-uncertain-future-201422312395677867.html. Həmçinin Birləşmiş Krallığın Yüksək Tribunalının bu qərarına bax: United Kingdom: Upper Tribunal (Immigration and Asylum Chamber), *TG and others (Afghan Sikhs persecuted) Afghanistan CG*, [2015] UKUT 00595 (IAC), 3 November 2015, http://www.refworld.org/docid/5641c7df4.html. Qərarın 51-ci bəndində Britaniyanın Kabuldakı səfirliyinin 29 dekabr 2013-cü il tarixli məktubundan sitat gətirilir. Nəzərə almaq lazımdır ki, bu mənbələrdə hindu və sikh uşaqlar üçün məktəblərin Kabulda və Cəlalabadda (Nənqərhar vilayəti) yerləşdiyi bildirilsə də, ABŞ Dövlət Departamentinin məlumatına əsasən, bu məktəblər Kabul, Hilmənd və Qəzni vilayətlərində yerləşir. US Department of State, *2014 Report on International Religious Freedom - Afghanistan*, 14 October 2015, http://www.refworld.org/docid/562105e015.html.

339 US Department of State, *2014 Report on International Religious Freedom - Afghanistan*, 14 October 2015, http://www.refworld.org/docid/562105e015.html. Həmçinin bax: M. Knust Rassekh Afshar, "The Case of an Afghan Apostate – The Right to a Fair Trial Between Islamic Law and Human Rights in the Afghan Constitution", *Max Planck UNYB 10* (2006), http://www.mpil.de/files/pdf3/mpunyb_13_knust1.pdf; AREU, *Afghanistan's Constitution Ten Years On: What Are the Issues?*, August 2014, 1416E, http://www.refworld.org/docid/53fc4dd34.html. "*Pew Research Center*" tədqiqat mərkəzi 2011-2012-ci illərdə müsəlman ölkələrində din, siyasət və mədəniyyət məsələlərinə aid sorğu apardı. Əfqanıstanda bu ölkədə şəriət qanunun tətbiq edilməli olduğunu hesab edən respondentlərin (99 faiz) 79 faizi islam dinini tərk edənlər üçün ölüm cəzasına üstünlük verdilər. Pew Research Center, *The World's Muslims: Religion, Politics and Society*, 30 April 2013, http://www.pewforum.org/files/2013/04/worlds-muslimsreligion-politics-society-full-report.pdf.

çıxma islam hüququnun hənəfi məhkəmə praktikasına uyğun olaraq cəzalandırılmalı[340] və belə işlərə baş prokurorluq tərəfindən baxılmalıdır. Əqli cəhətdən sağlam olan, islam dinini dəyişən kişi cinsinə mənsub 18 yaşdan yuxarı və qadın cinsinə mənsub 16 yaşdan yuxarı vətəndaşlar üç gün ərzində bu qərarlarından imtina etməsələr nikahlarının etibarsız elan olunması və bütün mülkiyyət və əmlaklarından məhrum edilmə təhlükəsinə məruz qala bilərlər. Onlar həmçinin ailələri və icma üzvləri tərəfindən rədd edilə və iş yerlərini itirə bilərlər.[341]
Məlumatlara əsasən ictimai rəy başqalarını dinindən döndərməyə cəhd edən şəxslərə və təşkilatlara qarşı düşmənçilik mövqeyindədir.[342] Dinini dəyişməkdə təqsirləndirilən müttəhimlərə yardım göstərən vəkillər, məlumatlara görə, özləri dinlərini dəyişməkdə ittiham oluna və ölüm təhlükəsi ilə üzləşə bilərlər.[343]

*c) Şəriət hüququna zidd olan digər hərəkətlər*

Dinini dəyişməkdən savayı dinə zidd olan digər hərəkətlər barəsində Əfqanıstan qanunvericiliyində bir söz deyilmir və buna görə də məhkəmələr bu hərəkətlərlə bağlı islam (şəriət) hüququna istinad edirlər və belə hərəkətlər sırasına küfr də daxildir. Bəzi məhkəmələr həmçinin küfrlə əlaqədar olaraq islam hüququ müddəalarına istinad edirlər, Əfqanıstan qanunvericiliyində isə bu barədə bir söz deyilmir.[344] Bəzi məhkəmələrin islam hüququna verdikləri şərhlərdə küfr ölüm cəzası ilə cəzalandırılan cinayət sayılır; buna görə də küfrdə ittiham edilən, əqli cəhətdən sağlam olan kişi cinsinə mənsub 18 yaşdan yuxarı və qadın cinsinə mənsub 16 yaşdan yuxarı şəxslər ölüm cəzası ilə üzləşə bilərlər. Dinindən dönmədə olduğu kimi, küfrdə təqsirləndirilən şəxslərə də küfr sayılan söz və ya əməllərindən imtina etmələri üçün üç gün vaxt verilir.[345]

---

[340] *Afghanistan: Penal Code*, 22 September 1976, http://www.refworld.org/docid/4c58395a2.html, Article 1; həmçinin bax: Library of Congress, *Laws Criminalizing Apostasy*, undated, http://www.loc.gov/law/help/apostasy/, accessed 8 February 2016.
[341] US Department of State, *2014 Report on International Religious Freedom - Afghanistan*, 14 October 2015, http://www.refworld.org/docid/562105e015.html. ABŞ Dövlət Departamentinin hesabatında qeyd edilir ki, islam dinini dəyişənlər hətta daş-qalaq olunmaqla öldürülmək cəzası ilə üzləşə bilərlər, amma 2014-cü ilin sonuna olan informasiyaya əsasən, islam dinini dəyişməyə görə milli və ya yerli səviyyələrdə cinayət cəzalarının təyin edilməsi halları barədə məlumat yoxdur. Həmçinin əvvəlki illərin məlumatları arasında islam dinini dəyişmə halları barədə məlumat yoxdur. Həmçinin bax: New York Times, *A Christian Convert, on the Run in Afghanistan*, 21 June 2014, http://www.nytimes.com/2014/06/22/world/asia/afghanistan-a-christian-convert-on-the-run.html. Dinini dəyişərək xristianlığı qəbul edənlərin Əfqanıstanda təhlükəyə məruz qalmasının mümkünlüyü müəyyən ölkələrin milli məhkəmələri tərəfindən də təsdiq edilib. Məsələn, Birləşmiş Krallığın sığınacaq və immiqrasiya işləri üzrə məhkəməsi qərara alıb ki, islam dinindən dönüb xristian olmuş şəxs o dərəcədə ciddi qəddar rəftar təhlükəsinə məruz qala bilər ki, bu təhlükə Əfqanıstana qayıdacağı təqdirdə onun təqibə məruz qalmasına bərabər sayıla bilər. Bax: *NM (Christian Converts)* CG [2009] UKAIT 00045, 13 November 2009, http://www.refworld.org/docid/4afd6a8d2.html. 2014-cü ildə Əfqanıstan vətəndaşına ateist olması səbəbindən Birləşmiş Krallıqda sığınacaq verildi. BBC, *Atheist Afghan Granted Religious Asylum in UK*, 14 January 2014, http://www.bbc.com/news/uk-25715736. Ailə üzvləri tərəfindən təhdidlərlə əlaqədar olaraq, məsələn, bu mənbəyə bax: The New York Times, *A Christian Convert, on the Run in Afghanistan*, 21 June 2014, http://www.nytimes.com/2014/06/22/world/asia/afghanistan-a-christian-convert-on-the-run.html; BBC, *Controversy of Apostasy in Afghanistan*, 14 January 2014, http://www.bbc.com/news/world-asia-25732919.
[342] US Department of State, *2014 Report on International Religious Freedom - Afghanistan*, 14 October 2015, http://www.refworld.org/docid/562105e015.html.
[343] International Bar Association: Human Rights Institute, *The Rule of Law, Democracy and the Legal Profession in the Afghan Context: Challenges and Opportunities*, January 2014, http://www.refworld.org/docid/532c10654.html.
[344] İslam əleyhinə yazılar və ya şifahi sözlər küfr hesab edilə bilər, baxmayaraq ki, Konstitusiya ifadə və mətbuat azadlığına təminat verir. "Kütləvi informasiya vasitələri haqqında" 2006-cı il tarixli qanunun 8-ci fəsli islam prinsiplərinə zidd olan və digər dinlər və təriqətlər üçün təhqiramiz olan məsələlər barədə materialların dərc olunmasını qadağan edir. Qanunun ingiliscə mətnini bu saytda tapmaq olar: http://www.refworld.org/docid/4a5712902.html.
[345] US Department of State, *2014 Report on International Religious Freedom - Afghanistan*, 14 October 2015, http://www.refworld.org/docid/562105e015.html; Germany: Federal Office for Migration and Asylum, *Information Centre Asylum and Migration Briefing Notes (27 October 2014)*, 27 October 2014, http://www.refworld.org/docid/545b6c1d4.html. 2014-cü ilin oktyabrında "Əfqanıstan Ekspress" (*Afghanistan*

Bundan başqa, şəriət hüququna zidd olan cinayətlər törətməkdə, məsələn, dinindən dönməkdə, küfrə yol verməkdə, qarşılıqlı razılıq əsasında eyni cinsdən olan şəxslə cinsi əlaqədə olmaqda, yaxud ər-arvad sədaqətini pozmaqda (zina törətməkdə) təqsirləndirilən şəxslər təkcə cinayət təqibi təhlükəsi ilə üzləşmirlər, həm də cəmiyyət tərəfindən rədd edilmə və ailələri, digər icma üzvləri, taliblər və digər AHE-lər tərəfindən zorakılığa məruz qalma təhlükəsi ilə qarşılaşırlar.[346]

*d) Qısa nəticə*

Yuxarıdakı təhlilə əsaslanaraq BMTQAK hesab edir ki, şəriət hüququna zidd davrandığı hesab edilən şəxslər, o cümlədən küfrdə ittiham olunanlar və islam dinindən dönənlər, habelə dini azlıq qruplarının üzvləri, konkret işin fərdi hallarından asılı olaraq, dini əqidələri səbəbindən və ya digər müvafiq səbəblərdən qaçqınlar üçün nəzərdə tutulan beynəlxalq müdafiəyə (himayəyə) ehtiyac duya bilərlər.[347]

### *6. Anti-hökumət elementləri tərəfindən şərh olunan islam prinsiplərini, normalarını və dəyərlərini pozmuş hesab edilən şəxslər*

Məlumatlara əsasən, Taliban onun tərəfindən şərh olunan islam prinsiplərini, normalarını və dəyərlərini pozmuş hesab edilən şəxsləri və icmaları qətlə yetirir, hücuma məruz qoyur və təhdid edir.[348]

---

*Express*) qəzetində çap etdiyi məqalədə küfrün yer aldığı bildirilən jurnalist barəsində həbs orderi verilmişdi. Redaktor məqaləyə görə üzr istəsə də, ictimai etirazların gedişində hökumətdən qəzetin cəzalandırılması tələb edilmişdi. Bax: Khaama Press, *Afghanistan Issues Arrest Warrant over Blasphemous Article*, 21 October 2014, http://www.khaama.com/afghanistan-issues-arrest-warrant-over-blasphemous-article-6859; The Guardian, *Afghan Newspaper's 'Blasphemy' Causes Protests after Rebuking Isis and Islam*, 24 October 2014, http://www.theguardian.com/world/2014/oct/24/afghanistan-express-article-isis-taliban-islam-blasphemy.

[346] 2015-ci ildə Quranın nüsxəsini yandırdığı iddia edilən bir qadın kütlə tərəfindən qətlə yetirildi. Bax: Radio Free Europe / Radio Liberty, *Woman Killed in Kabul after Allegedly Burning a Koran*, 19 March 2015, http://www.rferl.org/content/woman-killed-in-kabul-after-allegedly-burning-akoran/26909733.html; New York Times, *A Day After a Killing, Afghans React in Horror, but Some Show Approval*, 20 March 2015, http://www.nytimes.com/2015/03/21/world/asia/horror-over-womans-lynching-in-afghanistan-but-some-support-too.html; New York Times, *Woman Killed in Kabul Transformed From Pariah to Martyr*, 29 March 2015, http://www.nytimes.com/2015/03/30/world/asia/farkhunda-woman-killed-in-kabul-transformed-from-pariah-to-martyr.html. Qeyd etmək lazımdır ki, istər kişilər, istərsə də qadınlar "mənaviyyat əleyhinə cinayətlər" törətməkdə, o cümlədən ər-arvad sədaqətini pozmaqda (zina törətməkdə) və digər nikahdankənar cinsi cinayətlər törətməkdə təqsirləndirilmə təhlükəsi ilə üzləşə bilərlər. Mənəviyyat əleyhinə cinayətlər törətməkdə təqsirləndirilən qadınlara qarşı rəftarla bağlı əlavə təhlil üçün lütfən III.A.8 bölməsinə bax. Şəriət hüququna zidd davrandıqları hesab edilən şəxslərə qarşı rəftarla bağlı əlavə təhlil üçün isə lütfən III.A.6 və III.A.12 bölmələrinə bax.

[347] Dini zəmində sığınacaq üçün müraciət etmə ilə əlaqədar əlavə tövsiyələr üçün bax: UNHCR, *Guidelines on International Protection No. 6: Religion-Based Refugee Claims under Article 1A(2) of the 1951 Convention and/or the 1967 Protocol relating to the Status of Refugees*, HCR/GIP/04/06, 28 April 2004, http://www.refworld.org/docid/4090f9794.html. Xristianlığı qəbul edənlərin Əfqanıstanda üzləşə biləcəyi təhlükələr milli hakimiyyət orqanları tərəfindən etiraf edilib. Məsələn, Birləşmiş Krallığın sığınacaq və immiqrasiya işləri üzrə məhkəməsi qərara alıb ki, islam dinindən dönüb xristian olmuş şəxs o qədər ciddi qəddar rəftar təhlükəsinə məruz qala bilər ki, bu təhlükə Əfqanıstana qayıdacağı təqdirdə onun təqibə məruz qalmasına bərabər sayıla bilər. Bax: *NM (Christian Converts)* CG [2009] UKAIT 00045, 13 November 2009, http://www.refworld.org/docid/4afd6a8d2.html. Eynilə, Almaniyada inzibati məhkəmə (*Verwaltungsgericht*) qərara aldı ki, Əfqanıstandan olan hindunun dini əqidəsinə görə təqibə məruz qalacağı ilə bağlı qorxusu əsaslı səbəblərə söykənir. Bax: Case No. K 103/09.KS.A, Verwaltungsgericht (VG) Kassel, judgment of 27 July 2010, http://www.asyl.net/fileadmin/user_upload/dokumente/17462.pdf; and Case No. 7 K 746/09.F.A, Verwaltungsgericht (VG) Frankfurt/Main, Judgment of 11 February 2010, http://www.asyl.net/fileadmin/user_upload/dokumente/18127.pdf.

[348] Anti-hökumət elementləri tərəfindən təhlükəyə məruz qala biləcək dini liderlərin vəziyyəti ilə bağlı təhlil üçün III.A.1.h bölməsinə bax. Cəmiyyətin dəyərlərinə zidd davrandıqları hesab edilən qadınların vəziyyəti ilə bağlı təhlil üçün III.A.8 bölməsinə bax. Seksual oriyentasiyası və (və ya) cinsi identikliyi fərqli olan şəxslərin konkret vəziyyəti ilə bağlı təhlil üçün III.A.12 bölməsinə bax. Müasir sayılan ideyaları, məsələn, kontraseptiv vasitələrin istifadəsini dəstəkləyən imamlar, məlumatlara görə, Taliban tərəfindən ölümlə hədələnir və onlar tərəfindən oğurlanma təhlükəsi altındadırlar. The Guardian, *Condoms and Conflict: Imams Defy Taliban to Spread Contraception*, 4

Məlumatlara görə Taliban yerli əhalinin ürəklərini və ağıllarını ələ almağa çalışdığı ərazilərdə mövqeyini yumşaldır. Lakin həmin ərazilər onun faktiki nəzarətinə keçən kimi Taliban, məlumatlara görə, sərt şəkildə şərh etdiyi islam prinsiplərini, normalarını və dəyərlərini tətbiq edir.[349] Məlumatlar var ki, Talibanın Xeyir əməllərin təşviqi və şər əməllərin qarşısının alınması üzrə nazirliyinin küçələrdə patrulluq edən əməkdaşları insanları saqqalarını qırxdıqlarına və ya dinə hörmətsizlik sayılan formada saç düzümünə malik olduqlarına görə həbsə alırlar.[350] Məlumatlara əsasən qadınların yalnız ərlərinin və ya kişi ailə üzvlərinin müşayiəti ilə evdən bayıra çıxmalarına və bunu yalnız icazə verilən az sayda müəyyən məqsədlər üçün, məsələn, həkimin qəbuluna getmək üçün etmələrinə icazə verilir;[351] qaydaları pozan qadınlar və kişilər, məlumatlara görə, ictimaiyyətin gözü qarşısında şallaqlanma ilə cəzalandırılırlar.[352]

Məlumatlara əsasən İŞİD-lə əlaqəli olan qrupların nəzarətində olan ərazilərdə sərt fərmanlar və cəza tədbirləri vasitəsilə mömin həyat tərzi tətbiq edilib.[353] Əfqanıstanın şərq regionundakı

---

November 2015, http://www.theguardian.com/world/2015/nov/04/afghanistan-imams-defytaliban-spread-contraception-condoms. 11 dekabr 2014-cü ildə Kabul Fransa İnstitutunda teatr tamaşası zamanı intiharçı bomba hücumu 12 mülki şəxsin ölümünə və ya xəsarət almasına (2 nəfərin ölümünə və 10 nəfərin xəsarət almasına) səbəb oldu. Taliban hücuma görə məsuliyyəti öz üzərinə götürərək bəyan etdi ki, tamaşa "islam dəyərlərini alçaltdığına və bizim cihad əməliyyatlarımıza qarşı təbliğat yaydığına" görə hədəfə alınıb. Taliban həmçinin bildirdi ki, bu hücum başqalarına da xəbərdarlıqdır ki, belə tədbirlər təşkil etməsinlər. UNAMA, *Afghanistan: Annual Report 2014, Protection of Civilians in Armed Conflict*, February 2015, http://www.refworld.org/docid/54e44e274.html, p. 70. Qaçqın kimi bir neçə il Qərb ölkələrində yaşadıqdan sonra Əfqanıstana qayıtmış bəzi şəxslər müsəlman ibadətlərinə ara verdiyi hesab edilən şəxslər kimi çətinlik çəkdikləri barədə məlumat veriblər. Birləşmiş Krallıqdan Kabula qayıtmış gənc əfqanların taleyinin izlənildiyi araşdırma layihəsi nəticəsində müəyyən edildi ki, taleyi izlənilənlərin dörddə biri "“qərbləşmiş yabançı” hesab edilmələri nəticəsində ziyana və çətinliklərə" məruz qalıblar və məlumatlara əsasən bəzi hallarda bunun səbəbi onların müsəlman ibadətlərinə ara vermiş şəxslər hesab edilməsi olub. Catherine Gladwell, *No Longer a Child: From the UK to Afghanistan*, September 2013, Forced Migration Review: Issue 44, http://www.fmreview.org/en/detention.pdf, p. 63.

[349] 2015-ci ilin sentyabrında Gündüz mühasirəyə alınana qədər və mühasirə dövründə Taliban, məlumatlara görə, ictimaiyyətə elan etdi ki, daha tolerant idarəetmə üsulu tətbiq edəcək. Lakin şəhər alınan kimi Taliban hərbçiləri tiblərin şərh etdiyi islam prinsiplərini, normalarını və dəyərlərini pozduğu hesab edilən şəxslərin ovuna çıxdılar. Xüsusən qadın sığınacaqlarında yaşayan və işləyən qadınlar, məlumatlara görə, Taliban komandirləri tərəfindən "əxlaqsız" sayıldıqlarına görə təqib olundular. Bax: Stratfor Global intelligence, *What the Battle of Kunduz Means for Afghanistan*, 15 October 2015, https://www.stratfor.com/analysis/what-battle-kunduz-means-afghanistan; New York Times, *Fear of Taliban Drives Women Out of Kunduz*, 14 October 2015, http://www.nytimes.com/2015/10/15/world/asia/taliban-targeted-women-kunduz-afghanistan.html; New York Times, *Taking Hold in Kunduz, Afghanistan, New Taliban Echoed the Old*, 1 October 2015, http://www.nytimes.com/2015/10/02/world/asia/taking-hold-in-kunduz-afghanistan-new-taliban-echoed-the-old.html. Həmçinin məlumatlar var ki, Qəzni vilayətinin müəyyən ərazilərində Taliban idman yarışlarını qadağan edib və idman forması geyilməsinə məhdudiyyətlər tətbiq edib, amma Taliban bu iddiaları təkzib edib. Pajhwok Afghan News, *Taliban Accused of Banning Sports in Some Areas of Ghazni*, 4 February 2016, http://www.pajhwok.com/en/2016/02/04/taliban-accused-banning-sports-some-areas-ghazni.

[350] New York Times, *Taliban Present Gentler Face but Wield Iron Fist in Afghan District*, 14 August 2015, http://www.nytimes.com/2015/08/15/world/asia/taliban-baghran-district-afghanistan.html.

[351] New York Times, *Taliban Present Gentler Face but Wield Iron Fist in Afghan District*, 14 August 2015, http://www.nytimes.com/2015/08/15/world/asia/taliban-baghran-district-afghanistan.html.

[352] 2016-cı ilin fevralında "*Tolo Nyus*" yad kişilərlə ünsiyyətdə olmaqla və münasibət qurmaqla islam dəyərlərinin əleyhinə çıxmaqda təqsirləndirilən qadınlara Taliban tərəfindən cəza təyin edildiyi iki hal barədə məlumat verdi. Tolo News, *Taliban Lashes Afghan Woman after Being Out with Relative*, 11 February 2016, http://www.tolonews.com/en/afghanistan/23732-taliban-lashes-afghan-woman-after-beingout-with-relative.

[353] Washington Post, *The Islamic State Is Making these Afghans Long for the Taliban*, 13 October 2015, https://www.washingtonpost.com/world/asia_pacific/a-new-age-of-brutality-how-islamic-state-rose-up-in-one-afghanprovince/2015/10/13/a6dbed67-717b-41e3-87a5-01c81384f34c_story.html; Voice of America, *How Islamic State Got a Foothold in Eastern Afghanistan*, 2 November 2015, http://www.voanews.com/content/how-islamic-state-got-a-foothold-in-eastern-afghanistan/3032761.html. UNAMA-nın bildirdiyinə görə, İŞİD-lə əlaqəli olan qruplar tərəfindən səhiyyə işçilərinin oğurlanması və təhdid edilməsi peyvəndin "islama zidd" olması düşüncəsindən irəli gələr bilər. UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, p. 21.

köçkün ailələr məlumat verib ki, qadınlara sərt qaydalar, o cümlədən geyim qaydaları və onların hərəkət azadlığını məhdudlaşdıran qaydalar tətbiq edilib.[354]

Yuxarıdakı dəlillərə əsaslanaraq BMTQAK hesab edir ki, AHE-lər tərəfindən şərh olunan islam prinsiplərini, normalarını və dəyərlərini pozmuş hesab edilən şəxslər, konkret işin fərdi hallarından asılı olaraq, dini əqidələri və güman edilən siyasi baxışları səbəbindən və ya digər müvafiq səbəblərdən qaçqınlar üçün nəzərdə tutulan beynəlxalq müdafiəyə (himayəyə) ehtiyac duya bilərlər.

### *7. Müəyyən kateqoriyadan olan və ya xüsusi vəziyyətdə olan qadınlar*[355]

2001-ci ildən bəri hökumət ölkədə qadınların vəziyyətini yaxşılaşdırmaq üçün mühüm addımlar atıb, o cümlədən qadın hüquqlarının müdafiəsinə dair beynəlxalq normaları milli qanunvericiliyə daxil edilib, "Qadınlara qarşı zorakılığın ləğv edilməsi haqqında" qanunun qəbulu,[356] qadınların siyasi həyatda iştirakının artırılmasına yönələn tədbirlərin görülməsi[357] və Qadınların İşləri üzrə Nazirliyin yaradılması[358] məhz bu qəbildəndir.

---

[354] UNHCR, *Afghanistan: Conflict-Induced Internal Displacement Monthly Update*, October 2015, http://www.refworld.org/docid/568d016f4.html; UNHCR, *Afghanistan: Conflict-Induced Internal Displacement Monthly Update*, September 2015, http://www.refworld.org/docid/565554b14.html.

[355] Qadınların beynəlxalq müdafiə barədə müraciətlərinə dair əlavə tövsiyələr üçün bax: UNHCR, *Guidelines on International Protection No. 1: Gender-Related Persecution Within the Context of Article 1A(2) of the 1951 Convention and/or its 1967 Protocol Relating to the Status of Refugees*, 7 May 2002, HCR/GIP/02/01, http://www.refworld.org/docid/3d36f1c64.html; həmçinin bax: UN Committee on the Elimination of Discrimination Against Women (CEDAW), *General recommendation No. 32 on the Gender-Related Dimensions of Refugee Status, Asylum, Nationality and Statelessness of Women*, 5 November 2014, CEDAW/C/GC/32, http://www.refworld.org/docid/54620fb54.html.

[356] Əfqanıstan Konstitusiyası qadın və kişilərin hüquq bərabərliyini təmin edir. Bax: 3 yanvar 2004-cü il tarixli Konstitusiyanın 22-ci maddəsi, http://www.refworld.org/docid/404d8a594.html. Bundan əlavə, "Qadınlara qarşı zorakılığın ləğv edilməsi haqqında" 2009-cu il tarixli qanunda qadınlara qarşı zorakılığın müxtəlif formaları cinayət əməli hesab edilir. Qanunun ingiliscə mətnini bu saytda tapmaq olar: http://sgdatabase.unwomen.org/searchDetail.action?measureId=43483&baseHREF=country&baseHREFId=101. Əfqanıstan Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiyanı 2003-cü ildə ratifikasiya edib. 2011-ci ildə hökumət Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi üzrə Komitəyə ilk hesabatını yekunlaşdırıb təqdim etdi və 2012-ci ilin iyulunda hesabat Komitənin 55-ci sessiyasında nəzərdən keçirildi. Komitənin yekun rəylərini bu saytda tapmaq olar: The Committee's *Concluding Observations on the Combined Initial and Second Periodic Reports of Afghanistan*, 23 July 2013, CEDAW/C/AFG/CO/1-2, http://www.refworld.org/docid/51ff5ac94.html. Hökumətin hesabatını və onunla əlaqədar sənədləri bu saytda tapmaq olar: http://www2.ohchr.org/english/bodies/cedaw/cedaws55.htm. Həmçinin bax: UN General Assembly (Human Rights Council), *Report of the United Nations High Commissioner for Human Rights on the Human Rights Situation in Afghanistan and Technical Achievements in the Field of Human Rights*, A/HRC/19/47, 18 January 2012, http://www.refworld.org/docid/4f391a772.html, para. 52. Hökumət həmçinin Əfqanıstan Qadınları üçün Milli Fəaliyyət Planı (2007-2017-ci illər) qəbul edib. http://sgdatabase.unwomen.org/uploads/National%20Action%20Plan%20for%20the%20Women%20of%20Afghanistan%202007%20to%202017.pdf.

[357] Öncə keçirilmiş 2009-cu il seçkiləri ilə müqayisədə 2014-cü il prezident seçkilərində qadınların iştirakında artım müşahidə edildi: 2014-cü ildə keçirilmiş birinci turda qadınların 36 faizi, ikinci turda isə 38 faizi iştirak etdi. US Department of State, *2014 Country Reports on Human Rights Practices - Afghanistan*, 25 June 2015, http://www.refworld.org/docid/559bd58728.html. Müşahidəçilər 2014-cü il seçkilərində qadınların iştirakına maneələr olduğunu, məsələn, təhlükəsizliyə qarşı təhdidlərin olduğunu, yalnız qadınların səs verdikləri seçki məntəqələrində qadın personalın və ya qadın polislərin olmadığını, habelə maneçilik törədən mədəni və ənənəvi amillərin olduğunu qeyd etdilər. Free and Fair Election Forum of Afghanistan, *2014 Elections Observation Report*, 2014, http://www.fefao.org/New-Site/English/images/Reports/Election-2014-English.zip, pp. 37-38. Həmçinin bax: Freedom House, *Freedom in the World 2015 - Afghanistan*, 20 March 2015, http://www.refworld.org/docid/55116f4111.html. UNAMA qeyd etdi ki, yüksək səviyyələrdə siyasi məsələlərə təsir göstərə bilmələri üçün qadınlara konkret imkanlar yaradılması vasitəsilə qadın hüquqlarının vəziyyətinin yaxşılaşdırılacağı barədə bəzi seçki vədləri hələ də gerçəkləşdirilməlidir. UNAMA, *Justice through the Eyes of Afghan Women: Cases of Violence against Women Addressed through Mediation and Court Adjudication*, April 2015, http://www.refworld.org/docid/55814b3c4.html, p. 7. Siyasi həyatda qadınların iştirak səviyyəsi əvvəllər

Bununla belə, məlumatlara görə qadın və qızların vəziyyətində irəliləyişlər cüzidir və Əfqanıstan qadın və qızlar üçün "çox təhlükəli" ölkə hesab edilməkdə davam edir.[359] Ölkənin bəzi hissələrində təhlükəsizliklə bağlı vəziyyətin pisləşməsi qadınların insan hüquqlarının qorunması ilə əlaqədar əldə edilmiş əvvəlki irəliləyişlərin bəzilərini heçə endirib.[360] Qadınlara qarşı dərin köklərə malik ayrı-seçkilik geniş yayılmış olaraq qalır.[361] Qadın və qızlara qarşı zorakılıq halları

---

olduğundan daha yüksəkdir: məsələn, qadınlar Milli Məclisdəki yerlərin 27 faizinə sahibdirlər. Lakin avqust 2013-cü il tarixli "Seçki qanunu"na əsasən, vilayət şuralarına qadın namizədlər üçün ayrılan yerlərin kvotası azaldılaraq 25 faizdən 20 faizə endirilib. *Afghanistan: Law No. 1112 of 2013, Election Law*, 6 August 2013, http://www.refworld.org/docid/54467d784.html. 2015-ci ilin aprelində nazir vəzifəsinə dörd qadın təyin edilib. UN Human Rights Council, *Report of the Special Rapporteur on Violence against Women, its Causes and Consequences, Addendum: Mission to Afghanistan*, 12 May 2015, A/HRC/29/27/Add.3, http://www.refworld.org/docid/5583f8224.html, para. 58. İcma İnkişafı Şuralarının üzvlərinin 24 faizini qadınlar təşkil edir. Inter-Parliamentary Union, *Women in Politics: 2015*, 1 January 2015, http://www.ipu.org/pdf/publications/wmnmap15_en.pdf. Lakin 2014-cü ilin avqustunda İnsan Hüquqları Şurasının 70 üzvündən yalnız səkkizi qadın idi. US Department of State, *2014 Country Reports on Human Rights Practices - Afghanistan*, 25 June 2015, http://www.refworld.org/docid/559bd58728.html. "Oksfam" təşkilatının məlumatına görə, xüsusən sülh danışıqları kontekstində qadınların rolunda müəyyən irəliləyişlər var. Bu sözlər xüsusən kənd yerlərindəki qadınlara aiddir. Oxfam, *Behind Closed Doors - The Risk of Denying Women a Voice in Determining Afghanistan's Future*, 24 November 2014, https://www.oxfam.org/en/research/behind-closeddoors#sthash.Cppmtefn.dpuf; həmçinin bax: HRW, *Afghanistan: Accept Full Role for Women in Talks*, 27 September 2015, https://www.hrw.org/news/2015/09/27/afghanistan-accept-full-role-women-talks.

[358] Talibanın devrilməsindən az sonra 2001-ci ildə Bonn Sazişinə uyğun olaraq Qadınların İşləri üzrə Nazirlik (QİN) yaradılıb. Nazirliyin mandatı və fəaliyyətləri ilə bağlı ətraflı məlumat üçün bu sayta bax: http://www.mowa.gov.af/en. 34 vilayətin hamısında Qadınların İşləri üzrə İdarə (Qİİ) var: vilayətlərdəki bu Qİİ-lər QİN qarşısında hesabatlıdırlar. Qadınlar şikayətlərini Qİİ-yə və ya Ədliyyə Nazirliyi nəzdində fəaliyyət göstərən Hüquq İdarəsinə təqdim edə bilərlər. Bax: UNAMA, *A Way to Go: An Update on Implementation of the Law on Elimination of Violence against Women in Afghanistan*, December 2013, http://www.refworld.org/docid/52a6fdff4.html, p. 3.

[359] US Department of State, *2015 Country Reports on Human Rights Practices - Afghanistan*, 13 April 2016, http://www.refworld.org/docid/5711040d4.html. Həmçinin bax: UN Human Rights Council, *Report of the Special Rapporteur on Violence against Women, its Causes and Consequences, Addendum: Mission to Afghanistan*, 12 May 2015, A/HRC/29/27/Add.3, http://www.refworld.org/docid/5583f8224.html, para. 11. UNAMA münaqişə ilə əlaqədar zorakılıqların xüsusən uşaq və qadınlara təsir göstərməsi hallarının artdığı barədə məlumat verib: 2015-ci ildə 1.246 nəfər qadın mülki şəxsin ölümü və ya xəsarət alması 2014-cü illə müqayisədə 37 faiz artım təşkil edir. UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, pp. 13-16. Həmçinin bax: UNAMA, *Justice through the Eyes of Afghan Women: Cases of Violence against Women Addressed through Mediation and Court Adjudication*, April 2015, http://www.refworld.org/docid/55814b3c4.html, pp. 7-9. ƏMİHK-nın bildirdiyinə görə, "qadınlara qarı zorakılıq Əfqanıstanda insan hüquqlarının ən ciddi pozuntusudur". AIHRC, *Elimination of Violence against Women 1394*, 30 November 2015, http://www.aihrc.org.af/home/research-reports/5170. Həmçinin bax: Associated Press, *For Afghan Women, Violence Remains Entrenched Despite Gains*, 7 April 2015, http://www.csmonitor.com/World/Middle-East/2015/0407/For-Afghan-women-violence-remains-entrenched-despitegains-video.

[360] UN Human Rights Council, *Report of the United Nations High Commissioner for Human Rights on the Situation of Human Rights in Afghanistan and on the Achievements of Technical Assistance in the Field of Human Rights in 2013*, 10 January 2014, A/HRC/25/41, http://www.refworld.org/docid/52e109fa4.html, p. 1 (Summary). Məsələn, UNAMA Gündüzdə qadınlara qarşı zorakılıqdan istifadə edildiyi və onların azadlıqlarının məhdudlaşdırıldığı barədə məlumat verib. UNAMA, *Afghanistan: Human Rights and Protection of Civilians in Armed Conflict Special Report on Kunduz Province*, December 2015, http://www.refworld.org/docid/566fd0e64.html, pp. 14-15; həmçinin bax: AIHRC, *The Report on the Investigation of Human Rights and Humanitarian Rights Situation in Kunduz Province Armed Conflict*, 17 October 2015, http://www.aihrc.org.af/media/files/Kondoz_English.pdf, p. 12.

[361] US Department of State, *2015 Country Reports on Human Rights Practices - Afghanistan*, 13 April 2016, http://www.refworld.org/docid/5711040d4.html; UN General Assembly, *The situation in Afghanistan: Resolution Adopted by the General Assembly*, 23 December 2014, A/RES/69/18, http://www.refworld.org/docid/54a66ebc4.html, para. 45; US Department of Defense, *Report on Progress Towards Security and Stability in Afghanistan*, October 2014, http://www.defense.gov/Portals/1/Documents/pubs/Oct2014_Report_Final.pdf, p. 91; UN Human Rights Council, *Report of the United Nations High Commissioner for Human Rights on the Situation of Human Rights in Afghanistan and on the Achievements of Technical Assistance in the Field of human rights in 2013*, 10 January 2014, A/HRC/25/41, http://www.refworld.org/docid/52e109fa4.html, p.2 (Summary) and para. 3. Məlumatlara görə ƏMP-də qulluq edən qadın polislər qətlə yetirilmək, habelə həmkarları tərəfindən zorlanma da daxil olmaqla seksual

əvvəlkitək geniş yayılıb və məlumatlara görə artmaqdadır;[362] belə zorakılıqları törədənlərin cəzasız qalması isə məlumatlara əsasən adi haldır.[363] Deyilənlərə görə, qadınlar iqtisadi, sosial və mədəni hüquqlarını tam həyata keçirməkdə ciddi problemlərlə qarşılaşmaqda davam edirlər.[364] İrəliləyişlərə baxmayaraq, yoxsulluq, savadsızlıq, aşağı səviyyəli səhiyyə xidməti qadınlara öz qeyri-mütənasib təsirini göstərməkdə davam edir.[365]

Müşahidəçilər qeyd ediblər ki, qadınların hüquqlarının müdafiəsinə dair qanunvericiliyin tətbiqinin səviyyəsi aşağı olaraq qalır.[366] Buraya xüsusən "Qadınlara qarşı zorakılığın ləğv

---

təqibə və sui-istifadə hallarına və ümumən ayrı-seçkilik hallarına məruz qalmaq təhlükəsi altındadırlar. New York Times, *Afghan Policewomen Struggle Against Culture*, 1 March 2015, http://www.nytimes.com/2015/03/02/world/asia/afghan-policewomen-struggle-against-culture.html; New York Times, *Afghan Policewomen Say Sexual Harassment Is Rife*, 16 September 2013, http://www.nytimes.com/2013/09/17/world/asia/afghan-policewomenreport-high-levels-of-sexual-harassment.html.

[362] ƏMİHK-nın bildirdiyinə görə, 1393-cü ildə (yəni 21 mart 2014-cü ildən 20 mart 2015-ci ilədək) 162 qadın qətlə yetirilib. 1393-cü ilin birinci altı ayı ilə müqayisədə 1394-cü ilin birinci altı ayında qətllərin sayı iki dəfə artıb. AIHRC, *Elimination of Violence against Women 1394*, 30 November 2015, http://www.aihrc.org.af/home/research-reports/5170. Həmçinin bax: US Department of State, *2015 Country Reports on Human Rights Practices - Afghanistan*, 13 April 2016, http://www.refworld.org/docid/5711040d4.html; AREU, *The Other Side of Gender Inequality: Men and Masculinities in Afghanistan*, January 2016, http://www.refworld.org/docid/56a093534.html, p. 46; UN Secretary-General, *The Situation in Afghanistan and its Implications for International Peace and Security: Report of the Secretary-General*, 10 June 2015, A/69/929 – S/2015/422, http://www.refworld.org/docid/558284aa4.html, para. 70.

[363] ƏMİHK-nın bildirdiyinə görə, "cəzasızlıq ənənəsi" Əfqanıstanda qadınlara qarşı zorakılığın kökündə duran ən mühüm səbəblərdən biridir. AIHRC, *Elimination of Violence against Women 1394*, 30 November 2015, http://www.aihrc.org.af/home/researchreports/5170. Həmçinin bax: US Department of State, *2015 Country Reports on Human Rights Practices - Afghanistan*, 13 April 2016, http://www.refworld.org/docid/5711040d4.html; New York Times, *Flawed Justice After a Mob Killed an Afghan Woman*, 26 December 2015, http://www.nytimes.com/2015/12/27/world/asia/flawed-justice-after-a-mob-killed-an-afghan-woman.html; Orzala Ashraf Nemat, *Farkhunda Paid for Afghanistan's Culture of Impunity*, 25 March 2015, https://www.opendemocracy.net/5050/orzala-ashrafnemat/farkhunda-paid-for-afghanistan's-culture-of-impunity; AAN, *Shame and Impunity: Is violence against Women Becoming More Brutal?*, 30 November 2014, https://www.afghanistan-analysts.org/shame-and-impunity-is-domestic-violence-becoming-more-brutal/.

[364] UN Human Rights Council, *Report of the Special Rapporteur on Violence against Women, its Causes and Consequences, Addendum: Mission to Afghanistan*, 12 May 2015, A/HRC/29/27/Add.3, http://www.refworld.org/docid/5583f8224.html, paras 9, 56; UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, p. 14. Gender equality continues to be a major challenge. UN Secretary-General, *The Situation in Afghanistan and its Implications for International Peace and Security: Report of the Secretary-General*, 1 September 2015, A/70/359–S/2015/684, http://www.refworld.org/docid/55f677871e.html, para. 27. Həmçinin bax: NRC/IDMC, *Strengthening Displaced Women's Housing, Land and Property Rights in Afghanistan*, November 2014, http://www.refworld.org/docid/5486c4684.html.

[365] US Department of State, *2015 Country Reports on Human Rights Practices - Afghanistan*, 13 April 2016, http://www.refworld.org/docid/5711040d4.html; UN Human Rights Council, *Report of the Special Rapporteur on Violence against Women, its Causes and Consequences, Addendum: Mission to Afghanistan*, 12 May 2015, A/HRC/29/27/Add.3, http://www.refworld.org/docid/5583f8224.html, para. 56. Əfqanıstan İnsan Hüquqları və Demokratiya Təşkilatı (ƏİHDT) qadınlara qarşı zorakılığın bir çox formalarını yoxsulluqla əlaqələndirir. AHRDO, *Women in the Eyes of Men*, February 2015, http://www.baag.org.uk/resources/30, pp. 7, 11. Həmçinin bax: Institute for War and Peace Reporting, *Afghanistan: "Honour" Rules Deny Care to Mothers and Babies*, 22 October 2015, ARR Issue 525, http://www.refworld.org/docid/564b572f4.html.

[366] Məsələn, 2014-cü ilin noyabrında Qadınlara qarşı zorakılıq, onun səbəbləri və nəticələri üzrə xüsusi məruzəçi "qadınlara qarşı zorakılıq barədə hərtərəfli və ardıcıl şəkildə toplanan məlumatların, eləcə də qanunların şərhi və tətbiqi üçün səmərəli mexanizmlərin və qadınlar üçün müdafiə vasitəsi olan sığınacaqlara yardım üçün resursların olmadığını, o cümlədən bu sığınacaqlara qarşı mənfi münasibətin aradan qaldırılması tələbinin yerinə yetirilmədiyini vurğuladı". UN Secretary-General, *The Situation in Afghanistan and its Implications for International Peace and Security: Report of the Secretary-General*, 9 December 2014, A/69/647-S/2014/876, http://www.refworld.org/docid/549808194.html, para. 34. 2014-cü ilin əvvəlində parlamentin hər iki palatası Cinayət Prosessual Məcəlləsinin yeni layihəsinə səs vermiş və layihəyə zorlama hallarında qohumların ifadə verməsini qadağan edən normalar daxil edilmişdi ki, bu da əvvəllər əldə edilmiş irəliləyişlərdən sonra geriyə yuvarlanma təhlükəsini doğururdu. Bu dəyişiklik sonradan geri götürüldü və qadınların ifadə verməsinə icazə verən əvvəlki norma bərpa edildi. UN Secretary-General, *The Situation in Afghanistan and its Implications for*

edilməsi haqqında" qanun daxildir. 2009-cu ildə dərc olunmuş bu qanunda uşaqların nikah bağlaması, nikaha məcbur etmə və qadınlara qarşı zorakılıq təşkil edən digər 22 əməl, o cümlədən zorlama və məişət zorakılığı cinayət hesab olunur və cinayətkarlar üçün cəzalar nəzərdə tutulur.[367] Bu qanunun tətbiqində hakimiyyət orqanlarının siyasi iradəsinin olmadığı bildirilir və məlumatlara görə o, xüsusən kənd yerlərində tam tətbiq edilmir.[368] Əksər hallarda, o cümlədən qadınlara qarşı ciddi cinayətlər baş verdiyi hallarda məsələ qanunun tələb etdiyi kimi məhkəmə təqibi qaydasında deyil, hələ də mübahisələrin həlli üzrə ənənəvi vasitəçi mexanizmlərin köməyi ilə həll olunur.[369] UNAMA məlumat verir ki, istər ƏMP, istərsə də prokurorluq çoxsaylı işləri, o cümlədən ciddi cinayətlərə aid işləri məsləhət üçün və ya məsələnin həlli üçün *cirqələrə* və *şuralara* göndərir ki, bu da "Qadınlara qarşı zorakılığın ləğv edilməsi haqqında" qanunun tətbiqinə əngəl törədir və zərərli adət-ənənələri gücləndirir.[370] Bu mexanizmlərin qərarları qadınları və qızları gələcəkdə də qurbana çevrilmək təhlükəsi altında qoyur.[371]

---

*International Peace and Security: Report of the Secretary-General*, 27 February 2015, A/69/801-S/2015/151, http://www.refworld.org/docid/556585104.html, p. 29.

[367] "Qadınlara qarşı zorakılığın ləğv edilməsi haqqında" qanun (2009), http://www.refworld.org/docid/5486d1a34.html. Qanun 2009-cu ildə prezident fərmanı ilə qəbul edilib. 2010-cu ilin dekabrında və 2013-cü ilin mayında "Qadınlara qarşı zorakılığın ləğv edilməsi haqqında" qanunun Milli Məclis tərəfindən təsdiqlənməsinə yönələn səylər mühafizəkar islamçıların buna qarşı çıxması səbəbindən boşa çıxıb. Bax: US Department of State, *2015 Country Reports on Human Rights Practices - Afghanistan*, 13 April 2016, http://www.refworld.org/docid/5711040d4.html; UNAMA, *Justice through the Eyes of Afghan Women: Cases of Violence against Women Addressed through Mediation and Court Adjudication*, April 2015, http://www.refworld.org/docid/55814b3c4.html, p. 11; Congressional Research Service, *Afghanistan: Politics, Elections, and Government Performance*, 12 January 2015, http://www.fas.org/sgp/crs/row/RS21922.pdf, p. 53.

[368] US Department of State, *2015 Country Reports on Human Rights Practices - Afghanistan*, 13 April 2016, http://www.refworld.org/docid/5711040d4.html; AIHRC, *Elimination of Violence against Women 1394*, 30 November 2015, http://www.aihrc.org.af/home/research-reports/5170; UN Human Rights Council, *Report of the Special Rapporteur on Violence against Women, its Causes and Consequences, Addendum: Mission to Afghanistan*, 12 May 2015, A/HRC/29/27/Add.3, http://www.refworld.org/docid/5583f8224.html, paras 64-65. "Toplanmış məlumatlara əsasən, UNAMA qeyd edib ki, məhkəmələrin çıxardığı on ittiham hökmündən üçündə hakimlərin təyin etdiyi cəza yüngül cəza sayılıb və "Qadınlara qarşı zorakılığın ləğv edilməsi haqqında" qanuna uyğun hesab edilməyib". UNAMA, *Justice through the Eyes of Afghan Women: Cases of Violence against Women Addressed through Mediation and Court Adjudication*, April 2015, http://www.refworld.org/docid/55814b3c4.html, p. 18.

[369] US Department of State, *2015 Country Reports on Human Rights Practices - Afghanistan*, 13 April 2016, http://www.refworld.org/docid/5711040d4.html; UNAMA, *Justice through the Eyes of Afghan Women: Cases of Violence against Women Addressed through Mediation and Court Adjudication*, April 2015, http://www.refworld.org/docid/55814b3c4.html, p. 17; MoWA, *First Report on the Implementation of the Elimination of Violence against Women (EVAW) Law in Afghanistan*, January 2014, http://mowa.gov.af/Content/files/EVAW%20Law%20Report_Final_English_17%20%20March%202014.pdf, pp. 31-32. UNAMA-nın bildirdiyinə görə, işlərinin həlli üçün qadınların mediasiyaya (vasitəçiliyə) üstünlük verməsinə, məlumatlara əsasən, bir sıra amillər, məsələn, onların şikayətlərini araşdıran cinayət ədliyyəsi sistemindəki qüsurlar, o cümlədən korrupsiya, hakimiyyət səlahiyyətindən sui-istifadə barədə iddialar və peşəkarlığın olmaması təsir göstərir. Mediasiya praktikasının üstünlük təşkil etməsi həm də işlərin tez həll olunması ilə, maliyyə sıxıntıları ilə, cinslərin rolu barədə üstünlük təşkil edən təsəvvürlərlə və mədəni ənənələrlə əlaqələndirilir. Məlumatlara əsasən mediasiya prosesi hər hansı vahid standart yanaşmanın və nəzarət mexanizmlərinin olmadığı bir şəraitdə cərəyan edir. UNAMA həmçinin fərqli və əsassız xarakterli metodologiyaların, sənədləşdirmə praktikasının və icra mexanizmlərinin qəbul edildiyini qeydə alıb ki, bu da cinayətdən sonra salamat qalmış qadınların hüquqlarının zəif müdafiə olunmasına gətirib çıxarır. UNAMA, *Justice through the Eyes of Afghan Women: Cases of Violence against Women Addressed through Mediation and Court Adjudication*, April 2015, http://www.refworld.org/docid/55814b3c4.html, pp. 2-3.

[370] UNAMA, *Justice through the Eyes of Afghan Women: Cases of Violence against Women Addressed through Mediation and Court Adjudication*, April 2015, http://www.refworld.org/docid/55814b3c4.html, pp. 14, 22-23; UNAMA, *A Way to Go: An Update on Implementation of the Law on Elimination of Violence against Women in Afghanistan*, December 2013, http://www.refworld.org/docid/52a6fdff4.html, p. 5. Həmçinin bax: UN Human Rights Council, *Report of the Special Rapporteur on Violence against Women, its Causes and Consequences, Addendum: Mission to Afghanistan*, 12 May 2015, A/HRC/29/27/Add.3, http://www.refworld.org/docid/5583f8224.html, para. 63.

[371] UNAMA qeyd edir ki, işi baxılmaq üçün mübahisələrin ənənəvi həlli mexanizminə göndərən qurumun, məsələn, qadınların işləri üzrə vilayət idarəsinin, ƏMP-nin və ya prokurorların nəzarətinin yetərincə olmaması nəticəsində bu

Şiə icması üzvlərinin ailə hüququ məsələlərini, o cümlədən nikah, boşanma və vərəsəlik hüquqlarını tənzimləyən "Şiələrin şəxsi statusu haqqında" qanuna[372] qadınlara qarşı ayrı-seçkilik xarakteri daşıyan bir sıra müddəalar, konkret olaraq, qəyyumluğa, vərəsəliyə, azyaşlıların nikahlarına aid olan və icazəsiz evdən çıxmağı məhdudlaşdıran normalar daxildir.[373]
Bu bölmədə insan hüquqları ilə bağlı göstərilən problemlər bütün ölkədəki qadınlara və qızlara təsir göstərsə də, AHE-lərin faktiki nəzarəti altında olan ərazilərdə vəziyyət xüsusi narahatlıq doğurur. Məlumatlara görə, nəzarəti altında olan ərazilərdə AHE-lər qızların və qadınların hüquqlarını, o cümlədən onların hərəkət azadlığını və siyasi həyatda iştirak hüququnu ciddi şəkildə məhdudlaşdırıb.[374] Bundan başqa, AHE-lərin faktiki nəzarəti altında olan ərazilərdə qadınlar, yəqin ki, hüquqlarının hər hansı pozuntuları ilə bağlı ədalət mühakiməsinə çıxış əldə etməkdə və hüquqi müdafiə vasitələrindən istifadə etməkdə xüsusi çətinliklərlə üzləşirlər. Həqiqətən, məlumatlara görə nəzarəti altında olan ərazilərdə AHE-lər tərəfindən idarə olunan paralel ədliyyə strukturlarının qadınların hüquqlarını pozması adi hal alıb.[375]

*a) Seksual zorakılıq və cinsi mənsubiyyətə əsaslanan zorakılıq*

Seksual zorakılıq və cinsi mənsubiyyətə əsaslanan (gender əsaslı) zorakılıq Əfqanıstanda geniş yayılmış hal olaraq qalır.[376] Belə zorakılıqlar sırasına "namus zəminində qətllər", qadınların oğurlanması, zorlanması, məcburi abortlar və məişət zorakılığı daxildir.[377] Nikahdankənar cinsi

---

cür vasitəçilik (mediasiya) prosesindən sonra ailələrinə qayıdan qadınlar çox zaman zorakılıqların təkrarlanması riskinə məruz qalırlar. UNAMA, *A Way to Go: An Update on Implementation of the Law on Elimination of Violence against Women in Afghanistan*, December 2013, http://www.refworld.org/docid/52a6fdff4.html, p. 4.

[372] "Şiələrin şəxsi statusu haqqında" qanun, mart 2009-cu il (Shiite Personal Status Law, March 2009, http://www.refworld.org/docid/4a24ed5b2.html). Bu Qanun Əfqanıstan Konstitusiyasının 131-ci maddəsinə uyğun olaraq qəbul edilib.

[373] Arvadın öz ərinin cinsi tələbatını təmin etməsini tələb edən mübahisəli müddəa ölkədaxili və beynəlxalq təzyiqlərdən sonra Qanundan çıxarılıb. Lakin əfqanıstanlı hüquq ekspertləri bu fikirdədirlər ki, dəyişiklik edilmiş Qanunun 162-ci maddəsi kişiyə imkan verir ki, əgər qadının ər qismində onun hüquqlarını təmin etməkdən imtina etdiyini hesab edərsə, arvadını maddi cəhətdən təmin etməkdən faktiki olaraq imtina etmək üçün bu maddənin müddəalarından istifadə etsin. Bax: UN Committee on Economic, Social and Cultural Rights (CESCR), *Consideration of reports submitted by States parties under articles 16 and 17 of the Covenant: concluding observations of the Committee on Economic, Social and Cultural Rights: Afghanistan*, E/C.12/AFG/CO/2-4, 7 June 2010, http://www.refworld.org/docid/4c1732dc2.html. Həmçinin bax: NRC/IDMC, *Strengthening Displaced Women's Housing, Land and Property Rights in Afghanistan*, November 2014, http://www.refworld.org/docid/5486c4684.html, pp. 47-48.

[374] UNAMA, *Afghanistan: Human Rights and Protection of Civilians in Armed Conflict Special Report on Kunduz Province*, December 2015, http://www.refworld.org/docid/566fd0e64.html, pp. 14-15; AIHRC, *The Report on the Investigation of Human Rights and Humanitarian Rights Situation in Kunduz Province Armed Conflict*, 17 October 2015, http://www.aihrc.org.af/media/files/Kondoz_English.pdf, p. 12; UN Human Rights Council, *Report of the Special Rapporteur on Violence against Women, its Causes and Consequences, Addendum: Mission to Afghanistan*, 12 May 2015, A/HRC/29/27/Add.3, http://www.refworld.org/docid/5583f8224.html, para. 56. Həmçinin bax: The Guardian, *Afghanistan's Women Risk Their Lives to Demand Equal Rights and Protection*, 25 November 2015, http://www.theguardian.com/globaldevelopment/2015/nov/25/afghanistan-women-risk-lives-demand-equal-rights-protection.

[375] UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, p. 14. Talibanın tətbiq etdiyi paralel ədliyyə strukturları ilə bağlı əlavə müzakirə üçün II.C.1.c bölməsinə bax.

[376] UN Human Rights Council, *Report of the Special Rapporteur on violence against women, its causes and consequences, Addendum: Mission to Afghanistan*, 12 May 2015, A/HRC/29/27/Add.3, http://www.refworld.org/docid/5583f8224.html, para. 13. Həmçinin bax: US Department of State, *2015 Country Reports on Human Rights Practices - Afghanistan*, 13 April 2016, http://www.refworld.org/docid/5711040d4.html.

[377] "Cinsi təcavüz Əfqanıstanda ən ciddi və ən çox narahatlıq doğuran seksual zorakılıqdır. Bir çox hallarda cinsi təcavüz digər zorakılıq növləri ilə müşayiət olunur ki, bu da adətən sonda qurbanın ölümü ilə nəticələnir". AIHRC, *Elimination of Violence against Women 1394*, 30 November 2015, http://www.aihrc.org.af/home/research-reports/5170. Misal üçün bu mənbələrə də bax: New York Times, *Afghan Woman's Nose Is Cut Off by Her Husband, Officials Say*, 19 January 2016, http://www.nytimes.com/2016/01/20/world/asia/afghan-womans-nose-is-cut-off-by-herhusband-officials-say.html; AREU, *The Other Side of Gender Inequality: Men and Masculinities in Afghanistan*, January 2016, available at: http://www.refworld.org/docid/56a093534.html, pp. 39-43.

aktlar əfqan cəmiyyətində böyük əksəriyyət tərəfindən ailələri rüsvay edən hal sayıldığı üçün nikah xaricindəki zorlamanın qurbanları cəmiyyətdən kənarlaşdırılma, aborta məcbur edilmə, həbsə alınma, yaxud hətta öldürülmə riski altında olurlar.[378] Cəmiyyətdəki qadağalardan, habelə cəmiyyət tərəfindən, o cümlədən öz icmasının və ailəsinin üzvləri tərəfindən rüsvayçılıq damğasının vurulmasından və təzyiqlərdən qorxmaları çox vaxt qurbanları seksual zorakılıq və cinsi mənsubiyyətə əsaslanan zorakılıq barədə xəbər verməkdən çəkindirir.[379] Eyni zamanda, məişət zorakılığı halları baş verərkən qadınların özlərini yandırması halları artmaqda davam edir.[380]

Hökumət orqanları məişət zorakılığı barədə şikayətləri baxılmaq üçün mübahisələrin həlli üzrə ənənəvi mexanizmlərə verməkdə davam edirlər.[381] Pis rəftar və ya nikaha məcbur edilmə təhdidləri ucbatından evlərini tərk edən qadınların və qızların özləri çox vaxt anlayışı olduqca qeyri-müəyyən olan, yaxud ümumiyyətlə anlayış verilməyən "mənəviyyat əleyhinə cinayətlərdə", o cümlədən ər-arvad sədaqətinə xəyanətdə (zinada) və ya "evdən qaçmaqda" təqsirləndirilirlər.[382] Məlumatlara əsasən məişət zorakılığına və ya məcburi nikahlara görə məsuliyyət daşıyan kişilər demək olar həmişə cəzasız qaldıqları halda, bir çox qadınlar belə vəziyyətlərdə məhkum olunaraq azadlıqdan məhrum edilirlər ki, bu da insan hüquqlarına dair

---

378 Misal üçün bax: HRW, *Afghanistan: End 'Moral Crimes' Prosecutions*, June 2014, http://www.hrw.org/news/2014/06/23/afghanistan-endmoral-crimes-prosecutions.

379 AIHRC, *Elimination of Violence against Women 1394*, 30 November 2015, http://www.aihrc.org.af/home/research-reports/5170; həmçinin bax: UN Human Rights Council, *Report of the Special Rapporteur on Violence against Women, its Causes and Consequences, Addendum: Mission to Afghanistan*, 12 May 2015, A/HRC/29/27/Add.3, http://www.refworld.org/docid/5583f8224.html, paras 30, 65.

380 BMT-nin Əhali Fondunun (UNFPA) Əfqanıstan üzrə nümayəndəsi qeyd edib ki, "Əfqanıstanda barəsində məlumat verilən intihar hallarının və özünü yandırma cəhdlərinin çoxu qadınlar tərəfindən baş verib". O həmçinin bildirib ki, "cinsi zəmində zorakılıq qadınların intihar etməsinin və özünü yandırmağa cəhd etməsinin əsas səbəbləri arasındadır. Araşdırmaya əsasən, özünü yandırma hallarının ən çox yayılmış səbəbi məcburi və ya erkən nikahdır". Ministry of Public Health, *Ministry of Women's Affairs and UN Call for Efforts to Strengthen Suicide Prevention in Afghanistan*, 10 September 2014, http://moph.gov.af/en/news/ministry-of-public-health-ministry-of-womens-affairs-and-un-call-for-efforts-to-strengthen-suicide-preventionin-afghanistan. Həmçinin bax: UNAMA, *Justice through the Eyes of Afghan Women: Cases of Violence against Women Addressed through Mediation and Court Adjudication*, April 2015, http://www.refworld.org/docid/55814b3c4.html; UNFPA, *Afghanistan State of Youth*, 2014, http://countryoffice.unfpa.org/filemanager/files/afghanistan/2014/reports/unfpasoayreportv333e.pdf, p. 44. Asiya Fondunun 2015-ci ildə Əfqanıstanla bağlı apardığı araşdırmalar nəticəsində müəyyən edilib ki, respondentlərin 13 faizi məişət zorakılığını Əfqanıstanda qadınların üzləşdiyi ən böyük problem hesab edir. Bu, 2006-cı ildən bəri araşdırmalarda qeydə alınmış ən yüksək rəqəmdir. Kişilərlə müqayisədə qadınlar məişət zorakılığını problem kimi daha çox göstəriblər, kişi respondentlərin yalnız səkkiz faizi bu məsələni problem kimi göstərib. Asia Foundation, *Afghanistan in 2015: A Survey of the Afghan People*, November 2015, http://asiafoundation.org/resources/pdfs/Afghanistanin2015.pdf, pp. 26-28.

381 UNAMA, *Justice through the Eyes of Afghan Women: Cases of Violence against Women Addressed through Mediation and Court Adjudication*, April 2015, http://www.refworld.org/docid/55814b3c4.html, pp. 22-23. Səmərəli ədalət mühakiməsi və hüquqi müdafiə vasitələrinə müraciət imkanının olmaması öz növbəsində seksual zorakılıq hallarının böyük əksəriyyətinin hüquq-mühafizə orqanları və ya cəmiyyət tərəfindən öz həllini tapmaması ilə nəticələnir. UNAMA qeyd edib ki, konkret mülki hüquqi müdafiə vasitələrinin (məsələn, qoruyucu və çəkindirici xarakterli qərarların) olmaması "faktiki olaraq qurbanları sonrakı zorakılıqlara məruz qoyur". UNAMA, *Justice through the Eyes of Afghan Women: Cases of Violence against Women Addressed through Mediation and Court Adjudication*, April 2015, http://www.refworld.org/docid/55814b3c4.html, pp. 12, 28, 32-33. Həmçinin bax: UN Human Rights Council, *Report of the Special Rapporteur on Violence against Women, its Causes and Consequences, Addendum: Mission to Afghanistan*, 12 May 2015, A/HRC/29/27/Add.3, http://www.refworld.org/docid/5583f8224.html, paras 65-69. Xüsusi məruzəçi qeyd edir ki, korrupsiya və cinayət ədliyyəsi sisteminin təsirliliyinə və səmərəliliyinə ümumi inamsızlıq bu sistemə xələl gətirməkdə davam edir. *Ibid.*, para. 67.

382 UN Human Rights Council, *Report of the Special Rapporteur on Violence against Women, its Causes and Consequences, Addendum: Mission to Afghanistan*, 12 May 2015, A/HRC/29/27/Add.3, http://www.refworld.org/docid/5583f8224.html, paras 23-24. Zina (nikahdankənar cinsi əlaqədə olma) Cinayət Məcəlləsinə əsasən cinayət sayıldığı halda, "evdən qaçma" və ya "zina törətmə niyyəti" Əfqanıstan qanunvericiliyinə və ya şiə hüququna əsasən cinayət sayılmır. HRW, *Afghanistan: End 'Moral Crimes' Prosecutions*, June 2014, http://www.hrw.org/news/2014/06/23/afghanistan-end-moral-crimes-prosecutions. Həmçinin III.A.8 bölməsindəki 408-ci mətnaltı qeydə bax.

beynəlxalq normaların və məhkəmə praktikasının pozuntusunu təşkil edir.[383] Bundan əlavə, adətən qadınlar məişət zorakılığını törədənlərdən maddi cəhətdən asılı olduqlarına görə, qadınların çoxu faktiki olaraq şikayət vermək imkanından məhrumdur və hüquqlarının pozulduğu bu cür vəziyyətdə yaşamaqda davam etməkdən savayı onların başqa seçim imkanı çox azdır.[384]

Zorakılıq barədə xəbər verməyə çalışan qadınların ədalət mühakiməsinə çıxışına belə bir fakt əlavə mane yaradır ki, qadın polis əməkdaşları ölkədəki bütün polis əməkdaşlarının cəmi bir faizindən bir qədər artığını təşkil edir.[385] Məlumatlara görə qadın polis əməkdaşlarının özləri iş yerində kişi həmkarları tərəfindən seksual təqiblərə və hücumlara məruz qalmaq, o cümlədən zorlanmaq riski altında olurlar.[386] Onları həmçinin AHE-lər tərəfindən zorakılığa məruz qalma riski altındadırlar.[387]

Məlumatlara əsasən, seksual zorakılıq aktlarına görə cəzasızlığın qalmasının daha bir səbəbi ondan ibarətdir ki, ölkənin bəzi ərazilərində zorlamanı törədənlər səlahiyyətli komandirlər, yaxud silahlı qrupların və ya cinayətkar dəstələrin üzvləridir, yaxud da belə qruplarla və ya nüfuzlu şəxslərlə əlaqələrə malikdirlər ki, sonuncular da onları həbsdən və məhkəmə təqibindən müdafiə edir.[388]

*b) Zərərli adət-ənənələr*

Əfqanıstanda zərərli adət-ənənələrin geniş yayılması davam edir[389] və onlar bütün ölkə boyunca kənd yerlərində və şəhər icmalarında və bütün etnik qruplar arasında müxtəlif dərəcələrdə

---

[383] US Department of State, *2015 Country Reports on Human Rights Practices - Afghanistan*, 13 April 2016, http://www.refworld.org/docid/5711040d4.html; AIHRC, *Elimination of Violence against Women 1394*, 30 November 2015, http://www.refworld.org/docid/5694bfa04.html; UNAMA, *Justice through the Eyes of Afghan Women: Cases of Violence against Women Addressed through Mediation and Court Adjudication*, April 2015, http://www.refworld.org/docid/55814b3c4.html, p. 29. Misal üçün bu mənbəyə də bax: NYT, *Rebelling Against Abuse, Afghan Women See Signs of Change*, 27 May 2014, http://www.nytimes.com/2014/05/28/world/asia/rebelling-against-abuse-afghan-women-see-signs-of-change.html. Həmçinin "Cəmiyyətin mənəviyyat normalarına zidd davrandıqları hesab edilən qadınlar və kişilər" başlıqlı III.A.8 bölməsində qeyd edildiyi kimi, bəzi hallarda hakimiyyət orqanları qadınların həbsə alınmasına ailə üzvləri tərəfindən onların sonradan pis rəftar və ya qisas hallarına məruz qalmasına qarşı "qoruyucu tədbir" kimi haqq qazandırırlar.

[384] UNAMA, *Justice through the Eyes of Afghan Women: Cases of Violence against Women Addressed through Mediation and Court Adjudication*, April 2015, http://www.refworld.org/docid/55814b3c4.html, p. 32. Həmçinin III.A.8 bölməsinə bax.

[385] New York Times, *Afghan Policewomen Struggle against Culture*, 1 March 2015, http://www.nytimes.com/2015/03/02/world/asia/afghanpolicewomen-struggle-against-culture.html.

[386] UNAMA, *Justice through the Eyes of Afghan Women: Cases of Violence against Women Addressed through Mediation and Court Adjudication*, April 2015, http://www.refworld.org/docid/55814b3c4.html, p. 9; Amnesty International, *Afghanistan: Their Lives on the Line: Women Human Rights Defenders under Attack in Afghanistan*, 7 April 2015, ASA 11/1279/2015, http://www.refworld.org/docid/55277ff24.html, pp. 28-35; New York Times, *Afghan Policewomen Struggle against Culture*, 1 March 2015, http://www.nytimes.com/2015/03/02/world/asia/afghan-policewomen-struggle-against-culture.html; UNAMA, *A Way to Go: An Update on Implementation of the Law on Elimination of Violence against Women in Afghanistan*, December 2013, http://www.refworld.org/docid/52a6fdff4.html, para. 5.4.

[387] Amnesty International, *Afghanistan: Their Lives on the Line: Women Human Rights Defenders under Attack in Afghanistan*, 7 April 2015, ASA 11/1279/2015, http://www.refworld.org/docid/55277ff24.html, pp. 28-35.

[388] AIHRC, *The Situation of Human Rights in Afghanistan in 1393*, 11 August 2015, http://www.refworld.org/docid/5694bc384.html, pp. 31-32; UN Secretary-General, *Conflict-related Sexual Violence: Report of the Secretary-General*, 23 March 2015, S/2015/203, http://www.refworld.org/docid/5536100a4.html, para. 12; UN Secretary-General, *Sexual Violence in Conflict – Report of the Secretary-General*, A/67/792–S/2013/149, 14 March 2013, http://www.refworld.org/docid/5167bd0f4.html, para. 16.

[389] Bax: AIHRC, *Elimination of Violence against Women 1394*, 30 November 2015, http://www.aihrc.org.af/home/research-reports/5170; UNAMA, *A Way to Go: An Update on Implementation of the Law on Elimination of Violence against Women in Afghanistan*, December 2013, http://www.refworld.org/docid/52a6fdff4.html.

təzahür edir.[390] Əfqanıstan cəmiyyətində qadının rolu və mövqeyi ilə bağlı ayrı-seçkilik xarakterli baxışlardan qaynaqlanan zərərli adət-ənənələr qadınlara və qızlara qeyri-mütənasib təsir göstərir. Belə adət-ənənələr sırasına məcburi nikahların müxtəlif formaları,[391] o cümlədən uşaqların nikahı;[392] evdə məcburi qaydada təcrid olunma; habelə "namus zəminində qətllər"[393] daxildir. Əfqanıstanda məcburi nikah formalarına bunlar daxildir:

---

[390] "Şiələrin şəxsi statusu haqqında" qanunla əlaqədar xüsusi narahatlıqlar ifadə edilib. Bu qanun Əfqanıstan Konstitusiyasının 131-ci maddəsinə uyğun olaraq qəbul edilib və Əfqanıstan əhalisinin təxminən 20 faizini təşkil edən şiə icmasının ailə hüququ məsələlərini (məsələn, nikah və boşanma məsələlərini və vərəsəlik hüquqlarını) tənzimləyir. Shi'ite Personal Status Law, March 2009, http://www.refworld.org/docid/4a24ed5b2.html. Tanınmış şiə şəxslər və şiə qrupları bu qanunun qəbulunu şiə məhkəmə praktikasının rəsmən tanınması kimi qəbul edərək alqışlasalar da, qanunun ilkin forması qadın hüquqlarının müdafiəsini nəzərdə tutmadığına görə ölkədaxili və beynəlxalq tənqidlərə məruz qaldı. Tənqidlər qanuna dəyişikliklər edilməsi ilə nəticələndi, lakin bəzi mübahisəli müddəalar, o cümlədən qəyyumluğa, vərəsəliyə, azyaşlıların nikahlarına aid olan və icazəsiz evdən çıxmağı məhdudlaşdıran ayrı-seçkilik xarakterli normalar qanunda saxlanıldı. Arvadın öz ərinin cinsi tələbatını təmin etməsini tələb edən mübahisəli müddəa Qanundan çıxarılıb. Lakin əfqanıstanlı hüquq ekspertləri bu fikirdədirlər ki, dəyişiklik edilmiş Qanunun 162-ci maddəsi kişiyə imkan verir ki, əgər qadının ər qismində onun hüquqlarını təmin etməkdən imtina etdiyini hesab edərsə, arvadını maddi cəhətdən təmin etməkdən faktiki olaraq imtina etmək üçün bu maddənin müddəalarından istifadə etsin. Bax: UN CESCR, *Consideration of Reports Submitted by States Parties under Articles 16 and 17 of the Covenant: Concluding Observations of the Committee on Economic, Social and Cultural Rights: Afghanistan*, E/C.12/AFG/CO/2-4, 7 June 2010, http://www.refworld.org/docid/4c1732dc2.html. BMT-nin Qaçqınlar üzrə Ali Komissarı bu qanunu zərərli adət-ənənələri qanuniləşdirən və qadınları əlverişsiz vəziyyətə salan qanun kimi pisləyib və onun ləğv edilməsinə çağırıb; UN Human Rights Council, *Report of the United Nations High Commissioner for Human Rights on the Situation of Human Rights in Afghanistan and on the Achievements of Technical Assistance in the Field of Human Rights*, A/HRC/13/62, 11 January 2010, http://www.refworld.org/docid/4bc2c8d62.html, paras 4 and 21-23.

[391] Asiya Fondunun 2014-ci ildə apardığı araşdırma nəticəsində müəyyən edildi ki, respondentlərin yeddi faizi məcburi nikahları və cehiz problemini Əfqanıstanda qadınların üzləşdiyi ən böyük problem hesab edir. Asia Foundation, *Afghanistan in 2014: A Survey of the Afghan People*, 2014, http://asiafoundation.org/publications/pdf/1425, pp. 26-28. ƏMİHK-nın hesablamalarına görə, Əfqanıstanda bütün nikahların 60-80 faizi məcburi nikahlardır. UN Population Fund, *Escaping Child Marriage in Afghanistan*, 4 October 2012, http://www.refworld.org/docid/5124f78d2.html. Həmçinin bax: US Department of State, *2015 Country Reports on Human Rights Practices - Afghanistan*, 13 April 2016, http://www.refworld.org/docid/5711040d4.html; The Guardian, *'I Just Want to Go to School': How Afghan Law Continues to Fail Child Brides*, 11 May 2015, http://www.theguardian.com/global-development/2015/may/11/afghanistan-child-brideswant-to-go-to-school; New York Times, *Afghan Policewomen Struggle against Culture*, 1 May 2015, http://www.nytimes.com/2015/03/02/world/asia/afghan-policewomen-struggle-against-culture.html.

[392] Bu barədə mötəbər məlumatlar əldə etmək çətin olsa da, araşdırmalar göstərir ki, qadınların 15 faizi 15 yaşınadək, 46 faizi isə 18 yaşınadək ərə gedir. Əfqanıstan qanunvericiliyinə əsasən minimal nikah yaşı qızlar üçün 16, oğlanlar üçün 18-dir. UN Population Fund, *Escaping Child Marriage in Afghanistan*, 4 October 2012, http://www.refworld.org/docid/5124f78d2.html. ƏMİHK tərəfindən aparılmış sorğu zamanı müsahibə aparılan şəxslərin 7,7 faizi (5081 şəxsdən 391-i) qızlarının 16 yaşına çatmamış, 1,9 faizi (müsahibə aparılmış 93 şəxs) isə 18 yaşına çatmamış ərə getdiyini bildiriblər. AIHRC, *The Situation of Human Rights in Afghanistan in 1393*, 2014, http://www.aihrc.org.af/media/files/Research%20Reports/english/English_Situation%20of%20human%20rights%20in%201393.pdf. Həmçinin bax: US Department of State, *2015 Country Reports on Human Rights Practices - Afghanistan*, 13 April 2016, http://www.refworld.org/docid/5711040d4.html; UN Human Rights Council, *Report of the Special Rapporteur on Violence against Women, its Causes and Consequences, Addendum: Mission to Afghanistan*, 12 May 2015, A/HRC/29/27/Add.3, http://www.refworld.org/docid/5583f8224.html, para. 14. Qız uşaqları arasında erkən nikahların, o cümlədən erkən ana olma hallarının nəticələri barədə məlumat üçün bax: UNICEF, *Children and Women in Afghanistan: A Situation Analysis 2014*, November 2014, http://www.unicef.org/afghanistan/SitAn_-_Long_Report-_small_size_.pdf, pp. 23, 25. 2005-ci il tarixli "Yetkinlik yaşına çatmayanlar barəsində ədalət mühakiməsi məcəlləsi"ndə erkən nikah məsələsinə toxunulmur. *Ibid*., p. 39. Bu ənənə qarşısında xüsusən məcburi köçkün qızlar müdafiəsiz vəziyyətdədirlər. Bax: NRC/IDMC, *Listening to Women and Girls Displaced to Urban Afghanistan*, 26 March 2015, http://www.refworld.org/docid/5513bec24.html, pp. 13-14.

[393] 2016-cı ildə ABŞ Dövlət Departamenti namus zəminində qətl hallarının artdığı barədə məlumat verib, hərçənd ki, dəqiq statistik məlumatları əldə etmək çətindir. US Department of State, *2015 Country Reports on Human Rights Practices - Afghanistan*, 13 April 2016, http://www.refworld.org/docid/5711040d4.html. Həmçinin bax: UN Human Rights Council, *Report of the Special Rapporteur on Violence against Women, its Causes and Consequences, Addendum: Mission to Afghanistan*, 12 May 2015, A/HRC/29/27/Add.3, http://www.refworld.org/docid/5583f8224.html, para. 19. Məlumatlara görə namus zəminində qətl halları artıb.

i) "satış" yolu ilə nikah – bu zaman qadınlar və qızlar müəyyən edilmiş miqdarda malların və ya nəqd pulun ödənilməsi, yaxud ailənin borcunun silinməsi müqabilində gələcək ərlərinə satılırlar;[394]

ii) "*baad dadan*" (mübahisələrin tayfadaxili həlli forması) – bu zaman təqsirkar ailə təqsirini yumaq üçün, məsələn, qan borcunun yoluna qoyulması üçün qızını "zərərçəkən" ailəyə ərə verir;[395]

iii) "*bədəl*" – bu zaman iki ailə nikah xərclərini azaltmaq üçün qızlarını qarşılıqlı surətdə bir-birinin övladlarına ərə verirlər;[396]

iv) dul qadınların öz ölmüş ərlərinin ailəsindən olan kişiyə ərə getməyə məcbur edilməsi.[397]

İqtisadi qeyri-sabitlik və münaqişənin davam etməsi və bunlarla əlaqədar olaraq ailənin köçkün düşməsi, əmlakını itirməsi və yoxsulluq girdabına yuvarlanması uşaq nikahları probleminin

---

NYT, *A Thin Line of Defense Against 'Honor Killings'*, 2 March 2015, http://www.nytimes.com/2015/03/03/world/asia/afghanistan-a-thin-line-of-defenseagainst-honor-killings.html. Məsələn, məlumatlara əsasən 2014-cü ilin əvvəlində Əminə adlı qadın ailəsinin onu məcburən ərə verməsindən xilas olmaq üçün pənah apardığı qadın sığınacağını tərk etdikdən sonra naməlum hcümşçular tərəfindən qətlə yetirilib. New York Times, *In Spite of the Law, Afghan 'Honor Killings' of Women Continue,* 3 May 2014, http://www.nytimes.com/2014/05/04/world/asia/in-spite-of-the-law-afghan-honorkillings-of-women-continue.html. 2014-cü ilin mayında 10 yaşlı qız molla tərəfindən zorlandıqdan sonra ölümlə hədələnib. Amnesty International, *Afghanistan: 10-Year Old Rape Survivor Faces 'Honour' Killing*, 9 October 2014, http://www.refworld.org/docid/5437cf6c4.html.

[394] UN Human Rights Council, *Report of the Special Rapporteur on Violence against Women, its Causes and Consequences, Addendum: Mission to Afghanistan*, 12 May 2015, A/HRC/29/27/Add.3, http://www.refworld.org/docid/5583f8224.html, para. 56. Xaşxaş yetişdirməklə məşğul olan ailələr, məlumatlara görə, tiryək alverçilərinə olan borclarını ödəmək üçün uşaqlarını, xüsusən qızlarını satırlar. US Department of State, *2015 Country Reports on Human Rights Practices - Afghanistan*, 13 April 2016, http://www.refworld.org/docid/5711040d4.html.

[395] 2014-cü ildə ƏMİHK qalmaqda olan zərərli adət-ənənələrlə, məsələn, "baad" ənənəsi ilə bağlı narahatlığını ifadə etdi, ƏMİHK-nın məlumatlarına əsasən, belə halların sayı artmaqda idi. US Department of State, *2014 Country Reports on Human Rights Practices - Afghanistan*, 25 June 2015, http://www.refworld.org/docid/559bd58728.html. 2014-cü ildə "Sülh naminə mülki və liberal təşəbbüs" təşkilatının aradığı araşdırma nəticəsində müəyyən edildi ki, kompensasiya qismində qız alınması pul və ya digər formada maliyyə təzminatı alınmasına nisbətən psixoloji cəhətdən daha qaneedici variantdır. Bundan əlavə, yoxsul ailələrin mübahisəni həll etmək üçün qızlarını təklif etməkdən savayı başqa seçimləri olmaya bilər. Bax: CLIP, *Assessment of Practice of BAD and its Negative Social Implication in Afghanistan*, August 2014, http://openasia.org/en/g/wpcontent/uploads/2015/01/Research-Draft-21-Oct-2014-3-1.pdf, p. 27. Misal üçün bu mənbəyə də bax: New York Times, *Bartered Away at Age 5, Now Trying to Escape to a Life She Chooses*, 19 October 2014, http://www.nytimes.com/2014/10/20/world/asia/times-video-presents-to-kill-asparrow.html.

[396] Əfqanıstanda nikah ənənələri ilə bağlı təfsilatlı məlumat üçün bu mənbələrə bax: AIHRC, *Situation of Economic and Social Rights in Afghanistan: Fifth Report*, November/December 2011, http://www.refworld.org/docid/511e58cf0.html, Part 3; Landinfo, *Afghanistan: Marriage*, 19 May 2011, http://www.refworld.org/docid/512258e82.html; AREU, *Decisions, Desires and Diversity: Marriage Practices in Afghanistan*, February 2009, http://www.refworld.org/docid/4992cc722.html; and Women and Children Legal Research Foundation, *Early Marriage in Afghanistan*, 2008, http://www.wclrf.org/English/eng_pages/Researches/Early%20Marrige%20with%20cover.pdf. Həmçinin bax: NRC/IDMC, *Strengthening Displaced Women's Housing, Land and Property Rights in Afghanistan*, November 2014, http://www.refworld.org/docid/5486c4684.html.

[397] Belə nikahları rədd edən dul qadınlar Əfqanıstan Mülki Məcəlləsinin uşaqlar üzərində qəyyumluqla bağlı ayrı-seçkilik xarakterli müddəaları ucbatından böyük ehtimalla uşaqları üzərində qəyyumuq hüququnu itirirlər. Onlar həmçinin ölmüş ərlərinin kişi cinsindən olan qohumları tərəfindən seksual zorakılıq və cinsi mənsubiyyətə əsaslanan zorakılıq təhlükəsi altında ola bilərlər. Bax: UNAMA, *Afghanistan: Midyear Report 2015, Protection Of Civilians In Armed Conflict*, August 2015, http://www.refworld.org/docid/55c1bdc4d.html, p. 18; New York Times, *Afghan Policewomen Struggle against Culture*, 1 May 2015, http://www.nytimes.com/2015/03/02/world/asia/afghan-policewomen-struggle-against-culture.html; UNAMA, *Afghanistan: Annual Report 2014, Protection of Civilians in Armed Conflict*, February 2015, http://www.refworld.org/docid/54e44e274.html, pp. 15-16; NRC/IDMC, *Strengthening Displaced Women's Housing, Land and Property Rights in Afghanistan*, November 2014, http://www.refworld.org/docid/5486c4684.html; Landinfo, *Afghanistan: Marriage*, 19 May 2011, http://www.refworld.org/docid/512258e82.html, pp. 15-16. Məcburi nikahdan yaxa qurtarmaq və ya uşaqlarını özlərində saxlamaq üçün evdən qaçan dul qadınlar "mənəviyyat əleyhinə cinayətlərdə" ittiham oluna, yaxud "namus zəminində qətlə yetirilmə" təhlükəsi altında ola bilərlər. Həmçinin III.A.8 bölməsinə bax.

daimi xarakter almasına şərait yaradır və bir qayda olaraq, çox vaxt bu nikaha qızın və onun ailəsinin salamat qalması üçün yeganə vasitə kimi baxılır.[398]
"Qadınlara qarşı ayrı-seçkiliyin ləğv edilməsi haqqında" qanunda zərərli adət-ənənələrin bəziləri, o cümədən qadınları nikah məqsədi ilə almaq və satmaq, *baad* ənənəsinə uyğun olaraq mübahisələrin həlli vasitəsi kimi qadınları ərə vermək, habelə uşaqların nikahı və məcburi nikahlar cinayət əməli sayılır. Lakin yuxarıda qeyd edildiyi kimi, bu qanun ləng və qeyri-ardıcıl tətbiq edilir.[399]

*c) Qısa nəticə*

Hər bir işin konkret hallarından asılı olaraq, BMTQAK hesab edir ki, aşağıdakı kateqoriyalara aid olan qadınlar, yəqin ki, qaçqınlar üçün nəzərdə tutulan beynəlxalq müdafiəyə (himayəyə) ehtiyac duyurlar:

a) seksual zorakılığın və cins əlamətinə əsaslanan (gender əsaslı) zorakılığın qurbanları və belə zorakılığa məruz qalma təhlükəsi altında olanlar;

b) zərərli adət-ənənələrin qurbanları və belə adət-ənənələrin təsirinə məruz qalma təhlükəsi altında olanlar; və

c) cəmiyyətdəki mənəviyyat qaydalarını pozmuş hesab edilən qadınlar (III.A.8 bölməsinə bax).

Hər bir işin konkret hallarından asılı olaraq, onlar Əfqanıstanda müəyyən sosial qrupa, yəni qadın qrupuna mənsub olmalarına, dini əqidələrinə və (və ya) (güman edilən) siyasi baxışlarına və ya digər müvafiq səbəblərə görə qaçqınlar üçün nəzərdə tutulan beynəlxalq müdafiəyə (himayəyə) ehtiyac duya bilərlər.

### 8. Cəmiyyətin mənəviyyat normalarına zidd davrandıqları hesab edilən qadınlar və kişilər[400]

Gender bərabərliyinin təşviqi üçün hökumətin səylərinə baxmayaraq, qadınlar onları aşağılayan davamlı stereotiplər və adət-ənənələr ucbatından geniş yayılmış sosial, siyasi və iqtisadi ayrı-seçkiliklə qarşılaşmaqda davam edirlər.[401] Cəmiyyətdəki normaları pozduqları hesab edilən

[398] UN Human Rights Council, *Report of the Special Rapporteur on Violence against Women, its Causes and Consequences, Addendum: Mission to Afghanistan*, 12 May 2015, A/HRC/29/27/Add.3, http://www.refworld.org/docid/5583f8224.html, para. 15. ABŞ Dövlət Departamenti qeyd edib ki, təzəgəlin üçün pul (başlıq) almaq adəti yoxsul ailələri öz qızlarını altı-yeddi yaşlarından ərə verməyə sövq edir, bu zaman razılıq əldə olunur ki, faktiki nikah əslində uşaq cinsi yetkinlik yaşına çatana qədər təxirə salınacaq. Lakin hesabatlardakı məlumatlardan görünür ki, bu razılaşmaya nadir hallarda riayət edilir və azyaşlı qız təkcə təzəbəy tərəfindən deyil, həm də ailədəki daha yaşlı kişilər tərəfindən seksual təcavüzə məruz qalır (xüsusən təzəbəy də onun kimi hələ uşaqdırsa). 9 yaşından 11 yaşınadək ərə verilmiş azyaşlı qızların özlərini yandırmağa cəhd etdikləri barədə məlumatlar var. US Department of State, *2015 Country Reports on Human Rights Practices - Afghanistan*, 13 April 2016, http://www.refworld.org/docid/5711040d4.html.
[399] *Baad* 1976-cı il tarixli Əfqanıstan Cinayət Məcəlləsinin 517-ci maddəsinə əsasən cinayət sayılır, lakin bu maddə yalnız dul qadınlara və yaşı 18-dən yuxarı olan qadınlara şamil olunur. Cinayət Məcəlləsinə əsasən, *baad* əməlinə görə azadlıqdan məhrumetmə cəzası iki ildən artıq ola bilməz. Cinayət Məcəlləsinin *baad* əməlinə qarşı müddəalarına "Qadınlara qarşı zorakılığın ləğv edilməsi haqqında" qanunun müddəaları əlavə olunub, həmin müddəalar qadınları məcburi ərə vermək barədə normaların tətbiq dairəsini genişləndirərək onları yaşı 18-dən aşağı olan qızlara da şamil edir və *baad* əməlinə görə azadlıqdan məhrum edilmənin potensial müddətini 10 ilədək artırır. Bu qanun həmçinin cinayətdə iştirakçı sayıla biləcək şəxslərin dairəsini də genişləndirib.
[400] AHE-lər tərəfindən şərh olunan islam prinsiplərini, normalarını və dəyərlərini pozmuş hesab edilən şəxslərin vəziyyətinin təhlili üçün III.A.6 bölməsinə bax. Seksual oriyentasiyası və (və ya) cinsi identikliyi fərqli olan şəxslərin konkret vəziyyətinin təhlili üçün III.A.12 bölməsinə bax. İctimai sahələrdə çalışan qadınların vəziyyətinin təhlili üçün III.A.1.i bölməsinə bax. Qadınların vəziyyətinin daha ətraflı təhlili üçün III.A.7 bölməsinə bax.
[401] United Kingdom: Foreign and Commonwealth Office, *Human Rights and Democracy Report - Afghanistan*, 12 March 2015, http://www.refworld.org/docid/551a53045e.html; UN CESCR, *Consideration of Reports Submitted by States Parties under Articles 16 and 17 of the Covenant: Concluding Observations of the Committee on Economic, Social and Cultural Rights: Afghanistan*, E/C.12/AFG/CO/2-4, 7 June 2010, http://www.refworld.org/docid/4ef1fb5e2.html.

qadınlar cəmiyyət tərəfindən rüsvayçılıq damğası ilə üzləşməkdə, ümumən ayrı-seçkiliyə məruz qalmaqda davam edir və təhlükəsizliklərinə qarşı risklər yaranır, belə hallar xüsusən kənd yerlərində və AHE-lərin nəzarəti altında olan ərazilərdə baş verir.[402] Belə normalar sırasına qadınların hərəkət azadlığını məhdudlaşdıran tələblər, məsələn, qadın ictimaiyyət arasına çıxarkən kişi cinsindən olan qohumunun onu müşayiət etməsi tələbi daxildir.[403] Kişi cinsindən olan şəxsin himayəsi və müdafiəsi altında olmayan qadınlar, o cümlədən dul qadınlar xüsusilə təhlükə altında olurlar. Mövcud sosial normaların tək yaşayan qadınlara ciddi məhdudiyyətlər tətbiq etdiyini, o cümlədən onların hərəkət azadlığını və dolanacaqları üçün qazanc əldə etmək imkanlarını məhdudlaşdırdığını nəzərə alsaq, adətən onların yaşayış üçün vəsaitləri olmur.[404] Adət hüququnun və ya şəriət hüququnun pozuntularına görə həbsə alınma, məlumatlara əsasən, qadınlara və qızlara qeyri-mütənasib təsir göstərir,[405] bu pozuntular sırasına "mənəviyyat əleyhinə cinayət" hesab edilən əməllər, məsələn, ictimai yerlərə müəyyən edilən qaydada müşayiət olunmadan çıxma,[406] nikahdan imtina etmə,[407] nikahdankənar cinsi münasibətdə olma

---

[402] US Department of State, *2015 Country Reports on Human Rights Practices - Afghanistan*, 13 April 2016, http://www.refworld.org/docid/5711040d4.html.

[403] US Department of State, *2015 Country Reports on Human Rights Practices - Afghanistan*, 13 April 2016, http://www.refworld.org/docid/5711040d4.html; New York Times, *Afghan Policewomen Struggle Against Culture*, 1 March 2015, http://www.nytimes.com/2015/03/02/world/asia/afghan-policewomen-struggle-against-culture.html. UNAMA-nın apardığı araşdırmaya əsasən, "ictimai yerlərə təkbaşına çıxan qadınlar öz nüfuzlarını və təhlükəsizliklərini risk altına atmış olurlar. Bu hesabat üçün araşdırma apararkən söhbət etdiyimiz mollalar öz mövqelərinə haqq qazandırmaq üçün islam ehkamlarına istinad edərək qeyd etdilər ki, qadın ictimaiyyət arasına yalnız kişi qohumunun, yəni ona məhrəm sayılan şəxsin müşayiəti ilə çıxa bilər. İslamın bu şərhi bütün Əfqanıstanda yayılmış şərhdir, hərçənd ki, bu araşdırma kontekstində söhbət etdiyimiz şiə mütəxəssisləri dinin qadının kişi tərəfindən müşayiət olunmasını tələb etdiyi barədə fikirlə razılaşmadılar, bu şərtlə ki, belə yerlərdə qadın hicabla (müsəlman baş örtüyü ilə) bağlı müəyyən qaydalara riayət etmiş olsun". Bax: UNAMA, *Silence is Violence: End the Abuse of Women in Afghanistan*, 8 July 2009, p. 10, http://www.refworld.org/docid/4a548f532.html.

[404] UNAMA, *Justice through the Eyes of Afghan Women: Cases of Violence against Women Addressed through Mediation and Court Adjudication*, April 2015, http://www.refworld.org/docid/55814b3c4.html, p. 32; NRC/IDMC, *Strengthening Displaced Women's Housing, Land and Property Rights in Afghanistan*, November 2014, http://www.refworld.org/docid/5486c4684.html. ABŞ Sülh İnstitutunun (*USIP*) bildirdiyinə görə, qadınların ictimaiyyət arasına çıxması ilə bağlı milli adətlər və məşğulluq səviyyəsinin aşağı olması o deməkdir ki, Əfqanıstanda qadınlar sadəcə olaraq müstəqil yaşaya bilməzlər. USIP, quoted in Civil-Military Fusion Centre, *The Peace Process and Afghanistan's Women*, April 2012, http://www.operationspaix.net/DATA/DOCUMENT/7025~v~The_Peace_Process_and_Afghanistan_s_Women__Part_II_.pdf, p. 6. *N. İsveçə qarşı* məhkəmə işində Avropa İnsan Hüquqları Məhkəməsi qeyd etdi ki, Əfqanıstanda qadınların cəmiyyət, ənənələr və ya hüquq sistemi tərəfindən onlara ayrılmış qadın funksiyaları ilə razılaşmadıqları hesab edilərsə, onların qəddar rəftara məruz qalma təhlükəsi xüsusilə yüksək olur. Sadəcə ərizəçinin İsveçdə yaşaması faktı onun yol verilən davranışın hüdudlarını aşması kimi qəbul edilə bilər. Onun ərindən boşanmaq istəməsi və istənilən halda daha onunla yaşamaq istəməməsi faktı Əfqanıstana qayıdacağı təqdirdə həyatına qarşı ciddi təhlükə yaradan qisasla nəticələnə bilər. Bundan başqa, məlumatlar göstərir ki, əfqanıstanlı qadınların böyük bir hissəsi məişət zorakılığına məruz qalır, dövlət orqanları isə bu hərəkətləri qanuni sayır və buna görə də məhkəmə qaydasında təqib etmirlər. Kişi cinsinə mənsub müşayiətçisi və ya "himayəçisi" olmayan qadınlar şəxsi və ya peşə həyatlarında sərt məhdudiyyətlərlə üzləşir və cəmiyyətdən kənarlaşdırılırlar. Çox vaxt kişi qohumları onlara yardım göstərməyəndə onların sadəcə yaşayış üçün vəsaitləri olmur. Müvafiq olaraq, Məhkəmə bu qənaətə gəldi ki, N. Əfqanıstana deportasiya olunacağı təqdirdə İnsan hüquqları haqqında Avropa Konvensiyasının (İHAK) 3-cü maddəsi İsveç tərəfindən pozulmuş olacaq. European Court of Human Rights, *N v. Sweden*, Application no. 23505/09, 20 July 2010, http://www.refworld.org/docid/4c4d4e4e2.html. Həmçinin bu işə də bax: *RRT Case No. 1005628* [2010] RRTA 822, Refugee Review Tribunal of Australia, 21 September 2010, http://www.austlii.edu.au/cgi-bin/sinodisp/au/cases/cth/RRTA/2010/822.html. Bu işdə qaçqınların işləri üzrə Avstraliya məhkəməsi bu qənaətə gəldi ki, Əfqanıstanda heç bir ailə üzvü qalmayan, dul qadın olan ərizəçi ahıl insanların xüsusi sosial qrupuna mənsubdur ki, onlar kişi cinsinə mənsub şəxsin himayəsindən məhrumdurlar.

[405] US Department of State, *2015 Country Reports on Human Rights Practices - Afghanistan*, 13 April 2016, http://www.refworld.org/docid/5711040d4.html; UN Human Rights Council, *Report of the Special Rapporteur on Violence against Women, its Causes and Consequences, Addendum: Mission to Afghanistan*, 12 May 2015, A/HRC/29/27/Add.3, http://www.refworld.org/docid/5583f8224.html, para. 23.

[406] "Müəyyən edilən qaydada müşayiət olunmamaq" hənəfi məhkəmə praktikasına əsasən cinayət sayılır. Qadınlar müəyyən edilən qaydada müşayiət olunmadan kənar kişi ilə təmasda olmağa (və ya "xəlvəti-səhihəyə") görə həbsə

(bu əməl zinakarlıq sayılır),[408] yaxud "evdən qaçma"[409] (o cümlədən məişət zorakılığı hallarından qurtulmaq üçün qaçma)[410] daxildir. Ölkədə həbsdə saxlanılan qadın və qızların

---

alınır, ittiham edilir və məhkum olunurlar. Bax: UNAMA, *Arbitrary Detention in Afghanistan: A Call For Action, Volume I - Overview and Recommendations*, January 2009, http://www.refworld.org/docid/49d07f272.html, p. 7.

[407] UNAMA, *Harmful Traditional Practices and Implementation of the Law on Elimination of Violence against Women in Afghanistan*, 9 December 2010, http://www.refworld.org/docid/4d00c4e82.html.

[408] UNAMA-nın bildirdiyinə görə, "ər-arvad sədaqətini pozma (zina) islam hüququna əsasən *hüdud* cinayətlərindəndir, amma *hüdud* cinayəti olaraq sübuta yetirilmədiyi təqdirdə bu əmələ Əfqanıstan Cinayət Məcəlləsinə əsasən *tazir* cinayəti kimi baxılır; bu əməl mahiyyət etibarı ilə nikahdankənar cinsi münasibətdə olma deməkdir". UNAMA, *Still a Long Way to Go: Implementation of the Law on Elimination of Violence against Women in Afghanistan*, December 2012, http://www.refworld.org/docid/50c72e0d2.html, p. 22. Ər-arvad sədaqətini pozma Əfqanıstan qanunvericiliyinə əsasən cinayət sayılır: Penal Code, http://www.refworld.org/docid/4c58395a2.html. İstər nikahda olan, istərsə də olmayan qadınlar zina cinayətində ittiham edilə və bu cinayətə görə məhkum oluna bilərlər. "Bakirəliyin yoxlanması" geniş yayılmış praktikadır və xüsusən qadın "mənəviyyat əleyhinə cinayətdə" ittiham edildiyi hallarda bu yoxlamanın nəticəsi sübut təşkil edə bilər; nişanlı qızın bakirə olmadığı müəyyən edilərsə, o, ciddi nəticələrlə üzləşə, o cümlədən zinaya görə həbsə alına, şikəst edilə və ya öldürülə bilər. Bax: Radio Free Europe / Radio Free Liberty, *Virginity or Death for Afghan Brides*, 6 December 2015, http://www.rferl.org/content/afghanistan-virgin-brides-punishment/27409971.html; UN Human Rights Council, *Report of the Special Rapporteur on Violence against Women, its Causes and Consequences, Addendum: Mission to Afghanistan*, 12 May 2015, A/HRC/29/27/Add.3, http://www.refworld.org/docid/5583f8224.html, para. 25; AIHRC, *Forced Gynecological Exams As Sexual Harassment and Human Rights Violation*, 5 December 2015, http://www.aihrc.org.af/media/files/Forced%20Gynecological%20Exams%20-Egnlish.pdf.

[409] Evdən qaçma Əfqanıstanda rüsvayçılıq kimi damğalansa da Cinayət Məcəlləsinə əsasən cinayət sayılmır və buna görə də onun dəqiq anlayışı verilməyib. Belə hesab edilir ki, evdən qaçma dedikdə evə qayıtmaq niyyəti olmadan evi tərk etmə və valideynlərin və ya qanuni qəyyumların icazəsi olmadan ailəni tərk etmə nəzərdə tutulur. Bax: UNAMA, *Still a Long Way to Go: Implementation of the Law on Elimination of Violence against Women in Afghanistan*, December 2012, http://www.refworld.org/docid/50c72e0d2.html, pp. 3-4; UN Women, *UN Women in Afghanistan Welcomes Government Statements Confirming that "Running Away" Is Not a Crime under Afghan Law*, 3 October 2012, http://www.unwomen.org/2012/10/un-women-in-afghanistan-welcomes-government-statements-confirming-that-running-away-is-not-acrime-under-afghan-law/; AIHRC, *Report on the Situation of Economic and Social Rights in Afghanistan - IV*, December 2009, http://www.refworld.org/docid/4b3b2df72.html, p. 58. BMT-nin İnsan Hüquqları Şurasının sorğusuna cavab olaraq Əfqanıstan nümayəndə heyəti təsdiq etdi ki, bu hərəkətlə əlaqədar hər hansı cinayət baş verməyibsə, "evdən qaçma" cinayət sayılmır. UN Human Rights Council, *Report of the Working Group on the Universal Periodic Review: Afghanistan*, 4 April 2014, A/HRC/26/4, http://www.refworld.org/docid/539064f14.html, para. 130.

[410] US Department of State, *2015 Country Reports on Human Rights Practices - Afghanistan*, 13 April 2016, http://www.refworld.org/docid/5711040d4.html; UN Secretary-General, *The situation in Afghanistan and its implications for international peace and security: report of the Secretary-General*, 27 February 2015, A/69/801-S/2015/151, http://www.refworld.org/docid/556585104.html, para. 26. 2010-u ilin avqustunda Ali Məhkəmənin Yüksək Şurası Konstitusiyanın 130-cu maddəsinə istinadən "evdən qaçma" hallarını necə araşdırmalı olduqları barədə prokurorlara təlimat verdi. (3 yanvar 2004-cü il tarixli Əfqanıstan Konstitusiyası, http://www.refworld.org/docid/404d8a594.html). Təlimata əsasən, məhkəmələr evdən qaçmış qadının subay və ya evli olduğunu, evdən qaçmasının səbəbini və motivini və qaçdığı yeri müəyyənləşdirməlidirlər. Əgər qadın ailə üzvlərinin təqibindən qurtulmaq üçün evdən qaçıbsa və ona məhrəm sayılan (yəni onunla evlənməsi yolverilməz olan) qohumunun evinə gedibsə, yaxud hakimiyyət orqanlarından yardım istəyibsə, bu hal şəriət hüququna əsasən cinayət sayılmır. Bununla belə, təlimata əsasən, əgər qadın yad adamın evinə gedibsə, hətta oraya evindəki qəddar rəftardan qurtulmaq üçün getmiş olsa belə, bu əməl şəriət hüququna əsasən qanunsuz sayılır və qadın "zina və onunla əlaqədar olan digər cinayətlərdə" ittiham oluna bilər. UNAMA, *Still a Long Way to Go: Implementation of the Law on Elimination of Violence against Women in Afghanistan*, December 2012, http://www.refworld.org/docid/50c72e0d2.html, p. 22. Ali Məhkəmənin 1 avqust 2010-cu il tarixli sərəncamının surəti (dari dilində) BMTQAK tərəfindən qeydə alınmış sənədlər arasındadır. UNAMA qeyd edib ki, əvvəlcə təlimat qohumunun evinə və ya ədliyyə qurumuna getmiş qadının həbsə edilməli olmadığını nəzərdə tutmaqla geniş yayılmış olan qızların həbsə alınması praktikasına son qoymağın bir üsulu sayılsa da, praktikada bu təlimat faktiki olaraq qadınların hərəkət azadlığının məhdudlaşdırılması kimi ənənəvi praktikanın qanuniləşdirilməsi üçün istifadə edilir. *Ibid.*, pp. 22-23. Sonradan Baş prokurorluq "evdən qaçma" hallarının düzgün araşdırılması barədə təlimatlar qəbul etdi, təlimatlarda qadınlara qarşı zorakılığın ləğv edilməsi sahəsində fəaliyyət göstərən bölmələrin bütün prokurorlara belə bir təlimat vermələri tələb olunurdu ki, qadınlara qarşı "evdən qaçma" və ya "zinaya cəhd etmə" ("ər-arvad sədaqətini pozmağa cəhd etmə") ittihamı irəli sürməsinlər, çünki Əfqanıstan qanunvericiliyində bunlar faktiki olaraq cinayət əməlləri kimi nəzərdə tutulmayıb. 2012-ci ilin dekabrında Ali Məhkəmə Baş prokurorluğa məktub göndərərək bildirdi ki, məişət zorakılığından qurtulmaq üçün evdən qaçma və ədliyyə qurumlarından,

yarısından çoxu "mənəviyyat əleyhinə cinayətlərdə" ittiham ediliblər.[411] Ər-arvad sədaqətini pozma və "mənəviyyat əleyhinə" digər cinayətlərlə bağlı ittihamlar namus zəminində qətllərə gətirib çıxara bilər[412] və məlumatlara əsasən bəzi hallarda dövlət orqanları təqsirləndirilən qadınların həbsini onunla əsaslandırırlar ki, bu, onlar üçün qoruyucu tədbirdir.[413]
Hökm sürən adətlərə zidd davrandığı hesab edilən kişilər də, xüsusən zina törətdikləri və nikahdankənar cinsi münasibətlərdə olduqları hallarda, qəddar rəftar təhlükəsi ilə üzləşə bilərlər.[414]

---

hüquqi yardım təşkilatlarından və ya qohumlardan yardım istəmə cinayət deyil və bu əməl cinayət təqibinə məruz qalmamalıdır. UN Human Rights Council, *Report of the Special Rapporteur on Violence against Women, its Causes and Consequences, Addendum: Mission to Afghanistan*, 12 May 2015, A/HRC/29/27/Add.3, http://www.refworld.org/docid/5583f8224.html, para. 38. Bununla belə, evdən qaçmış qadınların həbsə alıması praktikası davam edir. Misal üçün bax: HRW, *Afghanistan: End 'Moral Crimes' Prosecutions*, 23 June 2014, https://www.hrw.org/news/2014/06/23/afghanistan-end-moral-crimes-prosecutions. Human Rayts Votç təşkilatı əvvəllər qeyd edib ki, müdafiə axtaran və (və ya) ədliyyə sisteminə müraciət edən qadınların hüquq-mühafizə orqanlarının əməkdaşları tərəfindən ayrı-seçkiliyə məruz qaldığını nəzərə alsaq, məişət zorakılığının və ya zərərli adət-ənənələrin qurbanı olan qadın və qızların çoxu üçün hökumətdən yardım istəmək etibarlı və real seçim deyil. HRW, *"I Had to Run Away": The Imprisonment of Women for 'Moral Crimes' in Afghanistan,* March 2012, http://www.refworld.org/docid/4f787d142.html, p. 5. Qadın cinsinə mənsub polis müstəntiqlərinin, vəkillərin və prokurorların olmaması mənəviyyat əleyhinə cinayətlərdə təqsirləndirilən qadınların ədalət mühakiməsinə çıxışının qarşısında əlavə maneə yarada bilər. Institute for War and Peace Reporting, *Lack of Female Lawyers in Eastern Afghanistan*, 5 April 2012, http://www.refworld.org/docid/4f82f00c2.html.

[411] 2 yanvar 2015-ci il tarixli 39 saylı prezident fərmanından sonra mənəviyyat əleyhinə cinayətlərə görə həbsə alınmış qadınlar və qızlar azad edildilər. UN Secretary-General, *The Situation in Afghanistan and its Implications for International Peace and Security: Report of the Secretary-General*, 27 February 2015, A/69/801-S/2015/151, http://www.refworld.org/docid/556585104.html, para. 26. 2015-ci ilin mayında Qadınlara qarşı zorakılıq məsələsi üzrə xüsusi məruzəçi məlumat verdi ki, 428 qadın (bütün Əfqanıstan ərazisində azadlıqdan məhrum edilmiş qadınların 58 faizi) "mənəviyyat əleyhinə cinayət" törətmə ittihamları ilə həbsdə saxlanılırlar. UN Human Rights Council, *Report of the Special Rapporteur on Violence against Women, its Causes and Consequences, Addendum: Mission to Afghanistan*, 12 May 2015, A/HRC/29/27/Add.3, http://www.refworld.org/docid/5583f8224.html, para. 23.

[412] Misal üçün bax: Radio Free Europe, *Virginity Or Death For Afghan Brides*, 6 December 2015, http://www.rferl.org/content/afghanistanvirgin-brides-punishment/27409971.html; New York Times, *In Spite of the Law, Afghan 'Honor Killings' of Women Continue*, 3 May 2014, http://www.nytimes.com/2014/05/04/world/asia/in-spite-of-the-law-afghan-honor-killings-of-women-continue.html; New York Times, *In Afghanistan, Women Betrayed*, 10 December 2013, http://www.nytimes.com/2013/12/11/opinion/in-afghanistan-women-betrayed.html. Əfqanıstanda "namus zəminində qətllərin" geniş yayılması ilə bağlı əlavə məlumat üçün III.A.7 bölməsinə bax.

[413] US Department of State, *2015 Country Reports on Human Rights Practices - Afghanistan*, 13 April 2016, http://www.refworld.org/docid/5711040d4.html. Ərə getməmək üçün 2014-cü ildə evindən qaçmış qadın geri qayıtdıqdan sonra ailəsi tərəfindən öldürüldü, baxmayaraq ki, ailəsi ona ziyan yetirməyəcəyinə söz vermişdi. *Ibid.* Bir çox hallarda həbsxanadan azad edilmiş qadınlar evlərinə gedə bilmirlər, çünki ailələri onları qəbul etmir və ya qadınlar özləri evə qayıtdıqdan sonra zorakılıqla qarşılaşacaqlarından və (və ya) ərə getməyə məcbur ediləcəklərindən qorxurlar. UN General Assembly (Human Rights Council), *Report of the United Nations High Commissioner for Human Rights on the Human Rights Situation in Afghanistan and Technical Achievements in the Field of Human Rights*, A/HRC/19/47, 18 January 2012, http://www.refworld.org/docid/4f391a772.html, para. 45; həmçinin bax: New York Times, *A Thin Line of Defense Against 'Honor Killings'*, 2 March 2015, http://www.nytimes.com/2015/03/03/world/asia/afghanistan-a-thin-line-of-defense-against-honor-killings.html.

[414] Məsələn, 2015-ci ilin oktyabrında Qor vilayətinin Qarmin kəndində evlənməzdən əvvəl cinsi əlaqədə olmaqda təqsirləndirildikdən sonra bir kişi şallaqlandı, nişanlısı ilə daşqalaq edildi; 2015-ci ilin sentyabrında isə, məlumatlara görə, başqa bir cütlük eyni əməldə təqsirləndirildikdən sonra hər biri 100 şallaq zərbəsi aldı. Al Jazeera, *Afghan Woman stoned to death for 'adultery'*, 4 November 2015, http://www.aljazeera.com/news/2015/11/afghan-woman-stoned-death-adultery-151104040814183.html. Məlumatlara əsasən vilayət qubernatoru bu cür cəzaları islam hüququna uyğun cəza olaraq müdafiə etmişdi. Institute for War and Peace Reporting, *Summary Courts Deal Out Brutal Justice in Afghanistan's Ghor Province*, 20 November 2015, http://www.refworld.org/docid/565f6aca3965.html. "Nyu-York Tayms" qəzeti ailələri evlənmələrinə razılıq verməyən və qızın ailəsi tərəfindən ölümlə hədələnən gənc əfqan cütlüyünün – Zəkiyyə və Məhəmməd Əlinin əhvalatını işıqlandırdı. Sonradan Məhəmməd Əli insan oğurluğu ittihamı ilə həbsə alındı. Bax: New York Times, *For Afghan Lovers, Joy Is Brief, Ending in Arrest*, 7 June 2014, http://www.nytimes.com/2014/06/08/world/asia/for-afghan-loversjoy-is-brief-ending-in-arrest.html; *2 Star-Crossed Afghans Cling to Love, Even at Risk of Death*, 9 March 2014, http://www.nytimes.com/2014/03/10/world/asia/2-star-crossed-afghans-cling-to-love-even-at-risk-of-death.html; *Afghan Newlyweds, Facing Threats, Find Brief Respite in Mountains*, 21 April 2014,

Talibanın və digər AHE-lərin faktiki nəzarətləri altında olan ərazilərdə mənəviyyata zidd davranışda təqsirləndirilən qadınlar və kişilər AHE-lərin paralel məhkəmə strukturları tərəfindən məsuliyyətə cəlb oluna və şallaqlanma və ölüm cəzası da daxil olmaqla ağır cəzalar ala bilərlər.[415]

Yuxarıdakıları nəzərə alaraq, BMTQAK hesab edir ki, cəmiyyətin mənəviyyat normalarına zidd davrandıqları hesab edilən şəxslər, hər bir işin konkret hallarından asılı olaraq, dini səbəblərdən, güman edilən siyasi baxışları səbəbindən, müəyyən sosial qrupa mənsub olmaları səbəbindən və ya digər müvafiq səbəblərdən qaçqınlar üçün nəzərdə tutulan beynəlxalq müdafiəyə (himayəyə) ehtiyac duya bilərlər.

### *9. Əlilliyi, o cümlədən əqli qüsurları olan şəxslər və ruhi xəstəliklərdən əziyyət çəkənlər*

Əlilliyi, o cümlədən əqli qüsurları olan şəxslər və ruhi xəstəliklərdən əziyyət çəkənlər, məlumatlara görə, öz ailə üzvləri də daxil olmaqla cəmiyyət üzvləri tərəfindən pis rəftara məruz qalırlar və bunun üçün belə əsas gətirilir ki, onların xəstəliyi və ya əlilliyi həmin şəxslərin və ya onların valideynlərinin törətdikləri günah işlərə görə göndərilmiş cəzadır.[416]

Yuxarıdakıları nəzərə alaraq, BMTQAK hesab edir ki, əlilliyi, o cümlədən əqli qüsurları olan şəxslər və ruhi xəstəliklərdən əziyyət çəkənlər, hər bir işin konkret hallarından asılı olaraq, müəyyən sosial qrupa mənsub olmaları səbəbindən və ya digər müvafiq səbəblərdən qaçqınlar üçün nəzərdə tutulan beynəlxalq müdafiəyə (himayəyə) ehtiyac duya bilərlər.

### *10. Müəyyən kateqoriyadan olan və ya xüsusi vəziyyətdə olan uşaqlar[417]*

---

http://www.nytimes.com/2014/04/22/world/asia/afghan-couple-find-idyllic-hideout-in-mountains-but-not-for-long.html.

415 UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, pp. 14, 50; Radio Free Europe / Radio Liberty, *Virginity or Death for Afghan Brides*, 6 December 2015, http://www.rferl.org/content/afghanistan-virgin-brides-punishment/27409971.html; Al Jazeera, *Afghan Woman Stoned to Death for 'Adultery'*, 4 November 2015, http://www.aljazeera.com/news/2015/11/afghan-woman-stoned-death-adultery-151104040814183.html. Qadınların mənəviyyata zidd davranışa görə ictimaiyyətin gözü qarşısında edam edilməsi halları barədə əlavə məlumat üçün "namus zəminində qətllərdən" bəhs edən III.A.7 bölməsinə bax.

416 ABŞ Dövlət Departamenti qeyd edib ki, "cəmiyyət və hətta öz ailələri əlilliyi olan şəxslərlə pis rəftar edir, çünki geniş yayılmış belə bir təsəvvür var ki, əlilliyi olan şəxslərin əlilliyinin səbəbi onların "tanrı qarşısında günah işlətmələridir". US Department of State, *2015 Country Reports on Human Rights Practices - Afghanistan*, 13 April 2016, http://www.refworld.org/docid/5711040d4.html. "Əlillər Dünyası" təşkilatı (*Disability World*) məlumat verib ki, "Əfqanıstanda ruhi sağlamlıq problemləri barədə məlumatların azlığının səbəbi əsasən ictimaiyyətdə ruhi xəstələrə qarşı mənfi münasibətin olmasında və onların cəmiyyət tərəfindən damğalanmasındadır. Ruhi xəstəlik çox zaman günahlara görə cəza kimi təsəvvür edilir və ona bu damğa vurulur. Bir çox ailələr ailənin nüfuzunu və digər övladlarının nikah perspektivlərini qorumaq üçün ailədə ruhi xəstənin olduğunu gizlədirlər. Buna görə də ruhi xəstə olan insanlar çox zaman nəzərlərdən uzaqda saxlanılır və artıq cəmiyyətdən kənarlaşdırılan, nəzərə çarpmayan qrup üzvləri olaraq qalırlar". Disability World, *Applying the Minority Perspective to Disability in Afghanistan*, February 2005, http://www.disabilityworld.org/12-02_05/il/afghanistan.shtml. YUNİSEF qeyd edib ki, "əlilliyi olan uşaqlar cəmiyyət və hökumət tərəfindən ayrı-seçkiliyə məruz qalırlar ki, bu da onların potensialına xeyli dərəcədə zərər yetirir. Müvafiq səhiyyə və təhsil müəssisələrinə çıxış imkanlarının olmaması və əlillərin hüquqları barədə anlayışın zəif olması faktına əlilliyi olan uşaqların sağ qalmasına və inkişafına təsir göstərən problemlər də əlavə olunur. Mövcud strukturlar tələbatların yalnız kiçik bir qismini ödəyir və əsasən az sayda şəhər mərkəzlərində cəmləşiblər. Nəticədə əlilliyi olan uşaqların çoxu evə qapanmış halda anasının himayəsində qalır və onların ehtiyaclarının ödənilməsi bütünlüklə ananın üzərinə düşür". UNICEF, *Children and Women in Afghanistan: A Situation Analysis 2014*, November 2014, http://www.unicef.org/afghanistan/SitAn_-_Long_Report-_small_size_.pdf, p. 34.

417 Uşaqların beynəlxalq müdafiəyə dair vəsatətləri ilə bağlı tövsiyələr üçün bu mənbəyə bax: UNHCR, *Guidelines on International Protection No. 8: Child Asylum Claims under Articles 1(A)2 and 1(F) of the 1951 Convention and/or 1967 Protocol relating to the Status of Refugees*, 22 December 2009, HCR/GIP/09/08, http://www.refworld.org/docid/4b2f4f6d2.html; həmçinin bax: UN Committee on the Rights of the Child (CRC), *General comment No. 6 (2005): Treatment of Unaccompanied and Separated Children Outside their Country of Origin*, 1 September 2005, CRC/GC/2005/6, http://www.refworld.org/docid/42dd174b4.html.

Uşaqlar bu *Rəhbər prinsiplərdə* qeyd edilən risk altındakı şəxslərin bir neçə kateqoriyasına aid edilə bilərlər .[418] Bununla yanaşı, uşaqlar həm də konkret təqib formalarına məruz qalma təhlükəsi altında ola, o cümlədən yaşlarının azlığına baxmayaraq döyüşçülər sırasına cəlb edilmə, uşaq alverinə məruz qalma, oğurlanma, borc müqabilində və ya zərərli işlərdə işlədilmə, məişət zorakılığına məruz qalma, məcburi qaydada və (və ya) yaşlarının azlığına baxmayaraq nikaha girmə, uşaq fahişəliyinə və uşaq pornoqrafiyasına cəlb olunma və təhsildən sistematik olaraq kənarda qalma riski altında ola bilərlər.[419]

*a) Uşaqların borc müqabilində və ya zərərli işlərdə işlədilməsi*

"Əmək haqqında" qanuna əsasən, yaşı 14-dən aşağı olan uşaqların işləməsi bütün hallarda qadağandır. Yaşı 15-dən 18-dək olan uşaqlar həftədə 35 saatadək "yüngül işlərdə" işləyə bilərlər, lakin sağlamlıqlarına təhlükə yaradan və ya əlilliklərinə səbəb ola bilən işlərdə işlədilə bilməzlər. Buna baxmayaraq, uşaq əməyinin istifadəsi geniş yayılmış olaraq qalır.[420] Məlumatlara əsasən

---

[418] Xüsusən bu şəxs kateqoriyalarına aid bölmələrə bax: döyüş yaşında olan kişilər, döyüş yaşına çatmayan və döyüşçülər sırasına məcburi cəlb edilən uşaqlar (III.A.3 bölməsi); AHE-ləri dəstəkləməkdə şübhəli bilinən mülki şəxslər (III.A.4 bölməsi); dini azlıq qruplarının üzvləri və şəriət hüququnu pozmuş hesab edilən şəxslər (III.A.5 bölməsi); AHE-lər tərəfindən şərh olunan islam prinsiplərini, normalarını və dəyərlərini pozmuş hesab edilən şəxslər (III.A.6 bölməsi); qadınlar (III.A.7 bölməsi); insan alverinin sağ qalan qurbanları və insan alverinə məruz qalma təhlükəsi altında olan şəxslər (III.A.11 bölməsi); seksual oriyentasiyası və (və ya) cinsi identikliyi fərqli olan şəxslər (III.A.12 bölməsi); azlıqda olan etnik qrupların üzvləri (III.A.13 bölməsi); və qan intiqamına cəlb olunan şəxslər (III.A.14 bölməsi).

[419] Əfqanıstan tərəfindən 1994-cü ildə ratifikasiya olunmuş Uşaq hüquqları haqqında Konvensiyaya uyğun olaraq qəbul edilmiş 2005-ci il tarixli "Yetkinlik yaşına çatmayanlar barəsində ədalət mühakiməsi məcəlləsi"ndə uşaqların müdafiəsinə dair beynəlxalq normalar tanınır və uşaqların qayğı və sosial yardımla, müdafiə ilə və sosial reinteqrasiya imkanları ilə təmin edilmək hüququ vurğulanır. Məcəllədə cinayət məsuliyyəti doğuran yaş həddinin aşağı səviyyəsi 7-dən 12-yə qaldırılıb və həbsin alternativləri öz əksini tapıb. Bununla belə, YUNİSEF qeyd edir ki, Məcəllə uşaqların mənafelərinin qorunması üçün tərtib edilsə də, seksual sui-istifadə, istismar və məcburi nikah hallarının qurbanı olan uşaqların vəziyyətini düzəltmək iqtidarında deyil. Bax: UNICEF, *Children and Women in Afghanistan: A Situation Analysis 2014*, November 2014, http://www.unicef.org/afghanistan/SitAn_-_Long_Report-_small_size_.pdf, p. 39. Hökumət, qeyri-hökumət və vətəndaş cəmiyyəti təşkilatlarının şəbəkəsi olan, uşaqların müdafiəsi sahəsində çalışan, Əmək məsələləri, sosial məsələlər, şəhidlərin və əlillərin işləri üzrə nazirliklə əməkdaşlıq edən "Uşaqları müdafiə fəaliyyəti şəbəkəsi"nə (CPAN) 2015-ci ilin birinci altı ayında konkret olaraq zorlama, seksual sui-istifadə, fiziki təhqir, uşaq nikahı, uşaqların valideynlərindən ayrı düşməsi, uşaq alveri, uşaq oğurluğu, narkotik aludəçiliyi, uşaqların qanunla problemlərinin olması və silahlı münaqişənin təsirinə məruz qalması halları ilə əlaqədar olaraq uşaqların müdafiəyə ehtiyac duyduqları 4.824 hal barəsində məlumat verilib. Bax: UNICEF, *Child Notice Afghanistan*, 2015, http://www.refworld.org/docid/566e68344.html, pp. 55-56.

[420] US Department of Labor, *2014 Findings on the Worst Forms of Child Labor - Afghanistan*, 30 September 2015, http://www.refworld.org/docid/560e3e180.html; UNICEF, *Children and Women in Afghanistan: A Situation Analysis 2014*, November 2014, http://www.unicef.org/afghanistan/SitAn_-_Long_Report-_small_size_.pdf, p. 42. Əmək məsələləri, sosial məsələlər, şəhidlərin və əlillərin işləri üzrə nazirlik uşaqların cəlb edilməsi yolverilməz olan zərərli işlərin siyahısını dərc edib, məsələn, dilənçilik etmə və məişət tullantılarını yığma; domna sobaları müəssisəsində, tullantıların utilizasiyası müəssisəsində və iri sallaqxanalarda iş; xəstəxana tullantıları ilə əlaqədar iş; narkotik vasitələrlə əlaqədar iş; təhlükəsizliyin mühafizəsi xidmətləri; və müharibə ilə əlaqədar işlər buraya aiddir. Lakin məlumatlara görə, hökumətin institusional imkanlarının olmaması, uşaqların yalnız 10 faizdən az hissəsinin rəsmi doğum şəhadətnamələrinin olması və dövlət orqanlarının qanunvericiliyi tətbiq etmək imkanlarının məhdud olması ucbatından "Əmək haqqında" qanun zəif icra edilir. US Department of Labor, *ibid.*, and US Department of State, *2015 Country Reports on Human Rights Practices - Afghanistan*, 13 April 2016, http://www.refworld.org/docid/5711040d4.html. İşləyən uşaqların ümumi sayı barədə məlumatlar fərqlidir. YUNİSEF-in hesablamalarına əsasən, yaşı 6-dan 17-dək olan uşaqların ən azı 25 faizi müəyyən növ işləri yerinə yetirirlər. Los Angeles Times, *In Afghanistan, Childhood Is Often a Full-Time Job*, 19 April 2014, http://www.latimes.com/world/la-fg-afghanistan-child-workers-20140420-dtohtmlstory. html. 2013-cü ildə ƏMİHK müəyyən etdi ki, təhsil alan uşaqların 50 faizi müəyyən növ muzdlu işlərdə işləyirlər. AIHRC, *Children's Situation Summary Report*, 14 December 2013, http://www.aihrc.org.af/home/research-reports/2115. 2010-2011-ci illərdə Əfqanıstanda çoxsaylı göstəricilər üzrə aparılmış tədqiqat nəticəsində müəyyən edildi ki, 5-11 yaş arasında olan uşaqların 27 faizi, 12-14 yaş arasında olan uşaqların isə 22 faizi uşaq əməyinə cəlb olunub. Yaşı 5-dən 14-dək olan uşaq əməyinə cəlb olunmuş uşaqların ümumi sayı qızlarda 23 faiz, oğlanlarda isə 28 faizdir. Central Statistics Organisation and UNICEF, *Afghanistan Multiple Indicator Cluster Survey 2010-2011*, June 2012, p. 127. Xüsusən

Əfqanıstanda uşaq əməyinin istifadəsinin ən pis formalarına borc köləliyi və məcburi əməyin digər formaları,[421] qanunsuz fəaliyyətlərdə, o cümlədən narkotik vasitələrin ticarətində uşaqlardan istifadə edilməsi, habelə uşaqların fahişəliyə cəlb edilməsi[422] daxildir. Həmçinin məlumatlara görə uşaqlar sağlamlıqlarına, təhlükəsizliklərinə və ya mənəviyyatlarına ziyan vura biləcək zərərli işlərə cəlb olunurlar.[423] İnstitusional imkanların zəif olması, o cümlədən yoxlamalar aparmaq və pozuntulara görə sanksiyalar tətbiq etmək üçün yetərincə resursların olmaması, məlumatlara görə, "Əmək haqqında" qanunun faktiki tətbiqi qarşısında ciddi maneə olaraq qalır.[424] Bundan əlavə, məlumatlara əsasən hakimiyyət orqanlarının "Əmək haqqında" qanunun uşaqlara aid olan müddəalarını tətbiq etmək imkanlarını əlavə olaraq bu fakt da məhdudlaşdırır ki, uşaqların 10%-dən də az hissəsinin doğum şəhadətnaməsi var.
Küçə uşaqları Əfqanıstanda ən çox təhlükəyə məruz qalan və ən əlverişsiz vəziyyətdə olan qruplar arasındadır və onların dövlət xidmətlərindən istifadə etmək imkanları çox azdır və ya ümumiyyətlə yoxdur. Məlumatlara əsasən, yoxsulluq və qida çatışmazlığı ailələri öz uşaqlarını küçələrə yemək və pul üçün dilənməyə göndərməyə məcbur edir.[425]

*b) Uşaqlara qarşı zorakılıq, o cümlədən onlara qarşı seksual zorakılıq və cinsi mənsubiyyətə əsaslanan zorakılıq*[426]

Məlumatlara əsasən uşaqlara qarşı pis rəftar geniş yayılıb və belə halların sayının artdığı barədə məlumatlar var.[427] Pis rəftarın geniş yayılmış formaları sırasına fiziki zorakılıq, seksual təcavüz,

---

dul qadınların uşaqları azyaşlı əməyinin istifadəsinə məruz qalırlar. UNAMA, *Afghanistan: Annual Report 2014, Protection of Civilians in Armed Conflict*, February 2015, http://www.refworld.org/docid/54e44e274.html, p. 3.

[421] Borc müqabilində işlədilmə praktikası kişilərin, qadınların və uşaqların borclarının ödənilməsi və ya günahlarından keçilməsi vasitəsi kimi onların işlədilməsinə imkan yaradır. Borc öhdəliyi nəsildən nəslə davam edə və uşaqlar valideynlərinin borclarını ödəmək üçün işləmək məcburiyyətində qala bilərlər. US Department of State, *2015 Country Reports on Human Rights Practices - Afghanistan*, 13 April 2016, http://www.refworld.org/docid/5711040d4.html; US Department of State, *2015 Trafficking in Persons Report - Afghanistan*, 27 July 2015, http://www.refworld.org/docid/55b73c1e31.html.

[422] Daxili İşlər Nazirliyinin sözçüsündən gətirilən sitatda deyilir ki, bir çox küçə uşaqları soyğunçuluqla, oğurluqla və narkotik qaçaqmalçılığı ilə məşğul olur və cəmiyyətin təhlükəsizliyinə problem yaradırlar. Institute for War and Peace Reporting, *Afghanistan's Working Children*, 19 August 2015, ARR Issue 520, http://go.iwpr.net/1hMbXGQ. Uşaqların qanunsuz fəaliyyətlərdə, o cümlədən narkotik vasitələrin ticarətində və uşaq fahişəliyində istifadəsi ilə bağlı əlavə təhlil üçün III.A.11 bölməsinə bax.

[423] Məsələn, məlumatlara görə, uşaq əməyinin istifadə edildiyi bəzi sektorlarda uşaqlar yerə basdırılmış minalardan zərər çəkmək təhlükəsinə məruz qalırlar. US Department of State, *2015 Country Reports on Human Rights Practices - Afghanistan*, 13 April 2016, http://www.refworld.org/docid/5711040d4.html. Həmçinin məlumatlara görə Əfqanıstanda uşaqlar sobalarda kərpic istehsalı işində işləyirlər ki, orada da sağlamlıqları ciddi təhlükəyə məruz qalır. UNICEF and International Labour Organization, *Breaking the Mould: Occupational Safety Hazards Faced by Children Working in Brick Kilns in Afghanistan*, 2015, http://www.ilo.org/ipec/Informationresources/WCMS_IPEC_PUB_25295/lang--en/index.htm.

[424] US Department of State, *2015 Country Reports on Human Rights Practices - Afghanistan*, 13 April 2016, http://www.refworld.org/docid/5711040d4.html; US Department of Labor, *2014 Findings on the Worst Forms of Child Labor - Afghanistan*, 30 September 2015, http://www.refworld.org/docid/560e3e180.html.

[425] Küçə uşaqlarının sayı barədə mötəbər məlumatlar olmasa da, Əmək məsələləri, sosial məsələlər, şəhidlərin və əlillərin işləri üzrə nazirliyin hesablamalarına görə, Əfqanıstanda altı milyona yaxın küçə uşaqları var. Lakin Milli Siyahıyaalma Müdirliyi tərəfindən hər hansı yeni araşdırma aparılmayıb. Həmçinin məlumatlara görə bəzi uşaqlar dilənçilik şəbəkələrinə mənsubdurlar. US Department of State, *2015 Country Reports on Human Rights Practices - Afghanistan*, 13 April 2016, http://www.refworld.org/docid/5711040d4.html. Estimates for the total number of children working in Kabul's streets range from 50,000 to 60,000. Assessment Capacities Project (ACAPS), *Afghanistan: Conflict and Displacement*, 10 October 2012, http://www.acaps.org/resourcescats/downloader/afghanistan_conflict_and_displacement. Küçələrdə satıcı kimi işləyən küçə uşaqlarının intiharçı bomba hücumlarından zərər çəkməsi təhlükəsi xüsusilə yüksəkdir. Misal üçün bax: http://www.skateistan.org/blog/tragic-loss.

[426] Zərərli adət-ənənələrə, seksual zorakılığa və cinsi mənsubiyyətə əsaslanan zorakılığa məruz qalan qızların vəziyyəti ilə bağlı əlavə təhlil üçün III.A.7 bölməsinə bax.

[427] AIHRC, *The Situation of Human Rights in Afghanistan in 1393*, 11 August 2015, http://www.refworld.org/docid/5694bc384.html, pp. 5, 35-36. YNİSEF qeyd edib ki, adətən uşaqlara qarşı seksual

uşaqlara qarşı biganəlik və cəmiyyətin onlara qarşı etinasızlığı daxildir.[428] Uşaqlara qarşı məişət zorakılığının bəzi formaları, məlumatlara əsasən, intizamlılığın tərbiyə edilməsi adı altında baş verir.[429] Məlumatlara görə uşaqlara qarşı seksual sui-istifadə halları geniş yayılıb.[430] Seksual sui-istifadə hallarının qurbanı olan uşaqların çoxu, xüsusən qızlar belə hərəkətlərə ailə üzvləri tərəfindən məruz qaldıqları halda,[431] məlumatlara əsasən, istər oğlanlar, istərsə də qızlar həm də hökumətyönlü qüvvələr,[432] AHE-lər və cəmiyyətin sıravi üzvləri[433] tərəfindən seksual zorakılığa məruz qalma təhlükəsi altında olurlar. Yeniyetmə oğlanlar *uşaqbazlıq* riski altında olurlar, bu elə bir praktikadır ki, bu zaman oğlanlar səlahiyyətli şəxslərin və iş adamlarının yanında saxlanılır və onlara kişi tamaşaçılar üçün qadın paltarında rəqs etmək öyrədilir, sonra isə seksual istismar üçün istifadə olunurlar.[434] Məlumatlara əsasən bu praktika genişlənməkdədir.[435]

---

zorakılıq hallarının yalnız az hissəsi barədə məlumat verilir. Bax: UNICEF, *Child Notice Afghanistan*, 2015, http://www.refworld.org/docid/566e68344.html, p. 55.

[428] US Department of State, *2015 Country Reports on Human Rights Practices - Afghanistan*, 13 April 2016, http://www.refworld.org/docid/5711040d4.html.

[429] 2010-2011-ci illərdə Əfqanıstanda çoxsaylı göstəricilər üzrə aparılmış tədqiqat nəticəsində müəyyən edildi ki, 2-14 yaş arasında olan uşaqların 74 faizi anaları və ya onlara qulluq edən şəxslər, yaxud digər ailə üzvləri tərəfindən psixoloji və fiziki cəzanın ən azı bir formasına məruz qalıb, uşaqların 38 faizi isə sərt fiziki cəzaya məruz qalıb. Central Statistics Organisation and UNICEF, *Afghanistan Multiple Indicator Cluster Survey 2010-2011*, June 2012, pp. 129-131. Bundan başqa, ABŞ Dövlət Departamenti qeyd edib ki, ev mühitindən kənarda, yəni məktəblərdə, islah mərkəzlərində və digər ictimai təsisatlarda bədən cəzasının verilməsi adi hal olaraq qalır, baxmayaraq ki, bu, qanuna ziddir. US Department of State, *2015 Country Reports on Human Rights Practices - Afghanistan*, 13 April 2016, http://www.refworld.org/docid/5711040d4.html.

[430] US Department of State, *2015 Country Reports on Human Rights Practices - Afghanistan*, 13 April 2016, http://www.refworld.org/docid/5711040d4.html. 2012-ci ildə Əfqanıstan Müstəqil İnsan Hüquqları Komissiyası (ƏMİHK) qeyd etdi ki, bu Komissiyanın araşdırıcıları tərəfindən qeydə alınmış seksual sui-istifadə hallarının 80 faizi yaşı 18-dək olan qızlara qarşı baş verib. Inter Press Service, *Violence Against Women on the Rise*, 5 October 2012, http://www.ipsnews.net/2012/12/violence-against-afghan-women-on-the-rise/.

[431] US Department of State, *2015 Country Reports on Human Rights Practices - Afghanistan*, 13 April 2016, http://www.refworld.org/docid/5711040d4.html.

[432] UNAMA 2014-cü ildə uşaqlara qarşı ƏYP üzvləri tərəfindən törədilmiş dörd seksual zorakılıq halı barədə və hökumətyönlü silahlı qrupun üzvü tərəfindən törədilmiş bir bu cür hal barəsində məlumat verib. UNAMA, *Afghanistan: Annual Report 2014, Protection of Civilians in Armed Conflict*, February 2015, http://www.refworld.org/docid/54e44e274.html, p. 18; New York Times, *U.S. Soldiers Told to Ignore Sexual Abuse of Boys by Afghan Allies*, 20 September 2015, http://nyti.ms/1V3hPb4; US Department of State, *2015 Country Reports on Human Rights Practices - Afghanistan*, 13 April 2016, http://www.refworld.org/docid/5711040d4.html. BMT-nin Baş katibi qeyd edib ki, milli təhlükəsizliklə bağlı ittihamlarla həbsdə saxlanılan bəzi oğlanlar ƏMTQ tərəfindən həbsə alındıqdan sonra və ya həbs yerində saxlanıldıqları müddətdə seksual zorakılığa məruz qaldıqları və ya belə zorakılıqla təhdid edildikləri barədə məlumat veriblər. UN Secretary-General, *Report of the Secretary-General on Children and Armed Conflict in Afghanistan*, 15 May 2015, S/2015/336, http://www.refworld.org/docid/55965b254.html, para. 37.

[433] US Department of State, *2015 Country Reports on Human Rights Practices - Afghanistan*, 13 April 2016, http://www.refworld.org/docid/5711040d4.html; UN Secretary-General, *Children and Armed Conflict: Report of the Secretary-General*, 15 May 2014, A/68/878-S/2014/339, http://www.refworld.org/docid/53b3b7654.html, paras 23, 26.

[434] AIHRC, *Causes and Consequences of Bacha Bazi in Afghanistan*, August 2014, http://www.aihrc.org.af/home/research-reports/3324. Həmçinin bax: US Department of State, *2015 Country Reports on Human Rights Practices - Afghanistan*, 13 April 2016, http://www.refworld.org/docid/5711040d4.html. ABŞ Dövlət Departamenti qeyd edib ki, belə sui-istifadə hallarına məruz qalan oğlanların sayı barədə mötəbər statistika əldə etmək çətindir, çünki bu mövzu rüsvayçılıq mənbəyi olaraq qalır. ABŞ Dövlət Departamenti həmçinin qeyd edib ki, bu praktikanın qurbanlarının bəziləri cinayət ittihamları əsasında yetkinlik yaşına çatmayanların islah mərkəzlərinə göndəriliblər. US Department of State, *2015 Trafficking in Persons Report - Afghanistan*, 27 July 2015, http://www.refworld.org/docid/55b73c1e31.html. ABŞ Dövlət Departamenti həmçinin məlumat verib ki, uşaqlar öz ailələri tərəfindən fahişəlik üçün satıla bilərlər. US Department of State, *2015 Trafficking in Persons Report - Afghanistan*, 27 July 2015, http://www.refworld.org/docid/55b73c1e31.html. YUNİSEF-in bildirdiyinə görə, oğlanların seksual istismar məqsədi ilə uşaq alverinə məruz qalması və məcburi əməyə cəlb olunması riski qızlara nisbətən daha yüksəkdir. UNICEF, *Child Notice Afghanistan*, 2015, http://www.refworld.org/docid/566e68344.html, pp. 16, 69. UNAMA hökumətyönlü silahlı qrupların uşaqbazlıq praktikası ilə məşğul olduğu barədə çoxsaylı məlumatlar alıb. UNAMA, *Afghanistan: Midyear Report 2015, Protection Of Civilians In Armed Conflict*, August 2015, http://www.refworld.org/docid/55c1bdc4d.html, p. 76. Uşaqbazlıq praktikasına məruz qalma riski oğlanları ölkəni tərk etməyə vadar edir. Bax: UNHCR, *Why Do Children*

Məlumatlara əsasən uşaqlara qarşı seksual təcavüzün cəzasız qalması problem olaraq qalır: pozuntu törədənlərin çoxu həbs olunmur və məlumatlar var ki, uşaqları zorlayan təhlükəsizlik xidmətinin əməkdaşları və polis əməkdaşları ilə əlaqəli olan şəxslər cəzasız qalırlar.[436] "Mənəviyyat əleyhinə cinayətlərə" görə məhkəmə təqibinə məruz qalan bəzi uşaqlar əslində cinayət törədən deyil, cinayətin sağ qalmış qurbanlarıdır və seksual təcavüz barədə xəbər verməklə onlar ailələrini rüsvay etmiş sayılırlar və hesab edilir ki, onları cəzalandırmaq lazımdır.[437] Məlumatlara əsasən bəzi uşaqlar faktiki olaraq pozuntu törətmiş ailə üzvünün əvəzinə azadlıqdan məhrum ediliblər.[438]

*c) Sistematik olaraq təhsildən kənarda qalma*

Məlumatlara əsasən uşaqların təhsil almaq imkanları qarşısında böyük maneələr var. Belə bir faktla bağlı narahatlıq ifadə edilib ki, məktəblərdə davamiyyətə aid rəsmi dövlət statistikasında ölkədə məktəbə gedən uşaqların sayı,[439] habelə verilən təhsilin keyfiyyəti[440] barədə məlumatlar şişirdilir. Məktəbə gedən qızların sayı oğlanların sayından əhəmiyyətli dərəcədə az olaraq qalır.[441] Qeyri-sabitliyin səviyyəsinin yüksək olması təhsil almaq yolunda maneə yaradan əsas

---

*Undertake the Unaccompanied Journey?*, December 2014, PDES/2014/03, http://www.refworld.org/docid/54994d984.html, p. 13.

435 Institute for War and Peace Reporting, *Afghans Condemn Abuse of "Dancing Boys"*, 17 September 2015, http://www.refworld.org/docid/55fbc2372e.html; US Department of State, *2015 Country Reports on Human Rights Practices - Afghanistan*, 13 April 2016, http://www.refworld.org/docid/5711040d4.html. Həmçinin III.A.11 bölməsinə bax.

436 US Department of State, *2015 Country Reports on Human Rights Practices - Afghanistan*, 13 April 2016, http://www.refworld.org/docid/5711040d4.html; New York Times, *U.S. Soldiers Told to Ignore Sexual Abuse of Boys by Afghan Allies*, 20 September 2015, http://nyti.ms/1V3hPb4; UNAMA, *Afghanistan: Annual Report 2014, Protection of Civilians in Armed Conflict*, February 2015, http://www.refworld.org/docid/54e44e274.html, pp. 17-18. 2015-ci ilin martında Laqman vilayətində yerli polisin üzvü yeddi yaşlı oğlana qarşı seksual zorakılıq etdiyinə və onu zorlamağa cəhd etdiyinə görə 10 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edildi. UN Secretary-General, *Children and Armed Conflict: Report of the Secretary-General*, 5 June 2015, A/69/926–S/2015/409, http://www.refworld.org/docid/557abf904.html, para. 32. ABŞ Dövlət Departamenti qeyd edib ki, "hüquq-mühafizə orqanlarının bəzi əməkdaşları, bəzi prokurorlar və hakimlər uşaqbazlıqla məşğul olanlardan rüşvət alır və ya onlarla əlaqələrindən yararlanırlar ki, bu da onların cəzadan yaxa qurtarmasına imkan verir". US Department of State, *2015 Trafficking in Persons Report - Afghanistan*, 27 July 2015, http://www.refworld.org/docid/55b73c1e31.html.

437 Məsələn, Human Rayts Votç təşkilatı belə bir hal barədə məlumat verib ki, parkda yetkin yaşlı iki kişi ilə cinsi əlaqədə olmaqda təqsirləndirilən 13 yaşlı oğlan "mənəviyyat əleyhinə cinayət" ittihamları ilə məhkum edilib. O, cəzasını yeniyetmələrin islah müəssisəsində çəkməklə bir il müddətinə azadlıqdan məhrum edilib. HRW, *Afghanistan: Don't Prosecute Sexually Assaulted Children*, 10 February 2013, http://www.refworld.org/docid/511a0ac941e.html. Həmçinin bax: US Department of State, *2015 Country Reports on Human Rights Practices - Afghanistan*, 13 April 2016, http://www.refworld.org/docid/5711040d4.html.

438 US Department of State, *2015 Country Reports on Human Rights Practices - Afghanistan*, 13 April 2016, http://www.refworld.org/docid/5711040d4.html.

439 NPR, *Afghan Schools: Is The Success Story Exaggerated?*, 18 June 2014, http://www.npr.org/sections/thetwoway/2015/06/18/415353782/afghan-schools-is-the-success-story-exaggerated; BuzzFeed, *Ghost Students, Ghost Teachers, Ghost Schools*, 9 July 2015, http://www.buzzfeed.com/azmatkhan/the-big-lie-that-helped-justify-americas-war-in-afghanistan.

440 Misal üçün bax: AAN, *Too Few, Badly Paid And Unmotivated: The Teacher Crisis and the Quality of Education in Afghanistan*, 22 August 2015, https://www.afghanistan-analysts.org/too-few-badly-paid-and-unmotivated-the-teacher-crisis-and-the-quality-of-education-inafghanistan-2/.

441 Təhsil Nazirliyinin təqdim etdiyi statistikaya əsasən, 9,1 milyon məktəblidən 3,5 milyonu (39 faizi) qızlardır. US Department of State, *2015 Country Reports on Human Rights Practices - Afghanistan*, 13 April 2016, http://www.refworld.org/docid/5711040d4.html. Həmçinin bax: UNICEF, *Improving Children's Lives Transforming the Future*, September 2014, http://generation25.org/wp-content/uploads/2014/09/Improving-Children-s-Lives-Transforming-the-Future.pdf, p. 50. YUNESKO-nun bildirdiyinə görə, ibtidai məktəbdə hər 100 oğlana 71 qızın düşdüyü Əfqanıstan dünyada ibtidai təhsil sahəsində gender bərabərsizliyinin ən yüksək səviyyəsinə malikdir. UNESCO, *Education for All Global Monitoring Report (EFAGMR) 2013/4, Teaching and Learning: Achieving Quality for All Afghanistan: Fact Sheet*, 2014,

amildir.[442] İstər anti-hökumət elementləri, istərsə də hökumətyönlü qüvvələr tərəfindən məktəblərin hərbi məqsədlər üçün istifadə edilməsi barədə məlumatlar əlavə narahatlıqlar yaradır.[443]

Həmçinin məlumatlara əsasən AHE-lər məktəblərə, müəllimlərə və şagirdlərə qarşı birbaşa hücumlar həyata keçirməkdə davam edirlər,[444] bu hücumlar xüsusən qızların təhsili ilə

---

http://www.unesco.org/new/fileadmin/MULTIMEDIA/HQ/ED/GMR/pdf/Afghanistan_Factsheet.pdf. YUNESKO-nun bildirdiyinə görə, ibtidai məktəb yaşlı uşaqların 42,7 faizi (4,2 milyon uşaq) təhsildən kənarda qalır. YUNESKO həmçinin qeyd edib ki, bu faiz göstəricisi daxilində təhsildən kənarda qalan qızların sayı oğlanlardan təxminən 50 faiz çoxdur. UNICEF, *Educate All Girls and Boys in South Asia*, August 2015, http://www.unicef.org/education/files/EducateAllGirlsandBoys-UNICEF_ROSA.pdf.

[442] 2015-ci ildə UNAMA və YUNİSEF münaqişə ilə əlaqədar olaraq təhsilə və təhsil sahəsinin personalına təsir göstərən 132 insidenti qeydə alıblar ki, bu da 2014-cü ilin eyni dövrü ilə müqayisədə 86 faiz, 2013-cü illə müqayisədə isə 110 faiz artım deməkdir. Məlumatlara əsasən insidentlər məktəblərin işləməsinə, əlçatan olmasına və təhsilin keyfiyyətinə əhəmiyyətli dərəcədə təsir göstərib, belə ki, 369 məktəb qismən və ya tamamilə bağlanıb ki, bu da 139.048 şagirdə (65.057 oğlana və 73.991 qıza) və 600 müəllimə öz təsirini göstərib. UNAMA, *Education and Healthcare At Risk: Key Trends and Incidents Affecting Children's Access to Healthcare and Education In Afghanistan*, 18 April 2016, https://unama.unmissions.org/sites/default/files/education_and_healthcare_at_risk.pdf, p. 6. 2015-ci ilin iyulunda Hilmənd vilayətində təhlükəsizlik səbəblərinə görə yüz məktəb bağlandı. Tolo News, *Security Threats Cause over 100 Helmand Schools to Close*, 24 July 2015, http://www.tolonews.com/en/afghanistan/20585-security-threats-cause-over-100-helmand-schools-to-close. 2015-ci ilin sentyabrında məlumat verildi ki, Nənqərhar vilayətində İŞİD-lə əlaqəli silahlı qruplar tərəfindən və ya bu qrupların təhlükəsizliyə qarşı yaratdığı təhlükə səbəbindən 58 məktəb bağlanıb ki, bu 300.000 uşağı təhsildən kənarda qoyub. Khaama Press, *300,000 Children Face Uneducated Future Because of Daesh in Nangarhar*, 20 September 2015, http://www.khaama.com/300000-school-children-face-uneducated-futurebecause-of-daesh-in-nangarhar-3925. Gündüzün mühasirəsi zamanı 497 məktəbin bağlanması 330.000-dən artıq şagirdə təsir göstərib; bundan başqa, Taliban dörd məktəbdən, İŞİD isə bir məktəbdən hərbi məqsədlər üçün istifadə edib. UN General Assembly, *The Situation in Afghanistan and its Implications for International Peace and Security*, 10 December 2015, A/70/601–S/2015/942, http://www.refworld.org/docid/5672ac7c4.html, para. 34. 2015-ci ilin sonunda Hilmənd vilayətində 150 məktəb bağlanıb ki, bu da 100.000 şagirdin təhsil almasına əngəl törədib. IRIN, *School Closures Fuel Taliban Recruitment*, 16 December 2015, http://www.refworld.org/docid/569412eb6d2b.html. ABŞ Dövlət Departamentinin bildirdiyinə görə, Təhsil Nazirliyinin nümayəndələrinin hesablamalarına əsasən 2014-cü ilin mayında qeyri-sabit ərazilərdə təxminən 150.000 məktəbli məktəbə getmək imkanına malik deyildi. US Department of State, *2015 Country Reports on Human Rights Practices - Afghanistan*, 13 April 2016, http://www.refworld.org/docid/5711040d4.html. BMT-nin Baş katibi məlumat verib ki, 2014-cü ildə təhlükəsizlik səbəbindən ən azı 469 məktəb bağlı qalıb. UN Secretary-General, *Children and Armed Conflict: Report of the Secretary-General*, 5 June 2015, A/69/926–S/2015/409, http://www.refworld.org/docid/557abf904.html, para. 33.

[443] Məlumatlara əsasən 2015-ci ildə 35 məktəb (müqayisə üçün qeyd edək ki, 2014-cü ildə bu say 12, 2013-cü ildə isə on idi) ümumilikdə 1311 gün ərzində hərbi məqsədlər üçün istifadə edilib. Məktəblərin hərbi məqsədlər üçün istifadəsinin müddəti, məlumatlara görə, bir neçə gündən tutmuş bir neçə aya qədər müxtəlifdir və bu hallar ən azı 8905 şagirdin (5614 oğlanın və 3291 qızın) təhsil almasına əngəl törədib. UNAMA, *Education and Healthcare At Risk: Key Trends and Incidents Affecting Children's Access to Healthcare and Education In Afghanistan*, 18 April 2016, https://unama.unmissions.org/sites/default/files/education_and_healthcare_at_risk.pdf, p. 19. Həmçinin bax: UN Secretary-General, *Children and Armed Conflict: Report of the Secretary-General*, 5 June 2015, A/69/926–S/2015/409, http://www.refworld.org/docid/557abf904.html, para. 35. Münaqişə vəziyyətlərində məktəblərin hərbi məkana çevrilməsi 1951-ci il Konvensiyasının 1-ci maddəsinin "A" bəndinin 2-ci yarımbəndində nəzərdə tutulmuş təqibə bərabər sayıla bilər. Bax: UNHCR, *Summary Conclusions on International Protection of Persons Fleeing Armed Conflict and Other Situations of Violence; Roundtable 13 and 14 September 2012, Cape Town, South Africa*, 20 December 2012, http://www.refworld.org/docid/50d32e5e2.html, para. 11; həmçinin bax: UNHCR, *Guidelines on International Protection No. 8: Child Asylum Claims under Articles 1(A)2 and 1(F) of the 1951 Convention and/or 1967 Protocol relating to the Status of Refugees*, HCR/GIP/09/08, 22 December 2009, http://www.refworld.org/docid/4b2f4f6d2.html, para. 36.

[444] BMT-nin Baş katibi 2014-cü ildə məlumat verib ki, məktəblərə qarşı 163 hücum, o cümlədən məktəb binalarına ƏPQ-lərin qoyulduğu 28 insident araşdırılıb. Hücumların böyük əksəriyyəti AHE-lər tərəfindən həyata keçirilib və bu zaman məktəblər yandırılıb, müəllimlər və digər məktəb işçiləri bilərəkdən qətlə yetirilib, təhsil müəssisələrinə silahlı basqınlar edilib, məktəblər zəbt edilib, məktəbin personalı hədələnib və məktəblər, xüsusən də qız məktəbləri qapadılıb. UN Secretary-General, *Children and Armed Conflict: Report of the Secretary-General*, 5 June 2015, A/69/926–S/2015/409, http://www.refworld.org/docid/557abf904.html, para. 33. 2015-ci il aprelin 1-dən iyunun 30-dək ölkədə uşaqlar və silahlı münaqişə ilə əlaqədar monitorinq aparan və hesabat hazırlayan işçi qrupu AHE-lərin hücumlarından (bərəsində məlumat verilmiş 52-ci hücumdan) 33-ünü araşdırıb, bu hücumlara məktəb binalarına və təhsil personalına qarşı yönələn, o cümlədən məktəblərin yandırılmasını, personalın bilərəkdən öldürülməsini və oğurlanmasını özündə ehtiva edən hərəkətlər daxildir. Əvvəlki üç aylıq dövrdə 15 insident barəsində məlumat

əlaqədardır.[445] Barəsində məlumat verilən hücumların çoxu Talibana aid edilsə də, məlumatlara görə, İŞİD-lə əlaqəli qruplar da məktəbləri zora bağlayır, müəllimləri hədələyir və qorxudurlar.[446] Qızların təhsili qarşısındakı digər maneələr sırasına xüsusən yoxsulluq, erkən və məcburi nikahlar, ailə tərəfindən dəstəyin olmaması, qadın müəllimlərin çatışmaması və ən yaxın məktəbə qədər məsafənin uzaq olması daxildir.[447]

---

verilmiş və onlardan üçü araşdırılmışdı. UN Secretary-General, *The Situation in Afghanistan and its Implications for International Peace and Security: Report of the Secretary-General*, 1 September 2015, A/70/359–S/2015/684, http://www.refworld.org/docid/55f677871e.html, para. 28. Taliban BMT-nin Baş katibinin 2015-ci il üçün uşaqlar və silahlı münaqişə barədə hesabatında konkret olaraq uşaqlara qarşı kobud pozuntulara görə məsuliyyət daşıyan münaqişə tərəfləri arasında göstərilib. Bu pozuntulara uşaqların döyüşçülər sırasına cəlb edilməsi və döyüşlərdə istifadə edilməsi, qətlə yetirilməsi və şikəst edilməsi və məktəblərə və (və ya) xəstəxanalara hücumlar daxildir. UN Secretary-General, *Children and Armed Conflict: Report of the Secretary-General*, 5 June 2015, A/69/926–S/2015/409, http://www.refworld.org/docid/557abf904.html, p. 48.

[445] 2015-ci ildə UNAMA və YUNİSEF AHE-lər tərəfindən qızların məktəbə getməsini birbaşa və ya dolayısı ilə məhdudlaşdıran 19 insidenti qeydə alıblar. UNAMA, *Education and Healthcare At Risk: Key Trends and Incidents Affecting Children's Access to Healthcare and Education In Afghanistan*, 18 April 2016, https://unama.unmissions.org/sites/default/files/education_and_healthcare_at_risk.pdf, p. 8. Taliban hücumlarını xüsusən qızların təhsil almasının əleyhinə yönəlib, məsələn, onlar şagirdlərə qarşı ciddi təhdidlərin və qadın müəllimlərə qarşı hədə-qorxuların yer aldığı vərəqələr yayıblar. UN Secretary-General, *Children and Armed Conflict: Report of the Secretary-General*, 5 June 2015, A/69/926–S/2015/409, http://www.refworld.org/docid/557abf904.html, para. 33. 2014-cü ilin iyulunda Herat təhsil idarəsinin rəhbəri elan etdi ki, Herat vilayətinin Şindad rayonundakı bütün məktəblər qızlar üçün bağlı qalacaq, bununla da 40.000-ə yaxın qız təhsil almaq imkanından məhrum oldu, səbəb isə ondan ibarət idi ki, Taliban qızlar məktəbə gedəcəyi təqdirdə məktəbləri yandıracağı və inriharçı bomba hücumları həyata keçirəcəyi barədə təhdidlərin yer aldığı vərəqələr yaymışdı. Tolo News, *Insecurities in Shindand Result in Closing of Girls Schools*, 21 July 2014, http://www.tolonews.com/en/afghanistan/15664-insecurities-in-shindandresult-in-closing-of-girls-schools. 2014-cü ilin martında ƏAŞ-ın eksperti Klaudio Frankonun bu sözlərindən sitat gətirildi ki, "[xüsusən puştuların zonasında] Taliban qızların təhsilini məhdudlaşdırmağa və ya onların təhsili üzərində müstəsna hüquqa malik olmağa cəhdlər edib və bu cəhdlər əsasən uğurlu olub. Yerli əhali sadəcə olaraq dərin kök atmış instinktiv mühafizəkarlıq ucbatından bu cür mövqeyə çox zaman rəğbətlə yanaşıb. […] Nəticədə nəqliyyatla məktəbə gedən və məktəbdən gələn qızlara və ya bu qadağaya əməl etməyən müəllimlərə və (və ya) məktəb inzibatçılarına hücumlar edilib". Al Jazeera, *Can Madrassas Help Developing Countries?*, 13 March 2014, http://www.aljazeera.com/indepth/features/2014/03/can-madrassas-help-developing-countries-20143613421527815.html. Ölkənin bəzi ərazilərində, məsələn, Gündüz vilayətində, məlumatlara əsasən, yalnız çox tələbkarlıqla təfsir edilən islamın tədris edildiyi özəl mədrəsələrə (dini məktəblərə) gedən qızların sayı artmaqdadır. Al Jazeera, *The Girls of the Taliban*, 24 December 2014, http://www.aljazeera.com/programmes/specialseries/2014/12/girls-taliban-2014121716718177928.html. 2015-ci il avqustun sonlarında və sentyabrın əvvəllərində Herat vilayətində zəhərli tüstünün nəfəslərinə dolması səbəbindən yüzlərlə qız qazdan zəhərləndiklərinə görə xəstəxanalara yerləşdirildilər. Bu insidentlərə görə heç bir qrup məsuliyyəti öz üzərinə götürmədi, amma dövlət orqanları bu halların qəsdən törədilməsindən şübhələndilər. CNN, *Hundreds of Girls Hospitalized due to Mysterious Gas at School*, 4 September 2015, http://edition.cnn.com/2015/09/03/asia/afghanistan-gas-illnesses/; BBC, *Afghanistan Probes 'Poisoning' of 600 Herat Schoolgirls*, 8 September 2015, http://www.bbc.com/news/world-asia-34186904. 2015-ci ilin iyulunda Herat vilayətində məktəbə gedən üç yeniyetmə qıza hücum edənlər onların sifətinə sulfat turşusu atdılar və qızlara dedilər ki, bu onların məktəbə getmələrinə görə cəzadır. CNN, *ibid.*

[446] UNAMA 2015-ci ildə qeyd etdi ki, İŞİD-lə əlaqəli olan qrupların həyata keçirdiyi hücumların üçdə birinin hədəfi təhsil və səhiyyə müəssisələri və işçiləri olub. UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, p. 56. Məlumatlara əsasən şərq regionunda İŞİD-lə əlaqəli olan qrupların meydana çıxması ilə təhsillə əlaqədar personalın hədələnməsi və qorxudulması hallarının artması arasında birbaşa əlaqə var. 2015-ci ildə səkkiz belə halın təqsirkarı İŞİD-lə əlaqəli qruplar hesab edilib, buraya "müəllimlərin maaşlarının zorla alınması və vilayət ərazilərində 68-ə yaxın məktəbin zorla qapadılması halları daxildir ki, bunların da təsirinə azı 16.896-sı qız olmaqla 48.751-dən artıq şagird və müəllim məruz qalıb". UNAMA, *Education and Healthcare At Risk: Key Trends and Incidents Affecting Children's Access to Healthcare and Education In Afghanistan*, 18 April 2016, https://unama.unmissions.org/sites/default/files/education_and_healthcare_at_risk.pdf, p. 8. Həmçinin bax: UNAMA, *Afghanistan: Annual Report 2015*, p. 19.

[447] US Department of State, *2015 Country Reports on Human Rights Practices - Afghanistan*, 13 April 2016, http://www.refworld.org/docid/5711040d4.html; UNAMA, *Afghanistan: Annual Report 2014, Protection of Civilians in Armed Conflict*, February 2015, http://www.refworld.org/docid/54e44e274.html. Əfqanıstanda erkən və məcburi nikah praktikası ilə bağlı əlavə məlumat üçün III.A.7 bölməsinə bax. Dünya Bankının məlumatına əsasən, 2014-cü ildə müəllimlərin 32 faizi qadınlar idi. Trading Economics, *Primary Education - Teachers (% female) in*

*d) ƏMTQ və anti-hökumət elementləri tərəfindən oğurlanma, cəzalandırılma və qisas halları*

Məlumatlara əsasən ƏMTQ və AHE-lər müxtəlif məqsədlərlə, o cümlədən qurbanın ailə üzvlərindən qisas almaq və onları cəzalandırmaq məqsədi ilə uşaqları oğurlayırlar.[448] Həmçinin məlumatlara görə uşaqlar oğurlanır və qarşı tərəfə kömək etdiklərinə dair ittihamlar əsasında sonradan edam edilir, şikəst edilir və ya zorlanırlar.[449]

*e) Qısa nəticə*

Hər bir işin konkret hallarından asılı olaraq, BMTQAK hesab edir ki, aşağıdakı kateqoriyalara aid olan uşaqlar beynəlxalq müdafiəyə (himayəyə) ehtiyac duya bilərlər:

a) AHE-lərin və ya ƏMTQ elementlərinin azyaşlıları döyüşçülər sırasına cəlb etdiyi ərazilərdəki uşaqlar;[450]

b) borc müqabilində və ya zərərli işlərdə uşaqların işlədilməsi praktikasının mövcud olduğu sosial təbəqələrdən olan uşaqlar;

c) zorakılığın (o cümlədən seksual zorakılığın və cinsi mənsubiyyətə əsaslanan zorakılığın) qurbanı olan və sağ qalan və bu cür zorakılıq təhlükəsi altında olan uşaqlar, habelə bu cür zorakılıq praktikasının mövcud olduğu sosial təbəqələrdən olan uşaqlar;

d) məktəb yaşlı uşaqlar, xüsusən qızlar;[451] və

e) valideynlərindən ƏMTQ-nin və ya AHE-lərin qisas almağa çalışdıqları uşaqlar və ƏMTQ və ya AHE-lər tərəfindən təqsirləndirilən və ya qarşı tərəfə kömək etməkdə ittiham olunan uşaqlar.

Hər bir işin konkret hallarından asılı olaraq, onlar müəyyən sosial qrupa mənsub olmalarına, dini əqidələrinə və (və ya) (güman edilən) siyasi baxışlarına və ya digər müvafiq səbəblərə görə beynəlxalq müdafiəyə (himayəyə) ehtiyac duya bilərlər.

Uşaqların sığınacaq barədə müraciətlərini, o cümlədən keçmiş hərbçi olmuş uşaqların sığınacaq hüququna malik şəxslər sırasından xaric edilməsi barədə mülahizələri nəzərdən keçirərkən məsələni diqqətlə və BMTQAK-ın Uşaqların sığınacaq barədə müraciətlərinə dair rəhbər prinsiplərinə uyğun surətdə araşdırmaq lazımdır.[452]

### *11. İnsan alverinin və ya borclu əməyinin sağ qalan qurbanları və insan alverinə və ya borclu əməyinə məruz qalma təhlükəsi altında olan şəxslər*

---

*Afghanistan*, http://www.tradingeconomics.com/afghanistan/primary-education-teachers-percentfemale-wb-data.html.

[448] UN Secretary-General, *Report of the Secretary-General on Children and Armed Conflict in Afghanistan*, 15 May 2015, S/2015/336, http://www.refworld.org/docid/55965b254.html, paras 40-42; UNAMA, *Afghanistan: Midyear Report 2015, Protection Of Civilians In Armed Conflict*, August 2015, http://www.refworld.org/docid/55c1bdc4d.html, p. 20.

[449] UN Secretary-General, *Report of the Secretary-General on Children and Armed Conflict in Afghanistan*, 15 May 2015, S/2015/336, http://www.refworld.org/docid/55965b254.html, paras 40-42; UN Human Rights Council, *Report of the United Nations High Commissioner for Human Rights on the Situation of Human Rights in Afghanistan and on the Achievements of Technical Assistance in the Field of Human Rights in 2013*, 10 January 2014, A/HRC/25/41, http://www.refworld.org/docid/52e109fa4.html, para. 27.

[450] Azyaşlıları döyüşçülər sırasına cəlb etmə məsələsinə dair əlavə təhlil üçün III.A.3 bölməsinə bax.

[451] Əlavə tövsiyələr üçün bu mənbəyə bax: UNHCR, *Guidelines on International Protection No. 8: Child Asylum Claims under Articles 1(A)2 and 1(F) of the 1951 Convention and/or 1967 Protocol Relating to the Status of Refugees*, 22 December 2009, http://www.refworld.org/docid/4b2f4f6d2.html, paras 34-36; UNHCR, *Guidelines on International Protection No. 2: "Membership of a Particular Social Group" Within the Context of Article 1A(2) of the 1951 Convention and/or its 1967 Protocol Relating to the Status of Refugees*, 7 May 2002, http://www.refworld.org/docid/3d36f23f4.html.

[452] UNHCR, *Guidelines on International Protection No. 8: Child Asylum Claims under Articles 1(A)2 and 1(F) of the 1951 Convention and/or 1967 Protocol relating to the Status of Refugees*, HCR/GIP/09/08, 22 December 2009, http://www.refworld.org/docid/4b2f4f6d2.html.

Məlumatlara əsasən əfqan qadınlar, kişilər və uşaqlar məcburi əməyə və seksual istismara və qızların timsalında məcburi nikaha cəlb olunmaları üçün ölkə daxilində və beynəlxalq səviyyədə insan alverinə məruz qalırlar.[453] İnsan alverinin qurbanı olan əfqanlar, məlumatlara görə, Əfqanıstandan Orta Şərqə, Avropaya və Cənubi Asiyaya aparılırlar,[454] lakin Əfqanıstanda ölkədaxili insan alverinin transmilli insan alverindən daha geniş yayıldığı bildirilir.[455] Məlumatlara əsasən insan alverinin qurbanı olan əfqanların çoxu uşaqlardır. Onlar iqtisadiyyatın müəyyən sektorlarında, məsələn, kənd təsərrüfatı, kərpic istehsalı, dağ mədən sənayesi, tikinti, xalçatoxuma, ev işləri və xidmət sahələrində məcburi əməyə cəlb edilmək məqsədi ilə insan alverinə məruz qala bilərlər. Onlar həmçinin qanunsuz iqtisadiyyat sektorlarında, məsələn, narkotik qaçaqmalçılığı və istehsalı sahəsində və digər cinayətkar fəaliyyətlər sahəsində istismara məruz qala, döyüşməyə məcbur edilə və digər zorakılıq formalarına məruz qala və dilənməyə məcbur edilə bilərlər. Uşaqlar həmçinin seksual istismar və məcburi nikah məqsədləri üçün insan alverinə məruz qala bilərlər.[456] Məlumatlara görə əfqan qadınlar, qızlar və oğlanlar xüsusən seksual istismar məqsədi ilə insan alverinə məruz qalma qarşısında müdafiəsiz durumdadırlar; oğlanların timsalında bu hal uşaqbazlıq praktikasını özündə ehtiva edir ki, bu zaman nüfuz sahibi olan şəxslər sosial və seksual əyləncə yerlərində yeniyetmə oğlanlardan istifadə edirlər.[457] Məlumatlara əsasən bəzən uşaqlar ailələri tərəfindən maddi gəlir əldə etmək və ya borclarını bağlatdırmaq üçün satılırlar.[458] Əfqan qadınlar və kişilər, məlumatlara görə, insan alverinə məruz qalaraq xaricə aparılır və məcburi əməyə və borc köləliyinə məruz qalır, o cümlədən evlərdə, kənd təsərrüfatı və tikinti sektorlarında kölə kimi işlədilirlər.[459] Bəzi əfqan

---

[453] US Department of Labor, *2014 Findings on the Worst Forms of Child Labor - Afghanistan*, 30 September 2015, http://www.refworld.org/docid/560e3e180.html; US Department of State, *2015 Trafficking in Persons Report - Afghanistan*, 27 July 2015, http://www.refworld.org/docid/55b73c1e31.html; Samuel Hall Consulting, *Old Practice, New Chains: Modern Slavery in Afghanistan*, 2013, https://www.iom.int/files/live/sites/iom/files/Country/docs/IOM-Afghanistan-CT-Report-2014.pdf; Hagar International, *Forgotten No More: Male Child Trafficking In Afghanistan*, October 2013, http://hagarinternational.org/international/files/20140403-Forgotten-No-More1.pdf.

[454] US Department of State, *2015 Trafficking in Persons Report - Afghanistan*, 27 July 2015, http://www.refworld.org/docid/55b73c1e31.html; Samuel Hall Consulting, *Old Practice, New Chains: Modern Slavery in Afghanistan*, 2013, https://www.iom.int/files/live/sites/iom/files/Country/docs/IOM-Afghanistan-CT-Report-2014.pdf, p. 32.

[455] US Department of State, *2015 Trafficking in Persons Report - Afghanistan*, 27 July 2015, http://www.refworld.org/docid/55b73c1e31.html. "Samuel Holl Konsaltinq" (*Samuel Hall Consulting*) tərəfindən 2013-cü ildə aparılmış sorğu nəticəsində müəyyən edildi ki, 80 respondentdən 54-ü ölkə daxilində və onların da çoxu öz vilayətləri daxilində insan alverinə məruz qalıblar. Samuel Hall Consulting, *Old Practice, New Chains: Modern Slavery in Afghanistan*, 2013, https://www.iom.int/files/live/sites/iom/files/Country/docs/IOM-Afghanistan-CT-Report-2014.pdf, p. 27. ƏMİHK məlumat verib ki, Əfqanıstanda insan alverinin 60 faizi ölkə daxilində baş verir. AIHRC, *Summary Report on Investigation of Causes and Factors of Trafficking in Women and Children*, July 2011, http://www.refworld.org/docid/4e1d57012.html.

[456] Samuel Hall Consulting, *Old Practice, New Chains: Modern Slavery in Afghanistan*, 2013, https://www.iom.int/files/live/sites/iom/files/Country/docs/IOM-Afghanistan-CT-Report-2014.pdf, p. 32.

[457] US Department of State, *2015 Trafficking in Persons Report - Afghanistan*, 27 July 2015, http://www.refworld.org/docid/55b73c1e31.html; AIHRC, *Causes and Consequences of Bacha Bazi in Afghanistan*, August 2014, http://www.aihrc.org.af/home/research-reports/3324; Samuel Hall Consulting, *Old Practice, New Chains: Modern Slavery in Afghanistan*, 2013, https://www.iom.int/files/live/sites/iom/files/Country/docs/IOM-Afghanistan-CT-Report-2014.pdf, p. 49; Hagar International, *Forgotten No More: Male Child Trafficking In Afghanistan*, October 2013, http://hagarinternational.org/international/files/20140403-Forgotten-No-More1.pdf, p. 40; Foreign Policy, *Bacha Bazi: An Afghan Tragedy*, 28 October 2013, http://foreignpolicy.com/2013/10/28/bacha-bazi-anafghan-tragedy/.

[458] US Department of State, *2015 Trafficking in Persons Report - Afghanistan*, 27 July 2015, http://www.refworld.org/docid/55b73c1e31.html; Samuel Hall Consulting, *Old Practice, New Chains: Modern Slavery in Afghanistan*, 2013, https://www.iom.int/files/live/sites/iom/files/Country/docs/IOM-Afghanistan-CT-Report-2014.pdf, p. 51. Xaşxaş əkən və məhsulları məhv olan fermerlər, məlumatlara görə, bəzən qaçaqmalçılara borclarını qaytarmaq üçün qızlarını satmağı qərara alırlar. The Atlantic, *In Afghanistan, Fathers Barter Daughters to Settle Drug Debts*, 31 July 2013, http://www.theatlantic.com/international/archive/2013/07/in-afghanistan-fathers-barterdaughters-to-settle-drug-debts/278217/.

[459] US Department of State, *2015 Trafficking in Persons Report - Afghanistan*, 27 July 2015, http://www.refworld.org/docid/55b73c1e31.html; Samuel Hall Consulting, *Old Practice, New Chains: Modern*

ailələr, o cümlədən uşaqlar, məlumatlara əsasən, aldadılıb borc girdabına düşərək məcburi əməyə məruz qalır, o cümlədən kərpic istehsalı fabriklərində işləməyə məcbur olurlar.[460]
2008-ci ildə hökumət insan alveri əleyhinə qanun qəbul edib.[461] Qanunun tətbiqi üçün müəyyən səylər göstərilsə də, məlumatlara əsasən hüquq-mühafizə orqanlarının əməkdaşlarında və hakimlərdə insan alveri barədə yetərincə məlumat və anlayış yoxdur.[462] Həmçinin korrupsiyanın mövcud olduğu və təqsirkarları məsuliyyətə cəlb etmək üçün siyasi iradənin olmadığı bildirilir və məlumatlara görə dövlət işçiləri insan alverində iştirakda təqsirləndirilirlər.[463] Məlumatlarda bildirilir ki, hökumət insan alverinin qurbanı olan şəxsləri fahişəlik cinayətində və ya "mənəviyyat əleyhinə cinayətlərdə" ittiham edərək tutur, azadlıqdan məhrum edir və ya digər formada cəzalandırır.[464]

Yuxarıdakıları nəzərə alaraq, BMTQAK hesab edir ki, insan alverinə məruz qalma və borc müqabilində işləməyə məcbur edilmə qarşısında müdafiəsiz olduqları konkret sosial-iqtisadi şəraitdə insanlar, xüsusən qadınlar və uşaqlar müəyyən sosial qrupa mənsub olmalarına və ya digər müvafiq səbəblərə görə, hər bir işin konkret hallarından asılı olaraq, qaçqınlar üçün

---

*Slavery in Afghanistan*, 2013, https://www.iom.int/files/live/sites/iom/files/Country/docs/IOM-Afghanistan-CT-Report-2014.pdf, p. 49.

[460] US Department of State, *2015 Country Reports on Human Rights Practices - Afghanistan*, 13 April 2016, http://www.refworld.org/docid/5711040d4.html; US Department of State, *2015 Trafficking in Persons Report - Afghanistan*, 27 July 2015, http://www.refworld.org/docid/55b73c1e31.html. Məlumatlara əsasən belə işçilərin çoxu xəsarətlər alır və pis iş şəraiti ucbatından səhhətləri ilə bağlı problemləri olur və borc ödənişlərini və tibbi xərcləri ödəmək üçün götürdükləri əlavə borclar onları işəgötürəndən daha da asılı hala salır. ILO, *Breaking the Mould: Occupational Safety Hazards Faced by Children Working in Brick Kilns in Afghanistan*, 13 April 2015, http://www.ilo.org/ipecinfo/product/download.do?type=document&id=25295.

[461] Məcburi əmək 3 yanvar 2004-cü il tarixli Əfqanıstan Konstitusiyasının 49-cu maddəsinə əsasən qadağan olunub, http://www.refworld.org/docid/404d8a594.html. 14 iyul 2008-ci ildə "İnsan oğurluğu və insan alveri (insan qaçaqmalçılığı) ilə mübarizə haqqında" qanun prezident Kərzai tərəfindən imzalanaraq təsdiqlənib və rəsmi qəzetdə dərc olunub. Bax: AIHRC, *Report on the Situation of Economic and Social Rights in Afghanistan - IV*, December 2009, http://www.refworld.org/docid/4b3b2df72.html, p. 47. Bu qanun, eləcə də Cinayət Məcəlləsinin 516-cı maddəsi insan alveri vasitəsilə məcburi əməyə cəlb etmə əməlinə görə səkkiz ildən 15 ilədək azadlıqdan məhrumetmə cəzası nəzərdə tutur. "Qadınlara qarşı zorakılığın ləğv edilməsi haqqında" qanunda qadınların fahişəliyə məcbur edilməsinə görə maksimum 15 il azadlıqdan məhrumetmə cəzası nəzərdə tutulur.

[462] Yaradılması 2008-ci il qanununda nəzərdə tutulmuş İnsan oğurluğu və insan alveri (insan qaçaqmalçılığı) cinayətləri ilə mübarizə üzrə yüksək komissiya 2012-ci ilin yanvarında funksiyasının icrasına başladı. Məlumatlara əsasən Komissiya cinayətkarların təqibində və insan alverinin qarşısının alınmasında müəyyən irəliləyişə nail olsa da, qərarlarının və göstərişlərinin yetərincə icra edilməməsi onun fəaliyyətini məhdudlaşdırır. Bax: US Department of State, *2015 Trafficking in Persons Report - Afghanistan*, 27 July 2015, http://www.refworld.org/docid/55b73c1e31.html; Samuel Hall Consulting, *Old Practice, New Chains: Modern Slavery in Afghanistan*, 2013, https://www.iom.int/files/live/sites/iom/files/Country/docs/IOM-Afghanistan-CT-Report-2014.pdf, p. 74; US Department of State, *2012 Trafficking in Persons Report - Afghanistan*, 19 June 2012, http://www.refworld.org/docid/4fe30cea3c.html. İnsan alveri termininin dari dilində anlayışının qeyri-müəyyən olması, məlumatlara əsasən, insan alverinin anlayışı ətrafında dolaşıqlıq yaradır və qanunun səmərəliliyinə xələl gətirir. Samuel Hall Consulting, *ibid.*, p. 10. Əfqanıstan Müstəqil Vəkillər Assosiasiyasından olan müdafiəçi 2014-cü ilin yanvarında Kabulda keçirilmiş insan alverinə dair milli seminarda qeyd etdi ki, insan alverinə dair qanunvericilik düzgün icra edilmir və insan alverinin qadın qurbanlarına polis və məhkəmələr tərəfindən lazımi yardım göstərilmir. European Union Police Mission in Afghanistan, *National Human Trafficking Seminar*, 23 January 2014, http://www.eupol-afg.eu/node/52.

[463] ƏMİHK-nın bildirdiyinə görə, uşaqbazlıq əməlini törədənlər cinayət təqibindən yaxa qurtarmaq üçün rüşvət verə və ya məmurlarla əlaqələrindən istifadə edə bilərlər. Bəzi hallarda polisin, məhkəmə orqanlarının və ədliyyə departamentlərinin əməkdaşları, məlumatlara görə, uşaqbazlıq əməllərində iştirak edirlər. AIHRC, *Causes and Consequences of Bacha Bazi in Afghanistan*, August 2014, http://www.aihrc.org.af/home/research-reports/3324, pp. 63-64. Həmçinin bax: US Department of State, *2015 Trafficking in Persons Report - Afghanistan*, 27 July 2015, http://www.refworld.org/docid/55b73c1e31.html; Afghan Zariza, *Scourge of Human Trafficking and Modern-Day Slavery in Afghanistan*, 23 November 2013, http://www.afghanzariza.com/2014/11/23/scourge-of-human-trafficking-and-modernday-slavery-in-afghanistan.

[464] US Department of State, *2015 Trafficking in Persons Report - Afghanistan*, 27 July 2015, http://www.refworld.org/docid/55b73c1e31.html; Samuel Hall Consulting, *Old Practice, New Chains: Modern Slavery in Afghanistan*, 2013, https://www.iom.int/files/live/sites/iom/files/Country/docs/IOM-Afghanistan-CT-Report-2014.pdf, p. 64.

nəzərdə tutulan beynəlxalq müdafiəyə (himayəyə) ehtiyac duya bilərlər. Bu şəxslər sırasına insan alverinin sağ qalmış qurbanları və ya borc müqabilində işləməyə məcbur edilmiş və bu səbəbdən təkrarən insan alverinə məruz qalma və ya borc müqabilində işləməyə məcbur edilmə qarşısında müdafiəsiz vəziyyətdə olan şəxslər də daxildir.[465]

### *12. Seksual oriyentasiyası və (və ya) cinsi identikliyi fərqli olan şəxslər*

Eyni cinsin nümayəndələrinin qarşılıqlı razılıq əsasında cinsi münasibətlərdə olması Əfqanıstanda qanuna ziddir və Əfqanıstan Cinayət Məcəlləsinə əsasən "uzun müddətə azadlıqdan məhrum edilmə" ilə cəzalandırılır.[466] Şiə hüququna əsasən, eyni cinsin nümayəndələrinin cinsi münasibətlərdə olmasına görə maksimal cəza ölüm cəzasıdır, lakin məlumatlara görə, Talibanın devrilməsindən sonra cinsi münasibətlərdə olan eyni cinsə mənsub şəxslər barəsində məhkəmələr tərəfindən ölüm hökmü çıxarılmayıb.[467]

Homoseksualizm ətrafında ictimai qadağalar güclü olaraq qalır.[468] Məlumatlara görə gey kişilər və oğlanlar, habelə gey olduğu güman edilənlər müxtəlif şəxslər tərəfindən, o cümlədən dövlət

---

[465] UNHCR, *Guidelines on International Protection No. 7: The Application of Article 1A(2) of the 1951 Convention and/or 1967 Protocol Relating to the Status of Refugees to Victims of Trafficking and Persons At Risk of Being Trafficked*, 7 April 2006, HCR/GIP/06/07, http://www.refworld.org/docid/443679fa4.html.

[466] 7 oktyabr 1976-cı il tarixli Əfqanıstan Cinayət Məcəlləsinin 427-ci maddəsi. Cinayət Məcəlləsinin ingiliscə mətnini bu saytda tapmaq olar: http://www.refworld.org/docid/4c58395a2.html. 2014-cü ildə Universal Dövri İcmal mexanizmi çərçivəsində Əfqanıstan "seksual oriyentasiyanın və (və ya) cinsi identikliyin fərqliliyinə əsaslanan ayrı-seçkiliyin yolverilməzliyini təmin etmək və eyni cinsə mənsub olan yetkinlik yaşına çatmış şəxslər arasında qarşılıqlı razılıq əsasında cinsi münasibətdə olmanı cinayət kimi müəyyən edən cinayət məcəlləsi normalarını ləğv etmək" barədə Norveçin tövsiyəsini qəbul etmədi. Bax: UN Human Rights Council, *Report of the Working Group on the Universal Periodic Review: Afghanistan*, 4 April 2014, http://www.refworld.org/docid/539064f14.html; UN Human Rights Council, *Report of the Working Group on the Universal Periodic Review: Afghanistan Addendum*, 16 June 2014, http://www.refworld.org/docid/5671934a4.html. Həmçinin bax: US Department of State, *2015 Country Reports on Human Rights Practices - Afghanistan*, 13 April 2016, http://www.refworld.org/docid/5711040d4.html; International Lesbian, Gay, Bisexual, Trans and Intersex Association, *State-Sponsored Homophobia – A World Survey of Laws Prohibiting Same Sex Activity between Consenting Adults*, May 2015, http://old.ilga.org/Statehomophobia/ILGA_State_Sponsored_Homophobia_2015.pdf, p. 69; Swedish International Development Cooperation Agency (SIDA), *The Rights of LGBTI Persons in Afghanistan*, November 2014, http://www.sida.se/globalassets/sida/eng/partners/human-rights-based-approach/lgbti/rights-of-lgbt-persons-afghanistan.pdf. Qeyd etmək lazımdır ki, məlumatlara əsasən Əfqanıstan cəmiyyətinin müəyyən təbəqələrində kişilər arasında cinsi aktlar o qədər də az baş vermir. Lakin məlumatlara görə kişilər digər kişilərlə cinsi aktda olma ilə digər kişiyə qarşı sevgi hissi keçirmək arasında fərq qoyurlar, belə ki, sonuncu islamda günah sayılır və şəriət hüququna əsasən cəzalandırılır. Misal üçün bu mənbələrə bax: Afghanistan Human Terrain Team, *Pashtun Sexuality: Research Update and Findings (Unclassified)*, 2009, http://info.publicintelligence.net/HTT-PashtunSexuality.pdf; Shivananda Khan, *Everybody Knows, But Nobody Knows: Desk Review of Current Literature on HIV and Male-Male Sexualities, Behaviours and Sexual Exploitation in Afghanistan* (London: Naz Foundation International), September 2008, http://www.aidsdatahub.org/dmdocuments/Everybody_knows_but_nobody_knows_Afghan_Review.pdf.pdf, pp. 22, 29; and Shivananda Khan, *Rapid Assessment of Male Vulnerabilities to HIV and Sexual Exploitation in Afghanistan* (London: Naz Foundation International), 30 March 2009, http://www.aidsdatahub.org/dmdocuments/Rapid_Assessment_of_Male_Vulnerabilities_to_HIV_and_Sexual_Exploitation_in_Afghanistan_2009.pdf.pdf, pp. 17, 63.

[467] International Lesbian, Gay, Bisexual, Trans and Intersex Association, *State-Sponsored Homophobia – A World Survey of Laws Prohibiting Same Sex Activity between Consenting Adults*, May 2015, http://old.ilga.org/Statehomophobia/ILGA_State_Sponsored_Homophobia_2015.pdf, p. 69. Həmçinin bax: UNICEF, *Child Notice Afghanistan*, November 2015, http://www.refworld.org/docid/566e68344.html, p. 36.

[468] Əfqanıstanda yaşı 15 və daha yuxarı olan 1.000-ə yaxın şəxslə "Gellap" (*Gallup*) şirkəti tərəfindən 2009 və 2013-cü illərdə telefonla və üzbəüz aparılmış müsahibələrə əsasən, respondentlərin 89 faizi deyiblər ki, Əfqanıstan "gey və ya lesbiyan insanların yaşaması üçün münasib yer deyil". Gallup, *Nearly 3 in 10 Worldwide See Their Areas as Good for Gays*, 27 August 2014, http://www.gallup.com/poll/175520/nearly-worldwide-areas-goodgays.aspx. Əfqanıstan hökumətinin QİÇS-ə reaksiya olaraq həyata keçirilmiş qlobal tədbirlərdə əldə edilən irəliləyişlərə dar təqdim etdiyi üçüncü hesabatda kişilərlə cinsi əlaqədə olan əfqan kişilərin sayı barəsində məlumat çox azdır, bunun səbəbi qismən bu insanların ağır şəkildə "damğalanması və ayrı-seçkiliyə məruz qalmasıdır". Ministry of Public Health of Islamic Republic of Afghanistan - National AIDS Control Program (NACP), *Country Progress Report 2014: Afghanistan*, 31 March 2014,

orqanları, öz ailə üzvləri və icma üzvləri tərəfindən, eləcə də AHE-lər tərəfindən ayrı-seçkilik və zorakılıqla üzləşirlər.[469] Məlumatlara əsasən polislər şəxsləri real və ya güman edilən seksual oriyentasiyalarına görə təqib edir, zorakılığa məruz qoyur və həbsə alırlar; iddialara görə polis əməkdaşları həm də gey kişiləri soyur və zorlayırlar.[470] Seksual oriyentasiyası fərqli olan şəxslərin hüquqlarının müdafiəsi ilə məşğul olan təşkilatlar, məlumatlara görə, gizli fəaliyyət göstərməli olurlar.[471]

Eyni cinsdən olanların cinsi münasibətləri ilə bağlı cəmiyyətdə geniş yayılmış qadağaları nəzərə alsaq, Əfqanıstanda seksual oriyentasiyası fərqli olan şəxslərlə necə davranıldığı barədə məlumatlar çox azdır. Bu azacıq məlumatlar gey kişilər barəsindədir; lesbiyan və biseksual şəxslərin vəziyyəti barədə məlumatlar isə əsasən qeydə alınmır. Eynilə, transgenderlərin vəziyyəti barədə məlumatlar da azdır. Məlumatların olmaması elə başa düşülməməlidir ki, seksual oriyentasiyası və (və ya) cinsi identikliyi fərqli olan şəxslər üçün heç bir risk mövcud deyil.

Eyni cinsə mənsub olanların cinsi münasibətlərinə ciddi ictimai qadağaların qoyulduğunu, habelə bu münasibətlərin cinayət sayıldığını nəzərə alaraq, BMTQAK hesab edir ki, seksual oriyentasiyası və (və ya) cinsi identikliyi fərqli olan şəxslər seksual oriyentasiyaları və (və ya) cinsi identiklikləri əsasında müəyyən sosial qrupa mənsub olmalarına görə qaçqınlar üçün nəzərdə tutulan beynəlxalq müdafiəyə (himayəyə) ehtiyac duya bilərlər, çünki onlar hökm sürən hüquqi, dini və sosial normalara uyğun gəlmirlər və ya uyğun gəlməyən şəxslər hesab edilirlər. Onlar həmçinin digər müvafiq səbəblərə görə də beynəlxalq müdafiəyə (himayəyə) ehtiyac duya bilərlər. Seksual oriyentasiyasının və (və ya) cinsi identikliyinin fərqli olduğu güman edilən şəxslər də eyni səbəblərə görə beynəlxalq müdafiəyə (himayəyə) ehtiyac duya bilərlər.

Nəzərə almaq lazımdır ki, seksual oriyentasiyası və (və ya) cinsi identikliyi fərqli olan şəxslərin onlara qarşı təqiblərdən yaxa qurtarmaq üçün cinsi identikliklərini dəyişəcəklərini və ya gizlədəcəklərini gözləmək düzgün deyil.[472] Bundan başqa, eyni cinsə mənsub olanların cinsi münasibətləri ilə əlaqədar ciddi cinayət sanksiyalarının mövcudluğu, o cümlədən qeyri-dövlət subyektləri, məsələn, ailə və ya icma üzvləri tərəfindən onlara qarşı təqiblərin olması da cinsi identiklikləri fərqli olan şəxslərin dövlət tərəfindən müdafiəsinə əngəl törədir.[473]

---

http://www.unaids.org/sites/default/files/country/documents/AFG_narrative_report_2014.pdf, p. 13. Həmçinin bax: US Department of State, *2015 Country Reports on Human Rights Practices - Afghanistan*, 13 April 2016, http://www.refworld.org/docid/5711040d4.html.

[469] İŞİD-lə əlaqəli olan qrupların üzvləri, məlumatlara görə, yeniyetmə oğlanı gey olmaqda ittiham etdikdən sonra edam ediblər. Məlumatlara əsasən oğlan İŞİD komandiri tərəfindən zorlanmışdı. Khaama Press, *ISIS Throw Teen Boy Off a Roof for Being Gay But Spares His Alleged Rapist*, 4 January 2016, http://www.khaama.com/isis-throw-teen-boy-off-a-roof-for-being-gay-but-spares-his-alleged-rapist-1920. UNAMA məlumat verib ki, 14 avqust 2015-ci ildə paralel ədliyyə strukturu olan "məhkəmə" iki kişini və 17 yaşlı oğlanı homoseksual olduqlarına görə divar altında əzməklə ölüm cəzasına məhkum etdi. Yıxılan divar iki kişini öldürdü, oğlanı isə yaraladı və onun yaşamasına icazə verildi. UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, p. 51. Həmçinin bax: US Department of State, *2015 Country Reports on Human Rights Practices - Afghanistan*, 13 April 2016, http://www.refworld.org/docid/5711040d4.html. Şəriət hüququna zidd davrandıqları hesab edilən şəxslərin vəziyyəti ilə əlaqədar əlavə təhlil üçün III.A.5 bölməsinə bax. Taliban tərəfindən şərh olunan islam prinsiplərinə, normalarına və dəyərlərinə zidd davrandıqları hesab edilən şəxslərin vəziyyəti ilə əlaqədar əlavə təhlil üçün III.A.6 bölməsinə bax.

[470] Bax: US Department of State, *2015 Country Reports on Human Rights Practices - Afghanistan*, 13 April 2016, http://www.refworld.org/docid/5711040d4.html; Freedom House, *Freedom in the World 2015 - Afghanistan*, 20 March 2015, http://www.refworld.org/docid/55116f4111.html.

[471] US Department of State, *2015 Country Reports on Human Rights Practices - Afghanistan*, 13 April 2016, http://www.refworld.org/docid/5711040d4.html.

[472] Misal üçün bax: Court of Justice of the European Union, *X, Y, Z v Minister voor Immigratie en Asiel*, C-199/12 to C-201/12, 7 November 2013, http://www.refworld.org/docid/527b94b14.html.

[473] Seksual oriyentasiyaları və (və ya) cinsi identiklikləri fərqli olan şəxslərin qaçqın statusu üçün müraciətləri ilə bağlı əlavə tövsiyələr üçün bax: UNHCR, *Guidelines on International Protection No. 9: Claims to Refugee Status based on Sexual Orientation and/or Gender Identity within the context of Article 1A(2) of the 1951 Convention*

### *13. (Azlıqda olan) etnik qrupların üzvləri*

Əfqanıstan əhalisi bir sıra müxtəlif etnik qruplardan ibarətdir və onlar ənənəvi olaraq mərkəzi hökumət qarşısında geniş muxtariyyətlərini saxlayırlar.[474] Tarix boyu istər məcburi, istərsə də könüllü surətdə baş verən müxtəlif əhali köçləri nəticəsində indi bəzi etnik qrupların üzvləri ənənəvi olaraq çoxluq təşkil etdikləri ərazilərdən kənarda yaşayırlar.[475] Buna görə də ölkənin ən böyük etnik qruplarından birinə mənsub olan şəxslər yaşadıqları ərazidə faktiki olaraq azlıq təşkil edən etnik qrupa mənsub ola və müvafiq olaraq, yaşadıqları ərazidə etnik mənsubiyyətləri ucbatından ayrı-seçkiliklə və ya pis rəftarla üzləşə bilərlər.[476] Ümummilli səviyyədə azlıq təşkil

---

*and/or its 1967 Protocol relating to the Status of Refugees*, 23 October 2012, HCR/GIP/12/01, http://www.refworld.org/docid/50348afc2.html. Həmçinin bax: Court of Justice of the European Union, *A, B, C v. Staatssecretaris van Veiligheid en Justitie*, C-148/13 to C-150/13, 2 December 2014, http://www.refworld.org/docid/547d943da.html.

[474] "Əfqanıstan əhalisinin tam siyahıya alınması heç vaxt aparılmayıb, amma 1979-cu ildə digər müvafiq məlumatlar da nəzərə alınmaqla aparılmış qismən siyahıyaalmanın nəticələrinə görə, əhalinin sayı, 800.000 nəfərə yaxın köçərilər də daxil olmaqla, təxminən 13,05 milyon idi (*Eighmy, 1990: 10*). Bu əhali qətiyyən yekcins deyil və bəzən hətta onun barəsində "əfqan cəmiyyəti" ifadəsini işlətmək də düzgün deyil, çünki bu termin müəyyən dərəcədə vəhdət təşkil edən strukturu nəzərdə tutur, bu halda isə əslində belə vəhdət yoxdur. Əksinə, Əfqanıstan "mikrocəmiyyətlərin" kaleydoskopik toplusunu təşkil edir (çox vaxt bu toplunu "qövm", yaxud "toplum" adlandırırlar), bunlar elə cəmiyyətlərdir ki, aralarındakı sərhədlər məsaməli və dəyişkəndir. Hətta bir alim daha da uzağa gedərək Əfqanıstanı "azlıqların cəmiyyəti" adlandırıb (*Jawad, 1992*). Etnik və dini mənsubiyyət, işğallar və cinsi mənsubiyyət tarixən əfqanlar üçün elə bir geniş bünövrə təşkil edib ki, onlar bu bünövrənin üzərində digər əfqanlara öz həmvətənləri kimi baxa bilərlər və bu əlamətlərin bəziləri sarsılmaz (yəni dəyişməsi mümkün olmayan, yaxud böyük ictimai sarsıntılar bahasına dəyişdirilə bilən) olsa da, həmin əlamətlərin birinə nisbətən digərinə üstünlük verilməsi çox vaxt strateji seçim məsələsidir (...). Əfqanıstan hər şeydən əvvəl çoxmillətli ölkədir". Yuxarıdakı sitatın müəllifi Uilyam Meylinin (*William Maley*) qeyd etdiyi kimi, 1979-cu ildəki qismən siyahıyaalmadan bəri ölkədə əhalinin siyahıya alınması aparılmayıb, amma həmin siyahıyaalma Sovet İttifaqının müdaxiləsi ucbatından natamam olub. 1979-cu ildəki siyahıyaalmanın rəqəmlərinə istinadən mənbələrin apardığı hesablamalara görə, hazırda Əfqanıstan əhalisi 32,6 milyondur. Bax: US Central Intelligence Agency, *CIA Factbook: Afghanistan*, https://www.cia.gov/library/publications/the-world-factbook/geos/af.html. ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin beynəlxalq soraq kitabında qeyd edilir ki, "hazırda Əfqanıstanda həssas mövzu olan etnik mənsubiyyət barədə statistik məlumatlar əldə etmək imkanı yoxdur, rəy sorğularında respondentlərin cavablarının azsaylı nümunələrində yer alan etnik mənsubiyyət barədə məlumatlar isə mötəbər alternativ sayıla bilməz". *Ibid.* Həmçinin bax: Civil-Military Fusion Centre, *Afghanistan Ethnic Groups: A Brief Investigation*, August 2011, http://reliefweb.int/report/afghanistan/afghan-ethnic-groups-brief-investigation. Asiya Fondu məlumat verib ki, ölkənin bütün 34 vilayətində yaşayan və 2015-ci il sorğusunun məqsədləri üçün müsahibə aparılan 9.586 əfqanıstanlının 40 faizi puştu, 34 faizi tacik, 11 faizi xəzər, səkkiz faizi özbək, iki faizi isə türkmən olduqlarını bildiriblər. Digər qruplara (respondentlərin bir faizi və ya daha az qismi) isə ərəb və bəluc qrupları daxildir. Bax: Asia Foundation, *Afghanistan in 2015: A Survey of the Afghan People*, November 2015, http://asiafoundation.org/resources/pdfs/Afghanistanin2015.pdf, pp. 166-167. Əfqanıstanın etnik qruplarının coğrafi bölgüsünü göstərən ətraflı xəritəni bu mənbədən tapmaq olar: Congressional Research Service, *Afghanistan: Post-Taliban Governance, Security, and U.S. Policy*, 22 December 2015, http://www.fas.org/sgp/crs/row/RL30588.pdf, p. 75, Figure 2: “Map of Afghan Ethnicities”. Əfqanıstan Konstitusiyasında deyilir ki, "Əfqanıstan xalqı puştu, tacik, xəzər, özbək, türkmən, bəluc, paşayi, nuristanlı, aymak, ərəb, qırğız, qızılbaş, güyur, brahvuyi və digər tayfalardan ibarətdir". Constitution of Afghanistan, 3 January 2004, http://www.refworld.org/docid/404d8a594.html, Article 4.

[475] Misal üçün, Əbdürrəhman Xan (1880-1901-ci illərdə Əfqanıstanda hökmranlıq edib) problemlər yaradan dürrani və gilzayi tayfalarından olan puştuları şimalda özbəklərin və taciklərin məskunlaşdığı ərazilərə köçürüb və orada onları qeyri-puştu əhalisi arasında səpələyərək Rəhmanın mərkəzi hökumətindən asılı hala salıb. Həmçinin Rəhman on minlərlə puştu döyüşçüsünü Xəzəracatda şiə xəzərlərə və Kafiristanda (indiki Nuristan) animist tayfalara qarşı islami cihada səfərbər edib. Puştu döyüşçülərinə fəth etdikləri bölgələrdə ələ keçmiş qənimətlər və torpaq sahələri bağışlanıb. Tacik, özbək və xəzərlərin məskunlaşdığı ərazilərə puştuların ikinci miqrasiya dalğası 20-ci əsrin ikinci rübündə baş verib, belə ki, bu zaman hökumət gilzayi tayfasından olan minlərlə torpaqsız puştu ailələrini şimala köçürüb və şimaldakı azlıqlar yüzilliklər boyu məskunlaşdıqları kənd təsərrüfatı və otlaqlar üçün yararlı olan torpaqlardan məhrum olublar. Misal üçün bax: Peter Tomsen, *The Wars of Afghanistan*, New York: Public Affairs, 2011, pp. 42, 53, 80.

[476] Əfqanıstanın şimalındakı puştular buna misal ola bilər, onlar ənənəvi olaraq özbəklərin və taciklərin məskunlaşdığı ərazilərə on doqquzuncu və iyirminci əsrlərdə hökumət tərəfindən köçürülmüş puştuların sonrakı nəsilləridir. 2001-ci ildə Taliban rejimi devrildikdən sonra Əfqanıstanın şimalından olan və orada etnik azlıq təşkil

edən etnik qrupun və ya tayfanın üzvləri isə, əksinə, həmin etnik qrupun və ya tayfanın lokal səviyyədə çoxluq təşkil etdiyi ərazilərdə yaşadıqda etnik mənsubiyyətlərinə görə ayrı-seçkiliklə üzləşməyə bilərlər.

Onu da qeyd etmək lazımdır ki, müxtəlif etnik qruplar homogen (yekcins) icmalar olmaya da bilər. Məsələn, puştuların tərkibindəki müxtəlif kiçik qruplar arasında ciddi rəqabət gərginlik və münaqişələrə səbəb ola bilər.[477]

Həmçinin qeyd etmək lazımdır ki, etnik mənsubiyyətlə dini mənsubiyyət çox vaxt qırılmaz surətdə əlaqəlidir, xüsusən də böyük əksəriyyəti şiələrdən ibarət olan xəzər etnik qrupunda belədir. Nəticədə müəyyən insidentlərin və ya gərginliklərin arxasında dayanan əsas elementin dini, yoxsa etnik mənsubiyyət olduğunu heç də bütün hallarda fərqləndirmək olmur.[478] Eynilə, siyasi loyallıq çox vaxt etnik mənsubiyyətdən qaynaqlandığına görə, müxtəlif qruplar arasında münaqişə və gərginliklər zamanı (güman edilən) siyasi baxışlar və etnik mənsubiyyət bir-biri ilə qırılmaz surətdə əlaqəli olan elementlər sayıla bilər.[479]

Əfqanıstanda etnik bölgü güclü olaraq qalır. Azlıqların Hüquqları üzrə Beynəlxalq Qrupun (*Minority Rights Group International*) tərtib etdiyi Təhlükə İndeksinə daxil edilən xalqların siyahısında Əfqanıstan etnik azlıqlar üçün dünyada ən təhlükəli ölkələr sırasında üçüncüdür, xüsusən ona görə ki, burada fərdlər etnik və dini mənsubiyyətlərinə görə hücumlara məruz qalırlar. Bu İndeksdə konkret olaraq xəzərlər, puştular, taciklər, özbəklər, türkmənlər və bəluclar Əfqanıstanda risk atlında olan etnik azlıqlar kimi göstərilir.[480]

---

edən çoxlu sayda puştular Taliban rejimi ilə əlbir olduqları güman edildiyinə görə onlara qarşı baş vermiş etnik zorakılıqlar ucbatından məcburi qaydada köçürülüblər. Köçənlərin bir qisminin torpaq və əmlaklarını geri tələb etməsi problem olaraq qalır. Internal Displacement Monitoring Centre, *Afghanistan: Durable Solutions Far From Reach Amid Escalating Conflict*, 16 April 2012, http://www.refworld.org/docid/511e50cd2.html; Minority Rights Group International, *Pashtuns*, undated; page accessed 8 March 2016, http://minorityrights.org/minorities/pashtuns/; HRW, *Paying for the Taliban's Crimes: Abuses Against Ethnic Pashtuns in Northern Afghanistan*, 9 April 2002, http://www.refworld.org/docid/3cb2ad007.html. Həmçinin bax: Country of Origin Research and Information (CORI), *Afghanistan: COI Relating to Pashtuns*, 20 January 2015, http://www.refworld.org/docid/54f9c87e4.html; Secure Livelihoods Research Consortium (Adam Pain), *Livelihoods, Basic Services and Social Protection in Afghanistan*, July 2012, http://www.odi.org.uk/sites/odi.org.uk/files/odi-assets/publications-opinion-files/7718.pdf, p. 4. Beynəlxalq Böhran Qrupu qeyd edir ki, çoxluq təşkil edən müəyyən azlıq qruplarının təmsilçilərinin təhlükəsizlik qüvvələrində azlıq təşkil etməsi əhali arasında gərginlik yaradır. International Crisis Group, *The Future of the Afghan Local Police*, 4 June 2015, http://www.refworld.org/docid/55702a544.html, pp. 15-16.

[477] Misal üçün bax: CORI, *Afghanistan: COI Relating to Pashtuns*, 20 January 2015, http://www.refworld.org/docid/54f9c87e4.html; Minority Rights Group International, *Afghanistan – Pashtuns*, undated, page accessed 8 March 2016, http://minorityrights.org/minorities/pashtuns/; Civil-Military Fusion Centre, *Afghanistan Ethnic Groups: A Brief Investigation*, August 2011, http://reliefweb.int/report/afghanistan/afghanethnic-groups-brief-investigation; Tribal Analysis Center, *Pashtun Tribal Dynamics*, October 2009, http://www.tribalanalysiscenter.com/PDF-TAC/Pashtun%20Tribal%20Dynamics.pdf.

[478] Misal üçün bax: US Department of State *2014 Report on International Religious Freedom - Afghanistan*, 14 October 2015, http://www.refworld.org/docid/562105e015.html; Civil-Military Fusion Centre, *Afghanistan Ethnic Groups: A Brief Investigation*, August 2011, http://reliefweb.int/report/afghanistan/afghan-ethnic-groups-brief-investigation.

[479] Misal üçün bax: Congressional Research Service, *Afghanistan: Politics, Elections, and Government Performance*, 12 January 2015, http://www.fas.org/sgp/crs/row/RS21922.pdf, p. 2; International Crisis Group, *Afghanistan's Political Transition*, 16 October 2014, http://www.refworld.org/docid/543f9dfc4.html, p. 26. Risk altında olan müvafiq şəxslərlə bağlı əlavə təhlili III.A.1 və III.A.5 bölmələrində tapmaq olar.

[480] Minority Rights Group International, *Peoples Under Threat 2015*, undated, page accessed 8 March 2016, http://peoplesunderthreat.org/countries/afghanistan/. Qeyd etmək lazımdır ki, bütün müşahidəçilər müəyyən zorakılıq hallarının etnik zəmində baş verən zorakılıqlara aid edilməsi ilə razılaşırlar. Belə ki, Konqressin Tədqiqatlar Xidməti bildirir ki, "Talibanın devrilməsindən bəri etnik zəmində çox az sayda zorakılıq halları baş verib, amma başqa etnik icmalarla etnik qısqanclıq və tarixi mübahisələr nəticəsində bəzən toqquşmalar baş verir". Bütün etnik qruplar bütün səviyyələrdə mərkəzi hakimiyyətdə təmsil olunurlar və hər bir qrup özünün regionunda hökumət proqramlarının necə yerinə yetirilməsi üzərində xeyli dərəcədə nəzarətə malikdir. Əfqanıstan prezidenti vilayət və rayon qubernatorlarını təyin etmək səlahiyyətinə malik olsa da, praktikada belə bir qeyri-rəsmi anlaşma var ki, etnik mənsubiyyətləri konkret vilayətin çoxluq təşkil edən əhalisinin etnik mənsubiyyətindən fərqli olan şəxslər oraya qubernator təyin edilməsinlər". Congressional Research Service, *Afghanistan: Politics, Elections, and Government Performance*, 12 January 2015, http://www.fas.org/sgp/crs/row/RS21922.pdf, p. 2.

Konstitusiya "bütün etnik qruplar və tayfalar arasında bərabərliyi" təmin edir.[481] Lakin müəyyən etnik qrupların üzvləri dövlət tərəfindən ayrı-seçkiliyə məruz qalmalarından, o cümlədən azlıqda olduqları ərazilərdə yerli dövlət qulluğuna daxil olmaq imkanlarının qeyri-bərabərliyi formasında ayrı-seçkiliyin olmasından şikayətlənirlər.[482]

*a) Kuçilər*

Əfqanıstanda köçəri əhali kuçi adı ilə tanınır; onlar marginallaşmış qrup təşkil edirlər.[483] Kuçilərin çoxu etnik puştulardır.[484] 2001-ci ildə Taliban rejimi devrildikdən bəri, məlumatlara görə, kuçilər barəsindəki insan inkişafı indikatorları digər etnik qrupların göstəricilərindən xeyli geri qalır, onlar Əfqanıstanın ən yoxsul əhalisi sırasındadırlar.[485] Ənənəvi olaraq, kuçilər köçəridirlər, amma onların çoxunun hazırda qəsəbələrdə, kəndlərdə və ya iri şəhərlərin ətraf yerlərində məskunlaşdığı bildirilir.[486] Konstitusiyada nəzərdə tutulur ki, dövlət köçərilərin

---

[481] 3 yanvar 2004-cü il tarixli Əfqanıstan Konstitusiyasının 6-cı maddəsi, http://www.refworld.org/docid/404d8a594.html).

[482] US Department of State, *2015 Country Reports on Human Rights Practices - Afghanistan*, 13 April 2016, http://www.refworld.org/docid/5711040d4.html. Həmçinin bax: Minority Rights Group International, *Afghanistan – Governance*, undated; page accessed 8 March 2016, http://minorityrights.org/country/afghanistan/.

[483] Bu faktı belə bir hal da təsdiq edir ki, milli məclisin aşağı palatasında kuçilər üçün on, yuxarı palatasında isə iki deputat yeri ayrılıb. AAN, *New Building, Old MPs: A Guide to the Afghan Parliament*, 4 February 2016, https://www.afghanistan-analysts.org/new-buildingold-mps-a-guide-to-the-afghan-parliament/. ATQB qeyd edir ki, "2005-ci ildən bəri parlament üzvləri kuçilərə deputat yeri ayrılmasının qəti əleyhinə çıxıblar". AREU, *The A to Z Guide to Assistance in Afghanistan*, 2015, http://www.refworld.org/docid/5507ebe94.html, p. 76.

[484] Kuçilər arasında azlıq təşkil edənlər etnik aymaklar, bəluclar, qırğızlar, türkmənlər və özbəklərdir. Richard Tapper, “Who are the Kuchi? Nomad Self-Identities in Afghanistan”, *Journal of the Royal Anthropological Institute (N.S.)* Vol. 14, 2008, pp. 97-116, http://www.nomadsed.de/fileadmin/user_upload/redakteure/Dateien_Intern/Archiv_AG_1/Tapper_Kuchi_2008.pdf, pp. 99-100.

[485] Samuel Hall Consulting, *State of Afghan Cities 2015 – Vol. 1*, September 2015, http://samuelhall.org/wp-content/uploads/2015/09/State-of-Afghan-Cities-2015-Volume_1.pdf, p. 21; Minority Rights Group International, *Kuchis*, undated; page accessed 8 March 2016, http://minorityrights.org/minorities/kuchis/; AIHRC, *Fifth Report: Situation of Economic and Social Rights in Afghanistan*, December 2011, http://www.refworld.org/docid/511e58cf0.html, p. 114; Civil-Military Fusion Centre, *Afghanistan Ethnic Groups: A Brief Investigation*, August 2011, http://reliefweb.int/report/afghanistan/afghan-ethnic-groups-brief-investigation, p. 3.

[486] Əfqanıstanda kuçilərin sayı barədə mötəbər statistika yoxdur, hesablamalarda onların sayı 1,5 milyondan 2-3 milyonadək dəyişir. AIHRC, *Fifth Report: Situation of Economic and Social Rights in Afghanistan*, December 2011, http://www.refworld.org/docid/511e58cf0.html, p. 113; Civil-Military Fusion Centre, *Afghanistan Ethnic Groups: A Brief Investigation*, August 2011, http://reliefweb.int/report/afghanistan/afghan-ethnic-groups-brief-investigation, p. 3. ƏMİHK məlumat verir ki, kuçilərin 80 faizindən çoxu şəhər və kəndlərdə daimi məskunlaşıblar, 18 faizə qədəri isə yarımköçəri vəziyyətdədirlər: onlar məskunlaşıblar, amma ilin müəyyən vaxtlarında heyvanları ilə birlikdə köç edirlər. Kuçilərin yalnız iki faizə qədəri hələ də tam köçəridirlər və daimi yaşayış yerləri yoxdur. AIHRC, *ibid.* Çoxları iri şəhərlərin, xüsusən Kabulun ətrafındakı ərazilərdə məskunlaşırlar. Məlumatlara görə, oturaqlaşmış kuçilərin zəruri xidmətlərə, o cümlədən içməli suya çıxışı yoxdur və yerli əhalinin onlara münasibəti mənfidir. Minority Rights Group International, *State of the World's Minorities and Indigenous Peoples 2015 - Afghanistan*, 2 July 2015, http://www.refworld.org/docid/55a4fa6915.html; AAN, *The Social Wandering of the Afghan Kuchi*, November 2013, http://www.afghanistan-analysts.org/wpcontent/uploads/2013/11/20131125_FFoschini-Kuchis.pdf. Bu məskənlərin çoxu "qanunsuz yaşayış məskənləri" deyilən ərazilərdədir, buralar şəhər planlaşdırmasının aparılmadığı və torpaqların xarakteristikasının tədqiq edilmədiyi və insan yaşayışı üçün münasib olmayan yerlərdir. Samuel Hall Consulting, *State of Afghan Cities 2015 – Vol. 1*, September 2015, http://samuelhall.org/wp-content/uploads/2015/09/State-of-Afghan-Cities-2015-Volume_1.pdf, p. 76. 2015-ci ilin iyulunda Loqarda kuçilərlə kəndlilər arasında şiddətli toqquşmalarda altı nəfər xəsarət aldı. Germany: Federal Office for Migration and Asylum, *Information Centre Asylum and Migration Briefing Notes*, 27 July 2015, http://www.refworld.org/docid/55bf5dc64.html. Kuçilər və onların məskunlaşdığı yerlərə dair fotoreportaj üçün bax: Radio Free Europe / Radio Liberty, *Afghanistan's Kuchi Nomads Forced To Settle*, 18 September 2015, http://gandhara.rferl.mobi/a/afghanistan-societynomads/27256004.html.

yaşayışlarını və təhsil almaq imkanlarını yaxşılaşdırmaq üçün tədbirlər görməlidir (maddə 44).[487] Lakin Əfqanıstan Müstəqil İnsan Hüquqları Komissiyası (ƏMİHK) məlumat verir ki, hökumət kuçilər üçün səyyar məktəblər və klinikalar inşa etmək vədinə nadir hallarda əməl edir. Nəticədə köçəri kuçilər arasında savadlılıq faizi, məlumatlara görə, dünyada ən aşağıdır.[488] Kuçilərin səhiyyə xidmətlərindən istifadə imkanları da çox məhduddur.[489]

*b) Xəzərlər*

Məlumatlara əsasən xəzərlər də cəmiyyətdə davamlı ayrı-seçkiliyə, eləcə də qanunsuz vergilər vasitəsilə pulqoparmalara məruz qalır, məcburi qaydada döyüşçülər sırasına cəlb edilir, məcburi əməyə və fiziki zorakılıqlara məruz qalırlar.[490] Xəzər azlığı tarixən puştular tərəfindən aşağılanıb və ayrı-seçkiliyə məruz qoyulub. Məlumatlara görə onlar 2001-ci ildə Taliban rejiminin devrilməsindən bəri önəmli iqtisadi və siyasi nailiyyətlər əldə ediblər,[491] lakin son dövrlərdə onların Taliban və digər anti-hökumət elementləri tərəfindən təqiblərə, təhdidlərə məruz qalması, oğurlanması və qətlə yetirilməsi hallarının əhəmiyyətli dərəcədə artdığı bildirilir.[492]

---

[487] 3 yanvar 2004-cü il tarixli Əfqanıstan Konstitusiyasının 14-cü və 44-cü maddələri: http://www.refworld.org/docid/404d8a594.html. ƏMİHK məlumat verib ki, kuçilərin məskunlaşması barədə 1387-ci (2008-2009) ildə prezident Kərzainin qəbul etdiyi fərman icra edilməyib.

[488] AIHRC, *Fifth Report: Situation of Economic and Social Rights in Afghanistan*, December 2011, http://www.refworld.org/docid/511e58cf0.html, p. 115. Uşaq Hüquqları üzrə Komitə kuçi uşaqlarının təhsil alma problemləri ilə bağlı narahatlığını bildirib. CRC, *Consideration of Reports Submitted by States Parties under Article 44 of the Convention: Convention on the Rights of the Child: Concluding Observations: Afghanistan*, 8 April 2011, CRC/C/AFG/CO/1, http://www.refworld.org/docid/4dc7bd492.html, p. 61. Həmçinin bax: AAN, *The Social Wandering of the Afghan Kuchis*, November 2013, http://www.afghanistan-analysts.org/wpcontent/uploads/2013/11/20131125_FFoschini-Kuchis.pdf, p. 14.

[489] Nəticədə kuçi uşaqlarının peyvənd olunma faizi istər şəhər, istərsə də kənd yerlərində digər qruplara mənsub olan uşaqlarınkından xeyli aşağıdır. ƏMİHK məlumat verib ki, kuçi qadınlarının yalnız 17 faizi doğuşqabağı tibbi yardımla təmin edilirlər. AIHRC, *Fifth Report: Situation of Economic and Social Rights in Afghanistan*, December 2011, http://www.refworld.org/docid/511e58cf0.html, p. 114.

[490] US Department of State, *2015 Country Reports on Human Rights Practices - Afghanistan*, 13 April 2016, http://www.refworld.org/docid/5711040d4.html; Minority Rights Group International, *State of the World's Minorities and Indigenous Peoples 2015 - Afghanistan*, 2 July 2015, http://www.refworld.org/docid/55a4fa6915.html; Freedom House, *Freedom in the World 2015 - Afghanistan*, 20 March 2015, http://www.refworld.org/docid/55116f4111.html.

[491] Congressional Research Service, *Afghanistan: Politics, Elections, and Government Performance*, 12 January 2015, http://www.fas.org/sgp/crs/row/RS21922.pdf, p. 3. Həmçinin bax: New York Times, *Taliban Are Said to Target Hazaras to Try to Match ISIS' Brutality*, 22 April 2015, http://nyti.ms/1yRjE63; Ireland: Refugee Documentation Centre, *Afghanistan: Information on the Hazara*, 22 January 2014, http://www.refworld.org/docid/52fe0ba04.html, p. 1.

[492] Bax: UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, p. 49; Minority Rights Group International, *State of the World's Minorities and Indigenous Peoples 2015 - Afghanistan*, 2 July 2015, http://www.refworld.org/docid/55a4fa6915.html; US Department of State, *2014 Report on International Religious Freedom - Afghanistan*, 14 October 2015, http://www.refworld.org/docid/562105e015.html. 2015-ci ildə xəzərlərin oğurlanması hallarının artdığı barədə məlumat verilib, bu hallar xüsusən onların nəqliyyatla hərəkət etdikləri zaman baş verib. Məlumatlara əsasən 2015-ci ilin əvvəlində çoxlu sayda xəzər mənşəli kişi və oğlan iki keçmiş Taliban komandirinin rəhbərlik etdiyi İŞİD döyüşçüləri tərəfindən oğurlanıb, hərçənd ki, bu oğurlanma hallarına görə məsuliyyəti heç bir qrup öz üzərinə götürməyib. Radio Free Europe / Radio Liberty, *Afghan Shi'ite Community Leader Says IS Militants Involved in Kidnappings*, 22 April 2015, http://www.rferl.org/content/afghanistan-islamic-state-kidnapped-hazaras/26938544.html; AFP, *Fears Stalk Afghan Minorities after Rare Attacks*, 17 March 2015, http://reliefweb.int /report/afghanistan/fears-stalk-afghan-minorities-after-rare-attacks. 2015-ci ilin avqustunda Navur rayonunda xəzər mənşəli üç kişi oğurlandı və qətlə yetirildi. Radio Free Europe / Radio Liberty, *At Least Eight Hazaras Kidnapped, Four Killed in Afghanistan*, 13 August 2015, http://www.refworld.org/docid/55ee96a92b.html. 2015-ci ilin sentyabrında Bəlx vilayətində xəzər mənşəli 13 kişi avtobusla gedərkən taliblər olduğu güman edilən naməlum silahlılar tərəfindən güllələnərək qətlə yetirildilər. Radio Free Europe / Radio Liberty, *Thirteen Men Pulled from Vehicles, Shot Dead by Gunmen in Afghanistan*, 5 September 2015, http://www.refworld.org/docid/561d040f15.html. 2015-ci ilin noyabrında Zabul vilayətində ikisi qadın və biri uşaq olmaqla xəzər mənşəli yeddi şəxs oğurlandı və sonradan başları kəsildi. İlkin məlumatlar bu hərəkətləri törədənlərin İŞİD döyüşçüləri olduğunu göstərirdi, amma sonradan MTM bu iddiaları "Talibanın

*c) Cogi, Çori Froş, Qorbat və Mosul icmaları da daxil olmaqla cat etnik qrupunun üzvləri*

Əfqanıstanda ən çox marginallaşmış icmalar cat etnik qrupuna daxil olan Cogi, Çori Froş və Qorbat icmalarıdır.[493] Məlumatlara əsasən institusional ayrı-seçkilik bu icmaların üzvləri üçün mühüm maneə təşkil edir və Daxili İşlər Nazirliyi, məlumatlara görə, Cogi icması üzvlərini Əfqanıstan vətəndaşları hesab etməkdən imtina edir. Bu isə öz növbəsində o deməkdir ki, onlara təzkirə, yəni vətəndaşlıq kartı verilmir. Nəticədə onların sosial xidmətlərdən istifadə etmək, dövlət məktəblərində oxumaq, iş tapmaq və torpaq sahibi olmaq imkanlarının məhdud olduğu bildirilir.[494]

*d) Etnik və ya tayfa zəminində torpaq mübahisələri*

---

təbliğatı" adlandırdı; digər məlumatlarda isə bu hərəkətə görə məsuliyyət daşıyanın Özbəkistan İslam Hərəkatının (ÖİH) üzvləri olduğu bildirildi. Bu hadisə Kabulda və digər şəhərlərdə etirazları alovlandırdı, belə ki, müxtəlif etnik mənşəli əfqanlar təhlükəsizlik tədbirlərinin gücləndirilməsini tələb etdilər. Bax: New York Times, *Protests across Afghanistan Demanding Better Security*, 12 November 2015, http://www.nytimes.com/aponline/2015/11/12/world/asia/ap-as-afghanistan.html; Reuters, *Hazara Take Protests to Kabul as Afghan Sectarian Fears Rise*, 10 November 2015, http://in.reuters.com/article/2015/11/10/afghanistan-talibanidINKCN0SZ19720151110; AAN, *The 'Zabul Seven' Protests: Who Speaks for the Victims?*, 12 November 2015, https://www.afghanistananalysts.org/the-zabul-seven-protests-who-speaks-for-the-victims/; HRW, Dispatches: *Afghan Killings Highlight Risks to Ethnic Hazaras*, 13 November 2015, https://www.hrw.org/news/2015/11/13/dispatches-afghan-killings-highlight-risks-ethnic-hazaras; AFP, *Massive Protest in Kabul over Decapitation of Shiite Hazaras*, 11 November 2015, http://news.yahoo.com/massive-protest-kabul-over-decapitation-shiitehazaras-082707341.html. Həmçinin 2015-ci ilin noyabrında Zabul vilayətində avtobusla hərəkət edən 14-dən 30-a qədər xəzər mənşəli şəxs oğurlandı. Yerli hakimiyyət orqanlarının bildirdiyinə görə, bu oğurlanma qoyun sürüsü ilə əlaqədar mübahisədən sonra baş vermişdi, lakin hücuma görə məsuliyyəti heç bir qrup öz üzərinə götürmədi. New York Times, *Afghan Kidnappers Prey on Hazaras*, 21 November 2015, http://www.nytimes.com/2015/11/22/world/asia/kidnappings-escalate-in-afghanistan.html; Free Radio Liberty, *Taliban Kidnapped Hazaras for 'Stealing Sheep'*, 21 November 2015, http://www.rferl.org/content/afghanistan-hazaras-kidnapped/27378820.html. Həmçinin bax: Pajhwok, *Kidnapped Passengers in Good Health: Official*, 25 November 2015, http://www.pajhwok.com/en/2015/11/25/kidnapped-passengers-goodhealth-official. Azlıqların Hüquqları üzrə Beynəlxalq Qrup qeyd edir ki, "əsas şose yolunda [ölkənin mərkəzində Kabulla Xəzəracat arasında] baş vermiş zorakılıqdan sonra məktəb və klinika kimi binaların inşası üçün Kabuldan işçi qüvvəsi və materiallar gətirilməsinə tələbat duyan Xəzəracat daha da təcrid olundu və inkişafı ləngidi. Hər iki amil çoxlu sayda xəzərin hazırda Kabula köçüb orada yaşamasına gətirib çıxardı və onların çoxu həddən artıq əhalinin cəmləşdiyi Dəşti-Barçi ərazisində məskunlaşdılar". Minority Rights Group International, *State of the World's Minorities and Indigenous Peoples 2015 - Afghanistan*, 2 July 2015, http://www.refworld.org/docid/55a4fa6915.html.

[493] Samuel Hall Consulting, *Jogi and Chori Frosh Communities: A Story of Marginalization* (for UNICEF), November 2011, http://samuelhall.org/REPORTS/JOGI%20and%20CHORI%20FROSH%20Communities.pdf, p. 15.

[494] Samuel Hall Consulting, *Jogi and Chori Frosh Communities: A Story of Marginalization* (for UNICEF), November 2011, http://samuelhall.org/REPORTS/JOGI%20and%20CHORI%20FROSH%20Communities.pdf. Cogi, Cat, Qorbat və Çori Froş icmaları onların "təhsil və məşğulluq imkanlarını məhdudlaşdıran ciddi sosial, iqtisadi və siyasi maneələrdən əziyyət çəkirlər". ILO, *Afghanistan: Time to move to Sustainable Jobs: Study on the State of Employment in Afghanistan*, May 2012, http://www.refworld.org/docid/5124c39f2.html, p. 7. Hesablamalara görə Cogi, Cat, Qorbat və Çori Froş mənşəli şəxslərin sayı 30.000-ə yaxındır, onlar əsasən Cəlalabad (Cat), Məzari-Şərif (Cogi və Çori Froş), Kabul (Cogi və Kat), Gündüz (Cogi və Çori Froş) və Herat (Qorbat) şəhərlərində yaşayırlar. Bax: ibid., p. 39. Həmçinin bax: Humanitarian Policy Group, *Sanctuary in the City? Urban Displacement and Vulnerability in Kabul*, June 2012, http://www.odi.org.uk/resources/docs/7722.pdf, p. 7; Afghan Civil Society Forum, *The Jogi People*, 2010, http://www.acsf.af/english/index.php?option=com_content&view=article&id=23:jogi-people&catid=9:articles&Itemid=14; Institute for War and Peace Reporting, *Gypsies Demand their Rights*, 22 June 2009, http://www.refworld.org/docid/4a3b58f01e.html. Əfqanıstanda Bədəxşan vilayətinin şimalında təxminən 1.500 nəfərdən ibarət kiçik qırğız icması da var, onlar Əfqanıstanda icmalarının salamatlığı ilə bağlı narahatlıqlarını ifadə ediblər. Onların Qırğızıstana köçmək cəhdləri indiyədək uğursuz olub. EurasiaNet, *Kyrgyz Community in Afghanistan Looking for a Way Out*, 7 May 2012, http://www.eurasianet.org/node/65369.

Bir çox hallarda torpağın mülkiyyətçisini müəyyənləşdirmək çətin olur və nəticədə torpaq mübahisələri Əfqanıstanda adi haldır və çox vaxt onlar zorakılıqlara çevrilir.[495] Məlumatlara əsasən, torpaqların zəbt edilməsi geniş yayılıb və çox zaman hökumətlə, eləcə də dövlət məmurları ilə əlaqələri olan nüfuzlu şəxslər də onların iştirakçısı olur.[496] Torpaqların qeydiyyatı, paylanması və torpaq mübahisələrinin həlli mexanizmlərinin hamısı (istər rəsmi, istərsə də qeyri-rəsmi), məlumatlara görə, korrupsiyaya uğrayıb.[497]

Torpaq üzərində mülkiyyət hüququ və torpaqlardan istifadə hüququ ilə bağlı münaqişələr çox vaxt etnik çalarlara malik olur ki, bu da qismən əhali köçlərinin nəticəsidir.[498] Köçdükləri yerdən

[495] UNAMA, *The Stolen Lands of Afghanistan and its People – The Legal Framework*, March 2014, https://unama.unmissions.org/Portals/UNAMA/UNAMA_RoL_Unit_Part_1_Legal_Framework_Final-2.pdf, p. 10; Civil-Military Fusion Centre, *From Dispute to Resolution: Managing Land in Afghanistan*, October 2011, https://www.cimicweb.org/cmo/afg/Documents/Governance/Afghanistan_Land_Dispute_Resolution.pdf.

[496] Radio Free Europe / Radio Liberty, *Afghanistan's Ghani Calls For 'Holy War' Against Corruption*, 1 September 2015, http://www.rferl.org/content/afghanistan-ghani-holy-war-corruption/27220357.html; Congressional Research Service, *Afghanistan: Politics, Elections, and Government Performance*, 12 January 2015, http://www.fas.org/sgp/crs/row/RS21922.pdf, pp. 12, 16, 39; Independent Joint Anti-Corruption Monitoring and Evaluation Committee, *Report of the Public Inquiry into Land Usurpation*, November 2014, http://www.mec.af/files/2014_11_01_Final_Report_of_the_Public_Inquiry_Into_Land_Usurpation_ENGLISH.pdf, p. 27; UNAMA, *The Stolen Lands of Afghanistan and its People – The Legal Framework*, March 2014, https://unama.unmissions.org/Portals/UNAMA/UNAMA_RoL_Unit_Part_1_Legal_Framework_Final-2.pdf, p. 10. UNANMA-nın bildirdiyinə görə, nüfuzlu şəxslərin, o cümlədən dövlət məmurlarının qaçqınlar və məcburi köçkünlər üçün ayrılmış torpaqları şəxsi mənfəətləri naminə satdıqları barədə məlumatlar var. UNAMA, *ibid.*, p. 30. Korrupsiya əleyhinə monitorinq və qiymətləndirmə üzrə müstəqil birgə komitə (MQK – 2010-cu ildə hökumət və beynəlxalq birlik tərəfindən yaradılmış müstəqil anti-korrupsiya mexanizmi) 2014-cü ilin noyabrında məlumat verdi ki, "Ərazi" adlandırılan Əfqanıstanın torpaq məsələləri üzrə dövlət orqanının bildirdiyinə görə, son otuz ildə bütün Əfqanıstan ərazisində 1,2 milyon akrdan çox torpaq qanunsuz zəbt edilib. Independent Joint Anti-Corruption Monitoring and Evaluation Committee, *Report of the Public Inquiry into Land Usurpation*, November 2014, http://www.mec.af/files/2014_11_01_Final_Report_of_the_Public_Inquiry_Into_Land_Usurpation_ENGLISH.pdf, p. 49. Birləşmiş Ştatların Sülh İnstitutu qeyd edib ki, "onilliklər boyu gedən müharibələrdən sonra uğursuz idarəetmə, əhalinin köçkün düşməsi və kənd təsərrüfatının düzgün idarə olunmaması nəticəsində Əfqanıstanda torpaq üstündə münaqişələr geniş yayılıb. Hərbi rəislər, qiyamçılar və dövlət orqanları istədikləri mülkiyyəti mənimsəmək üçün hərc-mərclikdən yararlanmaqda davam edirlər". United States Institute of Peace, *Afghanistan Land Conflicts Pit Nomads Against Villagers, Power Brokers Against Each Other*, 21 February 2013, http://reliefweb.int/report/afghanistan/afghanistan-land-conflicts-pit-nomads-against-villagerspower-brokers-against.

[497] Independent Joint Anti-Corruption Monitoring and Evaluation Committee, *Report of the Public Inquiry into Land Usurpation*, November 2014, http://www.mec.af/files/2014_11_01_Final_Report_of_the_Public_Inquiry_Into_Land_Usurpation_ENGLISH.pdf, pp. 32-38; Independent Joint Anti-Corruption Monitoring and Evaluation Committee, *VCA Report on the Process of Land Distribution for Repatriations and Displaced People*, October 2013, http://www.mec.af/files/VCAReportLanddistribution.pdf; AREU, *Land, People, and the State in Afghanistan: 2002 – 2012*, February 2013, http://www.areu.org.af/EditionDetails.aspx?EditionId=622&ContentId=7&ParentId=7, p. 92. 2015-ci ildə aparılmış "Əfqanıstan xalqı arasında rəy sorğusu"nda respondentlərin 24,3 faizi bütövlükdə Əfqanıstanda üzləşdikləri iki ən böyük problemdən biri kimi korrupsiyanı göstəriblər. The Asia Foundation, *A Survey of the Afghan People – Afghanistan in 2015*, http://asiafoundation.org/resources/pdfs/Afghanistanin2015.pdf, pp. 22, 97-101.

[498] Torpaqla bağlı bəzi münaqişələrin səbəbləri 19-cu əsrdə və 20-ci əsrin əvvəllərində Əfqanıstanın puştu mənşəli hökmdarlarının əsasən puştu mənşəli əfqanıstanlıları əvvəllər puştuların məskunlaşmadığı ərazilərə bilərəkdən köçürməsindən qaynaqlanır ki, bu da ölkənin bu hissələrinə nəzarəti ələ keçirmək cəhdinin təzahürü idi. Misal üçün bax: Landinfo, *The Conflict between Hazaras and Kuchis in the Beshud Districts of Wardak Province*, 6 June 2011, http://www.refworld.org/docid/5124c5142.html; Cooperation for Peace and Unity (CPAU), *Fractured Relationships: Understanding Conflict between Nomadic and Settled Communities in Wardak's Pastureland*, October 2010, http://www.cpau.org.af/images/publications/CPAU%20Report%20-%20Fractured%20Relationships.pdf. Misal üçün bu mənbəyə də bax: Minority Rights Group International, *State of the World's Minorities and Indigenous Peoples 2015 - Afghanistan*, 2 July 2015, http://www.refworld.org/docid/55a4fa6915.html. Beynəlxalq Böhran Qrupu 2009-cu il tarixli hesabatında qeyd edib ki, "əfqanlar yenidən doğma vilayətlərində məskunlaşmağa və ya ölkənin daha təhlükəsiz və iqtisadi cəhətdən məhsuldar zonalarına köçməyə cəhd etdikləri üçün torpaq mübahisələri tayfa, etnik və ya məzhəb mənsubiyyəti zəminində dərin köklərə malik zorakılıq təhlükəsini doğurur". International Crisis Group, *Afghanistan: What Now for Refugees*, 31 August 2009, http://www.refworld.org/docid/4a9b95512.html, page i. Həmçinin bax: AREU, *Land Conflict in Afghanistan: Building Capacity to Address Vulnerability*, April 2009,

evə qayıtdıqdan sonra torpaqlarını geri tələb etmək istəyən əfqanlar etnik çalarlı torpaq mübahisələri ilə əlaqədar olaraq xüsusilə əlverişsiz vəziyyətdə ola bilərlər.[499]
Vardak və Qəzni vilayətlərində xəzərlərin məskunlaşdıqları ərazilərdə heyvanları üçün otlaq yerləri axtaran köçəri kuçilərin illik miqrasiyası kuçilərlə xəzərlər arasında zorakılıqların təkrarən baş verməsinə səbəb olur.[500] Hökumətin bu münaqişələrin həllinə yönələn səylərinə baxmayaraq, zorakılıqlar hər iki qrupun üzvləri arasında ölənlərin və yaralananların olmasına və xəzər mənşəli kəndlilərin köç etməsinə səbəb olmaqda davam edir.[501]

*e) Qısa nəticə*

Yuxarıda qeyd edilənlərə əsaslanaraq, BMTQAK hesab edir ki, Əfqanıstandakı (azlıqda olan) etnik qruplardan hər hansı birinə mənsub olan şəxslər, hər bir işin fərdi hallarından asılı olaraq, xüsusən etnik çoxluq təşkil etmədikləri ərazilərdə milli və ya etnik (irqi) mənsubiyyətləri səbəbindən və ya digər müvafiq səbəblərdən qaçqınlar üçün nəzərdə tutulan beynəlxalq müdafiəyə (himayəyə) ehtiyac duya bilərlər. Bu baxımdan əhəmiyyət kəsb edən mülahizələr sırasına ərizəçinin doğma ərazisində onun etnik qrupunun nisbi olaraq hakim mövqedə olması və həmin ərazidə etnik qruplar arasındakı münasibətlərin tarixi daxildir.

---

http://www.refworld.org/docid/4ebabd582.html; Freedom House, *Freedom in the World 2015 - Afghanistan*, 20 March 2015, http://www.refworld.org/docid/55116f4111.html.

499 NRC/IDMS (Norveç Qaçqınlar Şurasının təsis etdiyi Məcburi köçkünlüyün monitorinqi mərkəzi) məlumat verir ki, "təhlükəsizliklə bağlı vəziyyətə görə bir çox köçkün qruplar doğma yerlərinə qayıtmaq və torpaqlarını geri almaq imkanına malik deyillər ki, bu da onların hüquqlarını tələb etmələri prosesini çətinləşdirir. Bundan başqa, geri qayıdan qaçqınlar, habelə məcburi köçkünlər yaşayışlarını qura biləcəkləri və digər zəruri xidmətləri və imkanları əldə edə biləcəkləri təhlükəsiz yerlərə üstünlük verirlər". NRC/IDMC, *Strengthening Displaced Women's Housing, Land and Property Rights in Afghanistan*, November 2014, http://www.refworld.org/docid/5486c4684.html, p. 27. Məsələn, iyirminci əsrin ilkin dövrlərində şimal ərazilərində məskunlaşmış puştu mənşəli bir çox ailələr Əfqanıstanın Rusiya tərəfindən işğal edildiyi dövrdə oradan qaçmalı olublar, çünki yerli özbək, türkmən və xəzər icmaları puştuların torpaqları zəbt etmələrinə və ərazidə hökmranlıq etmələrinə, o cümlədən otlaqlar üzərində nəzarət hüququna malik olmalarına qarşı qiyam qaldırıblar. On illərlə davam etmiş köçkünlükdən sonra şimaldakı doğma yerlərinə qayıtdıqdan sonra onlar, məlumatlara görə, evlərinin və torpaqlarının əsas etibarı ilə özbək yaraqlıları tərəfindən zəbt edildiyini görüblər. AREU, *Land Governance at the Crossroads: A Review of Afghanistan's Proposed New Land Management Law*, October 2012, http://www.areu.org.af/ResearchProjectDetails.aspx?ContentId=2&ParentId=2&ResearchProjectId=16, pp. 15; Brookings-Bern Project on Internal Displacement, *Beyond the Blanket: Towards More Effective Protection for Internally Displaced Persons in Southern Afghanistan*, May 2010, http://www.refworld.org/docid/4c3d8cab2.html; NRC/IDMC, *Internal Displacement: Global Overview of Trends and Developments in 2009 - Afghanistan*, 17 May 2010, http://www.refworld.org/docid/4bf252560.html; Minority Rights Group International, *World Directory of Minorities and Indigenous Peoples – Afghanistan: Pashtuns*, 2008, http://www.refworld.org/docid/49749d6745.html; IRIN, *Ethnic Antagonism Spurs Land Disputes in North*, 11 September 2008, http://www.irinnews.org/Report/80289/AFGHANISTANEthnic-antagonism-spurs-land-disputes-in-north; HRW, *Paying for the Taliban's Crimes: Abuses Against Ethnic Pashtuns in Northern Afghanistan*, 9 April 2002, http://www.refworld.org/docid/3cb2ad007.html.

500 Pajhwok, *Kochi-Hazara Dispute in Wardak Politicised: Mohammadi*, 28 July 2015, http://www.pajhwok.com/en/2015/07/28/kochi-hazaradispute-wardak-politicised-mohammadi; Pajhwok, *Urgent Steps Needed to Resolve Kuchi-Hazara Conflict*, 24 June 2015, http://archive.pajhwok.com/en/2015/06/24/urgent-steps-needed-resolve-kuchi-hazara-conflict; Pajhwok, *5 Killed, 3 Wounded in Maidan Wardak Clash*, 12 July 2014, http://archive.pajhwok.com/en/2014/07/12/5-killed-3-wounded-maidan-wardak-clash. Kuçilər iddia edirlər ki, 19-cu əsrin sonlarında Rəhman rejimi tərəfindən verilmiş fərmanlarda nəzərdə tutulmuşdu ki, onlar torpaqların müəyyən zolaqlarından kənd təsərrüfatı torpaqları və yay otlaqları kimi istifadə etmək hüququna malikdirlər. Xəzərlər isə buna etiraz edərək iddia edirlər ki, həmin fərmanlar etibarsızdır. Landinfo, *The Conflict between Hazaras and Kuchis in the Beshud Districts of Wardak Province*, 6 June 2011, http://www.refworld.org/docid/5124c5142.html. Analoji hadisələr digər ərazilərdə də baş verir. Misal üçün bax: Associated Press, *Coalition Strike Kills 3 Armed Afghan Villagers*, 26 December 2014, http://news.yahoo.com/3-afghanssaid-dead-foreign-forces-air-strike-124344606.html.

501 Misal üçün bax: Pajhwok, *2 Dead as Hazara-Kuchi Feud Resurfaces in Wardak*, 22 June 2015, http://archive.pajhwok.com/en/2015/06/22/2-dead-hazara-kuchi-feud-resurfaces-wardak; Pajhwok, *Urgent Steps Needed to Resolve Kuchi-Hazara Conflict*, 24 June 2015, http://archive.pajhwok.com/en/2015/06/24/urgent-steps-needed-resolve-kuchi-hazara-conflict.

Əfqanıstanın hakim etnik qruplarına mənsub olan şəxslər də, hər bir işin fərdi hallarından asılı olaraq, milli və ya etnik (irqi) mənsubiyyətləri səbəbindən və ya digər müvafiq səbəblərdən qaçqınlar üçün nəzərdə tutulan beynəlxalq müdafiəyə (himayəyə) ehtiyac duya bilərlər. Bu baxımdan əhəmiyyət kəsb edən mülahizələr sırasına etnik qrupun öz doğma ərazisində çoxluq təşkil etməsi və ya orada azlıqda olması daxildir.
Etnik (irqi) mənsubiyyət səbəbindən beynəlxalq müdafiəyə (himayəyə) olan ehtiyacla dini mənsubiyyət və (və ya) (güman edilən) siyasi baxışlarla əlaqədar beynəlxalq müdafiəyə (himayəyə) olan ehtiyac qismən üst-üstə düşə bilər. Həmçinin müvafiq şəxsin bu Rəhbər prinsiplərdə əks olunmuş digər risk amillərinə də məruz qala biləcəyinə lazımi diqqət yetirilməlidir.

### *14. Qan intiqamına cəlb olunan şəxslər*

Ümumiyyətlə, qan intiqamı qədimdən qalmış şərəf və davranış məcəlləsinə uyğun olaraq bir ailənin üzvlərinin qisas və cəzalandırma aktı qismində digər ailənin üzvlərini qətlə yetirməsini özündə ehtiva edir.[502] Əfqanıstan kontekstində qan intiqamları əsasən puştu ənənəsidir və puştuların adət hüququ sistemində ("Puştunvali") dərin kök salıb, bununla belə, məlumatlara əsasən onlar digər etnik qruplar arasında da baş verir.[503] Qan intiqamlarına qətllər, habelə digər hüquq pozuntuları, məsələn, daimi və ciddi xəsarət yetirmə, evli qadını oğurlama və ya ona qarşı zorakılıq etmə, yaxud torpaqla, su mənbələrinə çıxışla və ya əmlakla əlaqədar olan, həllini tapmayan mübahisələr səbəb ola bilər.[504] Qan intiqamları cavab xarakteri daşıyan zorakılıq və qisasların uzun silsiləsi ilə nəticələnə bilər.[505] "Puştunvali"yə əsasən, prinsipcə hüquq pozuntusu törətmiş şəxsin özündən qisas alınmalıdır, lakin müəyyən hallarda həmin şəxsin qardaşı və ya ata tərəfdən digər qohumu da qisasın hədəfinə çevrilə bilər. Ümumiyyətlə, məlumatlara görə,

---

[502] Bax: UNHCR, *UNHCR Position on Claims for Refugee Status Under the 1951 Convention relating to the Status of Refugees Based on a Fear of Persecution Due to an Individual's Membership of a Family or Clan Engaged in a Blood Feud*, 17 March 2006, paras 5-6 and 16-20, http://www.refworld.org/docid/44201a574.html.

[503] Landinfo, *Afghanistan: Blood Feuds, Traditional Law (Pashtunwali) and Traditional Conflict Resolution*, 1 November 2011, http://www.refworld.org/docid/5124c6512.html, p. 9. "Ləndinfo"nun (*Landinfo*) hesabatında "Puştunvali"nin əsas elementləri olan şərəf və qisas anlayışlarının əlavə təhlili verilir. "Ləndinfo"nun hesabatında qeyd edilir ki, qan intiqamları əsasən puştu ənənəsi olsa da, qan intiqamları və fərdi qisaslar Əfqanıstanda qeyri-puştu qrupları arasında da baş verir və belə hallar xüsusən tarixən puştuların və digər etnik qrupların qarışıq yaşadıqları ərazilərdə, habelə ümumi normaların uzun müddətdən bəri kök saldığı yerlərdə olur. Bununla belə, qan intiqamları qeyri-puştu qrupları arasında daha az yayılıb, onlar mübahisələrin həlli üçün rəsmi ədliyyə sistemindən istifadə etməyə meyllidirlər. Ibid., pp. 15-16. Qan intiqamı fərqli etnik qrupların üzvlərini də əhatə edə bilər. Misal üçün bax: *Refugee Appeal No. 76355*, 5 November 2009, http://www.refworld.org/docid/4b3c8bb42.html. Yeni Zelandiyanın qaçqınların statusu ilə bağlı müraciətlərə baxan orqanı bildirib ki, puştu ailəsinin şərəfinə toxunmuş hesab edilən, bu orqana müraciət etmiş tacik müəyyən sosial qrupa mənsub olması səbəbindən təqib təhlükəsi altındadır. Həmçinin bax: CORI, *Thematic Report Afghanistan: Blood Feuds*, February 2014, http://www.refworld.org/docid/53199ef64.html.

[504] Landinfo, *Afghanistan: Blood Feuds, Traditional Law (Pashtunwali) and Traditional Conflict Resolution*, 1 November 2011, http://www.refworld.org/docid/5124c6512.html, p. 13. 2015-ci ilin aprelində Badqis vilayətinin Qadis rayonunda hərbi komandir Molla Məhəmməd Həsən və onun adamları olduqları güman edilən silahlı şəxslər tərəfindən evlərinə basqın etdikdən sonra iki qardaş öldürüldü. Deyilənlərə görə səbəb ailə mübahisəsi idi və yerli sakin ailələr arasında uzun müddətdən bəri qan düşmənçiliyinin mövcud olduğunu təsdiqlədi. Pajhwok News, *Two Brothers Dead in Family Feud in Badghis*, 20 April 2015, http://www.pajhwok.com/en/2015/04/20/2-brothers-dead-family-feud-badghis. 2014-cü ilin sentyabrında Laqman vilayətində iki nəfər (ata və oğul) iki ƏYP üzvü tərəfindən qətlə yetirildilər, çünki qurbanların ailə üzvləri, iddia edildiyinə görə, ƏYP üzvlərindən birinin qohumlarını öldürmüşdülər. UNAMA, *Afghanistan: Annual Report 2014, Protection of Civilians in Armed Conflict*, February 2015, http://www.refworld.org/docid/54e44e274.html, p. 82. Qan düşmənçiliyinə həmçinin biznes rəqabəti də təkan verə bilər. Misal üçün bax: AAN, *Finding Business Opportunity in Conflict: Shopkeepers, Taleban and the Political Economy of Andar District*, 2 December 2015, https://www.afghanistan-analysts.org/finding-business-opportunity-in-conflict-shopkeepers-taleban-and-the-political-economy-of-andardistrict/.

[505] Məsələn, 16 il davam etmiş və 400 nəfərin qətlə yetirilməsinə səbəb olmuş qan düşmənçiliyinə aid məlumat üçün bu mənbəyə bax: Zeerak Fahim, *Foreign Hands Fuel Nuristan Tribal Feud*, Pajhwok News, 9 March 2015, http://www.pajhwok.com/en/2015/03/10/foreign-hands-fuel-nuristan-tribal-feud-governor.

qadınlardan və uşaqlardan qisas almaq tələbi yoxdur.[506] Məlumatlara əsasən qurbanın ailəsi qisas almaq iqtidarında olmadıqda qan düşmənçiliyi qurbanın ailəsinin qisas almaq iqtidarında olduğunu hesab etdiyi anadək donmuş vəziyyətdə olur. Beləliklə qisasın alınması ilkin hüquq pozuntusunun törədilməsindən sonra illərlə vaxt apara, yaxud hətta sonrakı nəsillərə qala bilər.[507] Hüquq pozuntusu törədənin rəsmi ədalət mühakiməsi sistemi vasitəsilə məhkum edilməsi qurbanın ailəsinin amansız qisasının qarşısını almır: məlumatlara əsasən, mübahisələrin həlli üzrə ənənəvi mexanizm vasitəsilə mübahisə həll olunaraq qan düşmənçiliyinə son qoyulmayıbsa, hüquq pozuntusu törətmiş şəxs cəzasını çəkib qurtardıqdan sonra qurbanın ailəsinin qisas alacağını gözləmək olar.[508]

Yuxarıdakıları nəzərə alaraq, BMTQAK hesab edir ki, qan düşmənçiliyinə cəlb olunmuş şəxslər, hər bir işin fərdi hallarından asılı olaraq, müəyyən sosial qrupa mənsub olmaları səbəbindən və ya digər müvafiq səbəblərdən qaçqınlar üçün nəzərdə tutulan beynəlxalq müdafiəyə (himayəyə) ehtiyac duya bilərlər.[509] Bununla belə, qan düşmənçiliyində iştirak edən şəxslər sığınacaq üçün müraciət etdikdə onların qaçqın statusu almaq hüququna malik şəxslər sırasından xaric edilməli olan şəxslər olub-olmadığını araşdırmağa ehtiyac yarana bilər. Araşdırılan işin konkret hallarından asılı olaraq, qan düşmənçiliyinə cəlb olunan və təhlükə altında olan şəxslərlə əlaqələri ucbatından həmin şəxslərin ailə üzvləri, birgə yaşadıqları şəxslər və ya himayələrində olan digər şəxslər də beynəlxalq müdafiəyə ehtiyac duya bilərlər.

### *15. Biznesmenlər və digər imkanlı şəxslər (və onların ailə üzvləri)*

Geniş yayılmış korrupsiya, reketçilik və pulqoparma halları əfqanları narahat etməkdə davam edir.[510] Əfqanıstan təhlükəsizlik qüvvələri, məlumatlara görə, qanunsuz nəzarət-buraxılış məntəqələri təşkil edir və səfər edən insanlardan pul və mal qoparırlar.[511] Məlumatlara əsasən bir çox ərazilərdə ƏYP qanunsuz vergilər ödənilməsini tələb edir və pul ödəməyən şəxslərə qarşı polisin nəzarət-buraxılış məntəqələrində zorakılıqdan istifadə edir.[512] Hökumətyönlü qüvvələr, xüsusən ƏYP, məlumatlara görə, "haqq alma" ilə məşğul olurlar, məsələn, hər hansı şəxslərin

[506] Landinfo, *Afghanistan: Blood Feuds, Traditional Law (Pashtunwali) and Traditional Conflict Resolution*, 1 November 2011, http://www.refworld.org/docid/5124c6512.html, p. 10.
[507] Landinfo, *Afghanistan: Blood Feuds, Traditional Law (Pashtunwali) and Traditional Conflict Resolution*, 1 November 2011, http://www.refworld.org/docid/5124c6512.html, p. 10.
[508] Landinfo, *Afghanistan: Blood Feuds, Traditional Law (Pashtunwali) and Traditional Conflict Resolution*, 1 November 2011, http://www.refworld.org/docid/5124c6512.html, p. 9.
[509] Əlavə tövsiyələr üçün bax: UNHCR, *UNHCR Position on Claims for Refugee Status Under the 1951 Convention relating to the Status of Refugees Based on a Fear of Persecution Due to an Individual's Membership of a Family or Clan Engaged in a Blood Feud*, 17 March 2006, paras 5-6 and 16-20, http://www.refworld.org/docid/44201a574.html; UNHCR, *Guidelines on International Protection No. 2: "Membership of a Particular Social Group" Within the Context of Article 1A(2) of the 1951 Convention and/or its 1967 Protocol Relating to the Status of Refugees*, 7 May 2002, http://www.refworld.org/docid/3d36f23f4.html.
[510] 2015-ci ildə aparılmış "Əfqanıstan xalqı arasında illik rəy sorğusu"nda (sorğu məqsədi ilə 2015-ci ilin iyununda 9.586 əfqanla müsahibə aparılmışdı) respondentlərin 89,9 faizi korrupsiyanı gündəlik həyatlarında üzləşdikləri problem kimi göstəriblər, 24,3 faizi isə korrupsiyanın ölkədə iki ən böyük problemdən birinin olduğunu bildirdilər. The Asia Foundation, *Afghanistan in 2015*, November 2015, http://asiafoundation.org/resources/pdfs/Afghanistanin2015.pdf, pp. 10, 22. Respondentlərin üçdə iki hissəsi bildiriblər ki, şəxsi təhlükəsizliklərinə görə qorxu keçirirlər (bu, 2006-cı ildən bəri bu ən yüksək göstəricidir), respondentlərin 18,2 faizi isə bildirdilər ki, ötən il özləri və ya onların ailə üzvü zorakılığa və ya cinayət əməlinə məruz qalıblar, o cümlədən reketçilik və ya pulqoparma formasında cinayətlə üzləşiblər. The Asia Foundation, *ibid.*, p. 33, 39.
[511] US Department of State, 2015 Country Reports on Human Rights Practices - Afghanistan, 13 April 2016, http://www.refworld.org/docid/5711040d4.html.
[512] US Department of State, 2015 Country Reports on Human Rights Practices - Afghanistan, 13 April 2016, http://www.refworld.org/docid/5711040d4.html. ƏMP-nin insanlardan pul qoparması və sərhəd polisinin qeyri-rəsmi vergilər alması barədə iddialarla bağlı həmçinin bu mənbəyə bax: AREU, *"90% Real" – The Rise and Fall of a Rentier Economy: Stories from Kandahar, Afghanistan*, Working Paper 38, November 2015, http://www.refworld.org/docid/564983154.html.

Talibanla əlaqədə olduqlarını iddia edərək onları həbs edir və yalnız məhbusdan pul qopardıqdan sonra onu azad edirlər.[513] Həmçinin məlumatlara görə islah müəssisələrinin və həbsxanaların əməkdaşları cəzalarını çəkib qurtarmış mülki şəxsləri azadlığa buraxmaq üçün rüşvət istəyirlər.[514]

Məlumatlara əsasən hökumətyönlü silahlı qruplar mülki əhaliyə qanunsuz vergilər tətbiq edir və onları digər formalarda təhdid edirlər, bunlar həmçinin əvvəllər bu cür pozuntuların qeydə alınmadığı və ya az sayda qeydə alındığı rayonlarda da baş verir.[515] Məsələn, Sari Pul vilayətinin Sançarak rayonunda hökumətyönlü silahlı qruplar tərəfindən törədilən insan hüquqlarının pozuntuları sırasına, məlumatlara görə, bilərəkdən qanunsuz vergilər tətbiq etmə və digər pulqoparma formaları, məcburi əmək, torpaqların mənimsənilməsi və əmlakın məhv edilməsi daxildir.[516] Məlumatlara əsasən Gündüz vilayətinin Xanabad rayonunda hökumətyönlü yaraqlılar biznesmenləri, mağaza sahiblərini və fermerləri hədəfə alaraq onlardan "soyğunçu vergilər" alırlar.[517]

AHE-lərin qanunsuz nəzarət-buraxılış məntəqələri təşkil etdikləri və mülki əhalidən pul və mal qopardıqları bildirilir.[518] Məlumatlara əsasən Taliban qanunsuz fəaliyyətlərdən, o cümlədən pulqoparmadan və girovpulu almaq üçün insanları oğurlamaqdan böyük mənfəət əldə edir.[519] 2015-ci ilin avqustunda UNAMA münaqişə ilə əlaqədar olaraq mülki şəxslərin oğurlanması və mülki girovların edam edilməsi hallarının sayının artmasından "dərin narahatlığını" ifadə etdi.[520] UNAMA qeyd edib ki, bir çox hallarda AHE-lər "mülki dövlət işçilərini və podratçılarını, dövlət

---

513 AAN, *Finding Business Opportunity in Conflict: Shopkeepers, Taleban and the Political Economy of Andar District*, 2 December 2015, https://www.afghanistan-analysts.org/finding-business-opportunity-in-conflict-shopkeepers-taleban-and-the-political-economy-of-andardistrict/.

514 US Department of State, 2015 Country Reports on Human Rights Practices - Afghanistan, 13 April 2016, http://www.refworld.org/docid/5711040d4.html.

515 UNAMA, *Afghanistan: Midyear Report 2015, Protection of Civilians in Armed Conflict*, August 2015, http://www.refworld.org/docid/55c1bdc4d.html, p. 73.

516 UNAMA, *Afghanistan: Midyear Report 2015, Protection of Civilians in Armed Conflict*, August 2015, http://www.refworld.org/docid/55c1bdc4d.html, p. 76.

517 AAN, *The 2015 Insurgency in the North (3): The Fall and Recapture of Kunduz*, 16 October 2015, https://www.afghanistananalysts.org/the-2015-insurgency-in-the-north-3-the-fall-and-recapture-of-kunduz/.

518 US Department of State, 2015 Country Reports on Human Rights Practices - Afghanistan, 13 April 2016, http://www.refworld.org/docid/5711040d4.html; AAN, *Finding Business Opportunity in Conflict: Shopkeepers, Taleban and the Political Economy of Andar District*, 2 December 2015, https://www.afghanistan-analysts.org/finding-business-opportunity-in-conflict-shopkeeperstaleban-and-the-political-economy-of-andar-district/; AAN, *The 2015 Insurgency in the North (3): The Fall and Recapture of Kunduz*, 16 October 2015, https://www.afghanistan-analysts.org/the-2015-insurgency-in-the-north-3-the-fall-and-recapture-of-kunduz/; UNAMA, *Afghanistan: Midyear Report 2015, Protection Of Civilians In Armed Conflict*, August 2015, http://www.refworld.org/docid/55c1bdc4d.html, p. 60.

519 UN Security Council, *Report of the Analytical Support and Sanctions Monitoring Team on Specific Cases of Cooperation between Organized Crime Syndicates and Individuals, Groups, Undertakings and Entities Eligible for Listing under Paragraph 1 of Security Council Resolution 2160 (2014)*, S/2015/79, 2 February 2015, http://reliefweb.int/report/afghanistan/report-analytical-support-and-sanctionsmonitoring-team-specific-cases.

520 UNAMA, *Afghanistan: Midyear Report 2015, Protection of Civilians in Armed Conflict*, August 2015, http://www.refworld.org/docid/55c1bdc4d.html, p. 59. 2015-ci ildə UNAMA 410 insan oğurluğu hallarını qeydə alıb və onların az qala hamısı AHE-lər tərəfindən törədilib. Bu 410 insident 172 mülki şəxsin ölümünə və ya xəsarət almasına (145 ölüm və 27 xəsarət halına) səbəb olub ki, bu da 2014-cü illə müqayisədə bu cür insidentlərin sayında 39 faiz artım, mülki şəxslər arasında ölüm və ya xəsarət hallarının sayında isə 112 faiz artım deməkdir. UNAMA qeyd edib ki, həm ümumən insan oğurluğu hallarının, həm də mülki şəxslərin ölümünə və ya xəsarət almasına səbəb olan bu cür halların sayının bu göstəriciləri UNAMA-nın bu cür insidentləri qeydə almağa başladığı 2009-cu ildən bəri qeydə alınmış ən yüksək göstəricilərdir. UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, p. 49. 2015-ci ildə aparılmış "Əfqanıstan xalqı arasında illik rəy sorğusu"nun (sorğu məqsədi ilə 2015-ci ilin iyununda 9.586 əfqanla müsahibə aparılmışdı) respondentləri həmçinin bildiriblər ki, insan oğurluqları təhlükəsizliklə bağlı ciddi narahatlıq doğurur və respondentlərin yeddi faizi ötən il özlərinin və ya ailə üzvlərinin məruz qaldığı ən ciddi zorakılıq və ya cinayət növü kimi "insan oğurluğunu", digər altı faiz isə ötən il özlərinin və ya ailə üzvlərinin məruz qaldığı ikinci ən ciddi zorakılıq və ya cinayət növü kimi "insan oğurluğunu" göstəriblər. The Asia Foundation, *A Survey of the Afghan People: Afghanistan in 2015*, November 2015, http://asiafoundation.org/resources/pdfs/Afghanistanin2015.pdf, p. 189.

işçilərinin ailə üzvlərini, habelə hökumətə və ya təhlükəsizlik qüvvələrinə, eləcə də mülki statuslu ƏMP-yə və Əfqanıstan təhlükəsizlik qüvvələrinin keçmiş üzvlərinə dəstək göstərdiyi hesab edilən şəxsləri" hədəfə alırlar.[521] UNAMA onu da qeyd edib ki, oğurlanma hallarının qurbanlarının xeyli hissəsi xəzərlərdir.[522] Bunlarla yanaşı, məlumatlara görə insan oğurluqlarının əsas məqsədinin maddi gəlir əldə etmək olduğu digər hallarda[523] əsas hədəf biznesmenlər və imkanlı olan və ya imkanlı olduğu güman edilən şəxslər olurlar.[524] UNAMA-nın bildirdiyinə görə, AHE-lərin oğurladıqları və daha sonra azadlığa buraxdıqları qurbanlarla sonradan elə oğurlayanların özləri əlaqə saxlayır və pul və ya digər formada yardım tələb edirlər.[525]

Qanunsuz vergiqoyma və pulqoparma praktikası adətən təqib səviyyəsinə çatan nəticələrə, yaxud digər formada cinayətlərə gətirib çıxarmır. Lakin müəyyən pulqoparma metodları, o cümlədən pul qoparmaq üçün adam oğurluğu təqib səviyyəsinə çata bilər, digər pulqoparma formaları isə məcmu halında bir neçə əsasa görə təqibə şərait yarada bilər. Şəxs (güman edilən) siyasi baxışlarına görə (məsələn, hökumətlə əlaqəli olan şəxs hesab edildiyinə görə),[526] yaxud irqi, etnik və ya dini mənsubiyyətlərinə görə[527] pulqoparmanın və ya girovpulu üçün insan oğurluğunun hədəfinə çevrildikdə, konkret işin fərdi hallarından asılı olaraq, bu səbəblərdən beynəlxalq müdafiəyə (himayəyə) ehtiyac duya bilər. Digər hallarda girovpulu almaq üçün oğurlanma təhlükəsi altında olan şəxs bu təhlükəyə müəyyən sosial qrupa mənsub olması səbəbindən məruz qala bilər və konkret işin fərdi hallarından asılı olaraq, bu səbəbdən beynəlxalq müdafiəyə (himayəyə) ehtiyac duya bilər.
BMTQAK hesab edir ki, hökumətlə əlaqəli olan və ya əlaqəli olduğu güman edilən şəxslərin ailə üzvlərinin durumu ilə imkanlı olan və ya imkanlı olduğu güman edilən şəxslərin ailə üzvlərinin durumuna şamil olunan mülahizələr fərqlidir. Uşaqlar da daxil olmaqla zəngin şəxsin ailə üzvləri həmin şəxslə qohumluq əlaqəsində olduqlarına görə ondan pul qoparılması məqsədi ilə oğurlanma riski altındadırlarsa, konkret işin fərdi hallarından asılı olaraq, müəyyən sosial qrupun üzvü olmaları səbəbindən və ya digər müvafiq səbəblərdən beynəlxalq müdafiəyə (himayəyə) ehtiyac duya bilərlər.

## B. Təqib təhükəsi altında olan şəxslər üçün ölkədaxili köçürülmə və ya yerdəyişmə alternativi

Alternativ variant kimi ölkədaxili köçürülmənin və ya yerdəyişmənin (onu bəzən ölkədaxili müdafiə alternativi də adlandırırlar) qiymətləndirilməsi[528] üçün ətraflı analitik baza aşağıdakı

[521] UNAMA, *Afghanistan: Midyear Report 2015, Protection of Civilians in Armed Conflict*, August 2015, http://www.refworld.org/docid/55c1bdc4d.html, pp. 59-60.
[522] UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, p. 50.
[523] UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, p. 49; UNAMA, *Afghanistan: Midyear Report 2015, Protection of Civilians in Armed Conflict*, August 2015, http://www.refworld.org/docid/55c1bdc4d.html, p. 59.
[524] Bax: UN Security Council, *Report of the Analytical Support and Sanctions Monitoring Team on Specific Cases of Cooperation between Organized Crime Syndicates and Individuals, Groups, Undertakings and Entities Eligible for Listing under Paragraph 1 of Security Council Resolution 2160 (2014)*, S/2015/79, 2 February 2015, http://reliefweb.int/report/afghanistan/report-analytical-support-and-sanctionsmonitoring-team-specific-cases, para. 37. Prezident Qəni bu problemin mövcudluğunu beynəlxalq forumda etiraf edib. Tolo News, *In China, Ghani Discusses Needs, Expectations of Afghan Businessmen*, 1 November 2014, http://www.tolonews.com/en/afghanistan/16963-in-china-ghanidiscusses-needs-expectations-of-afghan-businessmen.
[525] UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, p. 49.
[526] III.A.1 bölməsinə bax.
[527] III.A.5 və III.A.13 bölmələrinə bax.
[528] European Union, *Directive 2011/95/EU of the European Parliament and of the Council on standards for the qualification of third-country nationals or stateless persons as beneficiaries of international protection, for a*

mənbədə öz əksini tapıb: *BMTQAK-ın beynəlxalq müdafiəyə dair 4 saylı rəhbər prinsipləri: 1951-ci il Konvensiyasının 1-ci maddəsinin "A" bəndinin 2-ci yarımbəndi və (və ya) Qaçqınların statusuna dair 1967-ci il Protokolu kontekstində "ölkədaxili köçürülmə və ya yerdəyişmə alternativi"*.[529]
Yerdəyişmə imkanının qiymətləndirilməsi təklif olunan köçürülmə və yerdəyişmənin məqsədəuyğunluğunun, habelə əsaslılığının qiymətləndirilməsini tələb edir.[530] Mənşə ölkəsinin müəyyən bir lokal (məhdud) hissəsində təqibdən ehtiyat etmək üçün əsaslı səbəblərin olduğu müəyyən edilən hallarda köçürülmə və ya yerdəyişmənin həyata keçirilməsi üçün təklif olunan ərazinin müvafiq şəxs üçün məqsədəuyğun alternativ olub-olmadığının müəyyənləşdirilməsi uzunmüddətli qiymətləndirmə aparılmasını tələb edir və bu zaman təkcə ehtiyatlanmaya səbəb olmuş təhlükəni doğuran və doğma ərazini tərk etməyi zəruri edən hallar deyil, həm də təklif olunan ərazinin gələcək üçün təhlükəsiz və əsaslı alternativ təşkil edib-etməməsi nəzərə alınmalıdır. Konkret ərizəçinin fərdi xüsusiyyətləri və məskunlaşma ərazisindəki şərait də nəzərə alınmalıdır.[531]
Sığınacaq prosedurları çərçivəsində ölkədaxili köçürülmə və ya yerdəyişmə məsələsinə baxılırsa, təklif olunan konkret məskunlaşma ərazisi müəyyən edilməli və təklifin məqsədəuyğunluğu və əsaslılığı məsələsinə münasibətini bildirməsi üçün ərizəçiyə adekvat imkan yaradılmalıdır.[532]

### 1. Məqsədəuyğunluğun təhlili

Əfqan ərizəçilər üçün ölkədaxili köçürülmənin və yerdəyişmənin məqsədəuyğunluğunu qiymətləndirərkən aşağıdakıları nəzərdən keçirmək xüsusilə vacibdir: 1) yerdəyişmə üçün təklif olunan ərazinin davamlı olaraq təhlükəsiz olması tələbini; və 2) ölkə daxilində köçürüləcəyi əraziyə girişin şəxs üçün praktiki və hüquqi cəhətdən mümkün olması və təhlükəsiz olması faktını.[533] Birinci tələblə əlaqədar olaraq Əfqanıstandakı silahlı münaqişənin dəyişkənliyinə və mütəhərrikliyinə, habelə əvvəllər münaqişənin birbaşa təsir göstərdiyi vilayətlərdə və rayonlarda təhlükəsizliklə bağlı vəziyyətin pisləşdiyinə və bu səbəbdən köçkünlük hallarının baş verdiyinə xüsusi diqqət yetirilməlidir.[534] İkinci tələb isə təklif olunan məskunlaşma ərazisinə sağ-salamat gedib çatmanın konkret perspektivlərinin qiymətləndirilməsini, o cümlədən bütün ölkə

---

*uniform status for refugees or for persons eligible for subsidiary protection, and for the content of the protection granted (recast)*, 13 December 2011, http://www.refworld.org/docid/4f197df02.html, Article 8.

[529] UNHCR, *Guidelines on International Protection No. 4: "Internal Flight or Relocation Alternative" within the Context of Article 1A(2) of the 1951 Convention and/or 1967 Protocol Relating to the Status of Refugees*, HCR/GIP/03/04, 23 July 2003, http://www.refworld.org/docid/3f2791a44.html.

[530] Avropa İttifaqına üzv olan dövlətlərdə beynəlxalq müdafiə üçün müraciətlərlə əlaqədar olaraq 2011-ci il tarixli Uyğunluq Direktivinin 8-ci maddəsi tətbiq edilir. O, həm müraciətin əsaslılığının, həm də məqsədəuyğunluğunun qiymətləndirilməsini nəzərdə tutur. *2011 Qualification Directive, Article 8.*

[531] UNHCR, *Guidelines on International Protection No. 4: "Internal Flight or Relocation Alternative" within the Context of Article 1A(2) of the 1951 Convention and/or 1967 Protocol Relating to the Status of Refugees*, HCR/GIP/03/04, 23 July 2003, http://www.refworld.org/docid/3f2791a44.html, para. 7. Avropa İttifaqına üzv olan dövlətlərdə beynəlxalq müdafiə üçün müraciətlərlə əlaqədar olaraq 2011-ci il tarixli Uyğunluq Direktivinin 8-ci maddəsinin 2-ci bəndinin müddəalarına da bax. Həmin müddəalarda nəzərdə tutulur ki: "Üzv dövlətlər sığınacaq müraciəti ilə bağlı qərar çıxardıqları zaman ölkənin həmin hissəsində üstünlük təşkil edən ümumi vəziyyəti və ərizəçinin fərdi xüsusiyyətlərini nəzərə almalıdırlar".

[532] UNHCR, *Guidelines on International Protection No. 4: "Internal Flight or Relocation Alternative" within the Context of Article 1A(2) of the 1951 Convention and/or 1967 Protocol Relating to the Status of Refugees*, HCR/GIP/03/04, 23 July 2003, http://www.refworld.org/docid/3f2791a44.html, para. 6.

[533] UNHCR, *Guidelines on International Protection No. 4: "Internal Flight or Relocation Alternative" within the Context of Article 1A(2) of the 1951 Convention and/or 1967 Protocol Relating to the Status of Refugees*, HCR/GIP/03/04, 23 July 2003, http://www.refworld.org/docid/3f2791a44.html, para. 7.

[534] Məsələn, şimal-şərq regionunda əvvəllər insanların məcburi köçünün müşahidə edilmədiyi Taxar, Bədəxşan və Baqlan kimi vilayətlərdə 2015-ci ildə münaqişə ilə əlaqədar insanların xeyli sayda köç etməsi halları müşahidə olunub. UNHCR, *Major Situations of Conflict-Induced Displacement in the First Months of 2016*, 24 February 2016,
http://www.unhcr.af/UploadDocs/DocumentLibrary/UNHCR_Summary_note_on_conflict_IDPs_APC_24.02.2016_635924216039050000.pdf.

ərazisində əldəqayırma partlayıcı qurğulardan, yerə basdırılan minalardan və müharibədən qalma partlayıcı sursatlardan (MQPS) geniş istifadə ilə əlaqədar risklərin, yollarda hücumların və döyüşlərin doğurduğu risklərin və vətəndaşların hərəkət azadlığına AHE-lər tərəfindən tətbiq edilən məhdudiyyətlərin qiymətləndirilməsini zəruri edir.[535]

Ərizəçi dövlət və ya onun nümayəndələri tərəfindən təqib ediləcəyindən əsaslı olaraq ehtiyatlanırsa, belə güman edilir ki, onun dövlətin nəzarətində olan ərazilərə köçürülməsinin nəzərdən keçirilməsi məqsədəuyğun deyil.[536]
AHE-lərin faktiki nəzarəti altında olan ərazilərdə onlar tərəfindən insan hüquqlarının ciddi və geniş yayılmış pozuntuları barədə mövcud məlumatları, habelə dövlətin bu ərazilərdə bu cür pozuntulara qarşı müdafiəni təmin etmək iqtidarında olmadığını nəzərə alaraq, BMTQAK hesab edir ki, ölkədə AHE-lərin faktiki nəzarəti altında olan ərazilərə köçürülmə mümkün deyil. Bu zaman müdafiəyə ehtiyacı olan yalnız o şəxslər istisna təşkil edə bilər ki, təklif olunan məskunlaşma ərazisində AHE-lərin rəhbərliyi ilə öncədən əlaqələr qurmuş olsunlar.
BMTQAK hesab edir ki, təqiblərin kim tərəfindən həyata keçirilməsindən asılı olmayaraq, münaqişənin davam etdiyi ərazilərə köçürülmə mümkün deyil.
Təqibi həyata keçirənlər anti-hökumət elementləridirsə, onların təhlükə altında olan şəxsi təklif olunan məskunlaşma ərazisində təqib edib-etməyəcəklərini nəzərə almaq lazımdır. Bəzi anti-hökumət elementlərinin geniş coğrafi ərazilərdə fəaliyyət göstərdiyini nəzərə alsaq, həmin qrupların hədəfinə çevrilmək təhlükəsi altında olan şəxslər üçün köçəcəkləri ərazilər əlçatan olmaya bilər. Talibanın, Haqqani şəbəkəsinin, Himətyarın Hezbi-İslam Partiyasının, İŞİD-lə əlaqəli olduqlarını iddia edən qrupların və digər silahlı qrupların ölkənin bütün hissələrində, o cümlədən AHE-lərin faktiki nəzarəti altında olmayan ərazilərdə silahlı hücumları həyata keçirmək iqtidarında olduqlarını nəzərə almaq xüsusilə vacibdir, məsələn, hökumətyönlü qüvvələrin faktiki nəzarəti altında olan şəhər ərazilərində böyük rezonans doğuran kompleks hücumların tez-tez baş verməsi barədə məlumatlar bunu təsdiq edir.[537]
Təhlükə altında olan ərizəçi təklif olunan məskunlaşma ərazilərində AHE-lər tərəfindən təqib və ya ciddi ziyan riskinə məruz qala bilərsə, qeyri-effektiv idarəetmə və yüksək səviyyəli korrupsiya ucbatından dövlətin insanların müdafiəsini təmin etmək imkanının məhdudluğu ilə əlaqədar II.C bölməsində qeyd edilən dəlillər nəzərə alınmalıdır.
Ənənəvi zərərli praktika və ittihamedici dini normalar nəticəsində zərər çəkəcəklərindən ehtiyatlanan şəxslər, məsələn, qadınlar və uşaqlar və seksual oriyentasiyası və (və ya) cinsi identikliyi fərqli olan şəxslər qrupuna aid olanlar barəsində cəmiyyətin geniş təbəqələri və ümummilli və yerli idarəetmənin bütün səviyyələrində nüfuzlu mühafizəkar elementlər tərəfindən bu cür praktika və normaların təqdir edilməsi bu şəxslərin ölkə daxilində köçürülməsinin məqsədəuyğunluğunun əleyhinə dəlalət edən amil kimi nəzərə alınmalıdır.

### *2. Əsaslılığın təhlili*

---

[535] Əfqanıstanın bir çox ərazilərinə sağ-salamat gedib çıxmaq mümkün deyil, çünki əsas yolların bir çoxu təhlükəli hesab olunur. Qiymətləndirmə aparanlar ölkədəki cari vəziyyəti və bu məsələ ilə bağlı riskləri diqqətlə nəzərdən keçirməlidirlər. Misal üçün bax: UN Secretary-General, *The Situation in Afghanistan and Its Implications for International Peace and Security: Report of the Secretary-General*, 7 March 2016, A/70/775–S/2016/218, http://www.refworld.org/docid/56f2667d4.html; UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html.

[536] UNHCR, *Guidelines on International Protection No. 4: "Internal Flight or Relocation Alternative" within the Context of Article 1A(2) of the 1951 Convention and/or 1967 Protocol Relating to the Status of Refugees*, HCR/GIP/03/04, 23 July 2003, http://www.refworld.org/docid/3f2791a44.html, paras 7, 13, 27.

[537] Misal üçün bax: Al Jazeera, *Suicide Attacks Kill Dozens in Afghanistan*, 27 February 2016, http://www.aljazeera.com/news/2016/02/suicidebomber-kills-11-eastern-afghanistan-160227062901757.html; Al Jazeera, *Deadly Suicide Attack Rocks Afghanistan's Capital*, 1 February 2016, http://www.aljazeera.com/news/2016/02/suicide-attack-rocks-afghan-capital-police-160201093751757.html; UN News Service, *Security Council Deplores Latest Terrorist Attacks in Afghan Capital*, 9 August 2015, http://www.refworld.org/docid/55c84f9e1f7.html.

Ölkədaxili köçürülmənin "əsaslı" olub-olmaması hər bir ayrıca halın konkret xüsusiyyətləri əsasında müəyyənləşdirilməli, bu zaman ərizəçinin fərdi xüsusiyyətləri, o cümlədən keçmişdəki hər hansı təqiblərin ərizəçiyə təsirləri nəzərə alınmalıdır.[538] Nəzərə alınmalı olan digər amillər sırasına təklif olunan məskunlaşma ərazisində əmin-amanlıq və təhlükəsizliklə bağlı vəziyyət, insan hüquqlarına nə dərəcədə riayət edilməsi və layiqli şərtlərlə iqtisadi dirçəliş imkanları daxildir.[539]

BMTQAK hesab edir ki, münaqişənin davam etdiyi ərazilərə köçürülmə mümkün deyil. Əfqanıstanın digər ərazilərinə gəlincə, oraya köçürülmə yalnız o halda mümkün ola bilər ki, ərizəçi orada təhlükələrə və xəsarət riskinə məruz qalmadan əmin-amanlıq və təhlükəsizlik şəraitində yaşaya bilsin. Bu şərait davamlı olmalı, xəyali və ya proqnozlaşdırıla bilməyən şərait olmamalıdır.[540] Əfqanıstanda münaqişənin təsirinə məruz qalan vilayətlərin və əhalinin məcburi köçkün düşməsi hallarının sayının artması; cəbhə xətlərinin yerinin sürətlə dəyişməsi; və münaqişə tərəflərinin çoxunun tutduqları əraziləri əllərində saxlaya bilməməsi də nəzərə alınmalı olan amillərdir. Bu Rəhbər prinsiplərin II.B bölməsində təqdim edilən informasiyalar, habelə təklif olunan məskunlaşma ərazisindəki təhlükəsizlik şəraiti barəsində mötəbər və yenilənən məlumatlar təklif olunan ölkədaxili köçürülmənin əsaslılığının qiymətləndirilməsində mühüm elementlər ola bilər.[541]

Anti-hökumət elementlərinin faktiki nəzarəti altında olan ərazilərdə onlar tərəfindən insan hüquqlarının ciddi və geniş yayılmış pozuntuları barədə bu Rəhbər prinsiplərin II.C bölməsində təqdim edilən mövcud məlumatları, habelə dövlətin bu ərazilərdə bu cür pozuntulara qarşı fərdlərin müdafiəsini təmin etmək iqtidarında olmadığını nəzərə alaraq, BMTQAK hesab edir ki, ölkədə AHE-lərin faktiki nəzarəti altında ərazilərə köçürülmə üçün əsas yoxdur və bu zaman yalnız o ərizəçilər istisna təşkil edə bilər ki, təklif olunan məskunlaşma ərazisində anti-hökumət elementlərinin rəhbərliyi ilə öncədən əlaqələr qurmuş olsunlar (bu halda aşağıdakı 1-4-cü bəndlərdə göstərilən şərtlərin mövcud olması tələb olunur).

Əfqanıstanın qalan ərazilərinə, yəni aktiv silahlı münaqişənin təsirinə məruz qalmayan və ya AHE-lərin nəzarətində olmayan ərazilərə alternativ variant qismində təklif olunan ölkədaxili köçürülmənin və ya yerdəyişmənin əsaslılığını qiymətləndirərkən aşağıdakılara xüsusi diqqət yetirilməlidir:

1) ərizəçinin geniş mənada götürülən ailə üzvlərinin və ya mənsub olduğu etnik qrupun üzvlərinin təqdim etdiyi ənənəvi yardım mexanizmlərinin faktiki mövcudluğuna;
2) təklif olunan məskunlaşma ərazisində sığınacaqla təmin edilmə imkanına;
3) təklif olunan məskunlaşma ərazisində zəruri infrastrukturun mövcudluğuna və zəruri xidmətlərlə, məsələn, içməli su ilə, sanitariya, səhiyyə və təhsil xidmətləri ilə təmin edilmə imkanına;
4) yaşayış üçün vasitələrin olmasına, o cümlədən kənd yerlərindən olan əfqanların torpaqlardan istifadə imkanlarına;[542] və
5) təklif olunan məskunlaşma ərazisində ölkədaxili köçkünlüyün miqyasına.

Ərizəçilər geniş mənada götürülən ailə üzvlərinin və ya mənsub olduqları etnik qrupun üzvlərinin yardımından yararlana bilərlər. Lakin belə ənənəvi yardım imkanlarının olması yalnız o halda təklif olunan ölkədaxili köçürülmənin lehinə dəlalət edən amil sayıla bilər ki, təhlükə altında olan şəxsin geniş mənada ailəsi və ya mənsub olduğu etnik qrup ona praktiki olaraq

---

538 UNHCR, *Guidelines on International Protection No. 4: "Internal Flight or Relocation Alternative" within the Context of Article 1A(2) of the 1951 Convention and/or 1967 Protocol Relating to the Status of Refugees*, HCR/GIP/03/04, 23 July 2003, http://www.refworld.org/docid/3f2791a44.html, paras 25-26.

539 UNHCR, *ibid*., paras. 24, 27-30.

540 Bax: UNHCR, *ibid*., para. 27.

541 Bax: UNHCR, *ibid*., para. 28.

542 Kənd yerlərindən olan əfqanlar, kənd təsərrüfatı və heyvandarlıq istisna olmaqla, tələbat olan sahələrdə peşə bacarıqları aşağı olduğuna görə hər hansı yerdə cəmiyyətə yenidən inteqrasiya olunmaqda daha çox çətinlik çəkə bilərlər. Yəqin ki, onların yığdıqları pul əmanətləri və mülkiyyətləri olmur (çünki mülkiyyətləri dağıdılmış, talan edilmiş olur və ya məcburi köç zamanı tərk edilmiş olur) və yenidən məskunlaşdıqları yerdə onlara yardım edən icmalar da olmur və hətta onlar dil və ya dialekt məhdudiyyətləri səbəbindən ünsiyyətdə də çətinlik şəkə bilərlər.

həqiqi yardım göstərmək istəyində və iqtidarında olsun, çünki nəzərə almaq lazımdır ki, Əfqanıstanın humanitar göstəriciləri və inkişaf indikatorları aşağıdır və əhalinin geniş təbəqələri böyük iqtisadi sıxıntıların təsiri altındadır.[543] Bundan başqa, təhlükə altında olan şəxsə təklif olunan məskunlaşma ərazisində onunla eyni etnik köklərə malik şəxslərin olması özlüyündə buna dəlalət edən amil sayıla bilməz ki, həmin şəxs həmin etnik icmaların əhəmiyyətli yardımından yararlana biləcək, belə ki, həmin etnik icmaların ayrı-ayrı üzvləri ilə onu birləşdirən sosial münasibətlər öncədən qurulmadığı halda bu mümkün olmaya bilər.[544] Xaricdə müəyyən müddət qaldıqdan sonra Əfqanıstana qayıdanların cəmiyyət tərəfindən damğalandığı və ayrı-seçkiliyə məruz qaldığı barədə məlumatların işığında ərizəçilərin onlara təklif olunan məskunlaşma ərazisində öz ailə üzvlərinin yardımına nə dərəcədə güvənə biləcəyi də nəzərdən keçirilməlidir.[545]

---

[543] 2015-ci ilin may-iyun aylarında Əfqanıstanda ərzaq təhlükəsizliyi və kənd təsərrüfatı göstəriciləri üzrə aparılmış tədqiqatın nəticələrinə əsasən, əhalinin 5,9 faizi (1,57 milyon nəfər) ərzaq çatışmazlığından ciddi surətdə əziyyət çəkir, müqayisə üçün qeyd edək ki, 2014-cü ildə bu göstərici 4,7 faiz idi. Əhalinin digər 27,5 faizi (7,3 milyon nəfər) ərzaq çatışmazlığından müəyyən dərəcədə əziyyət çəkir. Həmçinin tədqiqat göstərdi ki, ərzaq çatışmazlığından ciddi surətdə əziyyət çəkən, qarşılaşdıqları bu fövqəladə problemin öhdəsindən gəlmək imkanları tükənən insanların say nisbəti artıb ki, bu da bir çoxlarının torpaqlarını satmaq, uşaqlarını məktəbdən çıxarıb işləməyə göndərmək, yaxud qohumlarının yardımından asılı olmaq məcburiyyətində qalması deməkdir. Food Security and Agricultural Cluster Afghanistan, *Seasonal Food Security Assessment (SFSA) May-June 2015 Afghanistan*, 31 August 2015, http://foodsecuritycluster.net/sites/default/files/SFSA_2015_Final_0.pdf, pp. 5-7. Evlərinə məcburi köçkünlərin sığındığı ailələrin özləri ehtiyatlarını tükəndirmək təhlükəsi altındadırlar. Misal üçün bax: UNHCR, *Afghanistan - Conflict-Induced Internal Displacement Monthly Update*, May 2015, http://www.refworld.org/docid/5594f2544.html, p. 3.

[544] Şəhər ərazilərində köməksiz vəziyyətdə olan ailələrin icma səviyyəsində qeyri-rəsmi qaydada borc almasına və icmadaxili xeyriyyəçilikdən yararlanmasına imkan yaradan müəyyən yardım şəbəkələri mövcud olsa da, məlumatlara əsasən belə mexanizmlər azalmaqdadır və əraziyə yeni gəlmiş məcburi köçkünlər bu mexanizmlərdən kənarda qala bilərlər. Samuel Hall Consulting, *Urban Poverty Report: A Study of Poverty, Food Insecurity and Resilience in Afghan Cities (report commissioned by Danish Refugee Council and People in Need)*, November 2014, http://samuelhall.org/wp-content/uploads/2014/11/DRC-PIN-Urban-Poverty-Report.pdf, p. 9. Qonaqların özlərini ev sahiblərinə qarşı xoşməramlı şəxslər kimi qələmə verməsi, amma sonradan onlara "hücumlar etməsi" hallarının çoxalması, məlumatlara görə, "Puştunvali"də nəzərdə tutulmuş ənənələrin və ciddi qonaqpərvərlik qaydalarının zəifləməsinə səbəb olub. New York Times, *Afghans See a Collapse of Tradition in a Spate of Devious Attacks*, 3 September 2015, http://www.nytimes.com/2015/09/04/world/asia/afghans-see-devious-attacks-assign-of-wars-toll-on-traditional-values.html. Geri qayıdanlar, məlumatlara əsasən, təhlükəsizliklə bağlı vəziyyətin pisləşməsi ucbatından "sonda əhali ilə dolu Kabula yollanırlar ki, bu da onları Əfqanıstanda yaşaya bilmək üçün zəruri olan ailə şəbəkəsindən uzaq salır". Reuters, *Sent Back from Europe, Some Afghans Prepare to Try Again*, 16 November 2015, http://www.reuters.com/article/2015/11/16/us-afghanistan-migrants-insight-idUSKCN0T50E020151116. Əfqanıstanın Miqrantlara Məsləhət və Yardım Təşkilatının bildirdiyinə görə, "geri qayıdanlar arasında çoxlu sayda eləələri var ki, Əfqanıstanı azyaşlı ikən tərk etmişdilər və indi Əfqanıstana qayıdıblar. Təşkilatın müsahibə apardığı oğlanların çoxu ailələrini illərlə axtarıblar və onlardan heç bir soraq ala bilmədikdən sonra əllərini onlardan üzüblər. İndi onlar tənha yaşayırlar". UNICEF, *Child Notice Afghanistan*, November 2015, http://www.refworld.org/docid/56430b2d4.html.

[545] Məlumatlara əsasən ailə şəbəkəsi geri qayıdanlara yardım göstərilməsində və onların yaşayış vasitələri ilə təmin olunmasında mühüm rol oynayır. Lakin geri qayıtmış şəxsin ailəsinin adına ləkə gətirdiyi, o cümlədən Qərb mədəniyyətinin təsiri altına düşdüyü hesab edilərsə, bu yardım göstərilməyə bilər. Schuster, L. & Majidi, N., *What Happens Post-Deportation? The Experience of Deported Afghans*, 2013, Migration studies, 1(2), pp. 221-240, http://openaccess.city.ac.uk/4717/1/2013%20Schuster%20Majidi%20.pdf. Birləşmiş Krallıqdan Əfqanıstana qayıtmış gənc əfqanlar qrupunun sonrakı taleyini izləmiş Qaçqınlara Dəstək Şəbəkəsinin (QDŞ) bildirdiyinə görə, "sadəcə Əfqanıstanda ailələrinin olması geri qayıdanların müdafiə ilə təmin olunacaqları demək deyil. Birləşmiş Krallıqdan qayıtmış bəzi gənclər mühacirətləri ilə bağlı ailələrinin ümidlərini doğrultmadıqlarına görə ailələri tərəfindən xoş qarşılanmırlar, geri qayıtmış digər gənclərə gəlincə, ailələrinin maddi imkanları onları təmin etmək üçün olduqca az olur". QDŞ həmçinin qeyd edib ki, sonrakı taleləri izlənmiş gənclərin çoxu geri qayıtdıqdan sonra ailələri ilə yenidən əlaqə yaratmağa səy göstəriblər, təhsillərini davam etdirməyin və daimi iş tapmağın mümkün olmadığını görüblər və ruhi sağlamlıqları ilə bağlı problemlər yaşayıblar və emosional durumları uzun müddətə pisləşib. RSN, *After Return: Documenting The Experiences of Young People Forcibly Removed to Afghanistan*, April 2016, https://refugeesupportnetwork.org/sites/default/files/files/After%20Return_RSN_April%202016.pdf, pp. 6, 22. 2015-ci ilin noyabrında ABŞ Sülh İnstitutunun (USIP) Kabulda apardığı müsahibələrə əsasən, "qaçqınların cəmiyyətə təkrar inteqrasiyasında iştirak edən QHT-lər xüsusən gənclərin üzləşdiyi problemlər haqqında, o cümlədən xüsusilə şəhər yerlərində onların cəmiyyət ilə münasibətlərində yadlaşma və ayrı-seçkiliyə məruz qalma

Məskunlaşma üçün təklif olunan ərazi təhlükə altında olan şəxsin bəlli bir yaşayış yerinə və yaşayış vasitələri əldə etmək imkanına malik ola bilməyəcəyi və oradakı icmaların əhəmiyyətli yardımına ümid edə bilməyəcəyi şəhər ərazisidirsə, həmin şəxs, yəqin ki, şəhər yerindəki digər məcburi köçkünlərin düşdüyü vəziyyətlə müqayisə oluna bilən vəziyyətə düşəcək. Qiymətləndirmə aparanlar bu nəticənin əsaslığını qiymətləndirmək üçün potensial köçürülmə ərazisində məcburi köçkünlərin məskunlaşmasının miqyasını və onların həmin yerdəki yaşayış şəraitini nəzərə almalıdırlar. Bu məsələ ilə bağlı əhəmiyyətli mülahizələr sırasına bunlar daxildir: məcburi köçkünlər Əfqanıstanda ən əlverişsiz vəziyyətdə olan qruplardan biri hesab olunurlar və onların çoxu ilə əlaqə yaratmaq humanitar təşkilatlar üçün əlçatmazdır;[546] həmçinin şəhərdə yaşayan məcburi köçkünlər arasında işsizliyin miqyasının xüsusilə geniş olması səbəbindən onların məcburi köçkün olmayan yoxsul şəhərlilərdən daha əlverişsiz vəziyyətdə olduqları barədə məlumatlar var; habelə onların su təchizatına və sanitariya xidmətlərinə çıxışı və qida ilə daimi təmin edilmə imkanları məhduddur.[547] Həmçinin adekvat mənzillə təmin edilmə imkanlarının, o cümlədən konkret olaraq məcburi köçkünlər üçün belə imkanların məhdud olması, eləcə də məlumatlara əsasən mənzillərin paylanması sisteminin düzgün idarə olunmaması və korrupsiyaya uğraması da nəzərə alınmalıdır (həmçinin II.E bölməsinə bax).[548]
Valideynləri tərəfindən müşayiət olunmayan və ya onlardan ayrı düşən uşaqların xüsusi vəziyyəti, habelə dövlətlərin Uşaq hüquqları haqqında Konvensiyada nəzərdə tutulmuş hüquqi öhdəlikləri (xüsusən uşaqlara aid bütün qərarların qəbulu zamanı uşaqların üstün maraqlarını təmin etmək və uşaqların yaşının və yetkinlik səviyyəsinin imkan verdiyi dərəcədə rəylərini nəzərə almaq öhdəlikləri) ölkədaxili köçürülmənin əsaslılığı qiymətləndirilən zaman nəzərə alınmalıdır.[549] Qiymətləndirmə aparanlar bu fakta lazımi diqqət yetirməlidirlər ki, böyüklər üçün

---

hissi keçirdikləri barədə məlumat veriblər". USIP, *The Forced Return of Afghan Refugees and Implications for Stability*, January 2016, http://www.usip.org/sites/default/files/PB199-The-Forced-Return-of-Afghan-Refugees-and-Implications-for-Stability.pdf, p. 3. Geri qayıdanlar, məlumatlara görə, Avropada "qərbləşdikləri" və ya "anti-islamçılara" çevrildikləri barədə ümumi mülahizə ilə qarşılaşırlar. Həmçinin məlumatlara əsasən çoxları ailələrinin ümidlərini doğrultmadıqlarını və maddi cəhətdən ailə üçün yükə çevrildiklərini düşünürlər. PRIO, *Can Afghans Reintegrate after Assisted Return from Europe?*, July 2015, http://file.prio.no/publication_files/PRIO/Oeppen%20-%20Can%20Afghans%20Reintegrate%20after%20Assisted%20Return%20from%20Europe,%20PRIO%20Policy%20Brief%207-2015.pdf. Həmçinin bax: BBC, *The Young People Sent Back to Afghanistan*, 17 July 2015, http://www.bbc.com/news/magazine-33524193; Catherine Gladwell, “No Longer a Child: from the UK to Afghanistan”, *Forced Migration Review*, Issue 44, September 2013, http://www.fmreview.org/en/detention.pdf, pp. 63-64.

[546] "Samuel Holl Konsaltinq", NRC/IDMS (Norveç Qaçqınlar Şurasının təsis etdiyi Məcburi köçkünlüyün monitorinqi mərkəzi) və JIPS (Məcburi köçkünlərin durumunun müştərək tədqiqi xidməti) tərəfindən 2012-ci ildə aparılmış birgə araşdırma nəticəsində müəyyən edildi ki, "müsahibə aparılmış məcburi köçkünlərin təxminən 90 faizi son dərəcə əlverişsiz vəziyyətdə olan şəxslər sayılmalıdır, belə ki, onların sosial-iqtisadi durumu nəinki orta ümummilli səviyyədən aşağıdır, həm də onların yaşayış şəraitinin həyat üçün təhlükəli olması riski böyükdür". Samuel Hall Consulting, *Challenges of IDP Protection: Research Study on the Protection of Internally Displaced Persons in Afghanistan*, November 2012, https://www.nrc.no/arch/_img/9154086.pdf, p. 22. Həmçinin bax: UNHCR, *Afghanistan: Conflict-Induced Internal Displacement Monthly Update*, June 2015, http://www.refworld.org/docid/55ba09dc4.html; OCHA, *Afghanistan 2015 Humanitarian Response Plan: Mid-Year Review of Financing, Achievements and Response Challenges*, 18 August 2015, http://reliefweb.int/report/afghanistan/afghanistan-2015-humanitarianresponse-plan-mid-year-review-financing, p. 4. Həmçinin II.E bölməsinə bax.

[547] Əlavə təfsilatlar üçün II.E bölməsinə bax.

[548] Government of the Islamic Republic of Afghanistan, *The State of Afghan Cities 2015*, September 2015, http://unhabitat.org/books/soac2015/, p.17. See also NRC/IDMC, *Still at Risk: Security of Tenure and the Forced Eviction of IDPs and Refugee Returnees in Urban Afghanistan*, 11 February 2014, http://www.refworld.org/docid/52fb2aab4.html, p. 17 UNAMA, *The Stolen Lands of Afghanistan and its People – The State Land Distribution System*, March 2015, https://unama.unmissions.org/sites/default/files/unama_land_report_2_state_land_distribution_system_final_19march15_0.pdf, p. 30.

[549] UN General Assembly, *Convention on the Rights of the Child*, 20 November 1989, United Nations Treaty Series, Vol. 1577, p. 3, http://www.refworld.org/docid/3ae6b38f0.html. Həmçinin bax: UNHCR, *Special Measures Applying to the Return of Unaccompanied and Separated Children to Afghanistan*, August 2010, http://www.refworld.org/docid/4c91dbb22.html.

sadəcə bir qədər narahatlıq yaradan hal uşaq üçün böyük çətinlik törədə bilər. Bu mülahizələr valideynləri tərəfindən müşayiət olunmayan və ya onlardan ayrı düşən uşaqlara münasibətdə xüsusilə önəmlidir.[550]

Əlillər və ahıllar da daxil olmaqla xüsusi tələbatları olan şəxslərin ölkə daxilində köçürülməsinin əsaslılığını qiymətləndirərkən onların qida ilə daimi təminatının, yaşayış vasitələri əldə etmə imkanının olmamasına, habelə zəruri xidmətlərə, o cümlədən müvafiq sosial, psixoloji və tibbi yardıma çıxışının olmamasına xüsusi diqqət yetirilməlidir.

Qadınların hərəkət azadlığına qoyulan ənənəvi məhdudiyyətləri, eləcə də qadınların məşğulluq faizinin aşağı olduğunu nəzərə alaraq, BMTQAK hesab edir ki, ailənin yeganə başçısı olan və kişi cinsinə mənsub şəxsin himayəsində olmayan qadınların ölkə daxilində köçürülməsi əsaslı deyil, çünki onlar köçürüləcəkləri yerlərdə, o cümlədən şəhər ərazilərində həddən artıq məhrumiyyətlərə məruz qalmadan həyat sürmək iqtidarında deyillər və yüksək risk altında ola bilərlər.[551]

---

[550] UNHCR, *Guidelines on International Protection No. 8: Child Asylum Claims under Articles 1(A)2 and 1(F) of the 1951 Convention and/or 1967 Protocol relating to the Status of Refugees*, HCR/GIP/09/08, 22 December 2009, http://www.refworld.org/docid/4b2f4f6d2.html, paras 53-57. Həmçinin bax: *AA (unattended children) Afghanistan v. Secretary of State for the Home Department*, CG [2012] UKUT 00016 (IAC), United Kingdom: Upper Tribunal (Immigration and Asylum Chamber), 6 January 2012, http://www.refworld.org/docid/4f293e452.html. Birləşmiş Krallığın Yüksək Tribunalının İmmiqrasiya və Sığınacaq İşləri üzrə Palatası öz qərarında bildirib ki, "sübutedici məlumatlar göstərir ki, Əfqanıstana qayıtmış tənha uşaqlar, fərdi xüsusiyyətlərindən və qayıtdıqları yerdən asılı olaraq, ciddi ziyana, o cümlədən heç nəyə fərq qoyulmadan törədilən zorakılıqlara, məcburi əməyə, seksual zorakılığa, insan alverinə məruz qalma təhlükəsi ilə və uşaqların müdafiəsi üçün adekvat tədbirlərin görülməməsi riski ilə üzləşə bilərlər". (*Ibid*., para. 92). Həmçinin bax: Catherine Gladwell and Hannah Elwyn, "Broken Futures: Young Afghan Asylum Seekers in the UK and on Return to their Country of Origin", *UNHCR, New Issues in Refugee Research, Research Paper No. 246*, October 2012, http://www.unhcr.org/5098d2679.html.

[551] Aşağı Saksoniyanın Yüksək İnzibati Məhkəməsi, məlumatlara görə, qərarında müəyyən edib ki, "qərbləşmiş" əfqan qadınlar Əfqanıstana qayıdacaqları təqdirdə zorakılığa və insan hüquqlarının kobud pozuntularına məruz qala bilərlər. Deutsche Welle, *Deportation to Afghanistan: Safe or Unsafe Origin?*, 8 November 2015, http://www.dw.com/en/deportation-to-afghanistan-safe-or-unsafe-origin/a-18835069. NRC (Norveç Qaçqınlar Şurası) və Əlaqə ofisi tərəfindən aparılmış araşdırma nəticəsində müəyyən edildi ki, məcburi köçkün qadınlar, məlumatlara görə, icmanın yardımını almaq baxımından daha çox çətinliklərlə üzləşirlər, doğma yerlərindən olan insanlarla əlaqələrini itirməkdən əlavə, onlar həm də "köçdükləri yerlərdə yeni tanışlıq münasibətləri qurmaqda çətinliklər yaşayırlar, çünki evlərindən kənara çıxmalarına icazə verilmir". Araşdırmaçıların müsahibə apardıqları məcburi köçkün qadın və qızların çoxu yaşayış şəraitinin qeyri-mütənasib dərəcədə acınacaqlı olması, hərəkət imkanlarının məhdudlaşdırılması və icmanın dəstəyinin məhdud olması ucbatından "açıq-aydın məyusluq hissi nümayiş etdirdilər və çoxları ölməyi arzuladıqlarını və ya dünyaya gəlmələrinə peşman olduqlarını" bildirdilər. Norwegian Refugee Council / The Liaison Office, *Listening to Women and Girls Displaced to Urban Afghanistan*, 26 March 2015, http://www.refworld.org/docid/5513bec24.html, pp. 8, 16. Həmçinin bax: United Kingdom: Upper Tribunal (Immigration and Asylum Chamber), *AK (Article 15(c)) Afghanistan CG v. Secretary of State for the Home Department*, [2012] UKUT 00163(IAC), 18 May 2012, http://www.refworld.org/docid/4fba408b2.html. Birləşmiş Krallığın Yüksək Tribunalının İmmiqrasiya və Sığınacaq İşləri üzrə Palatası öz qərarında bildirdi ki: "Hər halda (istər Kabulda, istərsə də ölkədaxili köçürülmənin digər potensial yerlərində) qadınların müəyyən kateqoriyalarının durumu bu vəziyyətə uyğundur. Xarici İşlər Nazirliyinin hazırda əməliyyatların idarə olunmasına dair verdiyi notaların məzmunu ondan ibarətdir ki, kişilərin maddi dəstəyi ilə qadınların ölkə daxilində köçürülməsi mümkün olsa da, "tənha qadınların və ailə başçısı qadın olan ailələrin ölkə daxilində başqa yerə köçə bilməsi ağlabatan deyil" (February 2012 OGN, 3.10.8) və "Tribunal başqa cür düşünmək üçün əsas görmür". *N. İsveçə qarşı* məhkəmə işində (ərizə № 23505/09, 20 iyul 2010-cu il tarixli qərar, http://www.refworld.org/docid/4c4d4e4e2.html) Avropa İnsan Hüquqları Məhkəməsi qeyd etdi ki, Əfqanıstanda qadınların cəmiyyət, ənənələr və ya hüquq sistemi tərəfindən onlara ayrılmış qadın funksiyaları ilə razılaşmadıqları hesab edilərsə, onların qəddar rəftara məruz qalma təhlükəsi xüsusilə yüksək olur. Sadəcə iddiaçının İsveçdə yaşaması faktı onun yol verilən davranışın hüdudlarını aşması kimi qəbul edilə bilər. Onun ərindən boşanmaq istəməsi və istənilən halda daha onunla yaşamaq istəməməsi faktı Əfqanıstana qayıdacağı təqdirdə həyatına qarşı ciddi təhlükə yaradan qisasla nəticələnə bilər. Bundan başqa, məlumatlar göstərir ki, əfqanıstanlı qadınların böyük bir hissəsi məişət zorakılığına məruz qalır, dövlət orqanları isə bu hərəkətləri qanuni sayır və buna görə də məhkəmə qaydasında təqib etmirlər. Kişi cinsinə mənsub müşayiətçisi və ya "himayəçisi" olmayan qadınlar şəxsi və ya peşə həyatlarında sərt məhdudiyyətlərlə üzləşir və cəmiyyətdən kənarlaşdırılırlar. Həmçinin çox vaxt kişi qohumları onlara yardım göstərməyəndə onların sadəcə yaşayış üçün vəsaitləri olmur. Müvafiq olaraq, Məhkəmə bu qənaətə gəldi ki, N. Əfqanıstana deportasiya olunacağı təqdirdə İnsan hüquqları haqqında Avropa Konvensiyasının (İHAK) 3-cü maddəsi pozulmuş olacaq.

Bunları nəzərə alaraq BMTQAK hesab edir ki, alternativ variant kimi təklif olunan ölkədaxili köçürülmə və ya yerdəyişmə yalnız o halda əsaslı sayıla bilər ki, şəxsin: i) sığınacaqla; ii) sanitariya, tibb və səhiyyə xidmətləri ilə; və iii) dolanacaq üçün vəsaitlə təmin edilməsi mümkün olsun. Bundan əlavə, BMTQAK alternativ variant kimi təklif olunan ölkədaxili köçürülməni və ya yerdəyişməni yalnız o halda əsaslı hesab edir ki, potensial məskunlaşma ərazisində şəxs (geniş mənada götürülən) ailəsinin, yaxud özünün geniş etnik icmasının ənənəvi yardımından yararlanmaq imkanına malik olsun, özü də sonuncuların ərizəçiyə həqiqətən praktiki yardım göstərmək istəyində və imkanında olmaları qiymətləndirilərək müəyyənləşdirilməlidir.

Xüsusi tələbatları olan şəxslər, o cümlədən əlillər və ahıllar üçün alternativ variant kimi təklif olunan ölkədaxili köçürülmənin və ya yerdəyişmənin əsaslılığını müəyyənləşdirərkən bunu aydınlaşdırmaq önəmlidir ki, potensial məskunlaşma ərazisində onların (geniş mənada götürülən) ailəsinin, yaxud geniş etnik icmasının üzvləri belə şəxslərin məlum tələbatlarını davamlı (və zərurət olduqda daimi) şəkildə ödəyə biləcək yardımla onları təmin etmək istəyində və imkanındadırlarmı?

BMTQAK hesab edir ki, kənar dəstək barədə bu tələbdən istisna təşkil edən yeganə şəxslər əmək qabiliyyəti olan və yuxarıda göstərilən əlverişsiz vəziyyətdəki qruplara aid olmayan subay kişilər və nikahda olan cütlüklər ola bilər. Belə şəxslər müəyyən hallarda ən zəruri yaşayış tələbatlarını ödəmək üçün zəruri infrastruktura və yaşayış şəraitinə malik olan və hökumətin faktiki nəzarəti altında olan şəhərlərdə və şəhər tipli ərazilərdə ailələrinin və icmalarının dəstəyi olmadan yaşaya bilərlər.

Valideynləri tərəfindən müşayiət olunmayan və ya onlardan ayrı düşən əfqanıstanlı uşaqlara gəlincə, BMTQAK hesab edir ki, potensial məskunlaşma ərazisində uşağın (geniş mənada götürülən) ailəsinin və ya daha geniş etnik icmasının əhəmiyyətli yardımından yararlanmaq imkanına malik olması tələbindən əlavə, həm də bu məskunlaşmanın uşağın üstün mənafelərinə uyğun olduğu müəyyən edilməlidir. Bundan başqa, valideynləri tərəfindən müşayiət olunmayan və onlardan ayrı düşən uşaqların Əfqanıstana qayıdışı "Valideynləri tərəfindən müşayiət olunmayan və onlardan ayrı düşən uşaqların Əfqanıstana qayıdışına tətbiq edilən xüsusi tədbirlərə dair 2010-cu il memorandumu"nda[552] müəyyən edilən minimum təminatlardan asılıdır.

## C. BMTQAK-ın mandatında yer alan daha geniş meyarlar və ya regional sənədlər əsasında verilən qaçqın statusu, yaxud müdafiənin əlavə formaları ilə təmin edilmək hüququ

1951-ci il Konvensiyası qaçqınların beynəlxalq müdafiə rejiminin təməl daşını təşkil edir. 1951-ci il Konvensiyasında yer alan qaçqın statusunun müəyyənləşdirilməsi meyarları elə şərh olunmalıdır ki, bu meyarlara cavab verən şəxslər və ya şəxs qrupları lazımi qaydada qaçqın kimi tanınsın və bu sənədə uyğun olaraq müdafiə edilsin. Sığınacaq axtaran şəxs yalnız 1951-ci il Konvensiyasında yer alan qaçqın statusunun müəyyənləşdirilməsi meyarlarına cavab vermədiyi təqdirdə BMTQAK-ın mandatında yer alan daha geniş müdafiə meyarları, o cümlədən əlavə müdafiə formaları nəzərdən keçirilməlidir.[553]

Rəhbər prinsiplərin bu bölməsində 1951-ci il Konvensiyasının 1-ci maddəsinin "A" bəndində yer alan qaçqın statusu meyarlarına uyğun gəlmədiyi müəyyən edilmiş Əfqanıstandan olan sığınacaq axtaranların beynəlxalq müdafiə (himayə) ilə təmin edilmə meyarlarına uyğunluğunun müəyyən edilməsi üçün rəhbər tutulmalı olan müddəalar təqdim edilir. 1951-ci il Konvensiyasında əks olunmuş meyarlara cavab verməyən şəxslər, buna baxmayaraq, beynəlxalq müdafiəyə

[552] UNHCR, *Special Measures Applying to the Return of Unaccompanied and Separated Children to Afghanistan*, August 2010, http://www.refworld.org/docid/4c91dbb22.html.

[553] Bax: UNHCR Executive Committee, *Conclusion on the Provision on International Protection Including through Complementary Forms of Protection*, No. 103 (LVI) – 2005, 7 October 2005, http://www.refworld.org/docid/43576e292.html.

(himayəyə) ehtiyac duya bilərlər. Konkret olaraq, 1951-ci il Konvensiyasında göstərilən səbəblərlə əlaqədar olmayan zorakılıq situasiyalarından qurtulmaq üçün qaçan şəxslər BMTQAK-ın mandatında yer alan daha geniş meyarların, yaxud regional sənədlərdə əks olunmuş meyarların şərtlərinə uyğun gələn şəxs hesab edilə bilərlər.[554]

Əfqanıstandakı münaqişənin dəyişkən xarakteri nəzərə alınaraq, BMTQAK-ın mandatında yer alan daha geniş meyarlar və ya regional sənədlər əsasında beynəlxalq müdafiə üçün, yaxud müdafiənin əlavə formaları ilə, o cümlədən Avropa İttifaqının 2011-ci il tarixli Uyğunluq Direktivinin 15-ci maddəsi əsasında yardımçı müdafiə ilə təmin edilmək üçün əfqanların təqdim etdikləri ərizələrin hər biri diqqətlə nəzərdən keçirilməli və bu zaman ərizəçinin təqdim etdiyi sübutlar, habelə Əfqanıstandakı vəziyyət barədə digər cari və mötəbər məlumatlar nəzərə alınmalıdır.

### ***1. BMTQAK-ın mandatında yer alan daha geniş meyarlar və ya regional sənədlər əsasında verilən qaçqın statusu***

#### *a) BMTQAK-ın mandatında yer alan daha geniş meyarlar əsasında verilən qaçqın statusu*

BMTQAK-ın mandatı 1951-ci il Konvensiyasında və ona əlavə olunmuş 1967-ci il Protokolunda nəzərdə tutulan qaçqınlıq meyarlarına cavab verən şəxsləri əhatə edir,[555] lakin bu mandat BMT Baş Assambleyasının və BMT-nin İqtisadi və Sosial Şurasının (*ECOSOC*) ardıcıl olaraq qəbul etdikləri qətnamələr vasitəsilə genişləndirilib və heç nəyə fərq qoyulmadan törədilən zorakılıqlardan və ya ictimai iğtişaşlardan doğan məcburi köçkünlüklə bağlı digər vəziyyətlərə də şamil olunur.[556] Bu təkamülün işığında BMTQAK-ın qaçqınları beynəlxalq müdafiə ilə təmin etmək səlahiyyəti öz mənşə ölkələrindən və ya adətən yaşadıqları ölkədən kənarda olan və geniş zorakılıqlar və ya ictimai asayişi ciddi şəkildə pozan hadisələr nəticəsində həyatına, fiziki toxunulmazlığına və ya azadlığına qarşı yaranan ciddi təhlükələr ucbatından oraya qayıda bilməyən və ya qayıtmaq istəməyən şəxslərə də şamil olunur.[557]
Əfqanıstan kontekstində geniş zorakılıqlar nəticəsində şəxsin həyatına, fiziki toxunulmazlığına və ya azadlığına qarşı yaranan ciddi təhlükənin qiymətləndirilməsi üçün göstəricilər (indikatorlar) sırasına bunlar daxildir: i) heç nəyə fərq qoyulmadan törədilən zorakılıq aktları, o cümlədən bombalama, hava zərbələri, intiharçı bomba hücumları, əldəqayırma partlayıcı qurğuların və yerə basdırılmış minaların partlayışları (II.B.1-ci bölməyə bax) nəticəsində zərər çəkən mülki şəxslərin sayı; ii) münaqişə ilə əlaqədar olan təhlükəsizliklə bağlı insidentlərin sayı

---

[554] Qaçqın anlayışının yer aldığı regional sənədlər üçün 1969-cu il tarixli ABT Konvensiyasına bax: Organization of African Unity, *Convention Governing the Specific Aspects of Refugee Problems in Africa ("OAU Convention"),* 10 September 1969, 1001 U.N.T.S. 45, http://www.refworld.org/docid/3ae6b36018.html; həmçinin Katraxena Bəyannaməsinə bax: *Cartagena Declaration on Refugees, Colloquium on the International Protection of Refugees in Central America*, Mexico and Panama, 22 November 1984, http://www.refworld.org/docid/3ae6b36ec.html. Yardımçı müdafiə formaları sırasına 2011-ci il tarixli Uyğunluq Direktivinin 15-ci maddəsində nəzərdə tutulmuş əlavə müdafiə də daxildir. European Union, *Directive 2011/95/EU of the European Parliament and of the Council on standards for the qualification of third-country nationals or stateless persons as beneficiaries of international protection, for a uniform status for refugees or for persons eligible for subsidiary protection, and for the content of the protection granted (recast)*, 13 December 2011, http://www.refworld.org/docid/4f197df02.html.
[555] UN General Assembly, *Convention Relating to the Status of Refugees*, 28 July 1951, United Nations Treaty Series, Vol. 189, p. 137, http://www.refworld.org/docid/3be01b964.html; UN General Assembly, *Protocol Relating to the Status of Refugees*, 31 January 1967, United Nations Treaty Series, Vol. 606, p. 267, http://www.refworld.org/docid/3ae6b3ae4.html.
[556] UNHCR, *Providing International Protection Including Through Complementary Forms of Protection*, 2 June 2005, EC/55/SC/CRP.16, available at: http://www.refworld.org/docid/47fdfb49d.html; UN General Assembly, *Note on International Protection*, 7 September 1994, A/AC.96/830, http://www.refworld.org/docid/3f0a935f2.html.
[557] Misal üçün bax: UNHCR, *MM (Iran) v. Secretary of State for the Home Department - Written Submission on Behalf of the United Nations High Commissioner for Refugees*, 3 August 2010, C5/2009/2479, http://www.refworld.org/docid/4c6aa7db2.html, para. 10.

(II.B.2-ci bölməyə bax); və iii) münaqişə ucbatından başqa yerə köçməyə məcbur olmuş şəxslərin sayı (II.E bölməsinə bax).

Lakin belə mülahizələr zorakılıqların birbaşa təsirləri ilə məhdudlaşmır. Onlar münaqişə ilə bağlı zorakılıqların uzunmüddətli və dolayı təsirlərini də əhatə edir, bunlar elə təsirlərdir ki, ayrılıqda və ya məcmu halında şəxsin həyatına, fiziki toxunulmazlığına və ya azadlığına qarşı təhlükə yaradır. Bu baxımdan II.C və II.D bölmələrində təqdim edilən aşağıdakılara dair məlumatlar əhəmiyyətli elementlər sırasına daxildir: i) mülki əhali üzərində nəzarətin AHE-lərin əlində olması, o cümlədən paralel ədliyyə strukturlarının tətbiq edilməsi və qanunsuz cəzaların təyin olunması, habelə mülki şəxslərin qorxudulması və təhdid edilməsi, hərəkət azadlığının məhdudlaşdırılması, qanunsuz olaraq ödənişlər alınması və vergilərin qoyulması; ii) döyüşçülər sırasına məcburi qaydada cəlb edilmə; iii) zorakılığın və təhlükəli durumun humanitar vəziyyətə təsir göstərməsi və bunun ərzaq təhlükəsizliyinin olmamasında, yoxsulluğun olmasında, dolanacaq vasitələrinin məhv edilməsində və mülkiyyətin itirilməsində özünü büruzə verməsi; iv) mütəşəkkil cinayətkarlığın səviyyəsinin yüksək olması və nüfuzlu şəxslərin, hərbi rəislərin və korrupsiyaya uğramış hökumət məmurlarının cəzasız fəaliyyət göstərmək imkanına malik olması; v) qeyri-sabitlik nəticəsində təhsil və ən zəruri tibbi xidmət almaq imkanlarının sistematik olaraq məhdudlaşdırılması; və vi) insanların, xüsusən də qadınların ictimai həyatda iştirak etmək imkanlarının sistematik olaraq məhdudlaşdırılması.[558]

Əfqanıstandakı müstəsna vəziyyət kontekstində ictimai asayişi ciddi şəkildə pozan hadisələr nəticəsində şəxsin həyatına, fiziki toxunulmazlığına və ya azadlığına qarşı yaranan ciddi təhlükənin qiymətləndirilməsi üçün əhəmiyyət kəsb edən mülahizələrə bu fakt da daxildir ki, hökumət ölkənin müəyyən hissələrində faktiki nəzarəti itirərək AHR-lərə verib və mülki şəxsləri müdafiə ilə təmin etməyə qadir deyil. Mövcud məlumatlar göstərir ki, bu ərazilərdə insanların həyatının mühüm aspektləri üzərində nəzarətin həyata keçirilməsi repressiv və məcburedici xarakter daşıyır və qanunun aliliyinə və insan ləyaqətinə hörmətə əsaslanan ictimai qaydaya xələl gətirir. Belə vəziyyətlər insan hüquqlarının pozuntularının geniş yayıldığı mühitdə mülki əhaliyə qarşı yönələn təhdidlərdən və zorakılıqlardan sistematik istifadə edilməsi ilə səciyyələnir.

Bunları nəzərə alaraq BMTQAK hesab edir ki, hökumətyönlü qüvvələrlə AHE-lər arasında davam etməkdə olan münaqişənin, yaxud müxtəlif AHE-lər arasında münaqişənin təsirinə məruz qalan ərazilərdən və ya (yuxarıda xarakterizə olunmuş) AHE-lərin faktiki nəzarəti altındakı ərazilərdən olan şəxslər, hər bir konkret işin fərdi hallarından asılı olaraq, beynəlxalq müdafiəyə (himayəyə) ehtiyac duya bilərlər. 1951-ci il Konvensiyasında yer alan qaçqınlıq meyarlarına cavab vermədiyi müəyyən edilən şəxslər geniş zorakılıqlar və ya ictimai asayişi ciddi şəkildə pozan hadisələr nəticəsində həyatlarına, fiziki toxunulmazlıqlarına və ya azadlıqlarına qarşı ciddi təhlükələr yaranması səbəbindən BMTQAK-ın daha geniş mandatı çərçivəsində beynəlxalq müdafiəyə ehtiyacı olan şəxslər sayıla bilərlər.

### *b) Regional sənədlər əsasında verilən qaçqın statusu*

Afrikada qaçqın problemlərinin konkret aspektlərini tənzimləyən ABT-nin 1969-cu il Konvensiyasının iştirakçısı olan ölkələrdə beynəlxalq müdafiə üçün müraciət edən əfqanlar və mənşəcə Əfqanıstandan olan digər şəxslər Əfqanıstanın hər hansı hissəsində və ya bütün ərazisində ictimai asayişə ciddi xələl gətirən hadisələr ucbatından adətən yaşadıqları yeri tərk etməyə məcbur olduqlarına görə həmin Konvensiyanın I maddəsinin 2-ci bəndi əsasında qaçqın statusu meyarlarına cavab verən şəxslər sayıla bilərlər.[559]

---

[558] UNHCR, *Summary Conclusions on International Protection of Persons Fleeing Armed Conflict and Other Situations of Violence; Roundtable 13 and 14 September 2012, Cape Town, South Africa*, 20 December 2012, http://www.refworld.org/docid/50d32e5e2.html, paras 10-12.

[559] Afrika Birliyi Təşkilatı: Afrikada qaçqın problemlərinin konkret aspektlərini tənzimləyən Konvensiya ("ABT Konvensiyası"), 10 sentyabr 1969-cu il (Organization of African Unity, Convention Governing the Specific Aspects of Refugee Problems in Africa ("OAU Convention"), 10 September 1969, 1001 U.N.T.S. 45,

ABT-nin 1969-cu il Konvensiyası kontekstində "ictimai asayişə ciddi xələl gətirən hadisələr" ifadəsi mülki şəxslərin həyatını, azadlığını və ya təhlükəsizliyini təhdid edən, habelə ictimai asayişi hər hansı digər formada ciddi şəkildə pozan münaqişə və ya zorakılıq vəziyyətlərini əhatə edir.[560] Yuxarıda göstərilən eyni səbəblərə görə BMTQAK hesab edir ki, hökumətyönlü qüvvələrlə AHE-lər arasında, yaxud da müxtəlif AHE-lər arasında ərazilərə nəzarət uğrunda mübarizənin tərkib hissəsi qismində davam etməkdə olan münaqişənin təsirinə məruz qalan ərazilər, eləcə də Əfqanıstanın AHE-lərin faktiki nəzarəti altında olan əraziləri ictimai asayişə ciddi xələl gətirən hadisələrin təsirinə məruz qalan ərazilər hesab olunmalıdır. Müvafiq olaraq, BMTQAK hesab edir ki, ABT-nin 1969-cu il Konvensiyasının I maddəsinin 2-ci bəndinin şərtlərinə əsasən belə ərazilərdən olan və Qaçqınların statusuna dair 1951-i il Konvensiyasının meyarlarına uyğun gəldiyi müəyyənləşdirilən şəxslər ictimai asayişə ciddi xələl gətirən hadisələrlə əlaqədar olaraq həyatlarına, fiziki toxunulmazlıqlarına və ya azadlıqlarına qarşı ciddi təhlükələr yaranması səbəbindən adətən yaşadıqları yeri tərk etməyə məcbur olduqlarına görə beynəlxalq müdafiəyə (himayəyə) ehtiyac duya bilərlər.

*c) Kartaxena Bəyannaməsi əsasında verilən qaçqın statusu*

Qaçqınlar haqqında Kartaxena Bəyannaməsinin ("Kartaxena Bəyannaməsi") müddəalarını öz milli qanunvericiliyinə daxil etmiş hər hansı ölkədə sığınacaq axtaran, beynəlxalq müdafiəyə ehtiyacı olan əfqanlar geniş zorakılıq, ölkədaxili münaqişə, insan hüquqlarının kütləvi pozuntuları ilə və ya ictimai asayişə ciddi xələl gətirən digər hallarla əlaqədar olaraq həyatlarına, fiziki toxunulmazlıqlarına və ya azadlıqlarına qarşı təhlükələr yaranması səbəbindən qaçqın statusunun meyarlarına cavab verən şəxslər hesab edilə bilərlər.[561]

BMTQAK-ın daha geniş mandatı ilə və ABT-nin 1969-cu il Konvensiyası ilə bağlı yuxarıda qeyd edilən mülahizələri (III.C.1.a və b bölmələrinə bax) nəzərə alaraq BMTQAK hesab edir ki, hökumətyönlü qüvvələrlə anti-hökumət elementləri arasında davam etməkdə olan münaqişənin təsirinə məruz qalan Əfqanıstan ərazilərindən və ya anti-hökumət elementlərinin faktiki nəzarəti altındakı ərazilərdən olan şəxslər istər münaqişə ilə bağlı birbaşa və ya dolayı formada zorakılıqlar nəticəsində, istərsə də faktiki nəzarətləri altında olan ərazilərdə anti-hökumət elementləri tərəfindən törədilən insan hüquqlarının ciddi və geniş yayılmış pozuntuları nəticəsində ictimai asayişə ciddi xələl gətirən hallarla əlaqədar olaraq həyatlarına,

---

http://www.refworld.org/docid/3ae6b36018.html). ABT-nin 1969-cu il Konvensiyasının I maddəsində yer alan "qaçqın" termininin anlayışı Qaçqınların statusuna və onlarla rəftara dair Banqkok Prinsiplərinin ("Banqkok Prinsipləri") I maddəsinə daxil edilib. Bax: Asian-African Legal Consultative Organization (AALCO), *Bangkok Principles on the Status and Treatment of Refugees* (Final Text of the AALCO's 1966 Bangkok Principles on Status and Treatment of Refugees, as adopted on 24 June 2001 at the AALCO's 40th Session, New Delhi), http://www.refworld.org/docid/3de5f2d52.html.

[560] ABT-nin 1969-cu il Konvensiyasında yer alan "ictimai asayişə ciddi xələl gətirən hadisələr" ifadəsinin mənası ilə bağlı bu mənbələrə bax: Marina Sharpe, *The 1969 OAU Refugee Convention and the Protection of People fleeing Armed Conflict and Other Situations of Violence in the Context of Individual Refugee Status Determination*, January 2013, http://www.refworld.org/docid/50fd3edb2.html; Alice Edwards, “Refugee Status Determination in Africa”, 14 *African Journal of International and Comparative Law* 204-233 (2006); UNHCR, *Extending the Limits or Narrowing the Scope? Deconstructing the OAU Refugee Definition Thirty Years On*, April 2005, ISSN 1020-7473, http://www.refworld.org/docid/4ff168782.html.

[561] Qaçqınlar haqqında Kartaxena Bəyannaməsinin III bölməsinin 3-cü bəndi (*Cartagena Declaration on Refugees, Colloquium on the International Protection of Refugees in Central America*, Mexico and Panama, 22 November 1984, http://www.refworld.org/docid/3ae6b36ec.html). Kartaxena Bəyannaməsi məcburi hüquqi qüvvəyə malik sənədlər sırasına daxil edilməsə də, Kartaxena Bəyannaməsində yer alan "qaçqın" anlayışı regionda xüsusi önəm kəsb edir, xüsusən ona görə ki, onun müddəaları 14 dövlətin milli qanunvericiliyinə və praktikasına daxil edilib. Kartaxena Bəyannaməsində yer alan "qaçqın" anlayışının şərhinə dair tövsiyələr üçün bax: UNHCR, *Summary Conclusions on the Interpretation of the Extended Refugee Definition in the 1984 Cartagena Declaration: Roundtable 15 and 16 October 2013, Montevideo, Uruguay*, 7 July 2014, http://www.refworld.org/docid/53c52e7d4.html.

fiziki toxunulmazlıqlarına və ya azadlıqlarına qarşı ciddi təhlükələr yaranması səbəbindən Kartaxena Bəyannaməsinin şərtlərinə əsasən beynəlxalq müdafiəyə ehtiyac duya bilərlər.

### *2. BMTQAK-ın mandatında yer alan daha geniş meyarlar və ya regional sənədlər əsasında ölkədaxili köçürülmə və ya yerdəyişmə alternativi*

Ölkə daxilində başqa yerə köçürülmənin mümkünlüyü məsələsinin nəzərdən keçirilməsi, bir qayda olaraq, ABT-nin 1969-cu il Konvensiyasının I maddəsinin 2-ci bəndi əsasında qaçqın statusunun müəyyənləşdirilməsi məsələsi üçün əhəmiyyət daşımır.[562]

BMTQAK-ın mandatında yer alan daha geniş meyarlar və ya Kartaxena Bəyannaməsi əsasında beynəlxalq müdafiəyə ehtiyac duyan şəxslərin başqa yerə köçürülməsinin mümkünlüyünün qiymətləndirilməsi hər bir konkret halda təklif olunan köçürülmənin məqsədəuyğunluğunun və əsaslılığının fərdi qaydada qiymətləndirilməsini tələb edir. Qiymətləndirmə zamanı məqsədəuyğunluq meyarı ilə əsaslılıq meyarının yuxarıda III.B bölməsində qeyd olunan ayrı-ayrı elementləri tətbiq edilir.

Qaçqınların statusuna dair 1951-ci il Konvensiyası əsasında beynəlxalq müdafiə (himayə) üçün verilən ərizələrlə əlaqədar ölkədaxili köçürülmə və ya yerdəyişmə hallarında olduğu kimi (III.B.2 bölməsinə bax), BMTQAK-ın mandatında yer alan daha geniş meyarlar və ya Kartaxena Bəyannaməsi əsasında beynəlxalq müdafiəyə (himayəyə) ehtiyacı olan şəxs hesab edilənlərin barəsində də BMTQAK hesab edir ki, Əfqanıstanda Talibanın və (və ya) digər AHE-lərin faktiki nəzarəti altında olan ərazilərə onların köçürülməsi mümkün deyil, bu zaman müdafiəyə ehtiyacı olan yalnız o ərizəçilər istisna təşkil edə bilər ki, təklif olunan məskunlaşma ərazisində AHE-lərin rəhbərliyi ilə öncədən əlaqələr qurmuş olsunlar.[563] BMTQAK hesab edir ki, münaqişənin davam etdiyi ərazilərə də köçürülmə mümkün deyil.[564]

### *3. Avropa İttifaqının Uyğunluq Direktivində nəzərdə tutulmuş yardımçı müdafiə ilə təmin edilmək hüququ*

Avropa İttifaqının (Aİ) üzvü olan ölkələrdə beynəlxalq müdafiə axtaran və 1951-ci il Konvensiyasına əsasən qaçqın hesab edilməyən əfqanlar, əgər onların Əfqanıstanda ciddi zərərə məruz qalma təhlükəsi ilə qarşılaşacaqlarını güman etmək üçün əsaslı səbəblər olarsa, 2011-ci il tarixli Uyğunluq Direktivinin 15-ci maddəsinə əsasən yardımçı müdafiəyə ehtiyacı olan şəxslər hesab oluna bilərlər.[565] Bu Rəhbər prinsiplərin II.C bölməsində qeyd edilən dəlillər nəzərə alınaraq, ərizəçilər istər dövlət və ya onun nümayəndələri, istərsə də anti-hökumət elementləri

---

[562] UNHCR, *Guidelines on International Protection No. 4: "Internal Flight or Relocation Alternative" Within the Context of Article 1A(2) of the 1951 Convention and/or 1967 Protocol Relating to the Status of Refugees, HCR/GIP/03/04*, 23 July 2003, http://www.refworld.org/docid/3f2791a44.html, para, 5. 1969-cu il Konvensiyasının I maddəsinin 2-ci bəndində "qaçqın" anlayışı "*doğulduğu və ya vətəndaşı olduğu ölkənin bir hissəsində və ya bütün ərazisində* xarici təcavüz, işğal, xarici hökmranlıq və ya ictimai qaydaya ciddi xələl gətirən hadisələr ucbatından həmin ölkədən kənarda başqa bir yerdə sığınacaq tapmaq üçün adətən yaşadığı yeri tərk etməyə məcbur olmuş hər kəsə" şamil olunur. Eyni mülahizələr Banqkok Prinsiplərinin I maddəsinin 2-ci bəndində nəzərdə tutulmuş "qaçqın" anlayışına uyğun gələn şəxslərə də şamil olunur, həmin anlayış ABT-nin 1969-cu il Konvensiyasındakı "qaçqın" anlayışı ilə eynidir.

[563] Bax: UNHCR, *ibid*., para. 28.

[564] Bax: UNHCR, *ibid*., para. 27.

[565] Uyğunluq Direktivinin məqsədləri üçün "ciddi zərər" termininə aşağıdakı kimi anlayış verilir: a) ölüm cəzasının təyin olunması və ya icra edilməsi; yaxud b) mənşə ölkəsində ərizəçinin məruz qala biləcəyi işgəncə, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza; yaxud c) beynəlxalq və ya daxili silahlı münaqişə vəziyyətlərində heç nəyə fərq qoyulmadan törədilən zorakılıq səbəbindən mülki şəxsin həyatına və ya şəxsiyyətinə qarşı ciddi və fərdi təhlükə. European Union, *Directive 2011/95/EU of the European Parliament and of the Council on standards for the qualification of third-country nationals or stateless persons as beneficiaries of international protection, for a uniform status for refugees or for persons eligible for subsidiary protection, and for the content of the protection granted (recast)*, 13 December 2011, http://www.refworld.org/docid/4f06fa5e2.html, arts 2(f), 15.

tərəfindən müvafiq formada (ölüm cəzasının təyin olunması[566] və ya icra edilməsi formasında, yaxud işgəncə, habelə qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza formasında) ciddi zərərə məruz qalma təhlükəsi ilə qarşılaşa biləcəkləri səbəbindən konkret işin fərdi hallarından asılı olaraq 15-ci maddənin "a" və ya "b" bəndləri əsasında yardımçı müdafiəyə ehtiyac duya bilərlər.[567]

Eynilə, Əfqanıstanın qeyri-beynəlxalq xarakterli silahlı münaqişənin təsirinə məruz qalmaqda davam etdiyini və bu Rəhbər prinsiplərin II.B, II.C, II.D və II.E bölmələrində qeyd edilən dəlilləri nəzərə alsaq, münaqişənin təsirinə məruz qalan ərazilərdən olan və ya əvvəllər orada yaşamış ərizəçilər heç nəyə fərq qoyulmadan törədilən zorakılıqlarla əlaqədar olaraq həyatlarına və ya şəxsiyyətlərinə qarşı ciddi və fərdi təhlükə ilə qarşılaşa biləcəkləri səbəbindən konkret işin fərdi hallarından asılı olaraq 15-ci maddənin "c" bəndi əsasında yardımçı müdafiəyə ehtiyac duya bilərlər.

Əfqanıstandakı münaqişə kontekstində zorakılıqların mülki şəxslər üçün doğurduğu nəticələrin təqib sayılacaq həddə çatan dərəcədə ciddi olub-olmadığının müəyyənləşdirilməsində əhəmiyyətli amillər sırasına bunlar daxildir: mülki şəxslər arasında xəsarət alanların və ölənlərin sayı, təhlükəsizliklə əlaqədar insidentlərin sayı, habelə insanların həyatına və ya azadlığına təhlükə yaradan və ya onlara digər şəkildə ziyan yetirən, beynəlxalq humanitar hüququn ciddi pozuntusunu təşkil edən hərəkətlər. Lakin bu mülahizələr zorakılıqların birbaşa təsirləri ilə məhdudlaşmır, onlar həm də münaqişə ilə bağlı zorakılıqların uzunmüddətli və dolayı təsirlərini, o cümlədən münaqişənin insan hüquqları ilə bağlı vəziyyətə təsirini və dövlətin insan hüquqlarını müdafiə etmək imkanlarına bu və ya digər dərəcədə göstərdiyi mənfi təsiri əhatə edir. Əfqanıstandakı münaqişə kontekstində bu baxımdan əhəmiyyətli amillər aşağıdakılardır: i) mülki əhali üzərində nəzarətin AHE-lərin əlində olması, o cümlədən paralel ədliyyə strukturlarının tətbiq edilməsi və qanunsuz cəzaların təyin olunması, habelə mülki şəxslərin qorxudulması və təhdid edilməsi, hərəkət azadlığının məhdudlaşdırılması, qanunsuz olaraq ödənişlər alınması və qanunsuz vergilərin qoyulması; ii) döyüşçülər sırasına məcburi qaydada cəlb edilmə; ii) zorakılığın və təhlükəli durumun humanitar vəziyyətə təsir göstərməsi və bunun ərzaq təhlükəsizliyinin olmamasında, yoxsulluğun olmasında, dolanacaq vasitələrinin məhv edilməsində və mülkiyyətin itirilməsində özünü büruzə verməsi; iv) mütəşəkkil cinayətkarlığın səviyyəsinin yüksək olması və nüfuzlu yerli şəxslərin, hərbi rəislərin və korrupsiyaya uğramış hökumət məmurlarının cəzasız fəaliyyət göstərmək imkanına malik olması; v) qeyri-sabitlik nəticəsində təhsil və ya ən zəruri tibbi xidmət almaq imkanlarının sistematik olaraq məhdudlaşdırılması; və 6) insanların, xüsusən də qadınların ictimai həyatda iştirak etmək imkanlarının sistematik olaraq məhdudlaşdırılması.[568]

---

[566] Əfqanıstan Cinayət Məcəlləsinin 24-cü maddəsinə əsasən, ağır cinayətlərə görə ölüm cəzası təyin edilə bilər. *Penal Code* [Afghanistan], No. 1980, 22 September 1976, http://www.refworld.org/docid/4c58395a2.html. Cinayət Məcəlləsinin 1-ci maddəsinə əsasən, "hüdud" cinayətlərində (yəni dinin qadağan etdiyi əməllərdə) təqsirli bilinən şəxslər şəriət hüququnun hənəfi məhkəmə praktikasının prinsiplərinə uyğun olaraq cəzalandırılır; "hüdud" cinayətlərinə görə cəzalar sırasına edam olunma və ölənə qədər daşqalaq edilmə daxildir. Hossein Gholami, *Basics of Afghan Law and Criminal Justice*, undated, http://www.auswaertiges-amt.de/cae/servlet/contentblob/343976/publicationFile/3727/Polizei-Legal-Manual.pdf. 2014-cü ilin oktyabrında Kabulda beş kişi məhkəmə araşdırması nəticəsində qrup halında zorlamada təqsirli bilindikdən sonra asıldılar ki, bu da beynəlxalq müşahidəçilər tərəfindən kəskin tənqid olundu. Reuters, *Afghanistan Hangs Five Men over Gang Rape, Despite Concerns of Rights Groups (Update I)*, 8 October 2014, http://in.reuters.com/article/afghanistanexecution-idINL3N0S33BR20141008. Həmçinin bax: Cornell Law School, *Death Penalty Database*, http://www.deathpenaltyworldwide.org/country-search-post.cfm?country=Afghanistan.

[567] Qeyd etmək lazımdır ki, ərizəçilər 1951-ci il Konvensiyasında göstərilən səbəblərə görə bu cür rəftara məruz qalacaqları ilə bağlı real təhlükə ilə üzləşdikdə bu Konvensiyaya əsasən onlara qaçqın statusu verilməlidir (əgər onlar Qaçqınların statusuna dair Konvensiyanın 1-ci maddəsinin "F" bəndinə əsasən beynəlxalq himayənin şamil olunduğu şəxslər sırasından xaric edilməyiblərsə). Yalnız ciddi zərərin baş vermə təhlükəsi ilə Konvensiyada göstərilən səbəblərdən biri arasında əlaqə olmadığı təqdirdə ərizəçi yardımçı müdafiə ilə təmin edilməlidir.

[568] UNHCR, *Summary Conclusions on International Protection of Persons Fleeing Armed Conflict and Other Situations of Violence; Roundtable 13 and 14 September 2012, Cape Town, South Africa*, 20 December 2012, http://www.refworld.org/docid/50d32e5e2.html, paras 10-12.

Bu amillər istər ayrı-ayrılıqda, istərsə də birlikdə Əfqanıstan ərazisinin konkret hissəsində 15-ci maddənin "c" bəndinin tətbiqinə əsas verəcək dərəcədə ciddi vəziyyət yarada bilər, elə bir vəziyyət ki, bu zaman ziyana məruz qalma riskini artıran amilləri və ya halları ərizəçinin sübuta yetirməsinə ehtiyac qalmaya bilər.[569] Nəticə etibarı ilə müvafiq sübutlar nəzərdən keçirildikdən sonra Əfqanıstanın ərizəçi yaşayan hissəsində yuxarıda qeyd edilən vəziyyətin yaranmadığı müəyyən edilərsə, o halda bu məsələni nəzərdən keçirmək lazımdır ki, ərizəçinin fərdi xüsusiyyətləri, məsələn, onun xüsusi əlverişsiz vəziyyəti, zorakılıqların xarakteri və dərəcəsi ilə birgə götürülməklə, ərizəçinin həyatına və ya şəxsiyyətinə qarşı ciddi və fərdi təhlükə yaranmasına gətirib çıxara bilərmi?

### *4. Avropa İttifaqının Uyğunluq Direktivində nəzərdə tutulmuş ciddi ziyana məruz qalma riski altında olan şəxslərin ölkə daxilində müdafiəsi ilə bağlı mülahizələr*

Şəxsin Əfqanıstanda öz doğma yerində risk altında ola biləcəyi sübuta yetirilərsə, Avropa İttifaqının üzvü olan dövlətlərdə qərarları qəbul edənlər Uyğunluq Direktivinin 8-ci maddəsinə müvafiq olaraq onun Əfqanıstanın digər hissəsində ölkə daxilində müdafiəsinin mümkünlüyü məsələsini nəzərdən keçirə bilərlər.[570] Alternativ variant kimi ölkə daxilində müdafiənin məqsədəuyğunluğu və əsaslılığı məsələsi ilə əlaqədar III.B bölməsində təqdim edilən mülahizələr Əfqanıstanda ölkə daxilində müdafiənin mümkünlüyü ilə bağlı qərarlara da şamil olunur.

## D. Qaçqınlar üçün nəzərdə tutulmuş beynəlxalq müdafiəni aradan qaldıran istisna hallar

Əfqanıstanda silahlı münaqişələrin uzun tarixi ərzində insan hüquqlarının və beynəlxalq humanitar hüququn kobudcasına pozulduğunu nəzərə alsaq, sığınacaq axtaran əfqanların fərdi müraciətlərinə baxılarkən 1951-ci il Konvensiyasının 1-ci maddəsinin "F" bəndində nəzərdə tutulmuş istisna hallara aid mülahizələr meydana çıxa bilər. Ərizəçinin müraciətində olan elementlər onun 1-ci maddənin "F" bəndində nəzərdə tutulmuş cinayətlərin törədilməsində iştirak etdiyini düşünməyə əsas verirsə, o zaman istisna hallara aid mülahizələr meydana çıxmış olur. Qaçqınlar üçün beynəlxalq müdafiənin şamil olunduğu şəxslər sırasına aid edilməmənin ciddi potensial nəticələri nəzərə alınaraq, istisnalar barədə müddəalar dar çərçivədə şərh olunmalı və ehtiyatla tətbiq edilməlidir. Bütün hallarda hər bir fərdi işin konkret hallarının tam qiymətləndirilməsi tələb olunur.[571]
Əfqanıstan kontekstində müdafiə olunanlar sırasına aid edilməmə sığınacaq axtaranların bioqrafiyaları və müəyyən fərdi xüsusiyyətləri ilə əlaqədar hallarda baş verə bilər, bu mülahizə

---

[569] Bu məhkəmə işinə bax: Court of Justice of the European Union, *Elgafaji v. Staatssecretaris van Justitie*, C-465/07, 17 February 2009, http://www.refworld.org/docid/499aaee52.html. Bu işdə Avropa İttifaqı Məhkəməsi qərara aldı ki (qərarın 43-cü bəndi), ərizəçinin həyatına və ya şəxsiyyətinə qarşı ciddi və fərdi təhlükənin mövcudluğu "müstəsna qaydada elə hallarda sübuta yetirilmiş sayıla bilər ki, bu zaman heç nəyə baxmadan törədilən, baş verməkdə olan silahlı münaqişəni xarakterizə edən zorakılıqların dərəcəsi […] elə yüksək həddə çatır ki, bu hal müvafiq ölkəyə və ya müəyyən halda müvafiq regiona qaytarılacaq mülki şəxsin sadəcə həmin ölkənin və ya regionun ərazisində olması səbəbindən onu təhlükəyə məruz qoyacaq real risklərlə üzləşə biləcəyini güman etmək üçün əsaslı səbəb təşkil edir".
[570] European Union, *Directive 2011/95/EU of the European Parliament and of the Council on standards for the qualification of third-country nationals or stateless persons as beneficiaries of international protection, for a uniform status for refugees or for persons eligible for subsidiary protection, and for the content of the protection granted (recast)*, 13 December 2011, http://www.refworld.org/docid/4f197df02.html, article 8.
[571] 1951-ci il Konvensiyasının 1-ci maddəsinin "F" bəndinin şərhi və tətbiqi ilə bağlı ətraflı tövsiyələri bu mənbələrdən tapmaq olar: UNHCR, *Guidelines on International Protection No. 5: Application of the Exclusion Clauses: Article 1F of the 1951 Convention relating to the Status of Refugees*, HCR/GIP/03/05, 4 September 2003, http://www.refworld.org/docid/3f5857684.html; *Background Note on the Application of the Exclusion Clauses: Article 1F of the 1951 Convention relating to the Status of Refugees*, 4 September 2003, http://www.refworld.org/docid/3f5857d24.html.

xüsusən Əfqanıstan Xalq Demokratik Partiyasını (ƏXDR) hakimiyyətə gətirmiş və sonradan qiyamların amansızcasına yatırılması ilə nəticələnmiş 1978-ci ilin aprel inqilabında, habelə Əfqanıstanda 1979-cu ildən indiyədək baş vermiş aşağıdakı silahlı münaqişələrdə iştirak edən şəxslərə aiddir: i) 1979-cu ilin yayından 24 dekabr 1979-cu ildə Sovet müdaxiləsi baş verənədək ƏXDR hökuməti ilə yerli elita tərəfindən dəstəklənən silahlı müxaliflər arasındakı qeyri-beynəlxalq silahlı münaqişədə; ii) 27 dekabr 1979-cu ildə mövcud Əfqanıstan hökumətinin devrildiyi və ardınca Sovet İttifaqı tərəfindən Əfqanıstanın işğal edildiyi tarixdən başlayaraq Sovet hərbçilərinin ölkədən tam çıxarılmasının başa çatdığı 1989-cu ilin fevralınadək olan on illik dövr ərzində davam etmiş beynəlxalq silahlı münaqişədə;[572] iii) bunun ardınca hökumətə qarşı döyüşən müxtəlif komandirlərin başçılıq etdiyi mücahid qüvvələri ilə hökumətyönlü silahlı qruplar arasında 1996-cı ilin sentyabrında Talibanın Kabul üzərində nəzarəti ələ aldığı tarixədək cərəyan etmiş qeyri-beynəlxalq silahlı münaqişədə; iv) Talibanla Şimal Alyansı kimi tanınan Birləşmiş Cəbhə arasında 1996-cı ildən 2001-ci ildə Taliban hakimiyyətdən qovulana qədər cərəyan etmiş qeyri-beynəlxalq silahlı münaqişədə; v) Taliban rejiminin devrilməsinin ardınca 6 oktyabr 2001-ci ildə Birləşmiş Ştatların başçılıq etdiyi qüvvələrin müdaxiləsi ilə başlamış və 2002-ci ildə seçki yolu ilə Əfqanıstan hökumətinin seçilməsi ilə başa çatmış beynəlxalq silahlı münaqişədə;[573] və vi) hökumət ilə Taliban və digər silahlı qruplar arasında gedən və bu günədək davam edən qeyri-beynəlxalq silahlı münaqişədə.[574]

Yuxarıda sadalanan hadisələrdə və silahlı münaqişələrdə iştirak etmiş şəxslərin müraciətlərinə baxılarkən 1-ci maddənin "F" bəndinin "a" yarımbəndi xüsusi əhəmiyyət daşıyır. Ərizəçi silahlı münaqişələr zamanı və ya onlarla əlaqədar törədilmiş aktlarda iştirak edibsə, müdafiənin ona şamil olunub-olunmadığı ilə bağlı təhlilə başlayarkən ilk öncə bu aktların qüvvədə olan beynəlxalq humanitar hüquq normalarını və beynəlxalq cinayət hüququnun müvafiq müddəalarını pozub-pozmadığı və 1-ci maddənin "F" bəndinin "a" yarımbəndində göstərilən hərbi cinayət təşkil edib-etmədiyi araşdırılmalıdır.[575] Sözügedən cinayətlər fundamental baxımdan mülki əhaliyə qarşı geniş miqyaslı və ya sistematik hücumların tərkib hissəsi qismində törədilmiş qeyri-insani akt təşkil edirsə, 1-ci maddənin "F" bəndinin "a" yarımbəndində nəzərdə

---

[572] 1979-cu il də Sovet müdaxiləsinə səbəb olmuş hadisələrin ümumi icmalı və beynəlxalq humanitar hüququn bu cür hallarda tətbiq edilən normalarının müzakirəsi üçün bax: Michael Reisman and James Silk, "Which Law Applies to the Afghan Conflict?", *Faculty Scholarship Series*, Paper 752, 1988, http://digitalcommons.law.yale.edu/cgi/viewcontent.cgi?article=1745&context=fss_papers.

[573] Bax: ICRC, *International Law and Terrorism: Questions and Answers*, 1 November 2011, http://www.icrc.org/eng/resources/documents/faq/terrorism-faq-050504.htm.

[574] UN Security Council, *Security Council Resolution 2255 (2015) [on Sanctions Concerning Individuals and Entities and Other Groups and Undertakings Associated with the Taliban and the Threat International Terrorism Poses to Afghanistan]*, 22 December 2015, S/RES/2255 (2015), http://www.refworld.org/docid/568fd2454.html; UNAMA, *Afghanistan: Midyear Report 2015, Protection of Civilians in Armed Conflict*, August 2015, http://www.refworld.org/docid/55c1bdc4d.html, p. 81.

[575] Hərbi cinayətlər beynəlxalq humanitar hüququn ciddi pozuntularıdır və beynəlxalq hüquqa əsasən birbaşa fərdi məsuliyyət doğurur. Beynəlxalq humanitar hüququn qüvvədə olan normaları və beynəlxalq cinayət hüququnun müvafiq müddəaları silahlı münaqişənin beynəlxalq (işğal situasiyaları da daxil olmaqla) və ya qeyri-beynəlxalq xarakter daşımasından asılı olaraq fərqlənir. Daha ətraflı tövsiyələr üçün bax: UNHCR, *Background Note on the Application of the Exclusion Clauses: Article 1F of the 1951 Convention relating to the Status of Refugees*, 4 September 2003, http://www.refworld.org/docid/3f5857d24.html, paras. 30-32. Qeyri-beynəlxalq silahlı münaqişə kontekstində "hərbi cinayətlər" anlayışı 1990-cı illərin əvvəllərindən başlayaraq törədilmiş beynəlxalq humanitar hüququn müvafiq normalarının (yəni 1949-cu il Cenevrə Konvensiyalarının hamısı üçün ümumi olan 3-cü maddənin müddəalarının, II saylı Əlavə Protokolun müəyyən müddəalarının və beynəlxalq adət hüququ normalarının) ciddi pozuntularına şamil oluna bilər. Keçmiş Yuqoslaviya üzrə Beynəlxalq Cinayət Tribunalı (KYBCT) bildirib ki, qeyri-beynəlxalq silahlı münaqişələrə tətbiq edilən beynəlxalq humanitar hüquq normalarının pozuntuları beynəlxalq adət hüququna əsasən cinayət məsuliyyəti doğuran pozuntular sayıla bilər. Bax: P*rosecutor v. Dusko Tadic aka "Dule", Decision on the Defense Motion for Interlocutory Appeal on Jurisdiction*, IT-94-1, 2 October 1995, http://www.refworld.org/docid/47fdfb520.html, para. 134. 1990-cı illərin əvvəlinədək baş vermiş yuxarıda qeyd edilən beynəlxalq humanitar hüquq normalarının ciddi pozuntuları "hərbi cinayətlər" sayıla bilməz, lakin "qeyri-siyasi xarakterli ağır cinayətlər" sırasına (1-ci maddənin "F" bəndinin "b" yarımbəndi), yaxud konkret hallardan asılı olaraq "insanlıq əleyhinə cinayətlər" sırasına (1-ci maddənin "F" bəndinin "a" yarımbəndi) aid edilə bilər.

tutulmuş insanlığa qarşı cinayət barədə müddəa da bu hala şamil oluna bilər.[576] Əfqanıstanda müxtəlif silahlı münaqişələrin iştirakçıları tərəfindən törədildiyi iddia edilən aktlar sırasına, digərləri ilə yanaşı, bunlar daxildir: adam oğurluğu və insanların zorla yoxa çıxarılması, heç nəyə fərq qoymadan mülki əhaliyə hücumlar edilməsi, məcburi köçkün halına salma, işgəncə və digər qəddar, qeyri-insani və ləyaqəti alçaldan rəftar törətmə, o cümlədən siyasi və kütləvi qətllər törətmə, insanları məhkəmədənkənar və sadələşdirilmiş icraat qaydasında edam etmə, uşaqlar da daxil olmaqla insanları zorla hərbi xidmətə və (və ya) məcburi əməyə cəlb etmə.[577]

Məlumatlara əsasən narkotik vasitələrin qanunsuz ticarəti, qanunsuz vergiqoyma, silah alveri və insan alveri də daxil olmaqla ciddi cinayətlər törədilməsində iştirak edənlərin sırası genişdir.[578] Bu iştirakçıların sırasına təkcə mütəşəkkil cinayətkarlıq şəbəkələrinin üzvləri deyil, həm də hərbi rəislər və anti-hökumət elementləri daxildir. Sözügedən cinayətlər Əfqanıstandakı silahlı münaqişələrlə əlaqədar ola bilər.[579] Əgər bu belədirsə, bu cür hallar qüvvədə olan beynəlxalq humanitar hüquq normaları baxımından qiymətləndirilməlidir və 1-ci maddənin "F" bəndinin "a" yarımbəndində nəzərdə tutulmuş insanlığa qarşı cinayət barədə müddəa bu hallara şamil oluna bilər.[580] Yaxud digər hallarda bu cür cinayətlər 1951-ci il Konvensiyasının 1-ci maddəsinin "F"

---

576 Daha ətraflı tövsiyələr üçün bax: UNHCR, *Background Note on the Application of the Exclusion Clauses: Article 1F of the 1951 Convention relating to the Status of Refugees*, 4 September 2003, http://www.refworld.org/docid/3f5857d24.html, paras. 33-36.

577 Əfqanıstanda insan hüquqlarına dair beynəlxalq hüquq normalarının və humanitar hüququn müxtəlif pozuntularının icmalı üçün, məsələn, bu mənbələrə bax: *Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html; UN Security Council, *Security Council resolution 2255 (2015) [on Sanctions Concerning Individuals and Entities and Other Groups and Undertakings Associated with the Taliban and the Threat International Terrorism Poses to Afghanistan]*, 22 December 2015, S/RES/2255 (2015), http://www.refworld.org/docid/568fd2454.html; HRW, *Afghanistan: Generals Put Civilians at Risk*, 29 June 2015, http://www.refworld.org/docid/55963b794.html; HRW, *"Today We Shall All Die": Afghanistan's Strongmen and the Legacy of Impunity*, 3 March 2015, http://www.refworld.org/docid/54f6c1e44.html; Amnesty International, *Amnesty International Report 2014/15 - Afghanistan*, 25 February 2015, http://www.refworld.org/docid/54f07e2215.html. Əlavə məlumat üçün II bölməyə bax.

578 BMT-nin narkotik vasitələrlə və cinayətkarlıqla mübarizə idarəsinin məlumatlarına əsasən, Əfqanıstanda sabitliyin pozulmasında iştirak edən bütün tərəflər birbaşa və ya dolayısı ilə narkotik vasitələrin alveri ilə əlaqəlidirlər. Qiyamçıların tiryək alverində iştirak etməsi onların hərbi imkanlarının artması ilə nəticələnir, münaqişəni uzadır və Əfqanıstan ərazisində qeyri-sabitliyi daha da qızışdırır, çünki ayrı-ayrı qruplar müvafiq marşrutlar və ərazi uğurunda mübarizə aparırlar. Bax: UN Office on Drugs and Crime, *Addiction, Crime and Insurgency. The Transnational Threat of Afghan Opium*, October 2009, http://www.refworld.org/docid/4ae1660d2.html. Həmçinin bax: AREU, *The Devil Is in the Details: Nangarhar's Continued Decline into Insurgency, Violence and Widespread Drug Production*, February 2016, http://www.refworld.org/docid/56c2eaa34.html, pp. 2, 8-9; UN Security Council, *Security Council resolution 2255 (2015) [on Sanctions Concerning Individuals and Entities and Other Groups and Undertakings Associated with the Taliban and the Threat International Terrorism Poses to Afghanistan]*, 22 December 2015, S/RES/2255 (2015), http://www.refworld.org/docid/568fd2454.html, para. 4.

579 Misal üçün bax: UN Secretary-General, *Report of the Secretary-General on the Threat of Terrorists Benefiting from Transnational Organized Crime*, 20 May 2015, S/2015/366, http://www.refworld.org/docid/5587db984.html, para. 26; Al Jazeera, *Afghanistan's Billion Dollar Drug War*, 6 May 2015, http://www.aljazeera.com/programmes/101east/2015/05/afghanistan-billion-dollar-drug-war-150505073109849.html; UNODC, *Afghanistan Opium Survey 2012*, May 2013, http://www.unodc.org/documents/cropmonitoring/Afghanistan/Afghanistan_OS_2012_FINAL_web.pdf, pp. 47-48.

580 Yuxarıda 575-ci mətnaltı qeyddə deyildiyi kimi, belə hərəkətlər qeyri-beynəlxalq silahlı münaqişə ilə əlaqədardırsa və 1990-cı illərin əvvəllərindən başlayaraq törədilibsə, 1-ci maddənin "F" bəndinin "a" yarımbəndi ("hərbi cinayətlər") əsasında beynəlxalq müdafiənin istisna edilməsinə səbəb ola bilərlər. Qeyri-beynəlxalq silahlı münaqişələrə tətbiq edilən beynəlxalq humanitar hüquq normalarının həmin tarixədək baş vermiş ciddi pozuntuları 1-ci maddənin "F" bəndinin "b" yarımbəndinin müddəalarına (həmin müddəalar müvafiq şəxslərin "onlara sığınacaq vermiş ölkənin xaricində törətdikləri, onlar qaçqın qismində bu ölkəyə buraxılana qədər baş vermiş olan qeyri-siyasi xarakterli ağır cinayətləri" nəzərdə tutur) və ya 1-ci maddənin "F" bəndinin "a" yarımbəndinin müddəalarına (həmin müddəalar "insanlıq əleyhinə cinayətləri" nəzərdə tutur) əsasən beynəlxalq müdafiənin istisna edilməsinə səbəb ola bilərlər.

bəndinin "b" yarımbəndində nəzərdə tutulmuş qeyri-siyasi xarakterli ağır cinayət hesab edilə və məhz bu əsasa görə beynəlxalq müdafiə onları törətmiş şəxslərə şamil olunmaya bilər.[581]

Bəzi hallarda sual yarana bilər ki, 1951-ci il Konvensiyasının 1-ci maddəsinin "F" bəndinin "c" yarımbəndinin müddəaları əfqanıstanlı ərizəçilərin törətdiyi aktlara şamil oluna bilərmi? BMTQAK-ın rəyinə görə, şəxsin beynəlxalq müdafiədən kənarda qalmasına səbəb olan həmin müddəalar yalnız xarakterinə və ağırlıq dərəcəsinə görə beynəlxalq səviyyəli təsirə malik olan, yəni beynəlxalq sülhü və təhlükəsizliyi və ya dövlətlər arasındakı dostluq münasibətlərini poza bilən cinayətlərə şamil oluna bilər.[582]

Beynəlxalq müdafiəni istisna edən halların mövcudluğuna dair mülahizələr həmçinin "terror" xarakterli sayılan hərəkətlərlə əlaqəsi olan şəxslər barəsində də meydana çıxa bilər. BMTQAK-ın rəyinə görə, əgər həmin şəxslərin hərəkətləri müvafiq meyarlara uyğun gəlirsə, bu cür cinayətlərə 1-ci maddənin "F" bəndində nəzərdə tutulan istənilən əsaslar şamil edilə bilər. Bir çox belə hallara 1-ci maddənin "F" bəndinin "b" yarımbəndi şamil edilə bilər, belə ki, böyük ehtimalla zorakı terror aktları bu yarımbəndin tətbiqi üçün tələb olunan ağırlıq dərəcəsinə malik olur və bu hal müvafiq meyardan istifadə etməklə cinayətin siyasi xarakterli olub-olmadığının yoxlanılması zərurətini aradan qaldırır.[583] Belə hərəkətlər müəyyən hallarda, o cümlədən silahlı münaqişə zamanı törədildikdə və beynəlxalq humanitar hüququn müvafiq normalarının ciddi pozuntusunu təşkil etdikdə, insanlıq əleyhinə cinayət və ya hərbi cinayət olaraq 1-ci maddənin "F" bəndinin "a" yarımbəndinin tətbiq dairəsinə düşə bilər.[584] Terror xarakterli hesab edilən hərəkətlər müəyyən hallarda 1-ci maddənin "F" bəndinin "c" yarımbəndi əsasında beynəlxalq müdafiənin istisna edilməsinə səbəb ola bilər. Bunlar elə hallardır ki, bu zaman həmin hərəkətlər 1-ci maddənin "F" bəndinin "a" yarımbəndində nəzərdə tutulmuş hərbi cinayət və (və ya) insanlıq əleyhinə cinayət təşkil edir,[585] eləcə də beynəlxalq müstəvidə təsirləri baxımından

[581] Ətraflı tövsiyələr üçün bu mənbəyə bax: UNHCR, *Background Note on the Application of the Exclusion Clauses: Article 1F of the 1951 Convention relating to the Status of Refugees*, 4 September 2003, http://www.refworld.org/docid/3f5857d24.html, paras 37-45.

[582] Ətraflı tövsiyələr üçün bu mənbəyə bax: UNHCR, *Background Note on the Application of the Exclusion Clauses: Article 1F of the 1951 Convention relating to the Status of Refugees*, 4 September 2003, http://www.refworld.org/docid/3f5857d24.html, paras. 46-49.

[583] 1-ci maddənin "F" bəndinin "b" yarımbəndində nəzərdə tutulmuş istisnaedici halın tətbiqi üçün coğrafi (şəxs tərəfindən cinayətin ona "sığınacaq vermiş ölkə xaricində" törədilməsi) və zaman (şəxs tərəfindən cinayətin "qaçqın qismində ölkəyə buraxılmazdan əvvəl" törədilməsi) meyarları da şəxsin situasiyasına uyğun gəlməlidir. Bax: UNHCR, *Background Note on the Application of the Exclusion Clauses: Article 1F of the 1951 Convention relating to the Status of Refugees*, 4 September 2003, http://www.refworld.org/docid/3f5857d24.html, paras 41 and 81.

[584] Beynəlxalq humanitar hüquqda terrorizmin anlayışı verməyib. Amma bununla belə, beynəlxalq humanitar hüquq dinc dövrdə törədildiyi zaman adətən terror sayılan hərəkətlərin bir çoxunun silahlı münaqişə zamanı törədilməsini qadağan edir. Burada mühüm məsələ konkret hərəkətin beynəlxalq humanitar hüquqa əsasən hərbi cinayət olduğunu təyin etmək üçün tələb olunan obyektiv və subyektiv elementlərin olub-olmamasıdır. Əsas məqsədi mülki əhali arasında xof yaymaq olan zorakılıq əməlləri və ya zor tətbiqi ilə hədələmə konkret olaraq 1949-cu il tarixli Cenevrə Konvensiyalarının I Əlavə Protokolunun 51-ci maddəsinin 2-ci bəndi ilə və II Əlavə Protokolunun 13-cü maddəsinin 2-ci bəndi ilə qadağan olunur. II Əlavə Protokolun 13-cü maddəsinə verdiyi şərhdə Beynəlxalq Qırmızı xaç Komitəsi (BQXK) qeyd edib ki, "terror xofu yaratmaq məqsədi daşıyan hücumlar bütövlükdə hücumların yalnız bir növüdür, amma onlar xüsusilə pislənməli olan hücumlardır". Bax: ICRC, *Commentary to Article 13 of Additional Protocol No. II of 1977*, http://www.icrc.org/ihl.nsf/COM/475-760019?OpenDocument, para. 4785. Terrorizmlə və silahlı münaqişə qanunları ilə bağlı daha ətraflı məlumatları BQXK-nın İnternet saytından tapmaq olar: http://www.icrc.org/eng/resources/documents/faq/terrorism-faq-050504.htm. Həmçinin bax: ICTY, *Prosecutor v. Galic*, Case No. IT-98-29A, Appeal Chamber judgment of 30 November 2006, http://www.refworld.org/docid/47fdfb565.html, paras 98 and 102-104.

[585] Bu halda bu iki yarımbənddə ("a" və "c" yarımbəndlərində) nəzərdə tutulmuş istisnaedici əsaslar qismən üst-üst düşür, belə ki, 1-ci maddənin "F" bəndinin "a" yarımbəndinin şamil olunduğu hərəkətlər həm də "Birləşmiş Millətlər Təşkilatının məqsəd və prinsiplərinə zidd" olan hərəkətlərdir. Bax: UNHCR, *Handbook and Guidelines on Procedures and Criteria for Determining Refugee Status under the 1951 Convention and the 1967 Protocol Relating to the Status of Refugees*, December 2011, HCR/1P/4/ENG/REV. 3, http://www.refworld.org/docid/4f33c8d92.html, para. 162.

yuxarıda qeyd edilən geniş xarakteristikalarla səciyyələnirlərsə, həmin hərəkətlər həm də terrorizmə dair konvensiyalar və protokollar əsasında qadağan olunan cinayət təşkil edir.[586]
Şəxsə beynəlxalq müdafiənin şamil olunmamasını əsaslandırmaq üçün onun 1-ci maddənin "F" bəndində nəzərdə tutulmuş cinayətlə əlaqədar fərdi məsuliyyət daşıdığı sübuta yetirilməlidir. Belə məsuliyyət o halda yaranır ki, şəxs cinayəti törətmiş olsun və ya onun törədilməsində cinayət məsuliyyətinə səbəb olan formada iştirak etsin, məsələn, cinayətin törədilməsi barədə göstəriş versin, cinayətə təhrik etsin, onun törədilməsinə kömək etsin, yaxud ümumi məqsəd naminə hərəkət edən qrup tərəfindən cinayətin törədilməsinə şərait yaratsın. Hərbi və ya mülki hakimiyyət strukturlarında məsul vəzifə tutan şəxslər komandir və ya rəis qismində fərdi məsuliyyətə cəlb oluna bilərlər. Cinayət məsuliyyəti ilə əlaqədar olaraq şəxsin öz müdafiəsi üçün arqumentlərini (əgər onlar varsa) bildirməsinə imkan yaradılmalıdır, eləcə də mütənasiblik prinsipinə aid mülahizələr bu cür hallara şamil olunur. Belə hallarda insanların, xüsusən uşaqların məcburi qaydada döyüşçülər sırasına cəlb edilməsi praktikasına aid sübutlar nəzərə alınmalıdır.
Hökumətin silahlı qüvvələrinə, polis orqanlarına, kəşfiyyat və ya təhlükəsizlik aparatına, yaxud silahlı qrupa və ya yaraqlılar dəstəsinə mənsub olma özlüyündə şəxsin qaçqın statusu ala biləcək şəxslər sırasından xaric edilməsi üçün əsas ola bilməz. Eyni sözlər hökumət məmurlarına və ya mülki qulluqçulara da aiddir. Bu cür hallarda müvafiq şəxsin beynəlxalq müdafiəni istisna edən hərəkətlərin törədilməsində şəxsən iştirak edib-etmədiyini, yaxud beynəlxalq hüququn müvafiq meyarları əsasında onun fərdi məsuliyyətinə səbəb ola biləcək hər hansı digər formada iştirak edib-etmədiyini nəzərdən keçirmək lazımdır. Hər bir konkret işin fərdi hallarının diqqətlə qiymətləndirilməsi tələb olunur.[587]
2008-ci ildə hökumət "Milli sabitlik və barışıq haqqında" qanun qəbul edib.[588] Bu qanuna əsasən, Əfqanıstanda 2001-ci ilin dekabrında müvəqqəti administrasiya təşkil edilənə qədər silahlı münaqişədə iştirak etmiş şəxslərin hamısına cinayət təqibinə qarşı amnistiya verilir.[589]

[586] Terror aktlarını özündə ehtiva edən hallarda 1-ci maddənin "F" bəndinin "c" yarımbəndinin düzgün tətbiqi üçün daha etibarlı meyar hərəkətə "terror" damğasının vurulması deyil, hərəkətin beynəlxalq müstəvidə müvafiq normaları nə dərəcədə pozması, yəni onun ağırlıq dərəcəsi, beynəlxalq təsirləri və beynəlxalq sülh və təhlükəsizlik üçün doğurduğu nəticələrdir. BMTQAK-ın rəyinə görə, yalnız bu geniş xarakteristikaları ilə seçilən terror aktları "c" yarımbəndi əsasında beynəlxalq müdafiəni istisna edə bilər. Daha ətraflı tövsiyələr üçün bax: UNHCR, *Background Note on the Application of the Exclusion Clauses: Article 1F of the 1951 Convention relating to the Status of Refugees*, 4 September 2003, http://www.refworld.org/docid/3f5857d24.html, paras 46-49. Həmçinin bax: UNHCR, *Yasser al-Sirri (Appellant) v. Secretary of State for the Home Department (Respondent) and DD (Afghanistan) (Appellant) v. Secretary of State for the Home Department (Respondent): UNHCR'S Composite Case in the Two Linked Appeals*, 23 March 2012, http://www.refworld.org/docid/4f6c92b12.html.
[587] Bu mülahizələr 2001-ci ilin dekabrından 2002-ci ilin iyulunadək Əfqanıstanın müvəqqəti administrasiyasında, 2002-ci ilin iyulundan 2004-cü ilin oktyabrınadək Əfqanıstanın keçid administrasiyasında, yaxud 2004-cü ilin sonunda prezident Kərzainin başçılıq etdiyi birinci hökumət formalaşdırıldıqdan sonra bu hökumətdə dövlət məmuru qismində rəsmi vəzifədə çalışmış və ya mülki qulluqçu olmuş ərizəçilərə də aiddir. Ətraflı tövsiyələr üçün bu mənbəyə bax: UNHCR, *Background Note on the Application of the Exclusion Clauses: Article 1F of the 1951 Convention relating to the Status of Refugees*, 4 September 2003, http://www.refworld.org/docid/3f5857d24.html, paras. 50-73 and paras. 76-78.
[588] Bu qanunun dəqiq tarixi ilə və hansı şəraitdə qəbul edilməsi ilə bağlı bəzi dolaşıqlıqlar var. Qanun 2007-ci ildə parlamentdən keçmiş, amma beynəlxalq təzyiqlərdən sonra prezident Kərzai onu imzalamayacağını vəd etmişdi. Belə görünür ki, 2010-cu ilin yanvarında qanun rəsmi qəzetdə dərc olunub, hərçənd ki, bəzi mənbələrə görə, o, 2010-cu ilin yanvarınadək dərc olunmayıb. Bax: UN Secretary-General, *The Situation in Afghanistan and its Implications for International Peace and Security: Report of the Secretary-General*, A/64/705–S/2010/127, 10 March 2010, http://www.refworld.org/docid/4bb44c5c2.html; HRW, *Afghanistan: Repeal Amnesty Law*, 10 March 2010, http://www.hrw.org/en/news/2010/03/10/afghanistan-repeal-amnesty-law.
[589] Bu qanunun qəbulu milli və beynəlxalq səviyyədə geniş miqyaslı tənqidlərə səbəb olub və onun ləğv olunmasına çağırışlar səslənib. Misal üçün bax: AREU, *The State of Transitional Justice in Afghanistan: Actors, Approaches and Challenges*, April 2010, http://www.refworld.org/docid/4bc6ccb42.html; UN News Centre, *Top UN Human Rights Official in Afghanistan Calls for Repeal of Amnesty Law*, 25 March 2010, http://www.un.org/apps/news/story.asp?NewsID=34198; HRW, *Afghanistan: Repeal Amnesty Law*, 10 March 2010, http://www.hrw.org/en/news/2010/03/10/afghanistan-repeal-amnesty-law; AIHRC, *Discussion Paper on the Legality of Amnesties*, 21 February 2010, http://www.refworld.org/docid/4bb31a5e2.html.

BMTQAK-ın rəyinə görə, bu o demək deyil ki, həmin tarixədək 1-ci maddənin "F" bəndində nəzərdə tutulmuş cinayətləri törətmiş şəxslər beynəlxalq müdafiənin şamil olunmadığı şəxslər sırasına aid edilə bilməzlər. Əfqanıstanda ötən onilliklər ərzində müxtəlif tərəflərin törətdiyi cinayətlərin dəhşətli xarakterini nəzərə alaraq, BMTQAK hesab edir ki, amnistiya haqqında qanun 1-ci maddənin "F" bəndinin beynəlxalq müdafiəni istisna edən müddəalarının tətbiqinin nəzərdən keçirilməsi imkanını aradan qaldırmır.[590]

Əfqanıstan kontekstində xüsusən aşağıdakı şəxslərin müraciətlərinə baxılarkən olduqca diqqətli olmaq lazımdır:

1) kommunist rejimləri dövründə silahlı qüvvələrin və kəşfiyyat (təhlükəsizlik) aparatının keçmiş üzvləri, o cümlədən Dövlət Kəşfiyyat Xidməti (DKX) və Dövlət Təhlükəsizliyi Nazirliyinin (DTN) agentləri olmuş şəxslər, habelə keçmiş məmurlar;
2) kommunist rejimləri dövründə və ondan sonra silahlı qrupların və könüllü qüvvələrin üzvləri olmuş şəxslər;
3) AHE-lərin (keçmiş) üzvləri və komandirləri;
4) Əfqanıstan Milli Təhlükəsizlik Qüvvələrinin (ƏMTQ), o cümlədən Milli Təhlükəsizlik Müdirliyinin (MTM), Əfqanıstan Milli Polisinin (ƏMP) və Əfqanıstan Yerli Polisinin (ƏYP) (keçmiş) üzvləri;
5) yarımhərbi qrupların və könüllü qüvvələrin (keçmiş) üzvləri; və
6) mütəşəkkil cinayətkarlıqla məşğul olan qrupların və şəbəkələrin (keçmiş) üzvləri.

Yuxarıda qeyd edilənlər arasında birinci dörd qrupun üzvləri tərəfindən insan hüquqlarının və beynəlxalq humanitar hüququn ciddi pozuntuları ilə bağlı daha ətraflı məlumatlar aşağıda verilir.

### *1. Kommunist rejimləri dövründə silahlı qüvvələrin və kəşfiyyat (təhlükəsizlik) aparatının keçmiş üzvləri, o cümlədən Dövlət Kəşfiyyat Xidməti (DKX) və Dövlət Təhlükəsizliyi Nazirliyinin (DTN) agentləri olmuş şəxslər, habelə keçmiş məmurlar*

Təraki, Hafizulla Amin, Babrək Karmal və Nəcibulla rejimləri dövründə[591] hərbi, polis və təhlükəsizlik qüvvələrinin üzvləri, habelə yüksək vəzifəli hökumət məmurları olmuş şəxslər mülki şəxslərin həbsə alınmasında, yoxa çıxarılmasında, işgəncələrə, qeyri-insani və ləyaqəti alçaldan rəftar və cəzaya məruz qalmasında və məhkəmədənkənar edamlarda iştirak ediblər.[592] Bu əməllər sırasına 1978-ci ildəki dövlət çevrilişindən sonra Hafizulla Aminin rejimi dövründə verilmiş torpaq islahatları barədə fərmanlara müqavimət göstərənlərə qarşı törədilmiş kütləvi

---

[590] UNHCR, *Background Note on the Application of the Exclusion Clauses: Article 1F of the 1951 Convention relating to the Status of Refugees*, 4 September 2003, http://www.refworld.org/docid/3f5857d24.html, para. 75. Cinayət təqibinə qarşı bu cür amnistiya dövlətin beynəlxalq humanitar hüquqda nəzərdə tutulmuş cinayətləri və insan hüquqlarına dair qeyd-şərtsiz normaların pozuntularını araşdırmaq və təqsirkarları məsuliyyətə cəlb etmək vəzifəsinə ziddir. Bax: Rule 159 (Amnesty) of the ICRC, *Customary International Humanitarian Law*, Cambridge: Cambridge Univ. Press, 2005, reprinted 2009, http://www.icrc.org/customary-ihl/eng/docs/v1_rul_rule159. Bəzi beynəlxalq təşkilatlar bildiriblər ki, hərbi cinayətləri və insan hüquqlarının ciddi pozuntularını törədənlərə amnistiya verilə bilməz. Misal üçün bax: *Prosecutor v. Anto Furundzija (Trial Judgement)*, IT-95-17/1-T, International Criminal Tribunal for the former Yugoslavia (ICTY), 10 December 1998, http://www.refworld.org/docid/40276a8a4.html; *Case of Barrios Altos v. Peru*, Inter-American Court of Human Rights, 14 March 2001, http://www.corteidh.or.cr/docs/casos/articulos/seriec_75_ing.pdf.

[591] Əfqanıstanın son illərə aid tarixinin bu dövrü 27 aprel 1978-ci ildə hərbi çevrilişlə başlayıb və bu çevriliş hakimiyyətə ƏXDP-nin başçılıq etdiyi hökuməti gətirib. Bu dövr daha sonra 27 dekabr 1979-cu ildə başlamış Sovet işğalından 15 aprel 1992-ci ildə Nəcibulla hökuməti devrilənə qədər davam edib.

[592] Misal üçün bax: UN Commission on Human Rights, *Report on the Situation of Human Rights in Afghanistan prepared by the Special Rapporteur, Mr. Felix Ermacora, in accordance with Commission on Human Rights Resolution 1985/38*, E/CN.4/1986/24, 17 February 1986, http://www.refworld.org/docid/482996d02.html; HRW, *"Tears, Blood and Cries" Human Rights in Afghanistan since the Invasion 1979 – 1984*, US Helsinki Watch Report, December 1984, http://hrw.org/reports/1984/afghan1284.pdf; Amnesty International, *Violations of Human Rights and Fundamental Freedoms in the Democratic Republic of Afghanistan*, ASA/11/04/79, September 1979.

qətllər və repressiyalar daxildir. Bundan əlavə, hərbi əməliyyatlar zamanı mülki şəxslərin bilərəkdən hədəfə alınması halları lazımi qaydada sənədləşdirilib.[593]

Sonradan Dövlət Təhlükəsizliyi Nazirliyinə (DTN) (*Wezarat-e Amniyat-e Dowlati*) çevrilmiş Dövlət Kəşfiyyat Xidmətinin (DKX) (*Khadamate Ettelaate Dowlati*) keçmiş əməkdaşlarının işlərini bu kontekstdə diqqətlə nəzərdən keçirmək lazımdır.[594] Dövlət Kəşfiyyat Xidmətinin (Dövlət Təhlükəsizliyi Nazirliyinin) funksiyaları zaman keçdikcə təkamülə uğrasa da (1989-cu ildə Sovet qoşunlarının ölkədən çıxarılmasından sonra hərbi əməliyyatların koordinasiya olunması və həyata keçirilməsi bu funksiyaların kulminasiyanı təşkil edir), onun tərkibinə mərkəzi, vilayət və rayon səviyyələrində qeyri-əməliyyat (yardım) xarakterli müdirliklər də daxil idi.[595] BMTQAK-ın sərəncamında olan məlumatlar bu yardımçı müdirliklərin əməliyyat bölmələri ilə eyni qaydada insan hüquqlarının pozulmasında iştirak etdiklərini təsdiqləmir. Buna görə də, şəxsin sadəcə DKX-nın (DTN-in) əməkdaşı olması faktı avtomatik olaraq beynəlxalq müdafiənin ona şamil olunmaması ilə nəticələnməməlidir, nəzərə almaq lazımdır ki, BMTQAK DKX-nın (DTN-in) daxilində mütəmadi rotasiya siyasətinin olduğunu təsdiq etmək imkanına malik deyil.[596] Beynəlxalq müdafiənin hər hansı şəxsə şamil olunub-olunmadığını qiymətləndirmək üçün həmin şəxsin təşkilat daxilindəki rolu, rütbəsi və funksiyaları nəzərə alınmalıdır.

Kommunist rejimi dövründə rəsmi vəzifədə olmuş ərizəçilərin işlərinə baxarkən onların tutduğu vəzifənin xarakterini və onlara həvalə olunan işləri və funksiyaları araşdırmaq lazımdır. Bu rejimlərin keçmiş vəzifəli şəxsinə 1-ci maddənin "F" bəndində nəzərdə tutulan, beynəlxalq müdafiəni istisna edən halların şamil olunub-olunmamasını araşdırarkən ərizəçinin 1-ci maddənin "F" bəndinin tətbiq dairəsinə düşən cinayətlərin törədilməsində onun fərdi məsuliyyətini doğuran formada iştirak edib-etmədiyini müəyyənləşdirmək üçün fərdi qaydada qiymətləndirmə aparılması tələb olunur. Beynəlxalq müdafiəni istisna edən cinayət törətdiklərinə və ya belə cinayətlərin törədilməsində onların fərdi məsuliyyətini doğuran hər hansı formada iştirak etdiklərinə dair sübut olmadığı təqdirdə sadəcə keçmişdə dövlət administrasiyasına mənsub olmaları səbəbindən belə şəxslərə beynəlxalq müdafiənin şamil olunmaması qaçqınlara dair beynəlxalq hüquq normalarına uyğun deyil.

---

593 HRW, *The Forgotten War: Human Rights Abuses and Violations of the Laws of War since the Soviet Withdrawal*, 1 February 1991, http://www.hrw.org/reports/1991/afghanistan/; HRW, *By All Parties to the Conflict: Violations of the Laws of War in Afghanistan*, Helsinki Watch/Asia Watch report, March 1988, http://hrw.org/reports/1988/afghan0388.pdf.

594 1986-cı ildə Dövlət Kəşfiyyat Xidməti (DKX) (*Xadamate Ettelaate Dovlati*) nazirlik səviyyəsinə qaldırıldı və o vaxtdan Dövlət Təhlükəsizliyi Nazirliyi (DTN) (*Vezarate Amniyate Dovlati*) adı ilə tanınır. 1) Dövlət Təhlükəsizliyi Nazirliyinin (Dövlət Kəşfiyyat Xidmətinin) tarixçəsi; 2) strukturu və personalı; 3) bu xidmətlərlə Əfqanıstan hərbi qüvvələrinin və milisinin əlaqələri; 4) əməliyyat xidmətləri və yardımçı xidmətlər arasındakı fərqlər; və 5) Dövlət Təhlükəsizliyi Nazirliyi (Dövlət Kəşfiyyat Xidməti) daxilində rotasiya və vəzifədə irəliyə çəkilmə siyasətləri ilə bağlı ətraflı məlumat üçün bax: UNHCR, *Note on the Structure and Operation of the KhAD/WAD in Afghanistan 1978-1992*, May 2008, http://www.refworld.org/docid/482947db2.html.

595 Bu müdirliklərin sırasına inzibati və maliyyə işləri üzrə, kadrlar üzrə, təbliğat və əks-təbliğat üzrə, telekommunikasiyalar və kodların (şifrlərin) açılması üzrə müdirliklər daxil idi. Bax: UNHCR, *Note on the Structure and Operation of the KhAD/WAD in Afghanistan 1978-1992*, May 2008, http://www.refworld.org/docid/482947db2.html, paras. 15-17.

596 UNHCR, *Note on the Structure and Operation of the KhAD/WAD in Afghanistan 1978-1992*, May 2008, http://www.refworld.org/docid/482947db2.html. BMTQAK informasiya qeydlərində bildirir ki: "BMTQAK DKX-nın (DTN-in) daxilində mütəmadi rotasiya siyasətinin olduğunu təsdiq etmək imkanına malik deyil. BMTQAK-ın müraciət etdiyi mənbələr təsdiq ediblər ki, DKX (DTN) strukturları daxilində rotasiyalar əsasən əməkdaşların bacarıqlarına əsaslanır. Fövqəladə hallarda əməkdaşlar müəyyən əməliyyatlar çərçivəsində, lakin öz bacarıqlarına aid olan sahələrdə işləməyə cəlb oluna bilərlər. Bir mütəxəssis […] bildirib ki, onun rəyinə görə, məcburi rotasiya prinsipi yoxdur; o, hesab edir ki, insanlar DKX-nın (DTN-in) daxilində işlərini dəyişə bilərlər, lakin bu, qayda və ya tələb deyil. Həmin mənbənin rəyinə görə, belə rotasiya siyasəti qurum daxilində peşəkarlıq anlayışına zidd olardı. Digər mənbələr bildirirlər ki, DKX (DTN) əməkdaşlarının fəaliyyətləri bir sıra prinsiplərlə tənzimlənir ki, onlardan da biri məxfilikdir. Onlar hesab edirlər ki, bu səbəbdən DKX (DTN) ümumi rotasiya siyasətindən istifadə edə bilməz, çünki bu, informasiyaların bir müdirlikdən başqasına açıqlanması riskini doğurar". Ibid., para. 24.

### *2. Kommunist rejimləri dövründə və ondan sonra silahlı qrupların və könüllü qüvvələrin üzvləri olmuş şəxslər*

27 aprel 1978-ci ildən 1992-ci ilin aprelində Nəcibulla devrilənə qədər olan dövrdə kommunist rejimlərinə və Sovet işğalına qarşı silahlı müqavimət zamanı silahlı qrupların və könüllü qüvvələrin həyata keçirdiyi fəaliyyətlər[597] beynəlxalq müdafiəni istisna edən mülahizələrə səbəb ola bilər. Belə hərəkətlər sırasına siyasi qətllər, repressiyalar və məhkəmədənkənar qətllər, zorlamalar, o cümlədən hökumət təsisatlarında, məktəblərdə çalışan və ya islam prinsiplərini və normalarını pozan mülki şəxslərə qarşı bu cür hərəkətlər daxildir. Silahlı qruplar və könüllü qüvvələr tərəfindən törədilən və beynəlxalq müdafiəni istisna edən digər cinayətlər sırasına hərbi əsirlərin məhkəmədənkənar edam olunması və mülki hədəflərə hücum edilməsi daxildir.[598] Xüsusən silahlı münaqişənin 1992-ci ildən 1995-ci ilədək olan dövrü insan hüquqlarına dair beynəlxalq hüquq normalarının və beynəlxalq humanitar hüququn ciddi pozuntuları ilə, o cümlədən münaqişədəki bütün tərəflərin şəhər mərkəzlərini atəşə tutması ilə səciyyələnib.[599]

### *3. Anti-hökumət elementlərinin üzvləri*

Keçmiş Taliban rejimindən olan elementlər, Taliban sırasına yeni cəlb olunanlarla birlikdə, artıq 2002-ci ildə Əfqanıstanda silahlı əməliyyatlar təşkil etməyə başladılar. Beynəlxalq müdafiəni istisna edən müddəalar Taliban hakimiyyətdə olduğu müddətdə və devrilməsindən sonrakı dövrdə onun üzvü və hərbi komandirləri olmuş şəxslərə tətbiq edilə bilər, bunun üçün onların insan hüquqlarının və humanitar hüququn ciddi pozuntularında iştirak etdiklərini güman etmək üçün ciddi əsaslar olduğunu təsdiqləyən yetərli sübutlar olmalıdır. II.C.1.b bölməsində qeyd edildiyi kimi, Taliban qüvvələri tərəfindən bilərəkdən mülki şəxslərə hücumlar edildiyi, onların sadələşdirilmiş icraat qaydasında edam edildiyi və Taliban tərəfindən tətbiq edilmiş paralel ədliyyə strukturları vasitəsilə onlara qanunsuz cəzalar təyin edildiyi barədə çoxsaylı məlumatlar var. Bu hərəkətlərin bəziləri hərbi cinayət təşkil edə bilər.[600]

Həmçinin digər AHE-lərin, o cümlədən Əl-Qaidənin,[601] Haqqani şəbəkəsinin,[602] Hezbi-İslaminin (İslam Partiyasının),[603] Özbəkistan İslam Hərəkatının,[604] İslami Cihad İttifaqının,[605] Ləşkəri

---

[597] Silahlı qruplaşmaları olan islam partiyalarının konkret komandirlərinin və üzvlərinin müraciətlərinə xüsusi diqqətlə baxılması tələb olunur ki, həmin qruplaşmalar sırasına bunlar daxildir: *Hezbi-İslami* (Hikmətyar və Xalis), *Hezbi-Vəhdət* (Hezbi-Vəhdəti formalaşdıran iki bölmə və ya doqquz partiyanın hamısı), *Cəmiyyəti-İslami* (*Şurayi-Nəzər* də daxil olmaqla), *Conbeşi-Melli-İslami*, *İttihadi-İslami*, *Hərəkati-İnqilabi-İslami* (başçısı Məhəmməd Nəbi Məhəmməddir) və *Hərəkati-İslami*.

[598] HRW, *The Forgotten War: Human Rights Abuses and Violations of the Laws of War since the Soviet Withdrawal*, 1 February 1991, http://www.hrw.org/reports/1991/afghanistan/; HRW, *By All Parties to the Conflict: Violations of the Laws of War in Afghanistan*, Helsinki Watch/Asia Watch report, March 1988, http://hrw.org/reports/1988/afghan0388.pdf.

[599] Misal üçün bax: HRW, *Blood-Stained Hands: Past Atrocities in Kabul and Afghanistan's Legacy of Impunity*, 7 July 2005, http://www.refworld.org/docid/45c2c89f2.html; Amnesty International, *Afghanistan: Executions, Amputations and Possible Deliberate and Arbitrary Killings*, ASA 11/05/95, April 1995, http://www.refworld.org/docid/48298bca2.html; and Amnesty International, *Afghanistan: The Human Rights Crisis and the Refugees*, ASA 11/002/1995, 1 February 1995, http://www.refworld.org/docid/3ae6a9a613.html.

[600] ISW, *Backgrounder: Afghanistan Threat Assessment: The Taliban and ISIS*, 10 December 2015, http://www.understandingwar.org/sites/default/files/Afghanistan%20Threat%20Assessment_The%20Taliban%20and%20ISIS_3.pdf; Combating Terrorism Center at West Point, *Kunduz Breakthrough Bolsters Mullah Mansoor as Taliban Leader*, 23 October 2015, https://www.ctc.usma.edu/posts/kunduz-breakthrough-bolsters-mullah-mansoor-as-taliban-leader.

[601] Bax: New York Times, *As U.S. Focuses on ISIS and the Taliban, Al Qaeda Re-emerges*, 29 December 2015, http://www.nytimes.com/2015/12/30/us/politics/as-us-focuses-on-isis-and-the-taliban-al-qaeda-re-emerges.html; US Department of Defense, *Enhancing Security and Stability in Afghanistan*, December 2015, http://www.defense.gov/Portals/1/Documents/pubs/1225_Report_Dec_2015_-_Final_20151210.pdf, p. 18; Combating Terrorism Center at West Point, *Assessing Al-Qa`ida Central's Resilience*, 11 September 2015, https://www.ctc.usma.edu/posts/assessing-al-qaida-centralsresilience; American Foreign Policy Council, *World Almanac of Islamism: Al Qaeda*, page accessed on 29 February 2016; last updated 13 October 2014, http://almanac.afpc.org/al-qaeda.

Təyyibənin,[606] Tora-Bora Hərbi Cəbhəsinin (*Tora-Bora Nizami Mahaz*)[607] ayrı-ayrı üzvlərinə və hərbi komandirlərinə, habelə İŞİD-lə əlaqəli olan qrupların[608] üzvlərinə beynəlxalq müdafiəni istisna edən müddəaların tətbiqi məsələsini nəzərdən keçirmək lazımdır.

---

[602] Haqqani Şəbəkəsi xeyli dərəcədə taktiki sərbəstliyə malik olsa da, məlumatlara görə Talibanın siyasi və ideoloji məqsədlərinin çoxunu paylaşır. Bax: UN Security Council, *Security Council resolution 2255 (2015) [on Sanctions Concerning Individuals and Entities and Other Groups and Undertakings Associated with the Taliban and the Threat International Terrorism Poses to Afghanistan]*, 22 December 2015, S/RES/2255 (2015), http://www.refworld.org/docid/568fd2454.html, p. 2; US Congressional Research Service, *Afghanistan: Post-Taliban Governance, Security, and U.S. Policy*, 22 December 2015, RL30588, http://www.refworld.org/docid/56bb16de4.html, pp. 21-22; US Department of State, *Country Reports on Terrorism 2014 – Foreign Terrorist Organizations: Haqqani Network*, 19 June 2015, http://www.refworld.org/docid/5587c72a5f.html; American Foreign Policy Council, *World Almanac of Islamism: Taliban*, page accessed on 29 February 2016; last updated 1 October 2013, http://almanac.afpc.org/taliban.

[603] AAN, *Bomb and Ballot: The Many Strands and Tactics of Hezb-e Islami*, 19 February 2014, https://www.afghanistan-analysts.org/bomband-ballot-the-many-strands-and-tactics-of-hezb-e-islami/; American Foreign Policy Council, *World Almanac of Islamism: Taliban*, page accessed on 29 February 2016; last updated 1 October 2013, http://almanac.afpc.org/taliban; National Consortium for the Study of Terrorism and Responses to Terrorism (START), *Hizb-I Islami Gulbuddin (HIG)*, undated, http://www.start.umd.edu/tops/terrorist_organization_profile.asp?id=4372; International Crisis Group, *The Insurgency in Afghanistan's Heartland*, Asia Report No. 207, 27 June 2011, http://www.crisisgroup.org/en/regions/asia/south-asia/afghanistan/207-the-insurgency-inafghanistans-heartland.aspx.

[604] UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, p. 3, fn. 4; Jamestown Foundation, *Unrest in Northern Afghanistan Heralds Regional Threats*, 7 January 2016, Terrorism Monitor, Volume 14, Issue 1, http://www.refworld.org/docid/569f501c4.html; US Department of State, *Country Reports on Terrorism 2014 - Foreign Terrorist Organizations: Islamic Movement of Uzbekistan*, 19 June 2015, http://www.refworld.org/docid/5587c72815.html; Global Security, *Islamic Movement of Uzbekistan (IMU), Islamic Party of Turkestan*, undated, http://www.globalsecurity.org/military/world/para/imu.htm. Əl-Qaidə ilə əlaqəli olduğu bildirilən Özbəkistan İslam Hərəkatı 2015-ci ilin avqustunda İŞİD-ə sadiqlik andı içdi. Bax: Radio Free Europe, *IMU Declares It Is Now Part of the Islamic State*, 6 August 2015, http://www.rferl.org/content/imu-islamic-state/27174567.html; Combating Terrorism Center at West Point, *The Islamic Movement of Uzbekistan Opens a Door to the Islamic State*, 29 June 2015, https://www.ctc.usma.edu/posts/the-islamic-movementof-uzbekistan-opens-a-door-to-the-islamic-state.

[605] UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, p. 3, fn. 4. İslami Cihad İttifaqı, məlumatlara görə, Özbəkistan İslam Hərəkatından ayrılmış qrupdur və Əl-Qaidə ilə əlaqəlidir. Bax: Global Security, *Islamic Jihad Union*, undated, http://www.globalsecurity.org/military/world/para/iju.htm; Jamestown Foundation, *Unrest in Northern Afghanistan Heralds Regional Threats*, 7 January 2016, Terrorism Monitor, Volume 14, Issue 1, http://www.refworld.org/docid/569f501c4.html; US Department of State, *Country Reports on Terrorism 2014 - Foreign Terrorist Organizations: Islamic Jihad Union*, 19 June 2015, http://www.refworld.org/docid/5587c7283a.html.

[606] UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, p. 3, fn. 4. ABŞ Konqresinin Tədqiqatlar Xidmətinin bildirdiyinə görə, Ləşkəri-Təyyibənin Pakistan qrupunun Əfqanıstanda fəallığı artmaqdadır. US Congressional Research Service, *Afghanistan: Post-Taliban Governance, Security, and U.S. Policy*, 22 December 2015, RL30588, http://www.refworld.org/docid/56bb16de4.html, p. 20. Həmçinin bax: Combating Terrorism Center at West Point, *The Fighters of Lashkar-e-Taiba: Recruitment, Training, Deployment and Death*, April 2013, https://www.ctc.usma.edu/v2/wp-content/uploads/2014/07/Fighters-of-LeT_Final.pdf.

[607] Tora-Bora Hərbi Cəbhəsi (*Tora-Bora Nizami Mahaz*) Hezbi-İslaminin (Xalis) bir qoludur və ABŞ-ın rəhbərlik etdiyi xarici qüvvələrə müqaviməti təşkil etmək üçün əfqan mücahidlərinin lideri Maulvi Yunis Xalisin oğlu Ənvərülhaq Mücahid tərəfindən yaradılıb. Məlumatlara görə bu qrup Talibanla ittifaqa girib. Bax: American Foreign Policy Council, *World Almanac of Islamism: Taliban*, page accessed on 29 February 2016; last updated 1 October 2013, http://almanac.afpc.org/taliban; AREU, *The Devil Is in the Details: Nangarhar's Continued Decline into Insurgency, Violence and Widespread Drug Production*, February 2016, http://www.refworld.org/docid/56c2eaa34.html, p. 4.

[608] UNAMA, *Afghanistan: Annual Report 2015, Protection of Civilians in Armed Conflict*, February 2016, http://www.refworld.org/docid/56c17b714.html, p. 3, fn. 4; Stars and Stripes, *Islamic State Attack Claim Signals Escalation by Group in Afghanistan*, 14 January 2016, http://www.stripes.com/news/islamic-state-attack-claim-signals-escalation-by-group-in-afghanistan-1.388693; ISW, *Backgrounder: ISIS in Afghanistan*, 3 December 2015, http://www.understandingwar.org/sites/default/files/ISIS%20in%20Afghanistan_2.pdf; NPR, *ISIS Gains a Foothold*

*4. Əfqanıstan Təhlükəsizlik Qüvvələrinin, o cümlədən Milli Təhlükəsizlik Müdirliyinin (MTM), Əfqanıstan Milli Polisinin (ƏMP) və Əfqanıstan Yerli Polisinin (ƏYP) üzvləri*

Eləcə də insan hüquqlarının və ya humanitar hüququn ciddi pozuntularında iştirak etdiklərinə dair dəlillər olan ƏMTQ üzvlərinə beynəlxalq müdafiəni istisna edən müddəaların tətbiqi məsələsini nəzərdən keçirmək lazımdır. II.C.1.a bölməsində qeyd edildiyi kimi, ƏMTQ elementləri, məlumatlara görə, qanunsuz qətllər; işgəncə və qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza; seksual zorakılıq, o cümlədən məhbusların zorlanması və uşaqların seksual istismarı da daxil olmaqla insan hüquqlarının ciddi pozuntularını törədiblər.

*5. Hökumətyönlü yarımhərbi qrupların və könüllü qüvvələrin üzvləri*

Həmçinin hökumətyönlü yarımhərbi qrupların və könüllü qüvvələrin üzvlərinin insan hüquqlarının ciddi pozuntuları və (və ya) humanitar hüququn pozuntuları ilə əlaqəsi olduğuna dəlalət edən əlamətlər olduqda, beynəlxalq müdafiəni istisna edən müddəaların onlara da tətbiq edilməsinin mümkünlüyü nəzərdən keçirilməlidir. II.C.1.b bölməsində qeyd edildiyi kimi, yarımhərbi qruplar və könüllü qüvvələr, məlumatlara görə, insan hüquqlarının ciddi pozuntularını törədir, o cümlədən məhkəmədənkənar qətllər, hücumlar həyata keçirir və insanlardan pul qoparırlar.

---

*in Afghanistan*, 16 November 2015, http://www.npr.org/2015/11/16/456174727/isis-gains-a-foothold-in-afghanistan. 2016-cı ilin yanvarında ABŞ Dövlət Departamenti İŞİD-in Əfqanıstan bölməsini terror təşkilatı elan edib. US Department of State, *Foreign Terrorist Organization Designation of ISIL - Khorasan (ISIL-K)*, 14 January 2016, http://www.state.gov/r/pa/prs/ps/2016/01/251237.htm.